AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# KAMRAN ƏLİYEV: TANINMIŞ ƏDƏBİYYATŞÜNAS, UNUDULMAZ İNSAN

*Kitab AMEA-nın müxbir üzvü,
Əməkdar elm xadimi Kamran Əliyevin
anadan olmasının 70 illiyinə həsr olunur.*

BAKI – 2023

**ELMİ REDAKTORU:** **Muxtar KAZIMOĞLU-İMANOV**
AMEA-nın həqiqi üzvü

**TƏRTİBÇİ:** **Fidan QASIMOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Kamran Əliyev: tanınmış ədəbiyyatşünas, unudulmaz insan.** Bakı, Elm və təhsil, 2023, 448 səh.

Kitab tanınmış ədəbiyyatşünas və folklorşünas alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran İmran oğlu Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq, 05 mart 2021-ci il tarixində AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə keçirilən "Kamran Əliyev: tanınmış ədəbiyyatşünas, unudulmaz insan" mövzusunda Respublika Elmi Konfransının materialları və alimlə bağlı xatirələr əsasında hazırlanmışdır.

folklor.az

K 4603000000 Qrifli nəşr
N-098-2023

© Folklor İnstitutu, 2023

# MƏQALƏLƏR

## FOLKLORŞÜNASLIQ AĞIRLIQLI ƏDƏBİYYATŞÜNAS

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın həqiqi üzvü,
Azərbaycan Milli Elmlər Akademiyasının
prezidenti*

Azərbaycan elmi ictimaiyyəti Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyevi görkəmli ədəbiyyatşünas alim və tanınmış yaradıcı ziyalılardan biri kimi dəyərləndirir. Ədəbiyyatşünaslıq elmi də, bədii yaradıcılıq da Kamran Əliyevin təkcə maraq dairəsi və ya fəaliyyət sahəsi deyil, taleyi olub. O, həyatının mənasını elmdə və ədəbiyyatda tapmışdır. Ədəbiyyatşünaslıq sahəsində bir neçə istiqamətdə mühüm elmi problemlərin işlənib hazırlanması və həllində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyevin özünəməxsus böyük xidmətləri vardır.

Tanınmış ədəbiyyatşünas Kamran Əliyev hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas tədqiqatçılarından biridir. Azərbaycan ədəbiyyatşünaslıq elmində romantizm nəzəriyyəsinin banisi və görkəmli yaradıcısı akademik Məmməd Cəfər Cəfərovdan sonra Kamran Əliyev bu nəzəriyyəni ayrı-ayrı istiqamətlərdə inkişaf etdirmişdir. Belə demək olar ki, AMEA-nın müxbir üzvü Kamran Əliyev akademik Məmməd Cəfər Cəfərovun meydana qoyduğu konsepsiyanı yeni elmi-nəzəri müddəalarla daha da zənginləşdirmiş və dərinləşdirmişdir. XX əsrin əvvəlləri Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri ilk dəfə Kamran Əliyev tərəfindən sistemli şəkildə araşdırılıb ümumiləşdirilmişdir. Kamran Əliyev "Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" probleminə həsr edilmiş

namizədlik dissertasiyasında ilk dəfə olaraq XX əsrin əvvəllərində yaşayıb-yaratmış romantik sənətkarların ədəbiyyat haqqındakı baxışlarını geniş və sistemli şəkildə araşdırıb təhlil etmiş və elmi baxımdan obyektiv meyarlar əsasında qiymətləndirmişdir. O, bu elmi tədqiqat əsərində həmçinin Azərbaycan romantizmində sənətkar taleyi və yaradıcılıq azadlığı məsələsini də əsaslı şəkildə tədqiq edib əhəmiyyətli ümumiləşdirmələr aparmışdır.

Romantik yazıçı və şairlərin bənzərsiz sənət dünyasını öyrənməklə Kamran Əliyev elmi fəaliyyətində romantizmə münasibətdə davamlı bir prosesə imza atmışdır. O, XX əsrin əvvəlləri Azərbaycan romantiklərinin bədii əsərlərinin poetikasını tədqiqat obyektinə çevirmiş, bu istiqamətdə vaxtilə akademik Məmməd Cəfər Cəfərov tərəfindən müəyyən edilmiş müddəaları davam və inkişaf etdirmiş, ən əsası isə yeni əlavələrlə daha da zənginləşdirməyə nail ola bilmişdir. Bu məqamda Kamran Əliyev romantik sənətin poetikasını köklü surətdə araşdırmaq və aydınlaşdırmaq üçün Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının təşəkkülü məsələsinə də yenidən qayıtmış və romantik ədəbiyyatın estetik prinsiplərini, sənət ideallarını geniş şərh etmişdir. Məhz həmin bünövrə üzərində onun romantik ədəbiyyatın poetikasını araşdırması mühüm və əsaslı elmi nəticələrin əldə olunmasını şərtləndirir. Buna görə də Kamran Əliyevin romantik ədəbiyyatın aparıcı istiqaməti olan "Azərbaycan romantizminin obrazlar sistemi"ndən bəhs edən doktorluq dissertasiyası ədəbiyyatşünaslıq elmimizdə romantizmə dair tədqiqatların sferasını daha da genişləndirmiş və yeniləşdirmişdir. Romantizmdə "Romantik ədəbiyyat və folklor" məsələsinin qoyuluşu və həlli isə birbaşa Kamran Əliyevin adı ilə bağlı elmi xidmətdir. Azərbaycan romantik ədəbiyyatının korifeyi Hüseyn Cavidin həyatı və yaradıcılığının araşdırılıb öyrənilməsinə yenidən qayıdaraq bu mövzuda ayrıca bir monoqrafiya çap etdirməklə Kamran Əliyev Azərbaycan romantizmi ədəbi cərəyanının tədqiqinin akademik Məmməd Cəfər Cəfərovdan sonrakı ikinci mərhələsini tamamlamışdır. XX əsrin doxsanıncı illərindən başlayaraq XXI əsrin iki onilliyini əhatə edən bu dövr Azərbaycan ro-

mantizminin tədqiqinin Kamran Əliyev mərhələsi adlandırıla bilər.

AMEA-nın müxbir üzvü Kamran Əliyev demək olar ki, tədqiqatdan kənarda qalmış Azərbaycan romantizmi və folklor probleminin elmi həllinin yaradıcısı və sahibidir. Bu, Azərbaycan romantizminin milli əsaslarının müəyyən edilməsi, işlənib hazırlanması və sübut olunması baxımından Kamran Əliyev tərəfindən müəyyən edilmiş yeni elmi istiqamətdir. Kamran Əliyevin müəyyən etdiyi model Azərbaycan ədəbiyyatında mövcud olan digər ədəbi cərəyanların da folklor qaynaqları, bəlkə də folklor dayaqları ilə birlikdə, qarşılıqlı üzvü əlaqədə tədqiq edilərək yeni elmi nəticələr əldə olunmasına imkan yaradır. Ədəbiyyatın tarixi və nəzəriyyəsi baxımından əhəmiyyətli olan bu elmi baxış Azərbaycan folklorşünaslıq elmində də yeni nəzəri istiqamətlərdən biridir. Romantizm və folklor mövzusu həm də Kamran Əliyev üçün yazılı ədəbiyyatın tədqiqindən şifahi xalq ədəbiyyatının araşdırılmasına keçid üçün körpü funksiyasını həyata keçirmişdir.

Azərbaycan ədəbiyyatının XIX-XX əsrlər mərhələlərinin görkəmli yaradıcılarının həyatı və yaradıcılığının tədqiqində Kamran Əliyevin adı ilə bağlı səhifələr kifayət qədərdir. Kitablarından birinin adında ifadə olunduğu kimi "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər"ki tarixi mərhələnin əsas yaradıcı simalarının və ciddi elmi problemlərinin öyrənilməsində Kamran Əliyevin rolu xüsusi olaraq qeyd edilməyə layiqdir. O, XIX-XX əsrlərdə yaşayıb-yaratmış və haqqında özünəqədərki dövrlərdə tədqiqatlar aparılmış, kitablar çap olunmuş sənətkarlar barəsində fərqli elmi söz deməyə çalışmış və əksər hallarda buna nail olmağı bacarmışdır. Bunu Kamran Əliyevin araşdırmalarının adlarından da aydın şəkildə görmək mümkündür. Sərlövhəyə çıxarılmış adlar onun ənənəvi mövzuya novator münasibətini ifadə edir. "Şərqi oyadan zəng səsləri", "Mirzə Cəlil müdrikliyi", "Cəfər Cabbarlının romantik qəhrəmanları", "Mübarizliyin tərcüməsi" və sair kimi araşdırma mövzuları ədəbiyyatşünaslıqda müəyyən qədər diqqət yetirilmiş məsələlərə yeni elmi müna-

sibəti ifadə edir. Belə məqamlarda Kamran Əliyev mövcud tədqiqatlara ehtiramla yanaşmaqla bərabər, həm də mövzuya yenidən qayıtmaqla, problemi özünün elmi təfəkküründən keçirməklə, başlanmış işləri tamamlamış və daha da dərinləşdirmişdir. Daha doğrusu, çox hallarda əvvəllər tezis şəklində səsləndirilmiş mətləblər Kamran Əliyev tərəfindən konkret elmi problem səviyyəsində tədqiq olunaraq, sistemli şəkildə yenidən elmi ictimaiyyətə çatdırılmışdır.

Bununla belə, Azərbaycan ədəbi-elmi fikrinin elə məsələləri də vardır ki, həmin problemlər ilk dəfə, həm də mükəmməl elmi səviyyədə Kamran Əliyev tərəfindən işlənilmişdir. “Mirzə Fətəli Axundzadə və geopolitika”, “Hacı Qara obrazı “Təmsilat”ın bədii sistemində”, “Məhəmməd ağa Şahtaxtlı: bildiklərimiz və bilmədiklərimiz”, “Mirzə Ələkbər Sabirin poetik sistemində bədii sözün təkamülü”, “Hadi kədəri”, “Şaiq inamı”, “Romantik nəsrin hüdudları”, “Abdulla Surun bədii yaradıcılığı”, “Romanın tarix üzərində qələbəsi” və sair kimi tədqiqatlarında o, qaldırılan məsələ ilə əlaqədar ciddi araşdırmalar apararaq ədəbiyyatşünaslıq elminə yeniliklər silsiləsi bəxş etmişdir. Belə məqamlarda AMEA-nın müxbir üzvü Kamran Əliyev sadəcə məqalənin deyil, problemin müəllifi olmaq funksiyasını yerinə yetirir.

Eyni zamanda, Kamran Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin tərcümeyi-halını və əsərlərini onların mənsub olduqları ədəbi cərəyanlarla birlikdə araşdırıb ümumiləşdirməyin fərqli örnəklərini təqdim edir. Mirzə Fətəli Axundzadəni maarifçi realizmlə, Hüseyn Cavidi, Abbas Səhhəti, Məhəmməd Hadini, Abdulla Şaiqi romantizm cərəyanı ilə, Cəlil Məmmədquluzadəni və Mirzə Ələkbər Sabiri “Molla Nəsrəddin” ədəbi məktəbi ilə üzvi əlaqədə və vəhdətdə tədqiq etməklə o, bu qüdrətli sənətkarların formalaşdırdıqları ədəbi epoxa haqqında bütöv bir sistemi meydana qoyur. Həmin istiqamətdəki tədqiqatlarında Kamran Əliyev özünəməxsus ədəbiyyat nəzəriyyəçiliyi baxışları da olan sanballı ədəbiyyat tarixçisi kimi diqqəti cəlb edir. Ədəbiyyat tarixinin dərin qatlarından, seçilmiş detallarından çıxış etməklə və mövzunu ədəbiyyat nəzəriyyəsi ilə əlaqə-

ləndirməklə o, görkəmli yazıçı və şairlərimiz haqqında mühüm elmi əhəmiyyətə malik olan ciddi elmi fikirlər yürüdə bilmişdir. Buna görədir ki, Kamran Əliyevin XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına həsr edilmiş məqalələri portret-oçerklər yox, problem-oçerklərdir. Eyni zamanda, həmin məqalələr ədəbiyyat tarixi üçün olduğu kimi, ədəbiyyat nəzəriyyəsi baxımından da əhəmiyyətlidir.

Azərbaycan ədəbiyyatşünaslıq elmində, folklorşünaslığın xüsusi bir qolu olan folklor və yazılı ədəbiyyat problemi məhz Kamran Əliyevin ardıcıl tədqiqatları sayəsində müstəqil elmi istiqamətə çevrilmişdir. Həmin problemə həsr olunmuş "Azərbaycan romantizminin folklor qaynaqları"ndan başqa, bu mövzuda yazdığı "Hüseyn Cavid və mifoloji obrazlar", "Hüseyn Cavid və xalq dramları", "Məhəmmədhüseyn Şəhriyar və folklor", "Paralel xronologiyalar" kimi araşdırmaları ilə o, folklor və yazılı ədəbiyyat istiqamətinin miqyasını daha da genişləndirmişdir. Həm də Kamran Əliyev çoxillik tədqiqatlardan və müşahidələrdən sonra "folklor və yazılı ədəbiyyat" probleminin elmi-nəzəri modelini də müəyyən etməyə nail olmuşdur: "Şübhəsiz, bu əlaqələrə ("folklor və yazılı ədəbiyyat" probleminə – İ.H.) ilk növbədə geneoloji hadisə kimi baxmaq lazımdır. Yəni hər hansı bir folklor mətni xalq tərəfindən yaradılırsa və xalq həmin mətndə öz təfəkkür tərzini ortaya qoyursa, həmin xalqın sənətkar nümayəndəsinin qələmə aldığı bədii əsərdə də folklor nümunəsində müşahidə olunan müəyyən cizgilər özünü kifayət qədər büruzə verməlidir. Digər tərəfdən, bu əlaqələrə təfəkkür hadisəsi kimi də baxmaq lazımdır…. Həmin təfəkkür eyni bir mənbədən qida alırsa, deməli, onlar arasındakı yaxınlıqlar barədə kifayət qədər və cəsarətlə danışmaq olar".[1]

Uzun illər ərzində ümumi şəkildə yazılı ədəbiyyatın əsas qaynaqlarından biri kimi araşdırılan folklor ənənəsi problemi Kamran Əliyevin özünəməxsus elmi yanaşmaları və ciddi araş-

---

[1] Kamran Əliyev. Çağdaş folklorşünaslığın problemləri. Bakı, "Elm və təhsil", 2017, s.154

dırmaları ilə ədəbiyyatın hər iki qolu arasında qarşılıqlı zənginləşmə mənbəyi miqyasına çatdırılmışdır. Yazılı ədəbiyyatın folklor layını açmaqla o, həmçinin bədii ədəbiyyatdakı millilik amilinin daha dərin qatlarına işıq salmışdır.

Kamran Əliyev son onillikdə daha çox folklorşünas alim kimi ardıcıl olaraq fəaliyyət göstərmişdir. Folklor və yazılı ədəbiyyat sahəsindəki tədqiqatlarından başqa, onun "Kitabi-Dədə Qorqud" dastanlarına həsr olunmuş araşdırmaları indiyədək haqqında bir kitabxana qədər kitab yazılmış Qorqudşünaslıq elmində yeni səhifələr, qiymətli əlavələr kimi dəyərləndirilməyə layiqdir. Kamran Əliyev Azərbaycan Qorqudşünaslığında fərqli elmi-nəzəri baxış meydana qoyan folklorşünas alimdir. Onun "Dədə Qorqud" eposunun strukturu və qəhrəmanlarına həsr edilmiş tədqiqatları tamamilə Qorqudşünaslıq elminin yeni səhifələrindən ibarətdir. Adlarından da göründüyü kimi, "Dədə Qorqud" eposunda rəqəmlərin simvolikası", "Beyrəyin qanlı köynəyi", "Çoban oğlu Təpəgöz", "Dədə Qorqud" gözəlləməsi" də sair kimi məsələlər Azərbaycan Qorqudşünaslıq elminə ilk dəfə Kamran Əliyev tərəfindən gətirilmişdir. Kamran Əliyev Qorqudşünaslığa yeni elmi baxış bucağı gətirmişdir. Buna görədir ki, Kamran Əliyevin Dədə Qorqud tədqiqatları, xüsusən, "Açıq kitab – Dədə Qorqud" monoqrafiyası Azərbaycanda olduğu kimi, Türkiyədə və İranda da elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmış, bu mövzuda yazdığı kitabı həmin ölkələrdə də çap olunmuşdur.

Kamran Əliyevin folklorşünaslıq tədqiqatlarında "Koroğlu" eposunun poetikası məsələsi fərqli elmi yanaşma əsasında araşdırılmışdır. Alimin dastanda dəlilik məsələsinin mahiyyətini aydınlaşdırdıqdan sonra Koroğlunun özünü də "dəlilərin dəlisi" adlandırması məşhur xalq qəhrəmanına fərqli elmi baxışın nəticəsidir. O, Azərbaycan folklorşünaslıq elmində ilk dəfə olaraq "Koroğlu" eposunda dəliqanlılıq, dəli nərə, dəlisovluq, dəli könül anlayışlarını şərh etdikdən sonra bu faktorların həm də baş qəhrəmana daha çox aid olduğu qənaətinə gəlmişdir. Beləliklə, Kamran Əliyev tərəfindən folklorşünaslıqda "Dəli Koroğlu", ya-

xud “dəlilərin dəlisi” konsepsiyası işlənib hazırlanmışdır. Folklorşünas alimin “Koroğlu” eposunda dəli aşıq” araşdırması da “dəlilərin dəlisi” versiyasını tamamlamağa və möhkəmləndirməyə xidmət edir. O, ilk dəfə olaraq “Koroğlu” dastanındakı məkan məsələsini Çənlibel sferasından çıxararaq daha geniş mənalarda bu anlayışın aşağıdakı kimi geniş elmi təsnifatını vermişdir: “Koroğlu” dastanında məkanın xarakteri üç mühüm məqamla təyin olunur: real məkan, ara məkan və ideal məkan. Real məkan paşaların hakim olduğu İstanbul, Ərzincan, Rum, Qars, Toqat və başqalarıdır. İdeal məkan isə heç vaxt dəyişmir. Bu, Çənlibeldir. Real məkanla ideal məkan arasında keçid xarakteri daşıyan bir ara məkan da mövcuddur ki, bu, konfliktin həlli məkanıdır. [2] Bundan başqa, Kamran Əliyev “Koroğlu” dastanında fiziki gücün atributları kimi müəyyən etdiyi “dəryadan sıyrılıb çıxan atlara, ildırım parçasından (oddan) hazırlanmış qılınca və Qoşabulaq suyu ilə cilalanan dəli bir nərəyə sahib olan” Koroğlunun fiziki gücünün semantik mənalarını epos poetikasının strukturu ilə üzvü şəkildə əlaqələndirir.

Beləliklə, mükəmməl ədəbiyyat tarixçisi kimi qəbul olunan Kamran Əliyev həm də professional folklorşünas olmağın da əsl nümunəsini göstərmişdir. Belə məqamlarda ədəbiyyat tarixçiliyi mənbə, yaxud yanaşma metodu olmaqla onun folklorşünaslıq baxışlarını daha köklü surətdə ifadə etməsinə şərait yaratmışdır. Müstəqillik dövrü folklorşünaslıq elminin inkişafında Kamran Əliyevin böyük xidmətləri vardır.

Kamran Əliyevin tədqiqatlarında ustad məsələsinə diqqət xüsusi yer tutur. Onun böyük elm xadimi, AMEA-nın müxbir üzvü Abbas Zamanova ustad kimi münasibəti ədəbiyyatda və elmdə varislik məsələsinə ibrətamiz bir nümunədir. Vaxtilə Cəlil Məmmədquluzadənin “huşyar dostu” Eynəli bəy Sultanovu nəzərdə tutaraq “Sən olmasaydın mən də sadəcə qeyri müəllimlərin içərisində yaddan çıxmışdım” etirafına iqtibas etməklə

---

[2] Kamran Əliyev. Çağdaş folklorşünaslığın problemləri. Bakı, “Elm və təhsil”, 2017, s.126

Kamran Əliyev özünün elmi taleyində professor Abbas Zamanovun müstəsna rolunu xüsusi olaraq diqqətə çatdırmışdır. Bu, həm də zəngin elmi fəaliyyətə, mühüm elmi xidmətlərə malik olan Abbas Zamanovun keşməkeşli taleyinin, elmi fəaliyyətinin də daha dərindən və əsaslı şəkildə tədqiq edilməsi ilə nəticələnmişdir. Kamran Əliyevin "Abbas Zamanov olmasaydı" kitabı haqqında heç də az yazılmamış Abbas Zamanova dair qiymətli elmi əlavələrdən ibarətdir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyev əsərlərinin 10 cildlik külliyyatını çap etdirmişdir. Bu oncildlikdə onun Azərbaycan ədəbiyyatının tədqiqi və ədəbiyyatşünaslıq məsələlərinin araşdırılması istiqaməti bütün reallıqları və imkanları ilə aydın şəkildə görünməkdədir. Çoxcildlik külliyyatdakı əsərlərə istinad edərək demək mümkündür ki, Kamran Əliyev ədəbiyyatşünaslıq elminin bütün əsas sahələri: ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və folklorşünaslıq istiqamətlərinin hər biri üzrə araşdırmalar aparmış, universal ədəbiyyatşünas alimliyin özünəməxsus modelini meydana qoymuşdur. Tanrı ona nəinki elmi əsərlərini, hətta rəyləri, müsahibələri, bədii əsərlərini və publisistikasını da öz sağlığında çap etdirib geniş ictimaiyyətə və oxuculara çatdırmaq imkanı yaratmışdır. Hətta oncildlikdə Kamran Əliyevin praktik fəaliyyətində müşahidə etdiyimiz, lakin heç zaman oxumadığımız onun dilçilik elminə dair araşdırmaları ilə tanış ola bilirik. Bunların arasında Kamran Əliyevin "Azərbaycan dili" adlı 124 səhifədən ibarət olan dərs vəsaiti də vardır. Əgər biz Kamran müəllimin görkəmli ədəbiyyatşünas olduğunu bilməsə idik, "Azərbaycan dili" dərs vəsaitinə görə onu tanınmış dilçi kimi qəbul edə bilərdik. Kitabda Kamran Əliyevin "Fonetika", "Leksika", "Morfologiya", "Sintaksis", "Nitq mədəniyyəti və üslubiyyat" üzrə təqdim etdiyi bölmələr onun dilçilik sahəsindəki səmərəli fəaliyyətindən xəbər verir. Kamran Əliyev həmçinin abituriyentlər üçün yazdığı "Ədəbiyyat" adlı dərs vəsaitini də on cildliyə yerləşdirməklə özünün görkəmli bir ədəbiyyatşünas alim olmaqla bərabər, həm də "mənən, ruhən pedaqoq" olduğunu

nümayiş etdirir. Bu kitabları ayrıca nəşr etməklə Azərbaycan dilini və ədəbiyyatını elmi şəkildə öyrənən yeni nəsillərə kömək etmiş olarıq.

AMEA-nın müxbir üzvü Kamran Əliyev ədəbiyyat tarixçiliyinin əsl mahiyyətinin açılması üçün professional folklorşünas qismində çıxış edən, folklordan yaradıcı istifadənin nümunəsini göstərən fərqli ədəbiyyatşünasdır. Şifahi xalq ədəbiyyatının problemlərini ədəbiyyat tarixçiliyi ilə əlaqəli şəkildə araşdıranda da o, bənzərlikdən qat-qat çox fərqlidir. Kamran Əliyev Azərbaycan ədəbiyyatşünaslıq elmində fərdi elmi siması olan görkəmli ədəbiyyatşünas alim olub. Nəticə olaraq demək olar ki, AMEA-nın müxbir üzvü Kamran Əliyev folklorşünaslıq ağırlıqlı görkəmli ədəbiyyatşünas alim kimi ehtiramla yad edilir.

Azərbaycan ədəbiyyatşünaslıq elminin mənalı səhifələrinə çevrilmiş elmi əsərləri Kamran Əliyevin böyük ömrünün sanballı və mənalı yekunudur. Hesab edirəm ki, ədəbiyyatşünaslıq məsələlərinə Kamran Əliyev səviyyəsində baxış müstəqillik dövründə Azərbaycan ədəbiyyatının və ictimai fikrinin yeni təfəkkür işığında yenidən və əsaslı şəkildə dəyərləndirilərək təqdim olunmasına təminat verir. Bu, Kamran Əliyevin görkəmli bir ədəbiyyatşünas kimi xidməti mənasında tarixin şərəfli arxivinə daxil olmuşdur. Bu, eyni zamanda, Kamran müəllimin ölməz əsərləri ilə elmi həyatını davam etdirməsi deməkdir.

# KAMRAN ƏLİYEVİN YARADICILIQ YOLU

**Muxtar KAZIMOĞLU-İMANOV**
*AMEA-nın həqiqi üzvü,*
*AMEA Folklor İnstitutunun direktoru*

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyev 1953-cü il mart ayının 5-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Diyadin kəndində anadan olub. 1969-cu ildə Şərur rayonundakı Tumaslı kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) filologiya fakültəsinə daxil olub. 1974-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirib. 1974-1976-cı illərdə Şərur rayonunun Xanlıqlar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. 1976-1979-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında əyani təhsil alıb. 1979-1992-ci illərdə həmin institutda kiçik elmi işçi, elmi işçi, aparıcı elmi işçi və baş elmi işçi vəzifələrində çalışıb. 1992-ci ilin oktyabr ayından 1993-cü ilin sentyabr ayınadək Bakı şəhər Nəsimi rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini olub. 1993-cü ildən Bakıdakı Naxçıvan Universitetində müəllim, 1994-2001-ci illərdə həmin universitetdə Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, tədris işləri üzrə prorektor vəzifələrində çalışıb. 2002-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunda aparıcı elmi işçi, 2012-ci ildən isə həmin institutda Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri olub.

1980-ci ildə filologiya elmləri namizədi, 1990-cı ildə isə filologiya elmləri doktoru alimlik dərəcəsi alıb. 40-a yaxın kitabın, o cümlədən 10 monoqrafiyanın, 300-ə yaxın məqalənin müəllifidir. Dissertasiya Şuraları və Elmi Şuraların üzvü olub. Elmi rəhbərliyi ilə 1 nəfər elmlər doktorluğu, 12 nəfər isə fəlsəfə doktorluğu dissertasiyası müdafiə edib. 16 elmlər doktorluğu, 49 fəlsəfə doktorluğu dissertasiyasının rəsmi opponenti olub. 2015-

ci ildə Əməkdar elm xadimi adına layiq görülüb. 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2018-2019-cu illərdə əsərlərinin 10 cildliyi çap olunub. Azərbaycan Milli Ensiklopediyası Redaksiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. 23 dekabr 2020-ci ildə dünyasını dəyişib.

Əsərlərinin 10 cildliyindən də görmək olar ki, Kamran Əliyevin yaradıcılığı çoxşaxəlidir. Bu yaradıcılıq elmi əsərlərlə yanaşı, publisistik və bədii əsərləri də əhatə edir. Kamran Əliyevin 10 cildliyində ədəbiyyatşünaslığa aid müxtəlif istiqamətli əsərlərlə bir sırada onun "Azərbaycan dili" dərsliyinə də rast gəlirik və bu fakt Kamran Əliyevin dilçiliklə bağlı elmi araşdırmalarının miqyası barədə aydın təsəvvür yaradır.

Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və folklorşünaslıq istiqamətlərində ardıcıl fəaliyyət göstərən və dəyərli əsərlər ortaya qoyan Kamran Əliyevin elmi yaradıcılığında romantizmlə bağlı tədqiqatlar xüsusi yer tutur və bu tədqiqatlar onun sonrakı araşdırmaları üçün mühüm təməl rolunu oynayır. Təsadüfi deyil ki, Kamran Əliyevin həm namizədlik, həm də doktorluq dissertasiyaları məhz XX əsrin əvvəlləri Azərbaycan romantiklərinin yaradıcılığına həsr olunub.

"XX əsrin əvvəlləri Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" adlanan namizədlik dissertasiyasında Kamran Əliyevin ən başlıca xidmətlərindən biri Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət və Abdulla Şaiq kimi sənətkarların arxivlərdə yatıb qalan müxtəlif yazılarını üzə çıxarmaq, ədəbiyyat tarixçiliyinin verdiyi imkanlar daxilində XX əsr Azərbaycan romantizmi ilə bağlı nəzəri ümumiləşdirmələr aparmaqdan ibarətdir. Özündən əvvəlki tədqiqatlara, xüsusən də Məmmədcəfər Cəfərovun romantizmə aid tədqiqatlarına əsaslanan Kamran Əliyevin nəzəri ümumiləşdirmələrində diqqət mərkəzində duran məsələlərdən biri Avropa və rus romantizmi ilə müqayisədə XX əsrin əvvəlləri Azərbaycan romantizminin özünəməxsus cəhətlərini müəyyənləşdirməkdir. Özünəməxsus cəhətlərdən birini Kamran Əliyev maarifçilik və tənqidi realizm ədəbi cərəyanları-

na münasibətdə axtarır. Məlumdur ki, Avropa və Rusiyada romantizm maarifçilikdən sonra, realizmdən isə əvvəl yaranan ədəbi cərəyandır. Belə tarixi ardıcıllığı Azərbaycan romantizmi üçün səciyyəvi hesab etməyən Kamran Əliyev yazır: "XX əsr Azərbaycan romantizmini yeni romantizm kimi şərtləndirən və mənalandıran amillərdən biri onun məhz tənqidi realizm ilə yanaşı yaşamasındadır. Bu həm də fransız, alman, ingilis, rus romantizmi ilə müqayisədə XX əsr Azərbaycan romantizminin spesifik xüsusiyyətidir".[3] Realizmlə "yanaşı yaşamaq" romantizmin həmin ədəbi cərəyanla qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi deməkdir. Bu o deməkdir ki, XX əsrin əvvəllərində Azərbaycan romantizmi bir çox estetik prinsipləri Azərbaycan realizmi ilə birlikdə ehtiva edir. Belə ortaq estetik prinsiplərdən biri maarifçiliyə münasibətdə ortaya çıxır. Romantizm və realizm ədəbi cərəyanları Azərbaycanda maarifçilik ictimai-ədəbi hərəkatının inkarı yox, təsdiqi üstündə təşəkkül tapır. Həm Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq kimi romantiklər, həm də Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev kimi realistlər öz əsərlərində maarifçilik ideyalarının bədii ifadəsinə kifayət qədər geniş yer verirlər. Bütün bunları nəzərə almağın nəticəsidir ki, Kamran Əliyev XX əsr Azərbaycan romantizminin estetik mahiyyətini məhz realizmlə qarşılıqla əlaqə və müqayisədə öyrənir. Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərini sistemli şəkildə araşdıran Kamran Əliyev, hər şeydən əvvəl, gerçəkliyə, ictimai məsələlərə münasibəti diqqət mərkəzində saxlayır. Romantizmin ətrafda baş verən real hadisələrin təsvirindən uzaq olması ilə bağlı fikrin yanlışlığını tutarlı faktlarla əsaslandırır. Belə faktları Kamran Əliyev romantiklərin həm bədii əsərlərindən, həm də məqalə və məktublarından götürür: "İçində yaradılan mühitin insan üzərinə hasil etdiyi təsir pək böyükdür. İnsanı dilli ikən dilsiz, fikirli ikən fikirsiz, əxlaqlı ikən əxlaqsız edən yenə mühitdir. Yerin fırlanmasına fikrən kəsbi-qənaət etmiş olan Qalileyləri

---

[3] K.Əliyev. Romantizmin nəzəriyyəsi. – Əsərləri, 10 cilddə, I cild, Bakı, Elm və təhsil, 2018, səh. 22-23

fikrindən döndərməyə cəsarət edən yenə mühitdir".[4] Məhəmməd Hadinin ictimai-siyasi mühit barədə dediklərini Kamran Əliyev, heç şübhəsiz, həm də həmin mühitin sənətkara təsiri mənasında qəbul edir və başqa bir romantikin – Abdulla Şaiqin aşağıdakı fikri ilə öz qənaətini daha da gücləndirir: "Millətlərin ictimai həyatına, əhvali-ruhiyyəsinə təsiri olmuş olan böyük tarixi vaqiələr ədəbiyyatda təsirsiz qalmamışdır".[5] Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə məktubundan götürülmüş aşağıdakı sözlərlə Kamran Əliyev həyat həqiqətini qələmə almağın romantiklər üçün başlıca sənət meyarı olmasını bir daha təsdiq edir: "Bir yarpaq kağızı əlimə aldımmı, dərhal geniş sahələr, parlaq-parlaq ülviyyələr, acı-acı həqiqətlər, xüsusən təsvir və təsəvvürü güc bir çox fikirlər alay-alay gözümdə təcəssüm edir kibi olur".[6] Sənətkar həqiqəti yazmalı, həqiqətdən bəhs etməlidir! Bu fikri Kamran Əliyev romantiklərin məqalə və məktubları ilə yanaşı, onların bədii əsərlərində də axtarır:

Zavallı şairə bax! Uğraşır xəyalilə,
Həqiqəti buraxıb oynayır zilalilə.
Cahan həqiqətə aşiq, bu da xəyalnəvərd.
Zavallı, ah zavallı, nasıl böyük dərd![7]

Məhəmməd Hadinin bu misralarında "həqiqət" və "xəyal" sözləri "doğru" və "yalan" mənasında işlədilir və müəllif sənətkar qarşısında məhz uydurmalardan uzaq olub ictimai hadisələrdən doğru-düzgün bəhs etmək vəzifəsini qoyur. Belə bir estetik meyarın realistlər üçün də səciyyəvi olduğunu nəzərə alan Kamran Əliyev romantizm-realizm müqayisəsində (həyat həqiqətləri kontekstində) digər ortaq cəhətlər üzərində də dayanır. Tənqid və inkar pafosu belə cəhətlərdən biridir. Baş verən ictimai-siyasi hadisələrə tənqidi münasibət realizmdə daha çox bədii gülüşlə müşayiət olunur və tamamilə təbii bir haldır ki, realistlər satirik jurnal olan "Molla Nəsrəddin" ətrafında birləşirlər. Bədii gülüş

---

[4] M.Hadi. Xurafat içində həqiqət. – "Səda", 9, 11, 13 yanvar 1919-cu il
[5] A.Şaiq. Əsərləri, 5 clddə, IV cild. Bakı, Azərnəşr, 1977, səh. 160
[6] Ə.Şərif. Keçmiş günlərdən. Bakı, Azərnəşr, 1977, səh. 58
[7] M.Hadi. Seçilmiş əsərləri. Bakı, ADU nəşriyyatı, 1957, səh. 198

romantik sənət üçün səciyyəvi olmasa da, tənqid və inkar pafosunun romantik sənətə məxsus aparıcı cəhətlərdən olması danılmazdır. Belə bir cəhəti Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət və Abdulla Şaiq kimi sənətkarların ədəbi-nəzəri görüşləri əsasında araşdırmaqla Kamran Əliyev bir tərəfdən Azərbaycan romantizminin ideya-bədii istiqamətlərindən birini diqqətə çatdırmış olursa, digər tərəfdən bədii gülüşün estetik mahiyyəti ilə bağlı bəzi mübahisəli məqamlara aydınlıq gətirilməsinə kömək etmiş olur. Mübahisəli məqamlardan biri inkar pafosunun satira və yumor amilləri ilə məhdudlaşdırılması, bədii gülüşün mütləq mənada tənqid göstəricisi hesab edilməsi ətrafındadır. Romantik poeziyanın başdan-başa kədər (dünya kədəri!) üstündə köklənən nümunələri (məsələn, Məhəmməd Hadinin bir çox şeirləri və "Əlvahi-intibah…" poeması) bədii gülüşə yer vermədən ictimai nöqsanları tənqid etməyin səciyyəvi nümunələridir. Bu nümunələrin "Molla Nəsrəddin"çi şeirlə (məsələn, Mirzə Ələkbər Sabirin satiraları ilə) səsləşən ən başlıca cəhəti onlarda ictimai məzmunun son dərəcə qabarıq əks olunmasıdır. Xalqın taleyi ilə bağlı məsələni əks etdirməyi ədəbiyyatın mühüm vəzifələri sırasında görən romantiklər "şəxsi" maraq naminə yazılmış əsərləri ortaya çıxarmağı ən məşhur sənətkarlara belə bağışlamır, güzəştə getmirlər. Məsələn, Seyid Əzim Şirvani irsindəki bəzi şeirlərə münasibətdə Məhəmməd Hadinin nə qədər sərt mövqe tutmasını hiss etmək çətin deyil. Məhəmməd Hadi yazır: "Gələlim Seyid Əzimin nəşr olunan əsərlərinə… səhnəyi-ədəbiyyata çıxması heç də lazım olmayan həzliyyat və həcviyyatı da… nəşr etdirməklə böyük bir günahi-ədəbi və günahi-ictimai işləmişdir".[8] Göründüyü kimi, Məhəmməd Hadi Seyid Əzim Şirvaninin çap etdirdiyi əsərlər sırasına oğluna həsr olunmuş "həzliyyat", ayrı-ayrı adamlara həsr olunmuş "həcviyyat" şeirlərinin daxil edilməsini çox sərt şəkildə "günahi-ədəbi" və "günahi-ictimai" adlandırır. Romantiklərdən hər birinin – həm Məhəmməd Hadi və Hüseyn Cavidin, həm də Abbas Səhhət və Abdulla Şaiqin Mirzə

[1] M.Hadi. İctimai səhifələr, yaxud müsəlmanların düşünməsi lazım gələn məsələlər. – "İqbal", 21 fevral 1914-cü il

Ələkbər Sabir şeirini yüksək qiymətləndirməsinin də kökündə ictimai məzmuna geniş yer vermək, taleyüklü milli məsələləri ön plana çıxarmaq amili durur. Abdulla Şaiq yazır: "Sabirin dühasında hakim olan ünsür həcvdir. Bunu şair ta "Molla Nəsrəddin" məcmuəsinin nəşrinə qədər özü hiss edə bilməmişdir. Sabir həcvi əski şairlərimizin həcvinə heç də bənzəməz, tamamilə başqa. Həcvə o heç bir zaman şəxsiyyət qarışdırmaz".[9] Aydın məsələdir ki, Abdulla Şaiq "həcv" sözünü satirik şeir mənasında işlədir. Romantiklərin satirik şeir, bütövlükdə tənqid və inkar pafosu haqqında dediklərində diqqəti daha çox cəlb edən məsələ bu sənətkarların ictimai ideallara qırılmaz tellərlə bağlı olmasıdır. Yuxarıda xatırlatdığımız faktlar, Kamran Əliyevin nəzərində, məhz ictimai ideallara bağlılıq baxımından xüsusi maraq doğurur. Kamran Əliyev yazır: "A.Səhhət Sabiri "kar-kor ruhlarda milliyyət hissi… oyandıran bir Qafqaz şairi" kimi təqdim edir, A.Şaiq "şairi-milli" ifadəsini Sabir haqqındakı məqalələrindən birinin sərlövhəsinə çıxarır.

Sənət qarşısında duran ictimailik və millilik kimi mühüm şərtlərin Sabir yaradıcılığında ödənildiyini vaxtında duyan müəlliflər (romantiklər – M.K.) məqalələrində bunları şərh etməklə Sabirşünaslığın özlərindən sonrakı inkişafına böyük təsir göstərmişlər".[10] Həyat həqiqətinə sadiqliyi XX əsr Azərbaycan romantizminin estetikası üçün aparıcı prinsip sayan Kamran Əliyev paralellər aparmaqla romantizmin bir ədəbi cərəyan olaraq realizmdən fərqlənən cəhətlərini üzə çıxarmağa əsaslı zəmin yaradır. Bu iki ədəbi cərəyan arasında ən başlıca fərqi Kamran Əliyev ideallaşdırmanın nə dərəcədə ön plana çıxarılıb-çıxarılmamasında görür. Realistlər realı ön plana çıxardıqları halda, romantiklər idealı ön plana çıxarırlar. Bədii əsərlərində açıq-aşkar müşahidə olunan bu cəhəti romantiklər məktub və məqalələrində də xüsusi olaraq nəzər-diqqətə çatdırırlar. Abdulla Şaiq yazır: "Siz insanı nəzərinizə çarpdığı kimi görmək istəyirsiniz. Mən isə

---

[9] A.Şaiq. Əsərləri, 5 cilddə, IV cild, səh. 142

[10] K.Əliyev. Romantizmin nəzəriyyəsi. – Əsərləri, 10 cilddə, I cild. Bakı, Elm və təhsil, 2018, səh. 67

insanı... arzu etdiyim kimi tərsim etmək istəyirəm. J.Sand bu sözlə həməsri olan Balzakla özü arasındakı fərqi təyin edir və bu söz romantik ədəbiyyat yerinə qaim olan yeni realizm ədəbiyyatını çox aydın təyin edir".[11] Avropa romantizminin realizmdən fərqli mahiyyətini Abdulla Şaiqin Jorj Sand və Balzak yaradıcılığı timsalında açıb göstərməsi Kamran Əliyevə əsas verir ki, XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərini ideallaşdırma məsələsinə münasibət baxımından araşdırmaya cəlb etsin. Araşdırma öz səmərəsini verir və Kamran Əliyev bir daha Abdulla Şaiqin fikirləri üzərində dayanır. Abdulla Şaiq realizmdən, realist sənətkarların yaradıcılığında həyat həqiqətini olduğu kimi əks etdirmək meyarından danışarkən yeri gəldikcə romantizmdən də bəhs edir və Cavid sənəti barədə belə bir fikir irəli sürür: "Cavid hər zaman həqiqəti ideallaşdırmağa təmayül edir".[12] Həqiqəti olduğu kimi əks etdirmək və həqiqəti ideallaşdırmaq prinsipləri arasında müqayisə aparmaq Kamran Əliyevə realist sənətlə romantik sənət arasındakı üslub fərqini görməyə yaxından kömək edir. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərini vahid bir monoqrafiyanın predmetinə çevirmək və bu görüşləri sistemli şəkildə araşdırmaq isə Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Abdullabəy Divanbəyoğlu kimi sənətkarların yaradıcılığını poetika baxımından tədqiqata cəlb etmək üçün əsaslı zəmin yaradır. Kamran Əliyevin doktorluq dissertasiyası məhz həmin zəmin üzərində ortaya çıxır və dissertasiya Məmmədcəfər Cəfərov, Arif Hacıyev kimi ədəbiyyatşünaslar – romantizm sahəsində sanballı əsərləri olan alimlər tərəfindən yüksək qiymətləndirilir.

"XX əsr Azərbaycan romantizminin obrazlar sistemi" adlanan, sonralar seçilmiş əsərlərinin 10 cildliyinə "Romantizmin poetikası" adı ilə daxil edilən doktorluq dissertasiyasında Kamran Əliyev Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq və Abdullabəy Divanbəyoğlu kimi sənətkarların yaradıcılığını dünya romantizminin estetikası zəminində araşdırır. Bununla

---

[11] A.Şaiq. Əsərləri, 5 cilddə, IV cild, səh. 457
[12] A.Şaiq. Əsərləri, 5 cilddə, IV cild, səh. 175

yanaşı, onu da qeyd etmək vacibdir ki, romantizmə dair araşdırmalarda Kamran Əliyevin ən başlıca istinad nöqtəsi bədii mətnin özü olur. Yəni Kamran Əliyev nəzəri fikirlərdən bədii mətnə yox, bədii mətndən nəzəri fikrə doğru irəliləməyi daha məqbul yol hesab edir və romantik sənətlə bağlı tədqiqatını daha çox bu istiqamətdə qurur. Romantik nəsr, şeir və dramaturgiya nümunələrinin mətnində Kamran Əliyev obrazlar sistemini üzə çıxarmağa çalışır. Qeyd olunan sistemin üzə çıxarılmasında romantik qəhrəmanın hərəkəti, zaman və məkan kimi problemlərin, həmçinin təbiət obrazları və mifoloji obrazların, Şərq və Qərb, Yaxın və Uzaq, Həyat və Ölüm kimi poetik qarşıdurmaların ətraflı araşdırmaya cəlb edilməsi mühüm əhəmiyyət daşıyır. Məlum olur ki, romantik sənətdə təsadüfi heç nə yoxdur. Ən kiçik detaldan ən geniş təsvirəcən hər şey poetik sistemə – mərkəzində romantik qəhrəman dayanan poetik sistemə xidmət edir. Otaq, zindan, çəmənlik, bağ-bağça, yol və s. kimi məkan təsvirləri; ay, ulduz, bulud və s. kimi təbiət obrazları; İblis, Mələk və s. kimi mifoloji obrazlar romantik qəhrəmanın hiss-həyəcan və düşüncələrini, onun ziddiyyətli və mürəkkəb daxili aləmini ifadə etməyin vasitəsinə çevrilir. Deməli, romantik nəsr, şeir və dramaturgiya nümunələrini poetik sistem baxımından incələməklə Kamran Əliyev romantik qəhrəmanların (dolayısı ilə romantik sənətkarların) yaşantılarının, onların dilə gətirdikləri mətləblərin incələnməsinə nail olur. Və bu mətləblər elə mətləblərdir ki, bu günün özündə belə bizi dərindən-dərinə düşündürür. Məsələn, Şərq-Qərb, Yaxın-Uzaq problemi. Bu gün bizi heç də az düşündürməyən bu məsələyə XX əsr Azərbaycan romantiklərinin münasibəti heç də birtərəfli və birmənalı deyil. Qərbə əksər hallarda rəğbətlə yanaşan və Uzaqda ümid işığının yandığını dönə-dönə dilə gətirən sənətkarlarımız bəzən ümidsizliyə qapanır və Qərbi şər yuvası kimi ittiham etmək məcburiyyətində qalırlar.

Romantiklərin Qərbə hüsn-rəğbəti, söz yox ki, Şərqi inkar etmək motivləri üstündə köklənir. Kamran Əliyevin sözləri ilə desək, "XX əsr Azərbaycan romantikləri "Ta uzaqda bir təsəlli var" (H.Cavid) mənasında Uzağa can atmaqla Yaxına öz eti-

razlarını bildirirlər".[13] Bu məsələdə (Şərqi, müsəlman aləmini tənqid etməkdə) romantiklər heç də realistlərdən geri qalmırlar. Sabir "Harda müsəlman görürəm qorxuram" deyirsə, Hadi "Ar eyləyirəm söyləməyə kəndimə insan, İnsan sifətində görünür çünki müsəlman" deyir. Sabir "Quş kimi göydə uçar yerdəkilər, Bizi kömdü yerə minbərdəkilər" deyirsə, Hadi "Mülki-islama bax, qaranlıqdır, qərbə bax gör ki, hökmranlıqdır" deyir, "Mən ölmədən əvvəl vətənim oldu məzarım" qənaətinə gəlir. Səadəti Uzaqda axtarıb, cəhalət içində boğulan müsəlman mühitinə etiraz etməyin kəskin nümunələrindən birinə Cavidin "Şeyx Sənan"ında rast gəlirik. Başlıca missiyası İslam dinini təbliğ etməkdən ibarət olan Şeyx Sənan Xumar adlı gürcü qızının eşqi yolunda nəinki öz missiyasını yerinə yetirməkdən boyun qaçırır, həm də bu azmış kimi boynundan xaç asmağa, donuz otarmağa, ən dəhşətlisi isə Quranı yandırmağa razılıq verir. Yeri gəlmişkən qeyd edək ki, Şeyx Sənanın bu qeyri-adi hərəkəti ədəbi mühitdə həmişə mübahisələr doğurub. Sovet dövründə Şeyx Sənan bir obraz kimi ədəbi məhkəməyə çəkilib. Kamran Əliyev bu cür mübahisəli məqamların tədqiq və təhlilini xüsusən vacib sayır. O, Məmmədcəfər Cəfərov, Yaşar Qarayev kimi ədəbiyyatşünasların fikirlərinə söykənib, Şeyx Sənanın normalara sığmayan hərəkətlərini onun ilahi yüksəklikdə dayanmaq idealı ilə əlaqələndirir: "Şeyx Sənanın Zəhraya "sadiq qalmaması"nın səbəbi Zəhranı sevməməkdə deyil. Əsas məsələ ondadır ki, Zəhra Şeyx Sənanı şeyxlər mühitinə bağlayır və ona daha çox yaxınlaşdırır, əksinə, Xumar Sənanı şeyxlər mühitindən ayırır və ondan daha çox uzaqlaşdırır".[14] Deməli, Xumara məhəbbət və bu məhəbbət yolunda Quranın yandırılmasına razılıq vermək kimi ağlasığmaz hərəkət qaragüruhçu şeyxlər mühitinə kəskin etirazın bir formasıdır. Kamran Əliyevin ədəbi mühitdə mübahisə və ittihamlara səbəb

---

[13] K.Əliyev. Romantizmin poetikası. – Əsərləri, 10 cilddə, II cild. Bakı, Elm və təhsil, 2018, səh. 244

[14] K.Əliyev. Romantizmin poetikası, səh. 114

olmuş Şeyx Sənan obrazı ilə bağlı mülahizələri Hüseyn Cavid sənətinin dərinliyinə varmaqda oxucuya yardımçı olur.

Kamran Əliyev romantiklərin Yaxını tənqid edib, Uzağı ideallaşdırması xəttini izləməklə kifayətlənmir. Kamran Əlyev Uzağa bəslənən ümidlərin boşa çıxması və Qərbin tənqid hədəfinə çevrilməsi məqamlarını da ciddi araşdırmaya cəlb edir.

Birinci Dünya müharibəsi Şeyx Sənanın üz döndərdiyi şeyxlər mühitinin yox, Qərbin törətdiyi bir müharibə idi. Qərbin dünyanı odlara yaxdığını, qan içində boğduğunu, bəşər övladının Qərb siyasəti adlı mistik bir şərin əlində əsir-yesir olduğunu görən Hüseyn Cavid dünya ədəbiyyatının ən qəmli pyeslərindən olan "İblis"i yazdı. Və "İblis" də "Şeyx Sənan" kimi qızğın mübahisələrə səbəb oldu, əsərin baş qəhrəmanını (İblisi) başa düşmək xeyli çətinlik törətdi. Bunu nəzərə alan Kamran Əliyev "Şeyx Sənan" kimi "İblis"ə də xüsusi diqqət yetirməli olur və başqa ədəbiyyatşünaslarımızdan fərqli olaraq, romantiklərin ədəbi-nəzəri görüşlərini romantizmə aid əsərlərin doğru-düzgün təhlilində mühüm mənbələrdən biri kimi götürür. "İblis" əsərinin təhlilində Abdulla Şaiqin mülahizələrinə əsaslanan Kamran Əliyev həmin əsərdəki İblis obrazını "insanları vəhşətlərə sürükləyən və... maddi ehtirasata qida verən Qərb siyasətinin simvolu" kimi qiymətləndirir. Hüseyn Cavidin "İblis", həmçinin "Uçurum" pyesləri əsasında Kamran Əliyev romantiklərin Qərbə qarşı hiddətinin kor-koranə bir münasibət yox, dərin götür-qoydan keçən əsaslı bir münasibət olduğunu diqqətə çatdırır.

Kamran Əliyevin romantizmlə bağlı tədqiqatları heç də namizədlik və doktorluq dissertasiyaları ilə məhdudlaşmır. O, filologiya elmləri doktoru alimlik dərəcəsi aldığı 1990-cı ildən sonrakı dövrdə ayrı-ayrı romantiklərin yaradıcılığından bəhs edən müxtəlif məqalələr yazır, XX əsr Azərbaycan romantiklərindən biri olan Hüseyn Cavidə ayrıca monoqrafiya həsr edir. "Hüseyn Cavid" monoqrafiyasında üç əsas istiqamət özünü göstərir: 1.sənətkarın ədəbi-nəzəri görüşləri; 2.sənətkarın bədii əsərlərindəki poetik sistem; 3.sənətkarın şəxsiyyəti. Kamran Əliyev bioqrafik

faktlarla bədii yaradıcılıq faktlarını üzvi şəkildə əlaqələndirərək monoqrafiyada Hüseyn Cavidin özünəməxsus ədəbi portretini yarada bilir. Portretin daha dolğun alınması üçün Kamran Əliyev 1937-ci il repressiyasını, Cavid ömrünün faciəli sonluğunu diqqət mərkəzinə çəkir. Müəllif 1930-cu illər mətbuatında çoxlarının o qədər də fikir vermədiyi ölüm ab-havası ilə bağlı səciyyəvi faktlar üzərinə işıq salır. Kamran Əliyev 1937-ci ilin "Ədəbiyyat qəzeti"ndə A.S.Puşkinin ölümünün 100, C.Cabbarlının ölümünün 2, M.Y.Lermontovun ölümünün 96, A.Bakıxanovun ölümünün 90, A.N.Radişşevin ölümünün 135, V.Mayakovskinin ölümünün 7, E.Zolyanın ölümünün 3 illiklərinin "təntənə" ilə qeyd edilməsini xatırladaraq yazır: "Hətta çox maraqlı və düşündürücüdür ki, M.Ə.Sabirin anadan olmasının 25 illiyi "reklam" edilirdi. Tam aydınlığı ilə görünür ki, bu ildönümlərinin bir çoxu yuvarlaq rəqəm də deyildi… Əslində qəzet adamların ölümə münasibətini adiləşdirirdi və bununla da "ölüm" sözü adamların həyatına və nitqinə daha məhsuldar şəkildə daxil olurdu".[15] 1930-cu illər mətbuatında ardıcıl olaraq ölüm ab-havası yaratmağın ən amansız vasitələrindən biri ayrı-ayrı adamların, xüsusən də sənət adamlarının həyat və fəaliyyəti timsalında "xalq düşməni" obrazının yaradılmasıdır. Hüseyn Cavid belə sənət adamlarından biridir. "Kommunist" qəzetinin 17 mart 1937-ci il nömrəsində Hüseyn Cavid haqqında yazılan bu sözlər böyük sənətkarı "xalq düşməni" kimi qələmə verməkdən başqa bir şey deyil: "Yazıçılar içərisində Azərbaycan həyatı ilə daha az maraqlanan və Azərbaycan əməkçilərinin mübarizəsinə yad olan əsərlər yazmaqdan əl çəkməyən Hüseyn Caviddir. Biz bilirik ki, Hüseyn Cavid burjua romantizminin məktəbində yetişmişdir. Bununla bərabər o, Azərbaycan sovet və partiya təşkilatlarının onun üçün yaratdığı imkanlara və hətta əsərinə verdiyi mükafatlara baxmayaraq, yenə Azərbaycan əməkçilərinin mübarizəsinə dair bir şey yazmamışdır".[16] Əlbəttə, "əməkçilərin mübarizə-

[15] K.Əliyev. Hüseyn Cavid. – Əsərləri, 10 cilddə, III cild. Bakı, Elm və təhsil, səh. 21
[16] K.Əliyev. Hüseyn Cavid, səh. 23

si"nə əsərlər həsr etmək heç də 1937-ci ildə meydana çıxan bir məsələ deyildi. Həmin məsələ, daha dəqiq deyilsə sinfilik məsələsi sovet ideologiyasının təməl prinsiplərindən biri idi və sovet yazıçıları qarşısında qoyulan başlıca vəzifələr sırasına fəhlə və kəndli sinfinin "istismarçı" siniflərə qarşı mübarizəsini əks etdirmək vəzifəsi daxil idi. Sovet dövrünə qədər artıq özünəməxsus yaradıcılıq yolu keçən və "ədəbiyyat bir millətdəki əhvali-ruhiyyənin inikası deməkdir"[17] mövqeyindən çıxış edib sənətdə millilik amilini əsas götürən Hüseyn Cavidin siniflər mübarizəsinə əsərlər həsr etməsi çətin idi. Məmmədcəfər Cəfərovun sözləri ilə desək "ümumi narazı, narahat, əsəbi, üsyankar bir ruh, əhvali-ruhiyyə romantiklərin hamısı üçün səciyyəvi bir hal idi",[18] amma bu heç də romantiklərdən sinfi mübarizə tərəfdarları kimi bəhs etməyə əsas vermir. XX əsr Azərbaycan romantizminin üsyankar məzmunundan yeri düşdükcə ətraflı danışan Kamran Əliyev bu ədəbi cərəyanın sinfilik məsələsinə münasibəti barədə belə qənaətə gəlir: "Əlbəttə, M.Hadi, H.Cavid, A.Səhhət və A.Şaiqin romantik əsərlərinin məzmununda sinfi mübarizənin inikası məsələlərini axtarmaq yersizdir".[19] Azərbaycan romantizmi haqqındakı ilk monoqrafiyasında gəldiyi bu qənaəti Kamran Əliyev romantizmlə bağlı sonrakı monoqrafiyalarında davam və inkişaf etdirir. Özünü və ətraf aləmi dərk etməyə can atan, narahat təbiətli, üsyankar ruhlu şəxsiyyət romantiklərin baş qəhrəmanı və başlıca inikas obyektidir. Bu fikir digər romantiklərlə yanaşı Hüseyn Cavid yaradıcılığının da araşdırılmasında əsas ideyaya, aparıcı xəttə çevrilir. "Cavid dramaturgiyasının səciyyəvi xüsusiyyətləri hansılardır?" sualına cavab verərkən Karman Əliyev deyir: "Birinci, Hüseyn Cavid dramaturgiyası şəxsiyyət faktoru ilə bağlıdır… Əsərin adını baş qəhrəmanın adı ilə adlandırması, baş qəhrəmanla əsərin adı arasında bərabərlik işarəsi qoyması Cavid dramaturgiyasında əvvəlcədən

---

[17] K.Əliyev. Hüseyn Cavid, səh. 25

[18] M.Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1963, səh. 85

[19] K.Əliyev. Romantizmin nəzəriyyəsi, səh. 58

düşünülmüşdür və sistemli xarakter daşıyır: "Maral", "Şeyx Sənan", "Şeyda", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş"[20]. Kamran Əliyev öz fikrini davam etdirib məkan və zaman genişliyini Cavid dramaturgiyasının səciyyəvi xüsusiyyətləri sırasında xatırladarkən yenə də şəxsiyyət faktorundan çıxış edir. Məsələ burasındadır ki, Cavid dramaturgiyasında məkanın Qafqaz, Türküstan, Yaxın və Orta Şərq, Avropa kimi ucsuz-bucaqsız əraziləri əhatə etməsi, zamanın isə Səlcuqlar dövründən XX əsrin əvvəllərinə qədərki bir miqyası ehtiva etməsi müəllifin qələmə aldığı qəhrəmanların yerə-göyə sığmamaq təbiətindən irəli gəlir. Peyğəmbər, Əmir Teymur, Knyaz, Səyavuş, Xəyyam kimi obrazları məhz qanlı-qadalı sovet dövründə yaratdığını, bununla sovet ideologiyasından uzaq bir mövqedə dayandığını düşündükcə Cavidin nə qədər böyük bir şəxsiyyət, əyilməz bir sənətkar olmasının fərqinə varmalı olursan. Bu cəhətə xüsusi fikir verdiyinə görədir ki, Kamran Əliyev "Hüseyn Cavid" monoqrafiyasında bədii yaradıcılıq və yazıçı şəxsiyyəti probleminin uğurlu elmi həllinə nail ola bilir.

Şəxsiyyət məsələsi "Hüseyn Cavid" monoqrafiyası ilə yanaşı, Kamran Əliyevin neçə-neçə digər elmi əsərində də toxunulan başlıca məsələlər sırasındadır. Təsadüfi deyil ki, Kamran Əliyev "şəxsiyyət" sözünü bir çox məqalələrinin başlığına çıxarır: "Sənətkarın şəxsiyyəti" (Üzeyir Hacıbəyov haqqında), "Şəxsiyyət və ideal vəhdətinin yeni mahiyyəti" (çağdaş nəsrin qəhrəmanları haqqında), "Şəxsiyyət və yaradıcılıq" (XX əsr Azərbaycan yazıçıları haqqında), "Ədəbi şəxsiyyət statusu" (Abdulla Sur haqqında), "Passionar şəxsiyyət" (İsa Həbibbəyli haqqında). Kamran Əliyev bir çox hallarda "şəxsiyyət" sözünü elmi əsərin başlığına çıxarmasa da, əsərlə tanışlıq göstərir ki, müəllif orada da şəxsiyyət məsələsini diqqət mərkəzində saxlayır. Abbas Zamanov haqqında monoqrafiya belə əsərlərdəndir. "Sözə sahiblik zirvəsi", "Məfkurəvi ucalıq", "Sabirşünas alim", "XX əsr ədəbiyyatının klassikləri", "Sabir gülür", "Əməl dostluğu", "Müasirləri Abbas Zamanov haqqında" kimi bölmələrdən ibarət olan

---

[20] K.Əliyev. Romantizmin nəzəriyyəsi, səh. 178

“Abbas Zamanov olmasaydı” monoqrafiyasında vətəndaş alim şəxsiyyəti müəllifin xüsusi diqqət yetirdiyi bir məsələdir. Ümumi şəkildə xatırlatdığımız bu faktlar göstərir ki, istər ayrı-ayrı yazıçılardan, istərsə də ədəbiyyatşünas və tənqidçilərdən danışarkən şəxsiyyət amili Kamran Əliyev üçün başlıca meyarlardan biridir.

Ədəbiyyat tarixini ayrı-ayrı şəxsiyyətlər timsalında araşdıran Kamran Əliyevin ən çox müraciət etdiyi dövr XIX-XX əsrlərdir. XX əsrin əvvəlləri Azərbaycan romantizmi ilə bağlı tədqiqatlarında yeri gəldikcə romantizm və realizm əlaqələrinə toxunması Kamran Əliyevi Azərbaycan realizminin Mirzə Fətəli Axundov mərhələsi haqda söz deməyə sövq edir. Nəticədə Kamran Əliyev Mirzə Fətəli Axundovun bədii yaradıcılığına və ictimai-siyasi fəaliyyətinə bir neçə məqalə həsr edir. XIX əsrin sonu, XX əsrin əvvəllərində Mirzə Fətəli realizmini yeni inkişaf səviyyəsinə qaldıran Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirdən isə Kamran Əliyev romantiklərdən bəhs etdiyi bir şəkildə – poetik sistem kontekstində söhbət açır.

XX əsr ədəbiyyatı ilə bağlı məqalələrində Kamran Əliyev istiqlal məfkurəsini və bu məfkurənin tarixi təzahürü kimi meydana çıxan Azərbaycan Cümhuriyyətini xüsusi olaraq diqqət mərkəzində saxlayır. Cümhuriyyət dövründəki şeirin, nəsrin, dramaturgiya və publisistikanın məhz istiqlal məfkurəsi üstündə köklənməsinə xüsusi diqqət yetirən Kamran Əliyev öz dəst-xəttinə sadiq qalaraq ictimai-siyasi motivlərin ifadəsini realist və romantik bədii sistem kontekstində təhlilə cəlb edir. Bu cür təhlili “Anamın kitabı” və “İblis” kimi əsərlərə münasibətdə daha qabarıq görmək olur. Cümhuriyyət dövründə yazılmış həmin əsərlərdə Kamran Əliyev cəmiyyətdəki mənəvi böhranın bədii ifadəsini müşahidə edir. Amma bu müşahidə mənəvi böhranın özünəməxsus poetik sistem daxilində əks etdirilməsi amilinə əsaslanır: “Ədib (Cəlil Məmmədquluzadə – M.K.) müstəqil Azərbaycan hökumətinin yarana bilməyəcəyi təhlükəsini açıq görürdü. Onun “Anamın kitabı”nda yaratdığı üç qardaşın obrazı bunu dəqiq şəkildə ifadə edir. Peterburqda oxumuş Rüstəm bəy, Nəcəfdə təhsil

almış Mirzə Məmmədəli və İstanbulda elmi biliklərə yiyələnmiş Səməd Vahid ayrı-ayrı, hətta bəzən bir-birinə tam zidd olan arzularla yaşayırlar. Bu cür ayrıseçkilik isə, təbii ki, cəmiyyətə çox ziyan idi”.[21] Qardaşlar arasında ayrıseçkiliyin ən acı nəticəsi, əlbəttə, mənəvi bütövlüyün pozulması və istiqlaliyyətə qovuşmağın mümkün olmaması idi. Mənəvi böhrandan çıxıb cəmiyyəti irəli apara bilməməyin səbəbi üzərində düşünərkən Hüseyn Cavid “İblis” faciəsində məsələyə romantik baxış bucağından yanaşır və mistik-mifoloji obraz üzərində dayanır. Kamran Əliyev “İblis” faciəsindəki bu cür romantik yanaşmanı xüsusi qeyd edərək yazır: “Şübhəsiz, belə bir fakta təsadüf kimi baxmaq olmaz ki, İblis obrazı məhz Demokratik Respublika dövründə Cavid yaradıcılığına daxil olur. Böyük romantik ədib müstəqil dövlət quruculuğuna İblisin hər hansı yolla mane olacağını hiss edirdi. Pyesdə İblis nəyin bahasına olursa-olsun Arifi öz tərəfinə çəkmək niyyəti ilə fəaliyyət göstərir”.[22] Göründüyü kimi, eyni və yaxud oxşar ictimai-siyasi hadisələrə münasibətdə Cəlil Məmmədquluzadə və Hüseyn Cavidin fərqli mövqe tutması, Kamran Əliyevin nəzərində, həmin sənətkarlara məxsus poetik sistemlərin fərqli səciyyə daşımasından irəli gəlir.

Poetik sistemlər arasındakı qarşılıqlı əlaqələrin tapılması Cümhuriyyətdən sonrakı dövr ədəbiyyatının öyrənilməsində də Kamran Əliyev üçün vacib estetik meyarlar sırasına daxildir. Məsələyə bu baxımdan yanaşdıqda Kamran Əliyevin Cəfər Cabbarlı və Səməd Vurğuna həsr etdiyi məqalələri xatırlatmaq lazım gəlir. Həmin məqalələrində Kamran Əliyev, hər şeydən əvvəl, romantik üslub məsələsini ön plana çıxarır və üslub amili əsasında Cəfər Cabbarlı və Səməd Vurğunu XX əsrin əvvəlləri Azərbaycan romantizminə, xüsusən də bu romantizmin görkəmli nümayəndələrindən biri olan Hüseyn Cavid sənətinə bağlayan bəzi məqamlar üzərində dayanır. Belə məqamlardan ən başlıcası qeyri-adiliyi ilə seçilən qəhrəmanlara müraciət edilməsidir. Cəfər Cabbarlının Aydın, Oqtay Eloğlu və Elxan kimi qəhrəmanların-

[21] K.Əliyev. Əsərləri, 10 cilddə, IV cild. Bakı, Elm və təhsil, 2018, səh.166-167
[22] K.Əliyev. Əsərləri, 10 cilddə, IV cild. Bakı, Elm və təhsil, 2018, səh.167

da Kamran Əliyev Hüseyn Cavid qəhrəmanları ilə səsləşən cəhətlər görür: "Vaxtilə H.Cavidin "İblis" faciəsində İblis belə deyirdi: "Dünyada əgər varsa rəqibim o da Allah!.." Beləliklə, İblis Allahı özünə rəqib hesab edirdisə, Elxan "Mənəm Allah" söyləyir… Elxan romantizm üçün əsas olan sonadək öz mübarizəsindən dönməmək idealına yiyələnir… Elxanı heç bir qüvvə, heç bir nəsihət, heç bir yalvarış yolundan döndərə bilmir".[23] Əlbəttə, Kamran Əliyev "cümlə xəyanətlərə bais" olan İblislə azadlıq uğrunda dönmədən mübarizə aparan və bu yolda ölümdən belə çəkinməyən Elxanı heç də eyni ideyaların daşıyıcısı hesab etmir. İblis və Elxan obrazlarının müqayisəsində Kamran Əliyevin diqqət yetirdiyi əsas məsələ həmin obrazların daim hərəkətdə olması və atdığı addımlarda böyük qətiyyət nümayiş etdirməsidir. Bu cür qəhrəmanlara müraciət etmək sənətkarın poetik üslubu ilə qırılmaz vəhdət yaradır. Üslub qəhrəmanı, qəhrəman isə üslubu tamamlamış olur. Hüseyn Cavid dramaturgiyasında müşahidə etdiyimiz qəhrəman və romantik üslub vəhdətini sonralar Cəfər Cabbarlı və Səməd Vurğunun dramlarında müşahidə edirik. Təsadüfi deyil ki, Kamran Əliyev Səməd Vurğun haqqındakı oçerkini Cavid, Cabbarlı və Vurğun dramaturgiyası arasında müəyyən paralellər aparmaqla başlayır: "Təəssüf ki, H.Cavid və C.Cabbarlının adı ilə bağlı olan Azərbaycan teatr salnaməsi çox uzun sürmədi. C.Cabbarlı 1934-cü ildə gənc yaşlarında qəflətən vəfat etdi, H.Cavid isə 1937-ci ildə həbs edilərək sürgünə göndərildi. Məhz bu zaman… Səməd Vurğun dramaturgiya yaradıcılığına başladı və 1937-ci ildə "Vaqif" dramını yazdı. Əsər bir il sonra – 1938-ci ildə teatrda tamaşaya qoyuldu. S.Vurğun "Vaqif" dramı ilə müəyyən mənada H.Cavid yaradıcılığı ənənələrini davam etdirdi".[24] H.Cavid ənənələrinin "Vaqif" dramında davam etdirilməsini Kamran Əliyev bir tərəfdən Vaqif, Vidadi, Eldar, Qacar kimi "əzəmətli" obrazların yaradılmasında, digər tərəfdən də həmin obrazlara uyğun poetik ifadə formasının seçilməsində görür.

---

[23] K.Əliyev. Əsərləri, 10 cilddə, IV cild, səh. 190
[24] K.Əliyev. Əsərləri, 10 cilddə, IV cild, səh. 207-208

Çağdaş Azərbaycan ədəbiyyatının Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov, Nəbi Xəzri, İsmayıl Şıxlı, Sabir Əhmədov, Fərman Kərimzadə, Anar, Sabir Rüstəmxanlı və b. nümayəndələrinə məqalələr həsr edən Kamran Əliyev imkan daxilində bugünkü ədəbi prosesi də bir tənqidçi səriştəsi ilə izləyir. Musa Ələkbərli, Adil Cəmil, Rəşad Məcid, Rüstəm Behrudi, Sona Vəliyeva, Əlabbas kimi qələm sahiblərinin yaradıcılığı ilə bağlı məqalələrində Kamran Əliyev müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ideya-bədii istiqamətlərini doğru-düzgün müəyyənləşdirən tənqidçi – ədəbiyyatşünas kimi çıxış edir.

Ədəbiyyatşünaslığımızın və ədəbi tənqidimizin keçib gəldiyi yola nəzər salmaq, bu yolda qarşıya çıxan çətinlikləri və qazanılan uğurları diqqət mərkəzinə çəkmək Kamran Əliyevin elmi yaradıcılığında əsas xətlərdən biridir. Mirzə Fətəli Axundovdan çağdaş yazıçılarımıza qədərki bir dövrdə bədii ədəbiyyatımızın hansı inkişaf mərhələlərindən keçdiyini irili-xırdalı bir çox elmi əsərlərin mövzusuna çevirən Kamran Əliyev bir neçə monoqrafiyasında və bir sıra məqalələrində ədəbiyyatşünaslıq və ədəbi tənqidimizin Firidun bəy Köçərlidən başlayıb gələn tarixini, inkişaf meyillərini və problemlərini başlıca araşdırma predmeti kimi götürür. Müxtəlif illərdə Kamran Əliyevin qələmindən çıxan "Mustafa Quliyevin ədəbi-tənqidi görüşləri", "Abbas Zamanov olmasaydı" kimi monoqrafiyalar, "Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi", "Seyid Hüseyn – görkəmli tənqidçi və yazıçı", "Əli Nazimin tənqidçilik sənəti", "Feyzulla Qasımzadənin Azərbaycan ədəbiyyatşünaslığının inkişafındakı rolu", "Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi", "Mir Cəlal Paşayev – tənqidçi və nəzəriyyəçi alim", "Ədəbi-elmi düşüncənin İsa Həbibbəyli modeli" kimi məqalələr ədəbiyyatşünaslıq və ədəbi tənqidimizin real elmi mənzərəsini ayrı-ayrı ədəbiyyatşünasların yaradıcılığı timsalında əks etdirən monoqrafiya və məqalələrdir.

Bədii əsərlərin təhlilində poetika məsələlərini ön plana çıxaran Kamran Əliyev ədəbiyyatşünaslıq və ədəbi tənqiddən bəhs edəndə də bir çox hallarda bu dəst-xəttə sadiq qalır. "Ədəbi tən-

qiddə bədiilik", "Firidun bəy Köçərli tənqidinin sənətkarlıq məsələləri" kimi məqalələr yazması, "Tənqidin poetikası" adlı ayrıca kitab çap etdirməsi tənqid və ədəbiyyatşünaslıq nümunələrində ifadə tərzinin Kamran Əliyevi nə qədər düşündürdüyünü göstərən səciyyəvi faktlardır. Xatırlatdığımız kitabda Kamran Əliyev yerinə düşən, məzmunla qırılmaz əlaqədə olan və məzmunun açılmasında mühüm rol oynayan bədiiliyi ədəbi tənqid üçün bir məziyyət sayır. Kamran Əliyev "tənqiddə bədiilik" dedikdə heç də yalnız yeri gəldikcə tənqidçinin məcazi mənalı söz, ifadə və cümlələr işlətməsini, fikri obrazlı şəkildə bildirməsini nəzərdə tutmur. Kamran Əliyev "tənqiddə bədiilik" adı altında həm də bədii əsərlərdən gəlmə paralelizm, dialoq, haşiyə və s. kimi elementlərdən istifadə imkanlarını nəzərdə tutur.

Ədəbiyyatşünaslıq və ədəbi tənqid nümunələrində bədiiliyi tədqiq və təqdir edən Kamran Əliyev elmi əsərlərində bədiilik imkanlarından yeri gəldikcə özü də yararlanır. Məqalə və monoqrafiyalarında Kamran Əliyev fikri necə gəldi, o şəkildə ifadə etmək yolu tutmur və müəyyən qədər bədii yaradıcılıqdan gələn forma axtarışlarına xüsusi önəm verir. Yeri gəlmişkən xatırladaq ki, Kamran Əliyev elmi yaradıcılıqla paralel ara-sıra publisistika və bədii yaradıcılıqla da məşğul olub. Onun "Sədərək döyüşləri" adlı publisistik əsəri, bir sıra şeirləri, "Yarımçıq notlar" adlı lirik poeması, hekayələri, "Yalquzaq", "Qara köpək", "Zəli", "Vağzal" adlı povestləri və ömrünün son vaxtları yazıb çap etdirdiyi "Qırmızı xətt" adlı romanı vardır. Həmin əsərlər ədəbiyyatşünas Kamran Əliyevi daha yaxından tanımağa kömək edir, onda elmi təfəkkürlə bədii təxəyyülün vəhdət yaratmasından xəbər verir. Belə bir vəhdəti Kamran Əliyevin bir çox elmi əsərlərindəki bədiilik elementlərindən də görmək olur. Məsələn, Üzeyir Hacıbəyovun ömür və yaradıcılıq yolu barədə danışmaq istərkən Kamran Əliyev gözlənilmədən dahi bəstəkarın əsərlərini yox, onun fotoşəkillərini təhlil predmetinə çevirir. Üzeyir Hacıbəyovun uşaqlıq, gənclik və qismən ahıl çağlarına və bu çağların səciyyəvi cəhətlərinə Kamran Əliyev məhz şəkillərin dili ilə nəzər salır: "Şəkildəki seminaristlərin heç birində müşahidə edil-

məyən amiranəlik onu yoldaşlarından fərqləndirir. Şübhəsiz, belə bir görkəm Üzeyirin eqoizminin deyil, özünə güvənməyinin ciddi əlamətidir... 1904-cü ildə çəkilmiş başqa bir şəkil isə göstərir ki, Ü.Hacıbəyov Qori seminariyasında xüsusi hörmət qazanmışdır. Belə ki, seminariyanın ilk illərində çəkilmiş şəkildən fərqli olaraq, Üzeyir artıq burada ilk sırada soldan birincidir. Bəlkə, belə demək daha ciddi aydınlıq yarada bilər ki, tələbəlik illərində Ü.Hacıbəyovun şəkil çəkdirərkən "inkişafı" ikinci sırada sağdan birinci durmaqdan ilk sırada soldan birinci dayanmağa doğru "hərəkət"lə təyin edilir".[25] Məqalədə "yoldaşlar və dostlarla çəkilən şəkillər" mövzusunu axıracan izləyən Kamran Əliyev tədricən "Ü.Hacıbəyovla çəkilən şəkillər" mövzusuna keçir və H.Sarabski, H.Terequlov, M.Maqomayev, həmçinin Q.Qarayev, S.Rüstəmov, Niyazi kimi sənətkarların Ü.Hacıbəyovla çəkdirdiyi fotolar əsasında dahi bəstəkarın müasirləri arasında böyük nüfuz sahibi olmasından, istedadlı varislər yetişdirib özündən sonra bir məktəb yaratmasından bəhs edir. Yaxud tək çəkilmiş şəkilləri izləmək Kamran Əliyevə imkan verir ki, əli siqaretli, dalğın baxışlı insanın zahiri görkəmi əsasında zamanın ağır sınaqlarından keçmiş bir mütəfəkkirin portret cizgiləri barədə söhbəti ümumiləşdirə və tamamlaya bilsin.

Hər hansı sənətkarın yaradıcılığı ilə bağlı problemləri araşdırma mövzusuna çevirərkən gözlənilməz baxış nöqtələri tapmaq! Məqalə və monoqrafiyalarda Kamran Əliyevin xüsusi maraq göstərdiyi bu cəhət bir çox hallarda özünü lap əvvəldən – yazıların sərlövhəsindən büruzə verməyə başlayır: "Qafqaz davası", "Parisin süqutu", "İstiqbal savaşı". Bu başlıqları görən oxucu müəllifin tarixi hadisələr fonunda publisistik əsər ortaya qoyacağını zənn edir. Amma həmin başlıqlı yazılarla tanışlıqdan sonra oxucuya bəlli olur ki, müəllif əslində tarixi-ədəbi faktlar (məsələn, ədəbiyyatımızda Qafqaz mövzusu, Qərb və Şərq problemi, istiqbal məsələsinə münasibət) fonunda müxtə-

[25] K.Əliyev. Unudulmaz anların hekayəti. – Əsərləri, 10 cilddə, IV cild. Bakı, Elm və təhsil, 2018, səh. 108

lif dünyagörüşlü və müxtəlif üslublu sənətkarlar arasında müqayisələr aparır və özünəməxsus qənaətlərə gəlir.

Kamran Əliyevin elmi yaradıcılığında əsas istiqamətlərdən biri də folklorşünaslıq istiqamətidir. Təsadüfi deyil ki, onun "Poetika" adlanan, daha doğrusu, adında "poetika" termini işlənən kitablarından biri məhz folklora həsr olunub: "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu". Bu kitaba qədər Kamran Əliyevin folklora dair tədqiqatları, əsasən, folklor və yazılı ədəbiyyat məsələlərini əhatə edib. "Romantizm və folklor" adlı ayrıca kitab çap etdirən Kamran Əliyev yazılı ədəbiyyat nümunələrinin xalq ədəbiyyatından gələn motivlərini, romantik qəhrəmanın nağıl və dastan qəhrəmanları ilə səsləşən cəhətlərini xüsusi araşdırma predmetinə çevirib. Bu araşdırması ilə Kamran Əliyev Azərbaycan romantizmşünaslığında fərqli bir istiqamətin başlanğıcını qoyub. Bildiyimiz kimi, XX əsrin əvvəlləri Azərbaycan romantizmindən bəhs edən ədəbiyyatşünaslar bu romantizmin formalaşmasında Avropa, rus və türk romantizminin müsbət rol oynamasına diqqəti daha çox yönəldiblər. Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət və Abdulla Şaiq yaradıcılığında Azərbaycan ədəbiyyatının bilavasitə özündən gələn xətləri müəyyənləşdirərkən ədəbiyyatşünaslar daha çox Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqa sənətkarların adı ilə bağlı olan orta əsrlər poeziyası üzərində dayanıblar, klassik Azərbaycan ədəbiyyatı XX əsrin əvvəlləri Azərbaycan romantizminin qaynaqlarından biri olaraq nişan verilib. Artıq qeyd etdiyimiz kimi, Kamran Əliyev özü də istər Avropa, rus və türk romantizmini, istərsə də orta əsrlər Azərbaycan poeziyasını XX əsrin əvvəlləri Azərbaycan romantizminin ədəbi mənbələri sırasında götürüb və həmin mənbələrin Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət və Abdulla Şaiq yaradıcılığına təsir məqamlarına yeri gəldikcə toxunmağı vacib sayıb. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, Kamran Əliyev ilk dəfə olaraq romantizm-folklor əlaqələrini sistemli araşdırma predmeti kimi elmi dövriyyəyə daxil edib. Kamran Əliyev yazır: "XX əsr Azərbay-

can romantizminin folklor qaynaqları bu romantizmin milli keyfiyyətini… təyin edən əsas fakt və amildir. Biz bu məsələni ona görə xüsusi şəkildə qabardırıq ki, uzun müddət Azərbaycan romantiklərini milli kökdən, milli həyatdan məhrum olmaqda ittiham etmişlər”.[26] “Romantizm və folklor” monoqrafiyasında Kamran Əliyev Azərbaycan şifahi xalq ədəbiyyatına, xüsusən bu ədəbiyyatın epik qoluna aid meyarların XX əsrin əvvəlləri Azərbaycan romantizminin poetik sisteminə əsaslı təsir etməsini, romantik qəhrəmanların qələmə alınmasında nağıl və dastan qəhrəmanlarının mühüm rol oynamasını tutarlı faktlarla üzə çıxarıb. Kamran Əliyevin fikrincə, qəhrəmanların qeyri-adi cəhətlərə sahib olması, yorulmaq bilmədən öz məqsədlərinə doğru hərəkət etməsi, dinamik məkan dəyişmələri ilə üzləşməsi və maneələri dəf etməkdən çəkinməməsi və s. həm folklorda, həm də romantizmdə özünü göstərən aparıcı xətlərdir. Folklordan gələn xətlərin romantizmdə daha qabarıq ifadə olunmasında, heç şübhəsiz, mifoloji obrazların xüsusi yeri və rolu vardır. Kamran Əliyev bu barədə yazır: “Mələk, İblis və Dərviş kimi mifoloji obrazlar romantizmə gələrək romantik bədii fikrə yeni-yeni çalarlar gətirmiş, onun obrazlar sisteminin rəngarəngliyinə şərait yaratmış, romantizm ədəbi cərəyanını realizm ədəbi cərəyanından, romantik sənətkarların yaradıcılıq irsini realist sənətkarların yaradıcılıq irsindən fərqləndirən poetika əlamətləri kimi özünü göstərmişdir”.[27] Kamran Əliyevin bu sahədəki araşdırmalarından belə bir qənaətə gəlmək olur ki, folklor motiv və obrazları realist sənətkara Realı, romantik sənətkara isə İdealı daha qabarıq şəkildə əks etdirməkdə yardımçı olur.

“Romantizm və folklor” monoqrafiyasından fərqli olaraq, “Eposun poetikası…” kitabında Kamran Əliyev yazılı ədəbiyyat və şifahi ədəbiyyat əlaqələrindən yox, bilavasitə folklordan, folklorun aktual problemlərindən bəhs edir. Öz araşdırma üsuluna (faktik materialdan nəzəri ümumiləşdirmələrə getmək üsu-

---

[26] K.Əliyev. Romantizm və folklor. Əsərləri, 10 cilddə, VI cild. Bakı, Elm və təhsil, 2019, səh. 159-160

[27] K.Əliyev. Romantizm və folklor, səh. 160

luna) bu monoqrafiyada da sadiq qalan Kamran Əliyev özünəməxsus "etnopoetika" terminini təklif edir, "Dədə Qorqud" boyları və "Koroğlu" qollarını "etnos və epos" müstəvisində təhlil süzgəcindən keçirib, folklorşünaslar üçün maraqlı olan, yeni araşdırmalara rəvac verən fikirlər irəli sürür.

"Eposun poetikası…" kitabı iki hissədən ibarətdir: "Açıq kitab – "Dədə Qorqud", "Koroğlu" eposunun poetikası". "Açıq kitab – "Dədə Qorqud" hissəsi ayrıca monoqrafiya kimi Azərbaycan və İranda, həmçinin tanınmış türkoloq Əhməd Bican Ərcilasunun ön sözü ilə Türkiyədə çap olunub. Bu monoqrafiyada Kamran Əliyev "Kitabi-Dədə Qorqud"un bütün boylarını birləşdirən və nəticədə vahid poetik sistemin ortaya çıxmasına zəmin yaradan cəhətlər üzərində dayanmağı başlıca vəzifələrdən biri kimi qarşıya qoyur və ilk növbədə eposun şeir mənzərəsi üzərində dayanır. Kamran Əliyev soylamalara müraciət etməklə kifayətlənməyib dastanın nəsr hissəsindən çox sayda misallar çəkməklə qədim türk şeirinin bir misralıdan iki misralıya, iki misralıdan dörd misralıya doğru inkişaf xəttini "Kitabi-Dədə Qorqud" əsasında izləyir və inandırıcı elmi qənaətlər irəli sürür. Əhməd Bican Ərcilasun həmin qənaətləri yüksək qiymətləndirərək yazır: "Türk şeirinin doğuşunu və təkamülünü Dədə Qorqud Kitabında axtarmaq və tapmaq. Məni ən çox həyəcanlandıran məsələlərdən biri, bəlkə də birincisi budur. Misradan beytə, beytdən bəndə, oradan poetikaya keçid. Bu keçidi addım-addım izləyir Kamran Əliyev və bizi şeirin seyrangahına çıxarır".[28]

"Açıq kitab – "Dədə Qorqud" monoqrafiyasında Kamran Əliyevin "Kitabi-Dədə Qorqud" boyları üçün səciyyəvi saydığı cəhətlərdən biri say sistemi ilə bağlıdır. Üç və altı saylarına diqqəti yönəldən Kamran Əliyev boylarda üç sayının və onun əsasında yaranan sayların oğuzlara, altı sayının və onun əsasında yaranan sayların isə daha çox kafirlərə münasibətdə işləndiyini qorqudşünaslıq tarixində ilk dəfə olaraq irəli sürür və öz

[28] Ə.B.Ərcilasun. Türk etnosunun poetikası. – K.Əliyev. Əsərləri 10 cilddə, VII cild. Bakı, Elm və təhsil, 2019, səh. 5

fikirlərini eposdan gətirdiyi nümunələr əsasında sübuta yetirir. Altı sayının Oğuz bəylərindən yalnız Alp Aruzla bağlı işlənməsinin səbəbini isə Kamran Əliyev Alp Aruzun sonda düşmən mövqeyi tutması ilə əlaqələndirir. Yaxud Səyrəyin xatununun dilindən altı sayının işlənməsini müşahidə edən Kamran Əliyev həmin qadının "kafir düşərgəsi"ndən olması qənaətinə gəlir.

"Koroğlu" eposunun poetikası" monoqrafiyasında da Kamran Əliyevi daha çox maraqlandıran məsələ həmin eposda ənənədən gələn və sistem yaradan motiv və obrazları araşdırmaya cəlb etməkdir. Belə bir məqsədi qarşıya qoymağın nəticəsidir ki, Kamran Əliyev dəlilik motivi və dəli obrazını diqqət mərkəzinə çəkir. Dəli obrazının "Kitabi-Dədə Qorqud"dan gələn cəhətlərinə toxunan Kamran Əliyev bu obrazın "Koroğlu"dakı özünəməxsus əlamətlərini üzə çıxarmağa çalışır. Belə cəhətlərdən birini Kamran Əliyev dəli nərə məsələsində görür: "Dəlilər dəlisi" olan Koroğlunun Qoşabulaq suyundan içəndən sonra dəli nərə çəkmək qüdrətinə sahib olması, Kamran Əliyevin fikrincə, epos qəhrəmanını sakral aləmlə əlaqələndirməyin bir göstəricisi kimi ortaya çıxır və bu sakrallıq eposda sakral zaman və məkan anlayışları ilə üzvi şəkildə qaynayıb-qarışır.

Yekun olaraq deyə bilərik ki, istər "Açıq kitab – "Dədə Qorqud" və "Koroğlu" eposunun poetikası" monoqrafiyalarında, istərsə də şifahi xalq ədəbiyyatının aktual məsələlərinə həsr olunmuş məqalələrində Kamran Əliyev özünü bir folklorşünas kimi təsdiq edib. Klassik ədəbi irs, romantizm, realizm ədəbi cərəyanları və çağdaş ədəbi proses haqqındakı qiymətli əsərləri ilə ədəbiyyat tarixçiliyi və ədəbi tənqid sahəsində görkəmli mütəxəssis kimi tanınan Kamran Əliyev son illərdəki elmi fəaliyyəti ilə həm də bir folklorşünas nüfuzu qazanıb. Təsadüfi deyil ki, Kamran Əliyev AMEA-nın müxbir üzvlüyünə məhz folklorşünaslıq sahəsi üzrə seçilib.

# ELMİN VƏ İNSANLIĞIN PROFESSORU

**Cəlal QASIMOV**
*Filologiya elmlər doktoru, professor,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri*

Əziz oxucu, Azərbaycanın ictimai, ədəbi-mədəni həyatında önəmli rol oynamış, tədqiqatlarının nəticəsi kimi gələcək nəsillərə 10 cildlik böyük bir irs qoyub getmiş Kamran müəllim haqqında keçmiş zamanda deyil, indiki zamanda danışacağam. Ümumiyyətlə, gələcək nəsillər üçün böyük elmi-nəzəri irs qoymuş şəxsiyyətlər dünənin adamı olaraq qala bilməz, onlar bütün tərəfləri ilə həm də sabahın adamlarıdır. Hesab edirəm ki, sabahın adamları barədə keçmiş zamanda danışmağa mənəvi-əxlaqi haqqımız və səlahiyyətimiz çatmır.

1953-cü il mart ayının 5-də Şərur rayonunun Diyadin kəndində anadan olan Kamran İmran oğlu Əliyev orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş və 1974-cü ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir (https://az.wikipedia.org/wiki/Kamran_%C6%8Fliyev_(filoloq)). Bakı ədəbi-elmi mühiti gənc Kamranın dünyagörüşünün formalaşmasında, görkəmli alimlərdən aldığı təhsil və tərbiyə onun tədqiqatçılıq meylinin artmasında mühüm rol oynamışdır.

Tədqiqatçılığa olan tükənməz həvəs orta məktəbdə müəllim işləyən Kamranı 1976-cı ildə yenidən Bakıya – Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına gətirmişdir. K.Əliyev bu institutda "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" mövzusunda namizədlik (1980), "XX əsrin əvvəlləri Azərbaycan romantizminin obrazlar sistemi" mövzusunda isə doktorluq dissertasiyası (1990) müdafiə etmişdir.

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor və Əməkdar elm xadimi Kamran Əliyevin yaradıcılığı haqqında söhbət açmaq ədəbi, elmi-nəzəri fikrimizin təxminən 45 illik

inkişaf tarixi ilə həmsöhbət olmaqdır. Kamran müəllim tədqiqatlarının əhatəliliyi, elmi-nəzəri yükü və yenilikləri ilə Azərbaycanın görkəmli romantizm tədqiqatçılarından olan Məmmədcəfər Cəfərov, Əziz Mirəhmədov, Mir Cəlal Paşayev, Yaşar Qarayev, Arif Hacıyev, Əbülfəz İbadoğlu, Məsud Əlioğlu kimi alimlərin sırasında dayana biləcək ciddi bir iddiaçının ədəbiyyata gəldiyini sübut etdi. Məlumdur ki, Kamran müəllimə qədər romantizmin tarixi, prinsipləri, üslub xüsusiyyətləri barədə kifayət qədər tədqiqatlar aparılıb. O, romantizmə dair mövcud tədqiqatları öyrənmək, onlara yüksək qiymət verməklə yanaşı, özü də “XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri” (1985), “Azərbaycan romantizminin poetikası” (2002), “Azərbaycan romantizminin nəzəriyyəsi” (Azərbaycan və rus dillərində, Bakı-2006) kitablarında zəngin filoloji fakta, konkret ədəbi materiala istinadən romantizmin milli xüsusiyyətlərini, onun təşəkkülünü, obrazlar sistemini, romantik qəhrəmanın fövqəltəbiəti və tənhalığı, düşdüyü zamanı və məkanı, romantik ədəbiyyatdakı qarşıdurmaları (Qərb və Şərq, yaxın və uzaq, həyat və ölüm), romantiklərin folklora münasibətini həm poeziya, həm nəsr, həm də dramaturgiyada araşdıraraq maraqlı elmi nəticələrə gəlir. Romantik qəhrəmanların zamanını və məkanını böyük səbirlə tədqiq edib müəyyənləşdirən alim özünün də tərcümeyi-halının zamanını və məkanını xeyli genişləndirir. Kamran müəllimin elmi yaradıcılığında nəzər-diqqəti daha çox cəlb edən onun özünəməxsusluğudur. O, hər hansı bir işlənmiş, yaxud tamamilə yeni bir problemi tədqiq edərkən elə məsələlərə toxunur və problemin alt qatda qalan elə laylarını üzə çıxarır ki, həmin problem elmi-nəzəri baxımdan yeni və orijinal görünür. Bunun əsas səbəbi müəllifin problemə yanaşması, məsələlərə geniş prizmadan baxması, tədqiqat obyektinə çevirdiyi mövzunu dərindən öyrənməsi, yalnız milli ədəbiyyatşünaslığımızın deyil, eyni zamanda dünya və ümumtürk ədəbi prosesinin müasir nailiyyətləri baxımından təhlil etməsidir. Əminliklə demək olar ki, Kamran müəllim hər hansı bir problemə “bir nəzər” prinsipi ilə yanaşmır, onu sistemli şəkildə öyrənməyə və ümumiləşdirməyə üstünlük verirdi.

Alimin apardığı araşdırma və tədqiqatlar, yazdığı monoqrafiya və elmi məqalələr bir daha təsdiqləyir ki, K.Əliyev ədəbiyyatşünaslığın, ədəbi tənqidin, folklorun, bütövlükdə ədəbiyyatın çətin, mürəkkəb aləminə (dünyasına) məişət təfəkkürü ilə deyil, mükəmməl, sistemli, konseptual, elmi-nəzəri hazırlığı, erudisiyası, prinsipiallığı, alim məsuliyyəti və ədalətli mövqeyi ilə daxil olur. Yəni o, bunların hamısını yüksək peşəkarlıqla bir vücudda, bir alim "mən"ində birləşdirməyi və vəhdətdə təqdim etməyi bacaran istedadlı və zəhmətkeş elm adamıdır. Bu da ona tədqiqata cəlb etdiyi problemə daha qlobal müstəvidən yanaşmaq, prosesləri elmi-nəzəri yöndən dəyərləndirmək imkanı verirdi. Ədəbiyyatşünaslıq professor Kamran Əliyev üçün yalnız elmi fəaliyyət sahəsi deyil, eyni zamanda həyat fəlsəfəsi və yaşam tərzidir. O, harada və hansı situasiyada olmasından asılı olmayaraq təfəkkürü, xarakteri, tipologiyası, davranış tərzi və məsuliyyəti ilə alim ampluasını qoruyub saxlayan istedadlı ədəbiyyatşünas və folklorşünasdır.

Azərbaycan romantizminin həm janr, həm üslub, həm də mövzu çalarlarını genişləndirən, mükəmməl ədəbi cərəyan kimi formalaşmasında mühüm rol oynayan cahanşümul sənətkar Hüseyn Cavidin həyat və yaradıcılığının yeni təfəkkür işığında tədqiqi həmişə olduğu kimi, bu gün də aktual olaraq qalır. Həyatda, sənətdə və ədəbi düşüncədə öz istək və arzularını ifadə edən Cavid əfəndi daha çox sistemin və rejimin diktəsi ilə sinfi, qövmi və partiyalı mövqedən tədqiq olunmuş, hətta tarixin müəyyən zaman kəsiyində "vətən xaini", "xalq düşməni" elan edilmiş, reablitasiya olunduqdan sonra isə şəxsiyyəti və yaradıcılığı sosializm teyfi altında təhriflərə məruz qalmışdır. Bu gün bolşevik tənqidinin süni surətdə ikiləşdirdiyi H.Cavidi professor Kamran Əliyev "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008) adlı sanballı əsərlərində əsl qədirşünaslıq yanğısı ilə ona qarşı edilmiş təhrifləri təshih etməyə çalışmışdır. O, XX əsrin 20-ci illərinin bir çox tədqiqatçılarından fərqli olaraq Ca-

vidə realizm mundiri geyindirib təhlil etmir. Əksinə, bir ədəbi cərəyan kimi romantizmin Şərq və Qərb modelinin prinsiplərindən irəli gələn tələblər səviyyəsində araşdırmalar apararaq Cavid əfəndinin yalnız Azərbaycan romantikləri arasında deyil, dünya romantiklərinin arasındakı yerini və mövqeyini müəyyənləşdirmişdir. Tədqiqatçı məsələlərə faktlı, predmetli və konseptual yanaşması, eləcə də obyektivliyi ilə öz fikir və mülahizələrinin doğruluğuna oxucunu inandırır. Cavid əfəndinin şəxsiyyət, xarakter və yaradıcılıq bütövlüyünü, milli-fəlsəfi özünəməxsusluğunu və bəşəriliyini ədibin əsərlərinin verdiyi imkandan qaynaqlanaraq üzə çıxarır. Məsələn, o, "Peyğəmbər"lə bağlı bir mübahisəyə belə yekun vurur: "H.Cavidin "Lenini Peyğəmbər simasında, mavzoleyi Məkkə timsalında" verməsini iddia edənlər açıq-açığına yanılırdılar. Ən azı ona görə yanılırdılar ki, H.Cavid "Peyğəmbər" pyesini qələmə alanda (1922-1923) bolşevik rəhbəri sağ idi və adamlarda mavzoley təsəvvürü yaranmamışdı. Lakin vulqar sosiologiya nə qədər yanlışlıqlara yol versə də, H.Cavid yaradıcılığında Peyğəmbərin bədii əhyasını görür və təşvişə düşürdü". Və yaxud da Mustafa Quliyevin "H.Cavid "Knyaz" əsəri ilə bizim inqilab trenimizə oturdu, lakin dayanacaqların birində sonuncu vaqonun dal qapısından düşüb qaçdı" fikrinə etiraz edən K.Əliyev bildirirdi ki, H.Cavid adı və şəxsiyyəti ilə "qaçmaq" anlayışı təzad və əkslik təşkil edir. Bu fikrin davamı kimi deməliyik ki, Hüseyn Cavid heç vaxt bolşevizm qatarına əyləşməmişdi ki, oradan da düşsün və ya qaçsın.

Göründüyü kimi, K.Əliyev yalnız mübahisə xatirinə elmi polemikaya qoşulmur. O, H.Cavidin şəxsiyyət bütövlüyünü və dəyişməzliyini göstərmək, onun sabit xarakterə malik olduğunu sübut etmək və yaratdığı obrazlarda da buna sədaqətin ifadəsini üzə çıxarmaq naminə polemikaya geniş meydan verir. Bütün bunlarla yanaşı, müəllif bu kitablarında yalnız gümandan həqiqətə gedən ədəbi yolun üzərinə işıq salmaqla kifayətlənmir, eyni zamanda Hüseyn Cavidin yaradıcılığına yeni elmi baxışı, görkəmli dramaturqun Azərbaycan və dünya romantizmindəki yeri və mövqeyi ilə bağlı yürütdüyü tezis və elmi mülahizələrilə də

yadda qalır (Cəlal Qasımov. 60 yaşın poetikası. Ədəbiyyat qəzeti. 2013, 1 mart, s. 7).

Əməkdar elm xadimi Kamran Əliyev Azərbaycan romantizmi və onun ən görkəmli nümayəndələrindən olan H.Cavidlə bağlı oturuşmuş və daşlaşmış fikirlərə ehkam kimi yanaşmır, əksinə, bir çox məqamlarda bu ehkamları yıxıb-dağıdır. Yeni fikir və düşüncələri ilə romantik təfəkkürün üfüqlərini daha da genişləndirir və romantizmin bəzi tədqiqatçılarından fərqli olaraq belə bir tezis irəli sürür ki, XX əsr Azərbaycan romantizmini H.Cavidsiz təsəvvür etsəydik, bu romantizm ya yarımçıq, ya ona doğru meyil və təşəbbüslər, ya da ən yaxşı halda ədəbi cərəyandan kənarda yeni və orijinal xətt səviyyəsində dəyər qazanmış olardı. Əlbəttə, burada söhbət Azərbaycan romantizminin Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Səid Səlmasi kimi nümayəndələrini inkardan getmir. Şübhəsiz ki, onların da romantizmin inkişafındakı xidmətləri bu tədqiqat əsərində lazımınca qiymətləndirilir, H.Cavidlə onlar arasındakı fərqli məqamlar, özünəməxsusluqlar elmi şəkildə əsaslandırılır.

Alimin elmi yaradıcılıq yoluna baxsaq, görərik ki, o, özü romantizmin köynəyindən çıxıb. Lakin bu o demək deyil ki, ədəbiyyatın realist qanadı onun yaradıcılığında kölgədə qalır. Təsadüfi deyildir ki, "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998) və "Ədəbiyyat tarixinə bir baxış" (2013) kitablarında H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, A.Sur, A.Divanbəyoğlu, S.Səlmasi kimi romantiklərlə yanaşı, A.Bakıxanov, M.F.Axundzadə, M.M.Nəvvab, M.Cəlil, M.Ə.Sabir, Ü.Hacıbəyli, R.Əfəndiyev, C.Cabbarlı kimi realistlərin də yaradıcılıq sirləri öyrənilir. Və nəticə etibarilə millətə xidmət məqamında, milli mənlik şüurunun oyanmasında həm romantiklər, həm də realistlər vahid məkandan, vahid məqamdan və vahid müstəvidən çıxış edirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyevin təqdimatında adı çəkilən görkəmli romantik və realist şəxsiyyətlərin hər birinin fərdi yaradıcılıqlarındakı özünəməxsusluqlar, onların Azərbaycan ədəbiyyatındakı yeri və mövqeyi konkret faktların işığında

görünür. “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər” kitabına “Heyrətamiz özünəməxsusluqların araşdırılması” adlı ön söz yazan akademik Kamal Talibzadə əsərin əhəmiyyət və dəyərini belə qiymətləndirir: “Bu elə bir kitabdır ki, oxucu Azərbaycan milli ədəbi-estetik fikrinin heyrətamiz özünəməxsusluqlarını aydın şəkildə, bütün qabarıq cəhətləri ilə görə bilir. Buna tədqiqatçı özünün kamil elmi hazırlığı, XX əsr ədəbiyyatının zəngin materiallarını bilməsi və uzun illər bu yolda çalışması sayəsində müvəffəq olmuşdur”. Göründüyü kimi, akademik Kamal Talıbzadə ön sözdə Kamran müəllimin kamil elmi hazırlığını, XX əsr ədəbiyyatının elmi-bədii materiallarını dərindən mənimsəməsini və uzun illər bu yolda apardığı yorulmaz tədqiqatları xüsusilə vurğulayır.

Son illərdə alimin folklorla bağlı yazdığı “Romantizm və folklor” (2006), “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu” (2011) kitabları, eyni zamanda folklorun müxtəlif problemlərinə həsr olunmuş çoxsaylı məqalələri sübut edir ki, Kamran Əliyev həm də xalq ədəbiyyatının özünəməxsusluqlarını dərindən bilən folklorşünas alimdir.

Kamran müəllimin “Romantizm və folklor” (2006) adlı monoqrafiyası nəşr edilərkən o, kitabı mənə hədiyyə edərək zarafatla dedi: “Cəlal, buyur, romantizmi öyrənmək istəyirsənsə, bu kitabı oxu, folkloru öyrənmək istəyirsənsə yenə bu kitabı oxu”. Kitabla tanış olarkən Kamran müəllimin zarafatla dediyi bu sözlərdə müəyyən həqiqətin də olduğunu gördüm.

Azərbaycan ədəbiyyatşünaslığında romantizmin elmi nəzəri əsasları, romantik metod və romantizm ədəbi cərəyanı barədə Azərbaycanın tanınmış alimləri öz sözlərini demişlər. Romantizmin geniş tədqiq edilməsinə baxmayaraq, onun elə aktual problemləri olmuşdur ki, onlar indiyə qədər lazımi səviyyədə (əhatəli və sistemli şəkildə) öyrənilməmiş və romantizmşünaslıqda, elə həm də folklorşünaslıq tariximizdə bir boşluq kimi qalmışdır. Cəsarətlə deyə bilərik ki, bu boşluğu böyük səbir və təmkinlə dolduran zəhmətkeş alim Kamran İmran oğlu Əliyev olmuşdur. Alim romantizm və folklor probleminə bir çox əsərlə-

rində toxunsa da, onu ayrıca bir tədqiqat predmeti kimi "Romantizm və folklor" monoqrafiyasında araşdırmışdır. Fikrimizcə, Kamran müəllimin belə bir mövzuya müraciəti təsadüfi deyil, onun uzun illər apardığı elmi axtarış və tədqiqatların məntiqi nəticəsi idi.

Mübaliğəsiz və tərəddüdsüz deyə bilərik ki, Kamran Əliyev akademik Məmmədcəfər müəllimdən sonra romantizm nəzəriyyəsini dərindən və həm də sistemli şəkildə tədqiq edən, onu yeni bir mərhələyə qaldıran aparıcı alimlərdəndir. Bu kitabı ilə o nəinki mövcud boşluğu doldurdu, eyni zamanda romantizmin yeni bir istiqamətinin də əsasını qoymuş oldu. Hesab edirik ki, bundan sonra romantizm və folklor probleminin araşdırıcıları üçün ilkin mənbə və etibarlı qaynaqlardan biri də "Romantizm və folklor" monoqrafiyası olacaqdır. Kamran müəllimin həcmcə o qədər də böyük olmayan, lakin məzmun və mündəricəsi, eləcə də fundamentallığı ilə diqqət çəkən "Romantizm və folklor" kitabı Azərbaycan ədəbiyyatşünaslığının tarixi uğurudur. Bu kitab həm romantizmin, həm də folklorun elmi nəzəri əsaslarını özündə ehtiva edən mükəmməl bir monoqrafiyadır.

Məlumdur ki, ədəbi cərəyanlara yaxınlıq baxımından folklor realizmə daha yaxın və daha məlhəmdir. Folklorun öz dili ilə desək, realizm romantizmlə müqayisədə folklora bir köynək yaxındır. Kamran müəllimin də böyüklüyü ondadır ki, o, bu uzaqlıqdakı yaxınlığı görmüş və onu tədqiqatının predmetinə çevirmişdir. O, oxucunu, elə həm də tədqiqatçıları inandırır ki, "romantizmin folklor qaynağı elə romantizmin milli keyfiyyətini və milli müəyyənliyini təyin edən əsas fakt və amillərdir". Alim faktlı, predmetli və konseptual şəkildə sübut edir ki, folklor qəhrəmanları ilə romantik qəhrəmanlar arasında uçurum yoxdu, əksinə onlar arasında ciddi bir doğmalıq və yaxınlıq vardır.

Akademiyanın müxbir üzvü Kamran Əliyev özünün romantizmlə, bütövlükdə yazılı ədəbiyyatla bağlı tədqiqatlarını folklorla paralel araşdırmışdır. Belə ki, alimin "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. bu kimi

paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoydu. Fikrimizcə, romantizm və folklor mövzusuna müraciət etməyə Kamran müəllimin daha çox mənəvi, əxlaqi haqqı və səlahiyyəti çatır. Çünki o, mütəmadi və fasiləsiz olaraq apardığı tədqiqatları ilə həm romantizmin, həm də folklorun elmi-nəzəri əsaslarını dərindən araşdırmış və tədqiqatları ilə romantizm və folklor barədə fundamental söz demək səlahiyyətini öz əlində saxlaya bilmişdir. Belə demək mümkünsə professor Kamran Əliyevin "Romantizm və folklor" əsəri ədəbiyyatşünaslıqdan folklorşünaslığa keçidin başlanğıcıdırsa, "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyası alimin folklorşünaslıqda özünü təsdiqidir.

Vaxtı ilə Abdulla Sur "Füyuzat" jurnalında çap etdirdiyi "Füzuliyə bir nəzər" adlı məqaləsində yazırdı ki, Füzulinin namı yad olundumu, dərhal xatirə düşən qəzəl olur. Bir dəfə qəzəl demək bir dəfə Füzuli deməyə, bir dəfə Füzuli demək bir qəzəl deməyə bərabərdir (Abdulla Sur. Füzuliyə bir nəzər. "Füyuzat" jur. 1907, № 31). Bu formulu Kamran müəllimin xidmətləri ilə əlaqələndirsək kiçik dəyişikliklə belə ifadə etmək olar. Kamran müəllimin namı yad olundumu, dərhal xatirə "Romantizm və folklor" düşür. Bir dəfə "Romantizm və folklor" demək bir dəfə Kamran Əliyev deməyə, bir dəfə Kamran Əliyev demək bir dəfə "Romantizm və folklor" deməyə bərabərdir. Deməli, qəzələ möhürü böyük Füzuli, "Romantizm və folklor" probleminə isə professor Kamran Əliyev vurmuşdur. Bu bir qədər mübahisəli görünsə də faktdır.

Bu adı qazanmaq Füzuliyə baha başa gəldiyi kimi Kamran müəllimə də asan olmamışdır. Romantizm və folklor istilahının elmi-nəzəri əsaslarını, strukturunu, semiotikasını ilk dəfə elmi dövriyyəyə gətirən də K.Əliyev olmuşdur. Kamran Əliyev yazır: "...biz bu tədqiqatda bir yaradıcılıq metodu və bir ədəbi cərəyan kimi romantizmin folklorla əlaqələrini araşdırmağı qarşıya məqsəd qoymuşuq. Şübhəsiz, bu məqsəd də hər hansı romantik sənətkarın folklorla əlaqələrini təcrid etmir, çünki ayrıca götürülmüş bir romantik sənətkar da folklordan bəhrələnmişsə, onu da yazıçı

və folklor problemi kimi düşünmək olar. Hər halda romantizm və folklor problemi bədii metod və folklor problemidir və bunun da kifayət qədər özünəməxsus cəhətləri vardır" (Kamran Əliyev. "Romantizm və folklor", Bakı, 2006).

Romantikləri folklorun hansı problemləri düşündürürdü? Bu məsələyə K.Əliyev belə cavab verirdi: "Ədəbi növlər, o cümlədən folklor yaradıcılığında özünə geniş yer tutan və yayılma coğrafiyası daha çox olan lirik növün, romantiklərin özlərinin dediyi kimi, lirik el janrlarının yaranması, bununla bilavasitə bağlı olan xalq şeiri üslubunun təşəkkülü, formalaşması və yazılı ədəbiyyata keçmək imkanları, eyni zamanda ayrı-ayrı janrların poetika xüsusiyyətləri, ideya sənətkarlıq cəhətləri, romantiklərin özlərinin yazıçı və folklor probleminə münasibəti, şifahi xalq ədəbiyyatı nümunələrinin yaranması və cilalanıb formalaşması, onların müəlliflik məsələsi kimi ciddi əhəmiyyət daşıyan problemlər əsas diqqət mərkəzlərində olmuş, romantiklərin folklora dair tədqiqatlarının ağırlıq mərkəzini təşkil etmişdir" (Kamran Əliyev. "Romantizm və folklor", Bakı, 2006).

***

Azərbaycan ədəbiyyatşünasları arasında özünəməxsus fərdi yaradıcılıq manerası və məntiqli mühakimələri ilə yadda qalan, təhlillərində ədəbiyyatşünaslıqla folklorşünaslığın sintezindən çıxış edən, elmi-məntiqi üslub tərzi ilə seçilən tədqiqatçı alim Kamran Əliyev bütün əsərlərində olduğu kimi, "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" (2011) monoqrafiyasında da yaradıcılıq prinsiplərinə sadiq qalır. İstər Azərbaycan, istərsə də dünya qorqudşünaslığında və koroğluşünaslığında hər iki dastanın tədqiqi ilə bağlı görkəmli və tanınmış alimlərin kifayət qədər fundamental və sanballı tədqiqat əsərləri mövcuddur. Kamran Əliyevin ümumtürk eposunun şah əsərlərindən olan "Kitabi-Dədə Qorqud" və "Koroğlu"ya həsr olunmuş bu tədqiqat əsərini son illərin nəinki poetika məsələləri ilə bağlı, bütövlükdə qorqudşünaslığın və koroğluşünaslığın ən yaxşı, ən sanballı və həm də ən son nailiyyətlərindən biri hesab etmək olar.

Professor K.Əliyevin fikrincə, etnopoetika bədii düşüncə ilə etnosun təbiəti arasındakı əlaqə və təması öyrənən, bu əlaqə və təmasın xüsusiyyət və əlamətlərini meydana çıxaran bir elm sahəsidir. Milli etnik yaddaşın tədqiqinə həsr olunmuş mükəmməlliyi və fundamentallığı ilə seçilən bu monoqrafiya da əlaqə, təmas və ünsiyyət kitabıdır. Bu ünsiyyət Kamran Əliyevlə yaddaş, şəcərə arasında, reallıqla mif arasında, xaosla kosmos arasında, etnosla epos arasında və nəhayət, müəlliflə irs-varis və oxucu arasında olan ünsiyyətdir.

Məlumdur ki, onun elmi yaradıcılığının əsas sahələrindən biri də ədəbi tənqiddir. K.Əliyevin ədəbi tənqid sahəsində fəaliyyəti hələ tələbəlik illərindən, professor A.Zamanovun rəhbərliyi altında yazdığı "Mustafa Quliyevin ədəbi-tənqidi görüşləri" adlı diplom işindən (1974) başlanır. Diplom işini yüksək qiymətləndirən Abbas Zamanov gənc tələbədəki elmi potensialı, tədqiqatçılıq bacarığını yüksək qiymətləndirir. Bundan sonra Kamran Əliyev ədəbi tənqidi də yaradıcılığının əsas aparıcı sahəsinə çevirir. Onun "Ədəbi tənqiddə bədiilik", "Romantik tənqid və Sabir", "F.Köçərli tənqidinin sənətkarlıq məsələləri", "Seyid Hüseyn – görkəmli tənqidçi və yazıçı", "Hüseyn Cavid və ədəbi tənqid", "Əli Nazimin tənqidçilik sənəti", "Mir Cəlal Paşayev – tənqidçi və nəzəriyyəçi alim", "Feyzulla Qasımzadənin Azərbaycan ədəbiyyatşünaslığının inkişafındakı rolu", "Kamal Talıbzadə – təmkinli elmi yaradıcılıq", "Ədəbi-tənqidi fikrin imkanları" və başqa məqalələrində ayrı-ayrı tənqidçilərin elmi baxışlarına, bütövlükdə isə Azərbaycan tənqidinin keçdiyi yola aydınlıq gətirilir. Nəzərə alsaq ki, Kamran Əliyevin "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" (2013) adlı ayrıca kitabı vardır və həmin kitabda Məmmədcəfər müəllimdən başlayaraq bu gün də yazıb-yaradan ədəbiyyatşünas alimlər haqqında obyektiv söz söylənmişdir, onda alimin tənqid və ədəbiyyatşünaslığa bağlılığının nə qədər davamlı və fasiləsiz olduğunu təsəvvür etmək çətin deyil.

Alimin yaradıcılığında "Abbas Zamanov olmasaydı" (2011) kitabının ayrıca yeri var. Müəllif tənqidçi və ədəbiyyatşünaslar

arasında "öz sözünə sahiblik edən və bu sözə yiyə duran nəhəng şəxsiyyət" adlandırdığı A.Zamanovun əvəzsiz elmi yaradıcılığını, klassiklərə və klassik irsə sevgisindən doğan fundamental tədqiqatlarını, həyatdakı və cəmiyyətdəki vətəndaş mövqeyini, ermənilər Naxçıvanı Ermənistanın ərazisi elan edərkən apardığı yorulmaz mücadiləsini, ən başlıcası onun milliliyini böyük sevgi ilə yüksək qiymətləndirir və yazırdı: "Abbas Zamanov bizim üçün bir VƏTƏN CƏMİYYƏTİ idi. Bu cəmiyyətin fəaliyət məzmununu və məqsədini dünya azərbaycanlılarını bir araya gətirmək arzusundan doğan fədakarlıq təşkil edirdi. Sədri də, müavini də, əməkdaşı da, hətta poçt işçisi də Abbas Zamanovun özü olan bu cəmiyyət yalnız çox-çox sonralar rəsmi "Vətən" cəmiyyətinə çevrildi" (Kamran Əliyev. "Abbas Zamanov olmasaydı", Bakı, 2011).

Kamran müəllim bu fikirlərində tamamilə haqlı idi. Bir millətçi kimi fəaliyyəti KQB-nin hesabatlarında hallandırılan və Moskvaya qədər məruzə edilən Abbas müəllim bütün qadağa və yasaqlara baxmayaraq, dünya azərbaycanlılarının, eləcə də türkdilli xalqların milli birliyini təmin etməyə çalışan qeyrətli və fədakar ziyalı idi. Təsadüfi deyildir ki, minlərlə adamı türk casusu olmaqda ittiham edərək qətlə yetirən və ləkələyən Moskvadan və onun əyalətdəki rəsmilərindən qorxmayan Abbas müəllim Türkiyədə – Ərzurum Universitetində bir kitabxana yaratmışdı. Maraqlıdır ki, həmin kitabxana bu gün də Ərzurum Universitetində "Abbas Zamanov odası" adı ilə fəaliyyətini davam etdirir. Sovetlər dovründə elmi əlaqələndirici funksiyasını öz üzərinə götürən Abbas müəllim Türkiyədə və İranda çıxan müxtəlif kitabları, qəzet və jurnalları da Azərbaycana gətirtdirirdi. Bu, həmin illərdə olduqca və olduqca təhlükəli idi.

Abbas müəllim haqqında söz düşəndə bir dəfə Kamran müəllim dedi ki, o, olduqca diqqətli adam idi. Əgər hər ikimizin tanıdığımız bir şəxs dünyasını dəyişirdisə və ya bir uğurlu işinə görə təltif olunurdusa, Abbas müəllim özünün və mənim adımdan həmin şəxsin ailə üzvlərinə və ya onun təmsil olunduğu quruma teleqrama göndərərdi. Belə teleqramlar daha çox İrana

və Türkiyəyə ünvanlanardı. Müəllif adı gedən kitabında sonda ustadı Abbas müəllimlə bağlı bir etirafını da oxucuları ilə bölüşürdü: "Doğrusu, Abbas Zamanov olmasaydı, mən də qeyri – sadəcə kənd müəllimləri içində yaddan çıxmışdım" (Kamran Əliyev. "Abbas Zamanov olmasaydı", Bakı, 2011).

Maraqlıdır ki, "Abbas Zamanov olmasaydı" kitabında öz müəllimi haqqında dediklərini bütün detalları ilə Kamran müəllimin özünə də şamil etmək olar. Kamran Əliyev öz müəllimi və ustadlarından gördüyü diqqət və qayğını, sadəliyi və xeyirxahlığı öz tələbələrindən də əsirgəməmişdir. Kamran müəllimin tələbəsi kimi deyə bilərəm ki, Abbas müəllim Kamran müəllim üçün hansı zirvədə və ucalıqda dayanıbsa, bizim üçün də Kamran müəllim o zirvədə və o ucalıqda dayanıb.

***

Məlumdur ki, müasir lokal və qlobal texnologiyaların gücü ilə səsi, hərəkəti, şəkli və görüntünü olduğu kimi təqdim etmək olur. Lakin insanın təbiətini, iç qatını, xarakterini, iradəsini, psixikasını öyrənmək və təqdim etmək üçün isə bədii düşüncəyə, bədii təfəkkür sahibinə böyük ehtiyac duyulur. Bu mənada alimin yaradıcılıq bioqrafiyasında bədii-publisistik əsərləri də özünəməxsus deyim və yozum tərzi ilə seçilir. Həmin əsərlərdə romantizmdə olduğu kimi, bədii simvolika üstünlük təşkil edir. Müəllif "Yalquzaq" (1998) əsərində rəmzlər vasitəsilə yalnız bir kəndin, bir obanın deyil, bütövlükdə türkün təklənmək faciəsini bədii ədəbiyyata gətirir. Əsərdə hadisələrin 30-cu illərdə baş verməsi də tənhalığın millətin taleyində və tarixində açdığı çapıq, oynadığı tragik-dramatik rol bədii, rəmzi boyalarla təsvir edilib. Müəllif "Yalquzaq" povestində bir millətin övladı kimi bir-birini əzən, nəticədə yada, özgəyə yem olan tənhalığın psixologizmini və ya onun anatomiyasını vermişdir. Povestdə yalquzağın bir neçə dəfə səsi eşidilir və hər eşidildikcə də kənddə bir faciə baş verir. Maraqlıdır ki, faciənin baş verəcəyini bildirən yalquzaq kənd camaatı tərəfindən axıra qədər dərk olunmur. Yalquzaqlıq, yalqızlıq tənhalığın təklənməyin tragik-dramatik simvoludur. Bu tənhalığın ağrılarını "Vağzal" (2001) po-

vestinin qəhrəmanı Səhnə arvad da yaşayır. Fikrimizcə, böyük ictimai-siyasi məzmuna malik olan "Yalquzaq", "Vağzal" və onların davamı olan "Zəli" povestləri müəllifin millətin təklənmək taleyi ilə bağlı vətəndaş narahatlığının bədii ifadəsidirsə, "Sədərək döyüşləri" publisistik əsəri Vətən uğrunda ermənilərə və onların havadarlarına qarşı mübarizə aparan oğullarımızın erməni vandalizminə etirazı və üsyanıdır. Sədərək döyüşləri türk övladının vətənə sədaqətinin, torpağa, elə-obaya bağlılığının ifadəsidir. Kamran müəllimin hekayə və povestləri həyat həqiqətlərinin, bəlkə də belə demək daha doğru olar, həyatın özünün bədii təqdimatıdırsa, "Sədərək döyüşləri" əsəri vətən uğrunda mübarizə aparan şəhidlərimizə sözdən ucaldılmış abidədir (Kamran Əliyev. Əsərləri, 10 cilddə, X cild, Bakı, 2019, s. 385).

Etiraf etməliyik ki, professor Kamran Əliyevin elmi-bədii yaradıcılıq işığında şəxsiyyəti də bütün tərəf və cəhətləri ilə aydın görünür. Onun yaradıcılığı və şəxsiyyəti intellekt "mən"in qanadlarında zirvəyə yüksəlir, elə həmin məkanda da öz bütövlüyünü və təsdiqini tapır.

Ataların gözəl bir misalı var: "Alim olmaq asandır, insan olmaq çətin". Həqiqətən də, elə alimlər vardır ki, onlar elmin doktoru olsalar da, insanlığın heç dissertantı da deyillər. Yüksək elmi-nəzəri hazırlığı, intellekti, erudisiyası və təfəkkürü, təvazökarlığı, sadəliyi, alicənablığı, xarakter bütövlüyü, qayğıkeşliyi və s. keyfiyyətləri ilə tanınan Kamran müəllim isə həm elmin, həm də insanlığın professoru, doktoru zirvəsinə eyni anda yüksəlmişdir. Tərəddüd etmədən deyə bilərəm ki, alimin sağlığında fəth etdiyi bu zirvələr onun həmişəyaşarlığını daima təmin edəcəkdir.

Son olaraq deməliyik ki, AMEA müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyevin yazdığı hər bir əsəri yalnız ədəbiyyatşünaslıq sahəsində deyil, bütövlükdə mədəniyyət sahəsində böyük bir hadisədir. Kamran müəllim elmi əsərlərində faktı təqdim etməklə kifayətlənmir, əksinə, onun elmi-nəzəri təhlilini verir və onların həlli yollarını müəyyənləşdirir.

Klassik filoloji ənənəni ləyaqətlə və uğurla davam etdirən Kamran Əliyevin elmi yaradıcılığının spesifik xüsusiyyəti mövcud faktları elmi təfəkkür süzgəcindən keçirərək, müasir elmi nailiyyətlərin, daha doğrusu Şərq və Qərb mədəniyyətlərinin vəhdətində vermək bacarığında və ən başlıcası güclü məntiqindədir.

Professor Kamran Əliyev hazır stereotipləri, oturuşmuş düşüncə tərzini mütləq həqiqət hesab edən alimlərdən deyil, əksinə hazır qəlibləri dağıdan, yeni düşüncə tərzi ilə seçilən görkəmli alimlərdəndir. Alim və yazıçı Kamran Əliyevin alimliyindən və yazıçılığından, elə həm də şairliyindən ucada duran bir mühüm xüsusiyyəti də vardır ki, o da onun insanlığıdır, şəxsiyyətidir. Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, Kamran müəllim böyük hərflə yazıla biləcək alim, böyük hərflə yazıla biləcək yazıçı-şair, böyük hərflə yazıla biləcək insan və yüksək mənəvi əxlaqi dəyərə malik olan, müdrikliyin zirvəsində dayanan şəxsiyyətdir. Elə böyük ədəbiyyatı da böyük şəxsiyyətlər yaradır.

Hörmətli oxucu, məqaləni Sizə müraciətlə başladım, elə sonluğu da Sizə müraciətlə bitirmək istəyirəm. Elmin və insanlığın professoru olan Kamran müəllim yuxarıda da qeyd etdiyimiz kimi, oxucularının, tələbələrinin və onu tanıyanların qəlbində həmişə sevgi ilə yad ediləcəkdir.

## QAYNAQLAR


Abdulla Sur. Füzuliyə bir nəzər. "Füyuzat" jur. 1907, № 31

Kamran Əliyev. Əsərləri, 10 cilddə, I cild, Bakı, 2019

Kamran Əliyev. Əsərləri, 10 cilddə, II cild, Bakı, 2019

Kamran Əliyev. Əsərləri, 10 cilddə, X cild, Bakı, 2019

Kamran Əliyev. "Romantizm və folklor", Bakı, 2006

Kamran Əliyev. "Abbas Zamanov olmasaydı", Bakı, 2011

Cəlal Qasımov. 60 yaşın poetikası. Ədəbiyyat qəzeti. 1 mart, 2013

https://az.wikipedia.org/wiki/Kamran_%C6%8Fliyev_(filoloq)

# KAMRAN ƏLİYEVİN ELMİ-BƏDİİ İRSİ: TƏQDİMATDAN KONSEPSİYAYA

**Mətanət ABBASOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*Cənubi Azərbaycan folkloru şöbəsinin müdiri*
*abbasova-metanet@list.ru*

Tanınmış ədəbiyyatşünas-alim, tənqidçi, folklorşünas Kamran Əliyevin yaradıcılığı bütövlükdə bədii söz, ədəbi axtarışlarda formalaşıb yaranan zəngin bir irsdir. Onun çoxşaxəli yaradıcılıq yolu bu baxımdan şifahi söz sənətini öyrənən folklorşünaslıq, yazılı ədəbiyyat araşdırmalarında – tənqidçilik, şeir və nəsrin imkanlarında sözünü deyən yazıçı mövqeyi, həmçinin bu fəaliyyət sahələrinin ilkin laboratoriyası və təbliğat məkanı olan tələbə auditoriyalarındakı pedaqoji işini əhatə etməkdədir. Professor Kamran Əliyev hər şeydən əvvəl zamanın səs-küyündə sənətin dəyəri, ruhu və ecazkarlığına bağlanıb, sözü sevib, sözlə yaşayan, sözün varlığı, müqəddəsliyində özünü təsdiq edən ziyalı və şəxsiyyətdir. Tarixin ilkin insan sivilizasiyalarının yaranması dönəmindən yol alan folklor irsimiz və bu irsə zamanla yoldaşlıq edən yazılı ədəbiyyatımızın ən aktual məsələləri professor Kamran Əliyevin qələmində yeni konseptual problemlərlə elmi müstəvidə öz həllini tapmışdır.

Kamran Əliyev ilk elmi araşdırmalarını Azərbaycan romantizminin öyrənilməsi məsələlərindən başlamış – romantizmin mahiyyəti, yaranması, nəzəri əsasları, başlıca ədəbi simaları, ayrıca poetik əsasları və s. üzərindən çoxsaylı tədqiqatlar aparmışdır. Onun "XX əsrin Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (2006), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008) və s. tədqiqatlarında romantizmin öyrənilməsi bütövlükdə konseptual

araşdırma mövzusuna çevrilmişdir. Xüsusilə, romantizmin poetikası məsələləri – romantik qəhrəman konsepsiyası, əsərlərdə mövqe və xarakter, təbiət və mifoloji obraz səciyyəviliyi və s. problemlər XX əsr Azərbaycan romantiklərinin bədii yaradıcılıq və ədəbi-nəzəri görüşləri ilə birlikdə araşdırmalara cəlb olunmuşdur. A.Divanbəyoğlu ("Əbdül və Şahzadə"), A.Şaiq ("Əzab və vicdan" romanı") irsi də daxil olmaqla romantik əsərlərdə təsvir xarakterləri (obyektiv, qeyri-obyektiv, məqsədli, məqsədsiz təsvir tipləri), peyzaj, qəhrəman tipləri, romantik şeirdə müraciət ünvanları (ana, yer, gül, Tanrıya xitablar, qeyri-konkret obyektlərə müraciətlər), ayrıca dramaturgiyada ədəbi qəhrəman məsələsi, hərəkət, zaman və məkan birliyi, təbiət obrazlarının simvolikliyi və s. konkret detallar əsasında tədqiq edilir. Tədqiqatçı bütün hallarda mətn üzərində sənətkar dəqiqliyi ilə müşahidələr aparır, bu və ya digər qəhrəmana bağlı fərdi səciyyə daşıyan məlumat-detalların bədii əsər üçün nə qədər vacib rol oynadığını əsaslandırır. Məlumat-detal mövqeyindən mətn yanaşmaları sonda tədqiq olunan bu əsərlərdə ümumi ideyanın ifadəsində ən aparıcı bədii mövqedə olmasını təsdiqləyir.

Professor Kamran Əliyev romantizmin elmi-nəzəri əsaslarının öyrənilməsində, xüsusilə Hüseyn Cavid və Məhəmməd Hadi irsinə ayrı-ayrılıqda müraciət edərək romantiklərin həyat həqiqətlərinə yanaşma şərtlərini, əsərlərində mətnaltı kodlarla fikir təlqinini xüsusi olaraq tədqiqat mövzusuna çevirmişdir. Bəşəri mövzular, bəşəri hisslərlə romantik düşüncə təcrübəsinə gətirilən insan talelərinin sonrakı ədəbi proses, gələcək perspektivdəki uyğun modeli də alimin bu araşdırmalarında həm də maraqlı müqayisələrin aparılmasına yol açmışdır. K.Əliyev üçün H.Cavid irsi bu baxımdan pafosu, rəngli poetik dünyası ilə seçilən irsdən çox, insanın ağrılı həqiqətlər dünyasından zamana, gələcəyə baxışının fəlsəfəsi idi. K.Əliyev Hüseyn Cavidi dramaturq, publisist, ictimai fəal olmaqla yanaşı, əqidəli, dürüst bir ziyalılığı ilə qəbul edirdi: "Şair, dramaturq, publisist, müəllim, ən başlıcası isə ziyalı kimi tanınan Hüseyn Cavid həmişə məsləkinə sadiq olub, bədii əsərlərilə əqidəsinin daşıyıcısına çevrilib. İlk qələm təcrübələrin-

dən ədəbi ictimaiyyətin və ədəbi tənqidin diqqətini cəlb edib, əsərləri yüksək səviyyədə dəyərləndirilib. Çünki o, kimdən və nədən necə yazmağın sirrini bilirdi, öz istək və arzularının poeziyasını yaradırdı" (Kamran Əliyev. Hüseyn Cavid. (Əsərləri, 10 cilddə, III cild). Bakı, "Elm və təhsil", 2018, səh.15). Tənqidçi H.Cavid yaradıclığının sərbəst ruhu, sənət sirlərinə yiyələnməsini onun uğurlarının başlanğıcı hesab edirdi. Sözsüz ki, bu məqamda Kamran Əliyev şəxsiyyəti Hüseyn Cavid böyüklüyü ilə birləşirdi. Çünki Kamran Əliyev xaraktercə sakit insan olmasına baxmayaraq, onun daxilində həmişə insan, insanlığın gələcəyi üçün bir narahatlıq və mübarizə coşqusu var idi. H.Cavidin irsini alim təkcə Azərbaycanın tanınmış mütəfəkkiri, romantiki kimi deyil, həm də belə demək mümkündürsə, bəşəriyyətin alimi və elmi kimi qəbul edirdi. Çünki H.Cavid, M.Hadi kimi romantik sənətkarların bədii irsi bütün hallarda insanlıq, müharibə, gələcəyin qurulması birliyində bəşəriyyətin taleyindən keçirdi.

Kamran Əliyev tənqidçi kimi yazıçı, şair, ümumiyyətlə, sənət adamında istedad və yaradıcı ruhun sərbəstliyini qiymətləndirir, yazıçı dürüstlüyünü, şəxsiyyət bütövlüyünü vacib məsələ kimi irəli sürürdü. O, klassik və müasir ədəbi irsdə ayrı-ayrı ədiblərin yaradıcılığına müraciət edərək burada süjet, ədəbi forma və üsulların fərqləndirilməsini araşdırır, eyni zamanda onların bədii irsindəki oxşarlıqların sabitləşmiş forma-xüsusiyyətlərini irəli sürürdü. İkinci halda alimin təklif etdiyi mövzu, ideya, poetik əlvanlıq və s. bağlı konkret struktur elementlər bütünlüklə yazıçı, ədiblərin yaradıcılıq özünəməxsusluqlarına qarşı dayanır, ümumi sənət görüşləri baxımından bir meyar-mərkəzdə birləşirdi. Bu baxımdan M.F.Axundov, A.Bakıxanov, M.Şaxtaxtlı, M.Ə.Sabir, M.S.Ordubadi, C.Məmmədquluzadə, C.Cabbarlı, R.Behrudi yaradıcılığına tənqidi münasibətində Kamran Əliyev ədəbiyyatımızın silsiləvi sxemini təklif etməklə, eyni zamanda bu sxem üzərindən söz sənətinin təşəkkülü prosesində oxşar qabaqlayıcı strukturu və modulları fərqləndirirdi (Kamran Əliyev. Klassiklər, müasirlər. (Əsərləri, 10 cilddə, IV cild). Bakı, "Elm və təhsil", 2018, 376 səh.).

Elmi araşdırmalarına yazılı ədəbiyyat problemləri sahəsindən başlayan Kamran Əliyev sonrakı tədqiqatlarını Azərbaycan folkloru məsələlərinin öyrənilməsi istiqamətində daha da genişləndirir. Folklorun zəngin obrazlar sistemi, mətn özəllikləri, arxaik kodların öyrənilməsini ön planda saxlayan tənqidçi ardıcıl olaraq "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" (2011), "Çağdaş folklorşünaslıq problemləri" (2017), "Açıq kitab – "Dədə Qorqud" (2015) kimi tədqiqatlarını elmi ictimaiyyətə təqdim edir. Xüsusilə "Dədə-Qorqud" dastanı üzərində geniş araşdırma aparan Kamran Əliyev folklor mətnlərinin yaranması təcrübəsində etnopoetikanın problemlərinə toxunur, müxtəlif məzmun, misrada şeir şəkillərinin yeni – konkret bayatı, gəraylı, qoşma formullarına keçidinin tarixi mexanizmini müəyyənləşdirir. "Dədə Qorqud" eposunun Burla xatun, Banuçiçək, Selcan xatun, Səyrəyin, Dəli Domrulun xanımları və s. kimi qadın qəhrəmanlarının portret cizgilərini bir arada təhlilə gətirməklə mətndaxili müraciət formalarında qəhrəmanların xarakter ixtiyariliyinin gizli qatlarında saxlanılan səciyyəviliyinə aydınlıq gətirir. Bəzən mətn təhlilindən kənarda qalan bu xüsusiyyətlər əslində həmin qadın qəhrəmanlarının etnosdaxili hadisələrdə fəaliyyət imkanlarının mahiyyətini üzə çıxarır. Beləliklə, mimetik modusda qəhrəmanın fəaliyyətinə münasibət həm də folklor mətnlərinin öyrənilməsində mühüm yanaşma istiqamətlərindən biri kimi təqdim olunur. Eyni zamanda eposda bu və ya digər müraciət formalarının qaynağında ulusun ilkin təsəvvürlər sistemi, mifoloji dünyagörüşü, inanc və sınamaları və s. bir arada, əlaqəli şəkildə müxtəlif səviyyələri təşkil etməklə nizamlılığa qoşulur. Oğuz igidləri – Uruz, Qazan xan, Beyrəy obrazlarının yenidən təhlilinə qayıdan folklorşünas varislik, məğlubiyyət, məhəbbət, mübarizə işığında bir ulus, qövmün məişəti, tarixini, mif düşüncəsi, sözdə gizlənən "etnopoetik qaydaları"na münasibətini bildirir. "Kitabi-Dədə Qorqud" abidəsinin ayrı-ayrı obraz, müraciət, deyim şəkilləri, formalarının obrazların xarakteri ilə birlikdə təhlil olunması bütün hallarda milli təfəkkür və mifoloji düşüncəyə bağlı mətn genezisinin özünəməxsusluğunu meydana gətirir. Əslində Kamran Əliyevin dastan poetikası

üzərində sənətkar dəqiqliyi ilə apardığı araşdırmalar vaxtilə Avropa estetik fikrində irəli sürülən epos janrının mifologiya və folklorun zəifləmiş, öz qəlibindən uzaq düşmüş ideyalarına qarşı dayanırdı. O, "Dədə Qorqud" kitab-abidəsini qəhrəmanların statusu, atalar və oğullar qarşılaşması, varislik, mif və gerçəkliyin sintezi, rəqəm simvolikası və s. üzərindən tədqiqatlara gətirməklə etnosun yaddaşını müasir düşüncə üçün "gizlilik"dən xilas edir. İşarə və denotat üzərində aparılan təhlillər konkret qəhrəmanlarla bağlı hadisələrin, simvolik şəkildə ifadə olunan obrazların öyrənilməsində yeni bir istiqaməti müəyyənləşdirir. "Dədə Qorqud" dastanları Kamran Əliyevin bu tədqiqatında fövqəlmətn üzərindən təhlillərə cəlb edilir ki, bu mətnlərin gerçəklik, ilk təsəvvürlər sistemi, ənənə, milli düşüncəyə bağlılığı bir araya gəlir. Başqa sözlə desək, ayrı-ayrılıqda bu təhlil prinsipləri konkret obrazların təqdimatı formasından çıxıb, həm də şifahi ədəbiyyatda fövqəlmətn anlayışının nəzəri əsaslarını konseptual məsələyə çevirir. K.Əliyev folklor araşdırmalarını çoxsaylı bədii kodlarla aparır, "sıxlaşdırılmış" informasiyaların mahiyyətinə vararaq, folklor mətni strukturlarının tipologiyasını müəyyənləşdirir. Professor dastan poetikasının araşdırılmasında xüsusi informasiya daşıyıcısı olan geyim, müraciət, mimik moduslar, məşğuliyyətlər, sirli doğulma və s. folklor qəhrəmanlarının təqdimində mühüm rol oynadığını əsaslandırır.

Humanitar fikrin daim diqqət mərkəzində olan yazılı ədəbiyyat və folklor məsələləri də Kamran Əliyevin elmi araşdırmalarının başlıca istiqmətlərindən biri idi. O, ayrı-ayrı romantik sənətkarların irsindən başlayaraq, klassik və müasir söz ustalarının yaradıcılığında şifahi ənənənin rolu, başqa sözlə desək, poetik mətn üzərində bədii konstruksiyanın başlıca şərtlərini məhz folklor təməlləri üzərindən qiymətləndirirdi ("Hüseyn Cavid və folklor", "Şeyx Sənan" faciəsi və "Əsli-Kərəm", "H.Cavid və xalq dramları", "H.Cavid və mifoloji obrazlar", "Romantik qəhrəman və dastan qəhrəmanları" və s.). Uzun illər Folklor və yazılı ədəbiyyat şöbəsinə rəhbərlik edən alim tədqiqat mövzularının diqqətlə seçilməsi, folklor və yazılı ədəbiyyat məsələləri – mif, folklor mətnlərinin yazılı ədəbiyyata transformasiya zəngin-

liyi, obraz köçürmələri, motiv formalarını nəzərə alaraq oxşar tədqiqatlardan qaçır, daha problematik məsələlərin arşdırılmasını irəli sürürdü. Folklorun ədəbiyyata təsiri ilə yanaşı, Kamran Əliyev ədəbiyyatın postfolklor dönəmində şifahi ədəbiyyata təsirinin də forma və şəkillərini nəzəri düşüncəyə gətirirdi. Məlum məsələdir ki, folklorun inkişaf tendensiyası həmişə ənənəvilik, davamlılıq üzərində qurulmur, sosial-mədəni proseslərə bağlı olaraq da yaranır. Folklorun yaradıcı komponentlərinin miqrasiyası, təcrübə mövcudluqları, müasir mədəniyyət kontekstində onların rolu, şifahi ədəbiyyatın xüsusi mədəni təcrübə kimi yaradıcılıq fəaliyyəti və məişətdə funksional və simvolik çevrilmələri professor Kamran Əliyevin bu sahədə əsas götürdüyü tədqiqat prinsiplərindəndir. Bu araşdırmalarda Kamran Əliyev, xüsusilə qədim mif simvollarının ritual və mətnlərdə yaşama formalarını diqqət mərkəzində saxlayırdı. Ritual daxilində daha çox sərbəstlik qazanan mif elementlərinin söz, yaradıcılıqda çoxsaylı mənalandırılmasını əsas götrürərək folklor və yazılı ədəbiyyat məsələlərində öyrəniləcək başlıca şərtlər sırasına daxil edir. Onun M.Süleymanlı, Ə.Cəfərzadə, İ.Muğanna kimi yazıçılar, bütövlükdə müasir poeziya və nəsrin folklor və yazılı ədəbiyyat məsələləri üzərindən apardığı tədqiqatlarında folklor mətnləri, mif elementlərinin yazılı ədəbiyyata transformasiyasının konkret modelləri təqdim edlir. Fərqli yazıçı mövqeyində oxşar transformasiya strukturlarının bir arada izahı isə tədqiqatçı tərəfindən şifahi yaddaşın simvollarının yazılı ədəbiyyatda müxtəlif kontekstlərdə qərarlaşma formalarını müəyyənləşdirir.

Qeyd edək ki, Kamran Əliyevin ictimai fəaliyyətinin bir istiqamətini də alimin pedaqoji sahədə həyata keçirdiyi vəzifələri təşkil etməkdədir. Təsadüfi deyildir ki, onun elmi araşdırmaları, tənqidi görüşləri bütün hallarda gələcək həmkarlarıyla davamlı şəkildə apardığı söhbət və fikir ayrılıqları mühitindən yol alırdı. Respublikanın müxtəlif ali məktəblərində onlarca mütəxəssis hazırlayan Kamran Əliyev pedaqoji fəaliyyətini heç zaman qarşısına qoyduğu ümumi vəzifələrdən ayırmamışdır. Alimin fikrincə, ən mükəmməl elmi mülahizələr təkcə adı kitablara salınan

ziyalılar arasında deyil, həm də tələbə auditoriyalarında səslənməli, yeri gəldikcə yeni problemlər məhz auditoriyalardan araşdırma masalarına daşınmalıdır. O, “Azərbaycan uşaq ədəbiyyatı”, “Ədəbi tənqid”, “Müasir Azərbaycan ədəbiyyatı”, “Müasir ədəbi proses” və s. fənlərdən təşkil etdiyi dərslərdə tələbənin elmi düşüncə potensialının seçilməsinə diqqət yetirmiş və onların istiqamətləndirilməsində həmişə ziyalı mövqeyini nümayiş etdirmişdir. Kamran Əliyev, xüsusilə Azərbaycan nəsrinin janr müasirliyi, yeni mövzu və problematikası, folklor ənənələri ilə zənginliyi, ayrıca adın nəsrdə rolu və s. ilə bağlı mövzularda tələbələrin yaradıcı fikirlərinin dinlənilməsini təşkil etdiyi auditoriyalarda xüsusi dərs ənənəsinə çevirmişdir.

Professor Kamran Əliyevin fəaliyyətində onun yaradıcılıq irsi də bu kontekstdə ayrıca yer tutur. Ədibin ayrı-ayrı dövrlərdə yazdığı şeirləri, hekayə və povestləri də Kamran müəllimin sənətə, sözə olan marağı, istəyinin ifadəsi idi. “Dağlı məhəlləsi”, “204 nömrəli avtobus”, “Bənövşə oyunu”, “Natura”, “Markesin ölümü” və s. hekayələri, “Yalquzaq”, “Qara köpək”, “Zəli”, “Vağzal” kimi silsilə povestləri onun hələ uşaqkən xatirələrində yer alan hadisələr, doğma el-obasının məişəti, insanları haqqında uzun illər apardığı müşahidələrində bir araya gətirdiyi həyat həqiqətləri, düşüncə və duyğularının ifadəsidir. Müəllif özü də dəfələrlə müsahibələrində etiraf edirdi ki, mənim heç zaman şair və yaxud nasir kimi tanınmaq arzum olmamışdır: “Mən uşaqlıq və gənclik illərimdə şeir yazmışam. Bu şeirlərin heç birini məcburiyyətdən qələmə almamışam. Həmin dövrdə sanki poeziyaya bir maraq var idi. Lakin mən sonradan bir-iki istisna nəzərə alınmaqla, həmin şeirlərin çapı ilə məşğul olmadım. Çünki şeiri poeziyanın mahiyyətini öyrənmək üçün yazırdım. Bu, mənə elm adamı kimi şeirin arxitekturasını bilmək üçün lazım idi. Əgər mən şeir yazmağı bacarmasaydım, romantizmdən elə bir dissertasiya yaza bilməzdim. Bunun sayəsində şeirin əlifbasını öyrəndim. Hekayə də belədir. Hekayə insanın öz daxili dünyasını ifadə etməyin bir formasıdır. ....Amma səmimi etiraf edirəm ki, mən yazıçı olmaq istəməmişəm. Sadəcə, hekayəni, nəsri daha yaxşı başa düşmək

üçün yazıram”. K.Əliyev nəsrində insan xoşbəxtliyinin planlaşdırılmaması məsələsini, sosial və əxlaqi cəhətlər, stereotiplər, bütövlükdə kiçik bir janr çərçivəsində insan talelelərini qoyurdu.

Onun 1998-ci ildə çapdan çıxan “Yalquzaq” povesti o dövrdə müasirləri, tələbələri, sənət adamları tərəfindən maraqla qarşılanmışdır. Kiçik bir kəndin simasında – mikro mühitdə insan obrazları, onların həyat, taleləri yazıçı tərəfindən olduqca canlı, milli koloritlərlə qələmə alınmışdır. Yazıçı kəndin – Diyadinin sakinlərini gündəlik iş-gücləri, bir-birilə qonşuluq, dostluq münasibətləri, narahatlıqları, qəzəb və sevinclərini konkret hadisələrə bağlayaraq sadə bir dillə nəsrə gətirir. Onun qəhrəmanları Hacı Murad, Ağköynəkli, Qadoş, Tutu nənə, Salatın, Sadıq, Həşim və s. ayrı-ayrılıqda fikir, geyim, stereotip elementlərlə diqqət mətkəzinə keçir, bu elementlər isə birləşərək milli mədəniyyətin konkret formalarını təqdim edir. Ədibin povestlərində “kənd nəsri”nə xas ənənəvi əmək porblemləri, təsərrüfat təcrübəsi, itirilmiş əxlaqi dəyərlər, nizamlı patriarxal həyat tərzi, yaxud təbiət birliyi kimi problemlər qaldırılmır. Bu nəsr daha ciddi həyat həqiqəti – tənhalıq, təklənmə, öz daxili səsinə qapanıb ünsiyyətdən uzaq düşən insanların taleyinə yol alır. Kamran Əliyevin qəhrəmanlarının hər biri özlərinin psixologiyası, milli stereotiplərə uyğun xarakteri, yaxud sosial davranışları ilə ayrı-ayrılıqda maraq doğurur. Tənqidi, publisistik yazılarında olduğu kimi nəsrində də Kamran Əliyev qəhrəmanlarının taleyini, onların ətrafdakılara münasibətini əvvəlcədən müəyyənləşdirmir, bəzən bu obrazlar yazı prosesində özləri öz kimliklərini bildirir, müəllifi cavabdehlikdən xilas edir. Ədibin “Yalquzaq” povestinin qəhrəmanı Hacı Muradla bağlı etirafları bu baxımdan onun yazıçı mövqeyinin daha fərqli tərəflərini üzə çıxarır: “Hacı Murad yalnız Arazı keçəndən sonra anlayır ki, kənddə qalan Salatını hamıdan çox istəyirmiş. Mən əsəri yazıb bitirənə qədər bilmirdim ki, o, Salatını istəyir. Əgər bilsəydim, povesti başqa cür yazardım. Mən yalnız həmin anda Hacı Muradın səsini eşidib, onu kağız üzərinə köçürdüm. Bu, yaradıcılıq psixologiyasıdır. Düşünürəm ki, yaradıcılıq psixologiyasına yaxşı bələd olan ədəbiyyatşünaslar daha yaxşı məqalə yaza bilərlər”.

Bütün hallarda K.Əliyevin nəsrində milli stereotiplər fərdin həyata yönəlməsi, qəhrəmanların sosial hərəkətləri üçün bir növ motivasiya mənbəyi rolunu oynayır. İlk povestini "Yalquzaq" adlandıran ədib İ.Şıxlının "Ölən dünyam", M.Süleymanlının "Səs", Y.Səmədoğlunun "Qətl günü" və s. əsərlərində olduğu kimi canlı obrazı – yalquzağı hadisələrin əlaqələndirilməsində başlıca motiv kimi götürür, yalquzaq baş vermiş, eləcə də gözlənilən hadisələr üçün xəbərdarlıq və qorxunu canlandırır. Povestdə hər şeydən öncə, yalquzağın tək-tənha aləmi, Diyadin sakinlərinin tənhalaşan dünyaları ilə üz-üzə dayanır və yazıçı təxəyyülündə dünyanın zaman perspektivində insanlığın acınacaqlı taleyi simvollaşdırılır. Kamran Əliyevin povest qəhrəmanları daha çox daxili səsləri ilə danışır, indiki zaman keçmişin izində obraz təlqinində başlıca rol oynayır. Zübeydə xalanın oğlunun toyunda təndirdə çörək yapan Qadoş ("Yalquzaq"), "Ağıl" üstündən keçən Hacı Murad ("Yalquzaq"), Ağköynəklinin, vağzalı süpürən Səhnənin ("Vağzal") və. s. Düşüncələri ilə müəllif oxucunu keçmişin izinə yönləndir, obrazlar haqqında mühakimə yürütməyi onların öhdəsinə buraxır. Bu əsərlərdə müəllif mövqeyini heç bir hadisə və yaxud qəhrəman üzərində saxlamır, oxucunun onları tanıması və qəbul etməsi üçün neytrallıq nümayiş etdirir.

Alim təfəkkürü, həyat təcrübəsinə dayanan Kamran Əliyev düşüncələrinin ardınca çıxdıyı səfərlərində onun öyrənib, araşdırıb ilkin təqdimatlarla elmə gətirdiyi yenilikləri sonda zirvə konsepsiyasında təsdiqini tapmışdır. Hansı fəaliyyət sahəsindən baxırıqsa baxaq, Kamran müəllimin şəxsiyyətini, böyüklüyünü, qürurunu görürük. Bu bir həqiqətdir ki, ömrünün son günlərində ağır xəstəliklə mübarizə aparmasına baxmayaraq o, işindən – çox sevdiyi sözün varlığı, yaradıcı ruhuna bağlılığından, müəllim peşəsindən əl çəkmədi. O, bu dünyada seçdiyi ömür yolunda ziyalı, alim, pedaqoq vəzifəsinə sonadək sadiq qaldı. Bu baxımdan professor Kamran Əliyevin həyat və yaradıcılığı bütünlüklə xalqa xidmətin yolunu göstərən bir taleyin dərsləridir....

Ruhun şad olsun, Kamran müəllim!

# KAMRAN ƏLİYEVİN ELMİ YARADICILIĞINDA ƏDƏBİYYATŞÜNASLIQ VƏ ƏDƏBİ TƏNQİD

# LITERARY CRITICISM AND LITERARY CRITICISM IN THE SCIENTIFIC WORK OF KAMRAN ALIYEV

# ЛИТЕРАТУРОВЕДЕНИЕ И ЛИТЕРАТУРНАЯ КРИТИКА В НАУЧНОМ ТВОРЧЕСТВЕ КАМРАНА АЛИЕВА

**Nizami TAĞISOY**
*Filologiya elmləri doktoru, professor,*
*Bakı Slavyan Universiteti*

**Özət**

Təqdim olunmuş materialda biz prof. Kamran Əliyevin Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri M.F.Axundzadə, H.Cavid, M.Şaxtaxtlı, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, M.Hadi, C.Cabbarlı, S.Vurğun, R.Rza və başqa bu kimi şair və yazıçılarla bağlı elmi-nəzəri baxışlarını təhlil obyekti kimi seçmişik. Prof. Kamran Əliyev bütün yaradıcılığında ədəbiyyatşünaslıq və ədəbi tənqid məsələlərini diqqət mərkəzində saxladığından yanaşmaları ilə dərindən tanış olduqda onun Azərbaycan ədəbiyyatşünaslığında ədəbi-bədii cərəyanlarla bağlı apardığı təhlilləri dəyərləndirməyə səy göstərmişik.

**Açar sözlər:** ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq, şəxsiyyət, təhlil, aktual problemlər, romantiklər, işarə sistemi

**Summary**

In the presented material, we study the scientific and theoretical views of Prof. Kamran Aliyev, dedicated to prominent representatives of Azerbaijani literature such as M.F.Akhundzade, G.Javid, M.Shakhtakhtli, J.Mammadkulizade, M.A.Sabir, A.Shaik, M.Hadi, J.Jabbarli, S.Vurgun, R.Rza and many others, as well as his activities in the field of literary studies and literary criticism. Upon deep acquaintance with the literary works of K.Aliyev, we found that he, as one of the talented scientists, carried out not only an analysis of their work, but also expressed valuable ideas about the literary and artistic trends that took place in Azerbaijani literary studies.

**Keywords:** literary history, literary studies, personality, analysis, current problems, romantics, sign system

**Резюме**

В представленном материале мы изучаем научно-теоретические взгляды проф. Камрана Алиева, посвященные видным представителям азербайджанской литературы таких, как М.Ф.Ахундзаде, Г.Джавид, М.Шахтахтлы, Дж.Мамедкулизаде, М.А.Сабир, А.Шаик, М.Хади, Дж.Джаббарлы, С.Вургун, Р.Рза и мн. др., а также его деятельность в области литературоведения и литературной критики. При глубоком ознакомлении с литературоведческими трудами К.Алиева мы установили, что он как один из талантливых ученых осуществил не только анализ их творчества, но и высказывал ценные соображения и относительно литературно-художественных направлений, имевших место в азербайджанском литературоведении.

**Ключевые слова:** история литературы, литературоведение, личность, анализ, актуальные проблемы, романтики, знаковая система

2018-ci ildə AMEA-nın Folklor İnstitutu Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Kamran Əliyev haqqında Azərbaycan alimləri, elm ictimaiyyətinin fikir və mülahizələri yer alacaq məqalələr toplusu hazırlanırdı. Mənə də onunla bağlı qənaətlərimi bildirmək üçün təklif gəlmişdi. Mən də bu təklifi könülxoşluğu ilə qəbul edib, rəy bildirməyə razı olmuşdum. Həmin kitab prof. K.Əliyevin 65 yaşı ilə bağlı hazırlanırdı. Elə həmin ildəcə "Kamran Əliyev – 65" kitabında digər təfəkkür sahibləri ilə yanaşı, mənim də "İnsan və alim fədakarlığının fəzası" adlı məqaləm yer almışdı (2, s. 62-63).

Hələ həmin məqalədə mən Kamran Əliyevin mədəni, mənəvi, əxlaq keyfiyyətləri ilə yanaşı, xüsusi olaraq onun ədəbi-elmi düşüncəsinin xeyli nəzərə çarpan cəhətlərini qeyd etmişdim. Kamran müəllim həm özünün insani keyfiyyətləri, həm də ədəbiyyatşünaslıq və ədəbi tənqiddə, ədəbiyyat tarixçiliyində özünə xüsusi mövqe qazandırdığı göz önündə olmaqla birlikdə, onun davranışı ilə alimliyi də bir-birini üzvü şəkildə tamamlayırdı. Lakin böyük alimin bütün həyatının mərkəz xəttində onun ədəbiyyatşünaslığımıza bəxş etdiyi əsərlərinin elmi-nəzəri dəyəri daha əhəmiyyətlidir.

Kamran Əliyev təkcə Hüseyn Cavidin bir küll halında araşdırıcısı deyildi, onunçün XIX əsrdən üzü bəri (bəzən ondan da əvvəlki dövrlərə) məsuliyyətlə ekskurs etməsi, Cavidin yaradıcı irsinin (şeirləri, poeması, dramaturgiyası, publisistikasının və s. xeyli fərqli yönləri) altının üstünə, üstünün altına çevrilməsi, şaquli və üfüqi rakurslardan təhlilləri, təhlil zamanı bəzən təhtəlşüurdan gələn fikir axınının ümumiləşdirilməsi, romantizmin çeşidli bucaqlardan dəyərləndirilməsi, klassiklərlə müasirlərin mövqelərini təhlil etməsi (M.F.Axundzadə, A.Bakıxanov, N.Vəzirov, M.Şahtaxtlı, M.Cəlil, A.Şaiq, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, C.Cabbarlı, S.Vurğun, R.Rza və başqaları) bir daha prof. Kamran Əliyevin müasir Azərbaycan ədəbiyyatşünaslığında tutduğu mühüm mövqeyi əks etdirməkdədir.

Kamran Əliyev, təəssüf ki, bu dünyaya vaxtsız vida etdi. Onu işlədiyi kollektivdə, müdiri olduğu şöbədə, Azərbaycan elmi dairələrində çox sevirdilər. O, ədəb-ərkanı, davranışı, elmi-nəzəri mülahizələri ilə ictimaiyyəti və nəzəri fikrimizi maraqlandırmağı bacaran şəxsiyyətlərdən biri idi. Kamran müəllimin yoxluğuna hələ də inana bilmirəm. Aramızda daim xətir-hörmət, yaxşı münasibətlər mövcud idi. Heyif Kamran Əliyevsiz qaldı bu dünya! Amma indiyədək alın yazısının da heç kəs əksinə gedə bilməyib. Eyni zamanda həm də düşünürəm ki, ölüm onsuz da hamımız üçün var. Gec, ya tez o, hamımızın qapısını döyəcəkdir. Kamran müəllimin ailəsi, qohum-əqrəbası, dostları, tanışları, bizlər o qədər də məyus olmamalıyıq. Çünki Kamran müəllim Allah tərəfindən ona verilmiş ömür payını böyük məsuliyyətlə yaşayıb, ədəbiyyatşünaslığımıza dəyərli əsərlər bəxş edib, dünyaya göz yumdu.

Onun aktuallıq kəsb edən araşdırmaları sırasında "Əsərləri"nin V cildinə daxil etdiyi nümunələrdə biz sırf ədəbiyyatşünaslıq və ədəbi tənqid məsələlərinin çeşidli şərh və izahını görürük (1).

Kifayət qədər aktual problemləri özündə ehtiva edən adını çəkdiyimiz bu araşdırmada nəzəriyyə məsələlərindən başlayaraq (burada milli ideya, mərhələ təsnifatı səciyyəsi, Mir Cəlal Paşayev – tənqidçi və nəzəriyyəçi alim, şəxsiyyət və ideal vəhdətinin yeni mahiyyəti, romantik dramaturgiya, bədii tərcümə

problemləri və tanınmış ədəbiyyat tarixçisi, professor Abbas Zamanova həsr etdiyi monoqrafiya, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında silinməz izlər buraxmış F.Köçərli və akad. Məmməd Cəfərlə bağlı qələmə aldığı məqalələri, Azərbaycanın tanınmış tənqidçilərinin elmi şəxsiyyətinə və əsərlərinə həsr etdiyi digər çoxsaylı məqalələri, akad. M.Talıbzadə haqqında "Realizmin tənqidində ən yeni mərhələnin başlanğıcı", prof. K.Məmmədov, prof T.Əhmədov, prof. Y.Axundov və Azərbaycan ədəbiyyatının XX əsrin əvvəllərində yazıb yaratmış A.Sur yaradıcılığı ilə bağlı mülahizələri əsaslı şəkildə idrak edilməklə ortaya qoyulmuşdur.

Prof. K.Əliyevin qeyd etdiyimiz kitabındakı maraqlı rubrikalardan biri "Ədəbi tənqid" bəhsidir. Burada hər bir başlıqda təqdim olunmuş "Ədəbi-tənqid"də bədiilik", "Romantik tənqid və Sabir", "F.Köçərli tənqidinin sənətkarlıq məsələləri", "Seyid Hüseyn – görkəmli tənqidçi və yazıçı" kimi problematik məsələlər doğru-dürüst metodoloji istiqamətdə araşdırılmaqla müəllifin ədəbi tənqidə fərdi baxışlarını çözməyə şərait yaradır. Tənqiddə "bədiilik" anlayışının mahiyyətinə varmaq üçün əsər müəllifi akad. Məmməd Cəfər, prof. Təhsin Mütəllimov, Yaşar Qarayev və digərlərinin baxışları ilə yanaşı, həm də rus A.P.Sumarokov, V.A.Yukovski, A.V.Makedonov, M.F.Axundzadə, D.V.Starikov və digərlərinin nəzəri müddalarına əsaslanaraq öz fərdi nəzər nöqtəsinin ortaya qoyulmasına müvəffəq olur (1).

"Romantik tənqid" və "Sabir" başlıqlı məqalələrdə isə o, haqlı olaraq söyləyir ki, XX əsr Azərbaycan ədəbiyyatında romantiklər və realistlər arasında olan münasibətlər öz problematikası ilə müasir ədəbiyyatşünaslıqda bir çox mübahisələrin mövzusu olmuşdur. Bu kontekstdə o, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq və M.Ə.Sabir arasındankı yaradıcılıq əlaqələrini qabardır (1, s. 384). Seyid Hüseynə gəldikdə isə K.Əliyev onu milli ədəbi-bədii fikrimizin görkəmli siması kimi nəzərdən keçirməklə, həm də mahir hekayə ustalığını ön plana çəkib, onların eksküliziv təhlilini verdikdən sonra, həmin əsərlərdəki obrazların tipik və fərdi sənətkarlıq xüsusiyyətlərini incələyir (1, s. 406-408).

Prof. Kamran Əliyev Mustafa Quliyev, Əli Nazim, Feyzulla Qasımzadə, Kamal Talıbzadə və başqa bu kimi tənqidçi-estetlərin də sənətinin əsas istiqamətlərini kitabda təqdim etmiş, onların elmi yaradıcılığının çeşidli tərəflərinə müəllifin yetirdiyi diqqət də öz məsuliyyəti və elmi yanaşması ilə seçilir. Burada K.Əliyev Ə.Nazimin H.Cavidə, N.Rəfibəyliyə tənqidçi münasibətini səciyyələndirirsə, akad. F.Qasımzadədən danışdıqda bu görkəmli ədəbiyyat tarixi bilicisinin düşüncəsini "vərəqləyərkən" onu ədəbiyyat tarixçiliyinin müəyyən gərəkli səhifəsini təmsil edən müstəsna təfəkkürlü alimlərdən biri kimi xarakterizə edir. K.Əliyevin F.Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabını təkbaşına ədəbiyyat tarixi yaratmaq sahəsində Firudin bəy Köçərlidən sonra ikinci ciddi addım hesab etdiyini söyləyir (1, s. 493). Biz də K.Əliyevin bu fikirləri ilə razıyıq və hesab edirik ki, dərslik tələblərini ödəmək baxımından, doğrudan da, akad. Feyzulla Qasımzadənin az qala əlli il bundan öncə yaratdığı dərslik modeli bu gün də öz aktuallığını itirməmişdir (3). Kamran müəllimin söylədiklərinə dəstək olaraq qeyd edək ki, F.Qasımzadədən sonra ədəbiyyatımızın bu dövrünə dair yazılmış dərsliklər, fikrimizcə, heç bir keyfiyyətləri ilə adı çəkilən kitabın səviyyəsinə qalxa bilməmişdir.

Mən prof. Kamran Əliyev haqqında yuxarıda adını çəkdiyim "Kamran Əliyev – 65" kitabındakı yazıda onu fədakar şəxsiyyət adlandırmışdım və mənə elə gəlir ki, bu alim fədakar şəxsiyyətin əksər konturlarını da özündə əks etdirirdi. Yəqin elə buna görə də o, bütün təfəkkür və bacarığını filoloji fikrimizin irəliləməsinə həsr etmişdi. Odur ki, prof. Kamran Əliyevin araya-ərsəyə gətirdiyi əsərlərinin on cildliyi, şübhəsiz ki, ədəbiyyatşünaslığımızın və ədəbi tənqidimizin pozitiv hadisəsi kimi dəyərləndirilməlidir. Yəqin ki, K.Əliyevin on cildliyi Azərbaycan ədəbi-nəzəri məkanında tələb olunan mənbələr kimi istifadə edilmə şansı qazanacaqdır. Onun ədəbi-estetik və fəlsəfi-sosioloji rakursda təqdim etdiyi əsərləri Azərbaycan ədəbiyyatşünaslığının və ədəbiyyat tarixinin mühüm məsələlərini özündə əks etdirməkdədir.

K.Əliyevin əsərlərinin beşinci cildində ədəbiyyatşünaslıq problemləri sistemli vahid orqanizm kimi təqdim edilmişdir. Təbiidir ki, məsələnin belə formatı üçün tədqiqatçının digər humanitar biliklər sahəsinə, məsələn, folklora və folklorşünaslığa, fəlsəfi yanaşma tərzinə və psixoloji təhlilə, mədəniyyətşünaslığa, tarixə və s. dair zəruri informasiyalara malik olması ortada dayanır.

K.Əliyevin nəzəri və praktik təfəkküründə ədəbiyyat söz sənəti kimi bütün mənaları ilə təqdim edildiyindən, müəllif əsərdə linqvistik səviyyələrin çıxış etdiyini də yaxşı görə bilirdi. Eyni zamanda alim onu da yaxşı bilirdi ki, hər hansı əsər adi düşünülmüş deyim deyil, o sanki ikinci işarə sistemidir. Tanınmış ədəbiyyatşünas-semiotik Y.Lotman sanki bunu nəzərə alaraq bədii ədəbiyyatın xüsusi dildə danışdığını, ikinci sistem kimi yozum dili üzərində bərqərar olduğunu söyləmişdi (4, s. 30).

K.Əliyevin bədii ədəbiyyatın az qala bütün modelleri ilə bağlı təhlillər apardığını görürük. Burada bədii əsərlərin tədqiqi, bədii-tənqidi rəylər, tekstoloji təhlillər vardır. Odur ki, K.Əliyev təhlil zamanı öz tədqiqatlarının hədəf və sərhədlərini də bacarıqlı ədəbiyyatşünas kimi mühüm elmi baxışlar müstəvisində öyrənmişdir. K.Əliyevin nəzəriyyəçi və praktik xüsusiyyətləri ilə yanaşı, onun bədii yaradıcılıq arsenalında yer almış bacarıqlardan da danışmaq zəruridir. K.Əliyevin Azərbaycan mətbuatında son illərdə nəşr olunan əsərləri həm də bu müəllifin hekayənəfislik imkanlarını ortaya qoyurdu. Beləliklə, söylədiklərimiz göstərir ki, prof. Kamran Əliyev bir ədəbiyyatşünas kimi məsuliyyətli və şərəfli alim ömrü yaşadı və əbədi dünyasına qovuşdu. Allah rəhmət eləsin! Yeri cənnətdə olsun!

## QAYNAQLAR


1. Əliyev K. Əsərləri. 10 c., V c. Bakı, "Elm və təhsil", 2018, 556 s.
2. Kamran Əliyev – 65. Bakı, "Kaspi" nəşrləri seriyası, "Zərdabi LTD" MMC, 2018, s. 62-63
3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəblər üçün dərslik. İşlənmiş ikinci nəşri. Bakı, "Maarif", 1974, 488 s.
4. Лотман Ю. М.Структура художественного текста. М., 1970

# AÇIQ KİTABIN AÇILMAMIŞ SİRLƏRİ

# THE UNDİSCOVERED SECRETS OF THE OPEN BOOK

# НЕРАСКРЫТЫЕ ТАЙНЫ ОТКРЫТОЙ КНИГИ

**İslam SADIQ**
*Filologiya elmləri doktoru,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin elmi işçisi*
*islamsadiq1953@yahoo.com*

**Özət**

"Dədə Qorqud" açıq kitabdır. Onun haqqında bu ifadəni ilk dəfə filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Kamran Əliyev işlədib.

"Dədə Qorqud"un yeddi qatı var. Onları hamı görmür. Kamran Əliyev eposun mətninə öz prizmasından baxmaqla onun ikinci, üçüncü və s. qatlarına enməyi bacarmışdır. "Açıq kitab – "Dədə Qorqud" monoqrafiyası belə yaranmışdır.

Bu məqalədə yuxarıda sadalanan məsələlərin üstünə işıq salınmışdır.

**Açar sözlər:** Kamran Əliyev, "Açıq kitab", "Dədə Qorqud", yeddi qat, sirr

**Summary**

"Dada Korkut" is an open book. This expression was first used by ph.d. of philology, professor, corresponding member of the Azerbaijan National Academy of Sciences Kamran Aliyev.

There are seven layers of "Dada-Korkut". Not everyone sees them. Kamran Aliyev looking at the text of the epic from his own perspective, considers its second, third and so on. managed to descend to the layers. "Aciq kitab (Open book)-Dada Korkut" this is how the monograph was created.

In this article clarifies the issues listed above.

**Key words:** Kamran Aliyev, "Aciq-kitab", "Dada-Korkut", seven layer, secret

**Резюме**

«Деде Горгуд» открытая книга. О ней это выражение впервые использовал доктор филологических наук, профессор, член-корреспондент НАН Азербайджана Камран Алиев.

Текст «Деде Горгуда» имеет сем пластов. Каждый не видит все эти пласты. Камран Алиев взглянув к тексту через своей призмы, сумел спуститься ко вторым, третьим и др. его пластов. Его монография «Открытая книга – «Деде Горгуд» так появилась.

В данной статье освещаются вышесказанные вопросы.

**Ключевые слова:** Камран Алиев, «Деде Горгуд», «Открытая книга», семи пластов, тайны

Dünya söz sənətinin nadir və bənzərsiz incisi olan "Dədə Qorqud" mətn şəklində əlimizdədir, gözümüzün qabağındadır, yəni "Açıq kitab"dır. Ancaq bu "Açıq kitab" ifadəsi yalnız mətnin yazılı şəkildə əlimizdə olması anlamını bildirir. Çünki "Dədə Qorqud" hamı üçün "Açıq kitab" deyil. Ona görə də onu "Açıq kitab" adlandırmaq heç kimin ağlına gəlməyib. "Dədə Qorqud" dastanı haqqında "Açıq kitab" ifadəsini ilk dəfə AMEA-nın müxbir üzvü Kamran Əliyev işlədib. Bu "Açıq kitab"ın açılmamış sirləri o qədər çoxdur ki, onu araşdırdıqca araşdırmaq, öyrəndikcə öyrənmək, çözələdikcə çözələmək üçün yeni-yeni materiallar tapılır. "Oğuz igidləri tükənməz olduğu" kimi, dastanın mətninin alt qatlarında gizlənib, öz araşdırıcılarını gözləyən sirlər də eləcə tükənməzdir. Göyün yeddi qatı, yerin yeddi qatı kimi, "Dədə Qorqud"un mətninin də yeddi qatı var. Onun araşdırdıqca, öyrəndikcə tükənməməyi də məhz bu yeddi qatla bağlıdır.

"Dədə Qorqud"un mətninin üzdə olan birinci qatını hamı görür, çünki o, göz qabağındadır. Azərbaycandakı araşdırmaların böyük əksəriyyəti məhz birinci qatın, yəni görünən materialların əsasında aparılmışdır. Əlyazmanın üzünü köçürənlərin qələmlərindən süzülüb mətnə əlavə edilmiş İslam motivləri də yalnız üst qatdadır, alt qatlarda onlar yoxdur.

Mətnin ikinci qatını hamının içindən seçilənlər görürlər. Bu qatı görmək də çox çətin deyil. Sözsüz ki, qatdan-qata endikcə adi gözün görmək imkanları azalır. Ona görə üçüncü qatı görən-

lər ikinci qatı görmək üçün seçilənlərin içindən seçilirlər. Mətnin alt qatlarına endikcə onu görənlərin və görmək istəyənlərin də sayı azalır. Hələlik "Dədə Qorqud"un ən dərin qatlarına enən Kamran Əliyev olub. Onun "Açıq kitab – "Dədə Qorqud" adlı sanballı monoqrafiyasında söylənən fikirlərin çoxu məhz mətnin alt qatlarından üzə çıxarılıb. Burada ilkin olaraq toxunmaq istədiyim məsələ şeirlə at yerişinin qarşılaşdırılmasıdır. "Dədə Qorqud"dakı şeirlərin at yerişilə qarşılaşdırılması və onların arasındakı uyğunluqların üzə çıxarılıb inandırıcı şəkildə bir-birinə bağlanması, doğrudan da elmi yenilikdir, hətta bunu Kamran Əliyevin kəşfi də adlandıra bilərik.

Kamran Əliyev, akademik Tofiq Hacıyevin "dastanın nəsr kimi verilən hissələri də şeirlə və ya şeir tələblərini ödəyən qisimlərlə doludur" fikrinə söykənərək, birinci növbədə, dastanın nəsr mətnlərinin içindəki iki və dörd misralı şeirləri tapıb üzə çıxarıb. Bundan sonra o, həmin şeirləri at yerişilə tutuşdurub. Ancaq bundan öncə atın türklərin həyatında necə önəmli yer tutduğu haqqında Orxan Şaiq Gökyayın və akademik Tofiq Hacıyevin fikirlərini örnək gətirir: "Türklərin həyatında atın yeri başqa, heç bir varlıqla ölçüyə gəlməyəcək denlü (dərəcədə) böyük və önəmli olmuşdur. At, bu dünyada yalnız onun silah arkadaşı olduğu için degil, öldükdən sonra da ötəki dünyada hər baxımdan kəndisindən yararlanacağına inandığı için ayrı və eşsiz bir dəyər daşımaqdadır (4, səh. CDXXVI).

"Oğuz cəmiyyətində at bütün dinamikanın mənbəyidir: minik üçün yarayır, döyüşdə çox həlledici qüvvədir, hətta qida mənbəyidir – əti yeyilir, südü içilir, tükündən yay üçün istifadə olunur, örkən və s. şeylər toxunur. Bir sözlə, Oğuz cəmiyyəti üçün atdan qiymətli ikinci varlıq, ikinci təbiət qüvvəsi yoxdur" (2, səh. 29).

Kamran Əliyev bu fikirləri ona görə xatırladır ki, at Oğuzların həyatında bu qədər önəmli yer tutmasaydı, igidlər, qəhrəmanlar atı qardaş qədər əziz bilməsəydilər, onların yaratdıqları şeirlərlə at yerişi arasında bu qədər dərin bağlılıq yaranmazdı. Ona görə K.Əliyev inamla yazır: "At yerişi üçün ən əhəmiyyətli məqamlardan biri onun yorğa yerişidir. "Bu yerişdə at növbə ilə

gah bir tərəfdəki – sağ ayaqlarını, gah o biri tərəfdəki – sol ayaqlarını eyni zamanda irəli atır”. Təsəvvür etmək çətin deyil ki, bu, şeirdə qoşa misradır”.

Atın başqa bir yerişi çapmaqdır, yəni dörd nalla çapmaq. Bu vaxt atın dörd ayağının dördü də yerdən eyni vaxtda üzülür. Türk şeirindəki dördlük bununla bağlıdır” (1, səh.18).

Atın yerişilə şeir arasındakı bağlılıq haqqında Kamran Əliyevin sön sözü budur: “Bizcə, elə məhz türk şeirinin formalaşması atın ayaqlarına və yerişinə borcludur” (1, səh.18).

K.Əliyev yalnız misraların sayında yox, qafiyələnmə sistemində də at yerişilə bağlılıqların olduğunu üzə çıxarıb: “Atın başqa bir yerişi yortmaqdır. Maraqlıdır ki, bu sözün özü də “Dədə Qorqud” eposunun mətnində işlənmişdir. Həmin yerişdə qabaq sol ayaqla arxa sağ ayaq və qabaq sağ ayaqla arxa sol ayaq birgə atılır. Türk şeirindəki çarpaz qafiyə sistemi bu ahənglə tam üst-üstə düşür” (1, səh.18).

Bunlar ilk baxışda qəribə görünə bilər, şübhə doğurmağı da mümkündür. Atın yerişi və ayaq səsləri qulaqlarında səslənməyənlərin bu fikirlərə inanması çətindir. Lakin bunlar çox maraqlı və inandırıcı fikirlərdir. Onların təsdiqini bir az da gücləndirmək üçün burada sazın Koroğlu havaları ilə at yerişi arasındakı bağlılığı göstərmək istəyirəm. Sazın “Misri”, “Cəngi” və “Döşəmə Koroğlu” havaları çalınarkan aşığın təzənəni simlərə necə vurduğuna diqqətlə qulaq asanda buradakı ritmlə at yerişinin ritmi arasında çox böyük səsləniş, oxşarlıq, bənzəyiş olduğu asanlıqla duyulur. Hətta belə demək olar ki, Koroğlu həmin saz havalarını atın ayaq səslərinə qulaq asa-asa yaratmışdır.

K.Əliyev yazır ki, “bədii düşüncə harmoniyadır və təklikdə harmoniya yoxdur” (1, səh. 5). Tamamilə doğrudur və harmoniya təfəkkür hadisəsidir. İstər iki misralı, istər dörd misralı türk şeirində, həmçinin qoşa və çarpaz qafiyələnmədə harmoniya açıq-aydın görünür:

İki həsrət bir-birinə buluşdular,
İssiz yerin qurdu kimi ulaşdılar (3, səh. 114).

Və yaxud:

Boyu uzun<br>Burla xatun. (3, səh. 32)

Azğın dinli<br>Quzğun dilli (3, səh. 74).

Və yaxud:

Bir qiyamət savaş oldu,<br>Meydan dolu baş oldu (3, səh. 85).

Və yaxud:

Baba deyü ağlatdılar,<br>Ana deyü bozlatdılar (3, səh. 77).

Dastanın nəsr parçalarının içindən seçilib götürülmüş bu şeirlərdəki harmoniya və simmetriya göz qabağındadır. Hər biri qoşa sətirdir, qafiyələnir, hər sətirdəki sözlərin sayı da, hecaların bölgüsü də eynidir: birincidə 4+4+4; ikincidə və üçüncüdə 2+2; dördüncüdə və beşincidə 4+4.

Türk şeirilə at yerişi arasındakı oxşarlığı, bənzəyişi yaradan, onlardakı ritmlərin səsləşməsini, hətta üst-üstə düşməsini təmin edən məhz harmoniyadır. Harmoniyanı yaradan isə təfəkkürdəki simmetriyadır. Harmoniya və simmetriya türk təfəkkürünün ən səciyyəvi xüsusiyyətləridir. Türk təfəkkürünün yaratdığı hər şeydə bir harmoniya və simmetriya var. Bu fikrin doğruluğuna inanmaq üçün türk xalçalarına diqqətlə baxmaq bəs eləyir. Şeirində harmoniya və simmetriya olmayan xalqların təfəkküründə də harmoniya və simmetriya yoxdur.

Qorqudşünaslıqda tez-tez eposun ayrı-ayrı boyları arasında bağlılığın olmadığı, hətta bəzi boyların mətnə sonradan artırıldığı kimi əsassız fikirlər səslənir. K.Əliyev həmin fikirlərdən bir neçəsini misal çəkərək bu bağlılığı onların görə bilmədiyinin səbəbini çox doğru duyur: "Ancaq unutmaq olmaz ki, "Dirsə xan oğlu Buğac xan boyu"nun eposun bütöv mətni ilə struktur əlaqəsi vardır. Şübhəsiz, o ayrı məsələdir ki, bu struktur əlaqələri bəzən son dərəcə incə, bəzən də "gözəgörünməz" formadadır" (1, səh. 21-22). Məsələ də elə bu gözəgörünməzliyin başındadır. Onları görməyi bacarmayanlar da fərqinə varmadan bu əlaqələrin yoxluğunu söyləməklə elmdə yanlış fikir formalaşdırırlar. K.Əliyev

isə dastanın birinci və ikinci boyları arasında çoxlarının görə bilmədiyi bağlılığı açıb göstərmək üçün çox incə bir məqama toxunur: "Yəni Dirsə xanın xanımının da, Burla xatunun da təqdiminə aid olan hər iki mətnə bir söyləyicinin ifası kimi baxmaq daha doğrudur" (1, səh. 35). Doğrudan da əgər hər iki boy bir söyləyicinin ifasıdırsa (K.Əliyev bunu yetərincə sübut edir), təkcə bu fakt onların arasındakı bağlılığın təsdiqi üçün bəs eləyir.

Həm də Kamran Əliyev bu fikri birdən-birə söyləməyib. Dastanın birinci və ikinci boylarının mətnlərini hərtərəfli təhlil etdikdən, tutuşdurmalar apardıqdan sonra o, həmin qənaətə gəlib. Tutuşdurmalar və qarşılaşdırmalar üçün örnəklər düzgün seçiləndə, təhlillər elmi prinsiplər əsasında aparılanda, çıxarılan nəticələr də inandırıcı olur.

"Dədə Qorqud"da igidlərə ad vermək məsələsinə toxunan K.Əliyev Beyrəyə və Uruza ad qoyulması haqqında dastanda heç bir söz deyilmədiyinə də toxunur və yazır: "Buradaca belə bir cəhəti qeyd edək ki, Buğaca buğaya qalib gəldiyinə görə, Basata ata qalib gəldiyinə görə ad verildiyi üçün yəqin Beyrəyə də ("börü" qurd mənasındadır) qurdu basdığına görə ad vermişlər. Ehtimal ki, həmin boyun belə bir variantı mövcud olmuşdur.

Ancaq dastanda Dədə Qorqud gəlib Uruza ad vermir, çünki Uruz tanınan bəylərdəndir, yəni Qazan xanın oğlu, Bayındır xanın nəvəsidir" (1, səh.55).

Beyrəyin adının qurdla – börüylə bağlanması həm hər iki sözün fonetik oxşarlığı, həm də onun igidliyi, qorxmazlığı, cəsarəti və bütün bunlara görə Oğuzda niqabla gəzən dörd igiddən biri olmasıyla təsdiqlənir. Üstəlik onun atası Baybörənin adında da qurd – börü sözü var. Beyrək həm də qurd oğlu qurddur. Dastanda "qurd əniyi qurd olar", "qurd üzü mübarəkdir", "qurdla söyləşəlim" kimi hikmətli deyimlərin işlənməsi də təsadüfi deyil. Deməli, Beyrək adının qurdla bağlanmasında bir həqiqət işartısı var. Onu təkzib etmək üçün isə heç bir əsas yoxdur. Təkzib edilməyən hər bir fikir təsdiqlənmiş sayılır.

Uruz haqqında deyilən fikir də ağılabatandır. O, Qazan xanın oğlu, Bayındır xanın nəvəsidir. K.Əliyevin doğru olaraq vur-

ğuladığı kimi, "Uruz isə hər şeydən qabaq, eposda epik ənənənin qoruyucusudur. Həyatda sayılıb seçilən nəsil ənənəsi, yəni şəcərəsi olan və həyatda şəcərəsini qorumağı bacaran Uruz eposda da epik ənənəni qorumağa daha çox səlahiyyətlidir, çünki Uruz Qazan xanın oğlu, Bayındır xanın nəvəsidir" (1, səh. 55).

Tamamilə doğrudur və Uruza bütün səlahiyyətlər, statuslar və ad onun doğulduğu gün verilib, yəni ona hər şey irsən keçib. Onu digər Oğuz igidlərilə eyni sırada görmək doğru deyil. Axı Oğuz cəmiyyətində hər kəsin öz yeri var. Uruz xanlar xanı Bayındır xanın və Qazan xanın timsalında hakimiyyətin varisi, davamçısı kimi doğulmuşdur. Onun adı da, statusu da anadangəlmə üstündədir. Ona görə də Uruz bütün sınaqlardan və mərasimlərdən yüksəkdə durur.

Göründüyü kimi, "Dədə Qorqud" dastanında bütün qəhrəmanların adları ilə onların şəxsi keyfiyyətləri, xarakterləri arasında sıx bir bağlılıq var. Hətta mənfi tiplərə də ad verilərkən bunlar mütləq nəzərə alınır. Yalançı oğlu Yalıncıq, Boğazca Fatma, Qısırca Yengə adları belə yaranıb. Ona görə Kamran Əliyev çox doğru deyir: "Hər halda verilən adla onun arxasında baş verən hadisənin əlaqəsinin olması olmamasından, fərqlilikdən daha məntiqlidir" (1, səh. 25). Bu da o deməkdir ki, dastandakı advermə məsələsində heç bir təsadüf yoxdur.

K.Əliyev Uruzun əsirlikdə özünü aparmağına, Qazan xanın və anasının namusu uğrunda canından keçməyi üstün tutmağına da öz prizmasından baxmaqla yeni biçimdə açıqlama vermişdir. Bəri başdan deyim ki, həm də bu açıqlama doğru və inandırıcıdır. Bilirik ki, düşmən Qazan xanın namusuna toxunmaqla ona dağ çəkmək istəyir. Ancaq qırx incəbel qızın arasında Boyu uzun Burla xatunu tanıya bilmirlər. Qızların hamısı bir ağızdan "Boyu uzun Burla xatun mənəm" deyib yağıları çaşdırırlar. Bu zaman yağı əmr edir ki, "Varın Qazanın oğlu Uruzu dartın, çəngələ asın, qıyma-qıyma ağ ətindən çəkin, qara qovurma bişirib qırx bəy qızına ilətin, hər kim yedi, ol deyil(dir), hər kim yemədi, oldur, alın gəlin, sığraq sürsün! – dedi" (3, səh.38).

Bu zaman Uruz düşmənin hiyləsindən xəbər tutur və anasına deyir: “Saqın, qadın ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, qadın ana, çəngələ ursunlar, qoy ətimdən çəksinlər, qara qavurma etsinlər, qırx bəy qızının önünə ilətsinlər. Onlar bir yediyində sən iki yegil”, səni kafirlər bilməsinlər, duymasınlar. Ta kim, sası dinli kafirin döşəyinə varmayasan. Sığrağın (sürməyəsən). Atam Qazan namusını sımayasan! Saqın! – dedi” (3, səh. 39).

Göründüyü kimi, burada Uruz ata-ana ləyaqətini, namusunu öz canından üstün tutur. Daha doğrusu, ata-ana ləyaqətini, namusunu qorumaq üçün öz canını belə qurban verməyə hazırdır. Düşünür ki, bir can nədir ona görə “ata-ana ləyaqətini, namusunu düşmən ləkələsin”. K.Əliyev Uruzun bu hərəkətini Dəli Domrulun atasının və anasının can qorxusu, qadınının isə qorxmazlığı ilə qarşılaşdıraraq eposun alt qatlarında gizlənmiş daha bir gerçəyi üzə çıxarmışdır: “Beləliklə, həmin boyda Uruzun can şirinliyinə əsir olmamaq barədə qənaəti onun ciddi bir igidlik keyfiyyətindən xəbər verir” (1, səh. 58). Yuxarıdakı səhnə aydın göstərir ki, Uruz anadangəlmə igiddi, qəhrəmandı. O bu igidliyi həyatda qazanmır. Ona advermə səhnəsinin yoxluğu da məhz bununla bağlıdır.

Eposun “Duxa Qoca oğlu Dəli Domrulun boyu” və “Basatın Təpəgözü öldürdüyü boy”u ilə bağlı ziddiyyətli fikirlər bu gün də davam etməkdədir. Bir çox araşdırıcılar hətta bu iki boyu dastandan ayırmağa çalışır və inandırıcı arqumentlər də tapırlar. Deməli, bu fikirləri təkzib etmək üçün onların qarşısına daha güclü arqumentlər qoymaq lazımdır. Kamran Əliyev həmin arqumentləri və fikirləri çözələyərək onların qarşısına daha tutarlı və inandırıcı dəlillər qoymaqla hər iki boyun dastanın strukturunun ayrılmaz tərkib hissələri olduğunu əsaslandırmışdır.

Mən həmin boylarla bağlı K.Əliyevin araşdırmalarına başqa bir yazımda toxunduğuma görə, burada onları təkrarlamaq istəmirəm. Lakin burada K.Əliyevin tapdığı “Duxa Qoca oğlu Dəli Domrulun boyu”nu dastanın digər boyları ilə qırılmaz tellərlə bağlayan bir incəliyə toxunmadan keçmək olmur. Bilirik ki, Də-

də Qorqud igidlərə ad verir, Tanrı da ömür. Bu boyda advermə olmasa da, Tanrı Dəli Domrula və onun halalına 140 il ömür verir. K.Əliyev bu incəliyi duyaraq yazır: "Beləliklə, Dəli Domrul boyunda eposdakı vacib bir xəttin inkişaf mərhələsi – ən yüksək pilləsi görünür və bu boy eposun strukturunda daha da möhkəmlənir" (1, səh. 89). Onun bu iki boyla bağlı incələmələrdən sonra gəldiyi qənaət belədir ki, "Duxa Qoca oğlu Dəli Domrulun boyu" və "Basatın Təpəgözü öldürdüyü boy"larını eposdan ayrılıqda, eposu da onlardan ayrılıqda təsəvvür etmək ağılasığmazdır (1, səh. 84, 107). Yəni bu boyları dastanın ümumi strukturu ilə bağlayan çoxlu arqumentlər var.

Kamran Əliyevin "Açıq kitab – "Dədə Qorqud" monoqrafiyasında bu cür ilk dəfə üzə çıxarılıb açılmış sirlər yetərincə çoxdur və onların hər biri haqqında ayrıca danışmaq olar. Lakin yuxarıda deyilənlər də kitab haqqında aydın təsəvvür yaradır. Son olaraq demək lazımdır ki, bu monoqrafiya, doğrudan da qorqudşünaslıqda yeni bir istiqamətdir, dastanın alt qatlarına enmək, adi gözlə görünməyənləri görmək istəyənlər üçün yaxşı bələdçidir.

## QAYNAQLAR


1. Əliyev Kamran. Açıq kitab – "Dədə Qorqud". Bakı, 2015
2. Hacıyev Tofiq. "Dədə Qorqud kitabı"nda qədim türk demokratiyası. Bakı, BDU, 1999
3. Kitabi-Dədə Qorqud (Tərtib edəni Həmid Araslı). Bakı, 1978
4. Orxan Şaiq Gökyay. Dədəm Qorqud kitabı. İstanbul, 2000

# ETNOPOETİKA: ETNİK KİMLİK VƏ ƏDƏBİYYAT (KAMRAN ƏLİYEVİN "AÇIQ KİTAB" KONSEPTİ)

# ETHNOPOETICS: ETHNIC IDENTITY AND LITERATURE (KAMRAN ALIYEV'S "OPEN BOOK" CONCEPT)

# ЭТНОПОЭТИКА: ЭТНИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ И ЛИТЕРАТУРА (КОНЦЕПЦИЯ «ОТКРЫТОЙ КНИГИ» КАМРАНА АЛИЕВА)

**Maral YAQUBOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*yaqubova.maral@mail.ru*

**Özət**

Etnopoetika humanitar elmlər paradiqmasında etnos və onun bədii mirası arasındakı əlaqəni özünəməxsus şəkildə şərh və analiz edən, ötən əsrin ortalarında elmi arenaya daxil olmuş termindir. Etnik təfəkkürün mətnləşməsi prosesini, semiotik işarə və kodların kulturoloji kontekstini üzə çıxaran kompleks yanaşmalar sistemidir. 1900-cü illərə qədər mövcud olmuş 4000-dən çox spesifik və fərqli mədəniyyətlərin yox olma, mədəniyyətin qlobal "homogenləşmə" prosesində varlığını sürdürə bilməmə təhlükəsini sezən və buna qarşı duran metodoloji mövqeni əks etdirir. Etnopoetika ayrı-ayrı etnik mədəniyyətlərin "özü və başqaları" müstəvisində sərhədlərini görmək və göstərə bilmək potensialını aşkarlayır, milli düşüncənin qlobal düşüncənin içindəki yerini ayırd edir, konturlarını cızır, etnik bədii mirasların mədəniyyətlərin inteqrasiyası sistemində unikal və əvəzsiz olduğunu göstərir. Qərbyönümlü oriyentalizmin nüfuzuna qarşı bir duruş da sərgiləyərək, istənilən etnomədəni təfəkkürün əsasında həmin etnosun təbiətlə harmoniyasının özünəməxsus tipinin dayandığı düşüncəsini qoyur. Etnosun yaşamı və bədii təfəkkürü arasındakı təmas nöqtələrini sistemli şəkildə araşdırır. Akademik Kamran Əliyev "Açıq kitab – Dədə Qorqud" (Bakı, Elm və Təhsil, 2015, 116 s.) kitabında dünya elmi-nəzəri fikrində yeni olan etnopoetikanın ehtiva etdiyi məzmun və imkanlarının "Kitabi-Dədə Qorqud" dastanının boylarına tətbiqi nəticəsində orijinal və ciddi elmi qənaətlər hasil edə bilir. Bu məqamda mü-

əllifin “açıq kitab” konsepti də diqqət cəlb edir. Təqdim olunan məruzədə Kamran Əliyevin mülahizələri J.Rozenberg, D.Tedlock, G.Snayder və başqa müəlliflərin fikirləri kontekstində geniş şərhə cəlb edilir və “açıq kitab” nəzəri yanaşma modeli kimi nəzərdən keçirilir.

**Açar sözlər:** qloballaşma, etnos, mədəniyyət, etnopoetika, Kamran Əliyev

**Summary**

Ethnopoetics is a term that entered the scientific arena in the middle of the last century, uniquely interpreting and analyzing the relationship between the ethnos and its artistic heritage in the paradigm of the humanities. It is a system of complex approaches that reveals the process of textualization of ethnic thinking, the cultural context of semiotic signs and codes. The disappearance of more than 4,000 specific and different cultures that existed before the 1900s reflects the methodological position that opposes and threatens the inability of cultures to survive in the process of global “homogenization”. Ethnopoetics reveals the potential of individual ethnic cultures to see and show their boundaries on the level of "themselves and others", distinguishes the place of national thought in global thought, draws contours, shows that ethnic artistic heritage which is unique and irreplaceable in the system of cultural integration.Demonstrating a position against the prestige of pro-Western Orientalism, he puts at the heart of any ethnocultural thinking the idea that a certain type of harmony of that ethnos with nature stands. Life and artistic thinking of the ethnos has systematically been explored. In his book “Open book – Dada Gorgud” (Baku, Science, and Education, 2015, 116 p.) academician Kamran Aliyev managed to produce precious scientific conclusions. At this point, the author's concept of "open book" also engage the attention. The article presents Kamran Aliyev's considerations in the context of the views of J. Rosenberg, D. Tedlock, G. Snyder, and other authors, as well as considers the "open book" as a model of theoretical approach.

**Keywords:** globalization, ethnos, culture, ethnopoetics, Kamran Aliyev

**Резюме**

Этнопоэтика – это термин, появившийся на научной арене в середине прошлого века, уникально интерпретируя и анализируя отношения между этносом и его художественным наследием в

парадигме гуманитарных наук. Это система комплексных подходов, раскрывающая процесс текстуализации этнического мышления, культурный контекст семиотических знаков и кодов. Исчезновение более 4000 конкретных и различных культур, существовавших до 1900-х годов, отражает методологическую позицию, которая противостоит и угрожает неспособности культур выжить в процессе глобальной «гомогенизации». Этнопоэтика раскрывает потенциал отдельных этнических культур видеть и показывать свои границы на уровне «себя и других», выделяет место национальной мысли в мировой мысли, очерчивает контуры, показывает, что этническое художественное наследие уникально и незаменимо в системе. культурной интеграции. Демонстрируя позицию против престижа прозападного ориентализма, он ставит в центр любого этнокультурного мышления идею о том, что существует определенный тип гармонии этого этноса с природой. Систематически исследуются точки соприкосновения быта и художественного мышления этноса. Академик Камран Алиев в своей книге «Открытая книга – Дада Горгуд» (Баку, Наука и образование, 2015, 116 стр.) Может сделать научные выводы. Здесь обращает на себя внимание и авторское понятие «открытая книга». Взгляды Камрана Алиева широко интерпретируются в контексте взглядов Дж. Розенберга, Д. Тедлока, Г.Снайдер и других авторов, а «открытая книга» рассматривается как образец теоретического подхода.

**Ключевые слова**: глобализация, этнос, культура, этнопоэтика, Кямран Алиев

## Giriş

Qloballaşma ilə təmasın qaçılmaz olduğu hallarda milli-genetik özünüdərk prosesində arxaik, mifik, etnik, dini, tarixi başlanğıclara ad qoymaq vacib məqsədə çevrilir. Ədəbiyyat milli özünüdərkin ən xüsusi ifadə forması kimi dərk edilir. Belə hallarda, ədəbiyyatın öz keçmişi ilə müxtəlif vasitələrlə qurduğu bağları – mətnlərarası münasibətlərin fərqli forma və şəkillərini təsbit etmək ədəbi-nəzəri fikir üçün əsas məqsədə dönür. Şifahi ədəbiyyata, şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçidlərin identikliyinə və spesifikasına yanaşmada mifopoetika, etnopoetika, kimi konsepsiyalar elmi-nəzəri dövriyyəyə daxil olur. Akademik Kamran Əliyev "Açıq kitab – Dədə Qorqud" (Bakı, Elm və Təhsil, 2015,

116 s.) kitabında dünya elmi-nəzəri fikrində yeni olan etnopoetikanın ehtiva etdiyi məzmun və imkanlarının “Kitabi-Dədə Qorqud” dastanının boylarına tətbiqi nəticəsində orijinal və ciddi elmi qənaətlər hasil edə bilir. Bu məqamda müəllifin “açıq kitab” konsepti də diqqət cəlb edir. Təqdim olunan məruzədə Kamran Əliyevin mülahizələri J.Rotenberg, D.Tedlok, G. Snayder və başqa müəlliflərin fikirləri kontekstində geniş şərhə cəlb edilir və “açıq kitab” nəzəri yanaşma modeli kimi nəzərdən keçirilir.

**Etnopoetika nədir?**

Akademik Kamran Əliyevin “Açıq kitab – “Dədə Qorqud” kitabının ilk nəşrinin (Bakı, Elm və Təhsil, 2015, 116 s.) kiçik annotasiyasında yazılır: “Kitabda “Dədə Qorqud” eposunun poetikasından bəhs olunur”. Müəllif isə öz sözünə etnopoetika anlayışının izahını vermək cəhdi ilə başlayır. Alimə görə, etnopoetika anlayışının ehtiva etdiyi məna və məzmun hələ bu termin ortaya çıxmamışdan xeyli əvvəl bir çox tədqiqatçıların diqqətindən yayınmamışdır (1, s. 3). Bədii düşüncənin birdən-birə doğulmadığı və reallığa çevrilmədiyi prinsipindən çıxış edərək diqqəti bədii təfəkkürün təkamülü və formalaşması prosesinin özünə yönəldir, bədii düşüncənin məzmun və ifadə planının aid olduğu etnosun təbiətindən kənarda olmadığını söyləyir. Kamran Əliyevin etnik kimlik və ədəbiyyatın təmas müstəvisi kimi şərh etdiyi – etnopoetika haqqında fikirlərinin şərhinə keçməzdən əvvəl, ümumiyyətlə, dünya elmi-nəzəri düşüncəsində etnopoetikanın kəsb etdiyi anlama qısaca nəzər salaq: Etnopoetika anlayışına ikili baxış mövcuddur: birincisi incəsənət hadisəsi, bədii cərəyan, axın, istiqamət kimi, ikincisi akademik-elmi metodoloji yanaşma kimi.

Bədii-estetik dünyagörüş kimi etnopoetika anlayışı özünü XX əsrin əvvəllərində modernist sənətkarların və şairlərin “primitivist” sənət növlərinə marağının artması ilə mahiyyət etibarilə Qərb sənət ənənələrinin ümumi qəbul edilən dəyərlərinə meydan oxumaq və formaları “yüksək Avropa mədəniyyəti”nin hüdudlarından kənarda araşdırmaq istəyində özünü doğruldur. Ədəbiyyatda, o cümlədən incəsənətin başqa sahələrində primitivizm insanlıq tarixinin başlanğıcında və ya ibtidai insanlar ara-

sında həyatın daha yaxşı, dürüst və etik olduğunu müdafiə edən bir inanc meylidir. Primitivizmə (3) görə, bu dəyərlər bəşər sivilizasiyasının inkişafı və tərəqqisi boyunca öz anlamını və çəkisini itirib, sivilizasiyanın və texnologiyaların inkişafının insanlar üçün faydalı və ya zərərli olub olmadığı sualına cavab axtarır. İrqçiliyə və alçaldıcılığa bir reaksiya olaraq ortaya çıxan primitivizm hərəkatı, Birinci Dünya müharibəsindən əvvəl Qərb sənətinə tədricən nüfuz etməyə başlamış, sənətdə və ədəbiyyatda sadə, saf ifadə və təqdimlər ortaya çıxmışdır. Dadaistlərin, akmesitlərin yaradıcılığında bunu müşahidə etmək mümkün idi. Nəticə etibarilə, Qərbin öz dünyagörüş çərçivələrinə sığdıraraq izah etdiyi "özündən başqa", "yad" mədəniyyətlərin daşıyıcılarını primitiv, ilkəl adlandırmasına paradoksal olaraq Qərbin öz incəsənətində primitiv olmaq marağından doğan istiqamət formalaşdı. Etnik saflıq, etnik təmizlik və sadəlik sənət üçün etalona çevrilməyə başladı. 1970-ci illərdə D. Rothenberg, etnoloq və dilçi Dennis Tedlock ilə birlikdə rüblük bir "Alcheringa: etnopoetikaya dair qeydlər" jurnalı nəşr etdirir. Dünya üzərindəki qəbilə şeirlərinə dair ilk jurnal olan "Alcheringa" (4) akademik etnopoetik bir nəşrdən ziyadə, qəbilə şeirlərinin ingiliscə tərcümələri ilə birlikdə yer aldığı ədəbiyyat toplusu idi. Toplunun məqsədi bu şeirlər vasitəsilə irqçiliyin və Avropamərkəzli dünyagörüşün korlaşdırdığı insan düşüncələrinin üfüqünü genişləndirmək və dəyişdirmək idi. Avanqard sənətə xas mücadilə və üsyan ovqatı jurnalın ümumi ab-havasına uyğun idi. Monomədəniyyət təhlükəsinə qarşı etnik müxtəlifliyin və zənginliyin qorunmasını tələb edirdirlər. Bu baxımdan G.Snayderin etnopoetikanı yox olmaq təhlükəsinə məruz qalan canlılar aləmini öyrənən zoologiyanın hər hansı bir sahəsi ilə müqayisə etməsini məqbul hesab etmək olar. Etnik mədəniyyətlərin nüvəsində daim özünü qorumaq və əbədi var olmaq gücünün olduğuna inanırdılar, bu mədəniyyətlərin monomədəniyyətin "homogenizə"edici təsirindən qorunmasını məqsədə çevirmişdilər. Elə həmin illərdə akademik mühitdə ayrı bir elmi bilik sahəsi kimi etnopoetikaya, problemlərinə və Amerika poetikası sahəsindəki

əhəmiyyətinə həsr olunmuş, şairlər, filoloqlar, etnoloqlar, dilçilər, tərcüməçilərin iştirak etdiyi iki multidisiplinar simpozium da keçirilir (4) Bir nəzəri metodologiya kimi etnopoetikanın iki fərqli modeli formalaşır: Jerome Rothenberg və Dennis Tedlock modeli. Hər iki model etnopoetikanın etnologiya, antropologiya, folklor, stilistika, dilçilik, filologiya və tərcüməşünaslıqla kompleks fənlərarası münasibətlər quran sistem kimi nəzərdən keçirir, fərqlər isə bu modellərin təfərrüatlarında özünü göstərir. Jerome Rothenberg, etnopoetik nəzəriyyəni öz "dərindəki obraz" konsepsiyası ilə birləşdirərək, bu dərindəki obrazın ortaya çıxmasında şairin rolunu və əhəmiyyətini xüsusi vurğulayırdı. Mayya ədəbiyyatının və zuni Hindularının narrativlərinin tərcüməçisi dilçi Dennis Tedlock öz konsepsiyasında şifahi şeir məsələsini mərkəzə qoyur və yazılı şeir mətninin musiqi partiturası kimi qəbul edilməsinə diqqət yetirir. Etnopoetikanın tərifini "mərkəzləşdirilməmiş poetika" olaraq təqdim edir, bununla da, yalnız şeir sahəsində deyil, bütövlükdə dil sahəsində mədəni imperializmə qarşı mübarizəni nəzərdə tutur. D.Tedlocka görə, etnopoetika mərkəzləşdirilməmiş bir poetikadır, Qərb ənənəsindən kənarda "uzaq"ların şeirlərini eşitmək və oxumaq cəhdidir. Etnopoetika predmetin yanaşmada önhökmlər tətbiq etmir: bir şeirin uzaqlara aid olması, qədimdə yazılması kimi etalon fikirləri qəbul etməməklə yanaşı, hər hansı qəbilə şeirinin Homer şeirinə bənzəyib bənzəməyəcəyi, sadə və ya mürəkkəb olması barədə düşünməməyi təlqin edir (5, s. 200-202). Snayder etnopoetikanın "adi" poetikaya zidd olduğunu söyləyir, eyni zamanda istənilən poetikanın həmişə etnopoetik olduğunu iddia edir. Etnik cəhətdən fərqli kültürün daşıyıcıları olan insanların şeirlərini anlamaq üçün şəxsiyyətimizin bizə diktə etdiyi maneə-baryerləri aşmamızın vacibliyini vurğulayır.

Etnopoetika bir termin kimi rus ədəbiyyatşünaslığında 1990-cı illərin əvvəllərində özünü göstərməyə başlayır. Bu termini ilk dəfə işlədən V.N.Zaxarovun fikrincə, etnopoetika dilçilikdə onsuz da mövcud olan – E.Sapir və B.Uorf tərəfindən təsis edilən etnolinqvistikaya paralel olaraq yaranıb və konkret bir

ədəbiyyatın milli özünəməxsusluğunu, dünya ədəbi prosesindəki yerini araşdırır, etnopoetik təhlil milli ədəbiyyatı milli edənin nə və ya nələr olduğuna dair suallara cavab verməlidir (6, s. 9). Etnopoetika termininin özünün diktə etdiyi bir məqama diqqət yetirən Zıryanov qeyd edir ki, burada iki müxtəlif başlanğıcın sintezi var, birincisi etnomədəni nizamın baza kateqoriyaları (milli-mənəvi dəyərlər), ikincisi filoloji kateqoriyalar (tarixi və ontoloji poetikanın ümumi qənaətləri) (8, s.10).

Beləliklə, etnopoetika humanitar elmlər paradiqmasında etnos və onun ədəbi mirası arasındakı əlaqəni özünəməxsus şəkildə şərh və analiz edən, ötən əsrin ortalarında elmi arenaya daxil olmuş termindir. Etnik təfəkkürün mətnləşməsi prosesini, semiotik işarə və kodların kulturoloji kontekstini üzə çıxaran kompleks yanaşmalar sistemidir. 1900-cü illərə qədər mövcud olmuş 4000-dən çox spesifik və fərqli mədəniyyətlərin yox olma, mədəniyyətin qlobal "homogenləşmə" prosesində varlığını sürdürə bilməmə təhlükəsini sezən və buna qarşı duran metodoloji mövqeni əks etdirir. Etnopoetika ayrı-ayrı etnik mədəniyyətlərin "özü və başqaları" müstəvisində sərhədlərini görmək və göstərə bilmək potensialını aşkarlayır, milli düşüncənin qlobal düşüncənin içindəki yerini ayırd edir, konturlarını cızır, etnik bədii mirasların mədəniyyətlərin inteqrasiyası sistemində unikal və əvəzsiz olduğunu göstərir. Qərbyönümlü oriyentalizmin nüfuzuna qarşı bir duruş da sərgiləyərək, istənilən etnomədəni təfəkkürün əsasında həmin etnosun təbiətlə harmoniyasının özünəməxsus tipinin dayandığı düşüncəsini qoyur. Etnosun yaşamı və bədii təfəkkürü arasındakı təmas nöqtələrini sistemli şəkildə araşdırır. Etnopoetika bir tərəfdən tədqiqat predmetidir, poetikanın etnomədəni komponenti, dünyanın milli obrazının yaradılması aktının özüdür, digər tərəfdən tədqiqat metodologiyasıdır, müvafiq elmi təsvir dili kimi çıxış edir, təhlilin folklor və milli – arxetip prinsipləri kontekstindən baş tutmasını təmin edir.

**Kamran Əliyevin etnopoetika konsepsiyası**

Əhməd Bican Ərcilasunun K.Əliyevin haqqında bəhs etdiyimiz əsərinin Türkiyə türkcəsindəki nəşrinə yazdığı ön sözdən

seçdiyimiz aşağıdakı cümlələrə baxaq: "Mətnin içinə girmək; mətndəki hadisələrin təşkilini, mövzu və anlayışları, motivləri, şəxsiyyətləri, zaman və məkanı, mətnin başlama, inkişaf və son xəttini, üslubunu, mətn daxilindəki xüsusi formulları, xüsusi söyləmə texnikalarını öyrənmək ədəbiyyatşünasların işi olduğu qədər şifahi xalq ədəbiyyatı mütəxəssislərinin də işidir" (2, s. 4). "Türk şeirinin doğuşunu və təkamülünü "Dədə Qorqud Kitabı"nda axtarmaq və tapmaq.... Kamran Əliyev o sətirlərdə gəzmiş ... və etnosumuzun poetik icadını, poetik anlayışını ortaya qoymuşdur" (2, s. 5)

Birinci cümlədə ümumi poetik səriştəyə, makropoetikanın, eləcə də mikropoetikanın elmi-nəzəri əsaslarına bələdliklə bağlı eyhamla, ikinci cümlədəki etnosun poetik icadına vurğu əslində etnopoetika anlayışının əhatə etdiyi məzmunun ikili tərəflərinin ifadəsidir. Bu o deməkdir ki, əsər boyunca oxucu Kamran Əliyevin poetika elminin ümumi qanunauyğunluqlarına dair bilgisi ilə etnomədəni nizamın ümumi kateqoriyaları ilə bağlı bilgisinin qarşılıqlı dialoqu ilə rastlaşır. G.Snayderin etnopoetikanın "adi" poetikaya zidd olduğunu söylədiyini, eyni zamanda istənilən poetikanın həmişə etnopoetik olduğunu iddia etdiyini xatırlayaq. Kamran Əliyevin müəllif mövqeyindəki ana xətt də məhz budur: istənilən poetik yanaşma etno xarakter daşıya bilər.

Etnopoetik düşüncənin öyrənilməsi üçün müəllif ilk olaraq janr müxtəlifliyi və obrazlılığın yaratdığı maneə-əngəlləri dəf etməyi seçir. Təkamül boyunca etnosun poetikasının əldə etdiyi janr zənginliyinin başlanğıcına enir, obrazlı təfəkkürün ən primitiv, ən sadə olanından başlayır. Etnopoetik düşüncənin ilkin olaraq şeirin strukturunu – misranı dominant fiqur kimi seçməsinə izah və aydınlıq gətirir. "Bədii düşüncə harmoniyadır və təklikdə harmoniya yoxdur. Misra tənhalığının əzabından qurtaran şeir qoşa misranın ölçü bərabərliyi və ritm uyarlığı ehtiyacı hiss edəndə isə fövqəladə bir kəşf edilir: Etnosun doğma dilinin qrammatik quruluşu üçün son dərəcə səciyyəvi olan heca həm ədəbi ölçü vahidi, həm də ritm əsası kimi seçilir!" (1, s. 5). Kamran Əliyevin türk etnosunun ilk bədii düşüncə forması ilə bağlı mülahizələri bu məqamda etnolinqvistika isə səsləşir, bu alimin etnopoetik meto-

dologiyasının özünün etnolinqvistika ilə ortaq mövqedən qidalanmasından irəli gəlir. Etnolinqvistika – linqvistik və etnik amillərin qarşılıqlı əlaqəsini öyrənən dilçilik cərəyanı olub, hər bir dili o dildə danışan xalqın tarixi inkişafının və mədəniyyətinin təzahürü hesab edir. Etnolinqvistik yanaşmaya görə hər hansı bir dil mənsub olduğu xalqın mənəvi və mədəni həyatının mühüm tərkib hissəsi olub, insanların dünyagörüşünə və davranışına əhəmiyyətli dərəcədə təsir göstərir. B.Uorf və E.Sepirin tədqiqatlarına əsaslanan və Amerika hindu qəbilələrinin həyat tərzini, mədəniyyətini və dillərini öyrənən Amerika etnolinqvistik təliminin prinsipləri daha çox səsləşir. Hecadan törəmiş ən qədim və ilk türk şeiri olan *qoşa misralı şeir, qoşa misralı şeirdən bəndə keçid, bayatı düşüncəsinin formalaşması, qoşma və gəraylıya doğru gediş* – bütün bunları "Dədə Qorqud" dastanında zərgər dəqiqliyi ilə seçilmiş nümunələr əsasında ardıcıl izləyən müəllifin məqsədi etnosun təbiəti ilə bağlantını görmək, göstərmək və çözməkdir. "Qədim türk şeirinin poetika qaynağı və bu mənada şərti olaraq totemi Atdır!" (1, s.16). Alimə görə, türk şeirinin formalaşması atın ayaqlarına və yerişinə borcludur (1, s.18). Atın yerişi və şeir arasındakı əlaqə ilk baxışda qəribə təəssürat oyada bilər, amma bu məqamda rəməl bəhrini xatırlayaq. Adətən, əruzşünaslıqda rəməl bəhrindən bəhs olunanda onun müxtəlif mənalarda işləndiyi qeyd edilir. Bir mənası da dəvənin addımları bərabər, ahəngdar atmaqla surətlə yeriməsi (yortması) deməkdir. Bu bəhrin ahəngində ləngərlik aydınca duyulur. Bəhrin adının dəvənin ləngərli yerişi ilə bağlanmasının səbəbi elə budur. Dəvə isə ərəblərin mental və etnik mədəniyyətinin aparıcı, dominant fiqurudur. Mental həyat tərzi, etnik kimlik, davranış, milli psixoloji tipin səriştəsi və təcrübəsi – bütün bunların kompleks halda ədəbi-bədii təfəkkürü formalaşdırması mümkündür, hələ ibtidai çağda, bilginin, informasiyanın yalnız təbiətlə harmoniyada olduğu dönəmlərdə baş verməsi labüddür. Yəni, etnopoetik prinsiplə yanaşdıqda etnomədəni yaşam həmin etnosun poetik təfəkkürünün bazasında dayanır, ona təkan verir, yaranmasını şərtləndirir və onu başqalarından fərqləndirir.

Etnopoetika eyni zamanda "qəhrəmanın şəxsiyyətində və fəaliyyətində ehtiva olunan xalq fikrini və düşüncəsini" aşkarlamaq prinsipindən çıxış edir. Bəzən etnopoetik təhlilin seçdiyi mətndə etnik obrazın dərinliyini axtarmaq və bunu poetik təqdimatın içində axtarıb tapmaq əsas qayəyə çevrilir. Obrazın etnikliyini müəyyən etmək, etnikliyin obrazının çözülməsi ilə mümkün olur. Türk düşüncəsindəki doğuluş, həyat, başlanğıca inanclar və baxışlar "Dədə Qorqud" dastanının birinci boyunda cəmləşir, boydakı Buğacla bağlı doğuluş aktı üç dəfə təkrar olunaraq – anadan doğulmaq, ad almaq, ölümdən xilas olmaq – üç dəfə təsdiq edilir, Xızırın "ölüm yoxdur" fikri boyun məzmununa və yekununa çevrilir. Bütün bunları müşahidə edən K.Əliyevə görə, Buğac boyu eposun poetikasında doğuluş aktı kimi özünü təsdiqləyir və eposun da doğuluş boyuna – birinci boyuna çevrilir (1, s. 29). Bir sözlə, məzmun formanın doğulmasına və formalaşmasına təkan verir. Dastanda "Boyu uzun" ifadəsinin alliterasiya yaratmaq funksiyasının məsələnin zahiri tərəfi olub, alt qatında "uca boy" mənasını verən "boyu uzun" ifadəsinin Burla xatunun cəmiyyətdəki statusunu təsdiq edən məqam kimi xarakterizə edir. Yəni, etnik toplumun dəyərləndirmə və fərqləndirmə mexanizminin göstəricisi olan semiotik kod kimi – etnopoetizm kimi özünü təsdiqləyir. Əsər boyunca K.Əliyev bu cür etnopoetizmləri, etnoqrafik detalları, etnik təfəkkürün yansımaları olan stereotip qəlibləri, eləcə də imicləri xüsusi həssaslıqla seçir, alt qatından türk etnosunun təbiəti və xarakteri boylanan məqamlara diqqət yetirir.

Etnopoetik yanaşmada etnik "imic"in bərpası önəmlidir, bunu ədəbi portretin geniş və hər tərəfli şərhi ilə bərpa edir. Müəllif yazır: "Dədə Qorqud" eposu bizə bəlli olan bütün qəhrəmanlıq və vətənpərvərlik məzmunu ilə birgə Qalın Oğuz elinin düşüncə sistemini də kifayət qədər nümayiş etdirir. Amma məsələ onda deyil ki, hər bir folklor nümunəsi, yaxud folklor abidəsi xalq təfəkkürünün canlı inikas formasıdır, həm də məna və mətləb ondadır ki, xalq təfəkkürünün qoruyucusu olan epos mətni xalqın həmin mətndə açıq şəkildə ifadə edə bilmədiyi bir sıra fikirlərin də mühafizə məkanıdır" (1, s. 33)

Burla xatun, Dirsə xanın xanımı, Banuçiçək, Selcan xatunla bağla dastandakı poetik təsvirləri eyni sintaqmatik cərgədə yerləşdirən türk etnosunun qadına olan münasibətinin ifadə üsuludur, bənzətmə detallarının və ünsürlərinin oxşarlığı təfəkkürün nüvəsindəki eynilikdən qidalanır. Kamran Əliyev dörd fərqli qadın obrazının təsvirindəki oxşar söyləyici detallarını cəmləşdirir, onları cüzi fərqlərindən arındıraraq orijinal portreti bərpa edir: türk etnik təfəkküründəki qadın obrazının ümumi səciyyəvi cəhətləri ilə birlikdə "imic"ini. Bu məqamda etnopoetika bir qədər Avropa mədəniyyətşünaslığında "İmagology" kimi tanınan, mümkün ən alternativ tərcümədə "imicşünaslıq" deyə biləcəyimiz, komprativistikanın bir alt sahəsi olan subdisiplinin ərazisinə daxil olur. Etnopoetik təhlil "imic"lərin izi ilə gedərkən, həm də öz və özgəni ayırd etməyi sevir. Etnik şüur özü olanla, özündən olmayan arasındakı fərqi poetik təfəkkürdə açıq-aşkar göstərməyi sevir, bunu bəzən birbaşa söyləməsə də, elə geopoetik detallarla, koordinatlarla nümayiş etdirir ki, görməmək qeyri-mümkündür. Bəzən də etnik şüur yad olanı imicin etnik səciyyəsindəki uyğunsuzluqla, uzlaşılmazlıqla göstərir. "Dədə Qorqud" dastanında da bəzi obrazların geopoetik kimliyi, etnomədəni imici və əsas obrazların onlara qarşı etnik müqaviməti Kamran Əliyevin diqqətindən qaçmır, mətnin poetikasının bu öz və özgə paradiqmasını təyin etmə potensialına diqqətimizi çəkə bilir. Üç və altı rəqəmlərinin işlənmə sıxlığı, onu işlədənlərin etnik kimliyinin bərpası alimə imkan verir ki, üç və altının təsadüfi səciyyə daşımadığını bildirsin, Oğuzlarla kafirlər arasındakı düşüncə fərqini ifadə edən semiotik kod kimi görsün.

Uruzla bağlı təhlillərində epik ənənə və türk etnosunun hakimiyyət şəcərəsi ənənəsi arasındakı bağdan bəhs edən alimə görə, "həyatda şəcərəsini qorumağı bacaran Uruz eposda da epik ənənəni qorumağa daha çox səlahiyyətlidir, çünki Uruz Qazan xanın oğlu, Bayandır xanın nəvəsidir!" (1, s. 55) Uruzun məğlubiyyəti və bu məğlubiyyəti fərqli qəhrəmanlıqla kompensasiya etməsi, Uruz və Seyrək paralelliyi, atalar və oğullar məsələsi, oğulun atanı xilas etməsi məqamı və s. bütün bunlar etnik düşüncənin müxtəlif

şəkilli poetik yansımalarıdır. Etnik təfəkkürün dominantlığını aşkarlayan portret təsvirlər – Beyrəyin dəmir donu, Beyrəyin köynəyi Kamran Əlyevin etnopoetik mülahizələrinin spektrinə düşə bilir. "Dədə Qorqudun boylarda ardıcıl və sistemli şəkildə iştirakı, Oğuz dövlətçilik ənənələrinin nümayişi, xalq qayda-qanunlarının nişanələri, epik təsvirlə poetik düşüncənin növbələşməsi, Oğuz cəmiyyətinin gələcək taleyinin bir an belə unudulmaması, qəhrəmanların igidlik və şücaətinin kompleks formada və bütün davranış normaları ilə ehtiva olunması..." Kamran Əliyevin etnopoetik konsepsiyasını formalaşdıran əsas məqamlardır. Alimin nəzəri yanaşmasında etnpoetika bədii düşüncə ilə etnosun təbiəti arasındakı əlaqə və təmasın xüsusiyyət və əlamətlərini meydana çıxaran bir elm sahəsi kimi qavranılır. Etnos və onun ədəbiyyatı arasındakı əlaqənin aşkarlandığı "etnopoetik müstəvi"də folklorun çəkisi və rolu daha ağırdır. Folklor irsi yazılı ədəbiyyatdan fərqli olaraq etnopoetik müstəvidə etnosla bədii təfəkkür arasındakı məsafənin ən qısası, ən məqbulu və ən doğru olanıdır. Alimə görə, etnopoetik müstəvinin xüsusi həssaslığı var və bu müstəvidə sadədən mürəkkəbə doğru hərəkətin dinamikliyini nəzərə almaq şərtdir. Başqa bir tərəfdən etnopoetik təhlil predmeti kimi seçilmiş "Kitabı-Dədə Qorqud" dastanını *açıq kitab* modeli şəklində görməyin özü xüsusi bir konseptdir. Mətnin "açıq" təyini ilə şərhi həmin mətnin kontekst və intertekst potensialının üzdə, aşkar olmasını diktə edir. Mətn araşdırılan mövzuya açıqdır, həmin mövzunun tətbiqi üçün geniş miqyaslı araşdırma arealına və məzmununa malikdir. Kamran Əliyevin yanaşmasında isə, "Dədə Qorqud" mətni türk etnosunun poetik təfəkkürünü aşkara çıxaran, sadədən mürəkkəbə bu təkamül prosesini yaşayan və göstərən etnik külliyyatdır və hər kəsə açıqdır. Alimin "açıq kitab" konsepti etnopoetikanın ikili standartına cavab verir: o bir etnopoetika məhsuludur, etnik təfəkkürün poetik mirasıdır, digər tərəfdən etnopoetik metodologiyanın tətbiqetmə sahəsidir. Türk etnosunun təbiəti və yaşamı dastanın poetikasında mühafizə olunur, dastanın poetik strukturu da ta yarandığı zamandan bugünə qədər türk etnosunun kimliyini, düşüncə şəkillərini, yaşam tərzini, dünyaya və həyata dair mü-

lahizələrini semiotik və semantik məzmuna daşıyaraq, kodlaşdıraraq mühafizə edir.

**Nəticə**

Etnopoetika bizim ədəbiyyatşünaslıq və folklorşünaslıqda kifayət qədər az öyrənilmiş bir sahədir, terminin ümumi nəzəri məzmunu ilə bağlı belə yetərli qədər informasiyanın olmadığı bir dönəmdə akademik Kamran Əliyevin fikir və mülahizələri maraq doğurur. Alimin seçdiyi metodoloji üslubun mürəkkəbliyinə və kompleks xarakter daşımasına rəğmən sadə elmi dildə nəqletmə yolunu seçməsi də bu istiqamətdə ilklərdən olması ilə bağlıdır. Alimin etnopoetika konsepsiyası etnik kimlik və ədəbiyyat arasındakı əlaqənin varlığını aşkara çıxaran saysız-hesabsız mətn və düşüncə əlaqələrinin yalnız müəyyən qisminə müraciət etməklə kifayətlənir. Məqsəq etnopoetikanın kompleks şəkildə tətbiqindən ziyadə, "Dədə Qorqud" mətninin etnopoetik potensialına diqqət yetirmək, gələcəkdə bu istiqamətli tədqiqatlara yolgöstərici olmaq, yön verməkdir.

## QAYNAQLAR


1. Əliyev Kamran. "Açıq kitab-"Dədə Qorqud"". Bakı, Elm və Təhsil, 2015, 116 s.
2. Əliyev Kamran. Dədə Qorqud (Əsərləri 10 cilddə, VII cild). Bakı, Elm və təhsil, 2019, 384 s.
3. https://www.britannica.com/topic/primitivism-philosophy
4. https://www.durationpress.com/archives/ethnopoetics/alcheringa/alcheringa.pdf
5. Snyder G. Etnopoetry/ Beat kuşağı antolojisi. Altıkırkbeş yayınları, 816 s. s. 200-217
6. Захаров В. Н. Русская литература и христианство // Евангельский текст в русской литературе XVIII–XX веков: цитата, реминисценция, мотив, сюжет, жанр: сб. науч. тр. – Петрозаводск: Изд-во ПетрГУ, 1994. – С. 5–11.
7. Захаров В.Н. Проблемы исторической поэтики. Этнологические аспекты. – М.: Индрик, 2012. – 264 с.
8. Зырянов О.В. Проблемно-методологическое поле современной этнопоэтики: http://elar.uspu.ru/bitstream/uspu/11500/1/fkls-2019-01-01.pdf

# KAMRAN ƏLİYEVİN HEKAYƏ YARADICILIĞI

# CREATIVITY OF THE STORY OF KAMRAN ALIYEV

# ТВОРЧЕСТВО РАССКАЗА КЯМРАНА АЛИЕВА

**Ağaverdi XƏLİL**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*Mərasim folkloru şöbəsinin müdiri*
*aqaverdi@yandex.ru*

**Özət**

Məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Kamran Əliyevin hekayə yaradıcılığından bəhs olunur. Yazıçının zəngin hekayə yaradıcılığı əsas səciyyəvi cəhətləri, ideya və məzmun xüsusiyyətləri baxımından burada təhlil edilir. Kamran Əliyevin hekayə sənətkarlığı əsərləri əsasında araşdırılır.

**Açar sözlər:** Azərbaycan, ədəbiyyat, hekayə, Kamran Əliyev, sənətkarlıq

**Summary**

The article deals with the work of the story of a prominent representative of modern Azerbaijani literature Kamran Aliyeva. Here the main drawings of the rich author's story are analyzed in terms of the idea and features of the content. The mastery of Kamran Aliyev is studied on the basis of the author's works.

Key words: Azerbaijan, literature, story, Kamran Aliyev, skill

**Резюме**

В статье рассматривается творчество рассказа видного представителя современной азербайджанской литературы Кямрана Алиева. Здесь анализируются основные черты авторского богатого рассказа с точки зрения идеи и содержательных особенностей. Мастерство Камран Алиева исследуется на основе произведениях автора.

**Ключевые слова:** Азербайджан, литература, рассказ, Кямран Алиев, мастерство

Müasir Azərbaycan ədəbiyyatının mükəmməl bədii nümunələrlə zənginləşməsində görkəmli yazıçı Kamran Əliyevin yaradıcılığı önəmli bir rol oynayır.

Kamran Əliyev yaradıcılığa erkən yaşlarda başlayıb. Orta məktəbdə oxuduğu illərdə publisistik yazılarla rayon qəzetində fəal şəkildə çıxış edib. Gənclik illərində publisistik yazılarla yanaşı bədii yaradıcılıqla da məşğul olub və ilk qələm təcrübəsi də bu dövrdə təkmilləşib.

Müxtəlif illərdə yazdığı bədii əsərləri sonralar ayrı-ayrı kitablarda çap olunub. Müasir ədəbiyyatda Kamran Əliyev bir nasir kimi tanınır və oxunur. Əsərləri haqqında çoxlu məqalələr yazılıb, yaradıcılığı həm ədəbi prosesin içində, həm də fərdi şəkildə araşdırmalara cəlb edilib.

Kamran Əliyevin geniş əhatəli yaradıcılıq fəaliyyətində bədii nəsrin, o cümlədən hekayə janrının xüsusi bir yeri vardır. Bizim üçün hekayə Çexovun ifadəsiylə "Qoqolun "Şinel"indən keçib və Cəlil Məmmədquluzadənin "Poçt qutusu"na daxil olaraq bizim milli ədəbi ünvanımıza yetişib. Mirzə Cəlilin, Əbdürrəhim bəy Haqverdiyevin hekayələri ilə janr ədəbiyyatımızda möhkəmlənib. XX əsrin başlanğıcı və Sovet dövrünün ilk illərinin sosial refleksləri Cəfər Cabbarlının hekayələri ilə ədəbi yaddaşa daxil olub. Bundan sonra sovet dövrü ədəbiyyatımızda realizm üslubunda çox sayda hekayələr yazılıb. Bədii nəsr və hekayəçilik ənənəsinə münasibətdə Kamran Əliyev sovet dövründən və sosialist hekayəsindən daha çox hələ tam sovetləşməmiş ədəbiyyatın davamçısı kimi müasir hekayəni həm ilk klassik Azərbaycan hekayəçiliyi ilə, həm də dünya ədəbiyyatının mükəmməl bədii nümunələri ilə əlaqələndirir.

Biz K.Əliyev yaradıcılığından modernist və ya postmodernist baxımdan bəhs etmirik. Onun yaradıcılığında C.Coysun "Uliss"i kimi zamanın sıxılması və ya zaman-məkan izomorfizminin müxtəlif formaları da açıq müşahidə olunmur. Buna indi xüsusi ehtiyac da yoxdur. Ədəbiyyatın özünü oxutmaq problemi olduğu müasir dövrdə əsəri bədii cərəyanla həddindən artıq yükləmək də uğurlu bir yol sayılmır. Bu baxımdan K.Əliyev oxucusunun zamanına hörmətlə yanaşır, onun vaxtını və zövqünü qiymətləndirir. Çünki K.Əliyevin nəsri əsrin klassik yönümü üzərində yaranıb və bu istiqamətdə də özünün klassik nümunələrini müasir ədəbiyyat tarixinə daxil edib.

Kamran Əliyev dövrün sosial reflekslərini əsas istiqamətləri və aparıcı yönləri ilə bədii sənətə gətirir. Onun üçün mücərrəd insan, məkan və zaman deyil, konkret insan, fərd, xalq, millət və vətən aktualdır və dəyər daşıyıcısıdır; yazıçı bu dəyərlərlə birlikdə yaşayır.

Yazıçının həm bədii-publisistik, həm də bədii əsərləri özünəməxsus üslubu və təhkiyəsi ilə seçilir. Əsərlərində daha çox bədii simvolika geniş yer tutur və yazıçı bu yolla gerçəkliyi bədiiləşdirir. Yazıçının yaradıcılıq texnologiyası belədir ki, o, maraqlı gerçəklik situasiyası seçir və onu motivləndirərək bədii situasiya yaradır.

Yazıçının vətən konseptində insan və məkan, yurd və xalq birlikdə götürülür. Məsələn, "Yalquzaq" (1998) əsərində biz bunu müşahidə edirik. 1930-cu illər Azərbaycan xalqının tarixi taleyindən ağır sıxıntılar və faciəli hadisələrlə keçir. Bu tarixi situasiya yazıçı tərəfindən seçilir və əsər estetik dəyər və sənət səviyyəsinə yüksəldilərək motivləndirilir. Məlum tarixi hadisələr ideya və estetik baxımdan zənginləşdirilir, əsərdə millətin həyatındakı faciə özünün bədii-estetik həllini tapır.

Əsərdə əsas psixoloji element tənhalıq duyğusudur. Bu duyğu sadə fərdi bir hissdən başlayaraq ictimai məzmun daşımağa qədər genişləndirilir. Millətin içində yetərli səviyyədə olmayan daxili birlik və həmrəylik münasibətləri onu yalqızlaşdırır, tənhalaşdırır və ilk növbədə onu gücsüz edir. Millət daxili həmrəyliyi olmayanda gücsüz olur. Bu ideya qədim türk yazılı abidələrində də dövlətçilik düçüncəsinin əsasını təşkil edib. Birləşməyən, bir olmayan millət yadların təsirinə düşüb, onların əsirinə və köləsinə çevrilib. "Orxon-Yenisey" yazılarının əsas manifesti və baş ideyası budur.

"Yalquzaq"da bu ideya milli tariximizin və faciəli ictimai həyatımızın fonunda təqdim olunur. Yalquzaq özü maraqlı bir obrazdır. Bu obraz ilk növbədə tənhalığı təcəssüm etdirir. Güclü olan tənha olanda da gücsüzləşir. "Yalquzaq"da yalquzağın ulaması bir faciənin gəlişini xəbər verir və hər dəfə qurd uladıqca bu xəbərdarlıq konkret kəndin sakinləri tərəfindən dəyərləndirilmir. Bu xəbərdarlıq siqnalından heç bir nəticə çıxarılmır. Beləliklə, faciə lokal bir elementlə rəmzləşdirilir və ictimai məzmun daşıyır. Bir

millətin tənhalığı, onun daxilən parçalanmasının faciəsi bir kəndin və bir qurdun obrazında özünün bədii təcəssümünü tapır.

Tənhalıq duyğusu baxımından "Yalquzağı" Heminqueyin "Qoca və dəniz" hekayəsi ilə müqayisə edə bilərik. Heminqueyin qoca qəhrəmanı dənizdə balıq ovlayan bir ovçudur. Nəhayət, bütün həyatı boyu arzuladığı balığı tutmağa nail olur, lakin onu sahilə salamat gətirib çıxara bilmir. Qoca dənizdə özünün balıqçı qayığı ilə birlikdə tənhadır, onun da köməyi yoxdur. Bu mənada o, təbət və insan qarşıdurmasında ziddiyyət motivinə daxil olur. Yalquzaq da təbiətin bir ünsürüdür və bir tənhalıq rəmzidir. Kamran Əliyevin qəhrəmanı insan faciəsinin bədii təcəssümü üzərində qurulmuş və milli çərçivədə öz ifadəsini tapmışdır. Burada xalq, millət və insan konkret tarixi şəraitdə götürülür. Heminqueydə isə şəraitin özü təbiətdən ibarətdir və bu baxımdan daha ümumi və mücərrəddir. Hər iki əsərdə bəşəri bir məna, humanist dəyərlərin mühafizəsinə çağırış vardır.

"Vağzal" povesti (2001) də həmin ideyanı davam etdirir və onu rəngarəng şəkillərdə təqdim edir. Tənhalıq duyğusu konkret şəxsin nümunəsində, Səhnə arvadın simasında təqdim olunur. Belə ictimai məzmunlu əsərlərin ardınca "Zəli" gəlir və müəllif bu obrazın da nominal mənasını bədii simvolik vahidə çevirə bilir və ona sosial məzmun qazandırır.

Yazıçının vətən konsepti "Sədərək döyüşləri" adlı publisistik əsərində daha aydın şəkildə özünün ifadəsini tapır. Bu əsər erməni vandalizminin çirkin simasını açır və vətən uğrunda, onun müdafiəsi uğrunda aparılan mübarizənin müqəddəs məzmununu aydınlaşdırır.

Müəllif son illərdə bir sıra silsilə hekayələr yazmışdır və bu istiqamətdə yaradıcılıq davam etməkdədir. Son dövrlərdə yazılmış hekayələri "Dağlı məhəlləsi" adlı kitabda nəşr olunmuşdur. Bu kitabda yazıçının tələbəlik dövrü xatirələrini əks etdirən hekayələri də yer tutur.

Kitabdakı "Dağlı məhəlləsi" adlı hekayə maraqlıdır, diqqəti çəkə bilir və "bədii əsərin özü özünü oxutmağı bacarmalıdır" prinsipinə də cavab verir. Hekayəni ayaq üstdə və sürətlə oxumuşdum.

Xatırlayıram ki, L.Tolstoyun “Qafqaz əsiri”ni rus dilində bu cür maraqla oxumuşdum. “Qafqaz əsiri”ni həcminə görə “Dağlı məhəlləsi” ilə müqayisə etmirəm. Təbii ki, o povestdir və həcmi də genişdir. “Dağlı məhəlləsi”ndə isə, doğrudan da, kiçik bir qəzet səhifəsində böyük bir həyat hekayəsi öz əksini tapa bilib. Kirayədə qalan bir tələbənin həyatından maraqlı detallar seçilib. Yəni yazıçı gerçək bir həyat lövhəsini bu hekayədə canlandıra bilib. Hekayə bizə bir məhəllənin canlı bədii salnaməsini danışır.

“Dağlı məhəlləsi” hekayəsi avtobioqrafik bir əsərdir. Burada yazıçının özü hadisələrin iştirakçısıdır. O həm müəllif kimi, hadisələri təsvir edən, danışan hekayəçidir, həm də həmin hekayənin əsas qəhrəmanıdır. Bu mənada hekayə həm də tələbə Kamranın həyat hekayəsidir. Lakin bu hekayə təkcə Kamranın hekayəsi deyil, eyni zamanda hekayənin bəhs olunduğu dövrün bütün tələbələrinin hekayəsidir. Bu mənada və bundan da konkret mənada “Dağlı məhəlləsi” həm də mənim hekayəmdir. 1970-ci illərdə mən də həmin məhəllədə yaşamışam. Atamın tələbə yoldaşının və dostunun evində, yəni dağlı ailəsində. Mən hələ tələbə deyildim, orta məktəbdə oxuyurdum. Olduğum ailədə mənə göstərilən doğma münasibətə görə qəlbimdə dərin bir minnətdarlıq duyğusu hiss edirəm. Xüsusilə ailənin başçısı Nemət əmi son dərəcə gözəl bir insandı. Mən 15-20 yaşlarımı o ailənin bir üzvü kimi yaşadım. Mən dağlı adətlərini də bilirəm, dağlı xarakterini də bilirəm və dağlıca da başa düşürəm. Nemət əmi vəfat edəndə mən gec xəbər tutdum. Başsağlığı üçün getdim. Amma üzərimdə bir halallıq borcunun qaldığını düşünürəm. İndi siz də baxın: bu hekayə yazıçıyamı, onun tələbə yoldaşlarınamı və ya mənəmi daha çox aiddir, bu da bir mübahisə mövzusudur.

Hekayədə bəhs olunan yeri – “Dağlı məhəlləsi”ni mən yaxşı tanıyıram. Bura bir ənənəvi bədii mətnin məkan lokusu deyildir, gerçək bir yerdir. Yazıçı bu yeri bütün əsas göstəriciləri ilə təsvir edir. Bir tərəfdən Universitetin və Politexnikin yataqxanaları, Musabəyovun heykəli, Yasamal bazarı, “Lalə” kafesi və hətta o zamanlar olmayan “İnşaatçılar” metrosunun yanı. Bu əlamətdar obyektlər “Dağlı məhəlləsi”nin hüdudlarını və yerləşdiyi

ərazinin lokal məkan təsvirini verir. Amma "Dağlı məhəlləsi"nin özünəməxsus səciyyəvi obyektləri isə məhəllə obrazının canlandırıldığı yerdə verilir. Məhəlləni müəyyənləşdirən məlumatlar məhəllənin hüdud göstəricilərindən fərqli olaraq onun içindən doğan və onun xarakterini göstərən əsas xüsusiyyətlərdir. Bu mənada məhəllə həm onu əhatə edən obyektlərlə, həm də onun içindəki lokal elementlərlə səciyyələndirilir.

Hekayədə təsvir edilən hadisələr 1970-ci illərə aiddir. Yazıçı heç bir yerdə "1970" tarixini xatırlatmır, lakin hadisələr həmin tarixin xatirələrini canlandırır. Həm məkan təsvirləri, həm obrazların davranış tərzləri, həm də ümumi ovqat həmin tarixi göstərir. Digər tərəfdən, dağlı məhəlləsinin olduğu Yasamalın yaşayış yeri olaraq tarixinin çox əski olmadığını bilirik. Məncə, 1960-cı illərdə burada yaşayış məskəni salınıb. Bura "Sovetski"dən, Zərgərpalandan, Kubinkadan, Paralelnidən və başqa yerlərdən gəlib yerləşiblər. Bunların içində əvvəllər Xızı rayonundan gəlib Bakının müxtəlif yerlərində məskunlaşan dağlılar xüsusi yer tutur. Yasamalın inkişafı 1960-1970-ci illərdə xeyli dərəcədə sürətlənir. 1970-ci illərdə Yasamal tələbələrin kirayədə qaldıqları yer kimi də məşhurlaşır. Bu işdə dağlı camaatının rolu böyükdür. İlk növbədə ona görə ki, dağlılar ticarətə meyillidirlər və pul qazanmaq üçün kirayəçilik fəaliyyəti ilə məşğul olublar. Bu, sadə bir biznesdir. Bunun üçün həyətdə kiçik otaqlar düzəldib tələbələrə kirayə vermək kifayət edir.

"Dağlı məhəlləsi" etnoqrafik bir hekayədir. Vaxtilə Hüseynqulu Sarabski "Köhnə Bakı"nı təsvir eləmişdi. XX əsrin əvvəllərindəki Bakının etnoqrafik təsvirini bu əsərdən öyrənə bilirik. Köhnə Bakı haqqında təsəvvürlərimizi bu əsər vasitəsilə genişləndirə bilirik. K.Əliyevin "Dağlı məhəlləsi" də 1970-ci illər Bakısının bir parçasını əsas etnoqrafik detalları ilə birlikdə təqdim edə bilir, bizi həmin dövrə aparır, o zaman baş verən hadisələrin müşahidəçisinə deyil, iştirakçısına çevirməyi bacarır.

Dağlı məhəlləsinin əsas etnoqrafik detalları yazıçının az qala unutduğu "hamamçı Sədulla", nisyə dəftəri ilə yaddan çıxmayan "Zeynəbin dükanı", üstündəki küncütü ilə seçilən dağlı çö-

rəyinin bişirildiyi "çörəkçi Zibeydə xalanın obyekti", dağlı xarakterini dolğun şəkildə özündə təcəssüm etdirən "ev sahibi Höcətulla kişi" vasitəsilə təqdim olunur.

Bu məhəllənin əsas səciyyəsi belədir ki, o, mədəni institutları və mənəvi dəyər konseptləri ilə iki hissəli bir strukturdan ibarətdir. Burada dəyərlər və dəyərlərə baxış iki dünyanı – özünün və özgənin dünyasını əhatə edir. Dağlı dünyasının öz dəyərləri, öz davranışları, öz əxlaqı və bunları bütövləşdirən öz dünyası vardır. Belə bir dünya dağlı məhəlləsidir. Dağlı dəyərləri bu dünyanın – yəni məhəllənin içərisində aktivdir, funksionaldır və işləkdir. Dağlı dünyasının xaricində dağlı dəyərləri aktivliyini itirir. Çünki dəyərləri qoruyan öz dünyasının funksional sistemi yalnız həmin dünyanın çərçivəsində və onun daxilində fəaliyyət göstərə bilir. Dağlı üçün halallıq, doğruluq, dürüstlük, tərbiyə, əxlaq, namus müqəddəs dəyərdir və bütün etnik-mədəni resurslar onların mühafizəsi üçün səfərbər edilir. Bu kriteriyalar dağlı etnoqrafik qrupu və ya camaatı üçün ümumi, ortaq davranış qaydalarıdır. Hər kəs bu qaydalara riayət etməyə çalışır, heç kim onu pozmur. Bu etnik əxlaq camaat şəraitində, yəni məhəllədə yaşadılır, qorunur və aktivləşdirilir. Dağlı çalışır, halal yolla yaşamaq üçün səy göstərir. Dağlı camaatı halal-haram anlayışlarını yaxşı anlayır, dərk edir. İçki də, siqaret də haram və zərərlidir. Höcətulla kişi də, uşaqları da həmin dəyərlərin daşıyıcısı kimi zərərli vərdişlərdən uzaqdırlar. Höcətullanın evində, həyətində mövcud olan qaydalar və davranış stereotipləri məhəllənin ümumi davranış modelini nümayiş etdirir. Nəinki otaqda, hətta həyətdə də heç kim siqaret çəkmir. Əlbəttə, burada kirayədə qalan tələbənin özgə dünyasının nümayəndəsi kimi dağlı dünyasına daxil olması xüsusi olaraq diqqətdə saxlanılır. Dağlı dünyası onu, yəni kirayə saxladığı tələbəni, pul qazandığı müştərini özünün müsbət dəyərləri ilə əhatə edir və öz dünyasına uyğunlaşdırmağa çalışır. Belə bir özünə uyğunlaşdırma cəhdi fasiləsiz şəkildə davam edir. Əgər özgə dünyanın nümayəndəsi məhəllənin davranış qaydalarına riayət etməzsə, əxlaq prinsiplərinə etinasız yanaşarsa, müştəri olmasına, maddi xeyir verməsinə baxmayaraq ondan imtina edilir. "Dağlı məhəlləsi"nin hekayəsində də

məhəllə kirayədə qalan bir tələbə oğlanın və bir qızın birlikdə dondurma yeməsinə, məhləyə birlikdə gəlməsinə göz yummur, məsələni çox sərt şəkildə qoyur və tələbə oğlanı evdən qovur. Məhəllənin əxlaq kriteriyalarına, mühafizəkar görüşlərinə həssas yanaşmayan yad dünyanın adamı oradan uzaqlaşdırılır, rədd edilir. Eləcə də hekayədəki şərti Zeynalın da başına bu sərt hadisələr gəlir. Əşyaları otaqdan küçəyə atılaraq çox hörmətsiz və urvatsız bir şəkildə evdən, həyətdən və həm də həmin məhəllədən qovulmuş olur. Demək ki, dağlı məhəlləsi üçün dağlı camaatının dağdan gətirdiyi və şəhərdə də özlərinin kompakt yaşadığı məhəllədə qoruduqları əxlaq əsas mənəvi dəyər kimi yaşadılır və bu dəyər heç kimə və heç nəyə qurban verilmir.

Hekayədə bəzi şərtiliklərlə rastlaşırıq. Yazıçı özünü sonda sadəcə bir yerdə Zeynal olaraq təqdim edir. Bəlkə, bu Zeynəbin, Zibeydənin səs harmoniyasını tamamlamaq üçün seçilmişdir. Amma hekayədəki tələbə qızın adının həqiqətən Şamama olduğunu da şərtilik kimi qəbul edirəm. Çünki bədii əsərdə, hekayəçilik ənənəsində yazıçı hadisələrin və obrazların gerçək və olduğu kimi verildiyinə oxucunu inandırmağa çalışarkən belə üsullardan istifadə edir. Bizim yazıçımız da bu yolla getmişdir. Çünki mənim tanıdığım yazıçı heç bir zaman xoş xatirələrinin qaynağı olan bir şəxsin artıq ahıl yaşında əxlaq sınağı ilə sınanmasına razı olmaz.

Beləliklə, biz tələbə olaraq bir zamanlar bu və ya başqa şəkildə dağlı məhəlləsindən keçmişik. Dağlı məhəlləsi bizim həyatımızın gənclik dövrünün bir parçası olub, ən məhrəm xatirələrimizin yuvası olub. “Dağlı məhəlləsi” hekayəsi də bizi bu məhəllədən yenidən keçirərək burada keçən həyatımızla yenidən görüşdürən, qovuşduran və bu məhəllədəki xatirələrimizə mənəvi dəyər mənası qazandıraraq bu günə və gələcəyə daşıyan gözəl bir əsər kimi çağdaş ədəbiyyatımızın parlaq bir səhifəsini təşkil etməkdədir.

Kitabdakı nümunələrdən biri “204 nömrəli avtobus” adlı hekayədir. Bu hekayə nostalji duyğuları ilə yazılmış və bir sıra cəhətlərinə görə də avtobioqrafik xarakterli hekayədir. Hekayədə tələbənin bağlı olduğu iki yer var, onlardan biri yataqxana, biri də universitetdir. 204 də bunları bir-birinə bağlayan vasitədir.

Tələbələr avtobusla dərsə gedib gəlirlər. Hekayə tələbənin avtobusla necə getdiyi ilə yanaşı, avtobusun tələbənin həyatından necə keçdiyini danışır. Tələbə qayğıları, pulsuzluq, peraşki, avtobus basabasları, yoldaş üçün yol pulu vermək, xoşun gələn biri ilə qarşılaşmaq və avtobusun keçdiyi yol boyu şəhəri müşahidə etmək. Yazıçı bu şəhər, bu ölkə və bizim mənsub olduğumuz milli mədəni dəyərlər haqqında düşüncələrini ədiblərə qoyulmuş heykəllər haqqında məlumatlarla bölüşür. Əsərdəki və 204-ün marşrutu üzərindəki heykəllərin əksəriyyəti ədəbiyyat adamlarına aiddir. Ədəbiyyatdan kənara çıxan Əzizbəyovun heykəlindən yazıçı bəhs etmir, avtobus da orda dayanmır. Belə anlaşılır ki, avtobusun Əzizbəyovun heykəlinin yanında dayanmağa marağı yoxdu, yazıçının da ondan bəhs etməyə həvəsi. Beləcə, Fontanlar bağından başlayıb çöldə heykəlləri dəyərləndirərək, içəridə isə avtobus sərnişinlərinin sərgüzəştlərini müşahidə edərək Elmlərə qədər gəlirik. Bu hissəyə qədər olan əhvalatların içində heykəllərlə bağlı görüşlər önəmlidir.

Hadisələrin bir hissəsi də hərəkətdə olan avtobusda yol boyunca müşahidə olunur. Avtobusun nömrəsi BDU məzunları, o cümlədən də mənim üçün mənalıdır, dəyərlidir, gənclik xatirələrini canlandıran vasitədir. Amma bununla yanaşı, avtobus insan, zaman, məkan və hərəkət kateqoriyaları ilə də fəlsəfi baxımdan dəyərləndirilə bilir. Burada məkandan məkana şəklində olmasa da, bir məkandan çıxıb başqa məkana yol gedən insandan bəhs olunur. Onun yolu daşa dönmüş dünyadan, heykəllərdən, onların daşıdığı dəyərlərdən keçir. Heminqueyin Qocası bu yolu qayıqla dənizdə keçir. Kamran Əliyevin qəhrəmanı isə avtobusda, həm də onun 204 nömrəlisində hərəkət edir. Burada köpək balığı ilə mübarizə motivi də yoxdur. Burada mübarizə üç yerə parçalanır: çətin yol şəraiti ilə hərəkət edən avtobus, sərnişinlərlə mübarizə aparan sürücü, ehtiyacları ilə mübarizə aparan tələbə. Tələbənin ehtiyaclı durumu onun bir qız tanışının beş qəpiklik yol pulusunu verə bilməyib aldatma metodundan istifadə edərək təhlükəli bir vəziyyətə düşməsi ilə də gücləndirilmiş olur.

Bizim milli xüsusiyyətimiz belədir ki, həyatımızın bağlı olduğu canlı-cansız hər şeyi sevərik. Beləliklə, ətrafımızı sevgi ilə əhatə edər və sevgi içərisində yaşayarıq. Bu sevilənlər içərisində nəqliyyatın da öz yeri var. Keçmişdə bu nəqliyyatın ən yayğın nümunəsi at idi. Əski türk atı qanadı sayırdı, çünki at onu təkcə bir yerdən başqa yerə aparmır, onu arzularına və arzuladığı yerə çatdırır. Mən burada atdan başlayıb yenə də avtobusa qayıdacağam. Çünki nəqliyyat arxetipini də bu hekayə vasitəsilə bir də gözdən keçirmək mümkündür.

Bizim milli xüsusiyyətimizdə əşyalara həssas yanaşma vardır. Bu yerdə Türkiyədə də filmini çəkdikləri Çingiz Aytmatovun "Al yazmalım"ı yadıma düşür. Adam avtomobilini həyatının və taleyinin bir parçası bilir və eynən sevdiyi qızı vəfalı atı ilə alplara məxsus bir şəkildə qəhrəmancasına qaçıran igid kimi "kamyonu" ilə qaçırır. Burada ənənə müasirliyin içərisinə yerləşə bilmir, sosial sıxıntılar şəklində ondan kənara çıxır və kənara çıxan hissələr sürücü obrazındakı alpın taleyində yeni yaralar açır.

Kamyon sürücünü at alpı apara bildiyi xoşbəxt taleyə qədər çatdıra bilmir, palçıqda batan birinə yardım edir və çağdaş dövrün yardımsevərliyi sürücünün həyatının çox kritik dönəmində yuvasını qorumaq üçün qaçarkən ailə faciəsinə yol açır.

Bir də səhv etmirəmsə, "Nu poqodi" multfilmindən yadımızda qalan "zemlya v illüminatore" mahnısı vardı. Mənası təyyarənin pəncərəsindən görünən yer deməkdir. Mən bu hekayəni də avtobusun pəncərəsindən görünən şəhər adlandırardım. Əlbəttə, mən bu halda orta əsrlər Şərq ədəbiyyatındakı şəhrəşupları və ya Avropadakı brüker ədəbiyyatını nəzərdə tutmuram. Bir başqası bəlkə şəhər yerinə dünya deməyi daha uyğun sayardı. Elə düşünürəm, şəhər də dünyanın bir parçasıdır və hətta dünya modelinin xüsusi bir çərçivəsidir.

Avtobus qarlı yoxuşları qalxır, çətin yollardan keçir, amma yeni bir yuvaya gedən yola yaxşı yoldaş ola bilmir. Avtobus sürücünün timsalında içində daşıdığı sərnişinlərlə bir dünyanın daşıyıcısı kimi çıxış etmir. O, öz beş qəpiklərdən düzələn və işin sonunda bəlli bir məbləğdə bütövləşən dünyasını düşünür. Onun

dünyası üçün destruktiv, dağıdıcı element Məmmədağadır. Sürücü Məmmədağa adlı destruktiv element tərəfindən zülmə məruz qalır və nəticədə üsyan edir. Onun üsyanı isə son dərəcə uyğun olmayan bir situasiyaya təsadüf edir. İki gəncin hələ simpatiya mərhələsində olan münasibəti çox təhlükəli bir psixoloji sınaqla qarşı-qarşıya qalır. Bu psixoloji situasiyanın yaranmasında 204-ün sürücüsü də, onun Məmmədağa adlı sərnişini də eyni mənəvi məsuliyyəti bölüşürlər.

Məmmədağa əslində yalançı qəhrəmandır. O, xeyirxah obrazını imitasiya edən bir oyunçudur. Gələcəkdə böyük sovet afiristi olmaq üçün indidən özünə ciddi imic və tələbə səviyyəsində komik görünən yalançı xeyirxah adı formalaşdırıb. Kostyum, qalstuk və qara çanta xırda fırıldaqdan böyük afirizmə gedən yolun başlanğıcı üçün ciddi bir hazırlıq görüldüyünü göstərməkdədir. Hətta onun arxadan kukla oyununda olduğu kimi idarə olunma imkanları da çox gerçək görünür. Onun yalançı xeyirxahlığı aldatma oyunu şəklinə düşüb və avtobusu gerçəkdən istismar alətinə çevirib. Özünün bu işdə nə qədər günahı olub olmadığı məlum deyil, amma başlanan bu aldatma oyununun onun adı altında baş verdiyi tamamilə aydındır.

Məmmədağanın rəsmi imici də sovet dövrünün saxta təbiətinə tamamilə uyğundur. Şübhəsiz ki, Məmmədağanı o dövrün cəmiyyətində yüksək məqamlar gözləyirdi. Onun qəzet redaktorluğuna qədər yüksəlişini hekayədə izləyə bilirik. Demək ki, irəlidə özünün yazı fəaliyyəti ilə sovet korrupsiyasının təkərciyini və vintciyini təşkil edə biləcəkdir.

Hadisələrin əsas hissəsi avtobusun içində baş verir. Burada sıxılmış və qapısına qədər dolmuş avtobusun içində bir də ondan da artıq dərəcədə sıxılmış bir zaman var. İllərlə, aylarla, günlərlə eyni bir marşrut üzrə hərəkət edən avtobusda baş verən hadisələrin hamısı bir reysin üstündə toplanır. Belə bir sıxılma əslində postmodernist bir element olaraq bizə Coysun "Uliss"ini xatırladır. Məmmədağanın oyunu da elə burada və ən ciddi situasiyada sıradan çıxır, oyun pozulur və bir nəfərin yaxası əldə qalır. İşin yaxaya qədər gəlib çıxması artıq həm oyun maksimumunun aşıl-

dığını, həm də oyunun tükəndiyini göstərir. Psixoloji şərait də oyun situasiyası üçün əlverişli görünmür. Sürücü bilmir ki, sürüşkən yolda maşın idarə etsin, yoxsa sürüşüb düşən sərnişinlərlə beş qəpik savaşı aparsın. Çanaq bizim qəhrəmanın başında çatlayır. Hələ yaxşı ki, bu situasiyanı avtobusda rastlaşdığı tanış qız, bizim "Dağlı məhəlləsi"ndən tanıdığımız Şamama görmür, yoxsa durum estetik baxımdan olduqca rəzil və çirkin bir səviyyəyə qədər enərdi. Bəlkə də orada beş qəpik davası böyüyərdi və həmin qız da elə o vəziyyətdə bir daha geri dönməmək şərtilə həmin adamı tərk edərdi. Burada xatırlayaq ki, qəhrəmanımız, iki hekayədə bir dəfə adı çəkilən Zeynal həmin qızla ünsiyyət təşəbbüsündən kirayə qaldığı evdən qovulmuşdu. Dağlıların mühafizəkar əxlaq dəyərlərinə bağlı olan Höcətulla belə bir kirayənişini rədd etmişdi. Bu hekayədə isə Zeynal və Şamamanın münasibəti həm sosial, həm də təbiətin sərt sınağından keçir. "Dağlı məhəlləsi"ndə evdən qovulan tələbə qəhrəmanımız bu hekayədə də ünsiyyət qurmaqda problemlə qarşılaşır, buzlu pilləkənlərdə sürüşüb yıxılır və hekayə burada tamamlanır. Sonda yol pulunu Məmmədağanın verdiyinin söylənməsi, açılmamış qalır. Hekayə tələbə həyatını səmimi və duyğulu bir şəkildə təsvir edir, bu həyatı yaşayan insanlarda nostalgiya hissləri doğurur, oxucunun könül dünyasını ülvi, nəcib duyğularla zənginləşdirir.

Kitabdakı "Bənövşə oyunu" hekayəsi üç məlumat bloku üzərində qurulub: Birinci məlumat bloku bir məktəbin müəllimlər otağında başlanan söhbətdir. Burada ənənəvi davranış stereotiplərini zədələyən bir hadisə haqqında məlumat verilir. Məlumat ondan ibarətdir ki, kinoda gənc bir oğlanla bir qızın çıxardığı "dəsgah" hamının diqqətini çəkib. Bu gənclər kinoda yanaşı oturub, camaata məhəl qoymadan öpüşüb-görüşüblər. Ətrafdakıların ədəbsizlik kimi dəyərləndirdiyi bu hadisə bütövlükdə kinoya gələnlərin də, gəlməyənlərin də aktual mövzusuna çevrilir.

İkinci məlumat bloku "dəsgah" olaraq dəyərləndirilən hadisənin baş verdiyi kino situasiyasıdır. Bu kinoda "Nəcəfalının gədəsi" ilə "Kor Əsmərin nəvəsi" arasında baş verən ədəbsiz hə-

rəkətlərin yaratdığı söz-söhbət tamaşaçılar tərəfindən müşahidə edilir və ətrafa yayılır. Beləliklə, kənd də, məktəb də hər kəs bu məlumatı danışır və dəyərləndirir.

Üçüncü məlumat bloku məktəbin həyatində baş verən hadisələrin fonunda formalaşır. Burada uşaqların oynadığı "bənövşə oyunu" məlumatı müşayiət etməyə başlayır.

Ədəbsiz bir hərəkətlə bağlı məlumat kinodan məktəbə gəlir, müəllimlər arasında yayılır, oradan da uşaqlara doğru genişlənir və əslində bütün kəndə yayılmış olur. Məlumatın səs səviyyəsi də pıçıltıdan başlanır və uca səsli xoradək davam edir. Eyni zamanda məlumat şagird, müəllim və valideyn üçlüyünün də bəzi işlək olmayan mexanizmlərinə diqqət yönəldir.

Bu şəkildə hekayənin bir hissəsi "Bənövşə oyunu"na qədər bitmiş olur. Bu hissə ayrıca bir hekayə kimi də dəyərləndirilə bilər. Amma yazıçı hekayəni uşaq oyununa qədər davam etdirir və uşaqlar arasındakı münasibətlər sisteminə nüfuz etməyə çalışır. İndi bu təşəbbüs təbii bir şəkildəmi baş verir və ya yazıçı məqsədli şəkildə gənclər arasındakı münasibətlərin sosial, psixoloji və ya mənəvi-əxlaqi əsaslarını öyrənməyə çalışır.

Bu oyun yazıçıya nə üçün lazım olmuşdur və ya niyə yazıçı bu oyun epizodunu hekayəyə daxil etməyi lazım bilib. Ola bilər ki, hekayənin real əsası bu şəkildə baş verib. Yəni məktəbdə "bənövşə oyunu" oynayan uşaqların baş vermiş hadisəyə münasibətini bildirdiklərinin şahidi olub və bu gerçəklik detalını hekayəyə gətirib.

Belə bir yanaşma mümkündür, amma bu, yazıçıya hekayədə əldə edildiyi qədər geniş imkanlar vermir. Hekayənin modelləşdirilməsi baxımından oyunun bura daxil edilməsi özünü iki cəhətdən əsaslandıra bilir: 1) məlumatın böyükdən uşaq səviyyəsinə keçməsini təmin etmək üçün; 2) məlumatın ciddi səviyyədən komik səviyyəyə keçə bilməsini təmin etmək üçün. Bununla yanaşı, uşaq davranışlarını, uşaq dünyagörüşünü elə uşaq dünyasının içində axtarmaq baxımından da oyun əlverişli şərait yaradır. Bu oyun vasitəsilə yazıçı uşaqların xarakterini, xasiyyətini izah edir, onların arasında olan münasibətləri aydınlaşdırır.

Kamran Əliyevin hekayələri müasir dövr Azərbaycan ədəbiyyatında önəmli bir yer tutur və Azərbaycan hekayəçilik ənənəsini ləyaqətlə davam etdirir. Janrın formal-bədii səciyyəsi qorunmaqla yazıçının özünün fərdi yanaşması nəticəsində meydana gələn ideya və məzmun onun əsərlərinin əsas fərqli xüsusiyyətlərini təşkil edir. Bu mənada Kamran Əliyevin hekayələri özündə ənənə və novatorluğun harmonik vəhdətini təşkil edir. Burada aktual və əbədi, milli və ümumbəşəri ideyalar birləşir və əsəri əsas klassik dəyər daşıyıcıları ilə təmin etmiş olur.

Bizim məqsədimiz ümumiyyətlə hekayənin deyil, Kamran Əliyevin hekayə yaradıcılığını bu janrın ümumi mənzərəsi çərçivəsində təhlil etmək və onun özünəməxsus səciyyəsini müəyyənləşdirməkdir.

Çünki Kamran Əliyev ədəbiyyat sahəsində tanınmış bir elm adamıdır və məşğul olduğu elm sahəsi də ona ədəbiyyatı dərindən bilmək baxımından əlavə üstünlük qazandırır.

Azərbaycan ədəbiyyatında bədii hekayənin mənimsənilməsində K.Əliyevin böyük nailiyyətləri müxtəlif araşdırmalarda qeyd olunub. Əlbəttə, K.Əliyev həm dünya ədəbiyyatının böyük korifeylərindən, həm rus ədəbiyyatından, həm də Azərbaycan nəsrinin qabaqcıl nümunələrindən təsirlənib. Bunlar elə əsərlərdir ki, onlar əhəmiyyətini azaltmır, köhnəlmir və dəyərini heç zaman itirmir.

K.Əliyevin əsas yaradıcılıq uğurlarından biri də odur ki, onun özü bədii dəyər yaratmağa nail olub. Təkcə ənənəni davam etdirməyib, təkcə ənənə üzərində novator olmayıb, o, həm də və ən başlıcası özü hekayəçilikdə yeni ənənənin əsasını qoyub.

Hekayə janrının tipologiyası üzərində müşahidələrdən də aydın olur ki, Kamran Əliyevin hekayələrində ümumi başlanğıc və janrın prinsipləri təkcə məzmunda deyil, eyni zamanda strukturda və bədii üslubun fərdi xüsusiyyətlərində də özünü büruzə verir. K.Əliyevin hekayələrinin poetikasını təhlil edərkən onun əsərlərində kompozisiya və süjetin mükəmməl işləndiyini görürük.

Kamran Əliyevin hekayə yaradıcılığı formal bədii vasitələrin işlənməsi baxımından klassik hekayəçilik ənənəsinin davam etdirilməsində önəmli bir mövqe nümayiş etdirir.

Müəllifin gerçəkliyi qavraması və yaradıcılığında əks etdirməsi, ideyanın məzmunu ən yeni ədəbiyyatın tələblərinə tam cavab verir.

K.Əliyevin hekayələrinin ideya-məzmun xüsusiyyətlərinin təhlili zamanı müşahidə olunan səciyyəvi cəhətlərdən biri onun əsərlərindəki emosional effektin özünəməxsusluğudur. Yazıçının böyük ustalıqla qələmə aldığı əsərlərində nikbinlik ruhu hakim mövqeyi ilə seçilir. K.Əliyev həmişə və hər yerdə nikbindir və bu nikbinlik əsərin dərinliyinə qədər işləmiş və bütövlükdə onun emosional məzmununu əhatə etmişdir. Əsəri oxuyan adam nikbin bir duyğu qaynağı ilə təmasda olur, ondan yaxşı mənada təsirlənir və özünün əhvalını və könül dünyasını xoş duyğularla zənginləşdirir.

Hegelin epos nəzəriyyəsinə görə qəhrəmanın hərəkəti üçün müəllif səy göstərməlidir, ziddiyyətli situasiya yaratmalıdır, qəhrəman situasiya ilə qarşılaşmalı və onu həll etməlidir. Eposda hərəkət hadisə formasını alır, hərəkətin çıxış nöqtəsi qəhrəmanın şəraitlə qarşı-qarşıya gəlməsidir, qəhrəmanla şəraitin vəhdətidir. Belə vəziyyətdə janrın özünəməxsusluğu üzə çıxır. Çünki digər janrlar kimi hekayə də belə situasiyanı təqdim edərkən özünün əsas səciyyəsini müəyyənləşdirmiş olur. Bir çox hallarda hadisə hekayənin janr məzmununu müəyyənləşdirə bilmir. Məsələn, Çexov üçün də, Mirzə Cəlil üçün də vəziyyət insan mənəviyyatını xarakterizə etməyə kifayət edir. Kamran Əliyev nəsrinin ziddiyyət əsası ictimai şüurda dərin mənəvi təbəddülatlarla birbaşa əlaqəlidir, mənəviyyat və sosial məsələlər arasında axtarışlar nəticəsində yaranan yeni hekayədir.

Kamran Əliyev sosial sıxıntılardan doğan kədər yazıçısı deyil, ictimai könül dünyasının qədər, tale və qismət yazıçısıdır. Bu tale və qismət ictimai və fərdi olmasından asılı olmayaraq, özündə nikbin bir ruh daşıyır. O, kədəri deyil, ən mürəkkəb şəraitdə belə çətin tapılan sevinci bədiiləşdirir. Bu zaman o "göz

yaşı içərisində gülüş" yaratmır, hər cür sıxıntıdan uzaq, insanın qəlbinə rahatlıq gətirən səmimi və saf bir gülüş təqdim edir.

Kamran Əliyevin yaratdığı bədii gülüş ictimai satira formasında deyil, lokal xarakterli yumor şəklində özünü göstərir. Buradakı gülüş əyləndirən və əyləndirərək düşündürən bir gülüşdür.

K.Əliyev bədii obrazları ilə kimə isə nəsihət vermək, hansısa ibrət dərsindən bəhs etmək istəmir. Yazıçı cəmiyyətə belə effektsiz və köhnəlmiş üsullarla təklif göndərmir. Köhnə tələbat üsullarından tamamilə imtina edərək özünəməxsus bir yol seçir və dinamik nikbin motivlərdən istifadə edir.

K.Əliyevin mövzuları zahirən qlobal xarakterli deyil, ümumiyyətlə, dünyanın və ümumiyyətlə, insanın taleyini həll etməyi qarşısına məqsəd kimi qoymur. O, ilk növbədə bir Azərbaycan yazıçısıdır, bu vətənin və millətin həyatını, taleyini, duyğu və düşüncəsini yazır. Azərbaycan insanının həyatında və daha çox da onun mənəvi dünyasındakı əsas problemi bədii yaradıcılığın obyektinə və predmetinə çevirir. Belə lokal yanaşma və fərdi səciyyəli elementlərlə o, insan probleminin qlobal məsələlərinə nüfuz edir. Zahirən adi və kiçik görünən problemin ictimai mənəvi aspektini tək elementli bədii motiv şəklində yaradır və onu digər sosial hadisələr zənciri ilə əlaqələndirir. Belə çevik və dinamik bədiiləşdirmə üsulu yazıçıya özünün seçdiyi sadə həyat nümunəsində əsas əxlaqi və mənəvi seqmenti diqqət mərkəzinə gətirməyə, dəyərləndirməyə və sənət nümunəsinə çevirərək insanın könül və ruh dünyasına daxil etməyə imkan verir.

Kamran Əliyev yazdığı yazıları, elmi və bədii əsərlərini tam şəkildə yazırdı, əskiksiz yazırdı, bütöv yazırdı. Hekayələri də içi nikbinliklə tam dolu olurdu və bütöv olurdu. Burada düşüncə və duyğu nikbin bir məcrada birləşib bütövlüyü təmin edirdi. Oxuduğum bütün hekayələrində bu bütövlüyü və tamlığı gördüm. Kamranın dostların könül dünyasında yazdığı bir sevgi hekayəsi də vardı. Onu şəxsi davranışları ilə qazanmışdı. O da tam idi, bütöv idi. Beləcə hər şey tam və bütöv idi, təkcə Kamranın vaxtsız vəfatı və yarımçıq qalmış ömür hekayəsindən başqa...

Allah rəhmət eləsin!

# KAMRAN ƏLİYEVİN "TƏNQİDİN POETİKASI" ƏSƏRİ

# "THE POETICS OF CRITICISM" BY KAMRAN ALIYEV

# "ПОЭТИКА КРИТИКИ" КЯМРАНА АЛИЕВА

**Anar İBRAHİMOV**
*sənətşünas magistr*
*ibrahimov.11.09.97@gmail.com*

**Özət**

Kamran Əliyevin elmi fəaliyyəti nəticəsində folklorşünaslıq və tənqid elmi daha da zəngiləşərək Azərbaycanda öz elmi dərəcəsini möhkəmləndirmişdir. "Tənqidin poeitikası" əsərində əsas iki məsələyə xüsusi önəm verilmişdir. Bunlardan biri tənqiddə obyektivlik və digəri isə tənqidçinin bir elm adamı kimi cəmiyyətdə tutduğu mövqeyidir. Hər iki nüans ümumi olaraq tənqidin elm kimi mahiyyətini ayrı-ayrılıqda vurğulayır.

**Açar sözlər:** Tənqid, poetika, ədəbiyyat, mədəniyyət, ədəbiyyat-şünaslıq, məqalələr

**Summary**

As a result of Kamran Aliyev's scientific activity, the science of folklore and criticism became even richer and strength then edit signature in Azerbaijan. The Poetics of Criticism pays special attention to two main issues. One is the objectivity of criticism and the other is the position of the critic in society as a scientist. Both nuances generally emphasize the essence of criticism as a science.

**Key words:** criticism, poetics, literature, culture, literarycriticism, articles

**Резюме**

В результате научной деятельности Кямрана Алиева фольк-лорно-критическая наука в Азербайджане еще больше обогатилась и укрепилас вою научную степень. «Поэтика критики» уделяет особое внимание двумосновным вопросам. Один – это объективность критики, а другой – позиция критика в обществе как ученого. Оба нюанса в целом подчеркивают сутькритики как науки.

**Ключевые слова:** критика, поэтика, литература, культура, литературнаякритика, статьи

Öz elmi araşdırmalarında daha çox folklorşünaslıq elminə üstünlük verən filolologiya elmləri doktoru, professor Kamran Əliyevin çoxşaxəli fəaliyyətində tənqidə aid araşdırmalarının olduğunu da görə bilərik.

İlkin olaraq folklorşünaslığa aid məqalələrinə nəzər salsaq görə bilərik ki, Kamran Əliyev bu yazıların hər birində folklorşünaslığın müxtəlif hissələrini ayrı ayrılıqda təhlil etmiş və onun tarixi köklərini də araşdırmışdır. Alimin 2013-ci ildə nəşr olunan "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" kitabında yer alan "Yazıçı və folklor problemi" (1982), "İlkin qaynaqlara doğru" (1983), "Azərbaycan məhəbbət dastanlarının poetikası" (2001), "Folklorşünas alim" (2006) kimi yazılarında biz əsasən folklorşünaslığın bir elm kimi mahiyyətini görə bilərik. Misal üçün "İlkin qaynaqlara doğru" (1983) məqaləsində əsasən türkologiya ilə bağlı vacib elmi nüansları diqqət mərkəzinə çıxarmışdır.

Kamran Əliyevin folklorşünaslıqdan əlavə tənqid elmi ilə bağlı qiymətli yazılarını da görə bilərik. Bu deyilən fikrə nümunə kimi alimin 2012-ci ildə dərc olunan "Tənqidin poetikası" kitabında daha çox obyektiv tənqidçiliyin əks olunmasına şahid oluruq. Misal üçün "Ədəbi tənqiddə bədiilik", "Ədəbi-tənqidi fikrin imkanları" və s. kimi yazılarında daha çox ədəbi tənqiddən əlavə ümumi tənqid elminin ayrı-ayrı sahələrinin xarakterik xüsusiyyətləri özünə yer tapmışdır.

Tənqidin nəzəri-metodoloji problemlərinin öyrənilməsi zaman-zaman müvafiq humanitar elmlərin maraq dairəsində yer alıb və onun özününsə həmişə prioriteti olub. Tənqid haqqında fikir müxtəlifliyini və rəylər çarpazını nisbətən modelləşdirilmiş halda aşağıdakı müddəalar şəklində qruplaşdırmaq mümkündür: "Tənqid özünün analiz obyekti kimi emosional olmalıdır. Bununla yanaşı o, estetikanın, daha doğrusu, elmin növüdür". Qeyd edək ki, tənqidi ədəbiyyatın bir hissəsi sayan bir çox alimlər, eyni zamanda, tənqiddə bədiilik və elmiliyin vəhdətini də təsdiq edirlər. V.Kubilyus belə hesab edir ki, "tənqid bədii yaradıcılıq, elmi analiz və qəzet felyetonunun (ənənəvi mənada) qovuşuğunda yaranmışdır". "Tənqidi əsərin stilistikası bədii yaradıcılıq, elm və

publisistikanın sintezi nəticəsində meydana çıxmışdır”. Prof. S.Əsədullayev də yazır: “...Bizcə, tənqidi elmin və incəsənətin qovuşması və birliyi sayan konsepsiya həqiqətə daha çox yaxındır. Tənqidin mahiyyəti cüttərkiblidir, o, elmin və ədəbiyyatın xüsusiyyətlərini özündə birləşdirir. Ədəbi tənqid ədəbiyyat, elm və estetikanın qovuşduğu nöqtədə inkişaf edir”. Bəli, tənqid haqqında müxtəlif fikirlərin ən ümumi mənzərəsi, təxminən, belədir və ən ümumi aspektdə baxdıqda, tənqidin dəyərləndirilməsi prosesində həmin təhlillərdəki əsas müddəaların bitkin forması kimi üç konsept-paradiqmanı fərqləndirmək mümkündür:

Tənqidin yaranışında və özünümüəyyənləşdirməsində ən davamlı mərhələ – ictimai-fəlsəfi elmlərin ikinci diferensiasiyası zamanından, yəni vahid elmi sistemdə estetikanın və filologiyanın müstəqilləşməsi nəticəsində onların özünün də budaqlanması zamanından başladı. Artıq bu mərhələdə tənqid, ümumfəlsəfi fikrin tərkib hissəsi kimi, bütövün hissəsi kimi yox, xeyli dərəcədə spesifikləşmiş ümumestetik fikrin tərkib hissəsi kimi özünü təzahür etdirir. Tənqid bu mərhələdə öz tədqiqat obyektinə – ədəbiyyata və incəsənətin digər növlərinə daha uzaqdan – fəlsəfədən deyil, bir qədər yaxından – esteti-kadan “baxır”. Və bu mərhələnin tənqidçi tipi, estetik-tənqidçidir (şərti deyimdə). Fikrimizcə, tənqidin elmi sistemdəki tarixi inkişaf prosesinin ən ümumi hərəkət istiqaməti XIX əsrin I yarısınadək demək olar ki, belə olmuşdur. “Tənqid – elmdir” tezisi, heç şübhəsiz, tənqidin məhz bu iki mərhələdəki (ümumfəlsəfi və ümumestetik sistemdə) inkişafından doğan xüsusiyyətləri onun bütün mövcud və müasir mahiyyətinə şamil etməkdən və həmin xüsusiyyətləri mütləqləşdirməkdən törəyir.

Kamran Əliyevin yazılarından belə bir nəticə çıxarmaq olar ki, indi humanitariyanın seçkin kulturoloji hadisəsi, sahəsi və istiqaməti kimi formalaşmış tənqidin müasir dövrümüzdə kəsb etdiyi xarakterik xüsusiyyətlərindən çıxış edib, polemos panoramını cizgiləndirdiyimiz konsepsiyalarla “dialoqu” davam etdirmək olar. Çoxdandır ki, tənqidə “ədəbi tənqid” deyirlər. Lakin açığını desək, bu termindəki “bədii” istilahı araşdırıcıları bir qədər çaşdırır. Bu nöqtədə onlar tərəfindən tənqidlə bədii ədəbiyyat arasındakı, daha dəqiq desək,

elmi-estetik idrakla bədii idrak arasındakı hüdudlar tam silinir və hər iki təfəkkür sahəsi eyniləşdirilir. Bu məsələ ilə bağlı prof. S.Əsədullayevin qənaəti belədir: "O özündə bədii-obrazlı təfəkkürün ünsürlərini toplayaraq nəinki bədii obrazlarla əməliyyat aparır, həmçinin obrazlarla "düşünür" ki, bu da onu ədəbiyyata (incəsənətə) yaxınlaşdırır". S.Vayman isə "Min dənə ev dovşanı – hələ fil demək deyil" polemik məqaləsində yazır ki, "mənim dərin inamıma görə tənqid yalnız bu şərtlə tam şəkildə obyektiv ola bilər; əgər o bədiidirsə, əgər o, yazıçı və onun auditoriyası ilə incəsənət dilində söhbət etməyi öyrənirsə". Fikrimizcə, tənqidi bədii-obrazlı idrakın məhsulu hesab etmək qətiyyən düz deyildir. Axı görəsən, tədqiqatçılar "tənqid – bədiidir", "tənqid incəsənət dilində danışır" – deyərkən, konkret olaraq məhz nəyi nəzərdə tuturlar? Tənqidin bütün mövcud mahiyyəti – onun daxili strukturu, təhlil-araşdırma qanunauyğunluqları, düşüncə prosesinin dinamikası, obyektiv dəyərləndirməyə meyli, nəzəri-metodoloji xassəsi... bu tezislərin doğruluğuna inamı azaldır. Bəlkə, müəlliflər burada tənqidin obrazlı dilə meylini, emosionalpolemik keyfiyyətini nəzərdə tuturlar? Lakin yenə də saysız-hesabsız faktlar həmin konsepsiyanın xeyrinə olmayacaqdır.

Tənqidi fikrə, tənqidi özünüifadəyə olan daxili estetik tələbat bədii özünüifadənin mümkün olmadığı yerdə meydana çıxmır. Onun təzahür səbəblərini belə bir alternativdə axtarmaq təşəbbüsünün özü yanlışdır və tənqidi bədii idrak hadisəsi saymağın ifrat nəticələrindəndir... Çünki tənqidi fikir bədii özünüifadə zərurətindən deyil, sosial-estetik fenomen olan tənqidi idrakın qnoseoloji özülündəki özünüifadə (subyektiv əsas) və ictimai fikri ifadə (obyektiv əsas) zərurətindən törəyir. Bədii hadisə bu mürəkkəb psixoloji "struktura" təsir edir, "qıcıqlandırır" və tənqidi idrakın fəaliyyətə başlamasına təkan verir. Bu, elə bir reflektiv prosesdir ki, biz onun cürbəcür təzahür formalarını varlığın predmet və hadisələrinə münasibət göstərmək istəyən müxtəlif idrak fəaliyyəti növlərində də (fəlsəfi, sosioloji, estetik, elmi və s.) görə bilərik... "...Tənqid – elmdir" deyən konsepsiya ilə yalnız o mənada mübahisə etmək olar ki, o, tənqiddəki elmi mahiyyətin identifikasiyasını əsaslandırmır, onu digər ictimai elmlərlə, hətta dəqiq elmlərlə eyni cərgədə qoyur.

Halbuki tənqiddə elmi xassə yalnız bir həlledici məqamda təzahür edir – bədii hadisə dəyərləndirilərkən obyektiv tənqidi təhlil və baxışın gerçəkləşməsində. Tənqidin nəzəri və metodoloji strukturunda isə (bu, tənqidi düşüncə fəaliyyətinin özəyini təşkil edir) elmi-tədqiqi analiz metodu öz yerini, mövqeyini müxtəlif səviyyələrdə təzahür edən emosional, polemik, interpretativ tənqidi təhlilə güzəştə gedir. Bu – dünyanın mənimsənilməsinin iki fərqli üsulunun, yəni gerçəkliyin obyektiv qanunlarını öyrənən elmin və varlığın obrazlı dərki olan incəsənətin hüdudları barədəki antitezanın tənqiddə birləşdirmə, calaq formasında təkrarı kimi görünür. Məsələ burasındadır ki, tənqiddə elmilik özünü bilavasitə elmdə olduğu kimi, bədiilik isə bilavasitə incəsənətdə olduğu kimi təzahür etdirmir. Bu fəaliyyət növündə obyektivliklə subyektivliyin, hissi və rasional amillərin çox orijinal təzahür xüsusiyyətləri vardır. Adətən, idrak fəaliyyətində hissi-emosional amilin subyektiv başlanğıcla, rasional amilin isə obyektiv başlanğıcla bağlı olduğunu güman edirlər. Ən ümumi nöqteyi-nəzərdən varlığın obrazlı dərkində (incəsənətdə) ilkin idrak fəaliyyətinin (hissi-emosional amil – subyektiv başlanğıc), elmi dərkində isə daha çox ikinci fəaliyyət tipinin (rasional idrak – obyektiv başlanğıc) müəyyənedici olduğu şübhəsizdir. Bax, elə burada tənqidin elmdən və incəsənətdən fərqli cəhətləri meydana çıxır. Çünki tənqiddə biz həmin idrak fəaliyyəti prosesinin başqa təzahürünü – yəni hissi-emosional aspektin obyektivliklə, rasional aspektin isə subyektivliklə qırılmaz bağlılığını müşahidə edirik. Bu paradoksdurmu? Xeyr. Tənqidin təfəkkür texnologiyası məhz belə qurulmuşdur; onda hissiyyatın obyektivliyi, rasional dəyərləndirmənin isə subyektivliyi xassəsi vardır; tənqidi təhlil prosesində rasional qiymətlər, meyarlar fərdiləşir, özünəoxşar olur, subyektiv məzmun və forma kəsb edir, bununla da, tənqidi ideya özünəməxsusluğu yaranır, ümumi nəzəri model özünküləşir, ona fərdiyyətin möhürü vurulur; subyektiv duyum və hissiyyat isə məhz incəsənətdə olduğu kimi obrazlı inikas formasında deyil, hissi-obyektiv, emosional dərketmə şəklində reallaşır.

Bədii tənqiddə obyektivliyi həmişə bir yaradıcılıq prinsipi kimi qoruya bilmişdir. “Tənqidçi özü həyatımızda və zəmanə-

mizdə baş verən sosioloji proseslərin fəlsəfi əsaslarını araşdırmağa çalışan və bu hadisələrin şərhi fövqündə dayanan bir qüvvə olmalıdır. Bədii əsərlər tənqidçinin əlində fikir söyləmək üçün bir vasitəyə çevrilməlidir. Belə olduqda tənqidçi bədii yaradıcılıq prosesinə yüksək tələblə yanaşacaq və onda obyektivlik əsas meyar kimi istiqamətləndirici rol oynayacaqdır".

"Tənqidin poetikası" kitabında tənqid elmindən əlavə tənqidçilərin də əsas özünəməxsus xüsusiyyətləri qeyd olunmuşdur. Tənqidlə məşğul olan şəxslər tənqidçi sayılır və onların da ədəbiyyatda inkişafında özlərinəməxsus rolları vardır. Bu isə onları incəsənətin inkişafına xidmət edən bir fiqur halına gətirir. Ümumiyyətlə, incəsənət əsərlərinin yaxşı, yoxsa pis olması, onların bənzər məhsullardan necə fərqlənməsi haqqında daima mühakimə yürütdüyümüzə görə hamımız sözün hansısa mənasında tənqidçiyik. Lakin tənqid sadəcə rəy deyil. Resenziya sübutlara əsaslanan və başqalarını inandırmağı nəzərdə tutan arqumentdir. O, ən yaxşı halda haqqında rəyin bildirildiyi amilin obyektik təsvirinin elementlərini özündə birləşdirməlidir. Rəy kimi resenziya da subyektiv olsa da, tənqidçi yalnız özü üçün deyil, başqa oxucular, dinləyicilər və ya tamaşaçılar üçün də danışmağa çalışır.

Ümumi olaraq sonda qeyd edirik ki, Kamran Əliyevin yazılarında Azərbaycanda olan tənqidçiliyin bir elm kimi öz mahiyyətini əks etdirməsinə şahid oluruq.

## QAYNAQLAR


1. Abdullayev Cəlal. Lirika və zaman, Bakı: "Yazıçı" nəşriyyatı, 1982, 178 s
2. Abid Əmin. Seçilmiş əsərləri, Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007, 288 s
3. Ağaoğlu Əhməd. Seçilmiş əsərləri, Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007, 392 s.
4. Ağaoğlu Əhməd. Üç mədəniyyət, Bakı: "Mütərcim" nəşriyyatı, 2006, 160 s.
5. Babayev Yaqub. Təriqət ədəbiyyatı: sufizm, hürufizm, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2011, 158 s.
6. Kamran Əliyev. "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar". 2013
7. Kamran Əliyev."Tənqidin poetikası". 2012
8. http://anl.az/el/Kitab/2020/01/cd/Azf-311910.pdf

# ƏDƏBİYYATŞÜNASLIQDAN FOLKLORŞÜNASLIĞA AÇILAN PƏNCƏRƏ
(ROMANTİKİN FOLKLOR HAQQINDAKI DÜŞÜNCƏLƏRİNƏ ÜMUMİ BİR BAXIŞ)

# THE WINDOW FROM LITERATURE-STUDY TO FOLKLORE-STUDY
(GENERAL VIEW TO THE ROMANTIC'S THOUGHTS ABOUT FOLKLORE)

# ОКНО ИЗ ЛИТЕРАТУРОВЕДЕНИЯ В ФОЛЬКЛОРИСТИКУ
(ОБЩИЙ ВЗГЛЯД НА РАЗМЫШЛЕНИЯ РОМАНТИКА О ФОЛЬКЛОРЕ)

**Ataş ƏHMƏDLİ**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*atesehmedli@gmail.com*

**Özət**

Məqalədə görkəmli ədəbiyyatşünas alim Kamran Əliyevin folklorşünaslıq fəaliyyətindən söz açılır. Məlum olur ki, alimin bu sahədəki fəaliyyəti onun elmi axtarışlarının son dövrünə təsadüf edib. Qısa zaman kəsiyini əhatə etsə də, bu dövrü də alimin fəaliyyətinin məhsuldar mərhələsi hesab etmək olar. Özəlliklə də "Folklor və dövlətçilik", "Novruz mərasimləri", "Lahıc folkloru" kimi aktual mövzular üzərindəki çalışmalarını tədqiqatçı-alim məhz bu dövrdə aparmışdır. Bu sahədə əldə etdiyi uğurlu nəticələr az vaxtda geniş təbliğ olunmuş və bir folklorşünas alim kimi də onu ölkədə tanıtmışdır. Ümid edirik ki, alimin bu irsi daha əhatəli öyrəniləcək və bu sahədə əldə etdiyi nailiyyətlər gələcək tədqiqatlarda istifadə olunacaqdır.

**Açar sözlər:** folklor, folklorşünas, ədəbi irs, dövlətçilik, Novruz mərasimləri, Lahıc folkloru

**Summary**

In the article it is said about the folklore-study activity of prominent literary scientist Kamran Aliyev. It is known that the activity of the scientist in this field coincided with the last period of his scientific research. Though it covers a short period of time, this period can also be considered a productive level of the scientist's activity. In particular, during this period the researcher-scientist carried out his work on such topics as "Folklore and statehood", "Novruz ceremonies", "Lahij folklore". His successful results in this field were promoted widely in a short time and introduced him as a folklorist scientist in the country. We hope that this heritage of the scientist will be studied more comprehensively and his achievements in this field will be used in future researches.

**Key words:** folklore, folklorist, literary heritage, statehood, Novruz ceremonies, Lahij folklore

**Резюме**

В статье речь идет о фольклорисической деятельности известного ученого литературоведа Камрана Алиева. Выясняется, что научная деятельность ученого в этой области совпала с последним периодом его последних научных поисков. Несмотря на то, что этот период охватывает короткий промежуток, его также можно считать плодотворным этапом деятельности ученого. Свои работы над такими актуальными темами как «Фольклор и государственность», «Обряды Новруза», «Фольклор Лагича», ученый-исследователь провел именно в этот период. Достигнутые им удачные заключения в этой области за короткий период были широко распространены и прославили его в стране как ученого-фольклориста. Надеемся, что это наследие ученого будет более широко изучено а его достижения в этой области использовано в будущих исследованиях.

**Ключевые слова:** фольклорист, художественное наследеие, государственность, обряды Новруза, фольклор Лагича

Kamran müəllim haqqında yazmağa başlayanda düşündüm ki, bu proses mənimçün o qədər də rahat keçməyəcək. Düzü, ilk dəfə idi ki, belə situativlikdə fikir söyləmək məsuliyyəti üzərimə düşmüşdü. Yəni ki, təqdim etdiyin insanın "bitmiş" və "davam

etməkdə olan” ömür kitablarını varaqlamalı olursan, “dünənindən” “bu gününə” körpü axtarırsan, “yaşanmışlarının” fonunda “yaşanacaqlarına” səlis və səmimi münasibət bildirməyə çalışırsan... və beləliklə...

Kamran müəllim romantik ədəbiyyatın tədqiqatçısı olsa da, həyata real baxışı ilə seçilən insan idi. Zahirən cüssəli görünən bu şəxs o qədər incə davranışlı idi ki, tanıdıqlarımdan kiminsə ondan incik düşdüyü hələ ki, mənə bəlli deyil. Görünür, həyata realist baxışı ona insanlarla münasibətini düzgün tənzimləməyə vərdiş etdirmişdi. Çünki “dünyadan beşəlli yapışanlar” həmişə münasibətlərdə əyər-əskiyə yol verir və nəticədə “uduzan tərəf” olurlar.

Kamran müəllim haqqında danışarkən ona aid bir məqamı ayrıca vurğulamaq istəyirəm. Çox güclü yumor hissinə malik idi bu şəxs. Zarafatını elə ustalıqla edərdi ki, gülüş aşılamasından savayı, bu zarafat insana məmnunluq ovqatı da aşılayırdı. Nəticədə əhvalın yaxşılaşır, işgüzarlığın artır və ruhən dincəlirdin. Olduqca həssas yanaşılma idi və etiraf edək ki, çoxları belə təbiətdən çox-çox uzaq idi...... Nəzərə alaq ki, folklorda da mətləbi çılpaqlığı ilə çatdırmaq caiz olmayıb. Və belə çıxır ki, əcdadlarımızın təbiətindən Kamran müəllimin təbiətinə “bu hal” genetik əxz olunub. Deməli, ömrünün belə bir çağında folklorla əlahiddə ilişkisi də təsadüfi olmayıb Kamran müəllimin.......

Kamran müəllimə görə folklorun ən önəmli cəhətlərindən biri onun dövlət və dövlətçiliklə bağlı olmasında idi. O, bunu belə səciyyələndirirdi ki, “Avropada intibah dövründən sonra folklora xüsusi diqqət yetirilməyə başlandı. Məhz antik mədəniyyətə qayıdışdan – intibah dövrünü keçəndən sonra Avropa folklora qayıtdı və bütün folklor məktəbləri ondan sonra yarandı” (1, 11). Alimin qənaətincə avropalılar bu prosesdə yeni dövlətlərini qurdular və yeni baxış sisteminə yiyələnərək bir çox sahələrdə irəli çıxa bildilər. Bütün bunlara baxmayaraq, “amma hələ də nəyinsə çatmadığını düşündülər, hiss etdilər. Nəhayət, öz dövlətlərini inkişaf etdirmək, yeni mərhələləri aşmaq və dünya dövlətləri içərisində tanınmaq üçün folklorun gücünə inandılar” (1, 11). Bax alimin ümu-

miləşməsindəki həlledici məqam da məhz bu idi. Əslində bu məqam problemin mabədini təşkil edirdi. Belə ki, bir çox ideologiyalar folkloru aşağı təbəqənin "malı" hesab etdikləri üçün ondan faydalanmanı heç təsəvvürlərinə belə gətirməmişlər. Amma "uzaqgörən qurucular" folklora daha praqmatik yanaşmış, dövlətin mövcudluğu naminə bu fakta lazımınca önəm vermiş, bu minvalla da toplumu öz ətrafında toplaya bilmişlər (Azadlıq uğrundakı mübarizələrdə xalqların və dövlətlərin folklordan necə faydalandıqları artıq tarixdən bizə bəllidir). Hətta elə olub ki, bəzi ideologiyalar bu yolda "saxta təlimlərlə silahlanmaq"dan belə çəkinməmiş, "uydurulma qəhrəmanlar" və ya "qəhrəmanlıqlar" təqdim etməklə toplumu mübarizələrə ruhlandırmağı bacarmışlar. Prof. F.Bayat vaxtilə bir yazısında bu problemə toxunub və maraqlıdır ki, həmin yanaşma bu gün də aktuallığını saxlayıb. Alimin qənaəti belə idi ki, XVIII-XIX yüzillərdə folklor Avropada və Amerikada ənənəvi biliklərin məcmusu kimi qəbul olunurdusa da, millətçilik anlayışını yaradan və onu inkişaf etdirən bir elm sahəsi kimi də nüfuz qazana bilmişdir. O, daha sonra bildirir ki, bu millətçilik ruhu o həddə yüksəldi ki, avropalılar və amerikalılar bu tempi nəzarətdə saxlamaq üçün saxta folklor yaratmaqdan da çəkinmədilər. "Məsələn, XVIII yüzilin məşhur İrlandiya qəhrəmanlıq mahnıları (Macphersonun "Ossian" əsəri), Alman xalq ədəbiyyatı (Qrimm qardaşların nağılları), finlərin qəhrəmanlıq dastanı (Lönnortun "Kalevala"sı) və amerikalıların iri vücudlu, güclü odunçu tipi (James Stevensin "Paul Bunyan" əsəri) romantik millətçiliyin əsasını qoydu" (2, 49). Bununla yanaşı, müəllifin gəldiyi əsas qənaət o idi ki, folklor savaşı udanlara gərəkli vasitə olduğu kimi, savaşı uduzanları da çox tez bir zamanda ovuda bilirdi (2, 49). Qeyd üçün deyək ki, saxta folklor məqalədə "fakelor" klişesi altında səciyyələndirilmişdir və bu da müəllifin uğurlu termin seçimi olması ilə diqqəti çəkir.

Əslində Kamran müəllim folklor və dövlətçilik ilişkilərini daha dərin qatlarda aramağın mümkün versiyaları üzərində düşünürdü. Heç şübhəsiz, bu işdə o, milli folklora əsaslanırdı və bu əsnada maraqlı müqayisələr tapıb üzə çıxara bilirdi: "Bizim folklor nümunələrinin özlərində dövlətçiliklə bağlı müəyyən ənənələr

yaşayır. Məsələn, folklorda şahlıq quşu anlayışı var. Quşu uçurdurlar və quş gedib kimin başına qonsaydı o, padşah olurdu. Bu ənənənin folklorda kifayət qədər izləri vardır. Yaxud çöpatma. Çöp atırdılar, kimə düşsəydi, sonra da deyirdilər ki, məsələn, bu, hakimiyyətə gətirilsin. Folklor bunu da yaşadır" (1,12). Nağıllarımızda belə epizodlar (əslində motivlər) geniş yer alsa da, maraqlıdır ki, alimin müqayisəsində bunlar yeni tapıntı kimi diqqəti çəkir. Nümunələr həm də ona görə maraq doğurur ki, olduqca qədim dövrlərin təsəvvürləri onlara yansıyıb. Kamran müəllim sonra idarəetmənin daha prinsipial tərəflərindən söz açır və bu ənənənin dastançılığımıza da sirayət etdiyini gətirdiyi dəlillərlə əsaslandıra bilir. ".....Bütün bunlarla yanaşı, "Dədə Qorqud" eposunda idarəetmədə kollegiallığın səciyyəvi nümunəsi vardır. Baxın, Bayındır xanın məclisinə nə vaxt gəlirlər və kimlər gəlir? Bəylər onun yanına yığışırlar və qurultay keçirilir. Bu, Novruz bayramı ərəfəsində baş verir. Bu, torağayların oxuduğu bir vaxtdı" (1, 12). Fikir yığcam olsa da, burada da Kamran müəllim məsələyə konseptual yanaşmışdır. O, iki önəmli əsasın qırılmaz əlaqədə, həm də bir-birinə təməl olduğunu xüsusi vurğulamış, ən vacibi isə bu təmasın dövlətçiliyə fayda gətirəcəyinə əminliyini ifadə edə bilmişdir. "Deməli, Xanlar xanı öz demokratik təsisatını həyata keçirərkən onu Novruz bayramı ilə uyğunlaşdırır. Yəni milli ənənə ilə, folklor ənənəsi ilə dövlətçilik vəhdətdə təqdim olunur. Gəlin xatırlayaq, bu gün bizim ölkəmizdə dövlətçiliklə Novruz bayramının tam şəkildə vəhdəti vardır" (1, 12).

Fikirlərindən də bəlli olur ki, "Dədə Qorqud" dastanlarında Novruz izlərinin axtarışına Kamran müəllim əbəs yerə başlamamışdı. O, bu fikri bir neçə dəfə televiziyadakı çıxışlarında da səsləndirmişdi. Novruz ənənələrini araşdıran bir bilim adamı kimi bu fikir, düzü, məndə də maraq oyatmışdı. Çünki indiyədək folklorşünaslığımızda bu problemi qaldırmağa cəhd olunmamışdı. Hətta tələbə yoldaşım olmuş (indi dünyasını dəyişmiş) prof. Ə.Tanrıverdiyə zamanında sual da verdim ki, bəs "Dədə Qorqud"da Novruzla bağlı hansısa məqamla rastlaşmısanmı? Çünki sən dastanı

sözbəsöz oxuyub, qaranlıq məqamlarını bir-bir mənalandırmısan! Düzü, o da cavabında dedi ki, "bu haqda heç düşünməmişəm. Amma maraqlı məsələdir və araşdırmaq olar. Vaxt lazımdır ki, yenidən dastanı varaqlayam". Əslində söhbət dastanı ciddi şəkildə vərəqləməkdən gedirdi və tələbə yoldaşım bu işin peşəkarı idi. Bütün elmi axtarışları bu mövzuya həsr olunmuşdu. Az müddət keçəndən sonra məsələnin nə yerdə olduğunu soruşdum, o da "hələ ki, imkan tapıb, bu işlə məşğul ola bilməmişəm" cavabını verdi. Daha bir müddət keçdi və ... vaxtsız ölüm onu da sıramızdan apardı. Məsələ də olduğu kimi açıq qaldı ...

Əslində Kamran müəllim "Dədə Qorqud" üzərində ciddi araşdırma aparmağa çox sonralar başlamışdı. Bəlkə, elə bu marağı onu folklorla da ciddi məşğul olmağa sövq etmişdi. Yəni ki, folklor araşdırmalarına da Kamran müəllim ahıl çağında start vermişdi. Və belə təxmin etmək olur ki, burada iki məqam üst-üstə düşüb, həm də zənn etmək olar ki, hər iki məqam Kamran müəllim üçün düşərli olub. Belə baxsaq, "Dədə Qorqud" ən mükəmməl ədəbi abidəmizdir, Novruz isə ən geniş tərkibli milli bayramımızdır. Hər iki mirasda da olduqca zəngin dəyərlərimiz təmərküzləşib. "Dədə Qorqud" ədəbi hadisədir, zamanın gərdişi ilə ilişkisi vardır. "Novruz" isə təbiət hadisəsidir və bu mənada əbədi dialektikaya bağlıdır. O halda, əbədi olanın əlamətlərini ədəbi olanda axtarmaq məntiqlə ağılabatandır. Bəlkə, elə Kamran müəllim qeydlərində bunu ismarıclayırdı həmkarlarına.......Bəlkə, bu bir tədqiqatın təməl ismarıcı idi hansısa tədqiqatçıya..... Bütun hallarda bu haqda düşünməyə dəyər........!

O ki qaldı əlahiddə Novruz məsələsinə, Kamran müəllim bu sferada da maraqlı açıqlamaları ilə həmkarlarının diqqətini çəkə bilmişdi. Ümumiyyətlə, o, belə qənaətdə idi ki, Novruzla bağlı keçirilən mərasimlər bu bayramın xalqımız içərisində min illərdən bəri yaşamasına və bizim yaddaşımıza dərindən hopmasına rəvac verən əsas amillərdən olmuşdur. "Belə ki, xalqın təsəvvüründə Novruzu ona qədərki mərhələdən kənarda, təcriddə təsəvvür etmək mümkün deyildir. Bu mənada yaddaşımızda özünə mühüm yer tutan çillələr daha çox səciyyəvidir. El-aləm bilir ki,

Novruza qədər bir-birinin davamı olan və bir-biri ilə qırılmaz tellərlə bağlanan üç çillə mövcuddur" (3, 315). Alimin qış fəslinə özəl münasibəti müşahidə fəhminin də iti olduğuna dəlalət edir və bir açıqlamasında bu münasibət belə ifadə olunur: "Düşünməyə dəyər ki, qışdan başqa heç bir fəsil bütünlüklə və öz adları ilə müəyyən mərhələlərə ayrılmır. Bu hal ilin mövsümləri içərisində yalnız qışa aiddir. Buradan da belə bir nəticə hasil olur ki, qış ağırlıq və ölüm gətirdiyinə görə insanlar ondan xilas olmaq yolları axtarmışlar. Bu xilas olmanın birinci tərəfi qışın özünü aldatmaq, digər tərəfi isə insanın günəşi axtarmaq eşqi ilə özünü aldada-aldada, öz başını qata-qata yaza çıxmasıdır" (3, 315-316). Önəmli orasıdır ki, nə qədər Novruzdan uzaq görünsə də, elə ilkin mərhələdən (böyük çillədən) bu canlanmanın Novruzla ilişkili olduğunu Kamran müəllim öz tədqiqatında müəyyənləşdirə bilmişdir (Qeyd üçün deyək ki, qış fəsli "Böyük çillə", "Kiçik çillə" və "Boz ay" olmaqla üç mərhələyə bölünür və hər mərhələ də bir ritualla müşayiət olunur). Əlbəttə, ilk baxışdan bu qənaət çoxlarına qəribə görünə bilər, amma prosesə sistem halında baxdıqda qənaətin ciddi məntiqə əsaslandığı anlaşılır. Bəs problemdə anlaşılmazlığı törədən nə idi və o, haradan qaynaqlana bilərdi?! Elə burada bir haşiyə çıxmaq yerinə düşərdi. Hələ bir neçə il öncə Novruz ərəfəsində (hansı saytdan olduğunu və kimliyini unutduğum) bir jurnalist mövzu ətrafında məndən müsahibə almışdı. Düzü, o zaman mən də bu mövqedə idim və düşünürdüm ki, "kələfin bir ucu" elə qış fəsli girən anda "düyünə düşüb". Özü də ciddi-cəhdlə bu düyünü açmağa can atırdım. Analoji açıqlamam birmənalı qarşılanmadı, hətta kəskin etirazla da qarşılaşdım. Məsələ burasındadır ki, hər il "İl axır çərşənbə"də çillədən çıxma anını gözləyirik və bu da bir mərasimi aktla müşayiət olunur. Yalnız bundan sonra biz Novruzu bayram kimi qutlayırıq (Aktın məğzində də o mahiyyət dayanır ki, artıq qışın ağrı-acısından, kəsalətindən qurtulmuş oluruq). Amma (zənnim məni aldatmırsa) heç zaman nəzərə almamışıq ki, biz çilləyə nə zaman daxıl olmuşuq. Bax anlaşılmazlıq da məhz buradan qaynaqlanıb. Məntiqə görə (hər hansı) "çıxış"la

bağlı akt icra olunursa, mütləqdir ki, (hansısa) "giriş"lə də bağlı akt icra olunmalı idi. Maraqlıdır ki, bu akt da mütəmadi icra olunub və indilikdə də icra olunmaqdadır (Qış fəslinə daxil olmamızla bağlı hər il Naxçıvanda keçirilən "Çillə gecəsi" mərasimi bunu birbaşa əsaslandırır). Lakin təəccüblü odur ki, indiyədək bu iki qütb (girişlə çıxışın) arasında (dolayısı ilə də olsa), əlaqə olduğunun fərqində olmamışıq (Daha ətraflı bax: 4). Hərgah Kamran müəllim öz tədqiqatında bu qütblərdən və onların rabitəsindən söz açmasa da, hər halda "Çillə gecəsi"nin Böyük Novruza hazırlığın başlanğıc mərhələsi olduğunu burada doğru təyin etmişdir. Daha sonra hər bir mərhələyə ayrılıqda şərh verən müəllif kompleks halında da bu mərhələləri səciyyələndirmiş, nəticədə dəyərli və məhsuldar ümumiləşmə əldə edə bilmişdir: "Beləliklə, "Çillə qarpızı" və "Xıdır Nəbi" mərasimləri, eyni zamanda bayram günlərində səməni göyərdilməsi hadisəsi bir-biri ilə qırılmaz tellərlə bağlıdır və hər üç çilləni əhatə edərək insanların gələcək həyat uğrunda arzularını ifadə edir" (3, 317). "Gələcək həyat" dedikdə isə heç şübhəsiz, müəllif burada Novruza işarə etmiş, "yeni gün"ün gəlişinin insanlığı da həsrətində olduğu "yeni həyat"a qovuşduracağına əminliyini poetik dillə oxucusuna çatdırmaq istəmişdir. Tanrının insanlığa bəxş etdiyi və alternativi olmayan qida isə bu qovuşmanı təmin edən ən etibarlı vasitə idi. "Çillə qarpızının buğdanın küləşi – samanı içərisində gizlədilməsi, Xıdır Nəbi bayramında buğdanın qovurulması və Novruz günlərində buğdanın cücərdilməsi insanın həyata və zamana bağlılığının konkret faktları və sübutlarıdır" (3, 317). Heç şübhəsiz, alimin bu ümumiləşmələri gələcək tədqiqatlara da stimul verəcək və tədqiqatçıları problemin digər qaranlıq qalmış məqamlarını aydınlatmağa ruhlandıracaq.

Müşahidələrimə görə Kamran müəllim folklorla bağlı son araşdırmalarını Lahıc və bu ətrafda olan mövzulara həsr etmişdi. Bu da təsadüfdən olmamışdı, çünki Kamran müəllim öz ölkəsində yaşayan bütün xalqlara hörmətlə yanaşmağı bacaran bir ziyalı idi. Əslində bu keyfiyyət də hər insanla "birgə böyümür"dü və təkcə elmin alimi olmaq bunu dərk etmənin yeganə yolu deyildi. "Hə-

yatın alimi" kimi yetişməli idin həm də belə həssas təbli olman üçün. Bu iki hal Kamram müəllimin təbiətində elə bu əsnada çulğaşmışdı, yoxsa bu mövzuda o, belə ürəklə danışa bilməzdi.

Lahıc folklorunun özəlliklərindən bəhs edərkən Kamran müəllim bir məqaləsində bu məkanı belə səciyyələndirir: "Lahıcın folklor irsi nə qədər toplanıb nəşr edilsə də, o barədə nə qədər tədqiqatlar aparılsa da, yeni-yeni araşdırmalara həmişə ehtiyac duyulmaqdadır" (5, 5). Görünür, bu mövzuda nəşr elətdirdiyi ilk kitabına "Lahıc əsl folklor məkanıdır" sərlövhəsini seçməsi də bu məkanın cazibəsinə düşməsindən qaynaqlanmışdır. Əsla, fikirləri də bu təbiilikdə səslənməzdi. Təsəvvürə gətirək ki, ilk dəfə qarşılaşdıqda bu diyar insana necə möcüzəli görünə bilər?! Lahıca yaxından bələd olan birisi kimi vaxtilə bu hissi keçirmişdim və onun üçün də Kamran müəllimin bu haqda söylədiklərinin təbiiliyinə şübhəm yoxdur. Elə isə alimin digər bir yazısında bu məkanın daha necə səciyyələndirildiyinə baxaq: "Adamlar burada folklor dilində danışırlar. Folklor dilinin bütün dadı-duzu, ləzzəti hiss edilmədən onların nitqinə hopmuşdur" (1, 11).

Görkəmli yazıçı Y.V.Çəmənzəminli hələ keçən yüzilliyin əvvəllərində bu qənaətdə idi ki, folklorun meydana gəlməsində coğrafi mühitin və o cümlədən təbii təsirlərin çox mühüm rolu vardır. İnsana keçən zərif təsirlərin bir çoxunun təbiətdən gəldiyinə işarə edən müəllif o zaman yazırdı ki, "Dağlı, meşəli, çeşməli yerin xalqı daha incə dilə, şairanə tərkiblərə malik olur" (6, 232).

Yaxşı yadımdadır, institutumuz Lahıcda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirmək məqsədilə hazırlıq işlərinə başlamışdı. Təşkilati işlərdə səriştəli olduğum üçün bir neçə məsələ, o cümlədən konfransa nümayəndələri dəvət etmək mənə həvalə olunmuşdu. Həmin ərəfədə Kamran müəllimin səhhəti "ürəkaçan" deyildi və o, ardıcıl müalicə alırdı. Amma institutdan da ayağını üzməmişdi. Hər dəfə Kamran müəllimlə rastlaşdıqda konfransda iştirakına razılıq verməsini təkidlə ondan xahiş edirdim. O da söz verirdi ki, özünü yaxşı hiss etsə mütləq bu tədbirə qatılacaq. Səhhətindəki ağırlıq tamam keçməmişdisə də, sanki məsuliyyət yükünün daha ağrılı

olduğunu hiss etdi (bilmirəm daha nələri götür-qoy etdi) və nəhayət, Kamran müəllim konfransa qatıldı. Və bu tarixi yubileyin tarixinə onun da imzası qatıldı.......! Konfransdakı çıxışı isə əbədi olaraq ədəbi irsimizə ondan töhfə qaldı.......!

İndi düşünürəm ki, vaxtilə etdiyim "ərkyana təkid"lər hədər getməyibmiş. Məsələnin digər bir əlamətdar tərəfi də var idi axı! Bu da ona dəlalət edirdi ki, məhz Lahıcda olduqdan sonra Kamran müəllim bu məkanın folklor dünyası ilə ilgilənməyə başlamışdı. Hətta gördüklərinin onu heyrətləndirdiyini ifadə etmişdi də! Özünün dilindən bunları dinləmək daha maraqlı olardı: "Konfransda iştirakım mənim həyatım üçün də maraqlı bir hadisədir. O mənada ki, mən indiyədək Lahıcda olmamışdım. Ona görə də yolları, dağları, yamacları seyr edə-edə buraya gəldim. Bəzən internetdə turistlərin coğrafi əraziləri gəzərkən "qorxulu" yollardan keçərək getdiklərinin şahidi olursan. Amma Lahıca gələn yollar insanların əlinin zəhmətilə və sevərəkdən yaradılan yollardır" (1, 11). Lahıc təəssüratlarını bölüşərkən o, burada qarşılaşdığı bir məqama çıxışında ayrıca toxundu və əminliklə bildirdi ki, belə halla yalnız Azərbaycanda qarşılaşmaq mümkündür. Özəlliklə, bölgələrimizdə rast gəlinən bu halın səciyyəviliyi nə imiş və görəsən, alim bu hala nə üçün bu qədər önəm verirmiş?! Bunu da müəllifin sözləri ilə ifadə etsək maraqlı olar: "Bir vaxtlar Basqalda olmuşam və orada xeyli qalıb istirahət etmişəm. Basqalda sizin kəndlər üçün səciyyəvi olan bir cəhəti gördüm. Belə ki, kənd içində gedərkən bir yaşlı kişi ilə qarşılaşanda o, salam verməkdə səni qabaqlayır, səndən öncə salam verir. Mən bu adəti biləndən sonra nə qədər çalışdım ki, yaşlı adamları qabaqlayıb onlara daha tez salam verim, amma açığı deyim ki, bu, mümkün olmurdu. Bir sözlə, hər yerdə məndən qabaq məni salamlayırdılar. Lahıcda da belədir" (1, 11). Şübhəsiz, bu cəhət ənənədən qaynaqlanmışdır və müəllif də çıxışında elə bunu qabartmaq istəmişdir. Hansı məkanda ki ənənə yaşayır, orada folklor da qorunur və davam edir. Folklorun davam etməsi isə elə xalqın davam etməsi, yaşaması deməkdir. Qlobal yanaşsaq, folklorun nəhəng bir mədəniyyət hadisəsi olduğunu yəqin edərik. Amma yaşam tərzi kimi baxsaq, folklorun həm də gözəl bir ünsiyyət vasitəsi ol-

duğuna da əmin ola bilərik. Bəlkə də elə ünsiyyətin ən ibtidai vasitəsi olmuşdur folklor?! Əks təqdirdə, Kamran müəllim də problemə bu bucaqdan baxmazdı: "Bu tarixi yerlərə gəlmək salam verib salam almaqdan başlayır. Mən deyərdim ki, belə bir adət xalqın çox qədim folklor ənənəsidir. İnsanlar görüşəndə onların ilk ünsiyyəti bir-birlərinə sağlamlıq arzulamaqdan başlayır" (1, 11).

Əlbəttə, insanın fəaliyyət göstərməsi üçün sağlamlıq ən ümdə şərtdir. Amma insan nə qədər qorunsa da, təbiətən bu sağlamlığın bitdiyi bir məqam olur. O zaman düşünürük ki, Tanrıdan insana "ömür payı" yəqin bu qədər düşüb. Qəribə görünsə də, həmin andan insan "başqa bir ömür" yaşamalı olur. Ağır səslənsə də, o da hamıya nəsib olmur. Amma Kamran müəllim indi "belə bir ömür" yaşayır...... Və inanırıq ki, hələ neçə-neçə insan övladı "bu yaşananlardan bəhrələnərək" alimlik zirvəsinə yüksələcək!!!

## QAYNAQLAR


1. Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Folklor milli kimlik kontekstində" mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları (30 iyun, 2018-ci il. İsmayıllı rayonu, Lahıc qəsəbəsi). Kamran Əliyev "Folklor və dövlət idarəçiliyi sistemi". s. 11-12
2. Füzuli Bayat. "Qloballaşan dünyada folklorun yeri və sosial funksiyaları. "Folklor və etnoqrafiya" jurnalı. Bakı: 2008, № 2, s. 45-55
3. Kamran Əliyev. "Novruz mərasimləri". Folklor kitabı. Əsərləri 10 cilddə, VI cild. Bakı, "Elm və təhsil", s. 313-322
4. Ateş Ehmedli. Nevruz Öncesi Törenlerimiz: "Çille Gecesi" ve Onun Ritüel Amacı 4th International Nowruz Conference on Scientific Research, Karabagh, Azerbaijan, The Book of Full texts 2021 March 18-21 Volume-I s.158-167 https://d35b3f32-2c3e-4520-ac61-0c8cde7df6cf.filesusr.com/ugd/614b1f_59a01df399ee420ba744bef3a81840ef.pdf
5. Kamran Əliyev. Lahıc folklorunun özəllikləri // Lahıc əsl folklor məkanıdır. Bakı: "Elm və təhsil", 2018, s. 5-10
6. Kamran Məmmədov. Y.V.Çəmənzəminli (həyat və yaradıcılıq yolu). Bakı: Elm, 1981, 263 səh.

# KAMRAN İMRANOĞLUNUN "RİYAZİYYAT MÜƏLLİMİ" HEKAYƏSİNDƏ İŞARƏLƏR SİSTEMİ (YAZILI ƏDƏBİYYAT VƏ FOLKLOR KONTEKSTİ)

# THE SYSTEM OF SIGNS IN THE STORY "TEACHER OF MATHEMATICS" BY KAMRAN IMRANOGLU (WRITTEN LITERATURE AND FOLKLORE CONTEXT)

# СИСТЕМА ЗНАКОВ В РАССКАЗЕ КАМРАНА ИМРАНОГЛУ «УЧИТЕЛЬ МАТЕМАТИКИ» (КОНТЕКСТ ПИСЬМЕННОЙ ЛИТЕРАТУРЫИ ФОЛЬКЛОРА)

**Atif İslam oğlu İSLAMZADƏ**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*

**Özət**

Bu məqalədə elmi ictimaiyyətə yeni təhlil metodu əsasında Kamran İmranoğlunun "Riyaziyyat müəllimi" hekayəsinin analizi təqdim olunur. Belə ki, bir kitabda yer alan hekayələr, şeirlər və sair bu kimi yazılar əsasında əsas etibarilə ümumi resenziyalar yazılır, araşdırmalar aparılır. Ancaq bu zaman yazılan əsərin dəyəri geniş səviyyədə meydana çıxa bilmir. Biz hekayələr toplusunu ümumilikdə deyil, bir hekayə əsasında tədqiq və təhlil edərək kitabı bu şəkildə daha çox dəyərləndirə bilmək üsulunu göstərməyə çalışmışıq.

Hekayə bu şəkildə tədqiq olunduğu üçün bir mətn daxilində həm folklor, həm də yazılı ədəbiyyat kontekstlərini elmi cəhətdən araşdırma imkanının da meydana çıxmasını diqqətə çatdırmağa çalışmışıq.

Tədqiq etdiyimiz mətn eyni zamanda semantik istiqamətdə tədqiqata cəlb olunmuş, mətnin müxtəlif səviyyələri aşkarlanmışdır. Bir hekayə əsasında meydana çıxan mifologiya, folklor, etnoqrafiya, psixologiya, sosiologiya və s. sahələr bir daha onu göstərir ki, bədii mətn özündə geniş bilgilər daşıyır və konkret olaraq tədqiq olunduqda dəyəri daha çox ortaya çıxa bilir.

Bu yazıda eyni zamanda müəllif spesifikası da tədqiq olunmuş, müəllifin özündə daşıdığı elmi bazanın onun bədii düşüncəsinə necə müsbət təsir etdiyi nəzərdən keçirilmişdir.

Məqalə elmi-kütləvi auditoriya üçün nəzərdə tutulmuşdur.

**Açar sözlər**: riyaziyyat müəllimi, məktəb, İsmayıl müəllim, Novruz bayramı, mərasimlər

**Summary**

In the article the analysis of the story “Teacher of Mathematics” by Kamran Imranoglu is presented to the scientific community on the basis of a new method of analysis. Thus, on the base of the stories, poems and different writings contained in a book the investigations and the general reviews are carried out. However, at this time the value of the written work can not be seen widely. Researching and analyzing we tried to show the collection of stories not in general, but on the basis of a story, a way to make the book more valuable in this way.

As the story is studied in this way, we have tried to draw attention to the emergence of the opportunity to scientifically research both folklore and written literature contexts within a text.

The text we studied was also involved in the study in the semantic direction, the different levels of the text were found. Mythology, folklore, ethnography, psychology, sociology, etc., formed on the basis of a story once again show that the artistic text carries a wide range of information in itself and when studied concretely, its value can be further revealed.

At the same time, the author’s specifics have been also studied and the scientific base carried by the author has a positive impact on his artistic thinking.

The article is intended for the scientific and public audience.

**Key words:** mathematics teacher, school, Ismail teacher, Novruz holiday, ceremonies

**Резюме**

В данной статье представлен анализ рассказа Кямрана Имраноглу «Учитель математики» на основе нового метода анализа. Таким образом, на основе рассказов, стихов и других подобных статей в книге пишутся общие обзоры и проводятся исследования. Однако в этом случае ценность написанной работы не может проявиться в большом масштабе. Мы попытались показать способ оценки книги таким образом, исследуя и анализируя сборник рассказов на основе рассказа, а не в целом.

Поскольку рассказ изучается таким образом, мы попытались указать, что в тексте есть возможность научного изучения как фольклора, так и письменного литературного контекста.

Изучаемый нами текст также был вовлечен в семантическое исследование, были выявлены разные уровни текста. Мифология, фольклор, этнография, психология, социология и др., основанные на рассказе. Поля еще раз показывают, что художественный текст содержит широкий спектр информации и может иметь большую ценность при специальном изучении.

В этой статье также изучается авторская специфика и то, как научная база автора положительно влияет на его художественное мышление.

Статья предназначена для научной и массовой аудитории.

**Ключевые слова**: учитель математики, школа, учитель Исмаил, праздник Новруз, обряды

Kamran İmranoğlunun "Dağlı məhəlləsi" kitabı (İmranoğlu (Əliyev) K.Dağlı məhəlləsi (Hekayələr). Bakı: Elm və Təhsil, 2017) icimai-kütləvi auditoriya üçün maraqlı olmaqla bərabər, elmi-nəzəri və tətbiqi baxımdan tədqiqata cəlb olunacaq çox ciddi mətn materialı kimi əhəmiyyətli qaynaqdır. Bu da çox diqqətçəkici spesifikadan xəbər verir. Yazıçının geniş elmi fəaliyyəti təbiidir ki, onun bədii düşüncəsinə ciddi təsir edir. Bu baxımdan onun bədii əsərlərinin də kökündə zəngin elmi baza mövcud olur ki, bu da mexaniki-assosiativ olaraq yazıçının bədii əsərlərində də orijinal səciyyə kimi meydana çıxır. Yəni alimin yazdığı əsər elmi əsər olmasa belə, yenə də bu bədiyyatda elmi təməl əsərin çoxqatlı, çoxşaxəli olmasına gətirib çıxarır. Alimin yazdığı əsər özündə müxtəlif mətn səviyyələri, qatlar və laylar təşkil edir. Simvollar, mətnaltı işarələr semantik cəhətdən çox zəngin olur və araşdırma üçün geniş imkanlar yaradır. K.Əliyevin həm yazılı ədəbiyyatla bağlı olan, həm də folklorşünaslıqda özünə yer alan dəyərli elmi əsərləri, klassik ədəbiyyat və Qorqudşünaslıqda meydana qoyduğu elmi araşdırmalar onun bir yazıçı kimi də bədii fəaliyyətinin kökündə təməl bazası olaraq iştirak edir və bu baxımdan bu hekayələr də semantik tədqiqat üçün daha geniş imkan yaradır. Müəllif spesifikasının öyrənilməsi bu cəhətdən ona görə vacibdir ki, hansı müəllifin haradan qaynaqlandığını bilmək onu tədqiq etmək üçün vacib amildir. Elə buna görə də biz bu tədqiqatımızda müəllifin "Dağlı məhəlləsi" kitabını elmi tədqiqat üçün əsas götürmüşük.

Bu kitab müxtəlif mövzulu hekayələr toplusudur. Qeyd etdiyimiz kimi mühüm material verdiyi üçün hər hekayənin ayrılıqda tədqiqinə ehtiyac hiss olunur. Biz mətnləri semantik baxımdan araşdırma metodunda əvvəllər də elmi ictimaiyyətin nəzərinə çatdırdığımız kimi, mətnlərin konkret olaraq araşdırılmasını məqsədə müvafiq hesab edirik. Yəni bir kitabda olan yüzlərlə hekayə və s. haqqında bəhs açmaq ümumiləşdirmə baxımından yetərli olsa da, bu, həmin mətnlərin daha az tədqiqinə gətirib çıxarır. Çünki hər mətn haqqında bir neçə cümlə demək imkanı olur ki, bu da konkret mətnin müxtəlif səviyyələrdə dəyərləndirilməsini mümkünsüz edir. Bu baxımdan biz K.İmranoğlunun "Dağlı məhəlləsi" kitabında bir hekayənin araşdırılması yönündə kitab haqqında geniş təəssürat yaratmağı qarşımıza məqsəd qoymuşuq. Bu hekayə yazıçının "Riyaziyyat müəllimi" hekayəsidir.

Hər qiymətli mətnin təsviri-epik səviyyəsi və semantik baxımdan araşdırma tələb edən müxtəlif səviyyələri mövcud olur. Biz bu baxımdan mətnə ilkin olaraq təsviri mətn kimi yanaşaraq, daha sonra semantikasını tədqiq etməyə çalışacağıq.

**1. Mətnin təsviri-epik səviyyəsi;**

Hekayə Novruz mərasiminin məktəbə gələn ab-havasının təsviri ilə başlanır. Novruzun bütün şagirdlərin əhvali-ruhiyyəsində, ovqatının əvvəlkindən fərqli olaraq yüksəlməsində mühüm rol oynadığı oxucu düşüncəsində canlandırılır. Bu kontekstdə hadisələrə keçid edilir. Əsərin süjeti diqqətə çatdırılır. Məlum olur ki, məktəbdə dərs deyən İsmayıl adlı bir riyaziyyat müəllimi Novruz bayramı qabağı öz saçını dibindən qırxdırıb məktəbə gəlir. Hələ bunlar da yetmirmiş kimi, yuxarı sinifdə oxuyan şagirdləri də məcbur edir ki, saçlarını onun kimi dibindən qırxdırsınlar. Sanki bu da məktəbdə dərs, nizam-intizam və təlim-tərbiyə qaydalarının məcburi gərəyidir. Həm də İsmayıl müəllim zəhmli və zabitəli biridir. Onun tapşırığına əməl etməmək mümkün deyil. Bu hərəkətdən bir çox valideynlər narazı olsalar da, yenə də İsmayıl müəllimə heç nə demirlər. Görünür, onun müəllim adına hörmət göstərirlər. Ancaq bu valideynlərdən biri olan, İsmayıl müəllimin şagirdi Niyazın nənəsi Dilbər

xala öz etirazını nəinki bildirmək, hətta konkret ünvanına çatdırmaq üçün məktəbə gəlir. Dilbər xalanın məktəbə gəlişi məktəb rəhbərliyində təlaşa səbəb olur. Çünki o, dava-dalaş salmağa meyilli, kobud danışığa malik hökmlü bir arvad kimi bütün kənddə, hətta rayonda tanınırdı. Bu danışıq tərzinə görə kişilər də ondan çəkinərdi. Hətta onun məktəbə gəlişi rayon maarif müdirinin, raykom katibinin və yaxud yuxarıdan göndərilən komissiyanın gəlişindən də qorxulu idi. Ancaq Dilbər xala İsmayıl müəllimin qarşısına çıxdıqda onun bu haray-həşirindən heç bir əlamət qalmır. İsmayıl müəllimi qucaqlayıb öpür, onu evinə qonaq dəvət edir. Yumşaq şəkildə İsmayıl müəllimə öz iradını bildirir. Məlum olur ki, öncə Dilbər xala bu müəllimin İsmayıl müəllim olduğunu bilmir, ancaq biləndə də yenə də təmkinini pozmur, onun dedikləri ilə razılaşır. Belə görünür ki, keçmişdən gələn münasibət bu ünsiyyətə səbəb olur. İsmayıl müəllim Dilbər xalanın qızı Darçını sevmiş, hətta ona şeir həsr etmiş, sevgisini bildirmişdir. Lakin Dilbər xala qızını ona yox, bir qohumuna vermişdir. İndi həmin qohumunu İsmayıl müəllimin yanında aşağılaması, onu korafəhm adlandırması, ondan narazılıq etməsi İsmayıl müəllimə Darçını verməməsindən peşmançılıq çəkdiyini, məhz buna görə də suçluluq duyduğunu, onun qarşısında susqun və sakit durmasını şərtləndirir. Bunu elə məktəb kollektivi də anlayır. Çünki bu əhvalatı hamı bilir. İsmayıl müəllim Darçını ona verməyən Dilbər xalanın ona yazdığı şeirdən xəbəri olduğunu da ağlına gətirmir. Bilmir ki, Dilbər xalanın bundan xəbəri var. Bu yumşaq münasibətdə təbiidir ki, bu duyğular da rol oynayır. Dilbər xala İsmayıl müəllimdən mehriban və bir az da duyğulanmış şəkildə ayrılır, "Bu qoca qarını unutma!" deməklə ona xüsusi önəm verdiyini diqqətə çatdırır. Eyni zamanda ona ciddi bir insan, dəyərli müəllim və köhnə tanış kimi qapılarının hər zaman açıq olduğunu bildirməyə çalışır.

Məktəbdə İsmayıl müəllimin şagirdləri arasında seçilən üç sevimli şagirdi var – Səyyad, Məhəmməd və Ziya. Çünki onlar riyaziyyatı yaxşı bilirlər. Müəllim evə dörd-beş misal verəndə onlar otuz-otuz beş misal həll edirlər. Ümid var ki, bu sahədə

gözəl nəticə göstərəcəklər. Ancaq təsvir olunan situasiyada onlardan yalnız biri verilən məsələ tapşırığını düzgün həll edir. Bu da Məhəmməddir. Müəllim onun misalı düzgün həll etməsinə arxayın olduqdan sonra tapşırıq verir ki, hamı dəftərini açıb bu misalı köçürsün. Burada İsmayıl müəllimin zabitəsinin arxasında eyni zamanda şagirdləri anlaması da özünü göstərir.

İsmayıl müəllimin dərsi zamanı şagirdlər misalı dəftərlərinə köçürdükləri vaxt birdən qırmızı bir yumurta arxa partaların birindən dığırlana-dığırlana gəlib lövhənin aşağısında ilişib durur. Bu təbiidir ki, İsmayıl müəllimi əsəbləşdirir. Ancaq yadına düşür ki, sevdiyi qıza bir zaman yazdığı şeirin əvəzində Darçın ona qırmızı yumurta bağışlayıb. Ancaq İsmayıl müəllim yumurtanı kimin atdığını soruşmalı idi. O, bunu bir neçə dəfə soruşsa da, heç bir şagird boynuna götürmür. Əslində İsmayıl müəllim bilirdi ki, yumurtanı Dilbər xalanın nəvəsi, Darçının oğlu Niyaz dığırlayıb. Ancaq Novruz öncəsi İsmayıl müəllim bayram ovqatını pozmaq istəmir. Adətən belə hadisələr onun dərsində yox, Habil müəllimin dərsində baş verərdi. İndi isə bu ona çox çətin bir məsələ kimi gəlir. Hətta Məhəmmədin həll edə bildiyi çətin misaldan bu məsələ daha çətindir. Çünki şagirdlər qorxuya düşüblər və ehtiyat edirlər ki, həmişə qorxduqları İsmayıl müəllim onları ağır cəzalandıra bilər. Ancaq bunun əksi olur. İsmayıl müəllim bayram ovqatını pozmamaq üçün dərinə getmir. Zəng vurulanda yumurtanı da jurnalla birlikdə götürüb sinifdən çıxır.

Hekayənin sonu da maraqlı şəkildə bitir. Məlum olur ki, növbəti dərs ilində artıq İsmayıl müəllim məktəbdə işləmir. Çoxlarının üzərində əməyi olsa da, artıq ona dərs çatmayıb. Çünki riyaziyyat fənnindən dərs saatları az olub (1, 90-98).

Biz hekayənin qısa məzmununu təsviri səviyyədə təqdim etdik. Eyni zamanda təsviri-epik səviyyədə bir neçə surətin səciyyəsini də təqdim etməyə ehtiyac hiss olunur.

**İsmayıl müəllim surətinin səciyyəsi;**

Hekayənin başlanğıcından bilinir ki, baş personaj məktəbin riyaziyyat müəllimi İsmayıl müəllimdir. Bu elə hekayənin adından da aydın görünür. İsmayıl müəllim bir kənd məktəbində riyaziyyat

müəllimidir. Təbiəti etibarilə sərt və zabitəli müəllimdir. Şagirdlər ondan çox çəkinirlər, hətta qorxurlar. Dərsində heç bir şagird "cınqırını belə çıxara bilmir". Ancaq İsmayıl müəllim əslində göründüyü kimi deyil. Daxili aləminə nüfuz etdikdə görünür ki, o hətta keşmişinə bağlı olan duyğusal bir insandır. Ürəyi yumşaqdır. Çətində şagirdlərə güzəştə gedir. Ancaq özünü onlara sərt müəllim kimi tanıdıb. Bu, onun pedaqoji metodudur, təbii xarakteri deyil. Eyni zamanda İsmayıl müəllim əsl müəllim ideyası daşıyır. O, öyrətmək üçün yanıb-qovrulur. Kənddə müəllim olan hər bir riyaziyyat müəlliminin formalaşmasında onun zəhməti var. O həm də çox xeyirxah insandır. Riyaziyyat dərsi çatmadığı üçün dərsini şagirdlərinə güzəştə gedib növbəti ildə məktəbə gəlməməsi onun müəllim mahiyyətindən və fərdi keyfiyyətindən irəli gəlir.

İsmayıl müəllim şagirdlərə qayğı ilə yanaşması ilə bərabər onlara fərdi qaydada yanaşmağı bacaran müəllimdir. Bu riyaziyyatı daha yaxşı bilən şagirdlərlə münasibətində aydın görünür. Elə bu cəhət də şagirdlərin gələcəkdə inkişaf perspektivlərinin düzgün müəyyənləşdirilməsində mühüm rol oynayır. Ona görə də onun yetişdirdiyi şagirdlər çoxdur və ondan razılıq edirlər.

İsmayıl müəllim duyğularını gizlədən, ancaq həyatında böyük sevgi yaşamış və bu sevgini hələ də daxilində daşıyan, situativ detallarla xatirələrə dalan kövrək təbiətli insandır. Ancaq bu duyğularını açıq etmir. İctimai kodeksi pozmadan həm öz duyğularını yaşamağı, həm də cəmiyyət qarşısında olan müqəddəs vəzifəsini hətta eyni anda həyata keçirməyi yaxşı bilir.

K.İmranoğlu İsmayıl müəllim surətində həm əsl müəllimin necə olmasını, həm də müəllimin bir müəllim olmaqdan əvvəl insan olduğunu, sərtliyini və bu sərtlik altında yatan zərif ürəyini, eyni zamanda daxili kövrək duyğularını yüksək sənətkarlıqla səciyyələndirir.

**Dilbər xala surətinin səciyyəsi;**

Dilbər xala surəti də orijinal surətdir. Dilbər xala əsəbi və bir qədər də kobud təbiətli, aqressiv insandır. Ancaq atdığı addımlarda əksər vaxtlar məntiqlidir. Eyni zamanda hər kəsə, xüsusilə kişilərə qorxu yaradacaq qədər dili söyüşlü olsa da, sevdi-

yi insanlara qarşı onda yumşaqlıq və güzəşt vardır. Qızını vaxtı ilə sevən, ona şeir yazan və bunu Dilbər xalanın bildiyini bilməyən İsmayıl müəllimə də həssaslığı aşkar hiss olunur. O sanki qızının bu insanla qovuşmamasından peşmanlıq çəkir. Nə qədər əsəbi olsa da, İsmayıl müəllimin qarşısında təmkinini pozmur, hətta onu unutmamasını, hərdən ona baş çəkməsini xahiş edir.

Müəllif səciyyəvi obraz kimi Dilbər xalanı təbii insan xarakteri olaraq bədii şəkildə əks etdirmişdir.

**Darçın surətinin səciyyəsi;**

Darçın surəti hekayədə canlı situasiyada iştirak etmir. Ancaq hekayənin əsas mövzusunu təşkil edir. Belə görünür ki, riyaziyyat müəllimi İsmayıl müəllimi bir zaman sevmiş, onun yazdığı şeirin müqabilində ona qırmızı yumurta bağışlamışdır. Bu da İsmayılın ona sevgisini bildirməsini narazılıqla qarşılamamasını, onun da ona duyğuları olduğunu aydın göstərir. Eyni zamanda bu şeiri hələ də sandığında saxlaması İsmayıl müəllimi hər zaman qəlbində saxlamasıyla bərabər həyatını hazırda qovuşdurduğu insanla xoşbəxt ola bilməməsini oxucu təfəkküründə təzahür etdirir.

Hekayədə Darçın surəti həyatında xoşbəxt olmağı bacarmayan, ancaq övladının xatirinə həyatına davam edən və ömür yoldaşına xəyanət etməyən, bir zaman onu sevən insanı yalnız qiymətli bir xatirə olaraq saxlayan qadını kölgə surət olaraq səciyyələndirir.

**"Riyaziyyat müəllimi" hekayəsinin köməkçi surətləri.**

Biz hekayədə yardımçı və ya köməkçi surətləri də müşahidə edirik. Məhəmməd, Səyyad və Ziya üçlüyü, Habil müəllim və Şəmsəddin müəllim köməkçi surətlər kimi hekayə süjetində özünü göstərir. Eyni zamanda şagird Nəbi, Darçının oğlu Niyaz, İsmayıl müəllimin xatirindən keçən sinif yoldaşı Xanlar da bilgi səviyyəsində hekayənin oxunaqlı olmasında quruluş baxımından proyeksiyalanır.

**Mətnin semantikası**

"Riyaziyyat müəllimi" hekayəsi ilkin olaraq ad semantemi kimi diqqət çəkir. Nə üçün müəllif hekayəni bu adla təqdim edir? Nə üçün məhz riyaziyyat müəllimi hekayənin baş perso-

najıdır? Məgər başqa fənn adı bu hekayənin adında klişeləşə bilməzdimi? Hekayənin məzmunu ilə tanış olanda yaxşı anlamaq olur ki, hekayə başqa fənn müəlliminin adı ilə adlana bilərdi. Mətn komponentləri bir bütöv nitq vahidi təşkil edir və yaxud yazı tipi kimi bitkin bir məzmunu özündə ifadə edir. Mətnin komponentlərini ayrılıqda tədqiq edərkən burada bir-birini tamamlayan məna və anlam rabitəsi müəllifin hansı məqsəd daşıdığını ənənəvi-təsviri və struktur-semantik səviyyədə meydana qoyur. Əsas odur ki, mətni təhlil və tədqiq etmək mümkün olsun. Əgər bu hekayədə yalnız riyaziyyat müəllimi olmalı idisə, o zaman bir-birindən ayrılmaz komponentlər bunu elə vacib ünsür halına gətirməli idi ki, riyaziyyat sahəsi mətn məzmununun canına hoparaq onu başqa şəkildə dəyişmək və yaxud dəyişdirmək mümkün olmasın. Ancaq biz mətndə bunu görmürük. Əgər İsmayıl müəllim riyaziyyat müəllimi yox, Azərbaycan dili müəllimi də olsa idi, mətn məzmunu dəyişməyəcəkdi. Sadəcə olaraq şagirdlərə verilən misal Azərbaycan dilinə aid olan tapşırıq ilə əvəz olunacaqdı. Mətn süjetində hansısa məkanın, obrazın və mühitin dəyişməsinə heç bir ehtiyac olmayacaqdı. O zaman müəllif bu ad semantemində hansısa düşüncəni oxucu təfəkkürünə yönəltmək məqsədi daşımışdır. Əks halda bu mətn qüsuru olardı. Anaxronluq və ya ziddiyyət olması mətnin ənənəvi-təsviri səviyyəsində izah oluna bilməsə də, semantik səviyyədə, mətnin alt laylarında bir-birini tamamlayan hissələr kimi aydınlaşdırıla bilir. Məhz müəllifin ad semantemi əsasında, doğrudan da kütləvi oxucuya ideoloji fikir tərzini demək olar ki, paradoksal şəkildə təlqin etməsi bir daha aydın olur. Cəmiyyətdə mövcud olan ümumi rəylərdə riyaziyyat sahəsini dəqiq sahə adlandırmaqla bərabər, həm də bu sahədə çalışan insanların soyuq və quru, emosionallıqdan uzaq fərdlər kimi dəyərləndirirlər. Müəllif hekayəni "Riyaziyyat müəllimi" adlandırmaqla və burada İsmayıl müəllim obrazını duyğusal, şeir yazan, xatirələrə dalan bir şəxs kimi təqdim etməklə bu oturuşmuş rəyə qarşı paradoksallıq nümayiş etdirir. Məhz bu baxımdan da bu hekayə semantikasında ad semantemi xüsusi yer tutur.

Ad semantemi bununla bitmir. Hekayədə İsmayıl müəllimin çox sevdiyi və riyaziyyatı yaxşı bilən üç şagirddən birinin adı Məhəmməd, digərlərinin adı isə Ziya və Səyyaddır. Hekayənin bir kontekstində bütün misalları həll etdikləri halda çox çətin məsələ ilə üzləşən şagirdlər cərgəsində məhz Məhəmməd bu çətin ev tapşırığını həll edə bilir. Müəllimin həmişə etimadını qazanan və ümidini doğruldan Ziya və Səyyad bu misalın onlar üçün çox çətin olduğunu və həll etmənin mümkün olmadığını söyləyirlər. Halbuki müəllim özü bu məsələnin çox çətin olduğunu, onu heç bir şagirdin həll edə bilməyəcəyini təxmin edir. Ancaq Məhəmməd istisna təşkil edərək müəllimi də çaşqın vəziyyətdə qoyur ( 1, 94, 95).

Mətnə adi şəkildə, təsviri olaraq baxanda burada qəribə heç nə olmadığı görünə bilər. Ancaq mətn semantikasında bu başqa şəkil alır. Ad semantemində məhz Məhəmmədin bu çətin məsələyə cavab tapması təsadüfi deyil. Müəllif burada Ziya və yaxud Səyyad da yaza bilərdi. Deyək ki, şərti olaraq ehtimallaşdırıcı göstərici kimi bunlardan biri olmalı idi və o da Məhəmməd olub. Ancaq bu müəllif semantikasını düzgün oxumamaqdan irəli gələr. Çünki Məhəmməd adı toplumda üstün keyfiyyət ifadə edir. Şüuraltına hopan bilgilər başqa situasiyada üzə çıxanda öz yerini arxetipik qaydalara uyğun olaraq qoruyur. Məhəmməd adı toplumun təfəkküründə müsbət yer tutan mübarək addır. Əgər hər hansısa Avropa, Qərb və s. aid olan əsərlərdə bu nüansa rast gəlinsə idi, burada ad semantemi axtarmağa ehtiyac olmazdı. Ancaq Şərq ədəbiyyatında, müsəlman toplumunda meydana çıxan bu ad təbiidir ki, psixi-assosiativ səviyyədə mübarək adı təfəkkürdə canlandırır. Məhz müəllif də bunu yaxşı bildiyi üçün üstünlüyü Məhəmməd adına vermiş, toplumun min illərlə qazandığı dəyərlərdən inanc, mədəniyyət və tarix bilgisi olaraq mətnə çox ciddi yanaşmışdır. Fikrimizi onunla dəqiqləşdirək ki, bu ad Şərq ədəbiyyatında, nəzmində və nəsrində nadir hallarda mənfi surətlərin adında ola bilər. Bu bilginin bu səviyyədə mətndə daşlaşması təsadüf yox, müəllif təfəkkürünün inanc və etiqada ciddi yanaşdığını göstərən spesifikadır.

Biz digər ad semantemləri ilə müqayisədə də bunu görürük. Ziya ad semantemi ilə funksional olaraq savadı, biliyi, zəkanı,

Səyyad adı isə ovçuluğu, məqsədə çata bilmək üçün savaşmanı, çətinliklərdən keçməni rəmzləndirir. Şüur altında olan reaksiyalarda məhz bu məsələnin zəka ilə, çətinliklərlə mübarizə aparmaqla deyil, xüsusi bilgi ilə – fəhm və yaxud intuisiya ilə həll olunacağı aydın olur. Bu müəllimin və sinfin də davranışında aydın hiss olunur. İsmayıl müəllim Məhəmmədin bu məsələni həll etdiyinə qaşlarını çataraq heyrət edirsə, sinif də təəccüb edir: "Bütün sinfi təəccüb götürdü, müəllimin qaşları çatıldı" (1, 95).

Müəllif hətta bu anlamı daha dərinə endirərək süjet kombinasiyası əsasında birdən-birə İsmayıl müəllimin keçmişə qayıtmasını və sinif yoldaşı Xanları xatırlamasını təsvir edir və bunu situasiya keçidi əsasında edərək yeni situasiyaya keçir. İsmayıl müəllimin yadına riyaziyyatı çox yaxşı bilən sinif yoldaşı Xanlar düşür. Sinifdə onu birdən-birə xatırlayır. Ancaq mətnin bu situasiyadan əvvəl baş verən hissəsində bunu adi şəkildə qələmə alır. Sanki bir müəllimin yaddaşına bir sinifdə oxuduğu, savadına qiymət verdiyi, indi isə başqa kənddə işləyən Xanlar müəllim düşür. Ancaq mətnin bu hissəsində son cümlədə bunun assosiasiya olduğunu təqdim edir: "Əslində Xanlar İsmayıl müəllimin yadına ona görə düşmüşdü ki, o, Məhəmmədin dayısı idi (1, 96).

Burada bilgi səviyyəsində onu da görürük ki, Xanlar yaxşı riyaziyyatçı olduğu üçün deyil, Məhəmmədin dayısı olduğu üçün İsmayıl müəllimin yadına düşür. Ancaq mətndə qeyd etdiyimiz məsələni bir neçə nəfər həll etsə idi, o zaman Xanların Məhəmmədin dayısı olmağına ehtiyac da qalmazdı. Assosiasiya "dayı" bilgisi əsasında yox, "riyaziyyat" bilgisi əsasında təfəkkürdə hərəkətə gələrdi. Biz mətn məzmununda bu adın daha sonra rabitəli şəkildə iştirak etdiyini də müşahidə etmirik. Məhz bu kontekstdə də Məhəmməd adının mətndə informativ xarakterinin təsadüfi olmadığını aydın görə bilirik.

Ümumiyyətlə, bitkin mətndə heç nə təsadüfi deyil. Qeyd etdiyimiz kimi mətn situasiyalar əsasında müxtəlif kontekstlərlə oxunur. Hər kontekst yenidən eyni situasiyaya, eyni cümləyə, eyni mühakiməyə, hətta eyni sözə qayıtmağa təkan verir. Məhz mətn təhlili bu anlayışlar əsasında mətnin dəyərini meydana çıxarır.

Onu da qeyd edək ki, mətndə gizlənən bilgiləri bütün halda bilmək mümkün deyil. Bu yalnız məntiqi-real bilgi səviyyəsində mətnə daxil olmur, psixi-assosiativ, genetik-bioloji, fizioloji-reflektiv, eyni zamanda arxaik-arxetipik, bir sözlə, ən anlaşılmaz səviyyələrdə şüraltı bilgilərlə yanaşı mətndə öz mövcudiyyətini qoruyub saxlayır. Yalnız müəyyən kontekstslərin təhlili əsasında bu bilgilər qismən üzə çıxa bilir. Qeyd etdiyimiz mətndə semantik səviyyədə başqa detalı da müşahidə edirik. Təsəvvür edin ki, Məhəmməd mübarək adı ilə birlikdə Əli adı da eyni situasiyada mətnə daxil olmuşdur. Burada Xanlar müəllimin Məhəmmədin dayısı olduğu, məhz Əlibayramlıya getdiyi, güman ki, orada müəllim işlədiyi eyni semantik cərgəni bu mətndə reallaşdırır (1, 96).

Mətndə İsmayıl müəllim adının da eyni kontekstdə mübarək adı assosiativ olaraq yaddaşa gətirməsi eyni semantik cərgəyə əlavə oluna bilər. Məhz bu spesifika da fikrimizin doğruluğunu isbat edir. Müəllifin daxili aləmini zənginləşdirən inanc və əxlaq anlayışı onun bədii təfəkküründə üzə çıxaraq semantik səviyyələrdə öz yerini tutur.

Mətndə ad semantemi olaraq götürülə bilən, ancaq mövsüm-mərasim ritualı olan Novruz bayramının da semantik səviyyəsinə diqqət yetirməyə ehtiyac hiss olunur. Mətnin Novruz bayramı ilə başlaması təsadüfi deyil. Bu süjet səviyyəsində sonrakı hadisələrin fiqurasiyasını təşkil edən ön bilgidir. Mətnin təsviri səviyyəsində əvvəldə qeyd etdiyimiz kimi, Novruz ab-havası müşahidə olunursa, mətn semantikasında bu hekayə ona görə Novruz ovqatı ilə başlayır ki, mətnin əsas məzmunu təşkil edən nakam və duyğulu sevgi əhvalatı üçün başlanğıc informasiyası rolunda çıxış etsin. Buna ədəbiyyatşünaslıqda (ədəbiyyat nəzəriyyəsi), konkret olaraq süjet fiqurasiyasında ekspozisiya deyilir (2, 37).

"Riyaziyyat müəllimi" hekayəsində Novruz bayramının süjet ekspozisiyası olduğu ənənəvi-təsviri səviyyədə də görünür. Ancaq semantik qatlar aydın görünmür. Burada sadəcə məktəbin Novruz əhvali-ruhiyyəsində olduğu və uşaqların buna hazırlaşdığı bilinir. Ancaq təsviri olaraq saç qırxdırma və qırmızı yumurta boyatdırıb məktəbə gətirmək hekayədə aydın olur. Saç qırxdırma

və yaxud başqırxdırma və qırmızı yumurta sevgi əhvalatının kompozisiyası üçün təsviri səviyyədə hadisələrin bir-birinə bağlanmasını şətləndirir. Ancaq semantik səviyyədə, mətnin alt laylarında bu məsələlər daha başqa şəkil olur. Aydın görünür ki, baş qırxdırma və qırmızı yumurta bəsit şəkildə deyil, müxtəlif səviyyələrdə mətnə düşür. Ənənəvi-təsviri səviyyədə müəllimin Novruz qabağı saçını qırxdırması və uşaqları saçını qırxdırmağa məcbur etməsi, qırmızı yumurtanın nadinc Niyaz tərəfindən arxa partadan lövhə önünə dığırlanması, bu hadisənin müəllimin yaddaşında keçmişi canlandırması, şeir yazıb verdiyinə görə Niyazın anası Darçının ona qırmızı yumurta bağışlamasını xatırlaması kimi təsvir olunan hadisələr təsviri-epik səviyyədə müşahidə oluna bilər. Ancaq bu o qədər də primitiv süjet xətti olaraq bu şəkildə qala bilməz. Bu baxımdan eyni məzmun və hadisələr, situativ faktura və kontekstlər semantik olaraq araşdırmaya cəlb olunmalıdır. Mətnə semantik səviyyədə yanaşmada daha iki semantem işarələr sisteminin hissələri olaraq aşkara çıxır:

1. Saçqırxdırma semantemi;
2. Qırmızı yumurta semantemi.

İlkin olaraq saçqırxdırma semanteminə diqqət çəkək. Bu semantem hekayədə bu şəkildə ifadə olunur: "...İsmayıl müəllim üçün Novruz bayramının tamam başqa bir özəlliyi vardı. O, məktəbdə dərslər dayandırılana kimi saçını dibdən qırxdırardı. Özü qalsın bir tərəfə, bunu yuxarı sinifdə oxuyanlardan da tələb edərdi" (1, 90).

Göründüyü kimi, saçqırxdırma mətndə adi məişət hadisəsi kimi yer alır. Ancaq mətndə saçqırxdırmanın işarələr sistemi daha dərin qatları əhatə edir. Aydın olur ki, bu prosedur adi məişət hadisəsi olaraq sıradan bir bilgi kimi mətnlərdə iştirak etmir. Bu barədə N.Öztürk yazır ki, "...bütün toplumlarda saç uzatmak ve kesmek, saç kesim tarzları ve kesilen saçın muhafazası gibi hususların psikolojik, dini, sosyal ve kültürel konularla ilişkili olduğu görülür" (3, 8).

M.Şahbaz da saçın simvolik baxımdan yalnız bir kültürə bağlı olmadığını işarələyir: "Bazen saç, anlamı itibarıyla kültüre

has özellikler taşırken, bazen de kültür ötesi olarak karşımıza çıkmaktadır. Türk toplumunda saç: cinsiyet, yaş, sınıf, politik bağlantılar ve dinsel fikirlere bağlı bir semboldür" (4, 1492).

Saç uzatmaq və kəsdirmək eyni zamanda mərasim olaraq bir çox türk xalqlarının kültür və mədəniyyətində özünə yer tapır. M.Şahbaz bu barədə yazır ki, "İslamiyet öncesi türk devletlerinde saç kesmek en eski dini ritüellerdendi" ( 4, 1496).

M.Şahbaz saç kəsdirmə ilə bağlı mifoloji görüşləri də tədqiq edərək yazır ki, "Eski Türklerde saç gücün sembolü olarak düşünüldüğü için bir anlamda saç başarı, saçsızlık başarısızlık olarak görülmüştür. Eski mitolojilerden günümüze uzanan bu anlamlar, günümüzde iyice belirginleşmiş durumdadır (4, 1492).

Məhz hekayədə biz görürük ki, İsmayıl müəllimin uşaqların saçını qırxdırmasını tələb etməsinə elə Dilbər xala bu məzmunda kəskin reaksiya verir: "Sənin adam eləyib adamlar içinə çıxardığın o cavan riyaziyyat müəllimi uşaqlara deyir ki, gedin saçınızı ülgüclə qırxdırın. A balam, bu uşaqlar cavandırlar, beyinləri qandır, hərəsinin bir istəyi, bir arzusu var..." (1, 92).

Əlbəttə, Dilbər xala bunu mifoloji baxış tərzi olaraq söyləmir, ancaq müasir anlayışların kökündə arxetiplər, qədim simvollar mexaniki şəkildə nitq axınında iştirak edir. Bəs İsmayıl müəllim nə üçün bu anlayışa mifoloji spesifikadan yanaşmır? Çünki o, daha çox islam davranış tərzini nümayiş etdirir. İslam dönəmində də saç kəsmək hətta islamın beş əsas fərz və rüknlərindən biri olan Həcc mərasiminin sonucunun, yəni bayram ərəfəsinin mühüm elementi olaraq götürülür (3, 25; 5, 124, 125).

Təsadüfi deyil ki, Qurani-Kərimdə də Uca Allah insanları Məscidül-Hərama, yəni Kəbəyə girərkən saçlarını qısaltmış və dibindən kəsdirmiş, qazıtmış halda olacağı ilə müjdələyir: "And olsun, Allah, Peygamberinin rüyasını doğru çıkardı. Allah dilerse, siz güven içinde başlarınızı kazıtmış veya saçlarınızı kısaltmış olarak, korkmadan Mescid-i Haram'a gireceksiniz" (Fetih suresi, ayet 27) (6, 569).

Elə əvvəldə göstərdiyimiz kimi M.Şahbaz islamiyyətdən öncə əski türklərdə, hətta türk dövlətlərində dini ritualların saç kəsdir-

mənin əsas olduğunu söyləyir, mifoloji görüşlərdən bəhs etdikdə isə bunun bacarıqlılıq və bacarıqsızlıq kimi antoqonizminə diqqət çəkir. O zaman aydın olur ki, elə əski türklərdə də saç kəsdirmə müsbət sayılır və bunun üzərində rituallar həyata keçirilir. O zaman bu kontekst funksionallığı mətndə inancı işarələyir:

1.Haqq inanclar;

2. Batil inanclar.

Belə görünür ki, burada batil inanclar mifologiyanın sahəsinə düşür. Ancaq onu da qeyd etmək lazımdır ki, bu birmənalı şəkildə bu anlayışı ifadə etmir. Çünki bu mifoloji kontekst etolon deyil. Misal üçün nağıllarda saçsızlıq daha çox ağıl simvolu olaraq gözə dəyir, keçəllər hər zaman öz ağılları ilə özlərindən qat-qat güclü olan saçlı qəhrəmanlara qalib gəlirlər. Bu binar oppozisiya olub xaotik görünənin sakral sferada iştirak etməsini şərtləndirir.

Göründüyü kimi, hekayəyə düşən bir detal mətnaltı laylarda çox mühüm ritualın saxlanması, mərasim faktoru, dini bilgi, sosial prosedur və eləcə də mifoloji ünsür olaraq iştirak edir. Burada eyni zamanda mifoloji bir motiv özünü göstərməkdədir. İsmayıl müəllimin Novruz bayramı qabağı öz saçını dibindən qırxdırması və yuxarı sinif şagirdlərindən də bunu tələb etməsi mətn strukturunda ölüb-dirilməni, statusdəyişməni işarələyir. Təsadüfi deyil ki, N.Öztürk bu barədə məhz eyni qavramı səciyyə olaraq təqdim edir; "Saç kesme ve uzatma eylemleri çok eski zamanlardan beri statü belirleyici fonksiyonlarını da sürdürmektedir" ( 3, 17).

İsmayıl müəllim saç qırxdırmaqla və qırxdırtmaqla ölümü və həyatı rəmzləndirir. Elə yaz başlanğıclı Novruz da bu anlayışı ifadə edir (7, 188).

Təbiətin qış çağında ölməsi, yaz çağında isə dirilməsi eyni situasiyanı anlam baxımından işarələyir. İsmayıl müəllim və şagirdləri də yaz qabağı funksiyalarını dondurub, daha sonra yeni funksiyada meydana çıxıb yeni status qazanırlar. Təbiidir ki, biz bədii mətndə işarə olaraq bunu görməyə bilmirik. İsmayıl müəllim göründüyü kimi yeni funksiyada iştirak edərək növbəti dərs ilində statusunu dəyişir: "...kəndimizdən olan müəllimlərə riyaziyyatdan dərs saatı çatmadığına görə İsmayıl müəllim elə sent-

yabrın əvvəlindən məktəbdən çıxıb öz kəndlərinə getmişdi" (1, 98).

Bu kontekstdə "dərs çatmadığı" predikatında mənfi anlam yükü işarələnsə də, əslində "öz kəndlərinə getmişdi" predikatında onun qarşılığı olaraq müsbət anlam yükü özünü göstərir. Çünki insanın hər zaman öz yurduna qayıdışı müsbət anlamlar cərgəsində işarələnir. Bu, insanın təbii olduğu mühitə qayıdışı, təbiətə qovuşmasıdır. Buradakı anaxronluq dərin laylarda bir-birini tamamlayır. Müsbət mənfiyə, mənfi müsbətə çevrilir.

Bu kontekstdə eyni zamanda müəllimin müəllim olaraq yetişdirdiyi şagirdlərə görə dərslərindən imtina etməsi onun yeni statusu, şagirdlərin isə tələbə anlayışına keçid etməsi və riyaziyyat müəllimi olaraq kəndə gəlməsi onların yeni statusudur. Bu, eyni kontekstdə bu şəkildə işarələnir: "Tükəz də sizdən çox razıdır, həmişə deyir ki, məni İsmayıl müəllim riyaziyyat müəllimi eylədi... Ariflə Zöhrə institutu bu il qurtarırlar, həm də nişanlanıblar. Məktəbimizə işə düzələn kimi toy edəcəklər" (1, 98).

Mətn təhlilinin qüsurlu olmaması üçün burada eyni kontekstdə bir məsələyə də aydınlıq gətirmək lazımdır. Saç qırxdırmanı İsmayıl müəllim ilk dəfə həyata keçirmir. Bu hekayədə öz əksini tapıb: "O, məktəbdə dərslər dayandırılana kimi saçını dibdən qırxdırardı" ( 1, 90).

Mətndən bu aşkar görünür. Bəs bu statusdəyişməni kölgə altına sala bilərmi? Xeyr! Çünki İsmayıl müəllimin əvvəl saçını qırxdırdıqdan sonra qazandığı yeni statusu biz görə bilmirik. Ancaq qeyd etdiyimiz kimi Tükəz surətində İsmayıl müəllimin daha əvvəlki statusda bərpası əks olunur. Onun şagirdi də yeni status əldə edib artıq riyaziyyat müəllimi olmuşdur. Elə bu baxımdan da Ariflə Zöhrə Tükəzdən fərqləndirilir. Çünki onlar hələ müəllim deyillər. Ancaq sentyabrda müəllim olaraq gəldikləri üçün dərs çatışmazlığı yaranıb və İsmayıl müəllim məktəbdən çıxıb öz kəndlərinə qayıdıb. Bu da mətndə ölüb-dirilmə motivini şərtləndirir.

"Riyaziyyat müəllimi" hekayəsində saçqırxdırma detalı bununla yekunlaşmır. Bu hekayədə kontekst daxilində mətnin alt laylarında mifoloji qatlardan gələn mühüm bir spesifika da özü-

nü göstərir. Mifoloji anlayışda tüksüzlük periferik işarə və yaxud marginallıq kimi xaosu, tüklülük sakrallıq kimi kosmosu işarələyir (8, 25, 83; 9, 37, 38).

Məhz mətndə İsmayıl müəllimin saçını dibindən qırxdırması və bunu şagirdlərdən tələb etməsi marginal davranış tərzini ifadə edir, qışı simvollaşdıran işarə olaraq özünü göstərir, müasir anlayışda bu anormallıq kimi qəbul olunur və yaz başlandıqda isə saçların artıq tüklənməsi aralığında xaotikliyi sakrallıq əvəzləyir, kosmos bərpa olunur.

Mətndə saçqırxdırma eyni zamanda mifoloji aspektdən çıxış etdikdə tabu ilə əlaqəlidir. Bu tabunun müvəqqəti olaraq qaldırılma məsələsidir. Tabu qanundur. Dəyişdirilə bilməz. Qoyulan yasaqdır. Bu yasağı pozanlar cəzalanırlar (10, 21).

Hekayədə də görünür ki, şagirdlərin valideynləri, sosial toplum bu prosedura qarşıdır. Ancaq müəllimin iradəsi qarşısında aktiv reaksiya vermirlər. Yalnız Dilbər xala buna etiraz edir. Ancaq hekayənin sonunda müəllimin cəzalanması kontekst daxilində əksini tapır. İsmayıl müəllim dərs çatışmazlığından növbəti dərs ilində məktəbi buraxıb öz kəndinə qayıdır (1).

Biz qanunun bilərəkdən pozulmasını bir sıra mifoloji mətnlərdə də müşahidə edirik. Əgər burada ümumi qanun dəyişirsə, sonunda toplumun qəbul etdiyi bu qanunu dəyişən kimliyindən asılı olmayaraq cəzalanır. Möhtəşəm Oğuz abidəsi olan “Dədə Qorqud kitabı”nda da bu kimi mifoloji motivlə üzləşirik. Qazan xan xan statusunu donduraraq bir günlük bəyliyini Beyrəyə verir (11, 64 ).

Elə həmin boyun ardından gələn IV boyun əvvəlində Qazan xanın oğlu Uruz kafirlərə əsir düşür ( 11, 71).

Biz yazılı ədəbiyyatda folklor və mifologiyadan transfer olunan mövzularda da bunu görürük. Bu aspektdə ən məşhur əsər təbiidir ki, M.F.Axundovun “Aldanmış kəvakib” əsəridir. Burada da Şah Abbas öz taxtını müvəqqəti fəlakətlə bağlı olaraq Yusif Sərraca ötürsə də, özü də cəzalanır. Ancaq bu Axundovda məzmun tələbatından irəli gələrək mətndə tələb olunan cəza proseduru özünü zəif şəkildə göstərir. Mif motivi bu kontekstdə

pozulur. Yalnız hərəmxana kontekstində biz bu cəzalanmanı müşahidə edə bilirik (12, 219, 220).

Görünür, bu mif motivinin mətnlərdə dəyişkənliyinin qəbul olunmazlığını hiss edən A.Şaiq məhz "Aldanmış kəvakib" əsərinə iqtibas olan "Aldanmış ulduzlar" pyesində Yusif Sərrac taxtdan yıxılsa da, taxtın Şah Abbasa çatmamasını onun cəza aktı kimi qəbul edərək əsərin sonluğunu Şah Abbasın məğlubiyyəti ilə yekunlaşdırır (13, 444 ).

Əlbəttə, hər bir müəllif məzmun baxımından düşündüyünü qələmə ala bilər. Ancaq mifoloji spesifika, arxetip, simvol və modellər müasir anlayışda belə heç müəllifin özü də bilmədən mətnlərdə daşınır. Bu baxımdan mətn bitkindirsə, burada təsadüfi heç nə olmur. Eyni zamanda mətn hər kontekstdə bir anlamı ifadə etdiyi kimi eyni işarə, qəlib və ya cümlə dəfələrlə müxtəlif səviyyələrdə oxunub, müxtəlif anlamları ifadə edir. Buna görə də hər situasiya bu cümlənin bir tərəfini açmaqla onu ya mənfi, ya da müsbət anlamda işarələyir. Burada heç bir ziddiyyət yoxdur, anaxronizm mövcuddur. Bu hekayədə də əgər İsmayıl müəllim dərs çatışmazlığından məktəbi buraxıb kəndinə qayıtmışsa, bu hər situasiyada bir cür oxunur. Mənfi və müsbət anlamda qavranılması mətn gizlinlərinin üzə çıxmasına və situativ yanaşmaya bağlı olur.

Bu bəhs haqqında son olaraq qeyd edək ki, tabunun mətnlərə düşməsi və tabu pozulduğunda mətndə cəzalanma aktının yer alması kimi vacib arxetipik formulun müasir mətnlərdə də daşınması mətn strukturunda tələbat olaraq çıxış edir. Ancaq bunun tabunun inanc əsası ilə heç bir əlaqəsi yoxdur. Mahiyyət etibarilə bu funksiya mətnlərdə əsas qanun rolunda müşahidə olunuraq simvolik qəlib təşkil edir. Bu qəlibə yerləşən bütün semantik anlamlar eyni spesifikanı tamamlayır. Tabu sözü də burada inanc anlamında deyil, qanun və yasaq ilə eyni semantik cərgəni təşkil edən qavram kimi iştirak edir.

"Riyaziyyat müəllimi" hekayəsində yumurta semanteminə də xüsusi diqqət yetirmək lazımdır. Çünki yumurta mövzusu sanki süjet içində süjet təşkil edir. Eyni zamanda geniş semantik anlayış kimi dəyərləndirilməsinə ehtiyac hiss olunur. Biz ilk

olaraq mətnə müraciət etməklə bu semantemin yaddaşda sabit səviyyə təşkil etməsinə diqqət çəkək: "...bir yumurta partaların arası ilə dığırlana-dığırlana gəlib düz yazı taxtasının asıldığı divara dirəndi. Qıpqırmızı yumurta idi" (1, 96).

Müəllif "qıpqırmızı yumurta idi" predikatı vasitəsilə çox maraqlı süjet fiqurasiyası nümayiş etdirir. Ümumiyyətlə, bir cümlədə çox geniş anlayışlar, keçidlər və psixoloji təəssüratlar meydana gəlir. Lövhəyə doğru hərəkət edən yumurta təfəkkürdə ilkin olaraq hərəkəti bərpa edir. Bu hərəkətdə müəllim və şagirdlər də sanki fiziki qanunlara uyğun olaraq fiziki-psixi hərəkətə keçirlər. Yumurtanın hərəkəti lövhədən yazı köçürən şagirdlərin, lövhədə yazı yazan Məhəmmədin və jurnal yazan müəllimin hərəkət trayektoriyasını başqa bir hərəkətə keçirir. Bu situasiya mətndə eyni anda bir neçə konteksti işarələyir:

1. İctimai-kütləvi kontekst ("Hamının diqqəti yazı taxtasından ayrılıb yumurtaya dikilmişdi");
2. Sosial kontekst ("Bütün şagirdlər vəziyyətin kəskinləşdiyini əməlli-başlı hiss edirdilər");
3. Fərdi kontekst (" İsmayıl müəllim də oturduğu yerdəcə başını yavaşca sol tərəfə döndərib yumurtaya baxmağa başladı");
4. Psixi-assosiativ kontekst ("Yadına vaxtilə yazdığı şeirin əvəzində Darçının ona verdiyi qırmızı yumurta düşdü") (1, 96, 97).

Bu yumurtanın diyirlənməsi situasiyası eyni zamanda süjet kombinasiyasının mühüm detalı kimi səhnələr arası keçid rolunda çıxış edir. İsmayıl müəllimin yadına bu qırmızı yumurtadan başqa bir qırmızı yumurta düşür. Ancaq bu keçiddə süjet fabulaya uyğun olaraq sinxronluq təşkil etmir, əksinə əvvəldən geriyə qayıdır. Dilbər xalanın saçqırxdırmaya etiraz olaraq məktəbə gəlib İsmayıl müəllimlə görüşmək istəməsi, hamının ondan qorxması, məktəb direktorunun İsmayıl müəllimə hirslənməsi, "İndi get, Dilbər arvadın cavabını ver!" deməsi, onun Dilbər xala ilə görüşə gedərkən onun qızı Darçını xatırlaması, ona Novruz bayramında şeir yazıb verməsini yadına salması yaddaşda bərpa olunur. Hətta bundan da daha artıq şəkildə oxucu yaddaşında qırmızı yumurta mexaniki-assosiativ olaraq işarələnərək Darçının İsmayılın yazdığı şeiri san-

dığında hələ də saxlaması, bundan Dilbər xalanın da xəbəri olması, ancaq İsmayıl müəllimin bunları bilməməsi bir yumurta dığırlanması keçidində bu kimi süjet kombinasiyalarının əsasında hekayədə klişeləşir. Sanki bu hadisələri bir-birinə bağlayan müəllif remarkasıdır. Ancaq əslində bu ənənəvi şəkildə olan sinxron süjet deyil, anaxron süjetdir. Məhz burada bir kiçik detal oxunulub üzərindən keçilən əvvəlki hadisələri bir dinamikaya tabe edir (1, 90, 91).

Qırmızı yumurtanın yaddaşı assosiativ olaraq əvvəlki illərə bağlaması, yaddaş altında olan bilgilərin, şüuraltı stereotiplərin bir hadisə nəticəsində təfəkkürdə canlanması bütün süjeti əhatə edir. Yalnız bu şəkildə geri oxunuş sabit vəziyyət təşkil etmir. Geridən, ilk simptomlardan daha sonrakı hadisələr də geri qayıtdığı yerdən ardıcıllıqla oxunmağa başlayır. İsmayıl müəllimin Darçın adlı bir qızı sevməsi, ona Novruz bayramında sevgisini izhar edən şeir həsr etməsi, anası Dilbər xalanın Darçına onu layiq bilməməsi, qovuşmasına imkan verməməsi, qızını bir qohumuna ərə verməsi, sonra bundan illərlə peşmanlıq duyması və sair bu kimi hadisələr transformativ məlumat baqajı kimi bir qırmızı yumurta detalında açılıb bir-biri ilə yenidən rabitələnir və yaddaşda sabit anlayışlar məcmusu olaraq yer tutur.

"Qırmızı yumurta dığırlanması" sanki hekayədə hadisələri bir-birinə bağlayan etalon reaksiya kimi çıxış edir. İsmayıl müəllimin dığırlanan qırmızı yumurtadan Darçına verdiyi qırmızı yumurtanı xatırlamasının ilk qıcığı əslində hekayənin ilk cümləsində olan Novruz bayramının gəlişi predikatından başlanır: "Novruz bayramı bizim məktəbə hay-küylə gələrdi" (1, 90).

Elə ilk cümlədə oxucu təfəkküründə məktəbdə Novruz gəlişi hay-küylü hadisələr üçün zəmin hazırlayır. Qırmızı yumurtanın dığırlanması isə sanki kulminasiya təşkil edir. İsmayıl müəllim hələ yumurta hadisəsindən əvvəl Dilbər xala ilə saçqırxdırma ilə bağlı görüşməyə gedərkən təsadüfi deyil ki, məhz sevdiyi qızı xatırlayır. Burada psixi-assosiativ reaksiyalar qeyri-iradi olaraq reflektiv şəkildə şüurda cərəyan edir. Buna səbəb odur ki, başqa niyyətlə olan hadisələr, daha doğrusu müxtəlif bilgilər meydana çıxmaq üçün yaddaş altında gizli qalır. Bizim şürumu-

zu hərəkətə keçirmək üçün özümüzdən belə asılı olmayan hadisələr təkanverici rol oynayır. Burada assosiasiya ona görə baş verir ki, İsmayıl müəllim Dilbər xalanın qızını sevmiş, Novruzda ona şeir yazmış, Dilbər xala qızını ona verməmişdir. Dilbər xalanın məktəbə gəlişi Darçın assosiasiyasını, hadisənin Novruza təsadüf etməsi isə Novruzda Darçına yazılan şeir assosiasiyasını doğurur. Əgər mətndə Novruz bayramı təsvir olunmasaydı Dilbər xalanın məktəbə gəlişi ilkin assosiasiya olaraq şeir yazılmasını deyil, Dilbər xalanın Darçını ona verməməsini işarələmiş olacaqdı. Məhz bitkin mətndə təsadüf olmadığı, hər sözün, ifadənin, nitq hissəsinin, cümlənin, hətta yeri gəldikdə hərfin belə işarələr sistemi kimi iştirakını təmin edir.

Bu bədii mətndə eyni zamanda qeyd etdiyimiz situasiyalarda məkan və zaman işarəsi də çox orijinal şəkildə, təfəkkürdə assosiativ dinamika olaraq əks olunmuşdur:

1. Mövcud zaman ("Qırmızı yumurtanın dığırlanması") maddi-real kontekst;
2. Geriyə gedən zaman ("Darçının İsmayıl müəllimə qırmızı yumurta bağışlaması") psixi-assosiativ kontekst;
3. Mövcud zamandan geri, geri zamandan irəliyə gedən zaman ("İsmayılla Darçının həyatının xatırlanması") mexaniki-assosiativ kontekst.

Eyni zamanda burada qeyd etdiyimiz kimi məkan assosiasiyası da təfəkkürdə işarələnərək bədii mətndə inikas olunur:

1. İndiki məkan (məktəb ərazisi) maddi-real kontekst;
2. Aralıq məkanı (Darçınla İsmayılın görüş yeri) Qeyri-müəyyən məkan konteksti;
3. Əlçatmaz məkan (Dilbər xalanın evi) psixi-sentimental kontekst;
4. Özgə məkan (İsmayıl müəllim öz kəndində dərs demir) fərdi-duyğusal kontekst.

Göründüyü kimi, müxtəlif bilgilər semantik yaruslarda gizli qalaraq qəfil bir situasiyada assosiasiya təşkil edərək eyni semantik cərgədə bir-biri ilə əlaqələnir.

Hətta mətndə Dilbər xalanın evinin əlçatmaz məkandan real məkana çevrilməsi mətnaltı laylarda psixi-duyğusal davranış etiketinə real təhlükə kimi ortaya çıxır. Dilbər xala İsmayıl müəllimi evinə dəvət edir. Ancaq bu məkanın əlçatmaz məkan olduğu elə Dilbər xalanın nitqində aktiv ünsür olaraq görünür. O, İsmayıl müəllimin onlar tərəfə gəlməməsini nitqində üzə çıxarır: "Mən səni nə vaxtdır görmürəm, barı bir bizim tərəflərə də gəl, bir istəkan çayımızı iç, bir loxma çörəyimizi ye, bu qoca qarıdan hal-əhval tut, axı ölüm-itim dünyasıdır!" (1, 91).

Biz bu mətndə sanki binar oppozisiyanı, kosmos-xaos qarşıdurmasını, bir sözlə, daha dərində mifoloji substratı görürük. Lakin bu bədii məzmunda gizlənmiş, bədii ifadə səviyyəsində müasir anlayışlara uyğun olaraq bilərək gözdən qaçırılmış, mətn strukturunda yerləşmişdir.

Təbiidir ki, əlçatmaz məkanın substratlığı mətndə qorunur və İsmayıl müəllim Dilbər xalanın çağırışına baxmayaraq onların evinə getmir, əksinə müəllif remarkasına görə növbəti dərs ilində məktəbi buraxıb öz kəndlərinə qayıdır (1, 98).

Biz mətndə nə üçün məkan işarəsində özgə məkanı fərdi-duyğusal kontekstdə işarələdiyimizi də aydınlaşdırmaq gərəyi hiss edirik. Hekayədən məlum olur ki, İsmayıl müəllim öz kəndində dərs demir, Darçının olduğu kənddə dərs deyir. Bu kəndin Darçının yaşadığı kənd olması işarəsi bu şəkildə üzə çıxır: "Dilbər xala kənddə hökmlü arvad kimi tanınırdı" və yaxud " Darçın da yalnız bircə anlıq Dilbər xalanın yaddaşına gəldi və güman elədi ki, evə qayıdanda Darçın anasından İsmayıl müəllimi soruşacaq" (1, 90, 92).

Biz hekayədə Darçının bu kənddə yaşamasını dəqiqləşdirdikdə, onun anasının yaşadığı evə gəlməsini, yoxsa anasının onun yanına gəlməsini mətndə görmürük. Yalnız o bilinir ki, Dilbər xala ilə Darçın bir evdə yaşayır. Ancaq onu görürük ki, bu məkan hal-hazırda İsmayıl müəllimin öz kəndi yox, dərs dediyi kənddir. Əslində məzmun düyünü elə burada açılır. Aydın olur ki, İsmayıl müəllim Darçına qovuşa bilməsə də, onun kəndində müəllim olaraq qalmaqla özünü Darçına duyğusal

olaraq yaxın hiss edir. Bu platonik duyğuların mahiyyət etibarilə əxlaq normalarını pozmadığı da mətndə işarələnir.

Hekayədə qırmızı yumurtanın nə üçün dığırlandırılması da müxtəlif semantik guşələrdə yer almışdır. Bu, ilkin olaraq İsmayıl müəllimin daxili fikirlərində işarələnir: "...İsmayıl müəllim bilirdi: yumurtanı döşəmənin üstü ilə arxa partada oturan Niyaz dığırladıb" (1, 98).

Əslində bu, mətn kontekstində çox xüsusi anlam daşıyır. Çünki Niyaz İsmayıl müəllimin sevdiyi Darçının oğlu idi (1, 90).

Hekayədə təsvir olunan bu əhvalat o qədər də bəsit, üstündən keçiləcək bir səhnə deyil. Burada psixoloji faktor özünü mətn boyu göstərir. Ancaq hekayədə novella janrına məxsus gözlənilməzlik ilk olaraq diqqət çəkir. İsmayıl müəllimin yazdığı şeirə cavab olaraq Darçın ona qırmızı yumurta bağışlamışdı. İndi Darçının oğlu ona tərəf qırmızı yumurta dığırladır. Halbuki İsmayıl müəllim çox sərt müəllimdir və onun dərsində belə şeylər etmək olmaz. Bu kimi nadinclikləri şagirdlər Habil müəllimin dərsində edirlər (1, 96).

Bəs necə olur ki, bu kimi xoşagəlməz hadisə onun dərsində edilir? Çünki burada istisnalar özünü göstərir. Niyaz bunu məhz Habil müəllimə deyil, İsmayıl müəllimə etməli idi. Bu, mətndə iki səviyyədə işarələnir:

1. Yumurtanı dığırlayan Niyaz Darçının oğludur, fərdi kontekst;
2. Habil müəllim İsmayıl müəllim kimi müəllim məsləki daşımır, sosial ictimai kontekst.

Kontekstin ilk səviyyəsində xüsusi psixologizm özünü göstərir. Niyaz görünür ki, Darçın-İsmayıl sevgisinin daxili sarsıntılarını özündə daşıyır. Bu, ilk baxışda görünmür. Ancaq mətn boyu səpələnib semantik səviyyələr təşkil edir. Bunun üçün mətnə yenidən baxış keçirmək zəruridir. Hekayədə ayrı-ayrı situasiyalarda, təsvir və ifadə tərzində Dilbər xalanın qızı Darçını İsmayıla yox, bir qohumuna verməsi və buna görə ömür boyu peşmanlıq keçirməsi müxtəlif aspektlərdə yanaşdıqda daha aydın görünür. Dilbər xala hamını qorxutsa da, hətta məktəb direktorunun

ürəyinə vahimə salsa da, İsmayıl müəllimlə çox ehtiyatla davranır. Bunun arxa bilincində Dilbər xalanın İsmayıl müəllim qarşısında çəkdiyi peşmanlıq hiss olunur. O hətta bir zaman İsmayılın Darçına yazdığı şeirin onun sandığında saxlandığını da bilir. Peşmanlıq çəkməsi bir neçə kontekstdə eyni məzmunlu ifadələrdə üzə çıxır. Dilbər xala Niyazı yada salaraq İsmayıl müəllimə bir zaman ondan üstün tutub qızını verdiyi qohumunu aşağılayıcı tərzdə şikayətlənir: "Dədəsi də ki, korafəhimin biridi" (1, 93).

Ümumiyyətlə, Dilbər xalanın dialoqunun bir cümləlik qismində demək olar ki, hekayənin əsas dramatik süjet xətti əksini tapıb: "O şümür oğlu şümürü görürsən, adamı heç düzəmməlli başa da sala bilmir! Yazıq Darçını da boğaza yığıb. Dədəsi də ki korafəhimin biridi" (1, 93).

Bu kontekstdə Dilbər xalanın psixologizmi incə şəkildə açılır. İsmayıl müəllimə qızını vermədiyi üçün onun qarşısında özünü suçlu hiss etməsi, daxili həyəcanları işarələnir. Ancaq bu arxa planda yerləşir. Ön planda isə saçqırxdırma xəbərini ona düzgün çatdırmayan Niyazdan şikayət edən Dilbər nənə görünür. Ön planda o, İsmayıl müəllimə Niyazın anası Darçını da incitdiyini, onun ömür yoldaşının isə buna laqeyd qaldığını görürük. Arxa plan isə iki yerə bölünür:

1. Dilbər xala Darçını İsmayıl müəllimə vermədiyi üçün özünü onun qarşısında günahkar hiss edir.

2. Niyaz öz daxili sarsıntılarını anası Darçını incitməklə aradan qaldırmaq istəyir. Çünki bunda anasını təqsirli bilir.

Arxa plandan daha dərində, şüurun kölgə hissəsində aydın olur ki, Niyaz İsmayıl müəllimin anası Darçına yazdığı sevgi şeirini sandıqda nə zamansa, ancaq ağlı kəsəndən, daha dəqiqi məktəbdə oxuyandan bəri İsmayıl müəllimi tanıdığı vaxtlarda tapıb oxumuş və bu onda psixi-travmatik təsir yaratmışdır.

Kölgə yaddaş bununla bitmir. Məlum olur ki, İsmayıl müəllimin Darçına yazdığı sevgi şeirinin qarşılığında Darçının ona qırmızı yumurta bağışlaması barədə evdə gedən söhbət olmuş, böyük ehtimalla bunu Darçınla Dilbər xala arasında gedən söhbətdən Niyaz da duymuşdur. Burada mətn kontekst baxımından

yenə də yeni anlamda açılır "İsmayıl müəllimin heç ağlına gəlməz ki, Darçın həmin şeiri indi də anasının sandığında saxlayır, amma bundan Dilbər xalanın özünün xəbəri var idi" ( 1, 91).

Məhz həmin şeirin "Dilbər xalanın sandığında saxlanması" semantik qəlibində aydın olur ki, onun bundan xəbəri olanda Darçınla söhbəti olmuş, bu kontekstdə Darçının da ona qırmızı yumurta bağışlaması bilinmiş, Niyaz da bu söhbəti eşitmiş və buna görə də anası Darçına içində bir hikkə yaranmışdır. O, bunun əvəzini zaman-zaman Darçını incitməklə çıxmışdır. Lakin əsl duyğu, psixi-emosional davranış arxa planda qalmış, ön planda isə "yazıq Darçını da boğaza yığıb" semantik qəlibində duyğuları gizləmək üçün başqa davranış nümayiş etdirmişdir.

Niyazın İsmayıl müəllimə tərəf qırmızı yumurta dığırlaması da eyni davranışdan irəli gəlir. Burada yenə də iki semantik qəlib mövcuddur. Birincisi, Niyaz İsmayıl müəllimin anasına verdiyi qırmızı yumurtanı hikkəli şəkildə ona qaytarır. Ancaq bunu gizli edir, yumurta atdığını boynuna almır. İkincisi, mətnin daha alt layında Niyaz öz qırmızı yumurtası ilə İsmayıl müəllimin yumurtasını Novruz mərasiminin adətinə görə döyüşdürür. Yumurta Darçına veriləndə Novruz idi, indi də Novruzdur. Yumurtanı Darçın İsmayıla vermişdi, indi də onun oğlu İsmayıl müəllimə tərəf dığırlayır. Yumurtanı Darçın gizli şəkildə vermişdi ki, indi də onun verilməsinə səbəb olan şeiri gizli şəkildə saxlayır. Niyaz da yumurtanı gizli şəkildə lövhəyə tərəf, İsmayıl müəllimin əyləşdiyi müəllim masasının olduğu yerə dığırlayır. Qəliblərdə yerləşən semantik yüklü anlamlar burada zaman və məkan fərqliliyi, eyni hadisə ətrafında olan duyğuların əlaqəsi əsasında rabitələnir.

Mətndə bu situasiyada çox incə psixoloji nüanslar özünü göstərir. Məlum olur ki, Niyaz yumurtanı İsmayıl müəllimə qaytarmaqla anasının atasını sevməsini təmin etmək istəyir. Heç bir halda atasını sevməyən anası atasının evdə çox qəddar olmasına, Niyazı və çox güman ki, Darçını da döyməsinə səbəb olmuşdur. Sevgi olmayan bir mühitdə heyvani davranışlar meydana çıxır. Əlbəttə, bu, mətndə yoxdur. Ancaq personajların psixologizmi buna gətirib çıxarır. Bu bilgilər şüurun kölgə hissəsində gizlənib mətnin alt

laylarında daşlaşır. Biz bu kontekstin olduğunu Dilbər xalanın nitqində də görürük. O, Niyaza "şümür oğlu şümür" (1, 93) deyir".

Məhz bu semantik qəlib zalımlığı, qəddarlığı, vəhşiliyi işarələyir. Toplumun genetik, tarixi və mənəvi yaddaşında bu ad semantemi məhz bu mənalı semantik cərgəni təşkil edir. Əlbəttə, bunun səbəbi də islam inancı daşıyan toplumun şümürə nifrət bəsləməsindən irəli gəlir. Çünki o, sevgili peyğəmbərimiz Muhamməd Əleyhissəlamın sevgili nəvəsi, ən böyük şəhid adını alan Həzrət Hüseyni qətlə yetirmişdir. Şəhidlik isə Uca Allahın mükafatı olmuşdur ( 14,112).

Təsadüfi deyil ki, atasını şümür adlandıran Dilbər xala, nəvəsini də onun oğlu şümür adlandırır. Əlbəttə, bu əsəbi davranışda ürəkdən gəlməyən söz olaraq bilinsə də, əslində ifadə təsadüfi olaraq deyil, real bilgilərin nəticəsində bu şəkildə üzə çıxır. Elə burada Niyazın "Darçını boğaza yığması" predikatı yer alır. Bu mətndə heç bir ifadənin təsadüfi işlənmədiyini bir daha təsdiqləyir.

Yuxarıda qeyd etdiyimiz kimi Niyazın yumurtanı Habil müəllimin dərsində niyə dığırlamaması aydın oldu. Ancaq Habil müəllim də burada müəllim məsləkinə uyğun olmayan biridir. Bu elə "Dərs keçməklə arası olmayan" semantik qəlibində Habil müəllimin daxili aləmini işarələyir. Məhz ideyasız, müəllimlikdən uzaq olan Habil müəllim İsmayıl müəllimə deyir ki, şagirdlərə öz riyazi biliklərini bu qədər canı yananlıqla öyrətməsin, bir gün onlar müəllim olub gəlib İsmayıl müəllimin dərslərini əlindən alacaqlar, o da suyu süzülə-süzülə öz kəndinə çıxıb getməli olacaq (1, 96, 97).

Təsadüfi deyil ki, elə nəticə də Habil müəllimin dediyi kimi olur. Dərs dediyi şagirdlər riyaziyyat müəllimi olaraq məktəbə gəlir və İsmayıl müəllim də dərs çatışmazlığından məktəbdən çıxıb öz kəndinə qayıdır (1).

Bu kontekstdə əslində mifoloji mətnlərdə və yazılı klassik ədəbiyyatda, ümumiyyətlə, folklorda mövcud olan "Atalar və oğullar" motivi işarələnir. Atalar həmişə oğullarla mübarizədə məğlubdur. Çünki atalar bu günü, oğullar gələcəyi işarələyir. Maddi zaman – xronotop etibarilə də gələcək bu gün üzərində qalibdir. Biz bu barədə folklor kontekstində oğuznamələrdə – Rəşidəddin

və Əbülqazi mənqəbələrində Oğuzun Qaraxan üzərində qələbəsini (15, 12; 16, 55), "Dədə Qorqud kitabı"nda Qazanın oğlu Uruzun Qazan üzərində zəfər çalmasını (11, 121), Koroğlunun oğlu Kürdoğluyla güləşdə iki dəfə məğlub olmasını (17, 252-254), folklor motivi olaraq yazılı ədəbiyyata keçid edib bədii əsərlərə daşınan motiv kimi Firdovsinin "Şahnamə"sində Rüstəmin oğlu Söhraba ilk güləşdə məğlubiyyətini (18, 401-412), Nizamidə Bəhram Gurun atası üzərində mətnin alt laylarında işarələnən qələbəsini (Atası "Öz ölümünü onun yaşamasında gördü") (19, 71, 88) və s. epik-tarixi-mənqəbəvi əsərləri örnək göstərə bilərik.

İsmayıl müəllim bu həqiqəti yaxşı bilir, ona görə tükənmədən bütün sevgi və enerjisini, bilik və tətbiqi nəticələrini onlara həsr edir. Çünki o, əsl müəllimdir.

Əgər hekayədə qırmızı yumurta mövzusunun bu istiqamətdə müəllif tərəfindən işlənməsinin şahidi olmasaydıq belə, yenə də Niyaz surəti başqa cəhətləriylə qalsaydı Habil müəllimin dərsində nadinclik etməyəcəkdi. Çünki o, özünü Habil müəllimə yaxın görür, onunla eyni qaynaqdan su içir. Habil müəllim dərs keçməklə arası olmayan müəllimdir, Niyaz da arxa partada oturması ilə işarələnməklə dərs sevməyən, oxumaq istəməyən şagirddir (1, 96-98).

Mətnin bu hissəsinə mifoloji yöndən yanaşarsaq, təbiətdən gələnlər təbiətə, cəmiyyətdən gələnlər də cəmiyyətə bağlı olaraq qalır və bunu öz davranışlarında instinktiv reflekslə aşkara çıxarırlar. "Dədə Qorqud kitabı"nda Basatın cəmiyyətə gətirilməsinə baxmayaraq təkrar-təkrar təbiətə qaçması bunun işarəsidir (11, 98).

Hekayədə qırmızı yumurtanın dərin laylarda mifoloji qatları da strukturda saxlanır. Əlbəttə, bədii mətndə bu çox üzə çıxmır, ancaq nə üçün qırmızı yumurta olması da işarələnir. Çünki Novruzdur, Novruz mərasimlərinin atributlarından biri kimi yumurta da müxtəlif vasitələrlə qırmızı şəkildə boyanır, səməni, paxlava, şəkərbura və sair şirniyyatla birlikdə Novruzun elementinə çevrilir. Novruzun tətbiqi rituallarında yumurta döyüşü və s. kimi xalq tamaşalarının, xalq oyunlarının mühüm səciyyələri meyda-

na çıxır. Elə hekayədə də Novruz olduğu mətnin ilk cümləsindən aydın olur (1, 90).

Qırmızı yumurtanın mifoloji spesifikada müxtəlif mənaları özünü göstərməkdədir. Bu barədə F.Ataş yazır ki, "yumurta yaradılış mitlerinde ve kozmogonide farklı anlamlara gelecek şekilde kullanılmıştır" (20, 15).

Yumurta kosmoqoniyanının işarəsi olaraq yaradılışı, törəyişi və soy daşınmasını ifadə edir. Xarici görünüşünə və daxili şəklinə görə də yumurta simvol olaraq mifoloji mətnlərdə iştirak edir: "Yumurtanın şekli dünyayı, zarı havayı, sarısı ise güneşi temsil etmesi ile de mitlerde geçmektedir (20, 16).

Ümumiyyətlə, kosmoqonik miflərdə yumurta başlıca olaraq yaradılışı, doğumu, törəyişi, çoxalmanı, soy aktını, oval quruluşu ilə dünyanın kürəliyini dünya modeli olaraq ifadə etməsiylə diqqət çəkir ( 20, 16; 21, 48; 22, 264; 23, 102).

Yaradılış miflərində, kosmoqoniyada dünya ağacı, həyat ağacı mifoloji dünya modelini işarəliysə, eyni anlamda dünya yumurtası modeli də mövcuddur. Bu barədə oxuyuruq ki, "Dünyanın yumurtadan doğulma mifonimi daha çox yayıldığından həyatın yaranması simvolu kimi Dünya yumurtası universal miflərdən sayılır (24, 41).

Yumurtanın rəng simvolikası da mətndə mifoloji spesifikanın müasir anlayışlara transferi olaraq diqqət çəkir. Yumurta normalda ağ, yaxud sarıya yaxın bir rəng təşkil edir. Ancaq burada qırmızı rəngdədir. Bu da ondan irəli gəlir ki, Novruz ritualının bir atributu kimi yumurta boyalı, qırmızı yumurta olaraq hekayədə yer tapır. Bu rəng simvolikası haqqında R.Qafarlı yazır ki, "ümumiyyətlə, rənglər rəmzi mənalar daşıyarkən hansısa dünyabaxışına, mifoloji təsəvvürlərə əsaslanır" (22, 398).

Yumurta rüşeym etibarilə semantik baxımdan törəyişi ifadə edirsə, qırmızılığı rəng simvolikası təşkil etməklə mifoloji poetikada günəşi rəmzləndirir (25, 200).

Alim eyni zamanda yumurtanın yeddi rəngə boyanmasını, ancaq bunun da yeddilik say arxetipi olaraq mifopoetik obraz olduğunu işarələyir (22, 398).

Qeyd edək ki, yumurtanın üç rəngdə boyanması kimi fikirlər də mövcuddur ki, bu da üçlük, yeddilik say arxetipini, simvolik anlamları ifadə edir ( 26, 17).

Yumurta mətndə ona görə bir rəngdədir ki, əgər yumurta arxaik düşüncədə yeddi və yaxud üç rəngi məna baxımından ehtiva edib maddi atribut kimi də bu rənglərdə boyanmışdırsa da, ancaq daha sonrakı dövrlərdə daha çox qırmızı rəngdə stabil simvolika daşımışdır. Bu baxımdan da hekayədə Novruz bayramı ərəfəsində yumurta qırmızı yumurtadır.

A.Xəlil isə yumurta boyanmasını arxaik ritual olaraq götürüb keçid mərhələsində bunun təbiətin yazda yenidən dirilməsi ilə bağlılığına diqqət çəkir: “Təbiətdən alınan təbii boyalarla yumurta boyanması dünyanın və təbiətin yenidən rənglənməsi və ya dirilməsi mənasını simvolizə etməkdədir” (27, 64).

Biz bu anlayışları tədqiq etdiyimiz bədii mətndə də görürük. Xüsusilə soy aktı mətnin alt laylarında saxlanır. Müasir anlayışla oxuduqda Darçın yazılan şeirə görə qırmızı yumurta hədiyyə edir, Niyaz da şuluqluq edib arxa partadan lövhəyə doğru qırmızı yumurta dığırlayır (1). Ancaq arxaik yaddaş mətnin bu hissələrini fərqli şəkildə qavrayır və gizlində geneoloji akt olaraq iştirak edir. Darçın İsmayıl müəllimin ona yazdığı şeirə (mətndə bilinməsə də aydındır ki, bu, sevgi şeiridir) qarşılıq olaraq yumurta bağışlamasıyla onun soyunu daşıması istəyini gizli bilgi qığılcımı ilə göstərir. Niyaz isə yumurta dığırlamaqla mətnin alt layında antiqəhrəman statusunda çıxış edərək xaotik sferada yer alır, özünün soy olması qarşısında İsmayıl müəllimi təhlükə olaraq qəbul edir (1).

Burada arxaik spesifika ilə yanaşdıqda Darçın yumurtanı müsbət anlamda verməklə kosmoloji alanda, Niyaz isə mənfi anlamda işarələnməklə xaotik alanda yer alır.

Ümumiyyətlə, hekayəyə müxtəlif yönlərdən ona görə bu şəkildə yanaşmaq olur ki, müəllif təfəkkürünün zəngin semantik bazası bədii mətndə mexaniki olaraq saxlanmış və təhlil yönünün çoxşaxəliliyinə meydan vermişdir.

Biz “Riyaziyyat müəllimi” hekayəsində **digər semantik səviyyəl**ərə də qismən toxunmaq ehtiyacı hiss edirik. Bunlardan bi-

rincisi təbiidir ki, sözsüz semantikaya aiddir. Bunu bir növ pantomimiki davranış spesifikası da adlandırmaq olar. Yəni burada mimika, jest, passiv psixika və vizual effekt ifadə olunur. Mətndə bioloji-instiktiv, intim-dəruni hisslərin kiçik işarələrlə gözə görünməsi təsadüf deyil. Darçın hələ də ona yazılan şeiri anasının sandığında saxlayır, Dilbər xala İsmayıl müəllimlə danışarkən bir anlıq yaddaşından Darçının surəti keçir və güman edir ki, Darçın anasından İsmayıl müəllimi soruşacaq. İsmayıl müəllim Dilbər xalanın gözlərində Darçını görür, real situasiyada belə hiss edir ki, Dilbər xala ona baxdıqca Darçın xəyalından çıxıb getməyəcək (1, 91, 92).

İsmayıl müəllimin şagirdlərinə, xüsusilə də üç şagirdə məhəbbət bağlaması yalnız onun müəllim məsləki ilə bağlı deyil. Eyni zamanda İsmayıl müəllim real olaraq itirdiyi, ideal olaraq daşıdığı gizli sevgi duyğularını şagirlərinə bağladığı məhəbbətlə diri tutur. Biz bunu eyni kontekstdə Darçınla üç şagird arasında olan qeyri-real rabitədə müşahidə edirik. Təsadüfi deyil ki, Darçının adı keçən yerdə ard-arda şagirdlərin də adı sevgi anlamında yer tutur: "İsmayıl müəllimin xəyalında Darçın sinfə qayıtdı. Sinifdə oxuyan Səyyad, Məhəmməd və Ziyanı İsmayıl müəllim gözünün işığı hesab edirdi..." ( 1, 93, 94).

Hekayədə digər bir semantik qəlibi də diqqətdən keçirmək lazımdır. Əsərin süjet xəttinə uyğun olaraq mətndə surətin nitqində olan sözlər olduğu kimi deyil, daha dərin səviyyədə oxunmalıdır. Bu da məna və anlam məsələsini özündə əks etdirir. Qeyd etdiyimiz kimi qızı Darçını İsmayıl müəllimə verməməsindən, bir qohumuna layiq görməsindən, indi o qohumu ümidlərini doğrultmayan korafəhm biri olmasından irəli gələrək iki işarə arasında Dilbər xala sanki İsmayıl müəllimdən üzr istəyir. Bunlardan biri hekayədə bu şəkildə aşkara çıxırsa, "Ay İsmayıl, başına dönüm, qurbanın olum, mən səni nə vaxtdır görmürəm, barı bir bizim tərəflərə də gəl, bir istəkan çayımızı iç, bir loxma çörəyimizi ye, bu qoca qarıdan hal-əhval tut, axı ölüm-itim dünyasıdır!" (1, 91), digər işarə sanki suçluluq duyğusunun məntiqi sonluğu kimi basdırılmış duyğuların üzərində başqa ifadə ilə diqqət çəkir: "Ayrılanda Dilbər xala İsmayıl müəllimə

bir də dedi ki, hərdən bizim tərəflərə də baş çək, bu qoca qarını unutma!" (1, 93).

Burada "Bu qoca qarını unutma!" iltiması əslində semantik açıqlamada "Bu qoca qarını bağışla" kimi oxunur. Dilbər xala "ölüm-itim dünyasıdır" predikatında da təbiidir ki, iki sevən insanın arasına girdiyinə görə narahatlıq keçirir, qızının və onu sevən insanın həyatında oynadığı mənfi rolda özünü günahkar bilir, Uca Allah qarşısında bunun hesabını necə verəcəyindən qorxu qarışıq nigaranlıq duyur, İsmayıl müəllimdən əslində haqqını ona halal etməsini istəyir. Bu, "bir loxma çörəyimizi ye!" ifadəsində də aydın görünür. Mövcud əxlaq kodeksi daşıyan toplum inanır ki, biri ilə çörək kəsmisənsə, onu pozmaq olmaz. Əgər pozmayacaqsa, haqqını da halal edəcəkdir.

Əvvəldə də qeyd etdiyimiz kimi bir semantik qəlib bütün mətn boyu səpələnmiş bilgilərdə anlam qazana bilir. Əsas odur ki, mətn təhlilində bu kimi oxu tərzinə yiyələnmək mümkün olsun. Diqqət çəkdiyimiz kimi bir sözün müxtəlif səviyyələrdə əlaqəsi başqa kontekstlərdə açılıb məna tapa bilir. Əlbəttə, bu, mətnin nə dərəcədə keyfiyyətli olmasından irəli gəlir.

Bədii mətndə əvvəldə qeyd etdiyimiz kimi digər bir işarə də mövcud məkanın əlçatmaz məkana çevrilməsi deformasiyasıdır. Bu işarə İsmayıl müəllimin nakam qalan sevgisi olaraq üzə çıxır. O, Darçını çox sevməsinə baxmayaraq, onu bir qohumuna vermişlər. Bu, İsmayıl müəllimin o evə getməməsini, orada özünə xas olan gözəl, toxunulmaz varlığın qarşısına çıxmamasını daxili iztirabların psixikada daşınan uzunmüddətli sarsıntısı kimi səciyyələndirir. Bədii mətn bu kimi semantik anlamları təsviri səviyyədə özündə daşısa da, mətn oxunuşu bu zənginliyin meydana çıxmasına səbəb olur.

Biz yuxarıda diqqət çəkdiyimiz kimi obrazların psixologizmini müəllifin necə bədii-psixoloji ustalıqla işlədiyini də müşahidə etməyə bilmirik. Bu həm poetik baxımdan, həm də elmi təfəkkürün bədiiləşməsini müşahidə baxımından da maraqlıdır. Qeyd edək ki, bədii əsərlərdə psixologizmi işləmək çox çətindir və K.İmranoğlu buna kiçik bir hekayədə nail ola bilmişdir. Psixologizmi bədii nəsr-

də tədqiq edən M.İmanov yazır ki, "Psixologizmin başlıca funksiyalarından biri xarakterin çoxcəhətliliyini təmin etməkdir. Qəhrəmanın düşüncələr aləminin inikasına geniş yer verilməsi insan qəlbinin ən gizli nöqtələrinə nüfuz etmək istəyən, mürəkkəb xarakter yaratmağa çalışan nasirlər üçün böyük imkanlar açır (28, 112).

Mətn təhlilində bir məsələni də elmi-nəzəri və praktik cəhətdən qeyd etməmək olmaz. Hər hansı bir mətn əgər dəyərli bir mətndirsə, o, tədqiqatçını müxtəlif istiqamətlərə yönəldir, bir kontekst içində müxtəlif kontekstlərin meydana çıxmasını şərtləndirir, hətta araşdırıcı sanki məzmundan kənara çıxaraq yeni mövzulara münasibət bildirməli olur, lakin sonunda bu "kənara çıxma" görüntüsü mətnin mahiyyəti ilə əlaqələnir. Tədqiqatımızda olan hekayə də bu cəhətdən zəngin örnək olaraq özünü təsdiq edir və bu şəkildə metodoloji yanaşma bu araşdırmada təsadüfi rol oynamır.

"Riyaziyyat müəllimi" hekayəsində işarələr sistemini araşdırmaq, sinxron, diaxron və anaxron səviyyələrdə mətnə baxış keçirmək, mətnin öz içində analoji və paradoksal anlayışları müəyyən edib izləmək, mətnin alt laylarını fərqli səviyyələrdə müşahidə etmək, mətn stukturunu diqqətdə saxlamaq və mətn bazasında müxtəlif bilgilərdən bədii ifadə səviyyəsindən daha dərinə hopan müxtəlif elmi sahələrin tədqiqini nəzərdə tutmaq mətn analizində çox vacib və gərəklidir. Əks təqdirdə mətnə bəsit münasibət ən mükəmməl mətnin belə bəsit sayılmasına gətirib çıxara bilər. Biz bu istiqamətdə mətn təhlilini bu baxımdan elmi-kütləvi auditoriyaya təqdim etmək üçün geniş səviyyədə aparmaq gərəyi hiss etdik. Onu da qeyd edək ki, mətn heç bir zaman bizim üçün bütünlüklə açılmır. Buna görə də hər tədqiqatçı öz bilgisi daxilində mətnin bir tərəfini açmaq imkanı əldə edir. Gələcəkdə də qeyd etdiyimiz kimi mətnləri konkret olaraq tədqiqata cəlb etmək yalnız bu mətnin dəyərini daha çox müəyyən edə bilər. Ümumi şəkildə dəyərləndirmə hər hansı mətnlərin müxtəlif səviyyələrini meydana qoymaq üçün yetərli deyil. Biz də bu istiqamətdə analitik metodun daha çox yayılmasına və meydana çıxan keyfiyyətli elmi-bədii-tarixi-mənqəbəvi əsərlərin bu istiqamətdə araşdırma süzgəcindən keçiriləcəyinə ümid edirik.

# QAYNAQLAR


1. İmranoğlu (Əliyev) K. Dağlı məhəlləsi (Hekayələr). Bakı: Elm və Təhsil, 2017
2. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni Ə.Mirəhmədov. Bakı: Azərnəşr, 1965
3. Öztürk N. Antropolojik ve sosyolojik açıdan saçlar ve inançlar. Necmettin Erbakan Üniversitesi, İlahiyat Fakültesi dergisi 25 / 25 (Şubat 2008): 7-28
4. Şahbaz M. İslamiyet öncesi türklerde saç kültürü / Tarih Okulu dergisi, (Tod), haziran, 2020 yıl, 13 sayı, XLVI, s. 1490-1507
5. Karagöz İ.Keskin M.Altuntaş H. Hac İlmihali. Türkiye, Ankara, Diyanet Vakfı yayın matbaası, XIII baskı, 2018
6. Kurani-Kerim mealı. Hazırlayanlar: Halil Altuntaş, Muzaffer Şahin. Diyanet İşleri Başkanlığı, Ankara, Yengigün Matbaaçılık, XII baskı, 2011
7. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989
8. Bayat F. Oğuz epik ənənəsi və “Oğuz kağan” dastanı. Bakı: Sabah, 1993
9. Xəlil A. Türk xalqlarının yaz bayramları və Novruz. Bakı: Elm və Təhsil, 2012
10. Freud S. Totem ve tabu / türk dilinə çeviren Niyazi Berkes / Cümhuriyet, 1998
11. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988
12. Axundov M.F. Əsərləri. III cilddə, I cild. Bakı: Elm, 1987
13. Şaiq A. Seçilmiş əsərləri. III cilddə, II cild. Bakı: Avrasiya Press, 2005
14. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı: Şərq-Qərb, 2007
15. Rəşidəddin F. Oğuznamə / Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R.M.Şükürova. Bakı: Azərbaycan Dövlət NPB, 1992
16. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2002
17. Koroğlu. Çapa hazırlayan M.H.Təhmasib. Bakı, Gənclik, 1982
18. Firdovsi Ə. Şahnamə. Bakı: Öndərnəşr, 2004
19. Gəncəvi N. Yeddi gözəl. Filoloji tərcümə edən R.Əliyev. Bakı: Elm, 1983

20. Ateş F. Mitolojiden günümüze yumurta ve "kırk uçurma" geleneği / Avrasiya Uluslararası araştırmalar dergisi, cilt: 7 sayı: 19 sayfa: 14-27 eylül. Yayın tarihi 11.07.2019, Türkiye
21. Qarayev S. Mifin tarixə müdaxiləsi: 21 dekabr 2012-ci il. Bakı: Sabah, 2018
22. Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika, Bakı, Elm və Təhsil, 2015
23. Qasımova S. Azərbaycanda Novruz ənənə və inancları. Bakı: Elm və təhsil, 2018
24. Ağasıoğlu F. İslam öncəsi Türk tarixi. IX Bitik (V Bitik): Mifologiyada tarix. İstanbul, 2019
25. Novruz Bayramı Ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008
26. İmamverdiyev İ. Azərbaycan musiqisində bahar mövzusu və Novruz motivlərinin izləri. Türkiye, İksad yayınevi, 2018
27. Xəlil A. Novruz bayramının arxaik ritual əsasları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 43-87
28. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər). Bakı: Elm, 1991

# ZİYALI DÜNYANIN BƏZƏYİDİR

# INTELLECTUAL IS THE DECORATION OF THE WORLD

# ИНТЕЛЛИГЕНТ УКРАШЕНИЕ МИРА

**Aynur SƏFƏRLİ**
*DİN-in Polis Akademiyası, polis leytenantı*
*seferli_1988@bk.ru*

**Özət**

Azərbaycan ədəbiyyatşünaslığında bir neçə istiqamətdə mühüm elmi problemlərin işlənib hazırlanması və həllində Kamran Əliyevin özünəməxsus böyük xidmətləri vardır. Hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas tədqiqatçılarından biridir. Azərbaycan ədəbiyyatşünaslıq elmində romantizm nəzəriyyəsinin banisi və görkəmli yaradıcısı akademik Məmməd Cəfər Cəfərovdan sonra Kamran Əliyev bu nəzəriyyəni ayrı-ayrı istiqamətlərdə inkişaf etdirmişdir. O, akademik Məmməd Cəfərovun meydana qoyduğu konsepsiyanı yeni elmi-nəzəri müddəalarla zənginləşdirmişdir. “Azərbaycan romantizminin obrazlar sistemi” adlı doktorluq dissertasiyası romantizmin nəzəriyyəsinə həsr edilmiş mühüm elmi addımdır. Azərbaycan ədəbiyyatının XIX-XX əsr mərhələlərinin görkəmli yaradıcılarının həyatı və yaradıcılığının tədqiqində Kamran Əliyevin adı ilə bağlı səhifələr kifayət qədərdir. Kitablarından birinin adında ifadə olunduğu kimi “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər”ki tarixi mərhələnin əsas yaradıcı simaları və ciddi problemlərinin öyrənilməsində Kamran Əliyevin rolu xüsusi olaraq qeyd edilməlidir. Folklor və yazılı ədəbiyyat məhz K.Əliyevin ardıcıl tədqiqatları sayəsində müstəqil elmi istiqamətə çevrilmişdir. “Yazıçı və folklor” müstəvisində öyrənilən ədəbiyyat münasibətlərini K.Əliyev romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başlamışdır.

**Açar sözlər:** ziyalı, tədqiqatçı alim, folklorşünas, romantizm, Dədə Qorqud qəhrəmanları-

**Summary**

Kamran Aliyev has a great contribution to the development and solution of important scientific problems in several areas of Azerbaijani literary criticism. First of all, romanticism is one of the main researchers of the literary trend in Azerbaijani literature. After academician Mam-

madjafar Jafarov, the founder and prominent creator of the theory of romanticism in Azerbaijani literary criticism, Kamran Aliyev developed this theory in different directions. He enriched the concept created by academician Mammadjafar Jafarov with new scientific-theoretical provisions. The doctoral dissertation “Image system of Azerbaijani romanticism” is an important scientific step dedicated to the theory of romanticism. The role of Kamran Aliyev in the study of the main creative figures and serious problems of the historical period should be especially noted. Folklore and written literature became an independent scientific direction thanks to the consistent research of K.Aliyev. On the basis of his researches on romanticism, K.Aliyev began to study many theoretical issues of written literature in parallel with folklore, studying the literary relations studied at the level of “writer and folklore”.

**Keywords:** intellectual, research scientist, folklorist, romanticism, heroes of Dada Gorgud

**Резюме**

Кямран Алиев внес большой вклад в разработку и решение важных научных проблем в нескольких областях азербайджанской литературной критики. Прежде всего, романтизм - один из главных исследователей литературного направления азербайджанской литературы. Вслед за академиком Мамеджафаром Джафаровым, основателем и выдающимся создателем теории романтизма в азербайджанской литературоведении, Кямран Алиев развил эту теорию в разных направлениях. Он обогатил концепцию, созданную академиком Мамеджафар Джафаровым, новыми научно-теоретическими положениями. Докторская диссертация «Имидж-система азербайджанского романтизма» является важным научным этапом, посвященным теории романтизма. Особо следует отметить роль Кямрана Алиева в изучении основных творческих фигур и серьезных проблем исторического периода. Фольклор и письменная литература стали самостоятельным научным направлением благодаря последовательным исследованиям К.Алиева. На основе своих исследований романтизма К.Алиев параллельно с фольклором начал изучать многие теоретические вопросы письменной литературы.

**Ключевые слова:** интеллектуал, ученый-исследователь, фольклорист, романтизм, герои Дада Горгуда.

O xalq, o millət xoşbəxtdir ki, onun həqiqi ziyalıları var, onun taleyi ilə maraqlanan, gələcəyini düşünən, tərəqqisi, inkişafı, yüksəlişi yolunda canını fəda etməyə hazır olan yetirmələri vardır. Xalqına, onun qüdrətinə, vətənpərvərliyinə, humanizminə, ədalətsizliyə, haqsızlığa qarşı amansız olmasına, dar gündə öz övladına göstərdiyi qayğıya inanan hər bir adam bu inamı başqalarına da təlqin edirsə, genişləndirirsə, deməli, ziyalıdır. Özünün elm, bilik, mərifət nurundan cəmiyyət üçün qaranlıq olan nöqtələri işıqlandırmağa sərf edirsə, ziyalıdır. Sözün həqiqi mənasında, ziyalı xalqa, vətənə, millətə aid hər bir işdə öndə getməli, kütləni ardınca aparmağı bacarmalıdır. Qanında, canında vətən eşqi, xalq, millət məhəbbəti olan, bu eşqi, sevgini hamıya paylamağa, hamının qəlbini bu məhəbbət nuru ilə işıqlandırmağa, bu sevginin hərarəti ilə isitməyə çalışan hər bir adam ziyalı sayıla bilər.

Məlumdur ki, cəmiyyətin, millətin, hər hansı bir xalqın mədəniyyəti onun mənəviyyatı ilə sıx bağlıdır. Mədəniyyət mənəviyyatı özündə parlaq və təhrifsiz əks etdirən aynadır. Mənəviyyatın paklığı, parlaqlığı, zənginliyi, dolğunluğu isə mövcud tərbiyə sisteminin xarakter və mahiyyətindən çox asılıdır. Ziyalılığı da müəyyən mənəvi zənginlik, saflıq, yüksək ideyalılıq və əqidəlilikdir. Bu da tərbiyə işinin ideya istiqamətindən, tərbiyəçinin ümumi inkişaf səviyyəsindən, dünyagörüşündən, baxış dairəsinin həcmindən, genişliyindən, istedad və qabiliyyətindən, bilik və təcrübəsindən asılıdır.

Müdrikcəsinə deyilmiş bir ifadə var: "Ömrünü xalqının mənəvi inkişafına və maariflənməsinə, fundamental elmi axtarışlara həsr etmiş vətənpərvər ziyalılar dünyanın bəzəyidir" (3, s. 38-39). Belə ziyalılarımızdan biri də 1953-cü ilin 5 martında Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Diyadin kəndində dünyaya gələn Kamran Əliyevdir. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor K.Əliyev 1969-cu ildə Şərur rayonunun Tumaslı kənd orta məktəbində təhsilini başa vuraraq, həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirərək, 1974-1976-cı illərdə

Şərur rayonunun Xanlıqlar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir.

O, 1976-1979-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmiş, 1979-1992-ci illərdə həmin institutda kiçik elmi işçi, baş elmi işçi və aparıcı elmi işçi 1993-cü ildən Naxçıvan Universitetində müəllim, 1994-2001-ci illərdə həmin universitetdə Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, eləcə də tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. Alim 2002-ci ildən AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, 2012-ci ildən ömrünün sonuna qədər isə Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır.1980-ci ildə filologiya elmləri namizədi, 1990-cı ildə isə filologiya elmləri doktoru alimlik dərəcəsi almış alim, 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 20 kitab, 10 monoqrafiya, 250-yə yaxın məqalənin müəllifi olan K.Əliyevin rəhbərliyi ilə 12 namizədlik, 1 doktorluq dissertasiyası müdafiə edilmişdir. K.Əliyev, həmçinin 16 doktorluq və 49 namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur. O, 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (6).

Azərbaycan ədəbiyyatşünaslığında bir neçə istiqamətdə mühüm elmi problemlərin işlənib hazırlanması və həllində Kamran Əliyevin özünəməxsus böyük xidmətləri vardır. Hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas tədqiqatçılarından biridir. Azərbaycan ədəbiyyatşünaslıq elmində romantizm nəzəriyyəsinin banisi və görkəmli yaradıcısı akademik Məmmədcəfər Cəfərovdan sonra Kamran Əliyev bu nəzəriyyəni ayrı-ayrı istiqamətlərdə inkişaf etdirmişdir. Belə demək olar ki, AMEA-nın müxbir üzvü Kamran Əliyev akademik Məmməd Cəfərovun meydana qoyduğu konsepsiyanı yeni elmi-nəzəri müddəalarla zənginləşdirmişdir. "Azərbaycan romantizminin obrazlar sistemi" adlı doktorluq dissertasiyası romantizmin nəzəriyyəsinə həsr edilmiş mühüm elmi addımdır. Azərbaycan ədəbiyyatının XIX-XX əsr mərhələlərinin görkəmli yaradıcılarının həyatı və yaradıcılığının tədqiqində Kamran Əliyevin adı ilə bağlı səhifələr ki-

fayət qədərdir. Kitablarından birinin adında ifadə olunduğu kimi "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər"ki tarixi mərhələnin əsas yaradıcı simaları və ciddi problemlərinin öyrənilməsində Kamran Əliyevin rolu xüsusi olaraq qeyd edilməlidir. Mirzə Fətəli Axundovu maarifçi realizmlə, Hüseyn Cavidi romantizm cərəyanı ilə, Cəlil Məmmədquluzadəni "Molla Nəsrəddin" ədəbi məktəbi ilə üzvü əlaqədə və vəhdətdə tədqiq etməklə, o, bu qüdrətli sənətkarların formalaşdırdıqları ədəbi epoxa haqqında bütöv bir sistemi meydana qoyur. Folklor və yazılı ədəbiyyat məhz Kamran Əliyevin ardıcıl tədqiqatları sayəsində müstəqil elmi istiqamətə çevrilmişdir. Uzun illər ərzində ümumi şəkildə yazılı ədəbiyyatın əsas qaynaqlarından biri kimi araşdırılan bu problem Kamran Əliyevin özünəməxsus elmi yanaşmaları ilə ədəbiyyatın hər iki qolu arasında qarşılıqlı zənginləşmə mənbəyi miqyasına çatdırılmışdır. "Yazıçı və folklor" müstəvisində öyrənilən ədəbiyyat münasibətlərini Kamran Əliyev romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başlamışdır. Məsələn, "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. kimi paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoymuşdu (2, s.15; 5).

Akademik İsa Həbibbəyli hesab edir ki, Kamran Əliyev Azərbaycan romantizmi və folklor probleminin elmi həllinin yaradıcısı və sahibidir. Bu, Azərbaycan romantizminin milli əsaslarının işlənib hazırlanması və sübut olunması üçün Kamran Əliyev tərəfindən müəyyən edilmiş yeni elmi istiqamətdir. Kamran Əliyev son onillikdə daha çox folklorşünas kimi ardıcıl olaraq fəaliyyət göstərir. Folklor və yazılı ədəbiyyat sahəsindəki tədqiqatlarla yanaşı, "Kitabi-Dədə Qorqud" dastanlarına həsr olunmuş araşdırmaları Qorqudşünaslıq elmində yeni səhifələr, qiymətli əlavələr kimi dəyərləndirilməyə layiqdir (2, s.15; 5).

Azərbaycan ədəbiyyatşünaslığında öz sözünü demiş, humanitar fikir məkanında dəyərli imzalardan olan alimin, tələbə həyatı ilə bağlı yazdıqları sənədli nəsr nümunələri də hesab oluna bilər.

Professor Rüstəm Kamal, alimin Azərbaycanın milli romantizmi, Azərbaycan dastanlarının poetikası ilə bağlı tədqiqatlarını xüsusi olaraq qeyd edir və Kamran Əliyevi klassik Azərbaycan alimi hesab edir. Yəni klassik filoloji ənənəni ləyaqətlə və uğurla davam etdirən alim, ədəbi qəhrəmanları da şəxsiyyət kimi görür, bütün qəhrəmanlarımızı ədəbiyyatşünaslıq kateqoriyasından yox, şəxsiyyət kateqoriyasından təhlil edir. Bu mənada "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarının qəhrəmanlarının təhlili qiymətlidir. Aydın müşahidə olunur ki, alim ədəbi qəhrəmanlara şəxsiyyət kimi yanaşır. Qeyd olunan dastanların poetikası ilə bağlı araşdırmaya diqqət etsək görərik ki, sanki onlar epos qəhrəmanları deyil, bizim həyatda gördüyümüz, canlı Azərbaycan kişiləridir.

Kamran Əliyev elmi axtarışlarını, kəşflərini yaşayan bir alim olduğundan onun şəxsiyyətini də bu amal müəyyənləşdirib. Hələ tələbəlik illərindən elmi axtarış səriştəsinə malik olan Kamran Əliyev, Abbas Zamanovun da diqqətindən yayınmamışdı. Görkəmli alimin 1974-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində yazdığı "Uğurlu yol" başlıqlı məqalə K.Əliyevə böyük mənəvi məsuliyyət gətirmişdir (4). Bu mənada onun Azərbaycan romantizmini tədqiqat obyektinə çevirməsi də təsadüfi deyildir. Professor Yaşar Qarayev alimin romantizm problemlərinə olan marağını belə qiymətləndirirdi: "K.Əliyevin romantizm problemlərinə marağı davamlıdır. O ədəbiyyatşünaslığımızda yeganə mütəxəssisdir ki, həm namizədlik, həm də doktorluq dissertasiyasını Azərbaycan romantizminin aktual problemlərinə həsr edib" (1, s. 4).

Professor X.Məmmədov K.Əliyev tədqiqatının elmi dəyəri barədə yazır: "XX əsr Azərbaycan romantiklərinin obrazlar sistemi, ümumiyyətlə poetikası ilk dəfə bütöv halda, geniş miqyasda müstəqil tədqiqat obyektinə çevrilir. Mövzunun və problemin qoyuluşunun ədəbiyyatşünaslıqda yeniliyi, problemin həllini çətinləşdirir, tədqiqatçı alimdən xüsusi səriştə, geniş erudisiyalı yaradıcılıq vərdişi tələb edir" (1, s. 6).

K.Əliyev araşdırdığı problemlərə həmişə ciddi yanaşmışdır. Bu ciddilik və prinsipiallıq XX əsr Azərbaycan romantizminin obrazlar sisteminin tədqiqində də mühüm bir cəhət olmuşdur.

AMEA-nın müxbir üzvü Kamran Əliyevin "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (1985), "Hüseyn Cavid şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Azərbaycan romantizminin poetikası" (2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (2006), "Romantizm və folklor" (2006), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008), "Abbas Zamanov olmasaydı" (2011), "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" (2011), "Tənqidin poetikası" (2012) kitabları çağdaş ədəbiyyatşünaslığımızın yeni elmi nailiyyətlərindəndir. Alimin müraciət etdiyi hər mövzu məzmun və forma strukturu, ideya-estetik məzmunu, bədii ifadə tərzi ilə diqqəti cəlb edir. Diqqət çəkən məqamlardandır ki, alim ənənəvi mövzulara müraciət etsə də, indiyədək söylənmiş fikirləri təkrar etməmiş, özünəməxsus yanaşma tərzilə seçilmişdir. Tədqiqatının əsas sahələrindən olan romantizm estetikası üzrə təhlil və təsnifləri ötən əsrin səksəninci illərindən indiyədək romantizmə münasibətdə fərqli cəhətlərilə diqqəti cəlb etdi: romantik sənətkarların estetik baxışlarını onların elmi-nəzəri fikirləri və bədii nümunələri əsasında şərh etdi. Digər bir elmi yenilik isə onun ədəbiyyatşünaslıq tarixində ilk dəfə olaraq romantizmin poetika özəlliklərini təhlil etməsi, romantizmin bədii-poetik ifadə rəngləri əsasında gerçək elmi səciyyələr verməsi, romantizmdə bədii-poetik əlamətləri müxtəlif obrazlar, təsvir və tərənnüm fiqurları əsasında incələməsi, romantizmdə qəhrəmanın və ədəbi şəxsiyyətin mövqeyi məsələlərini açıqladı; Bir çox tədqiqatçıdan fərqli olaraq, Kamran Əliyev saxta və yalançı canıyananlıqla eyiblər irəli sürmədi, romantiklərin yaradıcılıqlarını onların sənətkarlıq keyfiyyətləri kontekstindən təhlil edərək, romantizm poetikalarına məxsus incəlikləri nizamlı şəkildə təqdim etdi. Kamran Əliyevin elmi tədqiq və axtarışlarının əsas sahələrindən biri də folklor poetikasıdır. "Kitabi-Dədə Qorqud" eposunda oğuzların həyatına və adət-ənənələrinə, dünyagörüşünə, xalq yaradıcılığına məxsus

milli və bəşəri keyfiyyətləri açıqlamaq və onların söz söyləmək mədəniyyətinə dair bacarıqlarını əks etdirən təhlillər apardı. Bu təhlilləri Əbülfəz Əzimli "Romantizmdən epos: tədqiqin Kamran Əliyev aydınlığı" adlı monoqrafiyasında belə təsnif etmişdir:

1) tədqiqatçı Türk etnosuna məxsus etnopoetik sistemdə önəmli yer tutan əlamətləri açıqlamağa çalışdı: məsələn, ilkin olaraq o, Türkün həyat və yaşayışında xüsusi rol oynayan duyum və düşüncələrin isnad formalarını açıqladı: xüsusilə Türk poetik formalarının Atın hərəkət və yeriş taktları ilə nizam tapdığını göstərdi;

2) "Dədə Qorqud"un dilindəki poetik nizama dair təsniflər verdi;

3) eyni müqayisə və tutuşdurmalarla alim "Kitabi-Dədə Qorqud" eposundakı qəhrəmanların Oğuz düşüncəsindəki məzmun strukturlarını açıqladı;

4) bu təhlil simptomları içərisində hər bir qəhrəmana iki müstəvi üzərindən təsnif verdi:

– birincisi, qəhrəmanın şəxsiyyəti, xüsusilə Oğuz şəxsiyyəti kontekstində, bir də dastan poetikası üzrə ənənəvi və yeni, orijinal keyfiyyətlər kontekstində.

5) Bütün hallarda alim "Dədə Qorqud"qəhrəmanlarının bir-birindən fərqli və bir-birindən canlı xarakterlərini səciyyələndirdi: bu səciyyələrdə əsas ideoloji konsepsiya belə oldu ki Oğuz elinin qəhrəmanları ən tipik və mükəmməl özəlliklərə malikdir və ümumdünya dastan poetikası sistemində xüsusi yer tutur. Dədə Qorqud dastanları bir-birinə bağlı və bir-birindən fərqli məzmun və formalardan ibarətdir və hər bir qəhrəmanda Oğuz mükəmməlliyi vardır. Başqa hər bir qəhrəman özünün xarakterik keyfiyyətlərilə dastan poetikasında yenidir. Kamran Əliyev dastan poetikasında məzmun və forma strukturlarını bir-birilə bağlı konseptuallıqdan təhlil etmiş, dastanlardakı şeir şəkillərini təsbit edən məzmun və forma rənglərinə dair bəzi tipik əlamətləri xarakterizə etmişdir. Ədəbi tənqidə dair araşdırmalarında da Kamran Əliyev təhlil semantikasına xüsusi diqqət yetirmişdir. Onun romantizm estetikasında xüsusi yer tutan romantik tənqid və ədəbi proseslə

bağlı məsələləri təhlilə cəlb etməsi bilavasitə romantizm sisteminə məxsus olan qanun-qaydaları açıqlamaq meylindən irəli gəlmişdir. Sovet dövrü tənqidində romantizmə və romantik sənətkarlara münasibətin bəzi vulqar və sinfi yanaşma taktlarını da açıqlamağa çalışan Kamran Əliyev bütün təhlil və təsniflərini konkret mətnlər və nəzəri-konseptual qaydalar kontekstində təhlil etmişdir. Kamran Əliyev tənqidlə ədəbi proses arasındakı münasibətlərdə həmişə ən bitkin və nizamlı kriteriyaları əsas meyar kimi götürmüş və ayrı-ayrı baxışlardakı məzmun və forma rənglərini də bu meyarlardan təqdim etməyə üstünlük vermişdir. Əlbəttə, kiçik bir kitabda Kamran Əliyevin elmi fəaliyyətini genişliyi ilə təhlil etmək mümkün deyildir (1, s.131-134).

Ümidvarıq ki, təqdim etdiyimiz bu yazıda ədəbiyyatşünas alim Kamran Əliyevin təhlil və təsnif poetikası haqqında müəyyən açıqlamalar verə bildik. Kamran Əliyev ədəbiyyat tarixçiliyinin əsl mahiyyətinin açılması üçün professional folklorşünas qismində çıxış edən fərqli bir ədəbiyyatşünasdır. Azərbaycan ədəbiyyatşünaslıq elmində fərdi siması olan görkəmli ədəbiyyatşünas alimin Azərbaycan ədəbiyyatşünaslıq elminin mənalı səhifələrinə çevrilmiş elmi əsərləri böyük ömrün sanballı yekunudur. Qarşıdakı illərdə həllini tapacaq problemlərin möhkəm bünövrəsi olmaq mənasında isə mükəmməl başlanğıcıdır.

## QAYNAQLAR


1. Əzimli Ə. Romantizmdən eposa: tədqiqin Kamran Əliyev aydınlığı. Bakı, Elm və təhsil, 2013, 172 səh.
2. Görkəmli alim, dəyərli ziyalı. Hazırladı: Günel Şamilqızı. Kaspi, 2018, 6 mart, s.15
3. Səfərli A. Xatirə keçmişin həqiqətidir. Desk çap evi, Bakı, 2020, 371 səh.
4. Zamanov Abbas. Uğurlu yol. "Ədəbiyyat və incəsənət" qəzeti, 1974-cü il
5. http://www.anl.az/down/meqale/kaspi_az/2018/mart/580572.htm.
6. http://www.science.az/news/open/7515.

# ROMANTİKLƏRİN HƏYATINA ELMİ YANAŞMA

# A SCIENTIFIC APPROACH TO THE LIFE OF ROMANTICS

# НАУЧНЫЙ ПОДХОД К ЖИЗНИ РОМАНТИКОВ

**Aysel QURBANOVA**

**Özət**

Kamran Əliyev Azərbaycan elmində öz dəst-xətti ilə seçilən, yazılarını rəvan, axıcı bir dillə, oxucunu yormadan təqdim edən ədəbiyyatşünas alimdir. Tədqiqata cəlb etdiyi sənətkarlara onların yaşayıb-yaratdığı sovet cəmiyyəti tərəfindən düzgün qiymət verilməməsi alimin araşdırmalarının bir istiqamətini təşkil edir. Ədəbiyyatşünas alimi daxilən sarsıdan bu münasibətlər Kamran Əliyevi bizə yüksək insani keyfiyyətlərə məxsus bir ziyalı kimi tanıdır. Kamran Əliyev tədqiq etdiyi şair, yazıçı və dramaturqlara, onların həyatda üzləşdiyi çətinliklərə həssaslıqla yanaşmış, narahat ziyalı mövqeyini ortaya qoymuşdur. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiqin azadlıqla bağlı fikirlərini nümunələr əsasında tədqiqata cəlb etməklə onların "faciəli həyat"larına diqqət çəkmişdir. "Sənətkar və şəxsiyyət", "Sənətkar və istedad", "Sənətkar şəxsiyyəti", "Romantiklərin vətəndaşlıq mövqeyi" və s. bu kimi mövzulara toxunaraq K.Əliyev araşdırmaçısı olduğu Azərbaycan romantizminin nümayəndələrinin şəxsiyyətinə, mənəvi aləminə əsl ziyalı kimi diqqət yönəltmişdir.

**Açar sözlər:** Kamran Əliyev, ziyalı mövqeyi, romantizm, azadlıq

**Summary**

Kamran Aliyev is a literary scholar distinguished by his style of writing in Azerbaijani science, who presents his writings in a smooth, fluent language without tiring the reader. One of the scholar's research directions is the incorrect evaluation of the literary artists by the Soviet society in which they once lived and worked. Internally shaken by these attitudes, the literary scholar Kamran Aliyev is introduced to us as an intellectual with high human qualities. Kamran Aliyev was sensitive to the poets, writers, playwrights he studied, and the difficulties they faced in life, and expressed his concerned intellectual position. He has drawn attention to Hussein Javid's, Mohammad Hadi's, Abbas Sahhat's, and Abdullah Shaik's "tragic lives" by studying their views

of freedom based on the examples. Touching upon topics, such as "Artist and personality", "Artist andtalent", "Artist's personality", "Citizenship stance of romantics", K. Aliyev, as a real intellectual, drew attention to the personality and spiritual world of the representatives of Azerbaijani romanticism.

**Key words:** Kamran Aliyev, an enlightened view, romanticism, freedom

**Резюме**

Камран Алиев – литературовед, известный своим почерком в азербайджанской науке, который излагает свои сочинения плавным, свободным языком и не утомляет читателя. Одно из направлений исследований ученого – неверная оценка мастеров, вовлеченных в исследования, советским обществом, в котором они живут и работают. Эти отношения, потрясшие внутренне литературоведа, знакомят нас с Камраном Алиевым как интеллигентом высоких человеческих качеств. Камран Алиев чутко относился к поэтам, писателям и драматургам, которых он изучал, к трудностям, с которыми они сталкиваются в жизни, и выражал свою тревожную позицию интеллигента. Он сосредоточил внимание на «трагическую жизнь» Гусейна Джавида, Магомеда Хади, Аббаса Саххата, Абдуллы Шаига, путем вовлечения их взгляды на свободу в исследования на примерах.Затрагивая такие темы как «Мастер и личность», «Мастер и талант», «Личность мастера», «Гражданство романтиков» и другие, К.Алиев обратил внимание на личность и духовный мир представителей азербайджанского романтизма, исследователем которых он является, как настоящий интеллектуал.

**Ключевые слова:**Камран Алиев, позиция интеллигента, романтизм, свобода

Kamran Əliyev Azərbaycan elmində öz dəst-xətti ilə seçilən, yazılarını rəvan, axıcı bir dillə, oxucunu yormadan təqdim edən ədəbiyyatşünas alimdir. Kamran Əliyevin elmi əsərləri bir çox istiqamətdən diqqəti çəkir. Bunlardan biri də tədqiqata cəlb etdiyi sənətkarlara onların yaşayıb-yaratdığı sovet cəmiyyəti tərəfindən düzgün qiymət verilməməsi idi. Ədəbiyyatşünas alimi daxilən sarsıdan bu münasibətlər Kamran Əliyevi bizə yüksək insani keyfiy-

yətlərə məxsus bir ziyalı kimi tanıdır. Kamran Əliyev tədqiq etdiyi şair, yazıçı və dramaturqlara, onların həyatda üzləşdiyi çətinliklərə həssaslıqla yanaşmış, narahat ziyalı mövqeyini ortaya qoymuşdur. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiqin azadlıqla bağlı fikirlərini nümunələr əsasında tədqiqata cəlb etməklə onların "faciəli həyat"larına diqqət çəkmişdir. "Sənətkar və şəxsiyyət", "Sənətkar və istedad", "Sənətkar şəxsiyyəti", "Romantiklərin vətəndaşlıq mövqeyi", "Hüseyn Cavidə böyük məhəbbətlə" və s. bu kimi mövzulara toxunaraq K.Əliyev araşdırmaçısı olduğu Azərbaycan romantizminin nümayəndələrinin, eyni zamanda realist ədəbiyyatın nümayəndələrinin şəxsiyyətinə, mənəvi aləminə əsl ziyalı kimi diqqət yönəltmişdir.

"Azad cəmiyyət və azad insan uğrunda çarpışmaq!" (2, s. 100), "Azərbaycan romantizminin azadlıq uğrunda narahatlığı" (2, s. 101) ifadələri Kamran Əliyevin romantiklərin yaradıcılığını tədqiqata cəlb edərkən istifadə etdiyi kəlmədir. Bu ifadələrin işlədilməsi Hüseyn Cavidin Şeyx Şamil, Şeyda, Maral, Cəfər Cabbarlının Elxan, Ənvər Paşa, Oqtay, Firəngiz və s. bu kimi obrazlarının mövqeyi ilə üst-üstə düşür. Həmin romantiklər də adları çəkilən obrazların timsalında azadlıq, azad insan uğrunda narahatlıqlarını dilə gətirirdilər. Kamran Əliyevin mövqeyi Azərbaycan romantiklərinə, romantiklərin isə mövqeyi yaratdıqları obrazlara münasibətdə ortaya çıxır. "Romantiklər də məhz bu məsələni irəli çəkir, yazıçıların həyat şəraitindən doğan acı talelərini ürək yanğısı ilə xatırlayırdılar" (2, s. 102). Kamran müəllim romantik sənətkarların həmkarlarına, yazıçı dostlarına qarşı münasibətini qiymətləndirərkən, digər tərəfdən də özünün romantiklərə qarşı mövqeyini sərgiləyir.

Fikrimizi nümunələr əsasında təsdiq edək: "H.Cavid A.Surun ölümü münasibətilə yazdığı bir məqalədə açıqca deyirdi ki, A.Sur "üç sənədən ziyadə fəqir və fəlakət içində orada (İstanbulda – K.Ə.) fəna və ucuz lokanta – (restoran)larda yemək yeyərək, gecə-gündüz uğraşıb durmuş. Mərhumun böylə üful etməsinə əsl səbəb də İstanbulda keçirdiyi günlər olsun gərək" (2, s. 103) Bu nümunədə görkəmli romantik sənətkar H.Cavidin Abdulla Sur haq-

qında ürəkağrısı ilə qələmə aldığı sözlər verilib. Hüseyn Cavid və digər Azərbaycan romantik ədəbiyyatının görkəmli nümayəndələrinin də acınacaqlı həyatlarına Kamran Əliyevin baxışı və mövqeyi vardır. Ədəbiyyatşünas alim romantiklərin həyatında onların məişət çətinliklərindən daha çox mənəvi çətinliklərindən narahatlığını bildirmişdir. Bu sənətkarların yaşamaq, yazıb-yaratmaq kimi azadlıqlarının əllərindən alınması xüsusilə müəllifin sətirlərindən aydın hiss olunur. Vaxtilə, sovet dövründə bədii ədəbiyyat nümayəndələri azadlığı əlindən alınan millətin haqq səsini öz əsərlərində duyururdu, onlardan sonra da bədii əsərlərin alt qatında yer alan milləti oyanmağa səsləyən çağırışları da ədəbiyyatşünas alimlərimiz dilə gətirmişlər. Əhməd Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərinin "Ziyalılar zümrəsinin mövqeyi" (1, s. 223) hissəsində ziyalının rolu və düşüncələrinin nə qədər vacib olduğu vurğulanır. "Millət deyildiyi zaman bir kütlənin içində olan bütün fərdlər deyil, öz mənəvi xüsusiyyətləri ilə o kütləni təmsil edən şüurlu, ziyalı zümrə nəzərdə tutulur. Zira millətə rəhbərlik edən, onun əməl və arzularına tərcüman olan bu zümrədir" (1, s. 222). Kamran Əliyev bir ziyalı kimi tədqiqat əsərlərində milli dəyərlər çərçivəsindən kənara çıxmamışdır. Bir ziyalı kimi milləti üçün dayanmadan çalışanlardan olmuşdur.

"XX əsr Azərbaycan romantikləri sənətkarların vətəndaşlıq borcunun mühüm tərəfini millətə xidmətdə görürdülər" (2, s. 116) ifadəsi ilə Kamran müəllim həmin insanların xalqın azadlıq qazanmaları, müstəmləkə zülmündən qurtulmaları yolunda çəkdikləri əziyyəti əsas xidmət kimi qiymətləndirir. Bununla yanaşı müəllif eyni zamanda onların yaradıcılıqlarını düzgün və obyektiv şəkildə tədqiq edərkən o insanların rolunu dəyərləndirib ortaya çıxardaraq özünün millətə olan xidmətlərini də əsirgəmir. Azərbaycan xalqı Kamran Əliyev kimi ziyalıların sayəsində vaxtilə qadağan olunmuş, xalq düşməni kimi qələmə verilən şəxsiyyətlərini əsl vətəndaş kimi tanıdı. Ziyalılarımız Sovet dövründə yaşayıb-yaradan sənətkarlara düzgün qiymət verib onların millətin həyatında nə qədər vacib rol oynadığını oxucuya çatdıranda biz də həqiqəti onların tədqiqat əsərlərindən öyrənmiş oluruq. Ona görə

də Ə.Ağaoğlunun yuxarıda adı çəkilən əsərindən nümunə gətirərək ziyalı mövqeyini belə dəyərləndirə bilərik: "...ziyalı zümrəsi milləti təmsil etdiyi kimi onun yüksəlməsini və alçalmasını da hazırlayır. Belə ki, ziyalı zümrəsi yüksəldikcə mühit də yüksəlir, alçaldıqca mühit də alçalır"(1, s. 223). Kamran Əliyev millətin yüksəlməsində iştirak edən nümayəndələrdəndir.

Kamran Əliyevin tədqiqat əsərlərində onun Azərbaycan romantiklərinin həyatına, acı talelərinə bir ziyalı kimi narahatlığını, ürəkyanğısını hiss edirik. Maraqlıdır ki, ədəbiyyatşünas alim "Romantizmin əsasları" əsərində "Sənətkar və istedad" adlı yarımbaşlıqda öz fikrinə kənar şəxs kimi izah edərək onu oxucuya necə çatdırmaq istədiyini bildirib. Həmin hissəni nəzərdən keçirək: "A.Şaiqin həmin ildə Sabir haqqında dediyi bir fikrə yenə diqqət verək: "Sabir hissiyyati-qəlbiyyəsini arabir nizama çəkərkən mərhum atası bu işdən onu mən edərmiş. Lakin heyhat, daşqın bir selin (Kursiv bizimdir – K.Ə.) önünü almaq, təbiət ilə çarpışmaq qəbilmi?" "Daşqın bir sel" ifadəsini təsadüfən nəzərə çarpdırmadıq. Heç şübhəsiz, müəllif bu ifadənin arxasında istedadı nəzərdə tutmuş və onu təbii qüvvə kimi təqdim edərək, azad olmasını istəmişdir (2, 128). *Müəllif bu ifadənin arxasında istedadı nəzərdə tutmuş və onu təbii qüvvə kimi təqdim edərək, azad olmasını istəmişdir* – deməklə Kamran Əliyev tədqiqat əsərinin müəllifinin – özünün fikrinə münasibət bildirmişdir. Buradan Kamran müəllimin öz dili ilə sənətkarların azad olmasını istəməsi kimi bir arzusunun əsər boyu tez-tez təkrarlandığının da şahidi oluruq. Onun mövqeyini bir daha müəyyənləşdirmiş oluruq.

Kamran Əliyevin diqqət çəkən digər bir xarakterik xüsusiyyəti də vardır. "Ölüm var ki, həyat qədər dəyərli" başlığı ilə verilən hissədə repressiya qurbanlarının haqsız yerə, ədalətsiz qərarla həbslərinə diqqət çəkmişdir. Arxiv sənədlərilə tanış olan ədəbiyyatşünas alim Hüseyn Cavid və digər repressiya olunan sənətkarlara qarşı məqalələrlə çıxış edən, onların həbsində şahidlik edən insanların, yazıçıların adını qeyd etməyib. Bunun səbəbi kimi də Kamran müəllimin həmin insanları xalqımızın bir nümayəndəsi olaraq yaddaşlarda düşmən kimi xatırlanmaması idi. Romantiklə-

rin taleyinə ziyalı mövqeyi dedikdə düşünməməliyik ki, Kamran Əliyev tədqiq etdiyi müəlliflərə qarşı həssas və narahatdır. O, eyni zamanda, öz əsərlərinin qəhrəmanlarının (Azərbaycan romantiklərinin) sapı özümüzdən olan düşmənlərinə qarşı da bir vətəndaş narahatlığını ortaya qoyur. Kamran Əliyev repressiya olunan sənətkarlarımızın həbsinə və ya qətlinə səbəb olan yazıçıları, sənət dostlarını bu cür təqdim edir: **Başqa bir qələm sahibi hökm verirdi:** "Çəmənzəminli, Cavid, Sanılı, daha bir çoxlarını ittifaq sırasından xaric etməklə ittifaqı bu kimilərin təsirindən xilas etməlidir". **Başqa bir yazıçımız belə yazırdı:** "Uzun müddət "yenidən qurulmaq" pərdəsi altında gizlənən, bizi aldadan, yalan və hiyləgər vədlərlə ədəbiyyat cəbhəsində yaşayan əksinqilabçı Cavid...". **Başqa birisi dərin təəssüf hissinə bürünmüşdü:** "Saxta avtoritetlə başını dolandıran əksinqilabçı Cavid, Sanılı, Müşfiq, Yusif Vəzir, Ə.Cavad və başqaları həmişə öz əclaf simalarını gizləməyə çalışmışlar" (3, s. 29). Göründüyü kimi, H.Cavid, M.Müşfiq, Sanılı, Çəmənzəminli və digərləri haqqında həqiqəti əks etdirməyən məqalələrlə çıxış edənlərin adları Kamran Əliyev tərəfindən hallandırılmayıb. Kamran müəllimin Cavidi, Müşfiqi, Çəmənzəminlini dövlət və millətin qarşısında gözdən salanlara vulqar sözlərlə deyil, "Başqa bir yazıçımız", "Başqa bir qələm sahibi" kimi ifadələrlə yanaşması əsl ziyalı davranışını nümayiş etdirir və öz millətimizin nümayəndələri olduğu üçün kədərlənir.

"Vaqif" dramında "Sizin güldüyünüz çoban torpağı, Nizamilər, Füzulilər yetirmiş" ifadəsi ilə fikrimizi belə tamamlaya bilərik ki, bu torpaq təkcə şairlər və yazıçıları yetirməklə məhdudlaşmır, bu torpaq eyni zamanda Kamran Əliyev kimi əsl vətənpərvər, humanist ziyalılar da yetirir...

## QAYNAQLAR


1. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, 392 səh.
2. Əliyev Kamran. Romantizmin nəzəriyyəsi. (Əsərləri. 10 cilddə. I cild) Bakı, Elm və təhsil, 2018, 360 səh.
3. Əliyev Kamran. Hüseyn Cavid. (Əsərləri, 10 cilddə, III cild). Bakı, Elm və təhsil, 2018, 456 səh.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN GÖRKƏMLİ TƏDQİQATÇISI – PROFESSOR KAMRAN ƏLİYEV

# PROFESSOR KAMRAN ALIYEV IS AN OUTSTANDING RESEARCHER OF NATIONAL AND SPIRITUAL VALUES

# ВЫДАЮЩИЙСЯ ИССЛЕДОВАТЕЛЬ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ – ПРОФЕССОР КЯМРАН АЛИЕВ

**Elnur Lətif oğlu HƏSƏNOV**
*Tarix üzrə fəlsəfə doktoru, baş mütəxəssis,*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutu*

**Özət**

Görkəmli filoloq alim, professor Kamran Əliyevin çoxillik tədqiqatlarında xalqımızın zəngin milli-mənəvi dəyərlərinin, tarixi keçmişinin, qan yaddaşının elmi əsaslarla araşdırılmasına dair mühüm məqamlar öyrənilmişdir. Ədəbiyyatşünas alimin araşdırmalarında folklor və etnoqrafiyaya dair mənbələrin qarşılıqlı müqayisə aparılaraq əsaslı surətdə tədqiq edilməsinə, milli kimliyimizin daşıyıcısı olan çoxəsrlik tarixi-mədəni irsimizin maddi və mənəvi nümunələrinin təfsilatı ilə öyrənilməsinə diqqət yetirilmişdir. Professor K.Əliyevin əsərlərində qədim və müasir dövr mədəni dəyərlərimizin araşdırılmasında tarixi varislik ənənələrinin üzə çıxarılması, təkzibedilməz elmi və ədəbi mənbələrə istinad olunması xüsusi qeyd edilmişdir.

**Açar sözlər:** Azərbaycan, ədəbi və tarixi irs, folklor, etnoqrafiya, milli-mənəvi dəyərlər

**Summary**

Work deals with the research of important aspects of the scientific study of the richest national and spiritual values, the historical past, the blood memory of our people in the long-term studies of the outstanding philologist, professor Kamran Aliyev. Research of a literary critic is focused on a comparative study of sources on folklore

and ethnography, a detailed study of the material and spiritual samples of our centuries-old historical and cultural heritage, which is the carrier of national identity. In scientific works of professor K. Aliyev, the disclosure of the traditions of the historical heritage, the appeal to irrefutable academic and literary sources in the study of the continuity in the ancient and modern cultural values of our people are especially noted.

**Key words:** Azerbaijan, literary and historical heritage, folklore, ethnography, national and spiritual values

**Резюме**

Исследуются важные моменты научного изучения богатейших национальных и духовных ценностей, исторического прошлого, кровной памяти нашего народа в многолетних исследованиях выдающегося филолога, профессора Камрана Алиева. Исследования литературоведа сфокуси-рованы на сравнительном изучении источников по фольклору и этнографии, детальному изучению материальных и духовных образцов нашего многовекового историко-культурного наследия, являющегося носителем национальной идентичности. В трудах профессора К.Алиева особо отмечается раскрытие традиций исторического наследия, обращение к неопровержимым научным и литературным источникам в изучении преемственности в древних и современных культурных ценностях нашего народа.

**Ключевые слова:** Азербайджан, литературно-историческое наследие, фольклор, этнография, национально-духовные ценности

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, görkəmli filoloq alim, mərhum professor Kamran Əliyevin çoxillik tədqiqatlarında xalqımızın zəngin milli-mənəvi dəyərərinin, tarixi keçmişinin, qan yaddaşının elmi əsaslarla araşdırılması olduqca vacibdir. Ədəbiyyatşünas alimin araşdırmalarında folklor və etnoqrafiyaya dair mənbələrin qarşılıqlı müqayisə aparılaraq əsaslı surətdə tədqiq edilməsinə, milli kimliyimizin daşıyıcısı olan çoxəsrlik tarixi-mədəni irsimizin maddi və mənəvi nümunələrinin təfsilatı ilə öyrənilməsinə diqqət yetirilməsi önəmlidir. Professor K.Əliyevin əsərlərində qədim və müasir dövr mədəni dəyərlərimizin araşdırılmasında tarixi varislik ənə-

nələrinin üzə çıxarılması, təkzibedilməz elmi və ədəbi mənbələrə istinad olunması xüsusilə diqqətəlayiqdir.

Bir məqamı xüsusi olaraq qeyd etmək lazımdır ki, alimin zəngin elmi və pedaqoji yaradıcılığında türk dünyasının ümumbəşəri əhəmiyyətli maddi və mənəvi abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun yeni akademik yanaşma sayəsində daha təfərrüatlı, innovativ tədqiqi ədəbiyyatşünaslıq tariximizə dəyərli töhfə kimi səciyyələndirilməlidir. Belə ki, professor Kamran Əliyevin 2011-ci ildə nəşr edilmiş "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" kitabı, həmçinin 2019-cu ildə işıq üzü görmüş "Dədə Qorqud" (Əsərləri 10 cilddə, VII cild) fundamental əsərində xalqımızın minilliklərə istinad edən ənənələrini müasir həyat tərzimiz, adətlərimiz, həm də kürəsəlləşmə mühitində qarşılıqlı müqayisələrlə təqdim etməsi peşəkarlıqla ruhi kamilliyin vəhdəti kimi əslində bir ədəbiyyat fenomenidir. Çünki ancaq fiziki deyil, daha çox doğma millətinin, xalqının mənəvi, ruhi dəyərlərini bütün vücudu ilə duyan, onun daşlaşmış yaddaşını, qeyri-maddi irsini hiss edərək müdriklik "süzgəcindən" keçirə bilən şəxsiyyət epos fəlsəfəsinin ölməzliyini, zamanın sərt sınaqlarına qarşı dayana bilməsini bu qədər incə məqamlarla qələmin sehrində sətirlərə köçürə bilərdi.

Qüdrətli söz ustadı olmayan, mənəviyyatını sözün sehrində xüsusi istedadla ifadə edə bilməyən şəxs bu dərəcədə həssaslıqla möhtəşəm tarixi folklor abidəsinə yanaşa bilməzdi. Professor Kamran Əliyev şəxsiyyətinin gücü və qüdrəti də məhz bunda idi – sözün qüdrəti ilə varlığın və zamanın fövqündə dayanan maddi, mənəvi dəyərləri tarixiliklə müasirliyin qarşılıqlı vəhdətində təqdim edə bilmək səadəti. Bu məqamda dahi Nizami Gəncəvinin müdrik kəlamları xatırlanır:

"Dünya yaranan gündən qələmin ilkin sözü,
Varlıq səhifəsində sözün özüdür, özü.
Açılanda varlığın sirli pərdəsi əzəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl".

Unutmaq olmaz ki, dəyərli alim, professor K.Əliyevin gənc alimlərə nümunə, örnək ola biləcək elmi irsində milli kökləri-

mizin əsasını təşkil edən atalar sözlərini, xalqımızın müdriklik fəlsəfəsini özündə ehtiva edən aforizmləri tədqiq etməsi xüsusilə dəyərlidir. Bir məqam xüsusilə qeyd olunmalıdır ki, görkəmli alimin Azərbaycan xalqının genetik yaddaşının şifahi xalq yaradıcılığına əbədi həkk olmuş nümunələri kimi atalar sözlərini, zərbi-məsəlləri tarixə gömülmüş deyil, bu gün də aktuallığını itirməyən canlı örnəklər kimi təqdim edə bilməsi Kamran Əliyev yaradıcılığında milli-mənəvi dəyərlərə bağlılığın sözsüz təəssübkeşlik, vətənpərvərlik duyğuları ilə çuğlaşmasının çoxsaylı əyani göstəricilərindən hesab edilməlidir. 2017-ci ildə nəşr olunmuş "Atalar sözləri və aforizmlər" ("Folklor və yazılı ədəbiyyat", II cild) dəyərli alimin zəkasının, illərə sığınan cəfakeş tədqiqatlarının diqqətəlayiq örnəyidir.

Vətənpərvər alimin elmi-ədəbi yaradıcılığının geniş miqyaslılığı, bütün dünya azərbaycanlılarının yayıldığı coğrafiyanın araşdırılmasındakı əvəzsiz xidmətləri sırasında soydaşlarımızın yaşadığı tarixi türk torpaqları olan Kərkük folkloru və ədəbi irsini ümumtürk mədəni dəyərləri çərçivəsində araşdırması qeyd edilməlidir. Heç şübhəsiz, bu mövzuya öncəki dövrlərdə müraciət etmiş tədqiqatçılardan, alimlərdən faydalanmış professor Kamran Əliyevin fundamental əhəmiyyətə malik olan və 2018-ci ildə Bakıda nəşr edilmiş "Yollar Kərkükdə kəsişir. Gülxani Pənah. Şəxsiyyət və yaradıcılığın vəhdəti" əsərində K.Əliyev dəyərli fikirləri ilə geniş bir coğrafiyada maddi-mədəni və mənəvi irs yaradaraq yüzilliklər boyu yaşada bilmiş xalqımızın əsrlərin sınağına qürurla sinə gərmiş ədəbi yaddaşını qələminin gücü sayəsində əbədiyyətə ucaltmağı bacarmışdır. Türk əsilli, islam fəlsəfi düşüncəli, qədim Şərq dəyərlərinin ruhuna və yaradıcılığına sirayət etdiyi şəxsiyyətin kamillik zirvəsində cilvələnmiş irsinin, bədii yaradıcılığını məhz Kamran Əliyev təfəkkürü elmi müstəvidə bu qədər dəqiq və qərəzsiz əks etdirə bilərdi.

"Zaman gələcək, vaxtilə əldən gedən milli, mədəni, mənəvi, maddi mənsubluğumuzu sübut edən haqlarımızın türk dünyasının möhkəm birliyi sayəsində özümüzə qaytarılacağına əmin olduğumdan bu yolda Səməndər quşu tək tükündən od götürən

ziyalılarımız, elm xadimlərimiz, tarixçilərimiz, folklorşünaslarımız, dilçilərimiz, ədəbiyyatşünaslarımız xatırlananda Q.Paşayevin işıqlı siması, böyük əməyi də mütləq və mütləq unudulmayacaq", – deyən professor Kamran Əliyev nə bilərdi ki, sədaqətli dostları, qələm yoldaşları, məsləkdaşları haqqında qələmə aldığı bu dəyərli sözlərində əslində özünün barəsində yetirmələrinin, tələbələrinin onun yoxluğunda səsləndirəcəkləri fikirlərinin sanki öncədən qeyd etmişdi. Təsadüfi deyil ki, xalqımızın, bütövlükdə isə Türk dünyasının əbədi-mədəni irsini, yüzilliklərə istinad edən milli-mənəvi dəyərlərini yeni elmi yanaşma, ənənələrə sadiqlik ruhunda tədqiq etməklə professor Kamran Əliyev şəxsiyyəti özünün ölümsüzlüyünü artıq çox əvvəllər, yaşadığı dövrdə ona bəslənilən ehtiram və səmimi məhəbbət sayəsində qazanmışdı. Çünki sənətini, elmini sədaqətlə sevən, milli-mənəvi dəyərlərinə sahib olmaq hissini yaşadan və təbliğ etməyi bacaran ziyalı əslində ölümsüzdür – AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyev kimi.

Professor Kamran Əliyev dühasının daha dərindən öyrənilməsində onun öz yetirmələrinə, tələbələrinə olan qayğıkeş münasibətinin xüsusi yeri vardır. Doktorant və dissertantlarının səmimi fikirləri, ustadları haqqında qeydləri bu fikirlərin sübutu qismində çıxış edir.

Dəyərli alim, cəfakeş və vətənpərvər ziyalı, professor Kamran Əliyevin istedadlı gənc alimlərin elmi işlərinə müvəffəqiyyətlə rəhbərlik edərək ədəbiyyatşünaslıq elmimiz üçün vacib mövzular üzrə dissertasiyaların müdafiəsindəki uğurlu fəaliyyəti onun yaratdığı elmi məktəbin uzun illər dövlətimiz, xalqımız üçün ləyaqətlə xidmət etməsinə şərait yaradacaqdır. Kamran Əliyev irsi bundan sonra daha dərindən öyrəniləcək, neçə-neçə gənc alimlərin araşdırmalarına işıq salacaqdır.

## QAYNAQLAR

1. Abbaslı İ.İ. Koroğlu. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XIII cild. Bakı, "Səda", 2002, səh. 10-72
2. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə, 2007, 246 səh.

3. Əliyev K.İ. Dədə Qorqud (Əsərləri 10 cilddə, VII cild). Bakı, "Elm və təhsil", 2019, 384 səh.
4. Əliyev K.İ. Yollar Kərkükdə kəsişir. Gülxani Pənah. Şəxsiyyət və yaradıcılığın vəhdəti. Bakı, "Elm və təhsil", 2018, səh. 4-10
5. Əliyev K.İ. Atalar sözləri və aforizmlər. "Folklor və yazılı ədəbiyyat", II cild. Bakı, "Nurlan", 2017, səh. 3-14
6. Əliyev K.İ. Klassik ədəbi irs problemləri. "İpək yolu" jurnalı, 2012, № 4, səh. 81-87
7. Əliyev K.İ. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu". Bakı, "Elm və təhsil", 2011, 164 səh.

# KAMRAN ƏLİYEVİN HEKAYƏLƏRİNDƏ MÖVZU MÜXTƏLİFLİYİ

# THE VARIETY OF TOPICS IN KAMRAN ALIYEV'S STORIES

# РАЗНООБРАЗИЕ ТЕМ В РАССКАЗАХ КЯМРАНА АЛИЕВА

**Əfsanə Habil sızı Nağıyeva**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Avrasiya Universiteti*

**Özət**

Ədəbiyyatşünaslıq elmimizin görkəmli simalarından biri olan Kamran Əliyev elmi fəaliyyəti ilə yanaşı bədii yaradıcılıqla da məşğul olmuş, İmranoğlu imzası ilə bir-birindən maraqlı hekayə və povestlər yazmışdır. Əsərlərindəki real insan obrazları, canlı xalq dili alimin bir yazıçı kimi də istedadından xəbər verir. Elmi ilə xalqına xidmət edən K.Əliyev əsərlərində də xalqın içindən çıxan qəhrəmanlara üstünlük vermişdir. Hekayələrinin məzmun və ideyası da ümummilli dəyərlərə xidmət edir.

**Açar sözlər:** bədii, yazar, hekayə, canlı xalq dili

**Summary**

K.Aliyev, one of the prominent figures of Azerbaijan`s literary scince, was engaged in artistic creation along with his scientific activity, and wrote interesting stories and narratives under the signature of Imranoglu. The real human images in his works, the living vernacular, show the scientist's talent as a writer. K.Aliyev, who served his people with his science, also preferred the heroes from the people in his works. The content and ideas of their stories also serve common values.

**Key words:** art, writer, story, lively vernacular

**Rезюме**

Кямран Алиев, один из видных деятелей нашей литературной науки, помимо своей научной деятельности, занимался

еще и художественным творчеством, писал интересные рассказы и рассказы за подписью Имраноглу. Реальные человеческие образы в его произведениях, живые на просторечии, показывают талант ученого как писателя. К.Алиев, служивший своей наукой своему народу, также предпочитал в своих произведениях героев из народа. Содержание и идея их рассказов также служат общим ценностям.

**Ключевые слова**: искусство, писатель, рассказ, живое наречие.

Azərbaycan elminin görkəmli, sayılıb-seçilən nümayəndələrindən biri olan Kamran Əliyev elmi fəaliyyətlə yanaşı bədii yaradıcılığa da önəm vermiş, İmranoğlu imzasından istifadə edərək maraqlı məzmuna, dərin ideyaya malik nəsr nümunələri yaratmışdır. Dünya ədəbiyyatına dərindən bələd olan yazıçı hekayə və povestlərində milli koloriti qoruyub saxlamış, canlı xalq dilinə üstünlük vermişdir. Gərgin elmi fəaliyyət içərisində bədii yaradıcılıqla məşğuliyyətin ona sanki dinclik, ruhi sakitlik gətirdiyini hər zaman vurğulayardı. Xüsusən yay aylarında bədii fəaliyyətə daha çox zaman ayıran K.İmranoğlu böyük şövqlə yazdığı əsərlərini bəzən bir günə, bəzən iki-üç aya yazdığını qeyd edərdi. O, bədii əsərlərini çox sevər, onlara xüsusi qayğı ilə yanaşar, hər əsərinin müzakirəsinə, söylənilən hər fikrə önəm verərdi. Hekayələrinin mövzularına gəlincə isə, bəzilərinin xəyal məhsulu olduğunu qeyd etsə də, böyük əksəriyyətinin uşaqlıqda, gənclikdə gördüyü, eşitdiyi söhbətlərdən qələmə aldığını vurğulayardı. “Kamran müəllimin çox maraqlı nəsri var... o, öz müəllimləri Mirzə Cəlil, Haqverdiyev ənənəsini içindən keçirib, yaşadan bir yazıçıdır. Xüsusən, onun əsərlərində dialoqları, canlı dialoqları çox sevirəm.” (6, s.15)

Bu yazımızda “Dağlı məhəlləsi” kitabında toplanan hekayələrin bəzilərindən bəhs etməyə çalışacağıq. Bu kitaba yazarın eyni adlı avtobioqrafik hekayəsi, “Gəlincik” “Kollecdə valideyn iclası”, “Oğru pişik”, “Bənövşə oyunu” və s. hekayələri daxildir. Hər bir hekayənin öz dünyası, öz aləmi olmasına baxmayaraq, onları birləşdirən ümumi cəhət dil-üslub xüsusiyyətidir: sadə və aydın bir dil. O dil ki, oxucunu yormur, onu hadisələrin birbaşa

iştirakçısına çevirir, gündəlik məişətində işlətdiyi sözlər bu əsərlərdə cilalanaraq qarşısına bədii söz kimi çıxır: "Azərbaycan ədəbiyyatının tarixi gücü və əhəmiyyəti ayrı-ayrı sənətkarların şəxsiyyəti və vətəndaşlıq keyfiyyətləri ilə yanaşı, bədii sözün inkişafı və qüdrəti ilə də təyin olunur. Bədii sözün dəyəri və məhsuldarlıq göstəriciləri isə bir illə, beş illə deyil, əsrlərlə ölçülür" (2, s. 20).

"Dağlı məhəlləsi" hekayəsi qeyd etdyimiz kimi avtobioqrafik xarakter daşıyır. Bu hekayənin müzakirə-söhbətlərində yazar əsərdəki obrazların prototipləri haqqında da geniş məlumat verər, hekayənin davamı kimi "204 nömrəli avtobus" və "Novruza bir gün qalırdı" hekayələrini göstərərdi. Belə ki, hekayələrinin mövzularının çox yaxın olması (tələbə həyatının müxtəlif və maraqlı yanları) ilə yanaşı personojların bir çoxunun eyni olması da bunu söyləməyə imkan verir. Əsərin qəhrəmanının Şamamaya olan münasibəti Yasamal deyilən ərazinin özünəməxsus strukturu – dolanbac, dar məhəllələri, hamamları, balaca, qaranlıq dükanları fonunda təsvir olunur. Hər bir hekayə nostaljik xarakter daşıması, 60-70-ci illər Bakı mühitinin ab-havasının təsviri baxımından seçilir: "Yasamaldakı hamam düz həmin məhəllənin yanında yerləşirdi. Məhəllədə kirayənişin qalan tələbələr öz tanış-bilişlərinə qaldıqları yeri tapmaq üçün məhz həmin hamamı nişan verərdilər" (4, s. 3).

"204 nömrəli avtobus" hekayəsində oxuyuruq: "O zaman Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi indi İqtisad Universitetinin yerləşdiyi binanın sol tərəfində – Baksovetin qəbul otağı ilə üzbəüz olan hissəsində yerləşirdi. Universitetlərin yataqxanaları isə buradan xeyli uzaqda – Yasamalda olduğundan tələbələrin əsas çətinliyi yataqxanalardan fakültəyə necə gəlib-getmək idi" (4, s. 12). O mühitin aydın təsviri, sosial problemləri ilə bol olan tələbə həyatının acılı-şirinli xatirələri oxucuda o dövrlər haqqında geniş təəssürat yaradır, əsərin oxucu kütləsini də artırır.

Yazıçının məzmunca fərqlənən hekayələrindən biri də "Gəlincik" hekayəsidir. Ali məktəbə qəbul olan Mədinənin istəyini

yerinə yetirən ailə, eyni zamanda keçmiş günlərə, ötən illərə də oxucu ilə birlikdə səyahət edir. Hekayə iki hissədən ibarətdir: Ali məktəbə qəbul olan Mədinənin uğur hekayəsi və onun uşaqlığının ayrılmaz hissəsi olan gəlinciyin hekayəsi. Gəlincik Mədinənin uşaqlıq və gəncliyi arasında bir körpüdür, vasitəçidir. Ali məktəbə qəbul olsa da, böyüsə də, uşaqlığının bir parçasını da özü ilə daşımaq istəyir. Mədinəyə uğur qazanmağın sirlərini öyrədən müəlliminin bu sözləri elə yazıçının oxucusuna çatdırmaq istədiyi fikirdir: "Söz yalnız deyilən və eşidilən deyil, gördüyün hər bir adamın özü də, hərəkəti də sözdür. Bu sözlərin sayı artdıqca insan yorulur, fikrini heç cür bir yerə cəmləşdirə bilmir..." (4, s. 30).

"Kollecdə valideyn iclası" hekayəsində K.İmranoğlu başqa bir yol seçmiş, sələfləri Sabit Rəhman və Mir Cəlal Paşayevin hekayələrini xatırladan bir əsər yaratmışdır. Məhz bu hekayədə yazar aktual olan məsələni yarızarafat, yarıgerçək bir tərzdə oxucuya çatdıra bilmişdir. Hekayəni oxuyarkən aydın olur ki, texniki kollecdə təlim-tərbiyə prosesini yoluna qoymaq üçün mütəmadi iclaslar keçirilir və belə iclaslardan biri də Novruz bayramı ərəfəsinə təyin olunur. Direktorun təşəbbüsü ilə baş tutan iclasa nədənsə direktor özü gəlib çıxmır. Bu da iclasa yığılanlar arasında dedi-qoduya səbəb olur. Lakin əsas məsələ və yazıçının vurğulamaq istədiyi bu deyildir. Əsas məsələ odur ki, iclasa valideyn adı ilə gələn valideynlərin çoxu valideyn deyil, yəni oxumayan, nizam-intizamı pozan tələbələrin valideyn adı ilə gətirdikləri bu şəxslər onların öz valideyni deyil, pulla, xahiş-minnətlə tutulmuş saxta "valideynlər"dir. Yazıçının komik bir dillə anlatdığı hadisələrin düyün nöqtəsi də budur. Direktor müavini bu "valideynləri" uşaqların davranışlarına görə danladıqca bu saxta valideynlər də "saxta" övladları üçün xəcalət təri tökürlər. Sonda isə hadisələr daha da çıxılmaz hala gəlir. Belə ki, tərbiyədən, etikadan dəm vuran Zəfər müəllimin özü də elə danladığı tələbələrindən fərqlənmirmiş. Sən demə, vaxtilə taksiyə ödəyəcəyi pulu gətirib çxartmamış, yəni sürücünü aldatmış, heç ummadığı bir zamanda da yalanı üzə çıxmış oldu. Bütün bu

olanlar da saxta övladı üçün danlanan, hətta "tərbiyəsiz" belə adlanan Farizin "atası" tərəfindən ortaya çıxır: "Yadından çıxıb, 3-4 il bundan qabaq teatrın yanında mənim taksimdən düşüb pul vermədin və dedin ki, evdən pul götürmək yadından çıxıb.... Sabah ya da birisi gün səni tapıb pulunu verəcəyəm. Bəs hanı o pul? Üstündən düz 5 il keçib" (4, s. 49).

Ümumiyyətlə, K.İmranoğlu hekayələrinin bir xüsusiyyəti də odur ki, bu əsərlər novella xarakteri daşıyır. "Kollecdə valideyn iclası" da daxil olmaqla bir çox hekayədə biz bu xüsusiyyəti görə bilirik.

Milli koloritli yazıçı olan K.İmranoğlunun əsərlərində milli bayramlarımıza, tarixi ənənələrimizə sadiqlik göz qabağındadır və bunları da bəzən hadisələrin təsvirində, bəzən də obrazların dili ilə oxuculara çatdırmışdır. Belə hekayələrə örnək olaraq "Novruza bir gün qalırdı", "Kollecdə valideyn iclası" və s. hekayələri göstərmək olar. Yazarın Novruz ətirli, milli ruhlu bu əsərlərindən M.Şəhriyarın da nəfəsini duymuş oluruq. Hər iki sənətkarda Novruz bayramı, bayram ərəfəsi ürəklərə toxunacaq şirin bir dillə anladılmışdır və Novruz bayramına olan bu sevgini, rəğbəti bayramın Azərbaycan xalqının canına-qanına hopması, xalq ilə bütünləşməsi ilə izah etmək olar: "Amma aldatma günümüzə hələ çox vardı, bayırda yazın nəfəsi duyulurdu, Novruz bayramının qədəmləri hiss olunurdu" (4, s. 28). Başqa bir hekayədə də: "Farizin atası üzünü uşaqlara tutub ucadan dedi:.... Durun evinizə-eşiyinizə dağılın. Axşam düşür, avtobusların axırıncısına az qalır. Sabah da bayramdır" (4, s. 49).

K.İmranoğlunun hekayələri canlı xalq dilindədir, xalqın güzəranı, məişəti, yuxarıda bəhs etdiyimiz adət-ənənələri də bu mövzular sırasındadır. "Bənövşə oyunu" hekayəsində olduğu kimi hekayələrin qəhrəmanları da elə xalqın içindən çıxmışdır. Bu hekayədə oxucu keçmişə – uşaqlıq illərinə və məktəb dövrlərinə səyahət edir, o zamanlarda oynadığımız oyunları bizlərin yadına salır. Hekayədə bir-birindən fərqli iki mövzu işlənsə də, əsas diqqət təlim-tərbiyə mövzusuna yönəldilmiş, bu işdə məsuliyyət daşıyan müəllimlərdən bəhs olunmuşdur. Yazıçı bir ma-

raqlı məqama da toxunmuşdur: Azərbaycanda rayon və kəndlərdə insanlara qoyulan ayamalar zaman keçdikcə onların öz adlarını unutdurur. Elə bu hekayədə olduğu kimi: "Nəcəfqulunun gədəsi və Kor Əsmərin nəvəsi". Kəndin əxlaq prinsiplərinə zidd gedən yeni ailə qurmuş bu gənclər nəinki evlərdə, məktəbdə də müəllimlər arasında müzakirə mövzusu olur və onların bu davranışı müəllimlərini bərk narahat edir: "Tutalım Nəcəfalıya dedin ki, uşağına tərbiyə ver, sonra küçəyə ötür. Bəs o nə cavab verəcək?..... Deyəcək ki, məktəbdə verdiyiniz tərbiyədi də qabağınıza çıxır" (4, s. 52).

Hekayə haqqında yazılmış iki məqalə diqqətimizi çəkdi və hər iki məqalənin müəllifi hekayənin dil-üslub xüsusiyyətlərini, ideyasını təhlil edərək öz fikir süzgəclərindən keçirmişlər. "Hekayə istər bütün oxucu kütləsi üçün, istərsə də məktəbyaşlı uşaqlar üçün faydalı və olduqca maraqlı olacaqdır.....eyni zamanda unudulmaqda olan "Bənövşə" oyununun həm oynanılması qaydasının, həm də təbliğinin gözəl bir formasıdır" (1, s. 17).

Digər müəllifin yanaşması isə belədir: "Bənövşə oyunu" hekayəsinin bir özəlliyi var: bu, ondan ibarətdir ki, hekayədəki hadisələr və insanlar müasir dünyamızda dəbdə olan, gələcəkdə və qəlbimizdə həmişə saf duyğular oyadan kənddə baş verir" (5, s. 20).

Bu yazılanlardan belə nəticəyə gəlirik ki, K.İmranoğlunun nəsri milli və xəlqi xüsusiyyətlər daşıyır.

Yazarın bədii yaradıcılığında "Oğru pişik" hekayəsinin özünəməxsus yeri vardır. Kamran müəllim söhbətlərində bu hekayəni bir başqa yerə qoyar və ondan xüsusi zövqlə danışardı. Yaşadığımız həyatın bir parçası olan bu canlılar kənd (həyət) evlərində xüsusilə çox olur, bəzən ev yiyəsinin dostu, bəzən də heç istənilməyən qonaq təəssüratı bağışlayırlar. Hekayənin "qəhrəmanı" ərköyün, özündənrazı pişikdir. "Onun oğru olduğunu hamı – bütün ailələr bilirdilər. Amma qəribə burasıydı ki, heç kəs onu həyətlərindən qovub çıxartmırdı. Əslində nə vaxt, haradan oğurluq elədiyini də heç kəs görməmişdi, ya da görmüşdülərsə də, bu barədə bir kəlmə belə danışan yox idi" (4, s. 82).

Bu pişik kənddə xüsusi hörmətə malikdir, çünki o kənd camaatının xoşuna gedən qəhrəmanlıqlar edib: cücəli toyuğa çalağanla vuruşmada kömək etmək, zəlzələ zamanı camaatı duyuq salmaq və s. Bu "əməllərinə" görə ona "gözün üstə qaşın var" deyən olmazdı. Oğru pişiyin digər bir özəlliyi də qürurlu olmasıdır. Tənbəlliyindən bir sərçə belə ovlamayan bu "hazıra nazir" pişik Qəssab Əlinin doğradığı ət tikələrindən birini götürərkən qəssabın onu görməsi (və ya ona elə gəlmişdi) ona bərk yer eləyir, bunu qüruruna sıxışdırmayan pişik məhəlləni tərk edərək çıxıb gedir. Bu qürurlu heyvan bir çox insanlara nümunə ola bilər: zəifin, gücsüzün, köməyə ehtiyacı olanın yanında olmaq və bəzən gedə bilməyi də bacarmaq.

Həm müsbət, həm də mənfi xüsusiyyətləri ilə özünü sevdirən pişik oxucunun da sevimli heyvan qəhrəmanına çevrilir. Real həyat hekayələrindən qaynaqlanaraq yazılmış hekayədə kənd həyatının sadəliyi, canlılığı öz əksini tapmışdır. Yazarın bu qəbildən olan hekayələrini uşaq ədəbiyyatı nümunələri də hesab etmək olar.

K.İmranoğlu istedadı elmi fəaliyyəti ilə yanaşı, bədii yaradıcılığında da özünü göstərmişdir. Alim-yazar nəsrimizi özündə milli duyğuları ehtiva edən hekayə və povestləri ilə zənginləşdirmiş, hər zaman özünəməxsus dəst-xətti və üslubu ilə seçilmişdir.

**QAYNAQLAR**


1. Abbasova Aytac. Canlı həyat hekayəsi. Kaspi, 2016, 24 dekabr, s. 17
2. Əliyev Kamran. Bir əsrlik bədii sözün dəyəri. 525-ci qəzet, 2012, 7 yanvar, s. 20
3. İmranoğlu (Əliyev) Kamran. Bədii dilin poetikası. 525-ci qəzet, 2017, 27 may, s. 19
4. İmranoğlu (Əliyev) Kamran. Dağlı məhəlləsi. Elm və təhsil, Bakı, 2017
5. Qulamova Adilə. Kəndin yaddaşı. Kaspi, 2017, 28-30 yanvar, s. 20
6. Şamilqızı Günel. Görkəmli alim, dəyərli ziyalı. Kaspi, 2018, 6 mart, s. 15

# ROMANTİZMİN SİMVOLİKASI VƏ TƏBİƏT OBRAZLARININ FUNKSİONALLIĞI
## (Kamran Əliyevin elmi-nəzəri yaradıcılığı əsasında)

# SYMBOLISM OF ROMANTICISM AND FUNCTIONALITY OF NATURE CHARACTERS
## (Based on the scientific and theoretical creativity of Kamran Aliyev)

# СИМВОЛИЗМ РОМАНТИЗМА И ФУНКЦИОНАЛЬНОСТЬ ПРИРОДНЫХ ПЕРСОНАЖЕЙ
## (На основе научно-теоретического творчества Камрана Алиева)

**Ətrabə GÜL**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Mühəndislik Universiteti*

**Özət**

Professor Kamran Əliyevin Azərbaycanda romantizmin öyrənilməsində və tədqiqində, nəzəri konsepsiyasının formalaşmasında müstəsna rolu olmuşdur. Xüsusilə romantizmin simvolikasının nəzəri əsaslandırılması, rəmzi element və ünsürlərin bədii-estetik mahiyyəti, təbiət obrazlarının simvolik funksionallığı ilə bağlı alimin maraqlı mülahizə və qənaətləri vardır. Romantizmin poetikasında simvolikanın tədqiqinin vacibliyini vurğulayan alim bu simvolikanı cərəyanın yaradıcılıq əlaqlərinin üzə çıxarma vasitəsi, üslubun özü, spesifik meyar kimi səciyyələndirir. M.Hadinin, A.Səhhətin, H.Cavidin, A.Şaiqin, A.Surun yaradıcılığında təbiət obrazlarının simvolik mahiyyəti və poetik funksionallığı kontekstində istifadəsinin meyar və prinsiplərini ümumiləşdirir, təbiət simvolikasından istifadədə müəllif mövqeyini və məqsədini aydınlaşdırır, nəzəri cəhətdən əsaslandırır. Simvolun müəllifdən oxucuya qədər keçdiyi poetik yolun özünə diqqət çəkir, simvolların deşifrə potensialını ortaya çıxaran məqam və detalları kompleks təhlilə cəlb edir. Təqdim olunan məqalədə Kamran Əliyevin təbiət

simvolikası ilə bağlı mülahizə və görüşləri dünya nəzəri ənənəsindəki qənaət və nəticələrlə müqayisəli şəkildə təhlil edilir.
**Açar sözlər:** romantizm, simvolika, təbiət, nəzəriyyə, Kamran Əliyev

**Summary**

Professor Kamran Aliyev played an exceptional role in the study and research of romanticism in Azerbaijan, as well as in the formation of its theoretical concept. In particular, the scientist has had interesting considerations and conclusions about the theoretical specification of the symbolism of romanticism, the artistic and aesthetic nature of the symbolic elements and features and also the symbolic functionality of images of nature. Emphasizing the importance of the study of symbolism in the poetics of Romanticism, the scientist characterizes the symbolism as a means of revealing the creative connections of the current and the style itself, being as a specific criterion. By summarizing the criteria and principles of the use of images of nature in the context of the symbolic nature and poetic functionality in the works of M. Hadi, A. Sahhat, H. Javid, A. Shaig, A. Sur he clarifies the author's position and purpose in the use of natural symbolism and substantiates theoretically. It draws attention to the poetic path of the symbol from the author to the reader, attracts a complex analysis of the points and details that reveal the deciphering potential of the characters. The article explores Kamran Aliyev's views and considerations on the symbolism of nature in a comparative manner with the conclusions and determinations of the theoretical tradition of the world.
**Key words:** romanticism, symbolism, nature, theory, Kamran Aliyev

**Резюме**

Профессор Камран Алиев сыграл исключительную роль в изучении и исследовании романтизма в Азербайджане, в формировании его теоретической концепции. В частности, у ученого есть интересные соображения и выводы относительно теоретического обоснования символики романтизма, художественно-эстетического характера символических элементов и элементов, символической функциональности образов природы. Подчеркивая важность изучения символизма в поэтике романтизма, ученый характеризует этот символизм как средство выявления твор-

ческих связей течения, сам стиль как специфический критерий. Обобщены критерии и принципы использования образов природы в контексте символического характера и поэтической функциональности в произведениях М. Хади, А. Саххата, Х. Джавида, А. Шайга, А. Сура, уточняется авторская позиция. и цель в использовании символики природы, теоретически обоснована. Он обращает внимание на поэтический путь символа от автора до читателя, привлекает комплексный анализ точек и деталей, раскрывающих дешифровальный потенциал персонажей. В докладе сравниваются взгляды Камрана Алиева на символизм природы с результатами мировой теоретической традиции.

**Ключевые слова:** романтизм, символизм, природа, теория, Камран Алиев

Elmi-ədəbi fəaliyyətinin böyük bir qismini Azərbaycan romantizminin tədqiqinə həsr etmiş professor Kamran Əliyev "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (1997), "Mirzə Fətalidən Hüseyn Cavidə qədər" (1998), "Cavid möcüzəsi" (2002), "Azərbaycan romantizminin poetikası" (2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (2006), "Romantizm və folklor" (2006), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (2008), "Ədəbiyyat tarixinə bir baxış" (2013), "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" (2013) kitablarında və çoxsaylı məqalələrində romantizm və romantik sənətkarlar haqqında bir çox elmi mülahizələr irəli sürmüş, şəxsi meyarlarını, metod və yanaşmalarını ortaya qoymuş, bu istiqamətdə özünəməxsus nəzəri konsepsiya formalaşdıra bilmişdir. "Kamran Əliyev demək olar ki, sistemli tədqiqatdan kənarda qalmış Azərbaycan romantizmi və folklor probleminin elmi həllinin yaradıcısı və sahibidir. Bu, Azərbaycan romantizminin milli əsaslarının işlənib hazırlanması və sübut olunması üçün Kamran Əliyev tərəfindən müəyyən edilmiş yeni elmi istiqamətdir" (3, s. 4-5)". Azərbaycanın sosial-mədəni, ədəbi-estetik və ictimai tarixində xüsusi bir mərhələ olan romantizm cərəyanının ədəbiyyatşünaslığımızda öyrənilməsi müxtəlif mərhələlərdən keçmişdir. "XX əsrdə romantizmə sağlam təfəkkür və məntiqdən yanaşma, qiymətvermə mərhələsinin başlanğıcı he-

sab edirdilər, 80-ci illərin ədəbiyyatşünaslığında bəzi ədəbiyyatşünasların tədqiqində romantizmə təzə, yeni, əlamətlər, baxışlar kriteriyasından yanaşma halları üzə çıxdı. Bu sahədə üzə çıxan əsas tədqiqatların müəlliflərindən biri də Kamran İmran oğlu Əliyev idi" (2, s.18). Professor Kamran Əliyevin Azərbaycanda romantizmin öyrənilməsində və tədqiqində, nəzəri konsepsiyasının formalaşmasında müstəsna rolu olmuşdur. Xüsusilə romantizmin simvolikasının nəzəri əsaslandırılması, rəmzi element və ünsürlərin bədii-estetik mahiyyəti, təbiət obrazlarının simvolik funksionallığı ilə bağlı alimin maraqlı mülahizə və qənaətləri vardır.

Ümumiyyətlə, təbiət ədəbiyyatın mövzu qaynağı olmaqla yanaşı, həm də gerçəkliyi obrazlaşdırma vasitəsidir. Təbiət ədəbiyyatın ilham mənbəyidir, sənətkar ruhunun mətndəki bədii-emosional ovqata çevrilməsində xüsusi rol oynayır. Təbiət, eləcə də təbiətə dair ünsürlər ilə öz psixoloji əhvali-ruhiyyəsi arasındakı bənzərlikləri görən sənətkarın bu iki tərəf arasında müxtəlif şəkilli əlaqələr qurması nəticəsində mətndə təbiət fərqli şəkillərdə təzahür etmiş olur. "Ədəbiyyatı təbiət təsvirlərindən kənarda təsəvvür etmək qeyri-mümkündür. Ədəbi metod və cərəyanlara, yazıçı fərdiyyətinə uyğun olaraq təbiət və onda müşahidə olunan hadisələrin dəyərləndirilməsi, onlardan bədii əksetdirmə ilə istifadə obrazların, eləcə də müəllifin daxili dünyasının ifadəsində önəmli rol oynayır" (4, s.197-198). Təbiət bədii metaforaların, alleqoriyaların yaranmasına təkan verir. Ədəbiyyatda təbiətin simvollaşması mexanizmi isə daha dərin, fəlsəfi, estetik, eləcə də mifik məzmunu olan hadisədir. İncəsənət təbiətin təqlidindən başlayır, qədim mağara divarlarında ibtidai insanların ilkin müşahidələrini incəsənətə çevirmək cəhdləri ilə başlayan bu yol bu gün yüzlərlə istiqaməti olan, sadə və dəqiq təqliddən çox uzaqlaşmış, mücərrəd, sezgilərə, duyğulara və insanlığın təcrübəsinə əsaslanan daha mürəkkəb səviyyəyə gəlib çatmışdır. İncəsənətin obyektində və yaddaşında təbiət hər zaman öz yerini qoruyur. Bəzən birbaşa təsvir, peyzaj, müşahidələrlə boylanan təbiət, ədəbiyyatın mücərrəd və dərin təxəyyülə əsaslanan struk-

turunda rəmzləşir, simvollarla ifadə olunur. Ədəbiyyatın təbiətlə birbaşa və dolayı münasibəti mətnlərdə müxtəlif vasitələrlə üzə çıxır. Peyzaj bu ünsiyyətin birbaşa yoludursa, simvol dolayı yoldur. Təbiət obrazları və təbiət simvolları nəzəri cəhətdən fərqli anlayışlardır. Obraz və ya obrazlaşma fərdi hadisədir, gerçəkliyin sözlərlə rəsm edilməsidir və müəllif yanaşmasından doğur. Simvollar isə müəllifə qədər var olan kateqoriyalardır, burada müəllif fərdiyyətini üzə çıxaran simvolun interpretasiya məqsədi və seçim şərtidir. Simvolun təyinatını daxil olduğu mətnin digər element və komponentləri ilə səsləşmə mexanizmi və oxucu tərəfindən çözülmə dinamizmi müəyyənləşdirir.

Romantizmin bədii-estetik konsepsiyasında təbiət kultu və onun simvollaşması xüsusi yer tutur. Romantizmdə təbiət simvollarının nəzəri şərhi və öyrənilməsi prosesi təbiətin kultlaşma ənənəsinə bələdlilik və romantizmin estetikasına dair bilginin harmoniyasını tələb edir. Romantik ideallarıın formalaşmasında təbiət simvolları bədii-estetik vasitə kimi xüsusi önəm daşıyır, təbiət simvolikasından istifadənin bədii-estetik mahiyyətini aşkarlamaq, həm də romantizmin elmi-nəzəri şərhini vermək deməkdir. Eyni zamanda təbiət hadisələrinin və üzvlərinin ideallaşdırılmasının romantizmin fəlsəfi-estetik prinsipləri ilə bağlılığı, fuksionallığı intertekstual konteksti aktuallaşdırır, səma, Günəş, Ay, bulud, külək, dəniz, qürub, tufan və s. kimi təbiət hadisələrinin bədii mətndə daşıdığı simvolik məzmunun tipoloji fərqlərini konkret bir mətnin ətrafına toplayır. Bu, təbiət simvolikasının lokal və milli xarakteri ilə universallığı arasındakı müqayisələri aktuallaşdırır, eyni zamanda başqalarının əsərlərində təbiət simvollarından istifadənin bədii estetikasının tipoloji məqamlarına yönəlməyi də tələb edir. Çox vaxt da, təbiət simvollarının yaranmasında Şərq və Qərb kontekstinin rolunu müəyyən etmək üçün təbiət simvollarından istifadənin bağlı olduğu fəlsəfi-estetik mühiti aşkarlamaq lazım gəlir. Təbiət simvollarının ənənəvi strukturu və romantizmdəki interpretasiyası məsələsinə də fikir vermək məcburiyyəti yaranır.

Başqa bir tərəfdən “bədii yaradıcılıq aləmində obraz-təbiət, obraz-təsvir, obraz-qəhrəman, obraz-məzmun, obraz-ideya, obraz-cəmiyyət, obraz-həyat, obraz-dünya, obraz-obraz münasibət və bağlılıqları poetikanın daxili və xarici komponentlərində mühüm əhəmiyyət daşıyan məsələlərdəndir” (2, s. 19). Bütün bunlar romantizmin simvolikası və təbiət obrazlarının funksionallığının nəzəri cəhətdən öyrənilməsinin nə qədər mürəkkəb və kompleks bir iş olduğunu göstərir.

Professor Kamran Əliyevə görə, romantiklərin əsərlərində simvolik obrazlar ötəri və ya keçici xarakter daşımır, eyni zamanda simvolları, rəmzi obrazları romantizmin “indikator”una çevirib, onu kiçikli-böyüklü bütün əsərlərdə axtarmaq da olmaz. İkinci hal romantizmin estetikasını deyil, simvolizmin estetikasını axtarmaq kimi naqis bir yola sürükləyə bilər. Alimin elmi yanaşmasında romantizmdə simvolları müəyyənləşdirmək müstəvisi realizmin müəyyən ölçülü simvolik potensialı ilə simvolizmin kompleks simvolik estetikası arasındakı məsafədədir. Kamran Əliyevin bu qənaətinin arxasında Losevə istinadən tam realist əsərlərin simvolik obrazlılıqdan məhrum olmadığı tezisi dayanır (1, s. 157).

Alim nəzəri mülahizələrini romantizmdə simvolikanın yerini və rolunu müəyyən etməklə başlayır:

- Simvolika romantik yaradıcılıq metodunun əlaməti, özünəməxsus keyfiyyətidir;
- Simvolika romantizm sənətinin yalnız bədiilik amili deyil, eyni zamanda romantik sənətkarın məqsəd və qayəsini ifadə edən xüsusi kateqoriyadır;
- Romantizmin poetikasında simvolikanın xüsusi çəkisi var, “üslubun özü” və romantizmin özünəməxsusluğunu təmin edir;
- Romantizmdə simvolların mahiyyətində həm ənənəvi olanın, həm də yeni olanın qarşılıqlı münasibəti öz əksini tapır (1, s. 157-167).

Təbiət simvollarının şərhi üçün belə bir nəzəri baza və metodologiya mexanizmi hazırlayan müəllif daha sonra təbiət obrazlarının funksionallığını təyin edir. İlk olaraq, romantik poeziyada

"*peyzajın simvolik örtüyü*" (1, s.160-161) məsələsinə diqqət yönəldir. Abulla Şaiqin "Biri sənsən, mələkciyim, biri mən", Abdulla Surun "Əcəb, bu söz şeirmi?" və digər romantiklərin yaradıcılığında təbiətlə bağlı təsvirlərin şairin ovqat və duyğularının fərdiliyinin ifadə etmə potensialı ilə yanaşı, ictimai məzmun daşımasına da diqqət çəkir, təbiətin təsvirindəki niyyətin özünü təsbit etməyi vacib hesab edir. "Bahar qızı, yay qadını, küz öksüzü, qış qocanı andırır" misrasındakı mənanın "yalqız-yalqız bir könül gülməz, için-için ağlar" misrasındakı anlamla semantik bütövlüyünü dəqiq müşahidə edərək, təbiət peyzajının ictimai ovqatı ifadə edən simvolik funksiyasına aydınlıq gətirir. Akademik Kamran Əliyev ardınca, *peyzajın bədii təzad yaratma qabiliyyəti* üzərində dayanır. Romantiklərin yaradıcılığında təbiət və fəsillərin mənzərəsini əks etdirməyin birbaşa müəllif məqsədi ilə bağlılığını göstərir, cəmiyyətlə, insanlarla əlaqəli müəllif dünyagörüşündən qaynaqlanan ideyaların bədiiləşməsi şəkli kimi nəzərdən keçirir. İnsanın ağrılı-acılı taleyinin romantizmdə inikasının təbiət peyzajı vasitəsilə modelləşməsini müşahidə edir, təbiət və insan arasındakı paralelliyin bədii mətndə müqayisəyə çevrilməsini diqqətlə izləyir. Alim təbiət obrazlarının subyektivləşməsində müəllif fərdiyyətinin rolunu inkar etmir. Təbiətə dair ünsür və elementlərin simvollaşması prosesində müəllif mövqeyinin subyektiv ifadəsinə diqqət çəkir, M.Hadinin, H.Cavidin, A.Şaiqin yaradıcılığında gül və çiçəyin simvollaşdırma aktından keçmə mexanizmini səciyyələndirir. *K.Əliyev* təbiət obrazlarının simvolik məzmunu ilə fərdilikdən çıxıb sosial anlamla yüklənməsini simvolik obrazların yaranma dövrü ilə də bağlayır. Romantiklərin yaradıcılığında təbiətin *"səlahiyyətli səfirləri"nin* mətnə daxil olma niyyətini və məqsədini bütün təfərrüatları ilə görməyə çalışır. Kamran Əliyev öz elmi səriştəsi və dərin bilgisi ilə müəllif niyyətindən başlanan bu yolun oxucuda bitən məqama qədər qət etdiyi məsafəni bütün xırdalıqları ilə görməyi bacarır. Ümumiyyətlə, romantizm cərəyanının, demək olar ki, bütün sənətkarları sosial gerçəkliklə barışmayan, narazı, ictimai-siyasi proseslərə laqeyd qala bilməyən vətənpərvər və humanist insanlar olduğuna görə, onların (və yarat-

dıqları insan-obrazların) real dünyadan narazılıqları bədii, fəlsəfi, etik, estetik, hətta ictimai-siyasi səpkilərdə ifadə olunurdu. Mövcud sosial-siyasi problemlər istər-istəməz bədii yaradıcılığa sirayət edir, mövzu seçimindən bədii-lirik qəhrəmanların yaşantılarına qədər mətnin bütöv səthinə yayılırdı. Kamran Əliyev də alim həssaslığı ilə bunu dəqiq müşahidə edir və öz qənaətlərini bildirir. Eyni zamanda romantizmin fəlsəfəsi konsepsiyasından qidalanan məqamlara diqqət çəkir, təbiət obrazlarının funksionallığını təbiətin əbədiliyi prinsipini gerçəkləşdirmə vasitəsi kimi şərh edir. Təbiət predmetlərinə müraciətdə məqsədliliyin dərəcəsini və mahiyyəətini göstərməyə çalışır. Kamran Əliyevə görə,

- Təbiət saflıq və təmizliyin rəmzidir: romantiklərdə insan və təbiətin üz-üzə durması, üzləşməsi labüddür. Bu üzləşmədə obrazların xarakterik cəhətləri təsdiq edilir, ya da onların yeni keyfiyyət qazanması bir vəzifə kimi irəli sürülür. Bütün bunlar mühüm sənətkarlıq amili kimi şərh olunur;
- Sosial problemlərin, insani münasibətlərin təhlilində, öz gələcək arzularının ifadəsində romantik sənətkarlar öz sənətkar mövqeyini ifadə etmək üçün simvollardan istifadə edirlər;
- Təbiət obrazının simvollaşmış məzmunun içində romantizmin fəlsəfi-estetik konseptuallığında doğan obrazlar boylanır, bu zaman bu obrazlar romantik düşüncə tərzini bəyan edən vasitələrə çevrililər;
- Təbiət obrazları romantizmin “müdafiə dəbilqələr”i funksiyasını daşıyırlar, romantik şeirdə irtica və onunla bağlı məsələlərin “gecə”, “qaranlıq” rəmzləri ilə daha çox ifadə edilməsinin səbəbi budur. Bu mənada Hüseyn Cavidin “Gecəydi”, “Qüruba qarşı”, “Bu gecə”, Məhəmməd Hadinin “Ulduzlu bir gecədə müharibə tamaşası” və digər sənətkarların romantik şeirlərinə verilmiş bu tip adları təsadüfi hesab etmir, poeziyada şairin və lirik mənin özünümüdafiə mövqeyindən bəhs edir;
- Mövzunun ifadəsində açıqlıq və qapalılıq meyarı olur, əgər romantik sənətkar fikrini dolayı yollarla çatdırmaq məramını üstün tutursa, nəticə etibarilə rəmz-bənzətmələrdən istifadə edir;

- Təbiət obrazları və onun simvolikası mürəkkəb və çoxcəhətli poetikliyə malikdir, bəzən onun mənasını anlamaq mürəkkəb səciyyə daşıyır, bəzən də sənətkar işlətdiyi rəmzlərin düzgün oxunuşuna özü imkan yaradır, həm məsələni, həm onun həllini, həm də cavabını verir (1, s.167-172).

Professor Kamran Əliyevin elmi-nəzəri konsepsiyasına əsasən deyə bilərik ki, təbiətin simvollarının çözümü oxucudan romantizmin fəlsəfi-estetik ideallarına və prinsiplərinə bələdlilik tələb edir. Romantizmin poetikasında simvolikanın tədqiqinin vacibliyini vurğulayan alim bu simvolikanı cərəyanın yaradıcılıq əlaqlərinin üzə çıxarma vasitəsi, üslubun özü, spesifik meyar kimi səciyyələndirir. M.Hadinin, A.Səhhətin, H.Cavidin, A.Şaiqin, A.Surun yaradıcılığında təbiət obrazlarının simvolik mahiyyəti və poetik funksionallığı kontekstində istifadəsinin meyar və prinsiplərini ümumiləşdirir, təbiət simvolikasından istifadədə müəllif mövqeyini və məqsədini aydınlaşdırır, nəzəri cəhətdən əsaslandırır. Simvolun müəllifdən oxucuya qədər keçdiyi poetik yolun özünə diqqət çəkir, simvolların deşifrə potensialını ortaya çıxaran məqam və detalları kompleks təhlilə cəlb edir.

**QAYNAQLAR**


1. Əliyev Kamran. Romantizmin poetikası (Əsərləri, 10 cilddə, II cild). Bakı, “Elm və təhsil”, 2018, 312 s.
2. Əzimli Əbülfəz. Romantizmdən eposa: tədqiqin Kamran Əliyev aydınlığı. Bakı, Elm və təhsil, 2013, 172 s.
3. Həbibbəyli İsa. Fərqli və fərdi siması olan ədəbiyyatşünaslıq / Əliyev K.Romantizmin nəzəriyyəsi. (Əsərləri, 10 cilddə, I cild). Bakı, “Elm və təhsil”, 2018, s. 3-6.
4. Məmməd Tahirə. Təbiət hadisələri, varlıq və insan: fizik və yazıçı-şair münasibəti / Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı, Xan nəşriyyatı, 2016, 412 s.

# XALQ DRAMLARINA KAMRAN ƏLİYEVİN YANAŞMASI

# KAMRAN ALIYEV'S APPROACH TO FOLK DRAMAS

# ПОДХОД К НАРОДНЫМ ДРАМАМ КЯМРАНА АЛИЕВА

**Firuzə Aşur qızı SADIQOVA**
*Bakı Dövlət Universiteti*
*firuzeesgerova@icloud.com*

**Özət**

Xalq ədəbiyyatının ən qədim janrlarından biri xalq tamaşalarıdır. Tarixi dramları inkişaf etdirmək üçün xalqın həyat tərzi, keçmiş nəzərə alınırdı. Xalq dramları xalq mərasimləri və xalq rəqsi quruluşunda məşhur olmuş və yayılmışdır. Xalq arasında satira və yumor tamaşaları üstünlük təşkil edirdi. Gündəlik həyatla əlaqəli olan insanların əhvalını yaxşılaşdırmaq üçün mərasimlərdə bütün xalqın da fəal iştirak etməsi mümkündür. Bu tədbirlərin çoxu ayrı-ayrı şəxslərin səyi nəticəsində yaxşılaşdı və daha sonra xalq tamaşalarına yüksəldi. Xalq tamaşaları bir janr kimi formalaşana qədər folklorun başqa növləri daxilində, xüsusilə epik növün ayrı-ayrı janrlarında yaranmağa başlamışdır. Belə ki, peşəkar nağılçılar, aşıqlar, körpələrinə nağıl danışan analar və nənələr nağıldakı hadisələrin gedişindən asılı olaraq mimikadan, jestlərdən, əl-qol hərəkətlərindən də geniş istifadə etmişlər. Bu zaman isə sanki söylənən folklor nümunəsi ibtidai şəkildə səhnələşdirilmiş və beləliklə, xalq tamaşalarının ilkin rüşeymləri yaranmışdır. Kamran Əliyev xalq dramlarını yazılı ədəbiyyatın, peşəkar teatrın inkişafında böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır. Tarixi-ədəbi faktlar göstərir ki, hökmdarların sarayında əyləncə və gülüş yaratmağa qadir təlxəklər və məsxərəçilər saxlanarmış. Onlar müəyyən vaxtlarda oyun çıxarar, kimisə məsxərəyə qoyar və saray əyanlarını güldürərmişlər. Bəzən həmin oyunlar birbaşa teatr səciyyəsi daşıyırdı. Xalq gülüşünün ideya-estetik məsələləri folklorşünas alim Kamran Əliyevin tədqiqatında geniş təhlil edilmiş, Azərbaycan folklorunda gülüşün genezisi və poetikası ilə bağlı elmi-nəzəri müddəalar ümumiləşdirilmişdir.

**Açar sözlər:** dramatik, janr, Kosa-Kosa, köhnə, tamaşa, əyləncə, oyunlar, meydan, qəbilə, insanlar

**Summary**

One of the oldest genres of folk literature, folk performances. Historical dramas along the access of the people to develop certain former and improved. Public performances, folk ceremonies, rituals and folk dance popular in the establishment and spread. Public performances of satire and humor dominated. People's welfare, which is associated with the day-life is highly possible that the ceremonies took an active part in the entire nation. Many of these events has improved as a result of the efforts of individuals, and later elevated to the folk performances. Before folk performances were formed as a genre, they began to appear within other types of folklore, especially in different genres of the epic type. Thus, professional storytellers, ashugs, mothers and grandmothers who told stories to their babies, made extensive use of facial expressions, gestures and hand gestures, depending on the course of events in the story. At the same time, it is as if the said example of folklore was staged in a primitive way, and thus the first embryos of folk performances appeared. Kamran Aliyev stressed the importance of folk dramas in the development of written literature and professional theater. Historical and literary facts show that in the palace of the rulers were kept clowns and clowns who were able to create fun and laughter. At times, they even played games, made fun of others, and made fun of the courtiers. Sometimes those games were direct theatrical. Ideological and aesthetic issues of folk laughter have been widely analyzed in the research of folklorist Kamran Aliyev, scientific-theoretical provisions on the genesis and poetics of laughter in Azerbaijani folklore have been generalized.

**Key words:** dramatic, genre, Kosa-Kosa, old, pageant, fun, games, square, tribe, people

**Резюме**

Один из самых старых жанров народной литературы, народных выступлений. Исторические драмы вдоль доступа населения разработать определенный бывший и улучшилось. Публичные выступления, народные обряды, ритуалы и народные танцы, популярные в создании и распространении. Публичные выступления сатиры и юмора доминирует. Благосостояния населения, что связано с днем жизни весьма возможно, что церемонии принимали активное участие во всей стране. Многие из этих событий улучшилась в результате усилий отдельных лиц, а затем повышен

до народных выступлений. Прежде чем народные выступления сформировались как жанр, они стали появляться в других типах фольклора, особенно в разных жанрах эпического типа. Так, профессиональные рассказчики, ашуги, матери и бабушки, рассказывающие сказки своим младенцам, широко использовали мимику, жесты и жесты рук, в зависимости от хода событий в рассказе. В то же время, как если бы указанный образец фольклора был поставлен примитивно, и таким образом появились первые зародыши народных спектаклей. Камран Алиев подчеркнул важность на-родных драматургов в развитии письменной литературы и профессионального театра. Исторические и литературные факты свидетельствуют о том, что во дворце правителей содержались клоуны и клоуны, которые умели веселиться и смеяться. Иногда они даже играли в игры, смеялись над другими и высмеивали придворных. Иногда эти игры были непосредственно театральными. Идеологические и эстетические вопросы народного смеха широко проанализированы в исследованиях фольклориста Кямрана Алиева, обобщены научно-теоретические положения о генезисе и поэтике смеха в азербайджанском фольклоре.

**Ключевые слова:** драматичный, жанр, Коса-Коса, старый, карнавальное шествие, веселье, игры, площадь, родственный, люди.

Xalq dramları və tamaşaları qədim azərbaycanlıların müxtəlif münasibətlərlə təşkil etdikləri mərasimlərdən doğub inkişaf etmişdir. Mövsüm və məişət mərasimlərinin hər birində biz bu və ya digər dərəcədə dram ünsürləri tapa bilərik. Bu ünsürlər, şübhəsiz, zaman keçdikcə daha da inkişaf etdirilmiş və təkmilləşdirilmişdir. Beləliklə də həqiqi mənada sırf dram xüsusiyyətlərinə malik tamaşalar ayrılıb müstəqil şəkildə yaşamağa başlamışdır. Azərbaycan folklorunun hər bir janrında mükaliмələrə, dram ünsürlərinə rast gələ bilərik. Azərbaycan xalq ədəbiyyatında dramatik növün də maraqlı nümunələri vardır. Janr etibarilə bu nümunələr xalq oyunları, xalq tamaşaları və şəbehlərdən ibarətdir.

Azərbaycan ədəbiyyatının qaynağında zəngin və dərin məzmunlu Azərbaycan folkloru durmaqdadır. Mifoloji-bədii dünyagörüşün izləri folklorda və klassik ədəbiyyatda indi də özünü büruzə verməkdədir. Azərbaycan mifologiyası qədim hind, qə-

dim yunan mifologiyası qədər sistemli və bütöv xarakter daşımır. Ancaq Azərbaycan folklorunda Azərbaycan mifologiyasının izlərini aşkar etmək mümkündür. Bunlar daha çox kosmoqonik və mövsümi, eləcə də etnoqonik miflərin müəyyən detallarını özündə daşımaqdadır. İnsan cəmiyyətinin ilkin formalaşma dövrünün bədii təfəkkür məhsulları olan bu mifik ünsürlərdə kosmosla xaos, yəni dünya düzəni ilə qarmaqarışıqlıq, nizamsızlıq, dünya düzəninin bu nizamsızlıqdan yaranması və eyni münasibətlərin insan cəmiyyətində əks olunması özünə yer tapmışdır. Mifik dünyagörüşdə insan cəmiyyətində kosmos, yəni əksər insanlar tərəfindən qəbul edilmiş qayda-qanunlar toplusu əsas etibarilə cəmiyyətin aparıcı nizamını – ailə, məişət, insanla təbiət arasında qarşılıqlı anlaşma proseslərini əhatə edir. Mifoloji dünyagörüşün ayrı-ayrı ünsürləri indiyə qədər folklorun ovsun, alqış, qarğış, rəvayət, qodu və sayaçı mərasimi ilə ilgili mətnlərdə qorunub saxlanmışdır. Azərbaycan mifoloji mətnlərinin əksəriyyətində qədim türk mifoloji düşüncəsi aparıcı motiv kimi çıxış edir. Bunu istər dünyanın yaranması ilə bağlı olan kosmoqonik miflərdə, istər etnosun mənşəyi ilə bağlı olan etnoqonik miflərdə, istərsə də mövsümi proseslərlə əlaqədar olan təqvim miflərində görmək mümkündür. Mifoloji mətnlərin yaranması və onların folklor mətnlərində ünsürlər şəklində qorunub saxlanması ibtidai insanın təbiətə və təbiət qüvvələrinə baxışı ilə sıx əlaqədardır. Söz, hərəkət və oyun vasitəsilə təbiət qüvvələrinə təsir göstərmək arzusu ibtidai insanda mifoloi mətnləri yaratmaq və ifa etmək ehtiyacı doğurmuşdur. Bunların sırasında "Kosa-Kosa", "Qodu-Qodu", "Novruz", "Xıdır Nəbi" və b. mərasim nəğmələrini və bunları müşayiət edən rəqsləri göstərmək olar.

Kamran Əliyev xalq dramları haqqında danışarkən belə ifadə etmişdir: ""Kosa gəlin", "Keçəl", "Xıdır Nəbi", "Bic nökər", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Kosa-kosa" kimi xalq dramları uzun əsrdən bəri yüksək tərbiyəedici keyfiyyətləri ilə insanların mənəviyyatına daxil olmuş, onların bədii zövqünü inkişafında mühüm rol oynamışdır". Görkəmli folklorşünas Təhmasib Fərzəliyevin dediyi kimi, "dram xalq tamaşası

başqa xalqlarda olduğu kimi, Azərbaycanda da tarixin ayrı-ayrı mərhələlərində əmək, ibtidai yaşayış, qədim adət-ənənələrə əsaslanaraq yaranmış və hər bir tarixi dövürdə yeni məzmun, yeni məna kəsb edərək formalaşmışdır".

Böyük çillənin daxil olduğu gün – 21 dekabr müəyyən bir mərasimlə səciyyəvidir. Buna el arasında "Çillə qarpızı" mərasimi də deyilir. Adətən, yayın axırlarında gözəgəlim bir qarpız seçər və onun üzərində ya xətlər çəkər, ya da saplağına qırmızı lent bağlayıb nişanlayarlar. Payız girəndə həmin qarpızı ot tayasında gizlədərlər və sözün həqiqi mənasında da onu gizli saxlayarlar. Həmçinin çillə qarpızı xarab olmasın deyə onu tayadakı samanın içərisinə qoyarlar. Qışın girən günü, yəni 21 dekabrda qarpızı sinidə süfrəyə gətirərlər. Hamı süfrənin başına toplaşar və evin ağsaqqalı onu iki üz bölər. Müdrik adamlar payız havasının təsiri altında qalmış qarpızın içindən – çox vaxt onun rəngindən qışın necə keçəcəyini müəyyənləşdirərlər. Sonra da qarpızı dilimləyərək ailədəki hər adama bir dilim verərlər. Hətta maraqlıdır ki, onun qabığını çölə, bayıra, xüsusilə zibilliyə atmazlar, onu sərib qurudarlar.

"Çillə qarpızı" mərasimi diqqəti qışa cəlb etmək, uşağı-böyüyü ehtiyatlı olmağa çağırış deməkdir. Hər halda bu mərasim Böyük çillənin, daha geniş mənada qışın gəlməsinin nümayişkəranə şəkildə elan edilməsidir" (8, 262).

Mövsüm nəğmələrinin içərisində ən geniş yayılan Xıdır Nəbi nəğməsidir. Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir. Xıdır İlyas adətən təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur, Xızır peyğəmbərlə eyniləşdirilir.

Dədə-babadan qaydadır ki, hər il qış yarı olanda Böyük Çilləylə Kiçik Çillə arasında Xıdır bayramı keçirilərdi. Bəzi yerlərdə Xızır Nəbi, bəzi yerlərdə isə Xıdır İlyas adı ilə tanınan bu el bayramı ötən əyyamlarda böyük təmtəraqla qeyd olunardı. Köhnə ki-

şilərin hesabına görə Kiçik Çillənin əvvəlində, indiki vaxtla götürdükdə təqribən fevralın 1-ci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavanlar bir yerə toplaşar, dəstələnib Xıdır nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığardılar.

Başqa mənbələrdə isə həmin gecənin İkinci Çillənin qurtarmasına 2-5 gün qalmış keçirildiyi bildirilir. Və həmin bu mərasim "Xıdır Nəbi" bayramı adlandırılır.

Kiçik Çillənin çıxması münasibətilə keçirilən Xıdır Nəbi bayramı həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır. Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

Xıdır Nəbi, Xıdır İlyas
Bitdi çiçək, oldu yaz!
Mən Xıdırın quluyam,
Boz atının çuluyam
Xıdır getdi hayınan,
Bir qulança dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı.
Xıdır, Xıdır, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz (2, 30).

Xızır Azərbaycan xalqının dini görüşlərində, inanclarında bu gün də yaşamaqdadır. Müqəddəs Quranda Xızır peyğəmbər kimi təqdim olunur. İslami görüşlərə görə, Xızır müsəlman rəvayətlərinin personajı, ilk insanlardan biri, əbədi həyat bəxş olunmuş insan, dörd ölümsüzdən biridir. Adalarda yaşayır, havada uçur, həmişə yer üzündə səfərdədir, dənizdə üzənlərin hamisidir. Onu dua ilə köməyə çağırmaq olar, müxtəlif bədbəxtliklərin qarşısını alır. Rəngi yaşıldır, suyun bitkilərə verdiyi həyatı təcəssüm etdirir. Türk mifoloji görüşlərində Xıdır//Xızır göy-göyərti, yaşıllıq məbudu, İlyas isə su məbudu olmuşdur (14, 58). İlyas vəzifə bölgüsünə görə Xızırın yanında yer alsa da, Xızırın hər iki tərəfdə, yəni həm

quruda, həm də dənizdə əsas rolları yerinə yetirdiyi göz qabağındadır. Xızırın həm quruda, həm də dənizdə etdiklərindən bəhs edən çoxlu əfsanələrlə müqayisədə İlyasdan danışan əfsanələrə çox az rast gəlinir (13, 123). Bu obraz Yaxın Şərqin bir sıra mifoloji obrazlarının səciyyəsini özündə cəmləşdirsə də, o, sırf müsəlman mifik obrazıdır. Xızırın funksiyaca çox geniş məna tutumu var: yazın gəlişi ilə bağlı funksiyaları; xilaskarlıq, itənlərə yol göstərmə; buta vermə; aşiq, aşıq etmək; sonsuzlara övlad vermək; gəncliyin hamisi, ailə-məhəbbət məbudu; adqoyma; ölüləri diriltmə (5, 117).

Xızır dinə görə, peyğəmbərlərdən biridir ki, nağıllarda Xıdır Nəbi (peyğəmbər) adlanır. Ədəbiyyatda Xızırın zülmətə getməsi və abi-həyatdan (dirilik suyundan) içməsi əfsanəsi gah İsgəndər, gah da İlyas ilə bağlanır (4, 101).

Nizami bu adı Xızır şəklində qəbul etmiş və İlyasdan ayırmışdır. İlyas suda fəlakətə uğrayanları xilas edir, Xızır isə dirilik suyu içmiş, əbədi yaşayan varlıqdır, böyük sürətlə hərəkət edir, səhralarda azanlara, dara düşənlərə əl yetirir.

Nizaminin Xızırı Xıdırdan fərqləndirməsi, ona başqa keyfiyyətlər verməsi, yəqin, səbəbsiz deyil. Xızır türk dilli xalqların, o cümlədən azərbaycanlıların mifologiyası ilə əlaqədar addır. Professor Mirəli Seyidov bu adı "xız" (istilik, hərarət) və "ır" (ər, kişi) tərkib hissələrinə bölür.

Ərəblərin və türkdilli xalqların Xıdır və Xızır haqqında əfsanələri tarixin hansı qatlarında isə, görünür, toqquşmuş, qismən birləşmiş, başqa qəhrəmanın adı Xızır-İlyas, Xıdır-İlyas şəklinə düşmüş, qismən də birləşərək paralel yaşamışdır. Xıdır deyəndə bir mifoloji təsəvvürlər toplusu, Xızır deyəndə başqası nəzərdə tutulmuşdur. Hər halda, Xıdır adının "köməyə çatan" kimi başa düşmək lazımdır.

İlyas – Parisin baş meydanı Yelisey çölü adlanır. İlyas və Yelisey İlya adının müxtəlif variantlarıdır.

Xıdır – hərfi izahı çətin deyil. Ərəb məişətində İlyas peyğəmbərin başqa adı olan Əlxıdır, yaxud Xıdır "yaşıl, yaşıllıq" mənasını verir. Ad əslində Tövratdan gəlir. Qədim yəhudi dilindən tərcümədə "ilahi qüvvə" mənasını verir. Lakin Şərq aləmin-

də onun məcazi mənası “dada çatan, xilas edən”dir. Çünki ərəb rəvayətlərində də İlyas peyğəmbərdir, suda fəlakətə uğrayanlara kömək edir. İlyas hədislərində İlyasın bir adı da Xızırdır.

Beləliklə, “Çillə qarpızı” və “Xıdır Nəbi” mərasimləri eyni zamanda bayram günlərində səməni göyərdilməsi hadisəsi bir-biri ilə qırılmaz tellərlə bağlıdır və hər üç çilləni əhatə edərək insanların gələcək həyatı uğrunda arzularını ifadə edir. Çillə qarpızının buğdanın küləşi – samanın içərisində gizlədilməsi, Xıdır Nəbi bayramında buğdanın qovrulması və Novruz günlə-rində buğdanın cücərdilməsi insanın həyata və zamana bağlılığının konkret faktları və sübutlarıdır (8, 263-264).

Azərbaycan xalqının şifahi poetik yaradıcılığı kimi mənalandırdığımız folklorun tarixi Azərbaycan ərazisində ilk insan məskənlərinin meydana çıxmasına gedib çatır. Azərbaycan dünyanın ən zəngin folklor sərvətlərindən birinə sahibdir.

Azərbaycan folklor nümunələrinin böyük bir qrupu xüsusi olaraq uşaqlar üçün yaradılmışdır. Bunlar həm lirik, həm epik, həm də dramatik növlərə məxsus örnəklərdir. Lirik növə aid janrlar: layla, oxşama, nazlama, uşaq mahnıları; epik növə: tapmaca, yanıltmac, qaravəlli, uşaq nağılları; dramatik növə isə uşaq oyunları və tamaşalar daxildir.

Kamran Əliyev Hüseyn Cavidin “Səyavuş” faciəsində xalq dramının xüsusiyyətlərindən istifadə olunduğunu qeyd etmişdir. Həmin xalq dramı “Kosa-kosa” oyunudur (8, 230).

Azərbaycan folklorunun dramatik janrları xalq oyunları və meydan tamaşaları ilə təmsil edilmişdir. Bunların ən səciyyəvi örnəyi kimi “Kosa-Kosa” dramını göstərmək olar.

Keçmişdə insanlar istirahət saatlarını mənalı keçirmək üçün müəyyən oyunlardan istifadə etmişlər. Oyunlardan fərqli olaraq, xalq tamaşaları başqalarına göstərilmək üçün icra edilir. Çox zaman karvansara həyətlərində, şəhər, qəsəbə, kənd meydanlarında göstərilən belə tamaşalardan biri də “Kosa-kosa”dır.

Yaz bayramı ilə əlaqədar tamaşaya qoyulan oyunlardan biri “Kosa-gəlin”, yaxud “Kosa-kosa” adlanır. Bu tamaşada aşağıdakı şəxslər iştirak edir: Kosa, onun köməkçisi olan ikinci bir Kosa və

Keçi; çox zaman isə həmin köməkçi kosanın əvəzində səhnəyə yalançı pəhləvan çıxır. Yalançı pəhləvan sirklərdə gördüyümüz klonu xatırladır. Əsas Kosa geyinib tamaşaya hazırlaşır; üzünə maska taxır, başına uzun şiş papaq qoyur, uzun ləbbadənin altına yorğan qurşaq sarıyır, zınqırovlar asır, çömçə götürür. Üzünə taxdığı maskada isə kosalıq əlamətləri aydınca göstərilir (6, 93).

A Kosa, Kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana (3, 209).

Bəzi mənbələrdə isə Kosa belə təsvir olunur:

Kosa əyninə tərsinə kürk geyinmiş uzundraz bir adamdır. Başında uzun motal papaq, ayağında şişburun, iri çarıq var. Boynundan zınqırov sallanır. Paltarının altından qarnına yastıq bağlayıb. Əlində bəzəkli qırmızı çömçə tutub, çiynində boş xurcun sallanır. Məzəli yerişlə meydana daxil olub zurna-nağara çalğısı altında belə deyir:

Novruz-Novruz bahara,
Güllər-güllər nübara,
Kim yığa, kim apara,
Baxçamızda gül olsun,
Gül olsun, bülbül olsun.
Mən gəlmişəm kef görüm,
Zurna görüm dəf görüm (1, 18).

Camaat yenə Kosanı ələ salır, ona gülür, istehza edir. Kosa da öz məzəli hərəkətləri ilə camaatı güldürür, əyləndirir. Kosa öz hərəkətləri ilə hamını başa salmağa çalışır ki, o həm pulsuz, həm də acdır. Bütün bunlara baxmayaraq, heç kəsin Kosaya yazığı gəlmir, ona kömək etmək istəmirlər. Belə olduqda Kosa deyir ki, bu ölkədən çıxıb uzaq bir ölkəyə getməlidir. Burada güzəranı pis keçir: o, hönkür-hönkür ağlayır. Onun bütün hərəkətləri gülüş doğurur. Yalançı pəhləvan da öz oyunları, hərəkətləri ilə camaatı güldürür. O, kosaya deyir ki, bu ağır vəziyyətdən çıxış üçün keçiyə müraciət etmək lazımdır. Bir çobanı keçi dərisinə salıb səhnəyə buraxırlar. Keçinin çox uzun saqqalı var. Kosa saqqalın-

dan tutub keçidən soruşur ki, mən gələndə sənin saqqalın yox idi, bu hardan olub? Keçi çox gülünc hərəkətlərlə cavab verir ki, həccə getmişdim, orada uzatmışam. Kosa dərdini keçiyə açır, o da ağzında bir ağac camaata tərəf üz tutur və pul istəyir, pul yığılır, Kosa isə pulun çox hissəsini özü götürür, az hissəsini Yalançı pəhləvana verir, Keçiyə isə bir şey çatmır. Keçi başına döyür, ağlayır, ac balalarını səhnəyə çağırır, balaları ilə Kosaya yalvarır. Kosa isə onlara məhəl qoymur. Keçi yenə camaatdan pul yığır, bunu da Kosa onun əlindən alır. Keçini və balalarını da səhnədən qovur, özü isə yorğunluğunu almaq üçün yıxılıb yatır. Keçi yavaş-yavaş səhnəyə daxil olur. Yuxulayan Kosanı vurub öldürür. Yalançı pəhləvanın isə bundan xəbəri olmur. O, Kosanın yanına gəlib min cür oyun çıxarır, camaatı güldürür, nəhayət, aydın olur ki, Kosa ölüb. Yalançı pəhləvan bundan sonra da öz gülünc hərəkətlərini davam etdirir, mahnılar oxuyur:

Arşın uzun, bez qısa,
Kəfənsiz öldü kosa.

Camaat sevinir, keçi də balaları ilə səhnəyə daxil olub şənliyə qoşulur, hamı oxuyur.

Bu xalq tamaşasının əsas qayəsi qışın qovulması və yazın qarşılanmasıdır. Kosa qışın rəmzidir. Elə onun kosalığı özü də quru qışın təcəssümüdür. Keçi isə yazın, həyatın, yaşıllığın rəmzidir. Təsadüfi deyildir ki, kosanı – qışı keçi – yaz öldürür və hamını sevindirir.

Hüseyn Cavidin "Səyavuş" əsərində də xalq dramının məhz bu xüsusiyyəti öz əksini tapmışdır. Əsərdə Kosanın səfəri və sonda ölümü xalq dramı ilə tamamilə səsləşir. Çünki "Kosa-kosa", hətta "Kosa gəlin" oyununun da "mərasimlə bağlı mənası qurtaran qışın qovulması, başlayan yazın alqışlanmasıdır" (9, 237).

"Kosa-kosa" xalq dramında olduğu kimi, Hüseyn Cavidin "Səyavuş" pyesində də Kosa mənfi surət olaraq axırda öldürülür.

Hüseyn Cavid "Kosa-kosa" xalq dramından istifadə edərkən başqa bir səciyyəvi xüsusiyyətə də sadiq qalmışdır. Belə ki, faciədə baş verən bu hadisə yaz günlərinə düşür. Çünki Rəqqasə

Əfrasiyab sarayına yola düşməmişdən qabaq oxuduğu şərqidə deyir (9, 240):

“Qayğısız baharın ılıq busəsi
Tellərimə qondu zülmət uçarkən.
Sərxoş bülbüllərin o bayğın səsi
Oxşadı ruhumu güllər açarkən.
Yasəmən, nilufər, sünbül, bənəfşə
Mey sundular mana almas jalədən” (10, 173).

Bütün bunlar sübut edir ki, Novruz bayramı mərasimləri qışdan xilas olmaq, yaza çıxmaq əhvali-ruhiyyəsini əks etdirdiyi kimi, həmin mərasimlərə aid poetik mətinlər də xalqın arzu və istəklərini özündə təcəssüm etdirən obrazlar və bədii detallarla zəngindir. Novruz bayramı və Novruz mərasimləri öz müasirliyi və həyat əhəmiyyəti ilə həmişə xalqın sevimli bayramı kimi yaddaşlarda qalacaq və yaşayacaqdır (8, 267).

Beləliklə, səhnə içərisində səhnə meydana çıxır. Daha əhəmiyyətlisi odur ki, bu “daxili səhnə” hər hansı bir klassik dramaturqun əsərindən deyil, xalq tamaşasından, xalq oyunundan götürülür.

Meydan tamaşaları içərisində zaman keçdikcə əyləncə xarakterli tamaşalar üstünlük təşkil etməyə başlamışdır. Xalqın müxtəlif şənliklər və mövsüm mərasimlərinin ümumi əhvali-ruhiyyəsinə uyğun tamaşaların yaranmasına mühüm ehtiyac var idi. Asudə vaxtları, işdən sonrakı boş saatları əyləncəli, xoş, şən keçirmək xalqın ümumi psixologiyası ilə sıx bağlı idi. Cıdır tamaşalarındakı bayram əhvali-ruhiyyəsi xalqın demək, gülmək, əylənmək, sevinmək istəyi ilə sıx bağlı olduğu kimi, əyləncə tamaşalarında asudə vaxtları şən, mənalı və maraqlı keçirmək arzusu ilə əlaqədar yaranmışdır. Kədəri də, qəmi də gülüşlə yüngülləşdirmək ənənəsi bəzən çətin, ağır, bəzən də fərəhli həyat sürən xalqın şifahi yaradıcılığında həmişə aparıcı mövqe daşımış, ən çətin anda xalq gələcəyə inamını itirməmişdir. Əyləncə tamaşaları da bu müdriklik ideyaları ilə bağlı olub xalqın gündəlik məişəti ilə əlaqədar yaranmışdır. Əyləncə tamaşalarında gülüş ön plandadır. Gülüş obyekti konkretdir, tamaşalar gülüş doğuran epizodlarla yanaşı, gülüş yaradan obrazlarla da zəngindir. Məlumdur ki, belə obrazlar mey-

dan tamaşalarında kosalar və təlxəklərdir. Əyləncə tamaşaları bəzən dərin ictimai, bəzən də ənənəvi ailə-məişət və gündəlik davranış qaydalarını əhatə edən gülüşlə cilalanır. Bu gülüşdən sonra yorğunluq azalır, tamaşaçı dincəlir, baxdığı tamaşa ona müəyyən estetik zövq verir. Bütün bu keyfiyyətlərinə görə başqa xalqların şifahi yaradıcılığında olduğu kimi, Azərbaycan xalq poeziyasında da əyləncə tamaşaları hələ çox qədimdən geniş yayılmışdır. Orta əsrlərdən başlayaraq bu tipli tamaşalar bütün Azərbaycan ərazisində kütləvi tamaşalardan olmuşdur. Xüsusən, Cənubi Azərbaycanda – Təbrizdə, Həmədanda geniş yayılan əyləncə tamaşaları Azərbaycan ərazisinin hər yerində böyük şöhrət tapmışdır. Bir sıra məzhəkəçilər, sim pəhləvanları, kəndirbazlar Cənubi Azərbaycandan gələrək maraqlı tamaşalar göstərirdilər.

Əyləncə tamaşalarının tamaşaçı auditoriyası həmişə geniş olmuşdur. Açıq havada keçirilən bu tamaşalara ayrı-ayrı kəndlərin demək olar ki, bütün əhalisi, qoca, cavan, uşaq, gəlin, qız cəmləşərdi.

Əyləncə tamaşaları Azərbaycanda xalq teatrının yaranmasında mühüm mərhələlərdən biri olmuşdur. Onların bizə gəlib çatan bir sıra maraqlı nümunələri vardır. Onlar içərisində gözbağlıca tamaşaları xüsusi yer tutur. Mənşə etibarı ilə sehrkarlıqla bağlı olan bu tamaşalar öz ilkinlik xüsusiyyətini çox az qoruyub saxlaya bilmişdir. Qədim şumerlər içərisində geniş yayılmış sehrkarlıq Azərbaycan ərazisində – Dərbəndətrafı zonada bu ərazinin çox qədim, demək olar ki, ilkin sakinləri olan türk etnosları içərisində də qüvvətli şəkildə mühafizə olunmuşdur.

Lakin zaman keçdikcə sehrkarlıq zəifləməyə, yerini nisbətən zəif meydan tamaşalarına verməyə başladı. Məlumdur ki, bu, böyük tarixi bir inkişaf prosesi idi və heç də birdən-birə baş verməmişdir. Azərbaycan ərazisində sehrkarlıq sənəti ilə bağlı bir sıra meydan tamaşaları olmuşdur. Bəzi hallarda isə çox qüdrətli, gücə və qüvvəyə malik sehrkar obrazlar bədii əsərlərdə obrazlaşmış, bizə bəzən mifik, bəzən də yarımmifik obrazlar şəklində gəlib çatmışdır.

Azərbaycanda gözbağlıca tamaşalarından ən geniş yayılanı "Musanın əsası"dır. Bu tamaşa bəzən gözbağlıca, bəzən də sırf

sehrkarlıq tamaşası hesab edilir. Tamaşanın Yaxın və Orta Şərqdə bir-birindən fərqli müxtəlif variantları vardır. Orta asiya xalqlarında, xüsusən özbəklər və türkmənlər, kabarda-balkar və qazaxlarda da bu tamaşanın bir-birindən o qədər də seçilməyən variantları mövcuddur.

"Musanın əsası" adlı gözbağlıca tamaşası vaxtı ilə şifahi yaradıcılığımızın qədim janrları barədə dəyərli mülahizələri olan Ə.Haqverdiyevin diqqətini cəlb etmişdir. Böyük ədib bu meydan tamaşası barədə yazırdı: "Musanı sehrbaz hesab edən Misir fironu öz məmləkətində yaşayan bütün sehrbazları qıcırtdırıb əmr edir ki, Musanın möcüzələrinə inanan və onun ardınca gedən camaatın gözünü açmaq üçün onlar Musanın əsasına bənzər bir şey düzətsinlər. Sehrbazlar da taxtadan əjdahalar düzəldir, onları yağlayır və taxta əjdahalar yeriməyə başlayırlar.

Bu zaman Musa öz əsasını ortaya atır, əsa əjdahaya çevrilərək bütün taxta əjdahaları udur. Sonra Musa əjdahanın quyruğunu dartır, o dərhal adi əsaya çevrilir. Lakin taxta əjdahalar artıq yox olur" (12, 98).

Bu tamaşada işlənən Musa antroponiminin yaranmasının iki cür izahı var. Hər ikisi də yəhudilərin peyğəmbəri Musanın (Moiseyin) guya körpə ikən başına gələn əhvalatla əlaqədardır. Həmin əhvalat belədir:

Guya bir vaxt yəhudilər artıb Misiri basıblarmış. Onda yerli hakim əmr edir ki, bu artımın qabağı süni surətdə alınsın. Buna görə də dünyaya gələn bütün yəhudi oğlanlarının öldürülməsinə qərar verilir. Belə amansız bir şəraitdə bir ana öz körpə oğlunu üç ay yad gözdən qoruyur. Lakin bundan artıq gizlətməyə imkanı olmadığından o, qarğıdan səbət düzəldir, səthini qatranla örtür. Sonra oğlunu su keçirməyən bu "beşiyə" qoyur, sahildəki qamışlıqda onu çaya buraxır. Sular körpəni aparır.

Xoşbəxtlikdən həmin gün fironun (Tövratda bütün Misir hökmdarları belə adlanır) qızı öz qaravaşları ilə Nildə çimməyə çıxıbmış. O, səbətdə üzən uşağı görür, işin nə yerdə olduğunu başa düşür, körpəni xilas edir. Şahzadə qız oğlana ad qoyur.

Rəvayətin bu yeri mübahisəlidir. Bəziləri belə hesab edirlər ki, uşağa Mesu (yaxud Meşu) adı qoyulubmuş. Bu isə qədim Misir dilində "körpə uşaq, övlad" deməkdir. Başqaları hesab edirlər ki, ad Moisey qoyulub. Bu isə yəhudi dilində "çıxarılmış" deməkdir, uşağın sudan çıxarılması nəzərdə tutulur (11, 155).

Qaravəlli tamaşalarında zəngin xalq tamaşalarının, xalq dramlarının və xalq oyunlarının ənənələrindən geniş istifadə edilirdi. Azərbaycan xalq tamaşalarında yuxarı təbəqənin nümayəndələri ilə aşağı təbəqənin nümayəndələri, eləcə də azad, mütərəqqi düşüncə sahibləri ilə, mürtəce və mühafizəkar fikir sahibləri arasında daim ölüm-dirim mübarizəsi gedib, onlar həmişə bir-birlərilə əsaslı şəkildə qarşıdurmada olublar. Belə bir mübarizə şəraitində xalq ümumi inkişafa mane olan mənfilikləri, nöqsanları, naqislikləri – ümumiyyətlə, hər növ ictimai bəlaları aradan qaldırmaq üçün "Məsxərə", "Hoqqa" oyunları, o cümlədən "Məzhəkə" və "Qaravəlli" kimi komediya tamaşaları yaradıb. Bununla da xalq cəmiyyətin bütün eybəcərliklərinə qarşı mübarizə aparıb, yumor və satira silahı ilə tənqid hədəflərini sərrast nişan alıb, tamaşaçıları bəşəri ideyalar uğrunda mübarizəyə səsləyib. Bu tamaşalarda gülüş həqiqəti, ədaləti, humanizmi ifadə etmək üçün bir vasitə olub, ağılla hisslərin, arzu və həqiqətin arasında üzvi bir əlaqə yaratmağa yönəldilib. Qaravəlli tamaşaları qədim azərbaycanlıların müxtəlif münasibətlərlə təşkil etdikləri ayrı-ayrı mərasimlərdən və onların müəyyən istəklərindən yaranıb, inkişaf edib. Zaman keçdikcə xüsusi teatr tamaşaları da meydana gəlmiş və bunlar da öz mövzu rəngarəngliyi, gözəl sənətkarlığı ilə diqqəti cəlb etmişdir. Məşhur ədibimiz Ə.Haqverdiyev göstərir ki, xalq tamaşaları hər bir zaman xalqların həyatında mühüm rol oynamışdır. Açıq meydanlarda, həvəskar camaatın göz qabağında və heç bir dekorasiyadan istifadə etmədən oyun çıxaran müxtəlif sehrbazlar və yalançı pəhləvanlar kütlənin diqqətini həmişə cəlb etmişdir. Ədib bir zamanlar Azərbaycanda sehrbazların meydanlarda "Şəbi oyunu" adlı teatra oxşayan tamaşa göstərildiyini xatırlayır. Bu tamaşanın qısa mövzusunu da verir: "Tamaşada iştirak edənlər tənbəl Şəbi və onun atasından

ibarət idi. Şəbi işləmək istəmir, atası onu danlayır, dilə tutur ki, tənbəllikdən əl çəkib işə qurşansın. Şəbi isə oturmaq üçün min cür bəhanə gətirir. Onun hər bir bəhanəsi şiddətli gülüş doğurur. Bu tamaşa çox qısadır, cəmisi 10-15 dəqiqə çəkir. Nəsihət etməkdən cana gələn ata, oğlunu küçə sözləri ilə söyərək döyməyə başlayır. Şəbi bağıra-bağıra yıxılaraq bir çox ədəbsiz hərəkətlər edir. Camaat heyran qalır, tamaşa qurtarır (13, 85).

"Şəbi oyunu" adlı tamaşada işlənən Şəbi antroponiminin ərəb mənşəli olub məğlub edilmiş tərəfdən əsir tutulub satılan adam, həddi-buluğa çatmamış oğlan; gənc, uşaq anlamındadır.

Qaravəlli eyni zamanda Azərbaycanda qədimdən yayılan xalq meydan teatrı formalarından biridir. Dram əsərlərinin ilk ünsürləridir, üslubudur.

Dramatik üslubun şifahi yaradıcılıqda müxtəlif nümunələri var. Şifahi xalq ədəbiyyatında dramatik üslubun ilkin nümunələri meydan tamaşaları kimi yaddaşlarda qalıb. Meydan tamaşaları, xalq dramları, xalqın müxtəlif münasibətlərlə bağlı təşkil etdikləri mərasimlərdən yaranıb inkişaf etmişdir.

Folklorun hər bir janrında özünü göstərən dram ünsürləri mövcuddur. Danışılan, söylənilən nağıllarda, aşıqların danışdıqları dastanlarda, uşaqlara nənələrinin söylədikləri nağıllarda dram ünsürləri çoxdur.

Həyatımızın müxtəlif sahələri kimi, folklorumuz da zənginləşmiş, milli mədəniyyətimizin inkişafına təkan vermiş, teatr tamaşaları bədii-estetik zövqün formalaşmasına xidmət etmişdir. Qədim dövrlərdə teatr binaları onların qurulması üçün imkan olmadığından xalq tamaşaları açıq meydanlarda əhalinin sıx yaşadığı ərazilərdə göstərilirdi. Müxtəlif oyunlar çıxaran ilk oyunbazlar xalq kütləsinin diqqətini özünə cəlb edə biləcək məharət, xüsusi istedad sahibləri olurdu. Onların ifa etdikləri əyləncələr, oyunlar xalq tərəfindən sevilirdi, qiymətləndirilirdi.

Bu dram sənətinin ilkin, qədim köklərinin Şərqlə bağlılığı inkaredilməzdir. Tamaşalar əsatirlər, miflər əsasında formalaşmışdır. Dram sənətinin Yunanıstanla bağlanması ilə əlaqəli elm aləmində ziddiyyətli, mübahisə doğuran fikirlər var. Dram sənə-

tinin yaranması tarixini araşdıran Jüzeppe Metsini yunan mifologiyasının da bütünlüklə Şərq mənşəli olduğunu söyləmişdir. Teatrın inkişafında xalqların bir-birinə təsiri olsa da, hər xalqın özünəməxsus yaradıcılıq ənənəsinin olduğu inkaredilməzdir.

## QAYNAQLAR


1. Ağalar Mirzə, Mehdiyev İntiqam "Novruz töhfələri", Bakı, "Gənclik", 1990, səh.110
2. Azərbaycan folklor antologiyası, I kitab. "Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı", Bakı, 1968, səh. 289
3. Azərbaycan xalq ədəbiyyatından seçmələr (Qaravəllilər, oyunlar və xalq tamaşaları). "Şərq-Qərb", Bakı, 2005, səh. 311
4. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların şərhi, "Maarif" Nəşriyyatı, Bakı, 1974, səh.135
5. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", XXXIV, Bakı, 2010
6. Babayev İmran, Paşa Əfəndiyev. "Azərbaycan şifahi xalq ədəbiyyatı". "Maarif" Nəşriyyatı, Bakı, 1970, səh. 267
7. Əfəndiyev Paşa. "Azərbaycan şifahi xalq ədəbiyyatı". "Maarif" Nəşriyyatı, Bakı, 1981, səh. 401
8. Əliyev Kamran. Çağdaş folklorşünaslığın problemləri. Bakı, "Elm və təhsil", 2017, 364 səh.
9. Əliyev Kamran. Hüseyn Cavid: həyat və yaradıcılığı. Bakı, Elm, 2008, 324 səh.
10. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. IV cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
11. Mirzəyev Osman. "Adlarımız". "Azərbaycan Dövlət Nəşriyyatı". Bakı, 1986
12. Nəbiyev Azad. "El nəğmələri xalq oyunları". "Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 1988
13. Ocak A.Y. "İslam-Türk inançlarında Hızır Yahut, Hızır-İlyas kültü". Ankara, "Ankara Universitesi Basımevi", 1985, səh. 229
14. Seyidov M. "Azərbaycan mifik təfəkkürünün qaynaqları". Bakı, "Yazıçı", 1983, səh. 326

# KAMRAN ƏLİYEVİN FOKLORŞÜNASLIQ FƏALİYYƏTİ
## ("Açıq kitab – Dədə Qorqud" monoqrafiyası əsasında)

# FOLKLORE ACTIVITY OF KAMRAN ALIYEV
## (Based on the monograph "Open Book ‒ Dede Gorgud")

# ФОЛЬКЛОРИСТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ КАМРАНА АЛИЕВА
## (На основе монографии "Открытая книга – Деде Горгуд")

**Gülnar Nurəddin qızı MƏMMƏDOVA**
*AMEA Folklor İnstitutunun doktorantı*

**Özət**

Məqalədə görkəmli ədəbiyyatşünas və folklorşünas alim Kamran Əliyevin folklorşünaslıq elmi ilə bağlı araşdırmalarından bəhs edilmişdir. "Açıq kitab – "Dədə Qorqud" əsəri alimin orijinal əsərlərindəndir, daha doğrusu, "Kitabi-Dədə Qorqud" eposunun Kamran Əliyev dili ilə yenidən oxunuşudur. Qeyd edək ki, monoqrafiyada müəllifin "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı irəli sürdüyü tezislər öz elmi yeniliyi ilə səciyyələnir. Məqalədə kitabın dil xüsusiyyətləri, kompozisiya və quruluşunun özünəməxsusluğuna da nəzər salınmışdır. Heca vəzninin at yerişi ilə əlaqələndirilməsi kimi tezisləri diqqətdə saxlanmışdır. Xüsusilə, "Basatın Təpəgözü öldürdüyü boy"a dair irəli sürülən elmi fikirlər, dastandakı Oğuz elinin xanımlarına aid edilən təşbehlərin mövsümi xarakter daşıması ilə bağlı fərqli elmi yanaşmalar incələnmişdir.

**Açar sözlər**: Kamran Əliyev, "Kitabi-Dədə Qorqud", heca vəzni, at yerişi, Təpəgöz

**Summary**

The article reviews the research carried out by Kamran Aliyev, a prominent literary critic, linguist and folklorist on folklore science.

The open book – "Dada Gorgud" is considered one of the original works of the scientist, namely, the re-reading of the Epos "Kitabi-Dada Gorgud" in the interpretation of Kamran Aliyev.

It should be noted that the author's theses related to the Epos "Kitabi-Dada Gorgud" reflected in the monograph are characterized by their scientific novelty. The article also reviews the language features, composition and structure of the book. Theses have been specifically focused on topics such as the association of syllabic size with horse gaits. In particular, the scientific views regarding the story titled "How Basat Killed Tapagoz" (a mythic character - one-eyed monster) and different scientific approaches with regard to the seasonal nature of analogies used in relation to Oghuz women in the saga were comprehensively studied.

**Key words**: Kamran Aliyev, "Kitabi-Dada Gorgud", syllabic size, horse gate, Tapagoz

**Резюме**

В статье рассматриваются исследования известного литературоведа и фольклориста Камрана Алиева по фольклору. «Открытая книга - «Деде Горгуд» - одно из оригинальных произведений ученого, а точнее, перечитываниеэпоса «Китаби-Дада Горгуд» на языке Камрана Алиева. Следует отметить, что авторские тезисы по эпосу «Китаби-Деде Горгуд» в монографии характеризуются своей научной новизной.В статье также рассматриваются языковые особенности, оригинальность композиции и структуры книги. Были учтены такие тезисы, как связь слогового размера с ходьбой лошади. В частности, были изучены научные мнения о разделе «бой, в котором Басат убивает Тепегёза» и различные научные подходы к сезонному характеру уподоблений (сравнений), которые относятся огузским женщинам в саге (дастане).

**Ключевые слова:** Камран Алиев, «Китаби-Деде Горгуд», слоговой размер, конная ходьба, Тепегёз

Şərəfli və məhsuldar bir ömür yaşamış Kamran Əliyevin Azərbaycan ədəbiyyatının, xüsusən də folklorşünaslığının ən mühüm problemlərinin öyrənilməsində müstəsna xidmətləri vardır. "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri", "Sədərək döyüşləri", "Hüseyn Cavidin şəxsiyyəti və poetikası", "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər", "Cavid möcüzəsi" və Azərbaycan ədəbiyyatşünaslığının müxtəlif problem-

lərinin öyrənilməsinə həsr edilən digər əsərləri xüsusi əhəmiyyət kəsb edir. Alimin folklorşünaslıq fəaliyyətində “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu”, “Çağdaş folklorşünaslığın problemləri”, “Açıq kitab – “Dədə Qorqud” əsərləri mühüm yer tutur. Kamran Əliyevin folklorşünaslıq fəaliyyətində türk xalqlarının tükənməz abidəsi olan “Kitabi-Dədə Qorqud” eposu ilə bağlı araşdırması olan “Açıq kitab – “Dədə Qorqud” yeni yanaşma tərzi ilə səciyyələnir. “Açıq kitab – Dədə Qorqud” monoqrafiyası Türkiyə və İranda da çap edilmişdir.

“Açıq kitab-Dədə Qorqud” kitabı sanballı tədqiqat əsəridir və bir mətn kimi müəyyən struktura malikdir. Hər bir əsərə bir mətn kimi yanaşdıqda onun makrostrukturunu anlamaq mümkündür. “Açıq kitab – Dədə Qorqud” monoqrafiyası da maraqlı struktura malikdir. Kitabın quruluşu həcm etibarilə kiçik olan mətn parçalarının məntiqi ardıcıllığından ibarətdir. İlk növbədə monoqrafiyanın adı – “Açıq kitab” ifadəsi özlüyündə dərin məna kəsb edir, yəni epos hər bir tədqiqatçı üçün açıq kitab rolunu oynayır və hələ araşdırılmamış, işıqlanmamış məsələlərin kifayət qədər olduğunu və yeni tədqiqat işlərinin yazılmasına ehtiyac duyulduğunu göstərməyə çalışır. Başqa şəkildə ifadə etsək, “Açıq kitab – “Dədə Qorqud” “Kitabi-Dədə Qorqud” dastanının Kamran Əliyev dili ilə yenidən, yeni tərzli oxunuşu kimi kitabın adı ilə mətni arasındakı məntiqi əlaqəni təcəssüm etdirir. Kitab özünəməxsus kompozisiyası və quruluşu ilə səciyyələnir. Hər bir hissə bu hissələrə seçilən adlar bir-birini məntiqi şəkildə tamamlayır.

“Kitabi-Dədə Qorqud” abidəsinin tədqiqi həddindən artıq həssaslıq və milli-mənəvi dəyərlərə bağlılıq tələb edir. Təsadüfi deyil ki, monoqrafiya “Etnopoetika anlayışı” adlı bölümlə başlayır: “etnopoetika bədii düşüncə ilə etnosun təbiəti arasındakı əlaqə və təması öyrənən, bu əlaqə və təmasın xüsusiyyət və əlamətlərini meydana çıxaran bir elm sahəsi kimi qavranılır” (2, s. 3). “Etnopoetika anlayışı” adlanan hissə kitabın girişi funksiyasını daşıyır. Hər bir elmi mətnin giriş hissəsi aid olduğu elmi mətndə araşdırmanın hansı şəkildə, hansı yanaşma tərzində aparılaca-

ğına dair məlumatdır. Deməli, dünya xalqlarına məxsus olan hər bir sənət nümunəsi kimi söz sənəti də, etnos ruhundan qidalanır və xalqın bədii düşüncəsi də onun həyat tərzindən ayrılmazdır. Kitabdakı "Qoşa misralı şeir", "Qoşa misradan bəndə keçid", "Bayatı düşüncəsi", "Qoşma gəraylıya doğru" və "At yerişi və şeirin quruluşu" və b. hissələri bir-birinin məntiqi davamıdır. Xüsusilə heca vəznli şeirin at yerişi ilə təqdimi, şeir strukturunun etnos ruhu, etnos təbiəti ilə bağlanması elm aləmində yeni fikirlərin təzahürü və sərrast müşahidəsidir. Xatırladaq ki, türk etnosunun həyatında əhəmiyyətli yer tutan at obrazının mifoloji mahiyyəti kifayət qədər mürəkkəb və çoxşaxəlidir. İnsan həyatında əhəmiyyətli rol oynamayan bir canlı xalq yaradıcılığının obrazlar sistemində, mifoloji dünyagörüşündə mühüm rol oynaya bilməz. At mifologiyada fövqəltəbiilik daşımaqla o biri dünya ilə əlaqəni təcəssüm etdirir. Nəhayət, at obrazının poetik təfəkkürə təsiri, şeirin qafiyə quruluşunun atın müxtəlif yerişi ilə əlaqələndirilməsi olduqca orijinal fikirlərdir.

Monoqrafiyada obraza, motivə, mifik elementə maraqlı yanaşma tərzi və mühüm elmi yeniliklər müşahidə edilir. İrəli sürülən tezislər yeni-yeni problemlər açaraq gələcək araşdırmalar üçün mühüm mövzuları ortaya qoyur. "Açıq kitab – "Dədə Qorqud" monoqrafiyasında Təpəgöz obrazının poetikası ilə bağlı fikirlər xüsusi əhəmiyyət daşıyır. "Atası Çoban, anası Pəri olan Təpəgöz" tezisi çox diqqət çəkir və Təpəgöz obrazının mənşəyi və poetik strukturu ilə bağlı bir çox məsələləri əks etdirir. Məhz həmin obrazın poetikasının öyrənilməsi dastanın struktur və sisteminin aydınlaşmasında vacib rol oynayır. Foklorşünas alim "Kitabi-Dədə Qorqud" dastanının "Basatın Təpəgözü öldürdüyü boy"unu "Bayındır xanın hərəkətə gəlib taxtını tərk etdiyi yeganə boy" kimi qiymətləndirmişdir: "Bütün boylarda öz yerində görünən, Oğuz bəylərini ətrafına toplayan, onlarla öz iqamətgahında məsləhətləşmələr aparan Bayındır xan bu boyda səyahətə çıxmışdır. Məhz elə bu boy onun epos poetikası baxımından hərəkətə gəldiyi yeganə boydur" (2, s. 37). Doğma məkanın tərk edilməsi və təhlükə faktoru folklor poetikasında bir-biri ilə əla-

qəlidir. Folklor poetikasında məkandan uzaqlaşma təhlükədən xəbər verir və doğma məkanın tərk edilməsi faciənin baş verəcəyi anlamını daşıyır. Azərbaycan folklorunun böyük layını təşkil edən nağıl və dastan mətnlərinin poetik strukturunda da məkan anlayışı çox mühüm rol oynayır. Mifik təfəkkürdə "doğma", "özgə" və "yaxın", "uzaq" anlayışları bir-birinə zidd olaraq səciyyələnmişdir. Foklor mətnlərində odla bu və ya digər şəkildə əlaqəsi olan qüvvələrlə oda, ocağa, insanlığa zidd mövqedə duran qüvvələr arasında mübarizə geniş yayılmışdır. Bununla yanaşı, odun qoruyucusunun öz kökündən – oddan, qoruyucu qüvvəsindən ayrılması təsadüfi deyil və faciə ilə nəticələnir. Mifik təfəkkürə uyğun olaraq həmin qüvvələr arasındakı mübarizə folklorda ev, ocaq hamiləri ilə əks mövqedə duran qüvvələr arasındakı ziddiyyət şəklində öz ifadəsini tapır. Odun qoruyucusunun faciəsi o zaman olur ki, öz məkanından, yəni oddan uzaqlaşır və bu uzaqlaşma ilə o heç bir qoruyucu funksiyaya malik olmur. Nə qədər ki öz məkanındadır, kifayət qədər qoruyucu gücləri vardır və həmin obrazın məhvi mümkün deyil. Qədim insanlar belə düşünmüşlər ki, nə qədər ki, evdən uzaqdasan, o qədər təhlükəyə yaxınsan. Deməli, folklordan gələn simvolik obrazların mübarizəsinin ilkin mifik qaynağı od qoruyucusu, ocağa mənsub olan (Xoruz), insanlığa (ocağa), yaşama zidd mövqedə duran qüvvələr (Tülkü) arasındakı mübarizədir. "*Nə qədər ki evdən uzaqdasan qoruyucuların gücü o qədər zəifdir və doğma divarların aşılması daha çox təhlükə deməkdir. Ümumiyyətlə, Xoruz, Qoğal (колобок) və başqa personajlar birbaşa və dolayı yolla ocaqla əlaqəlidir"* (4, s. 56).

Bayındır xanın öz məkanını tərk etməsi də məhz Oğuz elinin başının üstünü alan təhlükə hissi ilə bağlıdır. Bu məsələnin diqqətdə saxlanılması dastanın mifik düşüncə ilə əlaqəsinin üzə çıxarılmasının təzahürüdür. Müəllifin fikirlərinə nəzər salaq*: "Fikrimizcə, boydakı qorxu hissi Təpəgözün adı ilə bağlı olmaqla yanaşı, həm də Bayındır xanın öz taxtını tərk etməsində – Oğuz elini səyahətə çıxmağındadır. Bayındır xanın öz taxtından uzaqlaşıb kənara getməsi onu həmişə öz taxtında, öz yerində görməyə adət*

*etmiş Oğuz bəyləri və hətta bütövlükdə Oğuz eli üçün ciddi bir narahatlığın ilk əlaməti və nişanəsidir. Əslində bu faktın özü də eposun poetikası üçün qeyri-adi dərəcədə əhəmiyyətə malikdir.....*

*Deyəsən, Bayındır xanı öz taxtından ayağa qaldırıb, öz sabit yerindən tərpədərək hərəkətə gətirən, səyahətə çıxaran da məhz elə onun ürəyinə dammış bu qeyri-adi hissdir − təhlükə hissidir!"* (2, s 100) Ümumiyyətlə, monoqrafiyada təkcə Təpəgöz və Bayındır xan deyil, Buğac, Uruz, Beyrək digər qəhrəmanların fəaliyyətindəki xalq düşüncəsinin, xalq məntiqinin aşkarlanması nəzərə çarpır. Xüsusilə, "Kitabi-Dədə Qorqud" eposunun əsas qəhrəmanlarından biri olan Buğac obrazının eposdakı mövqeyi ilə bağlı fikirlər vacib əhəmiyyət daşıyır. Bununla yanaşı, alim Buğacın qəhrəmanı olduğu "Dirsə xan oğlu Buğac xan boyu" adlanan ilk boyla eposun strukturu arasında iki cür əlaqənin olduğunu vurğulayır: "Birincisi, budur ki, ilk boydur. İkincisi isə boyun daxilindəki məzmunla eposun bütöv strukturunun əlaqəsidir. Başqa sözlə, birinci boy eposun doğuluş boyu olduğu kimi boyun özündə də əsas məzmun doğuluşla bağlıdır". Ümumilikdə dastan mətnlərinin, yəni həm məhəbbət, həm də qəhrəmanlıq dastanlarının poetik strukturu bir-birini işarələyən mətn parçalarından ibarətdir. İlk baxışda müəyyən hissələr ümumi mətnlə əlaqəsiz görünsə də, həmin mətnlərə bütöv sistem daxilində yanaşıldıqda böyük strukturun alt strukturu olduğunu görmək mümkündür. "Kitabi-Dədə Qorqud" dastanının müqəddimə hissəsindəki deyimlərin boyları işarə etməsi, məhəbbət dastanlarındakı ustadnamə mətnlərinin əsas mətnlə bağlılığı və digər oxşar məsələlər artıq elmdə təsbit edilmişdir.

Oğuz xanımlarının təsvirində istifadə edilən təşbehlərin mövsümi xarakter daşıması ilə bağlılığı kimi yanaşmalar tədqiqat işinin uzun illərin zəhmətinin bəhrəsi olduğunun göstəricisidir. Oğuz xanımlarının təsviri zamanı istifadə edilən təşbehlər təkrar edilsə də, bu təşbehlər arasında böyük fərq nəzərə çarpmır. Bu fərqlərin böyük olmaması da alimin maraqlı fikirləri ilə əsaslandırılır. K.Əliyev xanımlara aid edilən təşbehlərin, yəni "Güz almasına bənzər alma yanaqlım!" (1, s. 35), "Qar üzərində

qan tammış kibi qızıl yanaqlım!" (1, s. 93) və s. söyləyicinin dilində mövsümlə bağlı olaraq dəyişə bildiyini ehtimal edir. Bu fakt dastanın poetik strukturu və zəngin dil xüsusiyyətlərinin açılmasında vacib rol oynayır: "Ehtimal etmək olar ki, xanımların yanağının bəzən güz (payız) alması, bəzən də qışda qar üzərinə dammış qanla müqayisəsi mövsümi xarakterlə bağlıdır. Yəni söyləyicinin mətni payızda, yaxud qış aylarının birində söyləməsindən irəli gəlmişdir" (2, s. 38).

"Açıq kitab – "Dədə Qorqud" kitabının dili sadə olmaqla yanaşı, məntiqi şəkildə bütöv bir sistem təşkil edir. "Açıq kitab – "Dədə Qorqud" "Kitab-Dədə Qorqud" eposunun yeni tərzdə oxunuşu kimi eposşünaslığın dəyərli əsərləri sırasındadır.

## QAYNAQLAR


1. "Kitab-Dədə Qorqud". (Tərtib edənlər: F.Zeynalov, S, Əlizadə). Bakı, "Yazıçı", 1988
2. Kamran Əliyev. Açıq kitab – "Dədə Qorqud", Elm və təhsil, 2015
3. Huber, Emel/Subaşı-Uzun, Leyla: "Metin türü ve Yazma edimi İlişkisi: Bilimsel metin yazma edimi", Dilbilim araştırmaları, Boğaziçi Universiteti Yayınevi 2001, s. 9-35.
4. Минералова И.Г. Детская литература. Учебник и практикум для академического бакалавриата. М.: Издательство Юрайт, 2016, 333 с.

# ƏSL İNSAN VƏ PARLAQ ZİYALI ETALONU

**Gülnar OSMANOVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi*
*gulnar_osmanova@list.ru*

Müasir ədəbiyyatşünaslığımızda özünəməxsus tədqiqat üslubu, dəst-xətti olan alimlərimizdən biri, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, AMEA Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri olmuş Kamran Əliyev haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Çünki mənə çox əziz, dəyərli olan müəllimim, elmi rəhbərim, sözün həqiqi mənasında gözəl insan olan Kamran müəllimin vəfatını indi də qəbul edə bilmirəm. O, mənim və mənim kimi onu yaxından tanıyan insanlar üçün daim yaşayacaq.

2018-ci ildə Kamran müəllimin 65 illik yubileyi ilə bağlı işıq üzü görən kitabda mənim də onun haqqında böyük sevinclə, həvəslə yazdığım məqaləm çap olunmuşdu. Amma inanmazdım ki, üstündən heç 3 il keçməmiş vaxtsız gələn amansız ölüm onu həyatdan aparacaq və mən onun haqqında yazanda bu qədər çətinlik çəkəcəyəm.

Mənim Kamran müəllimlə qiyabi tanışlığım Bakı Dövlət Universitetinin magistraturasında oxuduğum vaxtdan başlayır. O zaman magistr dissertasiyası yazanda mən H.Cavidin “Topal Teymur” əsəri haqqında mövzu götürmüşdüm. Dissertasiya işimi yazarkən Kamran müəllimin də bir neçə kitabından bəhrələnmişdim. Bir-birindən maraqlı, orijinal üslubda yazılmış bu kitablar, xüsusilə də “Hüseyn Cavid: həyatı və yaradıcılığı” monoqrafiyası məndə bu tədqiqatların müəllifinə qarşı dərin rəğbət hissi yaratmışdı. Mən bu monoqrafiyanı oxuyanda romantizmə tamam fərqli, orijinal bir elmi yanaşmanın şahidi oldum. Alim Hüseyn Cavid yaradıcılığını elə açmış, elə maraqlı aspektdən tədqiq etmişdir ki, Cavid irsini yenidən oxumağa, öyrənməyə

can atırsan. Kamran müəllim romantizmin elmi-nəzəri, estetik, poetik, lirik-epik xüsusiyyətlərinə yeni prizmadan yanaşmış, sanballı tədqiqatları ilə fərqli mövqe nümayiş etdirmişdir.

Universiteti bitirdikdən sonra tale elə gətirdi ki, mən əmək fəaliyyətinə Folklor İnstitutunda başlamalı oldum və Kamran müəllim ilə əyani tanışlığım da bu dövrdən başladı. 2012-ci ildən Kamran müəllim mənim həm şöbə müdirim, həm də elmi rəhbərim oldu. Bu vaxtdan etibarən onun nə qədər müdrik, səmimi, diqqətcil və qayğıkeş insan olduğunun şahidi oldum və mənə aydın oldu ki, hələ tələbə ikən oxuduğum o cür orijinal, sanballı elmi əsərləri məhz bu cür şəxsiyyət və yaradıcılıq bütövlüyünə malik olan insan yaza bilər. Böyük alman şairi və filosofu İ.V.Hötenin yazdığı kimi, böyük insanlar dağa bənzəyirlər, onlara yaxınlaşdıqca əzəmət və qüdrətləri daha aşkar bilinir. Kiçik insanlar isə ilğım kimidirlər, yaxınlaşdıqca nə qədər faydasız və aldadıcı olduqları üzə çıxır. Kamran müəllim də, həqiqətən, böyük insan idi. O, əsərlərində hansı idealları təbliğ edirdisə, onun öz həyat və fəaliyyətində də həmin ideallar əsas və aparıcı idi.

Kamran müəllimin əsl ziyalıya yaraşan bir xüsusiyyəti də o idi ki, həmişə gənclərə dayaq, dəstək olar, yol göstərər, onları elmi yaradıcılığa həvəsləndirərdi. Elmi rəhbər kimi də o, çox tələbkar və məsuliyyətli idi. Belə ki, 2017-ci ildə mən Kamran müəllimin elmi rəhbərliyi ilə "Çağdaş Azərbaycan nəsrində mifologizm (1980-2010-cu illər)" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasını uğurla müdafiə etdim.

Kamran Əliyevin yaradıcılıq irsi çox zəngindir. Alim 35 kitabın, o cümlədən 10 monoqrafiyanın, 500-dən çox elmi və elmi-publisistik məqalənin müəllifidir. Elmi araşdırmalarını əsasən 2 istiqamətdə – ədəbiyyatşünaslıq və folklorşünaslıq sahəsində aparmışdır. Alimin həm romantizmlə, həm də folklorşünaslıqla bağlı tədqiqatları orijinallığı ilə seçilir. O, nədən yazırsa yazsın həmişə mətnin üzdə olan, görünən tərəflərini yox, onun daxilində olan, görünməyən cəhətlərini, xüsusiyyətlərini araşdırmışdır. Bunu onun həm romantizmdən bəhs edən əsərlərinə, həm də folklorşünaslıq irsinə aid etmək olar. O, bir çox bədii

əsərlər və şifahi xalq yaradıcılığı nümunələrinin, o cümlədən "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının poetikası haqqında çox sanballı tədqiqatlar aparmışdır. İstedadlı ədəbiyyat nəzəriyyəçisi və tənqidçi olan Kamran müəllimin bu sahədə də bir neçə mükəmməl tədqiqat işi işıq üzü görmüşdür. Kamran müəllim qələmini bədii yaradıcılıqda da sınamışdır. Onun bədii yaradıcılığına çoxsaylı şeirləri, bir-birindən maraqlı hekayələri və povestləri və bir romanı daxildir. Bədii əsərlərini oxuduqca da onların müəllifinin bütün yüksək mənəvi keyfiyyətlərə malik, səmimi, qayğıkeş, humanist xarakterli bir insan olması öz təsdiqini tapır.

Kamran müəllimin bir neçə bədii və elmi kitabının, o cümlədən 10 cildlik əsərlərinin 3 cildinin tərtibçisi olduğum üçün bu kitabları tərtib etdikcə onun öz işinə necə məsuliyyətlə yanaşdığının, dəqiq elmi mülahizələr apardığının, prinsiplərinə sadiqliyinin, insanlara qayğıkeş münasibətinin bir daha şahidi oldum.

Alimin redaktoru olduğum sonuncu kitabı "Qırmızı xətt" adlanır. Bu roman müəllifin vəfatından bir neçə ay əvvəl nəşr olundu. O, əsərdə tələbəlik həyatını əks etdirmişdir. Görünür, Kamran müəllim tələbəlik illərini həyatından gəlib keçən bir qırmızı xəttə bənzətmişdir. "Qırmızı xətt" romanını oxuduqca onun müəllifinin nə qədər səmimi, həssas, incə ruhlu, bir sözlə, alicənab bir insan olduğunun şahidi oluruq.

Kamran müəllim sanki psixoloq idi. O, insanların xarakterini çox gözəl bilirdi. Pozitiv, nikbin, yeri gələndə zarafatcıl olan Kamran müəllim həmişə insanı ruhlandırar, həvəsləndirərdi. Nə yaxşı ki, mən onun kimi əsl ziyalını, dəyərli alimi, xeyirxah insanı tanımışam, onun kimi şərəfli ömür yaşamış kamil bir şəxsiyyətlə birgə çalışmışam. Şərəfli ömür yaşayanlar isə cismən ölsələr də, mənən, ruhən əbədiyyətə qovuşurlar.

Qədim dövr Çin filosofu Konfutsi yazırdı ki, hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. Kamran müəllimin də mənəvi keyfiyyətləri onun əməllərində, fəaliyyətində həmişə öz real təcəssümünü tapmışdır.

Vəfatı ilə Azərbaycan elminə, ictimaiyyətinə dərin hüzn gətirən Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Kamran İmran oğlu Əliyev haqqında nə qədər danışsaq, nə qədər xatirələr söyləsək, yenə azdır. Kamran müəllim "evdən deyil, eldən getdi". Onun itkisi təkcə öz ailəsinin, nəslinin kədəri olmadı, bu kədərin miqyası böyüdü və ümumiləşərək onu tanıyanların hamısının hüznünə, acısına çevrildi. Onun vəfatı neçə-neçə deyiləcək fikirlərin, aparılacaq tədqiqatların sonu oldu. Lakin inanıram ki, onun kimi dərin zəkaya və geniş dünyagörüşünə malik olmuş bir alimin əsərləri hər zaman oxunacaq, ona istinadlar ediləcək, onun əsərləri oxucularının elmi biliyini və mənəviyyatını zənginləşdirəcəkdir.

Allahdan Kamran müəllimə rəhmət diləyirəm. Kamran müəllimi tanıdığım 8 il sanki mənim və əminəm ki, onu tanıyan bütün insanların həyatından bir "qırmızı xətt" kimi keçdi və bu qırmızı – gözəl xətt onu sevənlərin yaddaşında daim qalacaq, onun əziz və unudulmaz xatirəsi hər zaman xüsusi ehtiramla anılacaq.

Ruhunuz şad olsun, dəyərli alim, qayğıkeş şöbə müdiri, tələbkar elmi rəhbər və ən əsası gözəl insan! Siz Sizi tanıyanların qəlbində əbədi yaşayacaqsınız!

# KAMRAN ƏLİYEVİN FOLKLORŞÜNASLIQ İRSİ

# KAMRAN ALIYEV'S FOLKLORE HERITAGE

# ФОЛЬКЛОРНОЕ НАСЛЕДИЕ КАМРАНА АЛИЕВА

**Gülsümxanım HASİLOVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi*
*gulsumxanim@rambler.ru*

**Özət**

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, ədəbiyyatşünas-folklorşünas, professor Kamran Əliyev Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Alim yorulmadan Azərbaycan romantik ədəbiyyatını və folklorunu araşdırmış, bu mövzularda 15 monoqrafiya, 20 kitab, 200-dən artıq elmi məqalələr yazmışdır. Onun fəaliyyətinin bir istiqamətini də "folklor və yazılı ədəbiyyat" məsələsi təşkil etmişdir. Qeyd edək ki, o, alim, tədqiqatçı, ədəbiyyatşünas, filoloq, pedaqoq, folklorşünas olmaqla yanaşı, həm də müasir Azərbaycan ədəbiyyatı tarixinə bir sıra bədii əsərlərin müəllifi kimi də daxil olmuşdur. Kamran Əliyev qələminin özünəməxsusluğu onda idi ki, onun bədii və elmi mətnlərdə ortaya qoyduğu folklor bütün hallarda öz modelində təqdim olunurdu. K.Əliyev istər müxtəlif mövzularda qələmə aldığı əsərlərində, istərsə də elmi araşdırmalarında həmişə xalq ənənələrinin, inam və düşüncələrinin, ən əsası şifahi yaradıcılığın qorunmasına xidmət etmişdir.

Məqalədə Azərbaycan ədəbiyyatşünaslığında və folklorşünaslığında professor K.Əliyevin bədii irsi və elmi yaradıcılığı folklorizm problemi əsasında təhlil olunmuşdur. Onun əsərlərində folklor janrları və onların təzahür formaları, xüsusən də Xıdır Nəbi, Novruz bayramı və s. araşdırılmışdır. Eləcə də K.Əliyevin "Yalquzaq", "Zəli", "Qara köpək", "Vağzal" əsərlərində şifahi ədəbiyyata bağlı alqış, qarğış, andlar, atalar sözü və məsəllərə də geniş yer verilmişdir.

**Açar sözlər**: Kamran Əliyev, alim, folklor, professor, ədəbiyyat, yazıçı, şifahi ənənə, bədii və elmi yaradıcılıq

**Summary**

Corresponding member of the Azerbaijan National Academy of Sciences, Honored Scientist, Doctor of Philology, Literary Critic, Professor Kamran Aliyev is one of the well-known figures of Azerbaijani literature. The scientist tirelessly studied the romantic literature and folklore of Azerbaijan, wrote 15 monographs, 20 books and more than 200 scientific articles on these topics. One of the directions of his activity was the issue of “folklore and written literature”. It should be noted that he was a scientist, researcher, literary critic, philologist, pedagogue, folklorist, as well as the author of a number of works of art in the history of modern Azerbaijani literature. The peculiarity of K.Aliyev's pen was that the folklore he presented in literary and scientific texts was always presented in his model. K.Aliyev, in his works on various topics, as well as in his scientific research has always served to protect folk traditions, beliefs and thoughts and most importantly, oral creativity.

The article analyzes the artistic heritage and scientific work of Professor K.Aliyev in Azerbaijani literary criticism and folklore on the basis of the problem of folklore. Folklore genres of his works and their manifestations, especially Khidir Nabi, both artistic and scientific creativity about Novruz are studied. Also in K.Aliyev's works “Steppenwolf”, “Leech”, “A black dog”, “Station” there is a wide range of oral literature – applause, curses, oaths, proverbs and parables.

**Keywords:** Kamran Aliyev, scientist, folklore, professor, literature, writer, oral tradition, artistic and scientific creativity

**Резюме**

Член-корреспондент Национальной Академии Наук Азербайджана, заслуженный деятель науки, доктор филологических наук, литературовед-фольклорист, профессор Камран Алиев является одним из известных деятелей азербайджанской литературы. Ученый неустанно изучал азербайджанскую романтическую литературу и фольклор, написал на эти темы 15 монографий, 20 книг, более 200 научных статей. Одним из направлений его деятельности был вопрос “фольклор и письменная литература”. Следует отметить, что он вошел в историю современной азербайджанской литературы не только как ученый, исследователь, литературовед, филолог, педагог, фольклорист, но и как автор ряда художественных произведений.

Своеобразие пера К.Алиева заключалось в том, что фольклор, который он представлял в художественных и научных текстах, во всех случаях был представлен по собственному образцу. Как в своих произведениях на различные темы, так и в научных исследованиях К.Алиев всегда служил сохранению народных традиций, верований и мыслей, а главное, устного творчества.

В статье, художественное наследие и научное творчество профессора К.Алиева были проанализированы на основе проблемы фольклоризма в азербайджанском литературоведении и фольклористике. Исследованы фольклорные жанры его произведений и формы их проявления, в частности, художественное и научное творчество о Хыдыр Наби, Новруз байрам. А также в произведениях К.Алиева «Ялгузаг» (Бирюк), «Зяли» (Пиявка), «Гара Копяк» (Черный пес), «Вагзал» (Вокзал) широкое место уделено связанным с устной литературой – хвалам, проклятиям, клятвам, пословицам и поговоркам.

**Ключевые слова:** Камран Алиев, ученый, фольклор, профессор, литература, писатель, устная традиция, художественное и научное творчество

Kamran Əliyev Azərbaycan ədəbi romantizminin əsas tədqiqatçılarından biridir. O, bir ədəbiyyatşünas alim kimi H.Cavid, M.Hadi, C.Məmməduluzadə, A.Səhhət, A.Şaiq və s. kimi klassiklərin ədəbi irsini araşdırmaqla, Azərbaycan klassik ədəbiyyatında öz layiqli yerini tutmuşdur. Professor K.Əliyev həm də klassik ədəbiyyatımızın və folklorumuzun fədakar araşdırıcısıdır. K.Əliyev yaradıcılığında folklorun dərinliklərini, xalqımızın milli mentalitetini, milli dəyərlərini qorumaqla bərabər, öz əsərlərində bu dəyərləri, folklor nümunələrini oxucularına çatdırmaqla müasir Azərbaycan ədəbiyyatında dərin izlər qoymuşdur. K.Əliyevin “XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri”, “Hüseyn Cavidin şəxsiyyəti və poetikası”, “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər”, “Cavid möcüzəsi”, “Azərbaycan romantizminin poetikası”, “Romantizm və folklor”, “Hüseyn Cavid: həyatı və yaradıcılığı”, “Yazıçı və folklor problemi”, “H.Cavid və xalq dramı”, “Ədəbiyyat tarixinə bir baxış”, “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu”, “Azərbaycan

romantizminin folklor qaynaqları" və s. kitabları, elmi əsərləri alim kimi yüksəlişində, "Yalquzaq", "Zəli", "Vağzal", "Qara köpək" "Dağlı məhəlləsi", "Şamama", "Bənövşə oyunu" və s. bədii əsərləri yazıçılığında böyük rol oynamışdır.

Xüsusi qeyd edək ki, K.Əliyevin "Yalquzaq", "Zəli", "Vağzal", "Qara körək", "Şamama", "Bənövşə oyunu" və s. əsərləri milli nəsrimizin zəngin nümunələrindən olmaqla, sosial və siyasi həyatın gerçəkliklərinə bağlıdır. Povest və hekayələrində ədib folklor poetikasına da istinad etmişdir. Xalq bədii təfəkkür və düşüncəsi K.Əliyevin əsərlərinin əsasını təşkil edir. Onun əsərlərində xalq sənətinə istinadı isə müvafiq yazıçı-folklor münasibətlərinin mahiyyətinə bağlıdır.

K.Əliyev əsərlərinda folklor janrlarından istifadə, başlıca olaraq müəllif fikrinin xalq dili ilə qüvvətləndirilməsi, həm də konkret bədii-poetik obraz, düşüncəsindən qaynaqlanır. Professor K.Əliyevin konkret etnos, zamanla səsləşən əsərlərinə baxsaq, xalq mərasimlərinin yazılı ədəbiyyatdakı fikir, qayə, eləcə də bədii-poetik funksionallığını daha təfsilatı ilə görmək mümkündür. K.Əliyev bir çox əsərlərində müasir ədəbiyyata yazılı şəkildə folklor nümunələri gətirib. Şifahi xalq ədəbiyyatının janrları və nümunələrinə müraciət edən yazıçı əsərlərinə canlı dil, romantik əhvali-ruhiyyə, güclü xarakterlər gətirməklə onun bədii kamilliyini daha da zənginləşdirib. Yazıçının yaradıcılığında xalq mərasimləri – mövsüm və ailə-məişət törənləri, zəngin adət-ənənə və inanclar bütöv bir sistem təşkil edir.

Xalqımızın ən qədim bayramları "Novruz", "Xıdır Nəbi" yazın gəlməsi, təbiətin oyanışı, dirilməsini ifadə etməklə, xalq ədəbiyyatında bir sıra rəvayət, əfsanə və mifoloji obrazlarla şərtlənir. Yenilik və dirilmə ritualına uyğun mərasimdə yer alan bir sıra adət-ənənələr, inanclar milli-mədəni dünyagörüşün ən qədim düşüncə və təsəvvürünə bağlı olaraq etnik özünəməxsusluqla çevrələnir.

Əsərlərindən aydın görünür ki, K.Əliyevin fikirləri Azərbaycan folklorşünaslığında mərasimlərlə bağlı tədqiqatları zənginləşdirmiş, həm də xüsusilə Novruz, Xıdır Nəbi kimi bayram-

larla bağlı ümumi elmi fikrin formalaşmasına ciddi təsir etmişdir. Tədqiqatçı alim "Novruz mərasimləri", "Novruz mərasimlərinin poetikası" adlı məqalələrində bu bayramı xüsusi olaraq araşdırmış, onun xarakterik xüsusiyyətləri, mahiyyəti, mənası haqqında ətraflı məlumat vermişdir. Alim "Novruz mərasimləri" məqaləsində "Dədə Qorqud" eposunda Novruz bayramının keçirilməsindən bəhs edərək yazır:

"Tarixən hökmdarlar, o cümlədən türk xaqanları böyük toplantıları Novruz bayramı günlərində keçirərmişlər. "Dədə Qorqud"eposunun "Dirsə xan oğlu Buğac xan boyu"nda təsvir edilir ki, xanlar xanı Bayındır xan ildə bir dəfə bütün Oğuz bəylərini ətrafına toplayıb şadyanalıq etdiyi kimi, yenə də şadlıq məclisi düzəltmiş və böyük hazırlıq görmüşdür. Eposda məclisin keçirildiyi həmin zaman belə təqdim olunur.

"Saldum-saldum tan yelləri əsdigindən,
Saqallı boz ac turğay sayradıqda,
Saqalı uzın tat əri banladıqda,
Bədəvi atlar issini görüb oğradıqda,
Aqlı, qaralı seçən çağda,
Köksü gözəl qaya tağlara gün dəgəndə,
Bəy yiğitlər cılasınlar bir-birinə qoyulan çağda.

Bu, sözün tam mənasında yazın təsviridir. Dan yellərinin əsməsi, torağayların ötməsi, atların kişnəməsi, dağlara gün düşməsi və pəhləvanların güləşməsi tamamilə Novruz əhvali-ruhiyyəsini xatırladır. Hətta son dərəcə əhəmiyyətlidir ki, nümunədəki "Ağlı, qaralı seçən çağda" misrası ağa və qaraya gecə və gündüzə, eyni zamanda onların bərabərliyinə işarədir".

Pəhləvanların güləşməsinə gəldikdə isə həmin boydakı başqa bir məqam məhz bu hadisənin Novruzda baş tutması faktını təsdiqləmiş olur (2, 314).

Alim "Novruz mərasimləri" məqaləsində "Dədə Qorqud" eposundan sonra ardıcıl şəkildə "Koroğlu" eposunda da Novruz günlərinin keçirilməsindən bəhs edir:

"Meydanda yarışların yazda – Novruz günlərində keçirilməsi "Koroğlu" eposu ilə də təsdiq edilir. "Koroğlunun Ərzurum

səfəri" qolunda deyilir: "Cəfər paşanın imarətinin qabağında bir pəhləvan meydanı, bir də bir aşıq meydanı var idi. Pəhləvan meydanı Qara pəhləvanın, aşıq meydanı isə Aşıq Cünunun idi. Cəfər paşa bayram günlərində meydanları bəzədərdi. Uzaqdan, yaxından gələn pəhləvanlar, aşıqlar burada öz güclərini sınardılar. Heç şübhə yoxdur ki, həmin tədbirlərin keçirildiyi bayramlardan biri, bəlkə də, birincisi məhz Novruz bayramı günləri olmuşdur" (2, 315).

Tədqiqatçı "Novruz mərasimlərinin poetikası" adlı məqaləsində Xızır obrazını geniş şəkildə təhlil etmişdir:

"Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçəh, oldu yaz".

Folklor mətnlərindən bəllidir ki, Xızır İlyas hami bir obrazdır. Bunun ən parlaq nümunəsi "Dədə Qorqud" eposudur. Həmin eposun "Dirsə xan oğlu Buğac xan" adlı birinci boyunda Dirsə xan öz oğlu Buğacı oxla vurub yaralayır və Buğac atdan yıxılıb dərədə qalır. Onun diri qalmasından nə Dirsə xanım, nə onun xanımının, nə də qırx nökərin xəbəri var. Buğaca kömək eləyən isə Boz atlı Xızır olur. Həmin hadisə eposda belə təsvir edilir: "Sən demə, sultanım, oğlan o arada yıxılıbmış. Qarğa-quzğun qan görüb oğlanın üstünə qonmaq istəyirdi. Oğlanın iki ov iti var idi, qarğa-quzğunu qovurdu, qonmağa qoymurdu. Oğlan orada yıxılanda Boz atlı Xızır oğlanın yanında hazır oldu. Üç dəfə yarasını əliylə sığallayıb: "Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir" – deyib yox oldu" (3, 272).

Xıdır Nəbi və Novruz bayramı haqqında geniş, ətraflı, dərin məlumata malik olan alim həm bədii, həm də elmi yaradıcılığı ilə hər zaman diqqət mərkəzində olmuşdur. Novruz adət-ənənələrini öz əsərlərinə gətirən yazıçı bu milli dəyərləri olduğu kimi gələcək nəsillərə çatdırmaq istəmişdir. K.Əliyevin əsərlərində "Novruz" mərasim ənənələrini xatırlatması obrazların dili ilə təsvir olunmaqla, əslində nasirin milli etik-mədəni sistem üzərində görüş və təsəvvürlərini əks etdirmişdir. Müəllif "Vağzal" əsərində Naxçı-

van bölgəsinə məxsus olan, Novruz bayramı və axır çərşənbənin qədim adət-ənənələrindən geniş istifadə etmişdir:

“Həmişə Novruz bayramından qabaq, daha doğrusu, axır çərşənbədə qohumlar bir-birinin evinə gedər, təbrik üçün əlində bir kiçik boxça da aparardılar. Kimi alma götürər, kimi də limon. Qoca arvadlara kəlağayı aparmaq daha çox dəbdə idi. Kirvəlik eləyən ailələrdə isə birinci ili həmişə ən qiymətli pay xoruz olardı. Xoruzu verərdilər sünnət edilən uşağın qoltuğuna, uşaq da Düyərlinin küçələrindən keçərək öz kirvələrigilə gedərdi.

Qız köçürənlərin birinci bayramlığı o qədər də asan başa gəlməzdi. Əvvələn, qızın qaynanasına və qaynatasına gərək pay alaydın. İkincisi, qızın qayınları və baldızları yaddan çıxsaydı, səhərisi kəndin ortasında bir yekə zurna çalınacaqdı. Üçüncüsü, kürəkənə də ən azı köynək, dəsmal və corab qoymalıydın. Dördüncüsü də qızın öz payı el-oba içinə çıxarılmalı pay olmalıdır. Çünki elə çərşənbə axşamı qonşulardan gələn qız-gəlinə pay göndərilən boxçanı açıb göstərməliydin. Onlar da göndərilən paya ya bir-bir baxıb başlarını bulayardılar, ya da razılıq əlaməti olaraq yavaşca mızıldanardılar. İnsafən Səhnə də qızının birinci bayramlığına xüsusi diqqət göstərmişdi (7, 203).

Novruz bayramında adətə görə, gəlinlər bəyə hədiyyə edirlər. “Dədə Qorqud” eposunda Banuçiçəyin Beyrəyə hazırladığı köynək də məhz bu qəbildəndir. Müəllifin “Vağzal” əsərində bu adətin əsrlərdən bəri davam etdirilməsi ənənəsini görürük.

Zəngin mərasim ənənələri mühitində yaşayan K.Əliyev əsərlərində xalqımızın gündəlik həyat tərzinin, məişətinin, adət-ənənələrin geniş təsvirinə müvəffəq olmuşdur:

“Uşaqkən Novruz bayramında Ağoş həmişə Səhnəgilin evinə şal atardı. Həmin şalı da Səhnə rəngindən və zolağından tanıyar, sonra da anasının böyrünə qısılıb yavaşca deyərdi ki, sən Allah, ana, bu şala qırmızı yumurta bağla! Anası da dinməz-söyləməz Ağoşun şalına bir qırmızı yumurta qoyar, yanına da bir ovuc qozdan-fındıqdan əlavə edərdi” (7, 160). Novruz bayramının ən gözəl hadisələrindən biri bacadan şal sallamaq və bəy şalına bayramlıq bağlamaqdır.

Axır çərşənbə axşamı qızların fal açması Novruz mərasiminin funksional görüntülərini tamamlayır. Novruz mərasiminin falaçmalarında qulaq falına K.Əliyevin "Şamama" hekayəsində rast gəlinir. Rituala uyğun olaraq ən qədim adətlərdə axır çərşənbə axşamı niyyət edib, qapını açıb içəri daxil olan şəxsin eşidilən ilk sözü niyyətə yozulardı. Eyni zamanda bayram gecəsi qulaq falında da sözlərin dinlənilməsi xeyir, şər niyyəti üzərində sınamağa bağlanılırdı. Hekayədə bayramda icra edilən qulaq falı haqqında ritual görüntülər belə təsvir olunur:

"Şamama söhbətini şirin-şirin davam etdirdi:

Kəndin sakit vaxtı qulaq falına çıxdım. Əvvəlcə lap qonşuluqda olan evin qapısının dalından qulaq asmağa başladım. Dilbər xalanın bir cümləsini eşitdim: Şamama əməlli-başlı böyüyüb. Həm sevindim, həm də narahat oldum. Sonra da əmimgilin qapını pusmağa başladım. Əmim arvadının danışdığını açıq-aydın eşitdim:

A kişi fil qulağında yatıbsan? Gözün kordu? Şamamanın vaxtıdı, bir azdan gördün ki, qapılarını kəsdirdilər, Şamama da cavan, yelbeyin bir uşaq, odu haa, "hə" ya nişanlandı, ya da qoşulub qaçdı. Günü sabah elçi gedib bir yaylıq aparmalıyıq (5, 68).

Gələcəyi görmək arzusu, onu müəyyənləşdirmək istəyinin məlum mərasiminin qulaq fallarında aranması xalq təfəkküründə formalaşan qədim inanclar sırasındadır. Nasirin "Şamama" hekayəsində qulaq falı ilə bağlı verilən səhnələrdə xalq həyatı, məişətində yaşayan ən qədim inanc və etiqadların izi görünməklə, eyni zamanda bu inancın obrazların psixoloji dünyasına təsiri məsələləri də yer alır. Hər iki əsərdə Novruz bayramı, çərşənbə rituallarının geniş təsvirini verən yazıçı etnosun ən qədim törən, görüşlərindən çıxış edərək həm də burada mərasim dəyərlərimizin folklorşünas-tədqiqatçı kimi qayğısına qalır. Əsərdə xatırlanan Novruz ənənələri müəllifin məqsədli şəkildə bu mərasimin hafizələrdə yaşatma və qoruma istəyinə bağlıdır.

Əsərlərdə vətən sevgisi, elinə, obasına, doğma yurduna bağlılıq, ayrılıq, kədər, intizar, həsrət motivlərinə bağlı məqamlarında xalq ədəbiyyatı nümunələrinə də geniş yer verilmişdir. K.Əli-

yevin əsərləri içərisində “Yalquzaq”, “Zəli”, “Qara köpək” və “Vağzal” povestləri folklorun ayrı-ayrı janrlarından geniş istifadə olması baxımından xüsusi yer tutur. Xalq mərasimləri içərisində öz funksionallığı, ritual və adət-ənənələri baxımından seçilən törənlərdən biri də yas mərasimləridir. İnsanın ölümü, dünyasını dəyişməsi müxtəlif mifoloji yozumlarda fərqli mənalara bağlanmaqla, ayrı-ayrı tayfalarda müqayisəli xüsusiyyətləri ilə mövcuddur. Müxtəlif bölgələrə görə fərqlənən yas mərasiminə K.Əliyevin “Yalquzaq” povestində rast gəlinir. Hadisələrin geniş təfsilatı ilə verilməsi yazıçıya yas mərasimin ən incə xırdalıqlarına qədər təsvirinə şərait yaratmışdır. Mərhumun torpağa uğurlanması, dəfn ritualları, törənlə bağlı ağıların oxunması və s. mərasimlə əlaqəli adət və inanclar K.Əliyevin bədii irsində etnoqrafik əsasda geniş təfsilatı ilə verilmişdir:

“Günəş az qalırdı Ağrı dağının başına sancıla. Salatının cənazəsini darvazadan küçəyə çıxardılar. Getdikcə qadınların ağlamağı kişilərdən uzaqlaşırdı. Bir az da ötəndən sonra arvadların ağlamağı kəsildi. Cənazəni sürətlə aparırdılar. Cavanlar da tez-tez bir-birini əvəz edir, qoymurdular kimsə cənazənin altında yorula”(7, 82).

“Həşimin böyük bacısı ağı deyə-deyə dizlərinə çırpırdı. Kiçik bacısı da Həşimi qucaqlayıb ağlayırdı” (7, 66). Yas mərasimlərində ölüm-itkinin mərhumun yaxın, əzizləri tərəfindən ayrıca rituallarla qarşılanmasının da etnik mifoloji kökləri mövcuddur:

“Qara paltarını geymiş Qızbəsin əlində tutduğu dəsmalın ucu görünürdü. Bikəxanım dilləndi:

İndi yasa gedib gözünün qorasını tökəcəksən! Allah səni elə bil ölü yeri üçün yaradıb!

Qızbəsin fikrində o idi ki, tez ölü yerinə çatıb ağılarını başlasın. Bikəxanım da bilirdi ki, Qızbəs bu axşam-axşam camaata qan ağladacaq!” (7, 80).

Qızbəsin Salatının dalınca ağı oxuması, qara geyinməsi də qədim rituallar sırasındandır. Yazıçı ağılar, oxşamalar üzərində

qurulan yas mərasimlərini obrazların faciəsi, itkiyə münasibəti və ağrılarını daha emosional, ovqatlı şəkildə oxucuya çatdırır.

Yas törənlərinə əsərində yeri gəldikcə yer verən K.Əliyev fərqli zaman və məkanlar üzrə yas mərasimlərinin ümumi məzmununa toxunmuşdur.

Xalq məişətində daha çox təsadüf olunan qədim inanc sistemlərindən biri də sözün magik gücündə özünü qorumağa yönələn instinktlərdir. K.Əliyevin bədii yaradıcılığında folklorumuzun ən qədim janrlarından olan ovsunlar da bu baxımdan ayrıca yer tutur. Ən qədim dövrlərdən başlayaraq təsərrüfatı, sağlamlığını və sairə qorumağa çalışan insanlar sözün magik gücünə əsaslanan ilk ovsunları yaratmışdılar.

Qeyd edək ki, ovsunların milli məişətimizdə ən geniş yayılmış formalarından biri sağlamlığın qorunması istiqamətində yaranan "gözdəymə" ilə bağlı ovsunlardır. Obrazın xarakterik cizgiləri, inam, düşüncə mövqeyindən gözdəymədən qorunması K.Əliyevin bədii yaradıcılığında folklorizm elementi baxımından ayrıca yer tutur. Yazıçının "Qara köpək" əsərində xalq inancının dolğunluğu belə təqdim olunur:

"Bir qisim adam nalı atını nallamaq üçün alır, bir qisim adam da aparıb darvazasının üstünə, evinin içərisində qapının başına vurur ki, nəzər kəsməsin" (4, 226).

Nümunədən göründüyü kimi, dua, at nalının qoruyucu, magik xüsusiyyəti burada həmçinin ovsunun mövcud funksional tətbiq forması ilə birləşir. Gözdəymənin sınanmış çarələri – üzərlik, dağdağan, ayrı-ayrı əşyalar – at nalı, dua, buta şəkli və s. bu kontekstdə daha çox işləklik qazanmışdır.

Azərbaycan folklorunun janrları sırasında kiçik yaşlı uşaqların məşğuliyyəti, müəyyən vərdişlərinin formalaşdırılması, əql, hafizələrinin inkişaf etdirilməsi istiqamətində xalq məişətində yaranan uşaq oyunları K.Əliyev bədii irsində etnoqrafik məlumatlara uyğun təsvirini tapır. Yazıçı folklorun bu janrını əsərlərində məişət təsvirlərinin əhatəliyi, ümumiləşdirilməsində təhkiyəyə qoşur. Əsərlərində qəhrəmanın böyüməsi, onun körpəliyindən ayrılmasını

müəllif kiçik bir ştrixlə obrazın uşaqkən oynadığı oyunlardan ayrılması ilə nəzərə çarpdırır.

"Yalquzaq", "Vağzal", "Bənövşə oyunu" əsərlərində təbii ki, yazıçı əlavə poetik axtarışlarına ehtiyac olmadan zaman dəyişmələrini folklor janrı, konkret şəkildə uşaq oyunları üzərində aparmışdır. "Uşaq vaxtı Hacı Muradın tayalarının yanında gizlənqaç oynayırdıq. Ağoşnan Səhnə gedib elə yerdə gizlənirdilər ki, hey axtarardıq onları, tapa bilməzdik. İndi tapmışam. Onlar gedib Hacı Muradın tayasının altında gizlənərmişlər" (7, 91). Ədibin "Yalquzaq" əsərində uşaqlar "gizlənqaç", "Vağzal" əsərində "şal atma", "Bənövşə oyunu" hekayəsində "bənövşə" və s. oyunları oynayırdılar. K.Əliyev yaradıcılığında uşaq folklorizmləri bir tərəfdən bədii mətndə etnoqrafizmin yaradılmasına, digər tərəf-dən xarakterlərin canlı bədii təcəssümünə xidmət edir:

"Oyun başladı:
-Bənövşə!
-Bəndə düşə!
-Bizdən sizə kim düşə?
-Adı göyçək, özü göyçək Səkinə!" (4, 61).

Bənövşə oyununda gənclərə seçim imkanı təqdim edilir. Bu oyunda gənclər özlərinə uyğun yoldaş tapırlar.

Nəzərdən keçirilən folklor nümunələrinin heç biri uydurma, yaxud müəllifin fərqinə varmadan eşitdiyi şifahi ədəbiyyat örnəkləri deyildir. Azərbaycanın dilbər güşələrindən biri olan Naxçıvanın Diyadin kəndində uşaqlıq və gənclik illərini yaşamış K.Əliyev keçmiş xatirələrinə sadiq qalaraq, öz əsərlərində böyük məharətlə folklor nümunələrindən istifadə etmişdir.

Nasir uşaq folklorundan istifadə etməklə Azərbaycan milli xarakterini təkcə yaşlı nəslin nümunəsində deyil, böyüyən, dünyanı aramsızcasına seyr-müşahidə edən uşaqların nümunəsində də təcəssüm etdirir.

Yazılı ədəbiyyatın şifahi sənətdən qaynaqlandığı mühüm mənbələrdən biri də folklor dilimizdən istifadəyə bağlıdır. Xalqın inam, düşüncə, təfəkküründə zaman-zaman cilalanaraq bu günümüzə qədər gəlib çatan müxtəlif deyimlər – alqış, dua,

qarğış, atalar sözləri, məsəllər və s. klassik dövrdən başlayaraq müasir ədəbiyyatımızın da başlıca dil elementinə çevrilmişdir. Bu sözlər öz yığcam, lakonik tərzi, obrazlılığı ilə yazıçılara qəhrəmanların təqdimi, portret təsvirləri, tipikləşdirmədə və s. başlıca yardımçı vasitəyə çevrilmişdir. Xalq məişəti, həyatının dolğun, real təsvirində bu məişətə bağlı yaradıcı sənətkar, uyğun dil faktı-folklor dilinə istinad edir. Bu baxımdan K.Əliyev əsərlərinin dilində eyni mövqedən çıxış etmişdir. K.Əliyev "Yalquzaq", "Qara köpək", "Zəli" və "Vağzal" əsərlərində şifahi ədəbiyyata bağlı alqış, qarğış, andlar, deyimlər, atalar sözləri, məsəllərə geniş yer vermişdir.

Atalar sözləri və məsəllərdən istifadə xalqın keçmişinin bu günə gətirilməsi və xalqımızın milli dəyərlərinin qorunması deməkdir. Əsərlərində işlədilmiş xalq deyimi, atalar sözləri və məsəllər sübut edir ki, Kamran Əliyev xalqımızın milli dəyərlərini müasir dövrümüzə müvəffəqiyyətlə gətirməyi bacarmışdır. Əsərlərdə qoyulan çox istiqamətli əxlaq və tərbiyə məsələləri öz konseptiv nəticəsini eyni material üzərində möhkəmləndirməsi daha məqsədəuyğundur. Belə ki, "atalar sözü və məsəllər tərbiyənin həm folklor konsepsiyası baxımından, həm də folklor materiallarına tərbiyəvi əhəmiyyəti baxımından (yəni aksioloji nöqteyi-nəzərdən) misilsiz materiallardır. Təlim-tərbiyənin elə bir məsələsi, elə bir insani keyfiyyət yoxdur ki, o barədə onlarca atalar sözü və ya məsəl olmasın" (6, 28).

K.Əliyevin "Yalquzaq", "Qara köpək", "Zəli", "Vağzal" povestlərində obraz seçkinliyi, xarakterlərin zəifliyi və s. üzərində qurulan bu deyimlər həm də zəngin surətlər qalereyasını tamamlayır. Bu və ya digər obrazın ayrı-ayrı surətlərlə, xüsusilə yazıçı düşüncəsində müsbət planda işlədilmiş obrazlarla müqayisəsi nasir tərəfindən yenə də uyğun atalar sözləri üzərində aparılır. "Gönünə dabbaqda bələdəm" (7, 46), "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" (7, 87), "Sən saydığını say, gör fələk nə sayır?" (7, 87),"Gorları olub ki, kəfənləri də ola!" (7, 87), "Qudurasan qurbağa" (7, 44), "Ağzına çullu dovşan sığışmır" (7, 55), "Nə öldüsü var, nə də qaldısı" (7, 58), "Bu həna o hənadan deyil" (7, 68),

“Saxla samanı, gələr zamanı” (7, 117), “Anam mənə kor deyib, gəlib gedənə vur deyib” söyləməkdən heç nə çıxmaz” (7, 194), “Tutu nənə Məşədi Vəli kişinin eşidə biləcəyi pıçıltıyla dedi ki, adını çək, qulağını bur!” (7, 139), “İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?” (2, 209), “Zər qədrini zərgər bilər” (2, 209), “Ağ ayranı itə tökərlər, qara kişmişi cibə” (2, 209), “Ehtiyat igidin yaraşığıdır” (2, 201), “Quyruğu qapı arasında qalan mən olmuşam” (4, 229), “Həyətə girib gördüm ki, lələ köçüb yurdu qalıb” (4, 231), “Mən də düşündüm ki, nə olar inkevedidə işləyəndə, palaza bürün, elnən sürün” (7, 206) və s. kimi atalar sözləri vasitəsilə yazıçı tənbəl, nankor, lovğa, bədniyyət və s. mənəvi keyfiyyətlərdə verilən obrazların portretini tamamlayır.

K.Əliyev yaradıcılığında xalq deyimləri, ifadələrdən istifadə, ikinci bir tərəfdən obrazların vəziyyəti, mövcud situasiyaların bədii dillə çatdırılması mexanizmindən qaynaqlanır. Bu qrup deyimlərdə obrazlar özləri-özlərinin çətinlikləri, düşdükləri vəziyyət, istəkləri və s. haqqında oxucu üçün ümumi təsəvvür yaradırlar: “Bala, əmanətə xəyanət olmaz” (7, 12), “Şalanı şahbaz eylədi, küllüyü də meydan” (7, 36), “Biri ölməsə, biri dirilməz” (7, 39), “Karın könlündəki” (7, 61), “Ellə bir olsan, eldə sənə qiymət qoyacaq” (7, 82), “Kar mənəm, eşitməyən bunlar”(7, 57), “Qanan da kərənti döyür, qanmayan da” (7, 47), “Deyəsən, şornan yağın bilinməyən vaxtı gəlib” (7, 47), “Yiyələr qalıb bir tərəfdə, yiyəsiz at oynadır” (7, 57), “Nə deyim, inam bir tərəfə gedir, güman bir tərəfə” (7, 71), “Həmişə babam deyərdi ki, olacağa çarə yoxdur” (7, 121), “Özünü elə yırtıb-dağıdırsan ki, elə bil ala dana naxırdan qaçıb!” (7, 138), “Kəfən yırtıb, gor eşməyə başlayacaqsan”(7, 139), “Ölməzsən! Səni dəyirmanın boğazına ölü salsan, diri çıxarsan!” (7, 139), “Üzünün suyu o qədər tökülüb ki, üzünü mürdəşir yumasa, canı qurtarmayacaq” (7, 177), “Ay Səhnə, neçə vaxtdı yağlı əppək olub yoxa çıxıbsan!” (7, 198), “İynə atsan, adam əlindən yerə düşməyəcək” (7, 190), “Əl tutmaq Əlidən qalıb” (4, 227), “Zalımın balası nə həs qanır, nə də hüs” (7, 147) və s. kimi deyimlər vasitəsilə nasir surətlərin təbiətini, xarakterini dolğun şəkildə can-

landırır. Oxucu üçün nitq dililə təqdim edir. Buradan aydın görünür ki, K.Əliyev deyim, atalar sözləri və məsəlləri böyük ustalıqla öz əsərlərində yaratdığı obrazların dilindən verməklə məharətlə istifadə etmişdir. Xalq ədəbiyyatının əski və mifoloji ağırlıqlı qəlib ifadələrindən biri də alqış, dua və qarğışlardır. Xalq deyimləri, ifadələrinin böyük bir qismi də alqış və qarğışlara bağlıdır ki, bədii əsərlərdə obrazların mənşəyi, inam, düşüncəsi, mentaliteti bu və ya digər vasitələrlə yanaşı, eyni dil elementləri üzərində də müəyyənləşir. Folklorumuzdan da bəllidir ki, "arxaik düşüncənin formalaşdırdığı inam və etiqadların sistemli məhsullarından olmaqla andlar, dualar, alqışlar, qarğışlar insanların əski təsəvvür, baxış, görüşlərini, həmçinin deyim və sözə inam münasibətlərini semiotikləşdirir" (1, 3).

Nasir səciyyəvi xüsusiyyətləri, uyğun formulları ilə fərqləndirilən alqış, dua və qarğışlarla xalq dil etiketi kimi əsərdə obrazları fərqləndirir, onların bu etiketlə düşüncə, etiqad və emosionallıqlarını canlandırır. K.Əliyevin əsərlərindəki mühit müsəlman Şərqi, onun məişəti dünyagörüşü, yaşayış, həyat tərzidir. Şərq təfəkküründə islami düşüncəyə bağlı etiqadsa eyni mifoloji obrazlılığında öz əksini tapır. "Yalquzaq", "Zəli", "Vağzal", "Qara köpək" əsərlərində obrazların alqışla bağlı nitq etiketlərində "Allah qolunuza qüvvət versin!" (7, 33), "Gün o gün olsun ki, sizin evdə xeyir işə yığışaq, mən də belimi bağlayıb səhərdən axşama çörək yapım!" (7, 33), "Qadoş, Allah sənin də bəxtini açsın!" (7, 34), "Allah sənə yüz il ömür versin, ay Tutu nənə!" (7, 62), "Tutu nənə, Allah canını sağ eləsin!" (7, 64), "Sağ ol ay Abbasəli, səni görüm yüz yaşayasan!" (7, 65), "Allah balalarını saxlasın!" (7, 48), "Səni yüz yaşayasan" (7, 91), "Allah razı olsun" (7, 202), "Allah bu kəndi səhər vaxtı naxır yığışanda yayılan xəbərdən saxlasın!" (4, 234) və s. Qeyd olunan alqışlar xalq dilində çox işləklik qazanmış deyimlər olmaqla yazılı ədəbiyyata müəllifin heç bir əlavə rəng, estetik-bədii əlavəsi olmadan gətirilmişdir.

"And, dua, alqış, qarğış bilavasitə danışıq etiket tipi olmaqla əslində arxaik mifoloji görüşlərlə bağlı olub sözün magik

gücünə inamı, ona əski bağlılıq hissini əks etdirən mifoloji-magik strukturlu mətn tipidir. Sözlə onun (andın, həmçinin duanın, alqışın, qarğışın) bildirdiyi obyekt arasında köklü fərq qoymadan, bu baxımdan sözlə cismi bir sırada görən arxaik düşüncəni əks etdirir" (1, 3). Alqışlardan fərqli olaraq, qarğışlar daha orijinal məzmun, formullara bağlıdır. Danışıq dilində çox işləklik qazanmış bu ifadələrə Kamran Əliyevin "Zəli", "Yalquzaq", "Vağzal", "Qara köpək" əsərlərində xalq dil elementi kimi daha çox rast gəlinir: "Yeri! Yeri! Boyuna qamış ölçüm!" (7, 6), "Papağın boş qalsın, ay Həşim!" (7, 10), "Haranın külünü başıma əliyim ki, Allaha xoş getsin!" (7, 10), "Canına dərd olub, bir də azzar!" (7, 12), "Ay Allah, Şahların bəxti niyə belə oldu? Kim idi bizi qarğıyan? Allah qarğıyanın evini yıxsın!" (7, 29), "Kül başına belə oğul" (7, 33), "Canın çıxsın, indi özün yap" (7, 35), "Lənət şeytana! Ağıl üstündəki yalquzaq bir gəlib məni yesəydi, canım qurtarardı" (7, 36), "Sizin hamınızı kar qulaq görüm. Heç ömrünüzün axırına kimi qulağınız səs eşitməsin!" (7, 41), "Qoy canları çıxsın!" (7, 29), "Allah dalısından saxlasın!.." (7, 25), "Ay evin yıxılsın, Həşim!" (7, 25), "Görüm Nəcəfalının azar-bezarı bunlara gəlsin" (7, 44), "Vay, gorun çatlasın, Kərbəlayi! Boyuna qamış ölçülməli Həşim idi, Salatın yox" (7, 50), "Gorun çatlasın, Məşədi Salman" (7, 53), "Zatınıza tula bağlayım!" (7, 55), "Sən də cəhənnəm ol, Hacı Murad da!" (4, 234), "Ay evin yıxılsın, indi küçük gətirmək vaxtıdır?" (4, 236), "Ay tifağı dağılmışlar" (7, 56), "İndi başımıza haranın daşını salaq?" (7, 57), "Mən də deyirəm, bu qıran qırmış azıb harda yumurtdayır?" (7, 59), "Cəhənnəmə olsun keçi də, yiyəsi də" (7, 60), "Vay, belin qırılsın, Həşim! Nə bədniyyətlimişsən!" (7, 76), "Bəlkə, yenə o papağı boş qalmış Həşimlə dilləşib gedib Araza" (7, 83), "Gorun çatlasın ay Məşədi Salman" (7, 88), "Ay ərdəmin tökülsün!" (7, 102), "Ay Tutu, görüm səni kəndin arvadları ağlasın! Məni bəlaya saldın!" (7, 138), "Kəfən yırtıb, gor eşməyə başlayacaqsan" (7, 139), "Allah məni sizin kimi korazehnlərdən saxlasın" (7, 163), "Vay, gorun çatlasın, Ağoş" (7, 164) və s. nümunələrdə qeyd olunan "gorun çatlasın", "bədniyyət olma", "ölərsən elə", "canları

çıxsın" kimi simvolik mənalandırmalar bilavasitə qarğışların mətndaxili funksional formaları – dil etiketindən, konkret bədii işarələnmə ilə dəyişən şəkli əlamətinin nəticəsidir.

Onun öz əsərlərində böyük ustalıqla qələmə aldığı xalq deyimləri, qədim məsəllər, atalar sözləri, məişətimiz və adət-ənənələrimizlə bağlı nümunələr yazıçı təxəyülünün bənzətməsi deyil, uşaqlıq və gənclik illərində yaşadığı mühitdə rastlaşdığı folklor inciləridir.

Beləliklə, K.Əliyevin həm bədii yazıları, həm də elmi yazıları oxucular tərəfindən maraqla qarşılanmış, diqqətlə oxunmuş və bu yazılar barəsində mətbuatda təqdiredici yazılar çap olunmuşdur. Povest, hekayə, elmi və bədii məqalə, monoqrafiyaları ilə zəngin yaradıcılığa sahib olan K.Əliyev xalqımıza məxsus adət-ənənələrin qorunub gələcək nəsillərə çatdırılmasında da böyük rol oynamışdır. Qeyd etdiyimiz kimi, Kamran Əliyev öz yozum təəssüratlarından çıxış etməyib, xalq inamının bütün proseslərə qoşulan görüntüsünü ən xırda detalları ilə tarixdən, zamandan qoparıb yenə də xalqın özünə qaytarıb.

## QAYNAQLAR


1. Abdulla, B. (2010). Alqışlar... Qarğışlar. Bakı: Ozan. 220 s.
2. Əliyev, K. (2019). Folklor kitabı.VI cild. Bakı: Elm və təhsil, 432 s.
3. Əliyev, K. (2017). Çağdaş folklorşünaslığın problemləri. Bakı: Elm və təhsil, 364 s.
4. Əliyev, K. (2019). Bədii əsərlər, publisistika. X cild. Bakı: Elmvə təhsil, 488 s.
5. Əliyev, K. (İmranoğlu). (2020). Qırmızı xətt. Bakı: Elm və təhsil, 136 s.
6. Həşimov, Ə.Ş., Sadıqov, F.B. (1993). Azərbaycan xalq pedaqogikası. Bakı: Patronat, 28 s.
7. İmranoğlu, K. (2013). Zəli. Bakı: Elm və təhsil, 208 s.

# AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIQ ELMİNİN KAMRAN ƏLİYEV ZİRVƏSİ

# KAMRAN ALIYEV SUMMIT OF AZERBAIJANI LITERARY-STUDY

# КАМРАН АЛИЕВСКАЯ ВЕРШИНА НАУКИ АЗЕРБАЙДЖАНСКОГО ЛИТЕРАТУРОВЕДЕНИЯ

**Xəyalə ORUCQIZI – AĞAYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi*
*xeyale.eliyeva.80@list.ru*

**Özət**

Professor Kamran Əliyev Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında xüsusi xidmətləri olan dəyərli alimlərimizdəndir. Onun yaradıcılığını iki yerə bölsək, birinci dövrə romantizmlə bağlı, ikinci dövrə Folklor İnstitutunda işlədiyi müddətdə yazdığı monoqrafiyaları, elmi məqalələri aid edə bilərik. Kamran Əliyev Folklor və yazılı ədəbiyyat şöbəsinə rəhbərlik edirdi. O, folklor və yazılı ədəbiyyatın öyrənilməsində yeni istiqamət formalaşdırdı. Daha çox “yazıçı və folklor” müstəvisində öyrənilən folklor və yazılı ədəbiyyat məsələlərinə münasibət dəyişdi. Yazılı ədəbiyyatın bir çox nəzəri məsələləri folklorla paralel araşdırılmağa başladı. Qəhrəman, üslub, obrazlar sistemi və s. həm folklorda, həm yazılı ədəbiyyatda tədqiq olundu. Bu paralellər əsasında Kamran Əliyevin rəhbərliyi ilə ciddi elmi əsərlər yarandı.

Yaradıcılığının böyük hissəsi romantizmin tədqiqi ilə bağlı olan Kamran Əliyev belə qənaətə gəlirdi ki, “romantizmin folklor qaynağı elə romantizmin milli keyfiyyətini və milli mənliyini təyin edən əsas fakt və amillərdir”.

“Folklor və yazılı ədəbiyyat” adlı iki hissədən ibarət kitab çap olundu. Burada folklor və yazılı ədəbiyyatla bağlı müxtəlif məqalələr işıq üzü gördü. Kamran müəllimin xalqımızın böyük abidəsi “Kitabi-Dədə Qorqud”a həsr etdiyi “Açıq kitab – Dədə Qorqud” monoqrafi-

yası əksər elmi müəssisələrin, aparıcı ali məktəblərin müvafiq kafedralarında müzakirə edilmiş və yüksək qiymətləndirilmişdir.

**Açar sözlər:** Kamran Əliyev, romantizm, Hüseyn Cavid, folklor, yazılı ədəbiyyat, poetika

**Резюме**

Профессор Камран Алиев оставил глубокий след в развитии Азербайджанского литературоведения. Его деятельность можно разделить на два периода, где второй период приходится в его работе в институте Фольклора. За этот период, ученным было написано множество научных статей, монографий. Камран Алиев руководил отделом "Фольклор и письменная литература", где сформировал новое направление в изучении фольклора и письменной литературы.

Все больше изменилось отношение в области "писатель и фольклор" в вопросах изучении фольклора и письменной литературы. Началось параллельное исследование основных вопросов теории письменной литературы и фольклора. Изучался герой, стиль, система образов и т. д. и в фольклоре и в письменной литературе. На основе проведенных параллелей, под руководством Камрана Алиева были написаны серьезные научные работы. Большую часть творчества связав с исследованием романтизма, Камран Алиев пришел к такому выводу, что фольклорные источники романтизма, определяет национальные качества которые являются определяющим фактом.

Была издана книга состоящая из двух частей под названием "Фольклор и письменная литература".

Здесь увидел свет различные статьи связанные с фольклором и письменной литературой. Монография под названием "Ачыг китаб – Деде Горгуд", которая была посвящена известному памятнику нашего народа "Китаби Деде Горгуд" во многих научных учреждениях и на кафедрах многих ведущих вузов были обсуждены и высоко оценены.

**Ключевые слова:** Камран Алиев, романтизм, Гусейн Джавид, фольклор, письменная литература, поэтика

**Summary**

Professor Kamran Aliyev is one of our valuable scientists who have special role in the development of Azerbaijani literary-study. If

we divide his activity into two parts, we can note the monographic books, scientific articles written by him during the working period at the Institute of Folklore. Kamran Aliyev was the Head of the department "Folklore and written literature". He formed a new direction in the study of folklore and written literature. The attitude to the issues of folklore and written literature changed, which were studied more in the "writer and folklore" aspect. Many theoretical issues of written literature began to be examined parallel with folklore. The system of heroes, styles, images, etc. was studied both in folklore and in written literature. On the basis of these parallels some serious scientific works were created under the leadership of Kamran Aliyev.

Kamran Aliyev believed that "folklore sources of romantism are the main factors and incentives that determine the national quality and national significance of romantism".

A two-part book named "Folklore and written literature" was published by him. Various articles on folklore and written literature were published in the book. The monographic book "Open book - Dede Gorgud" by Kamran Aliyev dedicated to the great monument of our people "Kitabi-Dede Gorgud" was discussed and highly appreciated in the relevant departments of most scientific institutions and leading higher schools.

**Key words:** Kamran Aliyev, romantism, Huseyn Javid, folklore, written literature, poetics

Hər bir insan müdriklik qabiliyyətinə malikdir. Ancaq bu yüksək şüur səviyyəsinə çatmaq üçün müəyyən zaman və enerji sərf etmək gərəkdir. Əgər səy göstərməsə, insanın içində olan o işıq sönər. Müdriklik insanı daim axtarışda olmağa, məsuliyyətli və məhsuldar olmağa təşviq edər. Toplumlar üçün müdrikliyin əhəmiyyəti böyükdür. Bir toplumda müdrik insanların sayının artması, o toplumun hər sahədə inkişafını təmin edər. Peyğəmbərimizin də kəlamlarında elmə və alimlərə yüksək dəyər verilmişdir:

"Alimlər peyğəmbərlərin varisləridir".

"Qiyamət günü alimlərin mürəkkəbi şəhidlərin qanı ilə ölçülür."

"Elm öyrənmək hər bir müsəlmana vacibdir".

“Elm öyrənmək məqsədilə səfərə çıxan şəxsləri Allah-taala cənnətin yollarından birinə hidayət edər.”

“Alimin dünyadan köçməsi İslam dinində elə bir boşluq yaradır ki, gecə və gündüzün bir-birinin yerini dəyişməsi bu boşluğu doldurmur”.

Dəyərli insan, əsl alim, ziyalı, AMEA-nın müxbir üzvü Kamran İmran oğlu Əliyev Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında müstəsna xidmətləri olan şəxsdir. Kamran müəllim sözün əsl mənasında müdrik insan idi. Elm aləmində Kamran Əliyev imzası xüsusilə seçilirdi. O, böyük alim olmaqla bərabər yüksək insani keyfiyyətlərə malik bir şəxs idi. Atamın tələbə yoldaşı olduğu üçün mən onu uşaqlıqdan tanıyırdım. AMEA Folklor İnstitutunda mənim işlədiyim Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri idi. İşində ciddi və tələbkar olan Kamran müəllim həmişə şöbə əməkdaşlarına diqqət və qayğıyla yanaşır, öz dəyərli məsləhətləri ilə həmişə düzgün yol göstərirdi. Kamran müəllimin ibrətamiz söhbətləri çox dəyərli idi. Onda xəsislik yox idi. Bu sözü o mənada işlətdim ki, o bildiklərini gələcək nəslə öyrətmək istəyən ziyalı idi. Gənc alimlərin, dissertantların yetişməsində əməyi vardı.

Özünü ədəbiyyatşünaslıq, folklorşünaslıq sahələrində təsdiq etmiş böyük alim, mütəxəssis olan Kamran Əliyevin elmi yaradıcılığını iki yerə bölsək 1-ci dövrə romantizmlə bağlı tədqiqat əsərləri, məqalələri, 2-ci dövrə Folklor İnstitutunda fəaliyyət göstərdiyi dövrü aid etmək olar.

Böyük alimimizin romantizmlə bağlı “XX əsr Azərbaycan romantiklərinin əbədi-nəzəri görüşləri” (1985), “Hüseyn Cavidin şəxsiyyəti və poetikası” (1997), “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər” (1998), “Cavid möcüzəsi” (2002), “Azərbaycan romatizminin nəzəriyyəsi” (2006), “Romantizm və folklor” (2006), “Hüseyn Cavid: həyatı və yaradıcılığı” (2008) və s. monoqrafiyaları var.

Romantizm XVIII əsrin sonu XIX əsrin əvvəllərində Avropa və Amerika mədəniyyətində yaranan ideya-bədii cərəyandır. Bildiyimiz kimi, romantizmin estetik əsasını “bədii ideallaşdır-

ma" prinsipi, müstəsna şəraitdə müstəsna xarakterlərin yaradılması, həyatın olduğu kimi deyil, "olmalı olduğu kimi" təsviri təşkil edir.

XX əsrin əvvəllərində Azərbaycanda maarifçi və tənqidi realizmlə yanaşı romantizm ədəbi cərəyanı da formalaşır. Azərbaycan romantikləri adının arxasında bütün bir ədəbi cərəyan və onun görkəmli nümayəndələri dayanır. Ə.Hüseynzadə və M.Hadi, H.Cavid və A.Şaiq, A.Səhhət və A.Divanbəyoğlu, C.Cabbarlı ilə təmsil olunan XX əsr Azərbaycan romantizmi öz estetik norma və prinsipi olan bir sənət kimi dəyərləndirməni H.Zeynallının H.Cavid haqqında məqalələri, "Peyğəmbər" əsərinin təhlilində tapdı. Sonralar M.Cəlal, M.Cəfər, Ə.Sultanlı, C.Xəndan, K.Talıbzadə, M.Əlioğlu, Ə.Mirələmov, Yaşar Qarayev kimi tədqiqatçıların əsərlərində bu ədəbiyyatın poetika məsələləri ilə bağlı təhlillər göründü. Ötən əsrin 60-cı illərindən romantik sənətə münasibətdə yeni mərhələ formalaşdı. M.Cəfər, M.Əlioğlu, Ə.Mirəhmədov, Y.Qarayev kimi görkəmli alimlərimizin əsərlərində mübahisə doğuracaq məqamlar olsa da, Azərbaycan ədəbiyyatında romantik ədəbiyyatın müstəsna yeri vardır kimi yekdil rəy formalaşdı.

Kamran Əliyev ömür boyu bu sənətin sirlərini öyrənib, tədqiq edib və Azərbaycan elminə bir-birini tamamlayan dəyərli monoqrafiyalar bəxş edib.

Namizədlik dissertasiyası kimi yazdığı "Azərbaycan romantiklərinin nəzəriyyəsi" monoqrafiyası Kamran müəllimin romantizm sahəsində yazdığı əsərlərin başlanğıcı oldu. "Azərbaycan romantizminin poetikası" monoqrafiyası 60-70-ci illərin dünya, xüsusən rus ədəbiyyatşünaslığının nailiyyətlərinə əsaslanan bir əsər idi. Bu əsər həm də romantizmin bədii ifadə sistemi haqqındakı təsəvvürləri bütövləşdirdi.

Kamran müəllimin romantizmlə bağlı tədqiqatlarının mərkəzində H.Cavid durur. "Hər bir əsəri müstəqil bir hadisə olan Cavidin mövzu dairəsi çox geniş olmuşdur. Əslində, Cavid yaradıcılığı Şərqin fəlsəfi və bədii fikir dünyasını dərk etməyin növbəti mənbələrindən biri idi. Bu zəngin və nadir ədəbi xəzinə-

ni dərindən anlamaq üçün Şərqin ictimai-fəlsəfi, ədəbi-bədii fikrini dərindən öyrənmək lazımdır. Çünki Hüseyn Cavid yaradıcılığında yalnız milli deyil, Şərqin və Qərbin sintezini əks etdirən bəşəri fakt və hadisələr də geniş əksini tapmışdır” (2).

Akademik Məmmədcəfər Cəfərov H.Cavidin yaradıcılığını geniş təhlil edərək, onun özünəməxsus şeir dili, üslub xüsusiyyətləri olduğunu qeyd edir: “Cavid şeirində çox zaman xəyal, sevinc, kədər, ümid kimi psixoloji hallar, haqq, ədalət, həqiqət, zaman, məkan kimi mücərrəd anlayışlar da canlandırılıb şəxsləndirilir”.

Kamran Əliyev H.Cavidin Azərbaycan ədəbiyyatında yerini və rolunu olduğu kimi tədqiq edən ədəbiyyatşünaslarımızdandır. Cavidin bədii dünyagörüşü, ideyaları, folklorla bağlılığı haqqında Kamran müəllimin qənaətləri çox maraqlı və düşündürücüdür.

Kamran müəllim Cavidlə bağlı bütün monoqrafiyalarında H.Cavidi Azərbaycan romantizminin əsas siması olaraq və olduğu kimi tədqiq etmişdir.

Kamran müəllimin Folklor İnstitutunda işlədiyi dövrdəki yaradıcılığını xüsusilə qeyd etmək lazımdır. Onun imzası görünən hər yerdə böyük alimin elmi nailiyyətlərini görürük. Kamran Əliyev ədəbiyyatşünaslıq və folklorşünaslıq elminin inkişafında müstəsna yeri olan dəyərli şəxsiyyətdir.

Folklorla bağlı araşdırmalarına “Cavid və folklor”, “Folklor və yazılı ədəbiyyatın problemləri”, “Açıq kitab – Dədə Qorqud”, “Çağdaş folklorşunaslığın problemləri” və bu sahədə yazdığı çoxlu sayda sanballı elmi məqalələr aiddir.

Prof. Kamran Əliyev “Folklorizm və mifologizmlərin Nəsimi şeirlərinin poetikasına təsiri” adlı məqaləsində böyük Azərbaycan şairi İ.Nəsimi yaradıcılığının folklorla əlaqələri haqqında yazır: “İ.Nəsimi yaradıcılığının folklorla əlaqələri bir sözdə, bir mənada, bir beytdə, bəzən də bütöv bir şeirdə aydın şəkildə özünü büruzə verir. Bu mənada şairin “Oldu yenə” rədifli qəzəli bütövlükdə Novruz bayramına həsr edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, klassik poeziya nümunələrində belə bir fakta çox az-az rast gəlmək mümkündür. Nümunə üçün XVIII əsrdə

M.P.Vaqifin və XX əsrdə H.Cavidin əvvəldən axıradək Novruz bayramına həsr edilmiş əsərlərini xatırlamaq olar" (1, 11).

Kamran müəllim həm də Folklor İnstitutunda Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışırdı. 2012-ci ildən yaranan bu şöbəyə rəhbərlik edən professor Kamran Əliyev folklor və yazılı ədəbiyyatın öyrənilməsində yeni istiqamət formalaşdırdı. "Folklor və yazılı ədəbiyyat" adlı iki hissədən ibarət kitab çap olundu. Burada folklor və yazılı ədəbiyyatla bağlı müxtəlif məqalələr işıq üzü gördü. Akademik Muxtar Kazımoğlu – İmanov Kamran Əliyev haqqında yazır: "Bizdə folklor və yazılı ədəbiyyat münasibətləri daha çox "yazıçı və folklor" müstəvisində öyrənilib. Amma Kamran Əliyev özünün romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başladı. Məsələn, "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. kimi paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoydu" (3, 23). Kamran müəllimin xalqımızın böyük abidəsi "Kitabi-Dədə Qorqud"a həsr etdiyi "Açıq kitab – Dədə Qorqud" monoqrafiyası əksər elmi müəssisələrin, aparıcı ali məktəblərin müvafiq kafedralarında müzakirə edilmiş və yüksək qiymətləndirilmişdir.

Kamran müəllimin daim axtarışda olması onun yazdığı monoqrafiyalardan, çoxsaylı elmi məqalələrdən görünür. Şöbədə aparılan elmi müzakirələrdə mən daim onun analitik təfəkkürünə heyran qalırdım. Hamının fikrinə hörmətlə yanaşan Kamran müəllimin söylədiyi fikirlər çox dəyərli idi.

Kamran müəllim böyük alim olmaqla bərabər yüksək insani keyfiyyətlərə malik bir şəxsiyyət idi. Mərhəmətli, xeyirxah, ədalətli, mehriban insan olan əzizimiz Kamran müəllim rəhbərlik etdiyi şöbənin əməkdaşları ilə dost kimi davranırdı. Elmi qənaətlərini, həmçinin müxtəlif sahələrlə bağlı fikirlərini hər zaman şöbə əməkdaşları ilə bölüşürdü.

Kamran müəllim özündən sonra böyük irs qoyan alimlərimizdəndir. O, Azərbaycan ədəbiyyatşünaslıq elminin zirvəsində

duran şəxsiyyətdir. Onun yazdığı əsərlərə həmişə müraciət olunacaq. Onun ziyası həmişə elmimizə işıq saçacaq. Dəyərli alimimizin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq. Bu dəyərli insanın yoxluğuna inanmaq olmur.

**QAYNAQLAR**


1. Əliyev Kamran. "Folklorizm və mifologizmlərin Nəsimi şeirinin poetikasına təsiri". "İmadəddin Nəsimi və folklor" mövzusunda Respublika Elmi-Praktik konfransının materialları, "Elm və Təhsil", Bakı, 2019
2. Hacıyeva Maarifə. "Hüseyn Cavid: Həqiqət və gözəllik şairi". "Xalq qəzeti", 22.05.2018
3. İmanov Muxtar Kazımoğlu. "Dəyanətli insan". "Kamran Əliyev 65". "Zərdabi ZTD", Bakı, 2018

# SÖZÜNÜ DEMİŞ ELM ADAMI – KAMRAN ƏLİYEV

# THE SCIENTIST WHO SAID HIS WORD – KAMRAN ALIYEV

# УЧЕНЫЙ, СКАЗАВШИЙ СВОЕ СЛОВО – КЯМРАН АЛИЕВ

**İsmayıl FAXTİYEV**
*Sumqayıt Dövlət Universiteti, Tarix və Coğrafiya Fakültəsi,*
*İsmayıllı, Gənclərin İnkişaf və Karyera Mərkəzi, direktor*
*ismayilfaxtiyev@gmail.com*

**Özət**

Bu məqalədə AMEA Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Kamran Əliyevin ədəbiyyatşünas, tənqidçi, folklorşünas, yazıçı fəaliyyətindən, həyat və yaradıcılığından bəhs edilir.

**Açar sözlər:** alim, ədəbiyyatşünas, tənqidçi, folklorşünas, yazıçı, romantik ədəbiyyat

**Summary**

This article discusses the activities, life and work of literary critic, folklorist, writer Kamran Aliyev, head of the Department of Folklore and Written Literature of the Institute of Folklore of ANAS, Doctor of Philology, Professor.

**Key words:** scholar, literary critic, folklorist, writer, romantic literature

**Резюме**

В статье рассматривается деятельность, жизнь и творчество литературоведа, фольклориста, писателя Камрана Алиева, заведующего кафедрой фольклора и письменной литературы Института фольклора НАНА, доктора филологических наук, профессора

**Ключевые слова:** ученый, литературовед, фольклорист, писатель, ученый-романтик

Sözünü demiş elm adamı – Kamran Əliyevin elmi yaradıcılığına ümumi tərzdə nəzər saldıqda belə, onun qazandığı nəticələr, əldə etdiyi uğurlar, fəth etdiyi zirvələr bizim qəlbimizdə də fərəh və qürur duyğuları oyadır. Zəhmətkeş və görkəmli alim elmi yaradıcılıqla məşğul olduğu bu müddət ərzində çox böyük müvəffəqiyyətlərə imza atmışdır; istedadlı alimin indiyə qədər 20-dən çox monoqrafiyası və fundamental elmi tədqiqatı nəşr edilmişdir. Professor Kamran Əliyev 300-ə yaxın elmi məqalənin müəllifidir. O, 70-dən çox dissertasiyanın müdafiəsində opponent kim iştirak edib. 12 fəlsəfə doktorluğu dissertasiyasına isə bilavasitə elmi rəhbərlik etmişdir. Yüzlərlə dissertasiya, tədqiqat və kitablara rəylər yazmış, bir çox kitabların elmi redaktoru olmuşdur. Bu faktlar və böyük alimin elmi bioqrafiyasını bəzəyən digər həqiqətlər özü onun haqqında, onun elmimizə və mədəniyyətimizə verdiyi töhfələr haqqında şahidlik etməkdədir (3).

Romantik üslubun tədqiqatçısı kimi Kamran Əliyevin yaradıcılığı çoxcəhətli olduğu kimi, həm də çoxsahəlidir. O, demək olar ki, romantizmin və romantik cərəyanla bağlı nəzəri problemlərin əsas müddəaları haqqında professional mühakimələr yürütmüşdür. Biz həqiqi tədqiqatçıya xas olan bir qisim keyfiyyətləri Kamran Əliyevin yaradıcılığında görürük. Bu mənada Kamran Əliyevin ədəbiyyatımızın müxtəlif məsələlərinə həsr olunmuş külli miqdarda məqalələrinin əhəmiyyətini, filologiyamızın inkişafındakı rolunu azaltmadan deməliyik ki, Azərbaycan romantik ədəbiyyatının əsas simaları bu görkəmli tədqiqatçının yaradıcılığında mərkəzi mövqedədir.

Ədəbiyyatşünaslıq elmi üzrə bir neçə istiqamətdə mühüm elmi problemlərin işlənib hazırlanması və həllində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyevin özünəməxsus böyük xidmətləri vardır. Tanınmış ədəbiyyatşünas Kamran Əliyev, hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas tədqiqatçılarından biridir. Azərbaycan ədəbiyyatşünaslıq elmində romantizm nəzəriyyəsinin banisi və görkəmli yaradıcısı akademik Məmmədcəfər Cəfərovdan sonra Kamran Əliyev bu nəzəriyyəni ayrı-ayrı istiqamətlərdə in-

kişaf etdirmişdir. Belə demək olar ki, AMEA-nın müxbir üzvü Kamran Əliyev akademik Məmmədcəfər Cəfərovun meydana qoyduğu konsepsiyanı yeni elmi-nəzəri müddəalarla zənginləşdirmişdir. "Azərbaycan romantizminin obrazlar sistemi" adlı doktorluq dissertasiyası romantizm nəzəriyyəsinə həsr edilmiş mühüm elmi addımdır. Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri də ilk dəfə Kamran Əliyev tərəfindən sistemli şəkildə araşdırılıb ümumiləşdirilmişdir (2, səh. 4).

Kamran Əliyev Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarının tərcümeyi-halını və əsərlərini onların mənsub olduqları ədəbi cərəyanlarla birlikdə araşdırıb ümumiləşdirməyin fərqli örnəklərini təqdim edir. Mirzə Fətəli Axundovu maarifçi realizmlə, Hüseyn Cavidi romantizm cərəyanı ilə, Cəlil Məmmədquluzadəni "Molla Nəsrəddin" ədəbi məktəbi ilə üzvi əlaqədə və vəhdətdə tədqiq etməklə, o, bu qüdrətli sənətkarların formalaşdırdıqları ədəbi epoxa haqqında bütöv bir sistemi meydana qoyur.

Həmin istiqamətdəki tədqiqatlarında Kamran Əliyev ədəbiyyat nəzəriyyəçiliyi baxışları da olan sanballı ədəbiyyat tarixçisidir. Azərbaycan ədəbiyyatşünaslıq elmində folklorşünaslığın xüsusi bir qolu olan folklor və yazılı ədəbiyyat məhz Kamran Əliyevin ardıcıl tədqiqatları sayəsində müstəqil elmi istiqamətə çevrilmişdir. Uzun illər ərzində ümumi şəkildə yazılı ədəbiyyatın əsas qaynaqlarından biri kimi araşdırılan bu problem Kamran Əliyevin özünəməxsus elmi yanaşmaları ilə ədəbiyyatın hər iki qolu arasında qarşılıqlı zənginləşmə mənbəyi miqyasına çatdırılmışdır (1, səh. 15).

Kamran Əliyevin ədəbiyyatın müxtəlif mərhələləri, müxtəlif sahələri ilə bağlı çoxyönlü tədqiqatları var. O həm ədəbiyyat tarixçisi, həm də ədəbiyyat nəzəriyyəçisidir, digər tərəfdən də ədəbi tənqidlə, ədəbi proseslə məşğul olan dəyərli həmkarlarımızdan biridir. Onun son dövrlərdə apardığı tədqiqatların bir istiqamətini də folklor və yazılı ədəbiyyat məsələləri təşkil edir. Kamran Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri olub. Neçə illərdir öz vəzifəsinin öhdəsindən ləyaqətlə gəlib və

bu sahədə tədqiqatları da çox ciddi bəhrəsini verib. Xatırladım ki, bizdə folklor və yazılı ədəbiyyat münasibətləri daha çox "yazıçı və folklor" müstəvisində öyrənilib. Amma Kamran Əliyev özünün romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başladı. Məsələn, "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. kimi paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoydu.

Kamran Əliyevin elmi yaradıcılığının gücü mövcud faktları elmi təfəkkür süzgəcindən keçirərək, müasir elmi nailiyyətlərin, daha doğrusu, Şərq və Qərb mədəniyyətlərinin vəhdətində vermək bacarığında və ən başlıcası güclü məntiqindədir.

Professor Kamran Əliyev hazır stereotiplərdən oturuşmuş sovet düşüncə tərzini mütləq həqiqət hesab edən alimlərdən deyil, əksinə, hazır qəlibləri dağıdan, yeni düşüncə tərzi ilə seçilən görkəmli alimlərdəndir. Məsələn, atdan danışan alim, onun hamıya məlum cəhətlərindən danışır və naməlum tərəflərinə işıq salaraq göstərir ki, əgər əruzun yaranması ilə bağlı məsələlərdə dəvə və onun davranışı arasında bir harmoniya varsa, bizim milli poeziyanın, eləcə də heca vəzninin yaranması arasında bir harmoniya vardır. Kamran Əliyev iddialarında tamamilə haqlıdır. Çünki dəvə ərəbin yaşam tərzində mühüm rol oynadığı kimi at da türkün ictimai siyasi və ədəbi həyatında təsirsiz qalmamışdı. Heç kəsə sirr deyildir ki, o, geniş yaradıcılıq diapazonuna malikdir. Belə ki, o, yalnız elmi yaradıcılıqla məşğul olmur, eyni zamanda bədii-publisistik yaradıcılıqla da məşğul olur. Onun "Sədərək döyüşləri" əsəri vətən uğrunda mübarizə aparan şəhidlərimizə sözdən ucaldılmış abidədir. Yazıçının hekayə və povestləri isə həyat həqiqətlərini, bəlkə də belə demək daha doğru olar, həyatın özünün bədii təqdimatıdır.

Alim və yazıçı Kamran Əliyevin alimliyindən və yazıçılığından ucada duran bir mühüm xüsusiyyəti də var idi, o da onun insanlığı idi. Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, Kamran müəllim böyük hərflə yazıla biləcək alim, böyük hərflə

yazıla biləcək yazıçı, böyük hərflə yazıla biləcək insan və yüksək mənəvi-əxlaqi dəyərə malik olan, müdrikliyin zirvəsində dayanan şəxsiyyət idi.

Kamran Əliyev Azərbaycan ədəbiyyatşünaslıq elmində fərdi siması olan görkəmli ədəbiyyatşünas alimdir. Azərbaycan ədəbiyyatşünaslıq elminin mənalı səhifələrinə çevrilmiş elmi əsərləri böyük ömrün böyük bir dövrünün sanballı yekunu, qarşıdakı illərdə həllini tapacaq problemlərin möhkəm bünövrəsi olmaq mənasında isə mükəmməl başlanğıcıdır.

## QAYNAQLAR


1. İsa Həbibbəyli. "Fərqli və fərdi siması olan ədəbiyyatşünaslıq" Kaspi, 2018, 6 mart, s. 15. http://www.anl.az/down/meqale/kaspi_az/2018/mart/580572.htm
2. Kamran Əliyev. "Romantizmin Nəzəriyyəsi" Əsərləri, 10 cilddə, I cild. Bakı, 2018, səh. 4
3. Yaşar Qasımbəyli. "Diyadindən dünyaya addımlayan alim – Kamran Əliyev". 525-ci qəzet, https://525.az/news/102320-diyadinden-dunyaya-addimlayan-alim-kamran-eliyev

# ÖZÜ VƏ SÖZÜ BÖYÜK OLAN İNSAN-ALİM

**İsmayıl MƏMMƏDLİ**
*Filologiya elmləri doktoru, professor,*
*Nəsimi adına Dilçilik İnstitutu*
*Tətbiqi Dilçilik şöbəsinin müdiri*
*ismayilmammadli1946@gmail.ru*

Dünya bir pəncərədir,
Hər gələn baxar gedər...

Ancaq Kamran müəllim bu dünyaya elə-belə baxıb getmədi: yazdı, yaratdı, öyrətdi, özündən sonrakı nəsillərə ölməz irs qoyub getdi. Bəşər tarixinin zənginliyi birinci növbədə onun yetişdirdiyi müdrik şəxsiyyətlərlə, el, sənət və mədəniyyət adamları ilə, ədəbiyyat xadimlərinin xidmətləri ilə, onların nəsillərə verdikləri ərməğanlarla, mənəvi irslərlə, miraslarla ölçülür. Belə tarixi simalar, elm xadimləri zaman keçdikcə öz xalqının milli iftixarına, qürur mənbəyinə çevrilirlər. Müdriklər, böyük filosoflar deyiblər ki, insanın ruhu onun qəlb dünyasındadır, qəlb isə hər bir kəsin insanlara bəxş etdiyi xeyirxah əməllərlə, qidalarla yaşayır. İnsan öz qəlbini qoruyub təmiz saxlamalıdır ki, ruhu əzab çəkməsin. Belə xeyirxah duyğularla, əməllərlə ömrünü kişi kimi başa vurmuş, 67 yaşında dünyamıza vaxtsız əlvida demiş, alim qardaşım, səmimi, həssas dostum, kövrək qəlbli ədəbiyyatşünas alimimiz, həmişə yazıb-yaratmaq eşqi ilə coşub-çağlayan professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamran İmran oğlu Əliyevin sıralarımızdan qəfil getməsi məni və dostlarını qəm dəryasına qərq etdi. Kamran müəllim bədii sözü, dərindən-dərinə duyub dəyərləndirən elm dilinə, yaradıcılıq məhsuluna, bədii hadisəyə çevirməyin mahir ustası kimi özünü tanıdan təkrarsız ədəbiyyatşünas, folklor araşdırıcı idi. (Mənə onun haqqında keçmiş zamanda yazmaq çətindən çətindir.) O, mənalı ömrü boyu 20-dən artıq kitab, 230 elmi məqalə yazıb çap etdirmişdir. Kamran Əliyev ədəbiyyatşünaslıq və folklorşünaslığın aktual, problem mahiyyətli məsələlərinə dair ölkə daxilində, xarici ölkələrdəki nəşrlərdə bir məhsuldar tanınmış alim

kimi elmi yazıları ilə çıxış etmişdir. Simpozium, konfrans və başqa elmi məclislərdə çıxışlar etmişdir. Onun "XX əsr romantiklərinin ədəbi-nəzəri görüşləri" (Bakı, Elm, 1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (Bakı, 1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (Bakı, 1998), "Azərbaycan romantizminin poetikası" (Bakı, 2002), "Romantizm və folklor" (Bakı, 2006), "Ədəbiyyat tarixinə bir baxış" (Bakı, 2013), "Açıq kitab – "Dədə Qorqud" (Bakı, 2015), "Çağdaş folklorşünaslığın problemləri" (Bakı, 2017) və b. onlarla monoqrafiyalarını ədəbiyyatşünaslar həmişə yüksək dəyərləndirirlər. Prof. Kamran Əliyevin elmi əsərlərinin Azərbaycan ədəbiyyatşünaslığının inkişafına önəmli təsiri olmuşdur. Folklorşünas alimin monoqrafiyalarındakı məsələlərin qoyuluşu öz genişliyi ilə, elmi mühakimələrinin dərinliyi və yüksək peşəkarlıq səviyyəsi ilə diqqəti çəkir. Kamran Əliyevin dərslik və kitabları, onların haqqında yazılmış bir çox resenziya və rəylərdə layiqli və yüksək qiymətini almışdır. Amansız ölüm olmasaydı, ədəbiyyatşünas alim neçə-neçə elmi əsərlər yazıb yaradacaqdı. Təsəlli və ümid yerimiz odur ki, Kamran Əliyevin elmi irsi gələcək tədqiqatlarda yaşayacaq, gənc alimlər onlardan faydalanacaq, ədəbiyyat elmini inkişaf etdirəcəklər.

# KAMRAN ƏLİYEV TƏDQİQATLARINDA 20-30-CU İLLƏR CAVİDŞÜNASLIĞI

**Lütviyyə ƏSGƏRZADƏ**
*Filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun baş elmi işçisi*

Keçmiş SSRİ xalqlarının baş qərargahı Moskvada, yazıçıların rəhbəri A.Fadeyevi "Doloy Şiller!?" – rədd olsun romantizm şüarından sonra ədəbiyyatda romantizmə idealizmin təzahür forması kimi yanaşılmağa başlamasıyla Ə.Hüseynzadə, M.Hadi, H.Cavid kimi milli sənətkarlar tənqidin hədəfinə çevrildi. Ə.Hüseynzadə mühacirət etdi, M.Hadi Gəncə üsyanında yox oldu, H.Cavid repressiyaya məruz qaldı. 20 illik zaman kəsimində kimsə onların, xüsusən H.Cavidin adını çəkməyə cəsarət etmədi.

Azərbaycan tənqidi fikrinin Hüseyn Cavidə münasibəti iki mərhələni; Hüseyn Cavid yaradıcılığına baxışın ziddiyyətli, mürəkkəb, qərəzli tənqid dövrünü (20-30-cu illər) və Cavidi daha çox bu ziddiyyətlərdən, qərəzli tənqidlərdən təmizləmə, "bəraət" dövrünü əhatə edir (1950-ci illərin axırlarından günümüzə qədər). Birinci mərhələ, ziddiyyətli və qərəzli tənqidlər H.Cavidi repressiyaya məruz qoydu. İkinci mərhələdə, xüsusən "əsl bəraət"indən (1982) sonra mütəfəkkir şairin yaradıcılığına münasibət dəyişdi. Akademik M.C.Cəfərov, R.Hüseynov, Z.Əkbər, M.Əlioğlu, Ə.İbadloğlu, Y.Qarayev, A.Turanın Cavid yaradıcılığını yeni rakursdan tədqiq etmələri nəticəsində böyük sənətkarın şöhrətinə layiq sanballı əsərlər meydana çıxdı. Bu sahədə araşdırmalarını davamlı Azərbaycan romantizminin aktual problemlərinə həsr edən, çağdaş ədəbiyyatşünaslığımızın görkəmli nümayəndəsi, AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi Kamran Əliyevin də böyük xidmətləri var. Azərbaycan ədəbiyyatşünaslığında romantizmin təşəkkül və formalaşma mənbələrini ilk dəfə sistemləşdirmiş və Azərbaycan romantizminin poetikasını elmi-nəzəri cəhətdən tədqiqata cəlb etmiş alimin, "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (1985),

“Hüseyn Cavidin şəxsiyyəti və poetikası” (1997), “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər” (1998), “Cavid möcüzəsi” (2002), “Azərbaycan romantizminin poetikası” (2002), “Azərbaycan romantizminin nəzəriyyəsi” (2006), “Romantizm və folklor” (2006), “Hüseyn Cavid: həyatı və yaradıcılığı” (2008), “Ədəbiyyat tarixinə bir baxış” (2013), “Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar” (2013) kitablarında və məqalələrində Azərbaycan romantikləri, xüsusən də H.Cavid romantizmi araşdırılmış, Cavid və romantizm ayrılıqda və birlikdə tədqiq olunmuşdur. Çünki Azərbaycan romantizmi onun əsas hissəsini təşkil edən Cavid romantizmindən kənarda təhlil oluna bilməz. “Bütövün təmin olunması və tamın təşkili üçün romantizm Cavidlə birlikdə aydınlaşır” (16, s. 22). Tədqiqatlarını əsasən, üç əsas istiqamətdə; milli təfəkkürün romantizmdə nəzəri-estetik xüsusiyyətlərini aşkara çıxarmaq; romantizmin bədii sisteminin bu xüsusiyyətlərlə bağlılığını səciyyələndirən prinsiplərin təsbit edilməsi; milli romantizmin ümumdünya romantizminin orijinal forması olaraq aparan K.Əliyev, üç istiqamətdə də “geniş və dərin” araşdırmalar aparmış, xüsusən 20-30-cu illər ədəbi tənqidinin Cavid yaradıcılığına yanaşmasına, bəzi qəlibləşmiş fikirlərə münasibət bildirmişdir.

Tənqidin nüfuzu məsələsi barədə dəfələrlə danışılmış və gələcəkdə də danışılacaqdır. Vaxtilə “Tənqidin sözünə qulaq asmaq” (2, s. 152) çağırışının müəllifi akademik Məmməd Cəfər Cəfərov, “Elə etmək lazımdır ki, yazıçı nüfuzu tənqidçi nüfuzuna mane olmasın, əksinə, bu iki yaradıcılıq sahəsi bir-birini tamamlasın, biri digərinin nüfuza minməsinə kömək etsin” (30, s. 85) – deyən professor Kamal Talıbzadə, “Tənqid yazıçının ardınca getməməli” (24, s. 7) – fikrini müdafiə edən tanınmış tənqidçilərin izindən getmiş professor Kamran Əliyevin tədqiqatlarının “əhatəliliyi, elmi-nəzəri yükü və yenilikləri ilə” bu kimi alimlərin sırasında dayana biləcəyini təsdiq edir. Doğrudur, ona qədər romantizmin tarixi, prinsipləri, üslub xüsusiyyətləri barədə tədqiqatlar aparılmışdı. Ancaq romantizmə dair mövcud tədqiqatları öyrənmək, onlara yüksək qiymət verməklə yanaşı, tədqiqatlarında “zəngin filoloji fakta, konkret ədəbi materiala istinadən romantizmin milli xüsusiy-

yətlərini, təşəkkülünü, obrazlar sistemini, romantik qəhrəmanın fövqəltəbiəti və tənhalığı, qəhrəmanların düşdüyü zamanı və məkanı, romantik ədəbiyyatdakı qarşıdurmaları (Qərb və Şərq, yaxın və uzaq, həyat və ölüm), romantiklərin folklora münasibətini həm poeziya, həm nəsr, həm də dramaturgiyada araşdıraraq maraqlı elmi nəticələrə gələn Kamran Əliyev "ədəbiyyatşünaslığın, ədəbi tənqidin, folklorun, bütövlükdə ədəbiyyatın çətin, mürəkkəb aləminə (dünyasına) məişət təfəkkürü ilə deyil, mükəmməl, sistemli, konseptual, elmi-nəzəri hazırlığı, erudisiyası və ədalətliliyi ilə daxil olur" (25). Bu da alimə tədqiqata cəlb etdiyi problemə daha qlobal müstəvidən yanaşmaq, prosesləri elmi-nəzəri yöndən dəyərləndirmək imkanı verir. "Təfəkkürü, xarakteri, tipologiyası, davranış tərzi etibarı ilə istedadlı ədəbiyyatşünas" K.Əliyevin tədqiqatlarında Azərbaycan romantizminin həm janr, həm üslub, həm mövzu çalarlarını genişləndirən, mükəmməl ədəbi cərəyan kimi formalaşmasında mühüm rol oynayan cahanşümul sənətkar Hüseyn Cavidin həyat və yaradıcılığının yeni təfəkkür işığında tədqiqi həmişə olduğu kimi, bu gün də aktualdır. "Həyatda olduğu kimi, sənətdə və ədəbi düşüncədə də "öz istək və arzularını ifadə edən Cavid, daha çox sistemin və rejimin diktəsi ilə sinfi və partiyalı mövqedən tədqiq olunmuş, hətta tarixin müəyyən zaman kəsiyində "vətən xaini", "xalq düşməni" elan edilmiş, reablitasiya olunduqdan sonra isə şəxsiyyəti və yaradıcılığı sosializm keyfi altında təhriflərə məruz qalmışdır. Bu gün bolşevik tənqidinin süni surətdə ikiləşdirdiyi H.Cavidi professor Kamran Əliyev araşdırmalarında "əsl qədirşünaslıq yanğısı ilə ona yapışdırılmış təhrifləri təshih etməyə çalışmışdır" (25). Cavidin şəxsiyyət və yaradıcılıq bütövlüyünü, milli-fəlsəfi özünəməxsusluğunu və bəşəriliyini təhlil edən tədqiqatçı "Peyğəmbər"lə bağlı bir mübahisəyə (H.Zeynallı) belə yekun vurur: "H.Cavidin "Lenini Peyğəmbər simasında, movzaleyi Məkkə timsalında" verməsini iddia edənlər açıq-açığına yanılırdılar. Ən azı ona görə yanılırdılar ki, H.Cavid "Peyğəmbər" pyesini qələmə alanda (1922-1923) bolşevik rəhbəri sağ idi və adamlarda movzaley təsəvvürü yaranmamışdı. Lakin vulqar sosiologiya nə qədər yanlışlıqlara yol versə də, H.Cavid yaradıcılığında Peyğəm-

bərin bədii əhyasını görür və təşvişə düşürdü" (25). Və ya Mustafa Quliyevin "H.Cavid "Knyaz" əsəri ilə bizim inqilab trenimizə oturdu, lakin dayanacaqların birində sonuncu vaqonun dal qapısından düşüb qaçdı" – fikrinə haqlı olaraq etiraz edən Kamran Əliyev qətiyyətlə Hüseyn Cavid adı və şəxsiyyəti ilə "qaçmaq" anlayışının təzad və əkslik təşkil etdiyini, Hüseyn Cavidin heç vaxt bolşevizm qatarına əyləşmədiyini bildirir. Yəni "romantizmin köynəyindən çıxan" alim polemika xatirinə polemikaya qoşulmur, əksinə, Cavidin şəxsiyyət bütövlüyünü və dəyişməzliyini göstərmək, onun sabit xarakterə malik olduğunu sübut etmək və yaratdığı obrazlarda da buna sədaqətin ifadəsini üzə çıxarmaq naminə polemikaya qoşulur, H.Cavidlə bağlı qəlibləşmiş fikirlərə ehkam kimi yanaşmır, əksinə, bəzi məqamlarda bu ehkamları yıxıb-dağıdır.

Xudu Məmmədov görkəmli alimin tədqiqatlarının gətirdiyi yeniliklərlə bağlı yazır ki, "XX əsr Azərbaycan romantiklərinin obrazlar sistemi, ümumiyyətlə, poetikası ilk dəfə bütöv halda geniş miqyasda müstəqil tədqiqat obyektinə çevrilir. Mövzunun və problemin qoyuluşunun ədəbiyyatşünaslıqda yeniliyi, şübhəsiz, problemin həllini çətinləşdirir, tədqiqatçı alimdən xüsusi səriştə, geniş erudisiyalı yaradıcılıq vərdişi tələb edir". Həqiqətən də, K.Əliyev romantizm problemlərini məhz belə bir erudisiya və professionalizmlə araşdırmış, 1921-ci ildə "Azərbaycan füqərası" qəzetində gedən bir yazıda deyilən: "H.Cavidin "Şeyx Sənan" pyesini tənqidə cəsarət edəməyiz. Çünki Cavidi tənqid üçün ikinci bir Cavid lazım gəlir ki, o da zənnimcə, bizdə yox kimidir" (22, s. 117) mülahizəni mütəfəkkir sənətkarın yaradıcılığına "münasibətin məsuliyyət meyarı kimi" dəyərləndirmişdi; "Dövrün mürəkkəbliyi daxilində bədii zövqlərin müxtəlifliyi daha tez meydana çıxırdı və rəngarəngliyini qoruyub saxlayırdı. Lakin yuxarıdakı mülahizənin əsas aparıcı mahiyyəti onun tənqidçilər qarşısında qoyduğu məsuliyyət yükündədir. Yəni Hüseyn Cavidə münasibətdə elə-belə, ötəri mövqe tutmaq olmaz" (14, s. 27-28). Təəssüf ki, Cavidşünaslıq tarixində obyektiv mülahizələrlə yanaşı, qeyri-ciddi, qərəzli, yanlış fikir və müddəalar daha çox irəli sürülmüş, onun böyük əsərləri yanlış dəyərləndirilmiş, qəsdən, qərəzli şə-

kildə kiçildilməyə, qaralanmağa çalışılmışdır.

Siyasi hadisələrin tüğyan elədiyi 20-30-cu illər sovet cəmiyyətində isə məsələ ağlasığmaz dərəcədə mürəkkəb idi. Köhnəni darmadağın dağıdıb, onun xarabalıqları üstündə yenini quran, ədəbiyyata özlərinin təbliğat və təşviqat vasitəsi kimi baxan bolşeviklər, verdikləri qonorar, vəzifə və imtiyazlar müqabilində "gənc beyinlər"dən bolşevizmi təbliğ edən pafoslu əsərlər tələb edirdilər. gənc yazıçıları təbliğat işinə qoşmaq o qədər də çətin deyildi. Fəhlə-kəndli hökumətinə qəlbən bağlanan gənclər, əsasən siyasi tələbə, ictimai sifarişə müsbət cavab verir, "dəstədən geridə qalmamaq" üçün yarışır, mübarizənin "ən ön sıralarında olmağı" özlərinə fəxr bilirdilər. Lakin ədəbiyyatın məhək daşlarından olan Hüseyn Caviddə bu mümkün deyildi. Yeni dövr yeni tənqidçilər də yetişdirmişdi. Dövrana qulluq göstərən tənqid istədiyini öyür, istəmədiyini mühakimə edirdi. Bu illərin "mərəz" və "qərəz" qoxan tənqidində Cavid baş rolda olsa da, haqqında gözəl sözlər, tariflər də yer alırdı. Məsələn, A.Şaiqin "Cavidin "İblis" nam hailəsi haqqında duyğularım" məqaləsi... A.Şaiqin məqaləsini "Maarif və mədəniyyət" jurnalı "nadir hadisə"lərdən biri hesab etmişdir. Şaiqə görə, "İblis" faciəsindəki Arifi inlədən, ürəyinin dərinliklərində qorxunc yaralar açan öz kədəri deyildir, cahan kədəri, iztirablarıdır: "Qaldır məni ta görməyim insandakı zülmü, Bax yer üzü inlər" – deyə nə acı hayqırır və ruhuna gömülmüş sızıyı nə acıqlı anladır" (29, s. 183). A.Şaiq bu sözləri ilə "əsərin estetik dəyərini müəyyənləşdirir, romantik qəhrəmanın sarsıntılarını və əməllərini dövrün tələblərindən doğan zərurət kimi təqdim edir. O, əsərin ictimai həyatla təmasını diqqətə çəkərək yazır: "Arif XIX və qismən XX əsrin yetişdirmiş olduğu türk xalqının nümayəndəsi və tarixi tipidir" (29, s. 187). Qeyd etmək lazımdır ki, məqalədə İblis obrazı ilə əlaqədar irəli sürülmüş mülahizələrə də münasibət göstərən tənqidçi İblisin təhlilini yalnız onun "zahiri keyfiyyətlərinə" görə etmir, əksinə "onun daxildə gizlədilmiş gizli hisslərinin mənasını açır, təhriklərinin real həyatda olan köklərini axtarır. İblisin "tikici deyil, yaxıcı və yıxıcı" ehtirasının nəticələri onu narahat

edir. Buna görə də A.Şaiq "İblis kəskin ağla və sarsılmaz iradəyə malikdir", – deyərkən, "onu insanlar içərisində mövcud olan varlıq kimi təqdim edəndə tam haqlı görünür" (14, s. 25-35).

Cavidin bir əsərinə iki, bəzən daha çox fərqli münasibəti bütün əsərlərində izləmək mümkündür. Məsələn, "Afət" əsəri haqqında da bir-biri ilə heç cür əlaqəsi olmayan, bir-birini təkzib edən fikirlər çoxdur. Əgər, 1922-ci ildə, "Kommunist" qəzetində "Tamaşaçı" imzası ilə yazılan məqalələrin birində əsər haqqında "Əsər nəinki ilk dəfə oynanması, bəlkə mövzusu, tipləri, hətta üsuli-təhriri (qismən) cəhətdən səhnəmizdə yeni bir şeydir", – yazılırsa, az keçməmiş başqa bir məqalədə "Afət" öz müəllifinə yaraşmayan əsər" (18, s. 47), yenidən qurulan Cəfər Cabbarlının yazdığı məqalədə isə "əsər olmaqdan daha ziyadə bir şaşqınlıq" kimi dəyərləndirilir (1, s. 68). Bu cür ikili münasibəti Cavidin digər əsərlərinə yazılan tənqidlərdə də izləmək mümkündür. Hər halda bu da, "Cavid yaradıcılığında qüsurlar axtaran tənqidin ən zəif cəhəti elmi əsaslandırmaların olmaması idi. Bu isə eyni vaxtda sənətkarın bir əsəri barədə həm müsbət, həm də mənfi meydana çıxmasının bazisi olurdu" (14, s. 29).

Cavidin dilini, üslubunu tənqid edənlər olduğu kimi, onu sevənlər, sənətini yüksək dəyərləndirərək öyənlər, "alqış, hörmət, təzim edənlər", şeir həsr edənlər daha çoxdu. "İqbal"da (1914) nəşr olunan "Qardaşım H. Cavid" sərlövhəli şeirində Əli Nəzmi şairin şöhrətli sənətkarlığı ilə yanaşı, nəcib insanlığını da diqqətə çəkirdi:

"Bir çöhrə durur pişi-xəyalımda didərgun
Ərz eyləyir alqış o simada təbiət.
...Bir çöhrə ki, sinəmdə onun sevgisi mədfun
Bir çöhrə ki, vardır ürəyimdə ona şəfqət.
Məndən ona alqış, ona təzim, ona hörmət (25).

Gündüzün gecəsi olduğu kimi, tənqidin də ağ-qarası var. Ə.Nəzminin göylərə qaldırdığı Cavidi, 20-30-cu illərdə tənqidçi kimi daha populyarlaşmış Əli Nazim isə kəskin tənqid edənlərdən idi: "Cavid öz sinfinin siyasi-pantürkist planlarının, onun milli şovinist görüşlərinin ifadəçisi olaraq qaldığından onun içərisində sosializm epoxasının tip və xarakterləri, göstərilən xalis şura dram-

ları hələ ki yoxdur" (heç bir zaman da olmadı) (26, s. 375). Əslində, bu günün prizmasından baxıldıqda tənqidçi milli sənətkarı olduğu kimi dəyərləndirmişdir. Amma o günün prizmasından yanaşıldıqda məqalədə yazılanlar Cavidi məhvə aparırdı, çünki ədibin milliliyi, türkçülüyü, turançılığı nişan verilirdi. Tənqidçi 1935-ci ildə "Qızıl şəfəq" qəzetinin 28 aprel tarixli sayında gedən: "Bugünkü Azərbaycan Şura ədəbiyyatı haqqında bəzi qeydlər" – adlı məqaləsini Cavid yaradıcılığının tənqidinə həsr etmişdir: "Cavid bu pyesdə ("Səyavuş") faciənin tarixi tematikasından asılı olmayaraq özünü itirdiyini göstərir. "Kimlə olmalı, kimə etibar etməli" suallarına o, hələ öz qəti cavabını verməmişdir" (26, s. 265).

Hər bir ədəbi-ictimai hadisəyə yalnız hakim ideologiya, yalnız sinfi mövqedən izah vermək məhdudluğu 30-cu illər tənqidində bir çox haqsız ittihamlar, zorakı, ədalətsiz etiraflar, habelə nəzəri-estetik və elmi-metodoloji sapıntılar törədir, bu isə özlüyündə ədəbi-bədii inkişafı təbii yolundan döndərir, onu ciddi şəkildə ləngidirdi. Məsələyə yalnız hakim ideologiya, sinfi mövqedən yanaşan Əli Nazim elə həmin ildə yazırdı: "C.Cabbarlının ölümündən sonra, tək bircə iri dramaturq Hüseyn Cavid qalmışdır ki, o da hələ ideyaca yenidən qurulmaq prosesindədir" (26, s. 375). Göründüyü kimi, tənqidin baş alıb getdiyi bir dövrdə Caviddən çox bunu yazanlar daha çox "özlərini itirmişdilər," çünki Cavid "yenidən qurulmaq" niyyətində deyildi. Təəssüf ki, Azərbaycanda ilk fəlsəfə dərsliyinin müəllifi olan Məmməd Kazım Ələkbərli də filosof şairi dərk etməmiş, ya da dərk etmək istəməmişdir. Digərləri kimi, ədibin yaradıcılığına qarşı eyni xətti Məmməd Kazım Ələkbərli də usanmadan davam etdirmişdir. "Kommunist" qəzetində (1934-cü il 13 iyun) "Bədii yaradıcılıq qurultayı" adlı yazısında Cavidi "Sənət sənət üçündür" nəzəriyyəsini dəstəklədiyi və "yenidənqurma" məsələsinə etinasızlıq göstərdiyi üçün tənqid etmiş, şairi "düzgün yol"a çağırmışdı ("Aprel ədəbiyyatı" (1935-ci il, № 10-12).

Məzmunca sosialist ədəbiyyatının yaradılması uğrunda elan olunmuş ədəbi öhdəçiliklər yerinə yetirildikcə öz addımlarını böyüdən, ondan geri qalmayan tənqidin "20 ilə yaxın arasıkə-

silməz “ifşa meyli” bir çox sovet yazıçılarında yeni sosialist həyatı mövzularına inadkarlıqla həvəs də yaratdı. Amma nəzərə alınmırdı ki, sovet adamının formalaşmasına hər hansı bitkinin əkilib-becərilməsi kimi baxmaq olmazdı. Kənd təsərrüfatı işi ilə cəmiyyət həyatının mürəkkəblikləri arasında az qala bərabərlik işarəsi qoyan “elm” özünün ilk tərəfdarlarını ədəbiyyatda tapdı” (14, s. 13-33). “Kənd təsərrüfatı işi ilə cəmiyyət həyatının mürəkkəblikləri arasında az qala bərabərlik işarəsi qoyan “elm”in ədəbiyyatda tapdığı” “ilk tərəfdarları” idi qol çırmayıb tənqid meydanına girənlər. “İctimai həyatdakı gərginliyin ölçüyəgəlməz miqyasını və xarakterini dəqiq təhlil etməkdənsə, yaradıcı qüvvələri bir yerə toplayıb doğru nəticələrə gəlməkdənsə, “qarayaxdılar”ın daha böyük üstünlük qazandığı bir zamanda “əsl ədəbiyyat bunlara cavab vermək, yoxsa yeni bədii nümunələr yaratmaq dilemması qarşısında qaldı. Əslində isə, hər iki istiqamətdə çəkilən zərər xalqın xeyrinə olmayan eksperimentlər doğurdu” (14, s. 13-33). “Əsl ədəbiyyat” yaratmaqla məşğul olan Cavidin tənqid olunması təbii idi və Cavidi tənqid edənlər yalnız ədəbi müasirləri deyildi. Şairə qarşı çirkin bir kampaniya başladılmışdı. Şair ona qarşı aparılan bu kampaniya barədə 1936-cı il, 3 oktyabrda M.C.Bağırova məktub yazmış, M.C.Bağırov da Cavidi dəvət edərək onun dinlənilməsini və MK Bürosuna məlumat verilməsini H.Rəhmanov və Ruhulla Axundova tapşırmış, təəssüf ki, heç bir müsbət nəticəsi olmamış, böhtan kampaniyası daha da qızışmış, qəzet səhifələrində ona ünvanlanan çirkin şeirlər yer almışdı. Məsələn, “Ədəbiyyat” qəzetinin 1937-ci il 16 may tarixli sayında Cavidə ünvanlanmış şeirdə yazılır:

Adına millətçilər dedi: “Böyük sənətkar”
Gəlin düz araşdıraq, sənin sənətinmi var?
Azərbaycan şairi olsa da murdar adın,
Soltanların, şahların sinisini yaladın.
O murdar arzuların torpaqlara gömüldü,
Sənin yaratdıqların özündən əvvəl öldü (31).

(Ürək ağrısı ilə yazdığımız bu misraları, bu nataraz, üzqızardan sözləri sevimli sənətkarımızın hansı zorluqlar altında yazdığını

hiss etməmək mümkün deyil). Keçən əsrin 20-30-cu illərinin ədəbi tənqidini izləyən və təhlil edən professor K.Əliyev bu misraların müəllifinə münasibət bildirərək yazır: "bir zamanlar H.Cavidin əsərlərinin təsiri ilə kitab yazanlar, H.Cavid sənətinin kölgəsini şeirlərinin ahənginə və ritminə qatanlar onun təsirini dandılar, kölgəsini qılıncladılar, özünə şəkk etdilər" (12, s. 225). Təbii ki Cavidin qərəzli tənqid olunmasına onun "Sosializmin döyüşən övladı" ola bilməməsi, təpədən dırnağa milli şair olması səbəb olmuşdu. Hər kəsin "böyük qardaşımız"dan, Stalindən, partiyadan, pambıqdan, kolxozdan, traktordan yazdığı bir zamanda Cavidin tamamilə bu kimi mövzulara yanaşmaması dövrün təbil çalanlarına qəribə və "yersiz inad" kimi görünmüş, "Bəzi yazıçılar hazırkı zamanın böyük sosializm quruculuğu dövrünün böyük quruluşumuzda davam edən hadisələrini yazmaqdansa, gedib köhnə tarixi şeylərə əl atırlar", – deyə suçlanmışdı. Cavidşünaslığın əsasını qoyan, fikrimizcə, ədibin ən ədalətli tənqidçilərindən olan Hənəfi Zeynallı Cavidin sənətini, yaradıcılıq meyillərini xarakterizə edərək yazırdı: "Cavid bir "Şeyx Sənan" yazar, bir "Uçurum" açar, bir "Afət" doğurar, bir "İblis" rəqs etdirər, bir "Peyğəmbər" yaratmağa qayrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertesi gün də bir Lenin diriltməyə can atacaqdır" (33, s. 34). Əslində, Hənəfi Zeynallı Cavidi doğru kəşf etmişdi. Cavidin mövzularını seçdiyi məkan da, coğrafiya da bəlli idi, marağında olduğu mövzular da. Bu bir həqiqət idi ki, Cavid vətən deyəndə bir tək doğulduğu regionu deyil, ümumilikdə, Şərqi, Böyük Türküstanı – Turanı nəzərdə tuturdu. Cavid islam Peyğəmbərindən yazarkən "panislamist", Turandan yazarkən "pantürkist" olurdu və bu reallıqdı. Peyğəmbər dini rəhbər, Əmir Teymur Turan fatehi idi. Cavidin dininin müsəlman, milliyyətinin türk olmasını nəzərə alsaq, nə onun bu şəxsiyyətlərdən yazması, nə də ideallaşdırması "suç" deyildi. Əksinə, bir sənətkarın millətini, kimliyini unutması, onun taleyini düşünməməsi, tarixinə, keçmişinə biganə qalması "suç" və fəlakət sayılmalıdır. Görünür, tənqidçilər Cavidin kimliyini unutduğu kimi, hər iki tarixi şəxsiyyətin: islam Peyğəmbərinin və Turan hökmdarı Əmir Teymurun tarixdəki rolunu da unutmuşlar. Bu sə-

bəbdən də, 20-30-cu illərdə tənqidçilər sənətkarın yazdığı əsərlərə obyektiv münasibət göstərməkdənsə, onu "gözdən salmağa" xidmət etmişdilər. Məsələn, "Qızıl qələm" imzalı tənqidçinin fikrincə: "Əsərin ("Topal Teymur") adı özünə çox uyğundur. Əsər sənətcə topaldır." Düzdür, tənqid "Topal Teymur" əsərində "bir çox müsbət xüsusiyyətlər və keyfiyyətlər: "Əsgərlərin söhbətlərindəki etiraz notları, Şair Kirmaninin narazı mövqeyi" və s. görmüşdü. "Bəzi tənqidçilər isə bu məsələləri əsərin qabaqcıl mövqeyi, qabaqcıl dünyagörüşü ehtiva etmək kimi mənimsəmişlər. Lakin bütün bunlara baxmayaraq, əksər hallarda və son dövrlərə qədər Topal Teymur obrazı zərərli bir obraz kimi tənqid olunmuşdur" (Əliyev, 2009: 26). Halbuki "Topal Teymur" kimi bir əsərə "sənətcə topaldır", – demək sənət anlayışından anlamamaqdır.

Bolşeviklərə etina etməyən Cavid bu ərəfədə dövrünün nüfuzlu, sözükeçən tənqidçilərindən Mehdi Hüseyn, Əli Nazim və digərlərini çox məşğul etmişdi. Qeyd edək ki, sovet dövrü tənqidçiləri romantizmi iki yerə bölərək: mütərəqqi və mürtəce romantizm adlandırmışdılar. Mürtəce romantiklər sırasına Əli bəy Hüseynzadə, Əlabbas Müznib, Səməd Mənsur, Ağadadaş Müniri və başqaları daxil idi. Halbuki, bu şəxslər də romantik qəhrəman yaradarkən oxucuya millətini, dinini və keçmişini dəfələrlə xatırladır, bir sözlə, kim olduğumuzu başa salmağa çalışırdılar. "Mürtəce sənətkarlar" ifadəsilə başlayan bir çox məqalələr yazılmışdı. Bu məqalələrin niyə yazıldığı və hansı niyyətə xidmət etməsinin izahına lüzum yoxdur. Çünki məqalə bir qayda olaraq, 20-30-cu illərin "mürtəce baxışlarının stilində" yazılırdı. Tənqidçinin fikrincə, guya həmin "Mürtəce şairlər", "fəhlə sinfini coşğun musiqi, gözəllik, şeiriyyət və sənətkarlıq düşməni hesab edirlər", guya fəhlə sinifinin "özünü və özünə yaxın geniş əməkçi kütlələrini böyük gələcək uğrunda mübarizəyə çağıran şeiri vardır", guya "öz şüuru ilə müasir burjuaziyadan ayrılaraq sosialist inqilabı cəbhəsinə keçən görkəmli sənətkarlar bu həqiqəti gözəlcəsinə anlamışlar" (14, s. 29). Əslində isə, məqalədə "mürtəce sənətkarlardan" çox "mürtəce tənqidçi" fikri baş alıb getməkdədir ("Romantizmin bütün tərəfləri ilə birgə görünən mövzu, janr və obazlarının şərti

sərhədləri məhz Məmməd Cəfər müəllim tərəfindən cızılıb. Ayrı-ayrı romantik sənətkarların – H.Cavidin, M.Hadinin və başqalarının yaradıcılığında ehtiva olunan romantizmə aid ümumi səciyyəvi ideya-bədii xüsusiyyətlərin nədən ibarət olduğunu ədəbi-elmi fikrə ilk dəfə M.Cəfər müəllim elan etdi" (15, s. 116).

M.Hüseynin "mürtəce sənətkarlardan" saydığı Cavidi "öz şüuru ilə müasir burjuaziyadan ayıraraq sosialist inqilabı cəbhəsinə keçə bilməyən, bu həqiqəti anlamayan"ların sırasına daxil etməsi fikri mürtəce tənqidçinin Cavid sənətinə, Cavid şəxsiyyətinə "onun böyüklüyü dərəcəsindən deyil, lüzumsuz və ideoloji baxımdan zərərli" aspektən yanaşmasıdır. Yazılan tənqidi yazılardan da göründüyü kimi, "dövrün ictimai-siyasi təxribatı Cavidə qarşı ən sərt ittihamlardan yanaşmış, ona qondarma meyillər və ideyalar yapışdırmaq üçün hər cür yalançı və bayağı yazmalardan istifadə etmiş", "əsərlərində böyük bəşəri problemləri qabardan Cavidə qarşı xırda və dəyərsiz miqyaslar vermək təzahürləri siyasi təbliğatların gündəlik qayəsinə çevrilmişdir" Mehdi Hüseynin ədibi tənqid etməsi, bəzən də "onu siyasi təxribat və hücumlardan yayındırmağa: Caviddə "gəncləşmə", "proqressə doğru addım atma hallarını önə çıxarmağa" xidmət etmişdi. Cavid yaradıcılığına "bolşevik münasibətinin nəzərini yumşaltmaq", şairə qarşı güclənən sərt ittihamların qarşısına çəpər çəkmək üçün "yeni yanaşma tərzi" tələb edən müəllif, bir az da irəli gedərək Cavidə şura ədəbiyyatına çatmaq üçün "Bir qədər də Marks, Engels, Leninin şah əsərini oxumaq və həyata açıq gözlə baxmaq" (19) tövsiyəsində bulunur. "Səyavuş" əsərini ədibin yaradıcılığının dönüş nöqtəsi hesab edən tənqidçinin fikrincə, "Səyavuş" əsəri istismarçıların "müasir kapitalist cəmiyyətində kök salmış qalıqlarına ölüm zərbəsi" endirməkdə xüsusi "kömək" edəcəkdir. Yəni tənqidçiyə görə "dünənki Hüseyn Cavid bu yolla getməmiş", "insan tarixinin səhifələrini ləkələmiş Topal Teymurlara qarşı çox mülayim və mehriban bir əlaqə bəsləyərək onu ədalət simvoluna çevirmiş" (18, s. 139), "Uçurum"da Sultan Əbdülhəmid Türkiyəsinə qarşı amansız mübarizə edən inqilabçıları göstərməkdən imtina etmişdir. Tənqidçinin fikirlərinin acımasız dövrün tələblərinin, istəklərinin ifadəsi olduğu aşikardır; "Bəşəri

humanizmində faciənin və fəlakətlərin dərin məzmunu, Böyük əxlaq, Böyük millət və Böyük Turan idealizəsi yaşayan" (bax bu doğrudur!) Cavid yaradıcılığı üçün "bolşevizm, proletar diktaturası idealizədən kənar və ona yabançıdır. Çünki bolşevik qafası dar məntiq içərisində qapanıb qalmışdır. Mehdi Hüseynin də Cavidə (və ya hər hansı bir klassizmə) bu dar və ölü məntiq sxematizmindən yanaşmasından dolayı Cavidin bəşəri böyüklüyünü, Böyük ədəbiyyatın böyük dahisi olduğunu ədəbi-elmi ictimaiyyətə açıqlaya bilməmişdir. Çünki Cavidi yalançı tələblər və düşüncələrlə qavramaq mümkün deyildir" (14, s. 35). Cavidin yaradıcılığına dair bir çərçivədən yanaşan tənqidçi onun fərqinə varmırdı ki, "Hüseyn Cavid qələmi Böyük ədəbiyyat yaratmaqla məşğuldur". Böyük ədəbiyyat yaratmağınsa öz tələbləri, qanunları var. Sözsüz ki, Böyük ədəbiyyat "inqilabi üsyanı əks etdirmək, yaxud inqilab, üsyan hazırlamaq funksiyasını yerinə yetirmir" və yetirə də bilməz, "bolşevik təcavüzkarlığının gerçək sözü, ədəbiyyatı üstələdiyi tənqid obyektiv ola bilməzdi və deyildi də, çünki "belə bir yanaşma tərzi Böyük ədəbiyyat, Böyük humanizm, ədalət tələblərindən kənar olan qüvvələrin ittihamçılar mövqeyinin iradələrini diktə edirdi", o isə ədəbi tənqid bu deyildi. Ədəbi tənqid bədii yaradıcılığa ədəbiyyatşünaslıq elminin tələblərindən yanaşmalı, fikir yürütməlidir.

Göründüyü kimi, 30-cu illərdə böyük sənətkara yanaşma qeyri-obyektiv, qeyri-səmimiydi, bu tənqiddə Cavid sanki müttəhim, tənqidçilərsə ittihamçı – prokuror ədasındaydılar. Cavidin ittiham olunmasına ən böyük səbəbsə, milli sənətkar olması, bolşevizmi qəbul etməməsi, kimsəyə mədhiyyə yazmaması, Stalini, partiyanı öyməməsi idi. Aydındır ki, "dövrün ittiham və təzyiqləri hər hansı bir böyüklüyün qarşısında dözümsüz idi. M.Hüseynin də çıxışı o dövrün siyasi totalitarizminin dözümsüz və əsəbi "qanunlarına" dayanırdı. Mütəfəkkir sənətkar "hər hansı bir qrup partiya, mövqe üçün yazmırdı: hər hansı bir region, etnik-məhəlli, milli təəssübkeşlik ideyasından çıxış etmirdi; Ədalət, Azadlıq, İttihadı idealizə edirdi. Cavidə irad kimi söylənən aşağıdakı fikirlər də bilavasitə Cavidin bir sənətkar kimi xarakterik xüsusiyyətlərini dilə gətirmiş olurdu: "Böyük sənətkarın oxucusu yalnız özü olarsa, onun əsərləri

bir qrup əksinqilabçı burjuaziyanın malı olarsa, bu artıq sənətkarın mənəvi yoxsulluğuna dəlalət edir... H.Cavid məsələnin bu cəhətini düşünməyə bilməzdi. Çünki o, kiçik sənətkar deyildi. O, öz sinfi məramlarına xidmət edən alovlu sənətinin, coşğun musiqiyə malik romantik şeirinin həqiqi və yüksək pafosdan məhrum olmağa başladığını və hətta üslub gözəlliyinin belə itirdiyini duymaya bilməz" (14, s. 27). Tənqidçinin fikrinə görə, "guya indiki halda Cavidin oxucusu yoxmuş", onun əsərləri bir qrup burjuaziyanın malıymış. Vaxtı ilə S.Vurğun da "Səadət günəşi" şeirində eyni ittihamda bulunmuşdu şairə qarşı: "adına millətçilər dedi, böyük sənətkar", "Gəlin düz araşdıraq, sənin sənətinmi var? Şahların, sultanların sinisini yaladın..." və s. Maraqlıdır ki, mütəfəkkir sənətkarı nə qədər ittiham etsələr də, bu tənqidlər içində itib-batan Cavidin "böyük sənətkar"lığını görməyə bilmirdilər, yəni tənqidçinin yanaşmasında şairi tənqidə cürətlə yanaşı, "təəssübkeşliyi" də vardır. Mehdi Hüseynin Cavidlə bağlı ard-arda sıralanan sonrakı fikirlərində şairin "kiçik sənətkar" olmadığını vurğulayaraq onu "alovlu sənətini coşğun musiqiyə malik romantik şeirinin", "üslub gözəlliyinin etirafçısı" (19, s. 171) kimi dəyərləndirir. Əslində, Hüseyn Cavid böyüklüyü bu dar, məhdud düşüncələrin müstəvisinə sığmırdı. Cavid məhz "kiçik sənətkar" deyil, "böyük sənətkar" olduğuna görə "cəmiyyətə sığışmırdı", çünki kiçik cəmiyyət də onu anlaya bilməzdi. Hüseyn Cavidi anlamayan, qəbul etməyənlər Mehdi Hüseynin bədii irsinin özəlliklərini qəbul edə bilməzdilər" (14, s. 28).

20-30-cu illər Cavidşünaslığında Hüseyn Cavid sənətinə birmənalı münasibət bəsləməyən tənqidçilərdən, mətbuatda "Mimre", "M.R.", "R.Mikayıl", "M.Rzaquluzadə" imzaları ilə tanınan yazıçı və tərcüməçi Mikayıl Rzaquluzadə filosof şairin "Quzum, yavrum adın nədir – Gülbahar" şeirinin uşaq ədəbiyyatı və qiraət kitablarına düşməsindən o qədər rahatsız olmuş ki, o, "Maarif işçisi", № 10-da yazdığı "çocuq ədəbiyyatı və qiraət kitablarında üsul" adlı məqaləsində Cavidin şeirinin dərs kitabından çıxarılması haqqında məsələ qaldırılmasını istəmişdir: "… Fəqət doğrudan da, çocuqlar üçün yazılmış olan, məsələn: – Bu dünyada sənin ən çox sevdiyin kimdir, quzum, bilirmisən? – və i.a. kimi

gəlincə, bu kimi yazılar çocuqlar üçün yazılan kitablardan çıxarılmalı, əvəzinə bu günün zehniyyətinə görə əsərlər qoymalıdır” (27). Nə idi M. Rzaquluzadənin altını cızdığı “günün zehniyyəti?” Təbii ki, bolşeviklərin qurduğu Allahsızlar cəmiyyətində Gülbahar “günün zihniyyət”ini əks etdirmirdi. Onlara Allahını, Peyğəmbərini, “annə-baba”sını sevən çocuqlar gərək deyildi. Xüsusən də, Allahın, Peyğəmbərin unudulduğu, Allahın, Peyğəmbərin yerini Stalinin tutduğu imansızlar cəmiyyətinə dininə, millətinə, dilinə, “annə-baba”sına sadiq Gülbahar gərək deyildi. Mütəfəkkir Cavidin Gülbaharı sonralar sovetlər dövründə yaranmış “baba”sı Lenin, vətəni keçmiş SSRİ, dinsiz-imansız-ateist “pioner” obrazına tərs-mütənasib idi. Şeirin güclü tənqidə məruz qalma səbəbi də bu idi. Qəribədir, şair Ömər Faiq Nemanzadənin də tənqidinə tuş gəlmiş, o, Azərbaycanda yaranmış ədəbiyyat dərslikləri haqqında yazdığı “Qiraət” kitablarımızda mövhumat üsulu” (1926) adlı maqaləsində Cavidin “Qız məktəbi”ndə şeirini Abdulla Şaiqin “Qiraət kitabında nəşr olunmasını tənqid etmişdi. Şeirə mənfi münasibət uzun zaman, hətta Cavidin “bəraət”indən sonra da davam etmiş, şeirin üzərində dəyişikliklər edilmiş, ehtiyac olmadığı halda guya “tərcümə” olunmuşdu.

Şairin “günün zehniyyətini” əks etdirmədiyi “Qız məktəbində” şeirini tənqid edən “Mimre” istər sevər, istər döyərəm fikri ilə növbəti dəfə; “İnqlab və mədəniyyət” toplusunun 6-7-ci sayında “İndiki ədəbiyyatda dil məsələsi” adlı məqaləsində; “...Cavid heç şübhə yoxdur ki, ən populyar sənətkar, ədəbiyyatımızda müəyyən yüksək mövqeyi olan yazıçılarımızdan biridir. Gənc yazıçılarımız ondan çox şey öyrənə bilərlər və öyrənməlidirlər...” – şəklində münasibət bildirmişdi.

Araşdırmalar göstərir ki, Cavid üçün söylənmiş hər tərifinin yanında bir tənqidi fikir, bir mülahizə yürüdülüb. Bəzi tədqiqatçıların fikrincə, guya “tənqidçi şairin xalq həyatı və gerçəkliyini öz yaradıcılığının mövzusuna çevrilməsinə işarə etmiş olurdu” (20, s. 21), “lakin məsələyə geniş və hərtərəfli yanaşma göstərir ki, hər hansı yeni dövrün, yeni epoxanın təşəkkülə başlamış ədəbi hərəkatı üçün tarixdən, tarixi şəxsiyyətlərdən bəhs edən, həm

də sənətkarlıq cəhətdən qüvvətli olan əsərlər maneə ola bilməz. Yəni “yeni” adlandırılan ədəbi proses üçün klassik etalona uyğun gələn bədii nümunə heç vaxt əngəl deyildir” (14, s. 29). Əslində, Cavidin keçmişə, tarixi mövzulara və tarixi şəxsiyyətlərə olan marağı danılmazdır. Bu baxımdan onun hələ 1913-cü ildə nəşr edilən kitabını məhz “Keçmiş günlər” adlandırması diqqətçəkicidir. Cavid üçün keçmiş tarixi yaddaşdır, “uzaq gələcəklə qarşılaşan, həm də uzaq gələcəyin əsası olan yaddaşdır”. Əsl sənətkar üçün isə yaşanılan günlərin, hadisələrin nə dərəcədə əhəmiyyətli olduğunu nəzərə alsaq, o zaman Cavidin sənət məsuliyyəti barədə həqiqəti müəyyən etmiş olarıq” (14, s. 30).

“Həyatda olduğu kimi, sənətdə və ədəbi düşüncədə də “öz istək və arzularını ifadə edən Cavid, daha çox sistemin və rejimin diktəsi ilə sinfi və partiyalı mövqedən tədqiq olunmuş, hətta tarixin müəyyən zaman kəsiyində “vətən xaini”, “xalq düşməni” elan edilmiş, reablitasiya olunduqdan sonra isə şəxsiyyəti və yaradıcılığı sosializm keyfi altında təhriflərə məruz qalmışdır. Bu gün bolşevik tənqidinin süni surətdə ikiləşdirdiyi H.Cavidi professor Kamran Əliyev araşdırmalarında “əsl qədirşünaslıq yanğısı ilə ona yapışdırılmış təhrifləri təshih etməyə çalışmışdır” (21).

Beləliklə, Kamran Əliyev ədəbi tənqidə dair araşdırmalarında təhlil semantikasına xüsusi diqqət yetirmişdir. Sovet dövrü tənqidində romantizmə və romantik sənətkarlara münasibətin bəzi vulqar və sinfi yanaşma taktlarını da açıqlamağa çalışan Kamran Əliyev bütün təhlil və təsniflərini konkret mətnlər və nəzəri-konseptual qaydalar kontekstindən təhlil etmişdir. Kamran Əliyev tənqidlə ədəbi proses arasındakı münasibətlərdə həmişə ən bitkin və nizamlı kriteriyaları əsas meyar kimi götürmüş və ayrı-ayrı baxışlardakı məzmun və forma rənglərini də bu meyarlardan təqdim etməyə üstünlük vermişdir” (3, s. 134). Əlbəttə, bir məqalədə professor Kamran Əliyevin elmi fəaliyyətini genişliyi ilə əhatə etmək mümkün deyildir. Amma ən azından ədəbiyyatşünas alimin Cavid yaradıcılığının təhlil və təsnif poetikası haqqındakı müəyyən fikirlərinə işıq tuta bildik. Əsərlərini öz şəxsiyyəti kimi qoruyan, hər misrasında yenilməz şəxsiyyətini yaşadan, insanı

heyrətə gətirən bir qürura malik böyük şəxsiyyət və böyük sənətkara, "sənəti şəxsiyyətini, şəxsiyyəti sənətini xarakterizə edən", "bədii əsərlərilə əqidəsinin daşıyıcısına çevrilən" (17, s. 11) böyük ədəbiyyat adamına professor Kamran Əliyev tədqiqatlarında böyük alimlik etikası və ədəbiyyatşünaslıq prizmasından Böyük şəxsiyyət və Böyük sənətkar kimi yanaşmışdır.

Beləliklə, sovet dövründə romantizmə olan yanlış münasibəti təhlil və tənqid etmiş, onun əsassız olduğunu da aydınlaşdırmış professor K.Əliyev böyük bir inamla belə bir fikri ifadə etmişdir: "Romantizm öz vətəndaşlıq gücünü həmişə saxlamış və bundan sonra da saxlayacaqdır". Azərbaycan filologiyasını, o cümlədən onun parlaq səhifələrindən birini təşkil edən Cavidşünaslığı yeni yanaşma, yeni filoloji aşkarlamalar, yeni təhlillər və mülahizələrlə zənginləşdirən Kamran Əliyevin bir-birindən dəyərli monoqrafiya-ları müasir Cavidşünaslıq elminə dəyərli töhfə, Hüseyn Cavidin ədəbi-estetik görüşlərinə güzgü tutmaqda əvəzsiz bir mənbədir.

**QAYNAQLAR**


1. Cabbarlı. C. Ədəbi mübahisələr / Cavidşünaslıq. Araşdırmalar toplusu 10 cilddə, II-III c., Bakı: Elm, 2007, s. 68
2. Cəfər M. Sənət yollarında. Gənclik, Bakı, 1975, s. 152
3. Əbülfəz Ə. Romantizmdən eposa: tədqiqin Kamran Əliyev aydınlığı. Bakı: Elm və təhsil, 2013
4. Ələkbərli M.K. Bədii yaradıcılıq qurultayı / "Kommunist" qəz., 13 iyun, 1934
5. Ələkbərli M.K. Aprel ədəbiyyatı / "İnqilab və mədəniyyət" jurn., 1935, № 10, s.2
6. Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı, 2002
7. Əliyev K. Azərbaycan romantizminin nəzəriyyəsi. Bakı, 2006
8. Əliyev K. Romantizm və folklor.Bakı, 2006
9. Əliyev K. "Hüseyn Cavid: həyatı və yaradıcılığı". Bakı, 2008
10. Əliyev K. Ədəbiyyat tarixinə bir baxış.Bakı, 2013
11. Əliyev K. Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı, 2013
12. Əliyev K. Ölüm cələsi (Cəlal Qasımovun "Əsrin qiyamət çağı" kitabını oxuyarkən)/ Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s. 225
13. Əliyev K. Mir Cəlal Paşayev –tənqidçi və nəzəriyyəçi /

Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: 2013, s. 13-33
14. Əliyev K. Cavid və ədəbi tənqid // Elmi axtarışlar. Bakı, 2009, № 5. s. 25-35
15. Əliyev K. Akademik Məmməd Cəfər – yeni təfəkkür hadisəsi / Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı, 2013, s. 116-121
16. Əliyeva – Kəngərli G. Ön söz. Tarix Cavidə xidmət edir / T.Əfəndiyev. Hüseyn Cavid: ideal həqiqət axtarışı. Bakı, Proqres, 2013
17. Əsgərzadə L. Hüseyn Cavid: mühiti və müasirləri. Globe Edit, 2018
18. Hüseyn M. Əsərləri. On clddə. IX c., Bakı: Yazıçı, 1979, s. 47
19. Hüseyn M. Sənət və ədəbiyyat / Zəhmət qəz., 1922
20. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, s. 21
21. Qasımov C. 60 yaşın poetikası /Ədəbiyyat qəz., 24 may, 2013
22. Məmmədli Q. Cavid – ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. Bakı: Yazıçı, 1982
23. Nemanzadə Ömər Faiq. Qiraət kitablarımızda mövhumat üsulu. 1926
24. Nəbiyev B. Tənqid və ədəbi proses. Azərnəşr, Bakı, 1976
25. Nəzmi Əli. / "Qardaşım H. Cavid". "İqbal" qəz., 1914
26. Nazim Əli. Əsərləri. Bakı, 1979
27. Rzaquluzadə M. "Çocuq ədəbiyyatı və qiraət kitablarında üsul" / "Maarif işçisi", 1926, № 10
28. R.Mikayıl (Mimre). İndiki ədəbiyyatda dil məsələsi // "İnqilab və mədəniyyət" jurn., № 6-7, 1934
29. Şaiq A. Cavidin "İblis" faciəsi haqqında duyğularım // Şaiq A. Əsərləri. 5 cilddə. 4 c., Bakı: Azərnəşr, 1977, s. 177-191
30. Talıbzadə K. Ədəbi irs və varislər. Azərnəşr, Bakı, 1974
31. Vurğun S. Səadət günəşi. "Ədəbiyyat" qəz., 1937, 16 may
32. Zeynallı H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1983, s. 36-79

# “CAVİD MÖCÜZƏSİ”
# KAMRAN ƏLİYEVİN BAXIŞLAR SİSTEMİNDƏ

**Mahir CAVADLI**
*Azərbaycan Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü*

Dünya sənət incilərindən, o cümlədən ədəbiyyat, kino, teatr və s. sahələrdən elə nümunələr var ki, zaman-zaman təkrarən müraciət etmək ehtiyacı duyulur. Konkret olaraq Azərbaycan folklorundan misal gətirsək, orta məktəb illərində “Kitabi-Dədə Qorqud”un xüsusilə qəhrəmanlıq səhnələri, Qaraca çobanın qoyunları öz sapandına qoyub atması, ağacı kökündən çıxararaq torpağı yadellilərdən qoruması ilə yadda qalırdısa, yaşa dolub ədəbi proseslərə azacıq meyil etdikcə maraq dairəmizə daha köklü məsələlər düşür. Sonradan türkçülüyün bu böyük salnaməsinin yasaqlanması səbəbləri haqqında düşünməli oluruq və daha dərinə getdikcə bu sualın tam əksini verməli olursan: türkçülüyü bu qədər tərənnüm edən əsər niyə də yasaqlanmamalıydı ki?!..

Oxşar fikirləri “Koroğlu” dastanı, şair və yazıçılarımızın əsərləri, milli mənliyimizi incə çalarlarla əks etdirən filmlər haqqında da söyləmək olar. Çox vaxt bu sənət nümunələri tədqiqat obyektinə çevrilir, alim və sənətşünasların təxəyyül süzgəcindən keçərək həm də bəşəri ideologiya müstəvisində yerini tapır.

Filologiya elmləri doktoru, professor Kamran Əliyevin “Cavid möcüzəsi” (“Nurlan” nəşriyyatı, 2002) kitabını oxuduqca bir daha qənaətə gəlirsən ki, ədəbi tənqid ədəbiyyatın lokomotividir, üslub və janrından asılı olmayaraq hər bir əsərin elmi təhlili, həm də onun oxucuya ən yaxşı təqdimat formasıdır. Ön söz, giriş və s. nəşrə oxucu marağının açar rolunu oynayırsa, ədəbiyyatşünas yanaşması, elmi təhlil bu əsərin dərk olunması, incə çalarların, şairin, yazıçının deyə bilmədiyi sətiraltı mənaların açıqlanması üçün düzgün yol və istiqamətdir.

Professor Kamran Əliyevin "Cavid möcüzəsi"nə elmi baxışları ilə tanışlıq bir daha tam yəqinlik yaradır ki, böyük ideyalarla yazan və yaradan ədibimiz öz müasiri olan oxucusunun maraq dairəsi barədə qətiyyən düşünmədiyi səbəbindən bütün dövrlərin müasiri olmağı bacarıb. Yüksək bəşəri duyğulara sadiq Cavidin türkçülüyə və turançılığa sədaqəti milli-mənəvi dəyərlərin dərin bilicisi, daşıyıcısı, davamçısı və təbliğatçısı olmağında özünü büruzə verir ki, bu da kitab-essedə peşəkarlıqla qələmə alınmışdır.

Sovet ideoloji təbliğatı tərzində yazıb-yaratmağı özünə, qələminə sığışdırmayan ədibin özünütəsdiqi, həm də onu təqib edənlərin başa düşmədiyi dərin mətləblərə varmaq, bu mətləbləri tarixin qaranlıqlarından aşikara çıxarmaqla xalqına, millətinə çatdırmaqdan keçirdi. Bolşevizmin amansız üsul-idarəsinə baş əyməyən, əqidə saflığı, məslək dürüstlüyü ilə bu amansızlıqdan və amansızlardan qat-qat yuxarıda duran ən böyük turançı, türkçü ədibimiz məhz bu cür elmi müstəvidə diskussiyaların fonunda daha dərindən dərk oluna bilər. Etiraf edilməlidir ki, nə çarizmin antiislamçılıq siyasətində, nə də sovet ideoloji maşınının məscidləri silah anbarına çevirdiyi 70 ildə və elə Nizami, Füzuli, Nəsimi kimi dühaların, zəngin folklorumuzun, aşıq yaradıcılığının 5-10 sualla tədris olunduğu müstəqillik zamanında "Peyğəmbər", "Şeyx Sənan", "Xəyyam", "Topal Teymur"... əsərlərinin qəhrəmanlarını dərindən dərk edə, iblis oyunlarından baş aça biləcək oxucunun formalaşması mümkünsüzdür. Buna qadir bir neçə fitri istedad sahibinin ola biləcək ehtimalı yalnız sevinc doğurardı.

Bu mənada, "Cavid möcüzəsi" kimi monoqrafiyaların yazılması təqdirəlayiqdir, ədəbiyyatımızın xeyrinədir, başqa sözlə, milli-mənəvi dəyərlərə qiymət verən oxucunun formalaşmasına xidmət edir. Bir oxucu kimi boynuma almalıyam ki, hələ məktəbli ikən bütün əsərlərini daha çox gözümdən, bir az da ağlımdan keçirdiyim Cavidi pafoslu şeir parçaları, daha çox isə o yaşlılara maraqlı gələn sevgi səhnələrinə görə bəyənmişəm və sevmişəm. Sonradan ulu öndər Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə ədibin nəşinin uzaq Sibirdən Azərbaycana gəti-

rilməsi, Naxçıvanda gözəl məqbərənin ucaldılması məni Cavid yaradıcılığı ilə yenidən, bir az ciddi tərzdə tanışlığa sövq edib. Daha sonra mərhum yazıçımız Yusif Səmədoğlunun "Qətl günü" romanı və bunun əsasında çəkilmiş film, professor Cəlal Qasımovun elmi araşdırmalarında istintaq materialları ilə tanışlıq, ədibin möhkəm iradəsinə, əqidəsinə məftunluq... və hər dəfə Cavidin əsərlərinə müraciət, təkrarlama... Hər təkrarlamada da yeni daha möhtəşəm, daha uca, daha müqəddəs HÜSEYN CAVİD!... Bu mənada, professor Kamran Əliyevin "Cavid möcüzəsi" kitabı diqqətimi cəlb etməyə bilməzdi və bəri başdan bu əsərin Hüseyn Cavid yaradıcılığına çox fərqli yanaşma və dəyərli töhfə olduğu qənaətimi bəyan edirəm!

Nəşrin "Başlanğıc"ında dərin zəkadan, yüksək və uca amaldan söz açılacağı oxucunu diqqətli olmağa hazırlayır. "Başlanğıc"da Zahir və Batin ən qədim və işlək məfhum kimi xatırlanır. Diqqət yetirək: Zahir və Batin, qədim və işlək! Dünyanı ta qədimdən indiyədək dərk etdirən bu iki məfhum haqqında Hüseyn Cavid yaradıcılığından alimin cəmi 2 vərəqlik fikir və mülahizələri öz-özlüyündə bir elmi əsərin bədii yükünü ehtiva edir və digər bölmələrdə də bu fikir yükü əsas ideya kimi daşıyıcı rol oynayır. Bu xüsusda professor Kamran Əliyev yazır: "Zahir və Batin ədəbiyyatşünaslıqdan, psixologiyadan, və estetikadan bir az da uzaq düşəndə və dərininə inkişaf edərək fəlsəfi düşüncəyə hopanda daha çox özünə qayıtmışdır – Cismə və Ruha çevrilmişdir. Elə buradan da insanın dünyadan cismən ayrılıb ruhən yaşaması ideyası doğulmuşdur."

Hüseyn Cavidin "Şeyx Sənan" əsərində Özdəmir və Oğuz haqqında bir misrada "Zahiri-halı xoş, ürək xain" ifadəsi ilə Şeyx Sədra zahiri effektə uymamağı, insanı saf qəlbinə görə dəyərləndirməyi vacib sayır. Ədibin yaradıcılığını dərindən tədqiq edən alim qədim və işlək iki məfhuma dair digər əsərlərdən də tutarlı misallar gətirir. Pyes obrazlarının dili ilə bədxahları "Həm də zahirpərəst, bədbatin" ("Şeyx Sənan"), "Bu gözəlliklə, əvət çirkinsən" ("Peyğəmbər"), "Başqa imiş sarayların iç

üzü" ("Səyavuş") ifşa etməsi peşəkar ədəbiyyatşünasın təhlilində böyük maraq doğurur.

Burada haşiyə çıxaraq vurğulamaq lazımdır ki, professor Kamran Əliyevin bədii yaradıcılığında da insanın daxili aləminin zənginliyi xarici görünüşünün aldadıcı effektliyindən daha üstün qiymətləndirilir.

"QƏLBİN İŞIĞI" yaxud əksinə: "LƏNƏT KOR ŞEYTANA" başlıqlı yazıda da biz orijinal tədqiqatçı yanaşmasının şahidi oluruq. Əslində bu bölmədə də və sonra nədən bəhs olunursa hamısı professor Kamran Əliyevin Zahir və Batin anlayışlarına bu və ya digər prizmadan baxış bucaqlarıdır. "Ədalət axtara-axtara eşqə və aşiqə, dərdə və dərmana, nura və zülmətə, hətta xəlqə və xaliqə **(Tanrıya)** qarşı" (K.Əliyev) çıxan kor ərəbin mahnısı bir əsrə yaxındır ki, həm bədii ədəbiyyatımızın, həm də incəsənətimizin ən yaxşı nümunələri sırasında ürəkləri yandıra-yandıra ifa olunub. Bu, qəzəlin bir az Zahiri, bir az Batini təsir formasıdır. Professor K.Əliyevin bir cavidşünas olaraq yanaşması daha maraqlı, daha cəlbedicidir. "Şeyx Sənan" pyesindən oxucunu, tamaşaçını ovsunlayan bu kiçik parçaya tədqiqatçı alim Cavid yaradıcılığında kor olub görənlər və görə bilib kor qalanlar fəlsəfəsindən yanaşır. "Peyğəmbər", "Uçurum", "İblis", "Xəyyam" pyeslərindən "Görməkdən daha dadlıdır eşitmək", "Görməmək ən böyük səadətdir" misralarını misal çəkərək insanların bəsirət gözünün açıq olmasını önə çəkir, əks halda "Yaşamaqdan daha xoşdur ölüm" deyir.

Müəllif Cavid yaradıcılığına nəzər salaraq oxucusunu inandırır ki, ədibin əsərlərində işıq axtarışı, işıq həsrəti müqəddəs idealın, arzu və ümidin həqiqi meyarına çevrilir: "İşığın kainatdakı mənbəyi Günəş, cisimdəki – bədəndəki dayaq nöqtəsi gözdür. İşıq insanın heç bir bədən üzvünə gözə yaraşdığı qədər yaraşmır".

Əməkdar elm xadimi K.Əliyevin təbirincə desək, fiziki və cismani qüsur, fiziki və cismani korluq H.Caviddə mənəvi və ruhi korluğun dərkinə keçiddir. Əsası haqq nurunun duyulması və könül xoşluğudur.

*"Bir göz ver ki, haqq nurunu duysunlar,*
*Bir könül ver ki, doğru yola uysunlar".*

Və ya:

"Qəlbi və vicdanı kor olanlar Tanrını və Dünyanı dərk etməkdə acizdirlər.

*Hər kimin kor qəlbi, vicdanı,*
*Edəməz dərk nuri-yəzdanı".*

Tədqiqatçı alim hökmdarlarla iblisin oxşar və fərqli cəhətlərinə Cavid obrazlarının timsalında aydınlıq gətirir və bu qənaətə gəlir ki, hökmdarlardan fərqli olaraq İblisin verdiyi əmrlərin icrasına fərraş və cəllad lazım deyil. Çünki fərraşlıq və cəlladlıq İblisin özündə, öz daxilində – Batindədir.

Bütövlükdə, "Cavid möcüzəsi" ədibin zəngin romantikasının obrazlı şəkildə hərtərəfli xarakterizə olunması ilə yadda qalır. Tanrının və Dünyanın dərki, aşiq və məşuq, intiqam motivləri, zalım və məzlum, hökmdar və rəiyyət münasibətləri və çalarları oxucuya yeni və maraqlı baxış prizmasında çatdırılır. Cavid yaradıcılığının bütün dövrlərlə, o cümlədən bu günümüzlə də ayaqlaşması əsla şübhə doğurmur:

*"İdrakı sönük başçıların qəfləti ancaq,*
*Etmiş, edəcək milləti hər əldə oyuncaq".*

Professor K.Əliyev Cavid yardıcılığında Zahir-Batil, Hökmdar-Cəngavər, İblis-Mələk, İdrak-Zor ziddiyyətlərinə dünyanın dərkində və idarə olunmasında elə inandırıcı məqamlarla aydınlıq gətirir ki, oxucu həm ədibin romantikasının, həm də tədqiqatçı alimin məntiqli düşüncə və fikirlərinin cazibəsinə düşür, bu cazibə qüvvəsində hər iki şəxsin böyüklüyünə inam hissi güc gəlir.

Cavid möcüzəsinə işıq salmağı qarşısına məqsəd qoyan professor Kamran Əliyev şairin, yazıçının ruh dünyasına da qiymət verməyi bacarır:

"Cavid adının və Cavid yerinin harada olduğunu bilmək istəyənlər onu yalnız Tanrının, Peyğəmbərin, mifik obrazların və tarixi şəxsiyyətlərin yanında tapa bilərlər. Bu günün keçmişə və gələcəyə baxış yolu da qaçılmazdır: kiminsə Tanrıya, Məhəm-

məd Peyğəmbərə, Alp Arslana, Əmir Teymura, Xəyyamlara və hətta İblisə müraciəti Hüseyn Cavid nəzərə alınaraq mümkündür... Sirli mətləblərin yenidən bədii təcəssüm zərurəti yaranarsa, o zaman Caviddən yan keçmək, Cavidə göz yummaq mümkün deyil”.

Çağdaş Azərbaycan ədəbiyyatşünaslığının maraqlı tədqiqat əsəri barədə mülahizələrə yekun vuraraq, qəti əminliklə demək olar ki, görkəmli Hüseyn Cavidin son dərəcə zəngin yaradıcılığına işıq salan ən dolğun, ən dəyərli elmi əsərlər, saysız-hesabsız sanballı nəşrlər sırasında professor Kamran Əliyevin fikir və təxəyüllünün məhsulu olan “Cavid möcüzəsi”nin xüsusi yeri və çəkisi var. “Cavid möcüzəsi” Cavidin sirli söz dünyasına düzgün prizmadan baxış bucağıdır.

# “AÇIQ KITAB – “DƏDƏ QORQUD”: AÇILAN HƏQİQƏTLƏR

# “OPEN BOOK – “DADA GORGUD”: REVEALED TRUTHS

# «ОТКРЫТАЯ КНИГА – «ДАДА ГОРГУД»: ИСТИНЫ ЯВЛЕННЫЕ

**Məlahət Ramiz qızı BABAYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*ADPU, Ədəbiyyat kafedrası*

**Özət**

Kamran Əliyevin “Açıq kitab – “Dədə Qorqud” kitabı əlli məqalənin məcmusudur. “Kitabi-Dədə Qorqud” dastanında olduğu kimi bu kitabı da vahid süjet xətti birləşdirir. “Etnopoetika anlayışı” hissəsində müəllif, etnopoetika məfhumunu “Dədə Qorqud” dastanından alınan örnəklərlə aydınlaşdırmışdır. “Qoşa misralı şeir”, “Qoşa misradan bəndə keçid”, “Bayatı düşüncəsi”, “Qoşma və gəraylıya doğru”, “At yerişi və şeirin quruluşu” məqalələrində türk etnosunda şeirin yaranmasını və onun təkamül ardıcıllığını məntiqi sıralama ilə verilmişdir.

**Açar sözlər:** dastan, fəsil, igid, düşmən, epos, Kamran Əliyev

**Summary**

“Open book “Dada Gorgud” by Kamran Aliyev is a collection of fifty articles. As in the epos “Kitabi-Dada Gorgud”, this book is united by a single plot line. In the section “The concept of ethnopoetics”, the author clarified the concept of ethnopoetics with examples from the epos “Dada Gorgud”. The articles “Poem with double verse”, “Transition from double verse to verse”, “Thought of Bayati”, “To the couplet and gerayli”, “Horse walk and structure of poetry” are given in logical order.

**Keywords:** saga, chapter, brave, enemy, epic, Kamran Aliyev

**Резюме**

«Открытая книга – «Дада Горгуд» Камрана Алиева – сборник из пятидесяти статей. Как и в эпосе «Китаби Дада Горгуд», эта книга объединена единой сюжетной линией. В разделе «Концепция этнопоэтики» автор уточнил понятие этнопоэтики примерами из эпоса «Дада Горгуд». Статьи «Поэма с двойным стихом», «Переход от двойного стиха к стиху», «Мысль Баяты», «На двустишие и герайли», «Конная прогулка и структура стиха» приведены в логическом порядке.

**Ключевые слова:** сага, глава, храбрый, враг, эпос, Камран Алиев

Kamran Əliyevin “Açıq kitab – “Dədə Qorqud” kitabı əlli məqalənin məcmusudur. “Kitabi-Dədə Qorqud” dastanında olduğu kimi bu kitabı da vahid süjet xətti birləşdirir. “Etnopoetika anlayışı” hissəsində müəllif, etnopoetika məfhumunu “Dədə Qorqud” dastanından alınan örnəklərlə aydınlaşdırmışdır. “Qoşa misralı şeir”, “Qoşa misradan bəndə keçid”, “Bayatı düşüncəsi”, “Qoşma və gəraylıya doğru”, “At yerişi və şeirin quruluşu” məqalələrində türk etnosunda şeirin yaranmasını və onun təkamül ardıcıllığını məntiqi sıralama ilə verilmişdir. Bu məqalələrinin içində “At yerişi və şeirin quruluşu”məqaləsi öz elmi yeniliyi ilə daha çox diqqəti cəlb edir. Belə ki, atın yorğa yerişi şeirdə qoşa misranın yaranmasına, atı dörd nalla çapmaq türk şeirindəki dördlüyün yaranmasına, atın yortmasını türk şeirindəki çarpaz qafiyə sistemi bu ahənglə tam üst-üstə düşür.

At təsnifatına əsasən isə həcmcə böyük şeirlərin yaranması göstərilmişdir. Misal üçün müəllif, qoşa misra haqqında çox maraqlı bənzətməni nümunə gətirir və öz fikrini əsaslandırır: “Qoşa misra təsəvvürü yedək atı – ehtiyat üçün yanında aparılan at yaradır. Yedək atına isə “Dədə Qorqud” eposunda yalnız Dədə Qorqudun şəxsində rast gəlirik”.

Kamran Əliyev dastanın niyə məhz nəzmlə yazıldığını, nəzmin sirlərini maraqlı nümunələrlə izah etdikdən sonra birinci boya keçir. Birinci boy isə “Doğuluş və yenidən doğuluş” adlanır. Burada “Dədə Qorqud” dastanındakı boyların düzgün düzülüşü

haqqında yaranmış mübahisələr haqqında söhbət açılır. Müəllifə görə dastanın birinci boyu elə "Dirsə xan oğlu Buğac xan" boyudur. Çünki, əvvəla, Buğacın dünyaya gəlişi böyük nəzir-niyaz hesabına olur və dastanı nəql edən Dədə Qorqud burada ilk olaraq ona ad qoyur: Buğacın ikinci bir doğuluşu onun ad almasıdır – ad almaqla Buğac sanki yenidən doğulur".

Boydakı hadisələr inkişaf etdikcə biz Buğacın atası tərəfindən xain fitnələrə uyaraq oxlandığının şahidi oluruq. Lakin Buğac bu sınaqdan da salamat çıxır, dağ çiçəyi və ana südü onu ölümdən xilas edir. Bu da Buğacın yenidən doğuluşu olur.

Birinci boyun tam qatlarını şərh etdikdən sonra müəlllif dastandakı alliterasiya hadisəsinə, daxili qafiyə sisteminə diqqətimizi yönəldir. Daha sonra Birinci portret: "Burla Xatun və Dirsə xanın xanımı" başlığı altında professor eposun qəhrəman qadın obrazlarının səciyyəsinə keçir. Kamran Əliyev ilk olaraq xanımların zahiri görünüşlərinin eposda poetik bir dillə təsvir edilməsindən söhbət açır. O hətta Dirsə xanın qadını ilə Burla xatının təsvirində verilən ən incə məna fərqini belə önə çıxarır.

İkinci portret: "Banıçiçək və Selcan xatun" adlanır. Burada da gözəllik təsviri müqayisəli şəkildə göstərilir. Burla xatunun statusunun bütün hallarda uca tutulması diqqətdə saxlanılır.

Eposda gözəlliyi simvolizə edən "güz almasına bənzər al yanaqlım" təşbehi "Oğuz eli xanımına aid təsvirin etalon" hesab edildiyini isə tədqiqatçı "Portretin əsli (Orijinalı)" başlığında vermişdir. "Portret cizgiləri: "həyat və ölüm" hissəsində isə oğlu Uruzun ətini yeməyi əmr olunan Burla xatun, Qanturalı ilə vuruşmaq məqamına çatan Selcan xatunun ağır imtahanından söhbət açılır.

"İç Oğuzun xanımları", "Dış Oğuzun Banuçiçəyi", "Trabzon təkurunun sarı donlu qızı", "Yad qızı" – Dəli Domrulun xanımı" bölmələrində isə araşdırmaçı Oğuza gəlin gələn xanımlardan bəhs edir, onların hansı diyarlardan gəldiyinə dair faktları eposdan gətirdiyi nümunə və dialoqlar əsasında göstərir.

"Eposda qeyri səlis məntiq", "Rəqəmlərin harmoniyası: üç və altı", "Üç və altı – Səyrəyin xanımı kimdir?" başlıqları altın-

da isə Kamran Əliyev çox maraqlı məqamlara işıq salmışdır. Alim sübut edir ki, dastanda üç rəqəmi və onun əsasında yaranan digər rəqəmlər Oğuzu simvolizə edir. Misal üçün tədqiqatçının əsaslandırdığı nümunələrdən birinə nəzər salaq: "Uruz dustaqlıqdan xilas ediləndə "Üç yüz yigit oğuzdan şəhid edildi". Altı rəqəmi isə düşməni simvolizə edir: "Şökli Məlik aydır: Altı yüz kafər varsun, qoyunı gatürsin".

Kamran Əliyev eposun qəhrəmanlarından Uruza on başlıq həsr etmişdir. Zənnimizcə, bu da təsadüfi deyil. Çünki Uruz eposun üç boyunda iştirak etmişdir. Bu başlıqlarda "Uruzun eposda yeri", "Uruzun şəcərəsi", "Varislik statusu", "Dədə Qorqudun Uruza niyə ad verməməsi", "Uruzun məğlubiyyəti", "Uruzun məğlubiyyətinin əvəzi" və "Can şirinliyi" barədə alimin qənaətləri göstərilmişdir. Bundan əlavə "İgidliyin nişanələri" hissəsində onun bir ovçu kimi şücaətləri də nümunə gətirilir. "Dəyişən təfəkkür və qəhrəmanlıq: Uruz və Seyrək" bəhsində müəllif qəhrəmanların tipoloji baxış nöqtələrindəki eyniyyəti göstərir: "Uruz atası haqqında səhih məlumat alır və onun əsl qəhrəmanlığına yol açılır, həmçinin Səyrək əsirlikdə olan qardaşı Əyrək haqqında eşidir və onun qəhrəmanlığına şərait yaranır: Uruz atası Qazan xanı xilas edir, eyni zamanda Səyrək də qardaşı Əyrəyin xilaskarı olur".

"Atalar və oğullar", "Oğulun atanı xilas etməsi" başlıq hissələrdə Kamran müəllim Uruzun atasını, yaxud da Qazan xanın oğlunu xilas etməsindən, bundan əlavə Buğacın, Basatın öz atasını xilas etməsi kimi qanunauyğunluqlardan söhbət açır.

Daha sonra müəllif, Bamsı Beyrək və Dəli Domrul haqqında bir neçə başlıq vermişdir. "Çayların qurumasın!" bəhsində müəllif, çayların bolluq-bərəkət rəmzi olduğunu və buna görə də onların qurumaması üçün alqışların işlədilməsini fərqli boylardan gətirilən nümunələr əsasında göstərmişdir.

Eposda müəllifin ən çox dayandığı obrazlardan biri də "mifik düşmən obrazı" olan Təpəgözdür. Belə ki, professor Təpəgözü yaradılışından ölümünə qədər təhlil edərək onun bir neçə

mərhələli məhvinin dastan poetikasına uyğun olduğunu göstərmişdir.

"Aruz Qoca və Dirək təkurun oxşarlığı" bəhsində isə Kamran müəllim çox maraqlı xronologiya yaradır: "Beləliklə, təsdiq edilir ki, Aruz qoca ilə Qazan xan arasında ziddiyyət ikinci boydan başlayaraq addım-addım davam etmiş, XII boyda isə özünün ən yüksək səviyyəsinə – zirvə nötqəsinə çatmışdır".

Sonda onu da qeyd etməliyik ki, kitaba lakonik üslub hakimdir. Başlıqlar bir-birinin davamıdır və hər bir hissə tədqiqatçılar üçün geniş araşdırma aparmağa zəmin yaradır. Kitabda əsas məqsəd eposun əsasən gizli qalmış məqamlarını və ya qanunayğunluqlarını elm aləminə çatdırmaq, maraqlı müqayisələr aparmaqdır.

**QAYNAQLAR**

Əliyev Kamran: Açıq kitab – "Dədə Qorqud", "Elm və təhsil", 2015, 116 s.

# HƏR KƏS ÖMRÜNDƏ YALNIZ BİR ƏSƏR YAZIR!

**Nigar İMAMƏLİYEVA**
*AMEA Folklor İnstitutu*

***“Hər kəs ömründə yalnız bir əsər yazır! Əgər biri desə ki, mənim iki yaxşı əsərim var, deməli, hələ də əsl əsərini yazmayıb, bəlkə də, bundan sonra heç yaza bilməyəcək. Əgər biri desə ki, mən bir ömürdə iki ömür yaşamışam, deməli, o, heç öz ömrünü də yaşamağa imkan tapmayıb”*** – Kamran Əliyev (Tənqidin poetikası. “Yazıçının tənqidçiyə ehtiyacı var”).

Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri Kamran müəllimlə tanışlığım 2012-ci ildən – Folklor İnstitutunda şöbə müdiri olduğu vaxtdan başlamışdır. 2015-ci ildə isə rəhbərlik etdiyi Folklor və yazılı ədəbiyyat şöbəsinin işçisi olmaq məni çox qürurlandırmışdı. Ona görə ki, Kamran müəllim uzaqgörən, sadə, hər işimizdə bizə yol göstərən, yardım edən müdrik insanlardan biri idi. Müsahibələrinin birində özünün belə bir fikri vardı: ***“Elmin inkişafına fayda vermək vətənə xidmət formalarından biridir”.*** Kamran Əliyev elm yolunda Vətəninə layiqli şəkildə xidmət etdi. Onun yazdığı hər bir əsəri və elmi işləri göz qarşısındadır. Düşünürəm ki, bu barədə xeyli sözlər ifadə etsəm, səhifələr yetməz. Hər bir əsər özündə nələrisə birləşdirir. Kamran müəllimin 10 cildlik əsərlərinin hazırlanmasında yaxından iştirak edənlərdən biri olduğum üçün də ayrıca fəxr hissi keçirirəm. 10 cildlik əsərlərinin V (“Ədəbiyyatşünaslıq, ədəbi tənqid”) və IX (“Rəylər, müsahibələr”) cildlərində tərtibçilərindən biri olmuşam. Mən cildlərin hazırlanması ilə yanaşı Kamran Əliyev yaradıcılığı ilə də yaxından tanış olurdum. Kamran müəllimin müsahibələri video kadrlarda olduğu üçün onları şifahi nitqdən yazıya köçürəndə belə onun çıxışlarındakı sözləri mənim elm yolunda inkişaf etməyimə təkan verir.

Kamran müəllimin yazdığı hekayələr, povestlər, şeirlər, həmçinin mətbuata verdiyi müsahibələr və s. hər zaman diqqət mər-

kəzində olub, çox böyük maraqla qarşılanıb və qarşılanacaqdır. Kamran müəllimin qələmə aldığı hekayələrini böyük bir həvəslə ilk oxucu olaraq oxuyub kompüterin yaddaşına köçürəndə hər zaman məndə suallar yaranardı. Həmin sualları da beynimdə müzakirə edərdim. Cavab tapa bilməyəndə isə suallarımı bir vərəqə yazaraq səhəri gün Kamran müəllimin işə gəlməsini səbirsizliklə gözləyərdim. Hər dəfə şöbə əməkdaşları ilə birlikdə hekayələrlə bağlı müzakirələr unudulmaz və yaddaqalan olardı. Bir çoxlarının bilmədiyi bir məsələni də qeyd edim ki, Kamran müəllim təkcə hekayə yazmırdı. O, şeirlər də yazırdı. Hətta nəvəsi Selcan üçün musiqisi və sözləri özünə aid mahnı da bəstələmişdir.

Şöbədə hər dəfə Kamran müəllim ona dərs deyən müəllimlərdən danışar, onlarla bağlı xatirələri yada salardı. Mənə dərs deyə bilməsə də şöbə müdirim olaraq göstərdiyi düz yolla bağlı bizdən sonra gələcək nəsillərlə ağızdolusu danışa biləcəyim bir Kamran Əliyev var.

Hər dəfə Kamran müəllimin yaradıcılığı ilə yaxından tanış olarkən onun özünə aid hikmətli kəlam və aforizmləri nümunə olaraq sosial şəbəkələrdə yazırdım və böyük rəğbətlə qarşılanırdı. Bir dəfə söhbət zamanı Kamran müəllim məsələni bildi. Biləndə ki, mən onun fikirlərini böyük həvəslə qeydə alıram, deyərdi ki, “yanında qələm və kağız həmişə olsun”. Hər zaman da Kamran müəllimlə görüşəndə dediyi kimi edirdim. Bu məsələ ilə bağlı dialoqumuzu olduğu kimi aşağıda qeyd edirəm:

“Mən: Çox istəyərdim sizin aforizmlərlə bağlı məqalə yazım. Gələcəkdə də bu işlərlə bağlı nələrsə edim.

Kamran müəllim: Aforizmləri yaz kompüterin yaddaşına, amma paylaşma heç yerdə. Zamanı gələndə bu barədə işlər görərsən”.

Hətta qərara gəlmişdik ki, aforizmlərlə bağlı miniatür kitab çap etdirib şöbəmizə gələn qonaqlara hədiyyə edərik. Söhbətimizdən bir neçə gün keçdi. Elə zənn etdim ki, məsələ unudulub. Mən xatırlatma olaraq Kamran müəllimə məsələ barədə yenidən deyərkən cavabı belə olmuşdur: “Əgər sən indi bu işi görsən, elə biləcəklər mən özüm bu işi gördürmüşəm, amma bilməyəcəklər

ki, bu sənin daxilindən gələn istəkdir. Zamanı gələndə, sən bunu edərsən".

Mətbuatda yayımlanan müsahibələrdən, televiziyadakı çıxışlardan da hər dəfə nələrsə öyrənirəm və öyrəndiyim istiqamət üzrə addım atmağa çalışıram. Çünki o yazılarda, müsahibələrdə, çıxışlarda Kamran müəllimin dediyi aforizm və hikmətli sözlər daha çox yaddaşıma hopur. Kamran müəllimə məxsus belə bir fikir var: ***"Atalar sözlərinin doğruluğunu və bədiiliyini yoxlamaq üçün vaxt itirməyə dəyməz, çünki onların üzərində yüz illərin sınağı var. Əgər hikmətli bir kəlamın varsa, bu, ayrı məsələ".*** Bu fikirə Kamran müəllimin "Yazıçının tənqidçiyə ehtiyacı var" adlı məqaləsində də rast gəlmək mümkündür.

Kamran müəllimin yoxluğu mənim üçün hər nə qədər çətin olsa da, kimsə yanımda "rəhmətlik" sözünü işlədəndə beynim qəbul etmir. Beynim qəbul edə bilmir, dilim deyə bilmir. Mən danışdığımız kimi miniatür kitab fikirini mütləq gerçəkləşdirməliyəm, Kamran müəllimin dediyi kimi zamanı gəldi artıq. Çünki vaxtilə "zamanı gələndə sən bunu edərsən" cümləsini xatırladıqca daxilimdə üsyan qopur, mən bacara bilmirəm, barışa bilmirəm dəyərli Kamran müəllim yoxluğuyla... Axı görəcək işlərimiz çox idi. İndi isə bu işləri tək yerinə yetirmək məsuliyyəti mənim üzərimə düşür. Mən təkcə şöbə müdiri deyil, eyni zamanda şöbənin atasını, dost, sirdaş bildiyim ziyalını itirdim. Kamran müəllim həyata bağlı birisi idi. Çünki həmişə söhbətlərimizdə deyərdi ki, "mənim anam tərəf uzunömürlüdür və mən də çox yaşayacağam".

Xatirələrimdə şöbəmizin birlikdə gəzintiləri və tədbirlərinin də xüsusi yeri var. Təbii ki, bütün bunlar hamısı birlikdə daha çox vaxt keçirmək üçün ən gözəl vasitələr idi. Onsuzda işdə elmi işlərlə məşğul oluruq. İşdən kənarda isə müdir və əməkdaş deyil sanki atamız, dostumuz idi Kamran müəllim. Lap ilk gəzintimizi xatırladım. Bu, şöbəmizlə birlikdə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna səfərimiz idi. Burada tariximizə, keçmişimizə nəzər salaraq xatirə şəkilləri çəkdirdik. Kamran müəllim də özünün şəxsi fikirlərini bizimlə bölüşmüşdü. Bu kimi gəzintilərimiz çox olurdu. Hətta ad günümüzlərdə belə Kamran mü-

əllim heç bir işçisini diqqətdən kənarda qoymurdu. Hər bir əməkdaşı təbrik etməyi sanki özünə borc bilirdi. Kamran müəllimin zarafatyana sözləri heç vaxt ağlımdan çıxmaz. Özünəməxsus şəkildə etdiyi zarafatlar heç kimin xətrinə dəyməzdi, tam əksinə çox gözəl qarşılanardı. Kamran müəllim həmişə insanları yaxşılıq etməyə çağırardı. O istəyirdi ki, insanlar bir-birilə mehriban olsun, birlikdə firəvan həyat sürsünlər. Hər zaman tez-tez istifadə etdiyi sözü vardı: ***"Ey insan sev, sevil!", "Çalışın ki, ədalətli olasınız".***

Mən ilk dəfə qələmə aldığım yazıma görə Kamran müəllimə minnətdaram. Çünki mənə elmi yazıların yazılmasında təkan verən məhz özü olub. Məndə həvəsi yaradan Kamran müəllim olub. Hər dəfə yazılarımı bitirdikdən sonra Kamran müəllimə göndərər, ondan məsləhət alardım. Kamran müəllimin dediyi bir söz hər zaman ağlımda və necə deyərlər, qulağımda sırğa olaraq qalır və qalacaq: ***"Mənim sözümə qulaq assan, qabağa gedə biləcəksən".*** Bəli, qulaq asıram, artıq bəhrəsini də görməyə başlamışam. Körpə uşağın atdığı ilk addım kimi mənim də ilk addımımı Kamran müəllim gördü. Əfsuslar olsun ki, zalım həyat bu addımların ardını görməyə macal vermədi. Kamran müəllimin mənim üçün arzularından biri də universitetə yenidən daxil olmağım idi. O, məni hər zaman yaxşı yerlərdə görməyi arzulayırdı. Hətta bunu bir neçə dəfə demişdi. Mən onun arzusunu yerinə yetirdim. 2020-ci il sentyabr ayında yenidən tələbə olarkən elə müjdəli xəbəri bölüşdüyüm ilk Kamran müəllim oldu. Telefonda xəbəri deyəndə onun necə sevindiyini aydın şəkildə bilmək olurdu. Mən həmin vaxt xoşbəxt olmuşdum ki, Kamran müəllim kimi şöbə müdirim və sözün əsl mənasında müəllimim var. Çünki insan o zaman xoşbəxt olur ki, müəlliminin arzusunu, istəyini yerinə yetirir. Bununla bağlı müəlliminə xəbər edirsən. O da səni təbrik edir. Buna heç bir xoşbəxtlik çata bilməz!

Yuxularım çox zaman gerçəkləşdiyi üçün hər dəfə çalışıram yuxu görməyim. Çünki eynisi yaşamış oluram. Kamran müəllim rəhmətə getməzdən təxminən 1 həftə öncə yuxuda görmüşdüm. Yuxuda gördüm ki, "Kamran müəllim şöbəyə daxil olur. Kitabla-

rını yığır və deyir: “Mən daha gedirəm”. Şöbə əməkdaşları ilə birlikdə Kamran müəllimin hara getdiyini soruşduqda sualımızı cavabsız qoydu. Amma yığışıb qapıdan çıxanda arxaya çevrilərək hər birimizə gülümsündü və əl edib sağollaşdı”. Mən yuxumdan narahat qalxdığım üçün səhəri gün bir bəhanə ilə Kamran müəllimə zəng etdim. Min bir bəhanə ilə çalışırdım telefon söhbətimizi daha geniş tutum. Mən fikirləşirdim ki, ancaq bu yolla səsindən hiss edə bilərəm hər bir şeyi... Amma 23 dekabr 2020-ci il tarixində axşam saatlarında aldığım acı xəbər... sanki elə bildim ki, dağlardan böyük bir qaya qopdu düşdü. Hər yeri qaranlıq içərisində, zülmətdə gördüm. Hətta inanclarımıza söykənsək onu da qeyd edə bilərəm ki, Kamran müəllim dəfn olunan gün, yəni 24 dekabr tarixində şöbəmizin saatı da əbədi dayandı. Biz hər nə qədər daşını dəyişməyə çalışsaq da, saat daha işləmədi. İlahi, necə də ağır və çətin imiş müdrik insan haqqında xatirələri bölüşmək.

Mənim ilk dəfə ağlayaraq, göz yaşlarımı saxlaya bilmədiyim yazımdır. Yenə də ilki sizinlə başladım, dəyərli Kamran müəllim. Xatirələri qələmə almaq çox çətindir. Çünki o xatirələr yenidən gözümdə canlanır, yenidən yaşayıram o anları sanki. Ola bilər hər hansısa xatirəni indi qələmə almağı unuduram, amma gələcəkdə həyat və yaradıcılığını araşdıranda hər dəfə xatirələrdən bəhs edəcəyəm. Sağlıq olsun!

İş vaxtı söhbət edərkən dediyi hər bir sözə fikir verərək yeni mənalar öyrənərdim. Hətta birinin lap tarixini də bilirəm. ***“İnsan bir-birini görmürsə, müəyyən müddətdən sonra yadından çıxarır. Gərək görmədiyini yadda saxlayasan” – 18 aprel, 2018-ci il.*** Biz indi Kamran müəllimi cismən görə bilməsək də, şəkillərdə görür və xatirələrdə yaşadırıq. Kamran müəllim sanki hər sözündə bizim gələcək üçün hazırlıqlı olmağımızı istəyib. Çünki cümlələri yenidən yazarkən acı həqiqəti görmüş oluram. Kamran müəllim, Siz heç bir zaman yaddan çıxmayacaqsınız, çünki elm sahəsində, sözün yaxşı mənasında istər tələbələriniz üçün, istər aspirantlarınız üçün, istərsə də işçiləriniz üçün əbədi bir iz qoydunuz. Belə gözəl müdrik həyatı yaşamaq hər kəsə qismət olmur. Allah Sizə rəhmət eləsin, Ay Kamran müəllim!

# KAMRAN İMRANOĞLUNUN "YALQUZAQ" POVESTİ HAQQINDA DÜŞÜNCƏLƏRİM

**Nizami MURADOĞLU**
*Filologiya elmləri doktoru,*
*AMEA Folklor İnstitutu*

**Özət**

Azərbaycan Milli Elmlər Akdemiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor, yazıçı Kamran İmranoğlunun bədii yaradıcılığında "Yalquzaq" povestinin ayrıca yeri vardır. Əsərdə sovet hakimiyyətinin ilk illərində Azərbaycanın Araz ətrafı kəndlərinin birində baş verən hadisələrdən bəhs olunur. Əsərin mərkəzi obrazları Hacı Murad, Salatın və yalquzaqdır.

Povestin süjet xətti əsasən Salatının Araz çayına düşüb boğulması və onun dəfni ilə əlaqədar qurulsa da, burada o zamankı dövrə uyğun olaraq bir çox hadisələrdən söhbət açılır və paralellər ilə obrazların daxili aləminə nüfuz edilir. Əsərin baş qəhrəmanı Hacı Murad mərd ləyaqətli durumu ilə oxucunun qəlbində özünə rəğbət oyada bilir.

Axşamlar talada məskən salıb uluyan tək yalquzaq ilə Hacı Muradın təkliyinin əsərdə psixoloji eynilikləri ustalıqla təsvir edilmişdir.

**Açar sözlər:** Kamran İmranoğlu, yalquzaq, Hacı Murad, Salatın, xırman, at, Araz

Azərbaycan Milli Elmlər Akdemiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Kamran İmranoğlunun xatirəsinə həsr edilmiş bu konfransın təşkilində Folklor İnstitutu rəhbərliyinin təşəbbüsünü alqışlayır, mərhum dostumuza, iş yoldaşımıza Allahdan rəhmət diləyirəm.

Kamran müəllimlə işlədiyimiz müddətdə onun iş yoldaşlarına necə qayğı ilə yanaşdığını, hər kəsə kömək etdiyini, institutun ictimai işlərində fəal iştirakını, yazılı ədəbiyyat və folklor münasibətlərinin aydınlaşdırılmasındakı elmi fəaliyyətini dəfələrlə hiss etmişik. Kamran müəllim sözün həqiqi mənasında ədəbiyyat adamı idi, bu sahədə geniş fəaliyyət göstərirdi.

Belə bir konfransın təşkili Kamran İmranoğlunun həm elmi fəaliyyətinin, həm bədii yaradıcılığının araşdırılması, həm də

onunla bağlı xatirələrin əbədiləşdirilməsi baxımından çox böyük əhəmiyyət daşıyır. Təbii ki, burada müxtəlif məruzələr dinləniləcək, xatirələr yada salınacaqdır. Belə bir misal var, deyərlər; "dağın əzəmətini görmək üçün kənardan baxarlar" (2). Bir ziyalının da əzəmətini hiss etmək üçün onun əsərlərini oxuyub öyrənmək və təhlil etmək lazımdır.

Məlum olduğu kimi Kamran İmranoğlu ədəbiyyatşünaslıqla yanaşı bədii yaradıcılıqla da məşğul olurdu. Əsasən nəsr sahəsində qələmini sınayan müəllifin roman, povest və hekayələri müasir Azərbaycan vətəndaşının fikir və düşüncələrini, qayğı və məhəbbətini əks etdirirdi.

Biz burada yazıçının "Yalquzaq" povesti haqqında danışacağıq. 1996-cı ildə qələmə alınan bu əsərdə sovet hakimiyyətinin ilk illərində kolxoz quruluşundan bir qədər əvvəl Azərbaycanın Araz ətrafı kəndlərinin birində baş verən hadisələrdən bəhs olunur. Əsərin mərkəzi obrazları Hacı Murad, Salatın, Ağköynəkli və yalquzaqdır. Əsər paralellər üzərində qurulmuş bir süjet xəttinə malikdir. Köhnəlik ilə dırnaqarası yeniliyin mübarizəsi fonunda verilən hadisələrdən nəticə çıxarmaq isə oxucunun öz öhdəsinə buraxılır.

İlk növbədə əsərin adının "Yalquzaq" qoyulması ilə müəllifin nə demək istədiyini araşdıraq. Yalquzaq sürüdən ayrılmış, tək, tənha gəzən, hakimiyyətini itirmiş qurddur. Əsərin proloqunda təsvir olunur ki, bu qurd Ağılın üstündə oturub gecə-gündüz ulayır. Ulamağının da əsas səbəbi odur ki, Ağıl üstündəki ilanlar iki dəstə olub bir-birləri ilə o qədər döyüşüblər ki, halsız şəkildə hamısı bir çalaya tökülüblər. Bir insafsız oğlu da neft gətirib töküb ilanları yandırıb, o gün bu gün yalquzaq bu faciəni ulayaraq insanlara çatdırmaq istəyir. İlan birlikləri ilə insan cəmiyyəti arasında nə qədər fərq varsa, oxşarlıqlar olduğunu da unutmamalıyıq. Buradakı əsas paralellərdən biri və birincisi budur ki, ilanlar sahə üstündə savaşdıqları kimi kəndə gətirilən yeni qaydalar da camaat arasında narazılıq yaradıb, ayrıseçicilik salıbdır. Sual olunur? Bu qaydaları kim gətirib? Cavab məlumdur: yeni hökumət, sovet quruluşu.

Bəs ilanlar niyə savaşırdılar? Burada da müəllif bir balaca işarə ilə səbəbi aydınlaşdırır. Ağıl üstündəki yer əslində kolluq-kosluq, ilan yatağı idi, Hacı Murad bu yerləri kol-kosdan təmizlətdirib əkin yerinə çevirir, təbiətin tarazlığı pozulur, ilanların yuvaları dağılır, öz yurdlarını itirmiş ilanlar bir-birlərini təqsirkar bilərək savaşırlar. Bu savaş gələcəkdə cəmiyyətdə baş verəcək daxili çarpışmaların başlanğıcı rolunu oynayır. İlk paralellik də göstərir ki, bütün hadisələr mərkəzi obrazın – Hacı Muradın ətrafında davam edəcəkdir.

Hacı Murad kəndin hörmətli, sayılıb seçilən, varlı adamıdır. Yeni hökumət qurulanda onun torpaqlarını, mal-qarasının bir hissəsini milliləşdirərək imkansız ailələrə paylayıbdır. Lakin buna baxmayaraq Hacı Murad bacarığı sayəsində az qalan torpaq və mal-qarasından yüksək məhsul götürməklə yenə də öndə gedir və kəndin xeyir-şərində fəal iştirak edir. Hacı Murad daim at üstündədir. Onu gözügötürməyənlər Hacı Muradın xırmanından taxıl oğurlayır, onun mərdliyini, əyilməzliyini sindirə bilmirlər. Son zamanlarda ictimai nəzarətçi kimi ağköynəkli, qalstuklu birisi də at üstündə gəzərək daim onu təqib edir.

Hətta, ağköynəkli Hacı Muradı sındırmaq üçün ən çirkin oyuna – Salatının ölümünə bais olur. Salatının ölümü Hacı Muradı dərindən sarsıdır. Hacı Murad ilə Salatını nə birləşdirirdi? Salatın gəncliyində kəndin ən gözəl və bacarıqlı qızı olubdur. Tale Salatını Hacı Muradın qarşısına çıxaranda onun iki arvadı varıydı, həm də yaşlaşmışdı. Amma məhəbbət heç nəyə baxmır, vaxtsız gələn sevgi onları bir an olsun tərk etməsə də, səadət də gətirmir, xoşbəxt də etmir. Cəmiyyətin mövcud qanunları onları ayırır, neçə-neçə igidləri bəyənməyən Salatın axırda Həşim kimi bir vecsiz dul kişiyə ərə gedir. Ailənin bütün ağırlıqlarını öz çiyninə götürən Salatın bir axşam çağı Arazdan su götürmək istəyəndə ağköynəklinin bacısı onu itələyərək çaya salır. Arazın aşıb-daşan suları Salatını öz qoynuna alıb aparır. Salatının Araza düşərək boğulması xəbəri bütün kəndə yayılır. Hacı Murad Salatının meyidinin çaydan çıxarılması və dəfni üçün hazırlıqlar görür. Hacı Murad tapşırıq verir ki, Salatının qəbrini Həşimin əvvəlki arvadı Naznazın qəbrinin aşağısında qazsınlar, dəfn mə-

rasimini icra etmək üçün qonşu kənddən molla gətirsinlər. Hacı Murad özü isə Salatının meyidinin Arazdan çıxarılması ilə məşğul olur. Dəfn zamanı məlum olur ki, ağköynəklinin tapşırığı ilə qəbir yeri Hacı Muradın dediyi kimi qazılmayıbdır, sıra ilə qazılıbdır. Dəfn mərasimini də kəndin keçmiş mirzəsi həyata keçirir. Ağköynəkli də Hacı Murada meydan oxuyurmuş kimi bundan sonra belə olacağını camaatın içində elan edir. Ağköynəklinin bu hərəkəti Hacı Muradın bütün ümidlərini məhv edir.

Hacı Murad artıq onun ətrafında çirkin oyunların oynanılmasından narahat olur və dərk edir ki, o tamamilə yalquzaq kimi təklənibdi. Hacı Murad dəfndən sonra evə qayıdıb taxta çarpayısına uzandı və "Salatının öz əli ilə düzəldib bayramda pay göndərdiyi yastığı çəkdi qolunun altına" (1, 84). Çox düşündü, kəndin iki tirəyə bölündüyü gün kimi aydındı, bu gedişlə işlərin daha da qarışacağı onu narahat edirdi. Mal, mülk, var, dövlət gözündən düşmüşdü, atının quyruğunun qırxılacağından ehtiyat edirdi.

Göründüyü kimi, milli keyfiyyətləri, namus və qeyrəti, eləcə də zəhmətsevərliyi ilə yadda qalan Hacı Muradı yeni quruluş, bolşevik hakimiyyəti təkliyib yalquzağa çevirmişdi. Artıq onu sovet hökumətinin irticaçı siması qorxudur. Ona görə də Hacı Murad gedəndə kişinin namus simvolu olan atını və arvadları – Pakizə ilə Güllünü də götürüb kəndi tərk edir. Müəllifin sətiraltı qənaətinə görə, əslində, Hacı Murad yalnız kəndi deyil, həm də onu yalquzağa çevirən bu cəmiyyəti tərk edir.

Maraqlı personajlardan biri də Güllüdür. Hacı Muradın birinci arvadı Güllü yaşlaşmışdı, bundan sonra qoca bir qarı kimi doğma yerləri tərk edib getmək istəmirdi. Dəfələrlə təkid edir ki, Hacı Murad icazə versin, Güllü kənddə qalsın, həm də Hacı Muradın var-dövlətinə, yurd-yuvasına yiyəlik etsin. Onlar arasındakı dioloqa fikir verək:

– Hacı, qoy mən qalım, bəlkə, sənin ordakı var-dövlətinə sahiblik eləyə bildim.

Hacı Murad bu dəfə qəzəblə qışqırdı:

– Hacı Muradın yiyəlik eləyə bilmədiyi var-dövlətə sən heç vaxt yiyəlik eləyə biməzsən" (1, 90).

Göründüyü kimi, Hacı Murad öz faciəsini anlayır, cəmiyyətdə tamamilə təkləndiyini başa düşürdü. Müəllifin ustalığı bundadır ki, obrazın daxili aləmini, faciəsini onun öz dili ilə oxucuya çatdıra bilir. Hacı Murad obrazı Fərman Kərimzadənin "Qarlı aşırım" (3) romanındakı Kərbəlayı İsmayıl, Lev Nikolayeviç Tolstoyun "Hacı Murad" (4) romanındakı Hacı Murad obrazları ilə ekvivalentlik təşkil edir. Hər bir obrazın fərdi və fərqli xüsusiyyətləri ilə yanaşı onları birləşdirən bir ortaq məqam var. Təklənmək.

Axşamlar talada məskən salıb ulayan yalquzaq ilə Hacı Muradın təkliyinin əsərdə psixoloji eynilikləri ustalıqla təsvir edilmişdir. Sonluqda bu özünü daha bariz şəkildə büruzə verir. Hacı Murad Arazdan keçərkən arvadı Güllü yıxılır, çayın gur sularında qərq olur. Bu, Hacı Muradın səltənətinin bir hissəsinin dağıldığı anlamına gəlir. Amma bu hadisə Hacı Muradı o qədər də narahat etmir, onun sevdası Salatınla bitmişdi. Ürəyindən keçən sızıltıda da Salatının dərdi vardı: "Kənddə hamı bilirdi ki, Hacı Murad Salatını iki arvadından da çox istəyir" (1, 90).

Hacı Murad dönüb kəndə baxır. Yalquzaq arabanın yanında dayanmışdı, gözləri par-par yanırdı. Hacı Muradı son dəfə yola salarkən "yalquzaq elə uladı ki, bəlkə indiyəcən belə ulamamışdı. Elə bil ətini kəsirdilər yalquzağın!" (1, 90).

Fikrimizcə, yalquzağın belə fərqli ulaması onun taleyi ilə Hacı Muradın taleyi arasındakı oxşarlığın ifadəsi idi. Vaxtı ilə yalquzaq da sürü halında yaşayan canavar idi, hakimiyyəti ələ almaq istəyən gənc canavarlar onu hakimiyyətdən, tuttuğu mərtəbədən saldıqlarından o da elini-obasını tərk etmiş və tənhalığın faciəsini yaşamışdır. Müəllifin ustalıqla bu obrazların oxşar talelərini belə tragik şəkildə təqdim etməsi, ümumiyyətlə təklənməyin tragik-dramatik bir situasiya olduğunu bir daha təsdiq edir.

## QAYNAQLAR

1. Kamran İmranoğlu. Zəli (povestlər). Bakı, Elm və Təhsil, 2013, 208 s.
2. Naxçıvan folkloru, arxiv özümüzdədir.
3. Fərman Kərimzadə. Bakı, Kitab klubu, 2016, 400 s.
4. Lev Nikolayeviç Tolstoy. Bakı, Qanun, 2015, 192 s.

# KAMRAN ƏLİYEVİN ELMİ FƏALİYYƏTİNDƏ ROMANTİZM VƏ FOLKLOR MƏSƏLƏLƏRİ

# QUESTIONS OF ROMANTICISM AND FOLKLORE IN SCIENTIFIC ACTIVITIES OF KAMRAN ALIYEV

# ВОПРОСЫ РОМАНТИЗМА И ФОЛЬКЛОРА В НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ КАМРАНА АЛИЕВА

**Nübar İBRAHİMOVA**
*Gəncə Dövlət Universitetinin dissertantı,*
*ADPU-nun Şəki filialının müəllimi*
*nubar666777@gmail.com*

**Özət**

Məqalədə prof. K.Əliyevin elmi fəaliyyətində romantizm və folklor problemini öyrənməyə can atmışıq. Məsələ burasındadır ki, romantizm bir bədii cərəyan və metod kimi alimin bütün düşüncəsinə həyatı boyu xüsusi olaraq təsir etmiş, onu maraqlandırmışdır. Bu problemə öz tədqiqat və tənqidi məqalələrini həsr etməklə K.Əliyev digər məqamlarla bərabər ön plana Azərbaycan yazıçılarının əsərlərində romantizm və folklorun qarşılıqlı əlaqələrini çıxarır. Buna görə də tədqiqatlarına A.Səhhət, H.Cavid, M.Hadi, A.Şaiq və başqalarının əsərlərini cəlb edib, sistemli təhlil nəticəsində romantizm və folklorun müxtəlif xüsuslu münasibətlərini qoyur.

**Açar sözlər:** Kamran Əliyev, romantizm, folklor, sistem, klassika, tədqiqatçı, ədəbiyyat, problem

**Summary**

In this article, we strive to study the problems of romanticism and folklore in the scientific activities of prof. K.Aliyev. The fact is that romanticism as a literary and artistic trend and method throughout the entire period of his creative life was especially interested in this scientist. Dedicating his research and critical articles to this issue, K.Aliyev, along with other issues, puts the problems of their interconnections in the works of Azerbaijani writers at the forefront. To this end, K.Aliyev attracts works by A.Sakhhat, G.Javid, M.Hadi and A.Shaig, and others to research, thanks to a holistic systemic analysis, he forms a holistic attitude on the issue of links between romanticism and folklore.

**Key words:** Kamran Aliyev, romanticism, folklore, system, classics, researcher, literature, problem.

**Резюме**

В данной статье мы стремимся изучать проблемы романтизма и фольклора в научной деятельности проф. К.Алиева. Дело в том, что романтизм как литературно-художественное течение и метод весь период творческой жизни особенно заинтересовал этого учёного. Посвящая этому вопросу свои исследования и критические статьи, К.Алиев наряду с прочими вопросами, во главу угла выдвигает проблемы их взаимосвязей в сочинениях азербайджанских писателей. Для этого К.Алиев привлекает к исследованиям произведения А.Саххата, Г.Джавида, М.Хади, А.Шаига и др., благодаря их системному анализу, у него формируется целостное отношение в вопросе связей романтизма и фольклора.

**Ключевые слова:** Камран Алиев, романтизм, фольклор, система, классика, исследователь, литература, проблема

Romantizm mərhələsi bəşər tarixinin ən mühüm və maraqlı dövründən biridir. Fransız İnqilabı, Napoleonun qorxunc yürüşləri, Avropa xəritəsinin yenidən çəkilməsi, insanlar arasındakı əsrlərlə mövcud olmuş köhnə həyat ukladının dağıdılması və s. Kimi problemlərə romantiklərin yenidən baxış sərgiləməsinə səbəb oldu. Bununla yanaşı, həyatda yaşam tempinin sürətlənməsi istiqamət, cərəyan, baxış və fəlsəfi sistemlərin dəyişməsini araya gətirdi. Elə buna görə də sənətdə və ədəbiyyatda, onların müxtəlif sahələrdə sintezi ilə bağlı eksperimentlər aparılmağa başladı (6, s. 3).

Bu proseslərin fonunda fransız, ingilis, alman və ardınca rus romantizmi, bunlardan xeyli müddət sonra isə onların işığında Azərbaycan romantizmi meydana gəldi. Azərbaycan romantizmi çətin və mürəkkəb dövrdə meydana gəlsə də, XX əsrin əvvəllərindən Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, A.Sur, A.Divanbəyoğlu, Ə.Səbur və başqaları bu istiqamətin daha geniş çevrədə formalaşmasında əsaslı rol oynadılar.

Adlarını çəkdiyimiz romantiklərin ədəbi siması, yaradıcılığının motiv və mövzuları, ideyaları və meyilləri, obraz və qəhrəmanları müxtəlif rakurslardan Azərbaycan tədqiqatçıları tərəfin-

dən təhlillərə cəlb olunmuşdur. Bu alimlərin sırasında biz M.Cəfər, C.Cəfərov, M.Əlioğlu, A.Hacıyev, Y.Qarayev, V.Osmanlı, İ.Həbibov, R.Z.Xəndan, T.Əfəndiyev və başqalarını fərqləndirə bilərik. Qeyd etdiklərimiz sırasında daha bir məhsuldar alim, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Kamran Əliyevin adı da qeyd edilməlidir. Kamran müəllimin tədqiqatlarının mərkəzində də məhz romantik baxış, cərəyan və metodun müxtəlif problemləri dayanmışdır. Qeyd edək ki, romantizm problemini K.Əliyev romantiklərin folklorşünaslıq görüşlərini, romantizmin folklor qaynaqlarını, folklor və romantik qəhrəman, folklor və romantik bədii düşüncə sistemi kimi məsələlər ətrafında qruplaşdırmışdır.

Məsələnin qoyuluşuna K.Əliyev heç də birdən-birə gəlməmişdir. O, romantizmin çeşidli problemləri üzərində işləyərkən müşahidəli ədəbiyyatşünas kimi müəyyənləşdirmişdir ki, "Romantizmin aktual problemləri çoxdur. Bu problemlər içərisində kifayət qədər öyrənilməmiş məsələlərdən biri də romantiklərin folklorla əlaqəsidir" (5, s. 20).

Buna baxmayaraq, qeyd etməliyik ki, K.Əliyevin bu kitaba qədər də romantizm və folklorun qarşılıqlı əlaqələri ilə bağlı məqalə və araşdırmalarında (1, s. 32-33; 2; 3, s. 161-173; 4, s. 155-174) bu məsələ nəzərdən keçirilmişdir. Burada isə müəllif adı çəkilən problemə daha dərinləşdirilmiş konsepsiyada nəzər salmağı bacarmışdır.

Düzdür, bədii yaradıcılıqda folklor örnəklərindən yararlanma heç də yeni məsələ deyildir. Çünki Azərbaycan klassiklərinin yaradıcılığı heç zaman foklora müraciətsiz ötüşməmişdir. Bu baxımdan C.Abdullayevin, B.Abdullanın, S.Fərzəliyevanın və digər çoxsaylı tədqiqatçıların əsərləri qeyd edilməlidir. Lakin prof. K.Əliyevin baxışlarında isə məsələyə tamamilə fərqli müstəvidə yanaşma özünü göstərir. Başqa sözlə desək, müəllif bəhs etdiyimiz təqdirdə romantizm məsələlərini folklorla əlaqəli şəkildə təhlil obyektinə çevirir və burada ayrı-ayrı tədqiqatçıların Nizami, Füzuli, Sabir, C.Məmmədquluzadə, S.Vurğuna və O.Sarıvəlliyə həsr olunmuş praktik əsərlərdən fərqli olaraq, K.Əliyev Azərbay-

can ədəbiyyatşünaslığının problemləri ilə folklorşünaslıq problemlərini nəzəri müstəvidə tədqiqat obyekti kimi götürüb, onu doğru-dürüst metodik mövqedən işıqlandırmağa çalışmışdır.

K.Əliyev araşdırmanın əvvəlində Azərbaycan romantiklərinin folklorşünaslıq baxışlarına nəzər salmışdır. Burada başlıca obyekt kimi H.Cavidin, M.Hadinin, A.Səhhətin, A.Şaiqin nəzəri-estetik görüşləri qeyd olunan tərəfdən işıqlandırılır. A.Səhhətin folklorşünaslıq baxışlarını təhlil edərkən onun "Məğrib günəşləri" kitabından gətirdiyi iqtibası, A.Puşkin və M.Lermontovdan gətirdiyi nümunədə əsərlərində yer almış bayronizmdən, Lermontovun "Mtsıri" poemasındakı "Çərkəzlər", Puşkinin romantik üslubda qələmə aldığı "Qafqaz" və "Qaraçılar"dakı romantizm çalarlarını necə hiss etməsini, A.Şaiqdən bəhs etdikdə onun el dilinə dəyər verməsindən, Avropa alimlərinin fikirlərinə təsadüfən müraciət etmədiyindən və folklor nümunələrinə dəyər verməsindən, Azərbaycan romantiklərinin yaradıcılığında ideallaşdırma axtarışlarından bir romantik sənətkar kimi istifadə etməsi, A.Şaiqin xalq ədəbiyyatına münasibətinin onun Molla Pənah Vaqifə həsr etdiyi məqalədə özünü daha qabarıq şəkildə göstərməsi, Vaqifin xalq şeiri üslubundan necə yararlanması və s. məqamların araşdırılması K.Əliyevin tədqiqatında həm də təhlilə cəlb edilən şairlərin əsərlərindən gətirilən nümunələrlə yaddaşlara həkk olur.

Məlum olduğu kimi, romantiklərin əsərlərində xalq nəğmələri, bayatılar, nağıl, əfsanə, rəvayət, inanclar və s. geniş şəkildə istifadə olunurdu. Çünki romantiklərin düşüncəsində öz vətəninin və onun keçmişinə diqqət daha çox ön plana çıxırdı. Eyni zamanda folklor onlar üçün həm də sözün həqiqi mənasında milli koloritin daşıyıcılarıdır ki, ondan kənarda sənətin mövcudluğu da yoxdur. Romantik ədəbiyyatda xalq xeyirxahlıq daşıyıcısı olmaqla və onu yüksək şəkildə təcəssüm etdirməklə onun dili, nəğmələri, nağılları və adət-ənənələri ilə birlikdə xalq ruhunun ifadəçisi kimi çıxış edirdi.

Keçmişdən – mifologiyadan götürülmüş obrazlar, qədim və orta əsrlər tarixindən gələn motiv və mövzular ideal ekzotika və əlçatmaz düşüncələrə bürünmüş olsa da, insanlar üçün yetərincə

maraq kəsb edir. Bu baxımdan tədqiqatçı A.B.Pavlovanın aşağıdakı fikirləri də maraqlıdır: "Məhz romantizm mərhələsində yazıçılarda, rəssamlarda və bəstəkarlarda folklor və xalq tarixinə maraq güclənir. İntibah dövründən antik dövrə, qədim tarixə və mifologiyaya maraq səngimirdi. Bununla belə, doğma elin-obanın tarixi ilə bağlı mövzu isə uzun müddət şərh edilmirdi.

Xalq poeziyası ənənələri kifayət qədər güclü idi, çünki yazılı ədəbiyyatın ortaya çıxması ilə xalq poeziyası nəinki öz mövcudluğunu başa vurur, əksinə yaşayır və inkişaf edir" (7).

Prof. K.Əliyev yuxarıda adları çəkilən müəlliflərin əsərlərinin təhlili əsasında həmin sənətkarların məqalələrində folklor nümunələrinin ortaya çıxıb formalaşmasını düzgün metodoloji mövqedən işıqlandırır və Azərbaycan romantiklərinin folklor nümunələrində xəlqiliyin, millilik məzmununun necə ortaya çıxdığını konkret nümunələr əsasında açıb ortaya qoyur. Eyni zamanda K.Əliyev Şaiq, Səhhət və Cavidin romantik əsərləri ilə onların ədəbi-nəzəri görüşlərini də sistemli şəkildə araşdıraraq həmin nümunələrin Azərbaycan folklorunun aktual problemlərinin işlənilməsinə necə müsbət təsir edəcəyini vurğulayır.

K.Əliyev romantizmin folklor qaynaqlarının da öyrənilməsində, demək olar ki, analoji yolla gedir. M.Hadinin romantik üslubunda folklor sənətindən götürdüyü elementlərin üslubundan əxz etdiyi örnəklərin də dəyərli olduğuna diqqət yönəldir. Əsərlərindəki əfsanəvi şəxsiyyətlər Nəmrud, Gavə, Zöhhak, Şəddad, Nuh, Adəm, Həvva və digər obrazlarda istifadə elementi, Azərbaycan romantizmində yer almış mübarizlik platformasının necə təşəkkül tapdığına diqqəti yönəldir (5, s. 58-59).

H.Cavidin romantik əsərlərində isə Şeyx Sənan, İblis, Papas, Şeyx Mərvan, Şeyx Sədra, Platon, yeri gəldikcə şifahi xalq yaradıcılığı nümunələrindən bəhrələnməsi, qədim tipli nəğmə və gəraylılardan istifadə etməsi, Topal Teymur, Səyavuş kimi şəxsiyyətlərin diqqət mərkəzinə çəkilməsi, romantik qəhrəmanların folklor qəhrəmanları ilə yaxınlığı, simvolik-mifik obrazların əsərlərin mahiyyətinə daxil edilməsi (Pəri, Mələk, İblis), mifoloji qatlara nüfuz etmələri (s. 98-111) və s. məsələlər folklor obraz və

qəhrəmanlarının Azərbaycan romantiklərinin yaradıcı düşüncəsinə necə əsaslı təsir etməklə, romantizm nümayəndələrimizin folklor, mifoloji və dini qaynaqlara neçə nüfuz edib, onları öz yaradıcı təfəkkürünün istəyinə tabe etdikləri K.Əliyev tərəfindən təhlil zamanı istifadə olunmuş parçalarda yetirincə nümayiş etdirilir.

Monoqrafiya müəllifi onu da haqlı olaraq vurğulayır ki, romantizmin obrazlar sistemində realizmin obrazlar sistemindən ciddi şəkildə fərqlənən mifologiyaya maraq daha geniş yer tutur (5, s. 131).

K.Əliyevin bu əsərində folklor və romantik bədii düşüncə sisteminin əsaslı şəkildə incələnməsi də monoqrafiyanın maraqlı səhifələrindən hesab olunmalıdır. Romantik bədii fikirdə atalar sözləri və zərbi-məsəllərin dərin qatlarda qərar tutması və daha çox əsərin mahiyyətinin açılmasına köməyi, baş qəhrəmanların azman folklor qəhrəmanları ilə özünəməxsus şəkildə ortaya qoyulması və s. kimi məqamlar folklorda və romantizmdə olan bədii düşüncənin müştərək qatları kimi göz önündə canlanır.

Bütün qeyd etdiklərimiz göstərir ki, prof. K.Əliyevin romantizm və folklora həsr olunmuş monoqrafik araşdırmasında problemin mahiyyətinə nüfuz etməyə səy göstərib, məsələni müvafiq nümunələr əsasında öyrənib, romantizmin bir bədii cərəyan kimi qeyd olunan keyfiyyətlərinə lazımınca nəzər salmağı bacarmışdır.

**QAYNAQLAR**


1. Əliyev K. Hüseyn Cavid və xalq dramı. “Mədəni maarif” jurnalı, 1983, № 4, s. 32-33
2. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, “Elm”, 1985
3. Əliyev K. Azərbaycan romantizminin folklor qaynaqları. Şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII c. Bakı, “Elm”, 1987, s. 161-173
4. Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı, “Elm”, 2002
5. Əliyev K. Folklor kitabı. Əsərləri 10 c., VI c. Bakı, “Elm və təhsil”, 2019, 432 s.
6. Федотова Л.В. Фольклор как художественный и духовно-философский феномен эстетических исканий поэтов-романтиков. // Filol. elm. dokt. diss. avtoref. Майкоп, 2008

7. Павлова А.В. Фольклорные основы романтизма. Журнал «Самиздат». Размещён: 04.02.2015. Павлова Анастасия…samlib.ru

# "DƏDƏ QORQUD" EPOSU KAMRAN ƏLİYEVİN ARAŞDIRMALARI KONTEKSTİNDƏ

**Oruc ƏLİYEV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*orucsohraboglu@gmail.com*

Filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyev Azərbaycan ədəbiyyatşünaslığının ən mütərəqqi ənənələrini öz elmi yaradıcılığında davam etdirib. O, "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri", "Hüseyn Cavidin şəxsiyyəti və poetikası", "Mirzə Fətəlidən Cavidə qədər", "Cavid möcüzəsi", "Azərbaycan romantizminin poetikası", "Hüseyn Cavid: həyatı və yaradıcılığı", "Tənqidin poetikası", "Ədəbiyyat tarixinə bir baxış", "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" kimi dəyərli tədqiqatların müəllifidir.

Kamran Əliyevin ədəbiyyatın müxtəlif sahələri ilə bağlı tədqiqatları var. O həm də "Yalquzaq", "Vağzal", "Zəli", "Qırmızı xətt" kimi bədii əsərlərin müəllifidir.

Kamran Əliyevin yaradıcılığının bir istiqamətini də folklor və yazılı ədəbiyyat məsələləri təşkil edir. O, hələ yaradıcılığının ilk illərindən bu sahə ilə bağlı axtarışlar aparmışdır. Bunun nəticəsində "Romantizm və folklor" kimi əsəri ortaya qoymuşdur. Bu əsər barədə Füzuli Bayat deyir: "Azərbaycan romantizmini, həm də folklor qaynaqlarını Kamrandan əvvəl də öyrənib yazmışlar, amma Kamranda bu, daha sistemli şəkildədir. Sovet dövründə məsələn, deyək ki, "Abbas Səhhət və folklor", "Cəlil Məmmədquluzadə və folklor", "Çəmənzəminli və folklor", "Füzuli və folklor" kimi silsilə əsərlər yazılmışdır. Kamran bu silsiləyə şəxsiyyət baxımından deyil, bir az ədəbi proses baxımından baxmağa çalışdı. Məsələn, deyək ki, Azərbaycan romantikləri və folklor, bütövlükdə Azərbaycan romantiklərinin folklora baxışı barədə mülahizələrlə özünün folklora gəlişini daha öncədən ha-

zırlamış oldu. Sovet dövründə folklor və yazılı ədəbiyyat problemi ilə bağlı məqaləsi də çap olunub. Kamranın "Romantizm və folklor" kitabı dəyərli əsərdir" (3, 19).

Kamran Əliyevin "Kitabi-Dədə Qorqud"la bağlı tədqiqatları xüsusilə seçilir. Bu əsərin tədqiqinə müəllif etnopoetika məsələlərinin izahı ilə başlayır. Etnopoetika məsələlərinin bir elm kimi açdığı imkanların kifayət qədər öyrənilmədiyini güman edən müəllif onu da yada salır ki, bədii düşüncə birdən-birə doğulmur və reallığa çevrilən bədii nümunələr heç də birdən-birə yaranmır. Tədqiqatçının fikrincə, folklor nümunələri etnopoetika müstəvisini tam aşkarlamaq üçün daha çox material verir. Müəllif onu da yada salır ki, şeirin janr zənginliyi etnopoetika məsələlərini tədqiq etmək üçün o qədər də optimal deyil. Bununla yanaşı, etnopoetik düşüncənin öyrənilməsi üçün şeir sənətinin mahiyyətini təmin edən obrazın və obrazlılığın önə keçirilməsi isə tarixi ilkinlik baxımından kompleks yanaşmanı yaxına buraxmır. Bunları xatırladan müəllif göstərir ki, bədiilik ölçülərinin özünün də doğurduğu sualların dürüst cavablanması etnosla poetik düşüncə arasındakı ilkin əlaqələrin tapılmasından asılıdır. Bu barədə belə qənaətə gəlir: "Beləliklə, etnopoetik düşüncə ilkin olaraq şeirin quruluşunu – strukturunu və deməli, misranı axtarır. Axtarılan misranın isə birinci növbədə digər bir misraya ehtiyacı vardır, çünki o, qətiyyən tək yaşaya bilməz. Bədii düşüncə harmoniyadır və təklikdə harmoniya yoxdur" (2, 4-5).

"Dədə Qorqud" eposunu süjet və kompozisiyası, struktur əlamətləri, bədii dil xüsusiyyətləri, ideya siqləti ilə bitkin bir mədəniyyət abidəsi kimi araşdıran Kamran Əliyev boyları bir-birinə yaxnlaşdıran, bu yaxınlıqları tənzimləyən əlamətlərin eposda kifayət qədər olduğunu da nəzərdən keçirir. Bu kontekstdə "Dəli Domrul" boyunun digər boylarla, bütövlükdə isə eposun özü ilə əlaqə və təmasının zahirən zəif görünməsinin təbii olaraq bir çox mübahisə və ehtimalların da əsasına çevrildiyini xatırladır.

Əhməd Bican Ərcilasun "Türk etnosunun poetikası" adlı məqaləsində yazır: "Mətnin içinə girmək, mətndəki hadisələrin təş-

kilini, mövzu və anlayışları, motivləri, şəxsiyyətləri, zaman və məkanı, mətnin başlama, inkişaf və son xəttini, üslubunu, mətn daxilindəki xüsusi formulları, xüsusi söyləmə texnikalarını öyrənmək ədəbiyyatşünasların işi olduğu qədər şifahi xalq ədəbiyyatı mütəxəssislərinin də işidir. Bu sahələrin hər biri öz nöqteyi-nəzərindən mətnin içinə daxil olur, öz üsulları ilə mətni öyrənir və müxtəlif dəyərləndirmələr edərək bəzi nəticələrə çatır.

Azərbaycanın tanınmış mədəniyyət xadimlərindən ədəbiyyatşünas Kamal Abdulla "Gizli Dədə Qorqud" kitabı ilə ilk dəfə mətnin içinə girmiş, mətnin içində dolaşan itigözlü bir səyyah kimi gördüklərini, kəşf etdiklərini və hətta, bəlkə də görmədiklərini bizə çatdırmağa çalışmışlar...

"Gizli Dədə Qorqud"dan sonra indi də Açıq kitab – "Dədə Qorqud" gəldi qarşımıza. Kamran Əliyev də mətnlərin içinə girmişdir. Amma o, "gizli bir tərəfi yox, hər şeyi açıq" deyir. Əlaqələr qurur. Hadisələr arasında, insanlar arasında, ifadələr arasında. Demək istəyir ki, bu əlaqələri qursanız, hər şey üzə çıxar. Niyə o qədər qəhrəman Təpəgözün öhdəsindən gələ bilmir, ancaq Basat gələ bilir? Çünki Təpəgözün mifik bir tərəfi də var, o, pəridən doğulmuşdur. Onunla döyüşən qəhrəmanlardan da yalnız Basatın mifik tərəfi vardır, onu aslan böyütmüşdür.

Aruz Qocanın mənfi bir şəxsiyyətə bürünüşünü Əliyevin araşdırmasından sanki addım-addım təqib edə bilərsiniz. Niyə Oğuz qəhrəmanlarında hər şey üç və ya üç yüzdür, Aruzda niyə altmışdır? Rəqəmlərin bir-biri ilə və şəxslərlə münasibətlərini izləsəniz, Əliyev kimi bu sualın da cavabını tapa bilərsiniz..." (4, 35-36).

Məlum olduğu kimi, "Dəli Domrul" boyu "Dədə Qorqud" eposunun boyları içərisində ən çox mübahisə doğuran boylardan biri, bəlkə də birincisidir. Bu məsələyə toxunan Kamran Əliyev belə güman edir ki, bunun da nəticəsində Dəli Domrulun aparıcı bir qəhrəman kimi öyrənilməsinə az diqqət yetirilmiş, hətta qəribə də olsa, bu boyu eposun strukturunda yad bir boy elan etmişlər. Bir çox qorqudşünaslar isə "Dəli Domrul" boyunun ən qədim boy olması fikrini irəli sürməklə əslində son dərəcə

ehtiyatla və bir az da gizli şəkildə bu boyun eposla struktur əlaqələrə malik olmadığını işarələmişlər.

Müəllif "Dəli Domrul" boyunun eposun strukturu ilə uyuşub-uyuşmaması məsələsinin qorqudşünaslığa hələ də açıq qalmaqda olduğunu, bunun da bir sıra faktlar və dəlillərlə bağlı olduğunu ehtimal edir. Bunları sadaladıqdan sonra belə qənaətə gəlir ki, eposu "Dəli Domrul" boyundan kənar təsəvvür etmək, sadəcə ağlasığmazdır. Bu mülahizələrini əsaslandırmaq üçün tutarlı dəlil və faktları irəli sürür. Müəllifin fikrincə, qəhrəmanlıq abidəsi olan "Dədə Qorqud" eposunda oğuzların keçmişinə dair böyük bir dövr Oğuz cəmiyyətinin qəhrəmanlıq salnaməsi ilə yanaşı, dinclik mərhələsi də öz əksini tapıb. Ayrı-ayrı boylarda belə epizodlar üzərində dayanan müəllif bu yolla "Dəli Domrul" boyunun digər boylarla əlaqəsini üzə çıxarır, onu eposun strukturunun zəruri bir vahidi hesab edir. Bundan başqa eposun strukturunda aydın bir xətt kimi keçən igidin atdan asılılığı prinsipinin "Dəli Domrul" boyunda özünü doğrultmasını, adverme mərasiminin bu boyda özünün zirvə nöqtəsinə çatmasını və bir sıra digər belə faktları diqqətə çəkərək belə nəticəyə gəlir: "Bu deyilənlərdən aydın olur ki, "Dəli Domrul" boyu "Dədə Qorqud" eposunun strukturundan – süjetindən, kompozisiyasından, poetika elementlərindən ayrılmaz və təcridolunmazdır. Hətta "Dəli Domrul" boyu olmasaydı, sözsüz ki, epos öz bitkinliyini, dərin məna siqlətini, əzəmətini və monumentallığını xeyli itirmiş olardı. Çünki digər boylarda adda-budda və epizodik səciyyədə olan Oğuz elinin dinc, sakit dövrü yalnız "Dəli Domrul" boyunda özünün tam həllini tapmışdır. "Dədə Qorqud" eposu üçün zəruri olan "Dəli Domrul" boyu ilə qədim türklərin həyatının bitkin və bütöv mənzərəsini əks etdirmək vəzifəsi həyata keçirilmiş və eyni zamanda eposun ədəbi-bədii məntiqi tamamlanmışdır" (2, 34).

Kamran Əliyev yada salır ki, "Dədə Qorqud" eposunun öyrənilməsi müxtəlif dövrləri əhatə etmiş, hər dövrdə bu abidənin tədqiqi ilə bağlı müəyyən ədəbi-nəzəri, tarixi-fəlsəfi baxışlar sistemi formalaşmış, mətn dəqiqləşdirmələri aparılmış, dil xüsusiy-

yətləri aydınlaşdırılmış, eposun daha qabarıq görünən məsələləri barədə xeyli məqalə və monoqrafiya çap olunmuş, lakin bütün bunlarla yanaşı, bir çox aktual problemlərin təhlili hələ də öz həllini gözləyir. Çünki bu abidənin etnik-tarixi, bədii-fəlsəfi gücü tükənməz və sonsuzdur. Bu mənada müəllif eposun poetikasında səciyyəviliyi və qeyri-adiliyi ilə seçilən Təpəgözün sirrinin də hələ kifayət qədər açıqlanmadığını güman edir.

Məlum olduğu kimi, Təpəgözlə bağlı süjet dünyanın bir sıra xalqlarında vardır. Ə.Sultanlı "Kitabi-Dədə Qorqud"da verilmiş Təpəgözlə Polifem arasındakı müəyyən oxşarlıq fikrinin ortalığa çıxmasını, bu sahədəki özünəqədərki tədqiqatları nəzərdən keçirərək belə nəticəyə gəlir ki, "Kitabi-Dədə Qorqud" Təpəgözü, Fon Ditsin rəyinə rəğmən, Polifemə bənzəmir, Təpəgöz tamamilə fərdi xüsusiyyətə malik bədii surətdir (8, 72).

"Basatın Təpəgözü öldürdüyü boy"u "Kitabi-Dədə Qorqud" dastanlarının ən qədimi hesab edən M.H.Təhmasib bu dastanın qədim bahadırlıq nağıllarına xas olan ünsürlərlə də zəngin olduğunu söyləmişdir. M.H.Təhmasib "Basatın Təpəgözü öldürdüyü boy"u Şərqdə və Qərbdə məşhur olan iki yüzdən artıq variant içərisində öz quruluşuna, süjet və motivlərinə, məqsəd və amalına görə bütün variantlardan fərqlənən əsatiri bahadırlıq dastanı olduğu nəticəsinə gəlmişdir (9, 112-130).

Ümumiyyətlə, dünya xalqlarının şifahi və yazılı ədəbiyyatında geniş yayılmış Təpəgöz süjeti ilə bağlı çoxsaylı tədqiqatlar aparılmış və mülahizələr irəli sürülmüşdür. İslam Sadıq bu barədə mövcud tədqiqatları ümumiləşdirmiş, həm də Şumer qaynaqlarına müraciət etmişdir. O, apardığı araşdırmalar nəticəsində belə ehtimal edir ki, Təpəgöz obrazı və onun süjeti Şumer-türk mənşəlidir (6, 18-19).

Son illərdə Azərbaycanın ayrı-ayrı bölgələrindən yazıya alınmış materiallar içərisində də bu süjetlə bağlı nümunələrə təsadüf olunur. Məsələn, Ağdaş rayonundan "Kəlləgöz" nağılının iki mətni yazıya alınmışdır (1, 398-401).

Məlum olduğu kimi, Təpəgözün mənşəyi qorqudşünaslığın müəyyən mərhələlərində aktual məna kəsb etmiş, əksər tədqiqat-

çılar Təpəgözə münasibətdə onun mənşəyi məsələsinə daha çox üstünlük vermişlər. Buna təbii baxan Kamran Əliyev onu da göstərir ki, Təpəgözün poetikasının dəqiq və hərtərəfli araşdırılması onun əsl məzmununun üzə çıxarılmasına, eposun strukturunun və sisteminin dərkinə və bəzi sirlərinin açılmasına və aydınlaşdırılmasına daha çox yardımçı ola bilər. Müəllif bunun üçün "Basatın Təpəgözü öldürdüyü boy"un ümumi mənzərəsinə diqqət yetirir. Bu ümumi mənzərədə Bayandır xanla əlaqədar faktı yada salır. Belə ki, o biri boylarda öz yerində görünən, Oğuz bəylərini öz ətrafına toplayan, onlarla iqamətgahında məsləhətləşmələr aparan Bayandır xan bu boyda səyahətə çıxır. Tədqiqatçının fikrincə, boydakı qorxu hissi Təpəgözün adı ilə bağlı olmaqla yanaşı, həm də Bayandır xanın öz taxtını tərk etməsində – Oğuz elini səyahətə çıxmasındadır. Müəllif bunu Oğuz bəyləri, bütövlükdə Oğuz eli üçün son dərəcə ciddi bir narahatlığın ilk əlaməti və nişanəsi sayır.

Kamran Əliyev Təpəgözü eposun strukturunda idbar və mifik düşmən obrazı kimi təhlil edir. Təpəgöz Oğuzun əbədi düşməni olan kafirlərdən də qat-qat güclü görünür. Bütün düşmənlərə üstün gələn Oğuz qəhrəmanları Təpəgözün əlində əsir-yesir olurlar. Müəllif göstərir ki, Təpəgöz çobanla Pərinin izdivacından doğulan yarıməfsanəvi bir obrazdır, deməli, reallıqla mifin müştərək təcəssümüdür. Təpəgöz bir kimsə ilə deyil, yalnız Dədə Qorqudla danışığa gedir, buna səbəb Dədə Qorqudda da reallıqla mifin qovuşuq şəkildə olmasıdır. Müəllifin fikrincə, Basat dastanda mifin sərhədində dayanır. Tədqiqatçı bu barədə fikirlərini belə ümumiləşdirir: "...Təpəgözün eposun poetikasında tutduğu yer və mövqe nə qədər möhkəmdirsə, daşıdığı funksiya da bir o qədər çoxşaxəlidir. Təpəgöz həm öz düşmənçiliyi, həm də Basata məğlubiyyəti ilə Oğuz elinin gücünü əks etdirir. Çünki Təpəgözün simasında ən böyük düşmən, Basatın simasında isə Təpəgözü məğlub edən ən qüdrətli qəhrəman Oğuz elindən olandır. "Dədə Qorqud" eposunda Oğuz təfəkkürü Oğuzdan başqasını qəbul etmir" (2, 48).

Kamran Əliyev qəhrəmanlıq motivini araşdırmaqla “Dədə Qorqud” eposunda qaranlıq qalan bir çox cəhətlərə aydınlıq gətirməyə üz tutur.

Məlum olduğu kimi, gənc bahadır Uruz “Dədə Qorqud” eposunun ikinci, dördüncü və on birinci boyunda iştirak edir. Qorqudşünaslar bu boylardan on birinci boyu əvvəlki iki boydan fərqləndirir və gənc bahadır Uruz üçün əsas boy hesab edirlər. Kamran Əliyev bununla bağlı onu da qeyd edir ki, lakin bu fikirlərdən elə anlaşılmamalıdır ki, Uruzun başqa boylarda iştirakı elə bir əhəmiyyət daşımır. Onun qənaətinə görə, Uruzun nəinki digər iki boyda mühüm rolunun, hətta ara-sıra adı çəkilən və bəzən çəkilməyən boylarda da ciddi əlaqəsinin olduğu danılmazdır. On birinci boyun əsas qəhrəmanı Uruzun əsirlikdəki dəyanət və dönməzliyinə söykənən davranışı ona qələbəyə bərabər tutula bilən şərəf və ləyaqət gətirir. Müəllif göstərir ki, Dədə Qorqud digər boylarda olduğu kimi on birinci boyun qəhrəmanı Uruza gəlib ad vermir, bunun səbəbi nədir? O, bu barədə belə fikrə gəlir: “...Uruz bir tərəfdən öz yaşıdları olan bəylərdən fərqlənir, digər tərəfdən də eposun strukturunda aparıcı bir mövqe daşıyır. Bəlkə, belə demək olar ki, “Dədə Qorqud” eposunun mətnində ayrıca bir “Uruz” Oğuznaməsi var. Düşünmək olar ki, eposla bağlı epik ənənə daha çox hakimiyyət şəcərəsinin təsiri ilə yaranan ənənədir. Uruz isə hər şeydən qabaq, eposda epik ənənənin qoruyucusudur. Həyatda sayılıb-seçilən nəsil ənənəsi, şəcərəsi olan və həyatda şəcərəsini qorumağı bacaran eposda da epik ənənəni qorumağa daha çox səlahiyyətlidir. Belə bir səlahiyyət sahibi məhz Uruzdur, çünki Uruz Qazan xanın oğlu, Bayandır xanın nəvəsidir” (2, 60-61).

“Dirsə xan oğlu Buğac xan boyu” üzərində araşdırmalarını davam etdirən tədqiqatçı Buğac obrazının eposdakı mövqeyinə də aydınlıq gətirmək istəyir. Onun fikrincə, dastanda qəhrəmanla bağlı hadisələri düzgün oxumaq, qəhrəmanı olduğu kimi dəyərləndirmək, qəhrəmanın şəxsiyyətində və fəaliyyətində ehtiva olunan xalq fikrini və düşüncəsini tam dəqiqliyi ilə tapmaq və aşkara çıxarmaq folklorşünaslığın ana vəzifəsidir. Bu baxımdan

eposdakı Qazan xan, Uruz, Basat, Dəli Domrul, eləcə də Buğac kimi surətlərin taleyi ilə bağlı məsələlərin dönə-dönə araşdırılmasını təbii və məntiqi hesab edir.

Buğac obrazı ilə bağlı tanınmış qorqudşünasların fikirlərini nəzərdən keçirən Kamran Əliyev xüsusilə diqqətə çatdırır ki, "Dirsə xan oğlu Buğac xan" boyunun eposun bütöv mətni ilə struktur əlaqəsi danılmazdır: "Buğac eposun birinci boyunu təmsil edir, birinci boyun qəhrəmanıdır və eposun sonrakı boylarında tanış olacağımız qəhrəmanların ilkidir. "Dirsə xan oğlu Buğac xan boyu" adlanan bu birinci boyla eposun strukturu arasında iki cür əlaqə vardır. Birinci budur ki, ilk boydur. İkincisi isə boyun daxilindəki məzmunla eposun bütöv strukturunun əlaqəsidir. Başqa sözlə, birinci boy eposun doğuluş boyu olduğu kimi, boyun özündə də əsas məzmun doğuluşla bağlıdır" (2, 64).

Dədə Qorqudun "Dirsə xan oğlu Buğac xan boyu"nda qəhrəmanın qeydi-adi dünyaya gəlməsi motivi mühüm yer tutur. Xanlar xanı Bayandır xan bir ili şadlıq keçirib qonaqlıq verəndə oğlu olanı ağ otaqda, qızı olanı qızılı otaqda, oğlu-qızı olmayanı qara otaqda qonaq edirlər. Qırx igidi ilə Bayandır xanın qonaqlığına gələn Dirsə xanı qara otaqda oturdurlar, qara qoyun ətindən qovurma verirlər. Bundan çox məyus olan Dirsə xan gəlib əhvalatı qadınına söyləyir. Dirsə xanın sözlərini eşidən qadını deyir ki, Dirsə xan, mənə qəzəblənmə, böyük qonaqlıq düzəlt. İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığı, ac görsən doydur, çılpaq görsən geyindir, borclunu borcdan qurtar, şadlıq məclisi qur, Tanrıdan arzunu dilə, bəlkə bir ağzı dualının alqışı ilə Tanrı bizə bir övlad verə. Dirsə xan qadınının istəyini yerinə yetirir:

"Dirsə xan dişi əhlinin sözülə ulu toy elədi, hacət dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstünə yığnaq etdi. Ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyu borcundan qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdülər, hacət dilədilər. Bir ağzı dualının alqışilə Allah-təala bir əyal verdi. Xatunı hamilə oldı. Bir neçə müddətdən sonra bir oğlan toğurdı" (5, 35).

Bu oğlan on beş yaşına gəlib çatır. Bu yaşında igidlik göstərir. Dədə Qorqud gəlib onun hünərini tərifləyir. Dirsə xana oğluna bəylik verməsini məsləhət görür:

“Hey Dirsə xan! Oğlana bəglik vergil,
Təxt vergil, – ərdəmlidir!
Boynı uzın bədəvi at vergil,
Binər olsun, hünərlidir!
Ağ ayıldan tümən qoyun vergil, –
Bu oğlana şişlik olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil bu oğlana,
Yüklət olsun, hünərlidir!
Altun başlu ban ev vergil bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çigin quşlı cübbə ton vergil bu oğlana,
Geyər olsun, hünərlidir!

Bayandur xanın ağ meydanında bu oğlan cəng etmişdür. Bir buğa öldürmüş sənin oğlun, adı Buğac olsun. Adını bən verdüm, yaşını Allah versün, – dedi” (5, 36).

“Dədə Qorqud” eposunda adqoyma motivi təsadüfi bir hal deyil. Bunun tarixi və mifoloji kökləri var. “Dədə Qorqud”da, həm də xalq yaradıcılığının digər nümunələrində adqoyma mərasimi xalqın əski dünyagörüşü, inamları ilə bağlıdır.

Burada bir məsələni də yada salmaq yerinə düşər. Eposun ancaq üç boyunda Dədə Qorqud qəhrəmana ad verir. Bunlar Buğac, Basat, bir də Bamsı Beyrəkdir. Boylarda Dədə Qorqud müdrik bir şəxs, məsləhətlər verib yol göstərən bir hami, köməkçidir. Onun ad verib tərifədiyi qəhrəmanlar da başqalarından seçilirlər. Mirəli Seyidov bunun adi bir hal olmadığını, türk xalqlarının əski inamları ilə bağlı olduğunu göstərir: “Günəşin, günəş tanrısının mifik səciyyəsi ilə Qorqudun eyni səciyyələri arasında mifoloji bağlılıq özünü göstərir. Qorqud istər öz ata-babasına, istərsə də adına görə Günəşlə, odla bağlıdır və elə buna görə də əski mif yaradıcısı Günəşin, günəş tanrısının adqoyma, hakimiyyət vermə, hər şeyi bilmə xüsusiyyətlərini Qorquda şamil etmişdir. Buna görə də Qorqud qaibdən xəbər verir, uşaq-

lara ad qoyur, igidlərə taxt, bəylik tələb edir, qəhrəmanları (Bəkili) şərəfli vəzifəyə göndərir.

Qorqut ilkin çağlarda mifik aləmlə daha çox bağlı olmuş və Günəşin, odun mifik səciyyələrinə də yiyələnmişdir. Çağlar keçdikcə bu səciyyələrin çoxusunu itirəndən ona bəzən tam mifik, bəzən yarımmifik, yarı əfsanəvi don geydirmişdir. Deməli, dünyagörüşlər, həyatı dərketmə forması dəyişdikcə, Qorqud tam mifik obrazdan yarı mifik, yarı real aləmin vətəndaşı olmuşdur" (7, 25).

Kamran Əliyevin fikrincə, "Dədə Qorqud" eposu vahid mexanizm kimi götürüldükdə boyların ayrı-ayrılıqda təhlili ilə müqayisədə nəhəng və möhtəşəm görünür. O, "Dirsə xan oğlu Buğac xan boyu"nun eposun bütöv strukturu ilə sıx əlaqəli olduğunu doğru hesab edir.

"Deməli, boydakı Buğacla bağlı doğuluş aktı üç dəfə təkrar olunur – anadan doğulmaq, ad almaq, ölümdən xilas olmaq və üç dəfə də təsdiq edilir. Dirsə xan da iki dəfə (oğlu olanda – Dirsə xanın adamlarına qarışır və tutulub oğlu tərəfindən xilas ediləndə), xan qızı da iki dəfə (oğlu olanda və südü ilə oğlunu xilas edəndə) doğulur. Bununla da "Dirsə xan oğlu Buğac xan boyu" bütün başqa tərəfləri ilə yanaşı, özünü eposun poetikasında doğuluş aktı kimi təsdiqləmiş olur və məhz eposun bu doğuluş boyuna – birinci boyuna çevrilir" (2, 69-70).

Beyrək eposun ən məşhur qəhrəmanlarından biridir. O, digər qəhrəmanlardan öz ölümü ilə fərqlənir. Boyları nəzərdən keçirən müəllif qeyd edir ki, yaralanan Buğac da, əsir düşən Qazan, Uruz, Qazılıq qoca, Yeynək də, Əzrayılla qarşılaşan Dəli Domrul da, Təpəgözlə vuruşan Basat da ölməyib sağ qalırlar. Müəllif bunu onların ölümü barədə xəbərin gəlməməsi ilə bağlayır. Beyrək haqqında isə belə bir yalançı xəbər gəlib. Sonrakı boyda isə Beyrəyin ölümü baş verir.

"Dədə Qorqud" eposunun sonuncu boyunda Beyrək öldürülür. Beləliklə, "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda yalan kimi təqdim edilən Beyrəyin qanlı köynəyi digər boyda – "İç

Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy"da həqiqəti ifadə edən xəbərə çevrilir" (2, 97-98).

"Dədə Qorqud" eposunun əsl məzmun və mahiyyətinin meydana çıxarılmasının boylar arasındakı yaxınlıq və əlaqələrin tapılmasından, onların təhlil və şərhindən xeyli dərəcədə asılı olduğunu önə çəkən müəllif bunun Beyrək obrazı ilə bağlı məsələlərdə bir daha bütün aydınlığı ilə göründüyünü ehtimal edir.

Apardığı təhlil və araşdırmalar nəticəsində müəllif belə qənaətə gəlir ki, "Dədə Qorqud" eposunun əsl məzmun və mahiyyətinin meydana çıxarılması boylar arasındakı fərqlərin deyil, yaxınlıq və əlaqələrin tapılmasından, onların təhlil və şərhindən xeyli dərəcədə asılıdır.

## QAYNAQLAR


1. Azərbaycan folkloru antologiyası: XVI kitab. Ağdaş folkloru (Toplayıb tərtib edəni İ.Rüstəmzadə). Bakı: Səda, 2006
2. Əliyev K. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu". Bakı: Elm və təhsil, 2011
3. Kamran Əliyev – 60. Bakı: Nurlan, 2014
4. Kamran Əliyev – 65. Bakı: "Kaspi" nəşrləri seriyası, Zərdabi LTD "MMC", 2018
5. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988
6. Sadıq İ. Təpəgöz və Polifem obrazları haqqında // "Dədə Qorqud". Elmi-ədəbi toplu. Bakı: 2012, № 3, s.18-29
7. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983
8. Sultanlı Ə. Məqalələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971
9. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972

# PROFESSOR KAMRAN ƏLİYEV HÜSEYN CAVİD HAQQINDA

# PROFESSOR KAMRAN ALIYEV ABOUT HUSEYN JAVID

# ПРОФЕССОР КАМРАН АЛИЕВ О ГУСЕЙНЕ ДЖАВИДЕ

**Pərvanə Həbib qızı MƏMMƏDOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Texniki Universiteti*
*parvana.mamedova.72@mail.ru*

**Özət**

Məqalədə dünyadan vaxtsız köçmüş tanınmış alim professor Kamran Əliyevin elmi-tənqidi fəaliyyəti təhlil obyekti kimi çıxış edir. Onun rəngarəng xarakterli tədqiqatlarında H.Cavidin yaradıcılıq yoluna həsr edilmiş monoqrafiya xüsusi yer tutur. Burada şairin yaradıcı şəxsiyyəti ilə yanaşı, onun ədəbi-nəzəri mənbələri, romantizm uğrunda mübarizəsi, şeirləri, bütün dramaturgiyası, həm də şairin yaradıcılığının ideyası və poetikası, Cavidin folklorla əlaqələri və eyni zamanda zəngin irsinin əsas xüsusiyyətləri öyrənilir. K.Əliyevin monoqrafiyasını təhlil etdikcə, onun Azərbaycan tənqidi sahəsində nə qədər böyük işlər gördüyünün şahidi oluruq.

**Açar sözlər:** monoqrafiya, Cavid, romantizm, yaradıcılıq, dramaturgiya, şəxsiyyət, mübarizə, tədqiqatçı, nəzəri baxış

**Summary**

In this article, the object of analysis is the scientific and critical activities of the famous Azerbaijani scientist, professor Kamran Aliyev, who died untimely. In his diverse nature of research, a special place belongs to the monograph dedicated to the entire creative path of G. Javid, where, along with his creative personality, literary and theoretical sources are scrupulously and consistently studied, his struggle for romanticism, the poet's poems and all dramatic heritage, as well as ideas and poetics of creativity, G. Javid's connection with folklore and other fundamental features of his work. Analyzing the monograph of the scientist, we realize how much K.Aliyev has done in the field of Azerbaijani criticism.

**Key words:** monograph, Javid, romanticism, creativity, drama, personality, struggle, researcher, critical view

**Резюме**

В данной статье объектом анализа является научно-критическая деятельность известного азербайджанского учёного, безвременно ушедшего из жизни профессора Камрана Алиева. В его разнообразного характера исследованиях особое место принадлежит монографии, посвящённой всему творческому пути Г.Джавида, где скрупулёзно и последовательно изучаются наряду с его творческой личностью и литературно-теоретические источники, борьба его за романтизм, стихи поэта и все драматическое наследие, а также идеи и поэтика творчества, связь Г.Джавида с фольклором и другие основополагающие черты его наследия. Анализируя монографию учёного мы сознаём, как многое сделал К.Алиев в области азербайджанской критики.

**Ключевые слова:** монография, Джавид, романтизм, творчество, драматургия, личность, борьба, исследователь, критический взгляд

Professor Kamran Əliyevin dünyasını dəyişməsi xəbərini mən böyük ürək ağrısı ilə qarşıladım. Tale elə gətirmişdi ki, mənə onunla bir yerdə işləmək qismət olmuşdu...

1999-cu ilin payızı idi. O vaxta qədər mən Bakı Dövlət Universitetində aspiranturada təhsil alıb, 1998-ci ildə namizədlik dissertasiyası müdafiə edib, orada ixtisasıma uyğun olmayan bir laboratoriyada kiçik elmi işçi kimi çalışırdım. Atam professor, Əməkdar elm xadimi, tanınmış ədəbiyyatşünas Həbib Babayev də neçə il idi ki, dünyasını dəyişmişdi. Ailəmizin maddi çətinlikləri var idi. Üstəlik müdafiə edib, ixtisasım üzrə işləməməyim də məni çox narahat edirdi.

Buna görə də bir gün anam Mahirə xanımla o vaxtlar Bakıda fəaliyyət göstərən Naxçıvan Universitetinin rektorunun yanına orada mənə iş verilməsi ilə bağlı getdik. Rektor Fərahim müəllim bizi Universitetin tədris işləri üzrə prorektoru Kamran Əliyevin yanına göndərdi. Kamran müəllimin kabinetinə daxil

olduq. Bizi gülərüzlə qarşıladı. Anam Mahirə xanım nə üçün gəlməyimizin səbəbini açıqladı və mənim üçün orada ədəbiyyat fənnini tədris etməyimlə bağlı işə götürülməyimi xahiş etdi. Kamran müəllim bir qədər fikirləşdikdən sonra dedi: “Sizin qızınıza Azərbaycan ədəbiyyatı fənnindən yox, Türk xalqları ədəbiyyatı fənnindən dərs vermək imkanımız ola bilər”.

Kamran müəllimə təşəkkür edib, sağollaşıb çıxdıq. Universitet o vaxtı kı Volodarski Tikiş Fabrikinin yanında (indiki Bakı Tikiş Evi) evimizə yaxın yerdə yerləşdiyindən səhəri gün gecikmədən sənədlərimi gətirib təqdim etdim. Bundan sonra bu təhsil müəssisəsində tələbələrə Türk xalqları ədəbiyyatını tədris etməyə başladım. Yarım ildən sonra mən bu təhsil ocağından ayrılsam da, Kamran müəllimlə həminki az zaman kəsiyində tanışlığım mənim düşüncəmdə silinməz izlər buraxmışdı.

Prof. K.Əliyev əsl mədəniyyət və ədəbiyyat adamı idi. Mən Naxçıvan Universitetinə işləməyə gələnə qədər də onun haqqında, tədqiqatları barədə müəyyən bilgilərə sahib idim. Sonra isə onun yaradıcılığı ilə daha yaxından tanış olmaq imkanı əldə etdim. Onun ədəbiyyatımızın çoxsaylı problemlərinin öyrənilməsinə həsr etdiyi məqalə və monoqrafiyaları Kamran müəllimin dəyərli ədəbiyyat araşdırıçısı olduğunu göstərməkdədir. Çünki K.Əliyev üçün ədəbiyyatımızın sanki ikinci dərəcəli problemi də yox idi. O, istər XIX əsr klassikləri M.F.Axundzadə, M.M.Nəvvab, A.Bakıxanov, istər XX əsrin əvvələrində yazıb yaratmış A.Şaiq, M.Ə.Sabir, Ü.Hacıbəyov, R.Əfəndiyev, M.Hadi, A.Səhhət, A.Divanbəyoğlu, A.Sur, C.Cabbarlı, M.S.Ordubadi, istərsə də S.Vurğun, R.Rza, S.Rəhimov, N.Xəzri, Anar, S.Rüstəmxanlı və başqa müasir dövr Azərbaycan ədəbiyyatı nümayəndələrinin yaradıcılığını tənqid obyektinə çevirən K.Əliyevin qələmi altında, bəlkə də ən ortabab yazıçı haqqında deyilənlərin işığı o qədər güclü olurdu ki, həmin yazıçının yaradıcılığına yenidən qayıtmaq istəyirdin. Kamran müəllim bizim gözümüzdən qaçan, diqqət yetirmədiyimiz şair və yazıçıların əsərlərinə də sevgi ilə yanaşmağı bacaran ədəbiyyatşünas idi.

K.Əliyevin Azərbaycan ədəbiyyatının XIX əsr dövründən üzübəri yaradıcılığını ciddi və ardıcıl izlədiyi sənətkarlar sırasında Hüseyn Cavidin bədii və dramaturji irsi xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Professor sanki bütün ədəbiyyatımızın inkişafına H.Cavid pəncərəsindən boylanırdı. Elə buna görə də təsadüfi deyildir ki, 10 cildlik əsərlərinin 3-cü cildini Hüseyn Cavidin həyatına, şəxsiyyətinə, ədəbiyyata baxışına, Cavid poeziyasına, dramaturgiyasına, ideyalarına, yaradıcılığının poetikasına, folklorla bağlılığına, H.Cavidin Azərbaycan ədəbi tənqidində yerinə həsr etsə də (2), müəllif Cavid əsərlərinin digər nəşrlərində və cildlərində (3, s. 178-281) və başqa məqamlarda da sanki Hüseyn Cavidsiz keçinmır.

H.Cavidə həsr etdiyi cilddə K.Əliyev, demək olar ki, bu mütəfəkkirin həyatının, şəxsiyyətinin və yaradıcılığının – qısa tərcümeyi-halı, yaradıcılığının bütövlüyü, bədii yaradıcılığındakı şəxsiyyəti, H.Cavidin ədəbi-nəzəri mənbələrdə yeri, onun romantik sənət uğrunda mübarizəsindən tutmuş, romantik poeziyası, "Azər" poeması, dram əsərlərinin silsilə şəkildə çözümünə həsr olunmuş "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam"da böyük təfəkkür sahibinin dramaturji yoluna nəzər salmaqla, həm də Cavid publisistikasının bəzi tərəflərini araşdırması və bundan başqa Hüseyn Cavidin kimliyi üzərində dayanması, onu böyük mütəfəkkir və humanist sənətkar kimi nəzərdən keçirməsi, Cavidin tarixən, türklüyə münasibəti, onun sənətinin müasirliyi, yüksək ideyalar daşıyıcılığı və s. kimi məsələlərlə bərabər, Cavidin əsərlərinin zaman və məkan kontekstinə müraciət, romantik qəhrəmanla dastan qəhrəmanı arasında axtardığı paralellər olduqca götürqoylu və maraqlı rakurslardan təqdim olunmuşdur.

K.Əliyevin əsərlərinin üçüncü cildi haqqında Şirindil Alışanlının fikirləri də maraq doğurur. Orada Ş.Alışanlı K.Əliyevin Hüseyn Cavid irsinin görkəmli tədqiqatçısı olduğundan danışaraq bildirir ki, dövrümüzdə ədəbiyyatşünaslıq elmimizin görkəmli nümayəndələrindən olan Kamran Əliyev romantik sənət

haqqında söz demək, bu sahədəki araşdırmalara istiqamət vermək səlahiyyəti qazanmışdı. Və onun fikrincə, romantik sənət haqqında ancaq mənən ləyaqətli, natura etibarı ilə məhz romantik alimlər danışa və yaza bilərlər (1, s. 4). Bu fikirlərlə biz də razıyıq. Ona görə ki, H.Cavid haqqında K.Əliyevdən illərcə əvvəl həm H.Cavid, həm də romantik ədəbiyyatla bağlı tanınmış Azərbaycan alimləri M.Cəlal, M.Cəfər, C.Xəndan, Ə.Sultanlı, M.Əlioğlu, K.Talıbzadə, Ə.Mirəhmədov, Y.Qarayev və digər müəlliflər mülahizələr söyləmələrinə baxmayaraq, Kamran müəllimin Azərbaycan romantiklərinin nəzəri baxışlarına və Azərbaycan romantizminin poetikasına həsr etdiyi monoqrafik araşdırmalarının onu bu sahənin tanınmış mütəxəssislərindən biri olduğunu sübut etdi.

Kamran müəllimin elmi yaradıcılıq sahəsi çeşidli və geniş olsa da, onun tədqiqatlarının özəyində məhz H.Cavid sənəti dayanır. Azərbaycan cavidşünaslığına verdiyi töhfələri göz önünə gətirdikdə görə bilirik ki, tədqiqatçı Cavid sənətini onun şəxsiyyətinin kəsişdiyi yaradıcılıq məqamları ilə müqayisə etməklə sübut edir. Böyük sənətkarın bədii-dramaturji dünyagörüşünü formalaşdıran amillər və ideyalar dünyası, sənətkarın bədii-fəlsəfi və estetik-nəzəri kəşflərini sərištəli qələm adamı kimi təhlil edir.

K.Əliyev haqlı olaraq yazır ki, H.Cavidin mənsub olduğu romantizm bir ədəbi cərəyan kimi mürəkkəb xarakterə malik olduğuna görə müxtəlif və mübahisəli fikirlərin meydana çıxmasına səbəb olmuşdur (3, s. 50).

K.Əliyev kitabın xeyli hissəsini Hüseyn Cavid dramaturgiyasının əsaslı şəkildə araşdırılmasına həsr edir. Və yuxarıda bildirdiyimiz kimi, Cavidin "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam" kimi əsərlərinin bir sıra keyfiyyətlərinin təhlilinə diqqət yetirir. Bu əsərlərdən hər birinin yazılma tarixçəsini, nəşr olunduğu yeri, struktur-kompozisiya xüsusiyyətləri, mövzu-məzmun özəlliyi, aparıcı obrazlar və

qəhrəmanların səciyyəvi keyfiyyətlərini ortaya çıxarıb, xronoloji baxımdan öyrənilməsinə yer ayırır.

Əsərdə K.Əliyevin Hüseyn Cavidin publisistik fəaliyyətinə yer verməsi də yetərincə məntiqə sığışandır. Eyni zamanda bu şəbəkəyə aid olunan "Təəssüf", "Naxçıvanda nə gördüm?", "Naxçıvana nə lazım", "Nakamlıq", "Mirzəbala Abdulla Məmmədzadə, yaxud A.Sur, ya Abdulla Tofiq", "Böyük xəsran", "Müharibə və ədəbiyyat" və s. məqalələrin təhlili də maraqlı və cəlbedici görünür.

Bu məqalələrin təhlilindən də görmək olur ki, H.Cavid, doğrudan da bütün səy və bacarıqlarını vətənə, xalqa, onların qorunmasına və inkişafına həsr etmişdir. Tədqiqatçı Cavid publisistikasının mahiyyətinə ekskurs edərkən onun ədəbi-bədii yaradıcılığı ilə sıx bağlı olduğunu müəyyənləşdirmiş, orada irəli sürdüyü fikirlərin bir sırasının pyeslərində daha davamlı şəkildə inkişaf etdirdiyini söyləmişdir. Yeri gəlmişkən qeyd edək ki, H.Cavidin görkəmli sənətkar kimi publisistik məqalələrində ədəbi-tənqidi sözə dair irəli sürdüyü mülahizələr bu gün də aktuallığını saxlamaqdadır.

Prof. Kamran Əliyev H.Cavid yaradıcılığına kompleks şəkildə münasibət ortaya qoyarkən bu yaradıcılığın ən mühüm cəhəti kimi onun məkan amili ilə bağlı olduğunu söyləyir. Onun dramaturji amalı üçün məkan rolunda bütün dünya götürülür, yəni bu dünya Dərbənd, Gürcüstan, Qafqaz, Nişapur, Səmərqənd, Buxara, Türküstandan tutmuş Hindistan, Ərəbistan, Bursa, İstanbul, Yaxın və Orta Şərq, Almaniya, Fransa, İtaliya – bütövlükdə Avropadır. Bunlar Cavid əsərlərinin zəngin və təsəvvür edilməyən coğrafiyasıdır. Kamran Əliyev də bu zəngin coğrafiyanın müxtəlif tərəflərini ustalıqla açmağı bacarmaqla özünün səriştəli tədqiqatçı olduğunu sübut etmişdir.

## QAYNAQLAR

1. Alışanlı Ş. Hüseyn Cavid irsinin görkəmli tədqiqatçısı (Əliyev K. Hüseyn Cavid (Əsərləri 10 cilddə, 3 c., Bakı, "Elm və təhsil", 2018, s. 4-6

2. Əliyev K.Hüseyn Cavid (Əsərləri 10 clddə, 3 c.). Bakı, “Elm və təhsil, 2018, 450 s.
3. Əliyev K. Əsərləri. 10 cilddə, 5 c. Bakı, “Elm və təhsil”, 2018, 556 s.

# KAMRAN HAQQINDA BİR NEÇƏ SÖZ

**Rza XƏLİLOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*Klassik folklor şöbəsinin müdiri*

2020-ci il dekabr ayının 23-də AMEA Folklor İnstitutunun kollektivi başda olmaqla respublikanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Gözəl, səmimi insan və vətəndaş, tanınmış ədəbiyyatşünas və folklorşünas alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran İmran oğlu Əliyev ömrünün 67 yaşında gözlənilmədən vəfat etmişdir. Artıq neçə gündür ki, biz – Kamran Əliyevin iş yoldaşları bu ağır itkinin sarsıntı və üzüntüsünü yaşayırıq.

Azərbaycan filologiya elmi Kamran Əliyevin şəxsində tanınmış ədəbiyyatşünas və folklorşünas alimi itirmişsə, onun iş yoldaşları, onu tanıyanlar isə səmimi dost və etibarlı insanı itirmişlər.

Mən Kamran Əliyevlə 1983-cü ildə Ədəbiyyat İnstitutunda tanış oldum. Belə ki, o, 1979-cu ildən burada işləməyə başlayanda mən 1978-ci ilin iyun ayında SSRİ-nin Xarici İqtisadi Əlaqələr üzrə Dövlət Komitəsinin təqdimatı ilə artıq Yəmən Ərəb Respublikasının paytaxtı Sana şəhərində Sovet səfirliyinin iqtisadi işlər üzrə müşavirinin yanında baş tərcüməçi işləyirdim. 1982-ci ilin sonlarında Yəmən Ərəb Respublikasından Bakıya qayıtdıqdan və Ədəbiyyat İnstitutunda yenidən işləməyə başlayandan sonra onunla tanış oldum. Artıq bu vaxt Kamran Əliyev institutda savadlı, nəzəri cəhətdən hazırlıqlı, çalışqan bir elmi əməkdaş kimi tanınır və hörmət sahibi idi.

Kamran Əliyevin elmi yaradıcılıq yoluna baxarkən onun bu yolda bütün pillələrdən, əgər belə demək mümkünsə, hər dəfə daha yüksək mərtəbəyə, statusa qalxmaq üçün, yüksəlmək üçün onun elmi inisiasiyalardan uğurla keçdiyinin şahidi oluruq.

Elmi fəaliyyətə romantizmlə bağlı müxtəlif problemlərin – “XX əsr Azərbaycan romantiklərinin ədəbi nəzəri görüşləri (1905-1977-ci illər)” və daha sonra “XX əsr Azərbaycan romantizminin obrazlar sistemi” mövzularını, problemlərini araşdırmaqla başlayan K.Əliyevin çoxşaxəli məhsuldar elmi fəaliyyətinin şahidi oluruq. Onun “XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri”, “Sədərək döyüşləri”, “Hüseyn Cavidin şəxsiyyəti və poetikası”, “Cavid möcüzəsi”, “Azərbaycan romantizminin poetikası”, “Azərbaycan romantizminin nəzəriyyəsi”, “Hüseyn Cavid: həyatı və yaradıcılığı”, “Abbas Zamanov olmasaydı”, “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu”, “Tənqidin poetikası”, “Ədəbiyyat tarixinə bir baxış”, “Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar”, “Çağdaş folklorşünaslığın problemləri”, “Açıq kitab – Dədə Qorqud” əsərləri filoloji elmimiz üçün son dərəcə əhəmiyyətli olmaqla bərabər onun elmi fəaliyyətinin, yaradıcılığının istiqamətlərini də göstərməkdədir. Burada sadalananlar onun elmi əsərlərinin kiçik bir hissəsini təşkil etməklə yanaşı onun çoxşaxəli və məhsuldar elmi fəaliyyətinin şahidi oluruq. Bu da öz əksini 25 kitab və 10 monoqrafiyada, 300-dən artıq elmi məqalədə tapmışdır. Yeri gəlmişkən göstərməliyik ki, 2018-2019-cu illərdə onun seçilmiş əsərlərinin 10 cildliyi çap edilmişdir. Kamran Əliyevin “Çağdaş folklorşünaslığın problemləri” adlı əsəri onun elmi yaradıcılıq, araşdırma kredosunu, prinsipini əks etdirir. Hər hansı bir məsələ ilə bağlı problemi axtarıb üzə çıxarmaq, araşdırmaqla olan aydınlatmağı K.Əliyevin elmi yaradıcılıq prinsipidir!

Kamran Əliyevlə görüşlərimizdən məndə belə bir təsəvvür yaranmışdı ki, romantizm və folklor, folklorda romantizm məsələsi onu artıq düşündürməyə başlamışdı. Ola bilsin ki, onun bu problemlə bağlı müəyyən planları da var idi. Görəsən, folklor məkanında romantizmin özünəməxsus çalarları ola bilərdimi?

Kamran səmimi bir insan idi, zarafatı da səmimi idi. Xatırlayıram ki, bir neçə il bundan əvvəl biz rəhmətlik İsrafil müəllimlə “Azərbaycan folklorunun ilkin nəşrləri” seriyasına başlamışdıq və bu seriyadan bir neçə kitab, kitabça da hazırlayıb çap

etdirmişdik. Onunla insitutun girişində qarşılaşanda o, mənə gülümsəyərək dedi:

- Rza yaz, durma yaz, yaza yaz, quşa yaz və i.a.

Mən də cavabında dedim:

- Kamran, qardaş, yazacağam Allahın köməyilə.

Bir xeyli müddətdən sonra yenə onunla görüşəndə ona dedim:

- Kamran, sənin xeyir-duandan sonra yavaş-yavaş yazmağa başladım. Amma qələm tutan barmağım da yazmaqdan əyri qaldı!

O, çox təəccüblənib dedi:

- Rza, barmağını göstər bir baxım.

Dedim:

- Kamran, narahat olma, artıq düzəlib.

Kamran belə insan idi...

Kamran, rəhmətlik Məmmədhüseyn müəllim demişkən sən haqq dünyasındasan, biz nahaqq dünyada. Sən hər zaman dostlarının, tanışlarının, iş yoldaşlarının xatirində qalacaqsan. Çünki sən həmişə dostcanlı olmusan, hamıya kömək etməyə, yardım əlini uzatmağa hazır olmusan, yalnız özünü düşünməmisən. Allah sənə rəhmət eləsin!

# KAMRAN ƏLİYEV: “ROMANTİZMİN NƏZƏRİYYƏSİ” KİTABI HAQQINDA

# KAMRAN ALIYEV: ABOUT THE BOOK “THEORY OF ROMANTISM”

# КАМРАН АЛИЕВ: О КНИГЕ «ТЕОРИЯ РОМАНТИЗМА»

**Səba NAMAZOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Gəncə Dövlət Universiteti*
*seba8080@mail.ru*

**Özət**

Görkəmli ədəbiyyatşünas Kamran Əliyev romantik üslubun ən məhsuldar və yorulmaz tədqiqatçısıdır. Onun zəngin elmi yaradıcılığında ədəbi proseslərə ciddi şəkildə diqqət yetirilmişdir. Azərbaycan romantizminin aktual problemlərinin tədqiqi, həmçinin təşəkkül və formalaşma mənbələrinin ilk dəfə sistemləşdirilməsi, o cümlədən romantiklərin ədəbi-nəzəri görüşlərinin araşdırılması, XX yüzillikdə Azərbaycan romantizm poetikasının incəliklərinin müəyyən edilməsi bilavasitə professor Kamran Əliyevin adı ilə bağlıdır.

“XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri” (1985), “Hüseyn Cavidin şəxsiyyəti və poetikası” (1997), “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər” (1998), “Cavid möcüzəsi” (2002), “Azərbaycan romantizminin poetikası” (2002), “Azərbaycan romantizminin nəzəriyyəsi” (2006), “Romantizm və folklor” (2006), “Hüseyn Cavid: həyatı və yaradıcılığı” (2008), “Abbas Zamanov olmasaydı” (2011), “Eposun poetikası: Dədə Qorqud və Koroğlu” (2011), “Tənqidin poetikası” (2012) monoqrafiyaları Kamran Əliyevin uzunmüddətli, sistemli tədqiqatlarının nəticəsidir. Professor Kamran Əliyev, eyni zamanda Azərbaycan romantizmi və folklor probleminin elmi tədqiqinin də yaradıcısıdır. Kamran müəllimin fundamental araşdırmalarının sayəsində ümumilikdə Azərbaycan ədəbiyyatşünaslıq elminin ən mənalı səhifələri yazılmışdır.

**Açar sözlər:** romantizm, ədəbiyyatşünas, araşdırma, yaradıcılıq, poetika

**Summary**

Prominent literary critic Kamran Aliyev is the most productive and tireless researcher of the romantic style. In his rich scientific work, serious attention was paid to literary processes. The study of current problems of Azerbaijani romanticism, as well as the first systematization of sources of formation and formation, as well as the study of literary-theoretical views of romantics, the identification of the subtleties of Azerbaijani romantic poetry in the twentieth century is directly related to Professor Kamran Aliyev.

“Literary-theoretical views of XX century Azerbaijani romantics” (1985), “Personality and poetics of Huseyn Javid” (1997), “From Mirza Fatali to Huseyn Javid” (1998), “Javid miracle” (2002), “Poetics of Azerbaijani romanticism” ( 2002), “Theory of Azerbaijani Romantism” (2006), “Romanticism and Folklore” (2006), “Huseyn Javid: Life and Creativity” (2008), “If It Weren’t for Abbas Zamanov” (2011), “Poetics of the Epic: Dada Gorgud and Koroglu” (2011), “Poetics of Criticism” (2012) are the results of Kamran Aliyev's long-term, systematic research. Professor Kamran Aliyev is also the creator of the scientific study of the problem of Azerbaijani romanticism and folklore. Thanks to Kamran Muallim's fundamental researches, the most meaningful pages of Azerbaijan literary criticism were written in general.

**Key words:** romanticism, literary criticism, research, creativity, poetics

**Резюме**

Выдающийся литературовед Камран Алиев - наиболее продуктивный и неутомимый исследователь романтического стиля. В своей богатой научной работе серьезное внимание уделялось литературным процессам. Непосредственно исследование актуальных проблем азербайджанского романтизма, а также первая систематизация источников становления и становления, а также изучение литературно-теоретических воззрений романтиков, выявление тонкостей азербайджанской романтической поэзии XX века. связанных с профессором Камраном Алиевым.

«Литературно-теоретические взгляды азербайджанских романтиков XX века» (1985), «Личность и поэтика Гусейна Джавида» (1997), «От Мирзы Фатали до Гусейна Джавида» (1998), «Джавидское чудо» (2002), «Поэтика Азербайджанский романтизма» (2002), «Теория азербайджанского романтизма » (2006),« Романтизм и фольклор »(2006), «Гусейн Джавид: жизнь и творчество» (2008), «Если бы не Аббас Заманов»(2011). «Поэтика эпоса: Дада Горгуд и Короглу» (2011), «Поэтика критики» (2012) – результаты многолетних систематических исследований Кямрана Алиева. Профессор Камран Алиев также является создателем научного исследования проблемы азербайджанского романтизма и фольклора. Благодаря фундаментальным исследованиям Камрана Алиева в целом были написаны наиболее значимые страницы азербайджанского литературоведения.

**Ключевые слова:** романтизм, литературоведение, исследование, творчество, поэтика

Ədəbi-nəzəri fikrimizin son 40 illik inkişaf tarixi çağdaş ədəbiyyatşünaslığımızın görkəmli nümayəndəsi, Azərbaycan MEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Kamran Əliyevin adı və çoxsahəli fəaliyyəti ilə bilavasitə bağlıdır.

Olduqca məhsuldar yaradıcılığa malik olan professor Kamran Əliyev 300-ə yaxın elmi məqalənin, 20-dən artıq monoqrafiyanın müəllifidir. O, 70-dən çox dissertasiyanın opponenti olmuş, 12 doktorluq dissertasiyasına elmi rəhbərlik etmişdir. Kamran müəllim yüzlərcə dissertasiya, tədqiqat və kitablara rəy yazmış, bir çox əsərlərin elmi redaktoru olmuşdur. Bütün bu deyilənlər tanınmış alimin zəngin elmi tərcümeyi-halına işıq tutan olduqca maraqlı məqamlardır.

Ədəbiyyatşünaslıqla bağlı bir neçə elmi istiqamətdə mühüm tədqiqatların aparılmasında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyevin müstəsna xidmətləri vardır. Bu baxımdan onun "Romantizmin nəzəriyyəsi" kitabı da Azərbaycan romantizminin bir sıra qatlarına işıq tutmaqla yana-

şı, görkəmli alimin Azərbaycan filoloji elminə bəxş etdiyi ən dəyərli töhfəsidir.

Kamran Əliyev öz tədqiqatında Azərbaycan ədəbiyyatı tarixində XX əsrin başlanğıcının yeni bir çiçəklənmə dövrü olduğunu xüsusi qeyd etmişdir. Həmin dövrdə Azərbaycanın ümumilikdə ictimai həyatında olduğu kimi, ədəbiyyatşünaslıqda da dəyişikliklərin əmələ gəldiyini, qabaqcıl şair və yazıçıların bədii yaradıcılıqla məşğul olmaqla bərabər, ədəbi-nəzəri fikrin ən müxtəlif problemlərindən bəhs etdiklərini müəllif xüsusi vurğulamışdır. Kamran müəllim onu da qeyd edirdi ki, XX əsr Azərbaycan romantiklərinin əsərləri "milli sərvət" kimi artıq çoxdan mədəniyyət tariximizə daxil olmuşdur. Məhz bu səbəbdən də müəllif romantiklərin yaradıcılıqlarını, onların ədəbi-nəzəri mülahizələrini təhlil və şərh etməyi çağdaş ədəbiyyatşünaslığımız üçün zəruri hesab edərək son onilliklər ərzində bu sahədə romantizm və onun ayrı-ayrı problemlərinin tədqiqinin xeyli genişləndiyini, yeni məzmunlu bir sıra monoqrafiya və məqalələr yazıldığını diqqətə çatdırır.

Tədqiqat əsərində XX əsr Azərbaycan romantiklərindən Məhəmməd Hadinin, Hüseyn Cavidin, Abbas Səhhətin və Abdulla Şaiqin ədəbi fikirləri, elmi mülahizələri və nəzəri müddəalarını əks etdirən elmi-tədqiqat məqalələri və bədii əsərlərinin obyekt seçildiyini də müəllif məxsusi qeyd etmişdir. Kitabın qələmə alınmasında əsas məqsəd romantiklərin ədəbi görüşlərinin ideya-estetik şərhini vermək və bu görüşlərin qabaqcıl, mütərəqqi mahiyyətini izah etmək olduğu da ilk baxışdan oxucunun diqqətini cəlb edir.

Tədqiqat əsəri "Romantik dünyagörüş", "Romantik ədəbiyyat", "Romantik sənətkar", "Folklora romantik münasibət" adlı dörd bölməyə ayrılmışdır. İlk bölmədə ictimai-tarixi şərait və mətbuat, romantizmin təşəkkülü, klassik poeziya ənənələri, Şərq ədəbiyyatına münasibət, Qərb düşüncəsinə rəğbət, rus romantizminin təsiri, maarifçilik və romantizm, inqilabi demokratik fikir və romantizmə dair məsələlər hərtərəfli araşdırlmış, o xüsusda elmi qənaətlər ifadə olunmuşdur.

Burada bir fikir də önə çəkilirdi ki, "əslində də romantiklərin sənətə olan münasibətləri, tələb və çağırışları o yerdə qabarıq və canlı görünür ki, bunlar ictimai-mədəni hərəkatın elementlərinə çevrilirlər" [1, 59].

Monoqrafiyanın "Romantik ədəbiyyat" adlandırılmış ikin-ci bölməsində ədəbiyyat və həyat problemi, romantik tənqid və Sabir, romantizm və realizm, yeni ədəbiyyat uğrunda mübarizə, romantizmin müdafiəsi, bədii dil məsələsi diqqət mərkəzinə çəkilmişdir.

Müəllif qeyd edir ki, "gerçəkliyin bədii ədəbiyyatda inikası problemləri XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərinin mühüm tərəfini təşkil edir". Həmin məsələləri Kamran müəllim müasir nəzəri fikrin işığında nəzərə çatdırmış, XX yüzil Azərbaycan romantizminin sistem kimi mövcudluğunu geniş şəkildə şərh etmişdir.

Əsərin "Romantik sənətkar" adlanan növbəti bölümündə sənətkar və cəmiyyət, subyektə marağın səbəbi, romantiklərin vətəndaşlıq mövqeyi, yaradıcılıq sərbəstliyi, sənətkar və istedad, sənətkar şəxsiyyəti, bədii əsər və oxucu məsələlərinə ətraflı münasibət bildirilmişdir.

Monoqrafiyanın məzmunundan da göründüyü kimi, "XX əsr Azərbaycan romantizmi nəzəriyyəsində sənətkar taleyi və yaradıcılıq azadlığı konsepsiyası çox mühüm yer tutmuş və onların ədəbi-estetik fikrindən mühüm xətt kimi keçmişdir" [1, 134]. Müəllif bunun səbəbini, ilk növbədə, burjua həyat şəraitindəki mütərəqqi meyillərə qarşı yönəldilmiş hücumlara dözməmək idealında axtarırdı. Eyni zamanda o da vurğulanır ki, romantiklərin elmi-nəzəri fikirləri demokratik məzmun daşımış, sənətin xalqa xidmət etmək tezisinin işığında inkişaf etmişdir.

"Folklora romantik münasibət" başlıqlı sonuncu bölümdə isə müəllif qeyd edir ki, XX əsr Azərbaycan romantiklərinin, xüsusilə A.Şaiqin, A.Səhhətin, H.Cavidin ədəbi-nəzəri görüşlər sistemində Azərbaycan folklorunun bir çox aktual problemləri öz təhlilini tapmış, lirik el janrlarının yaranması, xalq şeiri üslubunun formalaşması, ayrı-ayrı janrların ideya-poetik xüsusiyyət-

ləri, yazıçı və folklor problemi, şifahi xalq ədəbiyyatı nümunələrinin yaranması və cilalanıb formalaşması, onların müəlliflik məsələsi kimi aktual problemlər romantiklərin əsas diqqət mərkəzlərində olmuşdur.

Digər tərəfdən, bu xüsusda müəllif qənaəti ondan obarətdir ki, "XX əsr Azərbaycan ədəbiyyatında romantiklərlə realistlər arasında olan münasibətlər öz problematikası ilə müasir ədəbiyyatşünaslıqda bir çox mübahisələrin mövzusu olmuş və olacaqdır" [2, 18].

Professor Kamran Əliyevin müəllifliyi ilə işıq üzü görmüş bu monoqrafiya XX yüzil Azərbaycan romantizminin ədəbiyyat tarixindəki mövqeyini, bu romantizmin özünəxas milli keyfiyyətlərini hərtərəfli şəkildə şərh edən fundamental bir tədqiqat əsəridir.

## QAYNAQLAR


1. Əliyev K. Romantizmin nəzəriyyəsi. Əsərləri, 10 cilddə, I cild. Bakı, "Elm və təhsil", 2018, 360 səh.
2. Əliyev K. Tənqidin poetikası. Bakı, "Elm və təhsil", 2012, 208 səh.

# KAMRAN ƏLİYEV: ŞƏXSİYYƏTİ VƏ BƏDİİ NƏSRİ

# KAMRAN ALIYEV: PERSONALITY AND FICTION

# КЯМРАН АЛИЕВ: ЛИЧНОСТЬ И ХУДОЖЕСТВЕННАЯ ПРОЗА

**Sevinc Kərim qızı ƏLİYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi*
*sevinc.k.aliyeva@gmail.com*

**Özət**

Tariximizdə qədimlərdən bəri davam edən əhəmiyyətli ənənələr sırasında elmə, mədəniyyətə xidmət xüsusi yer tutur. Kamran Əliyev də Azərbaycan ədəbiyyatında xüsusi xidməti olan mütəfəkkir alimdir. Tale və zaman onu elm uğrunda mübarizələrin qucağına atdı. "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri", "Hüseyn Cavidin şəxsiyyəti və poetikası", "Cavid möcüzəsi", "Azərbaycan romantizminin poetikası", "Azərbaycan romantizminin nəzəriyyəsi", "Romantizm və folklor", "Hüseyn Cavid: həyatı və yaradıcılığı", "Abbas Zamanov olmasaydı", "Eposun poetikası: Dədə Qorqud və Koroğlu" adlı monoqrafiyaların, orta və ali məktəb tələbələri üçün hazırladığı dərs vəsaitlərinin, bir sözlə, yüzlərlə elmi əsərin müəllifi olan Kamran Əliyevin elmi-bədii yaradıcılığı təkcə dünən və bu gün üçün deyil, eyni zamanda daim yenilənməkdə olan Azərbaycan ədəbiyyatşünaslığının perspektivləri üçün də mühüm əhəmiyyətə malikdir. O, yorulmaq bilməyən yaradıcı, məhsuldar ədəbiyyatşünas, folklorşünas olmaqla bərabər, öz fəaliyyətində hər zaman nəzəriyyə ilə praktikanın vəhdətini uzlaşdıran bir elm təşkilatçısı idi.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, Kamran Əliyev, alim, elmi fəaliyyət, bədii yaradıcılıq, folklor, yazılı ədəbiyyat, nəzəriyyə və praktika, romantizm

**Summary**

Service to science and culture among the valuable traditions that continue since ancient times in our history has a special place. Kamran

Aliyev is also a thoughtful scientist with special service in Azerbaijani literature. Destiny and time threw him into the embraces of the struggle for science. The authour of monographs called “Literary-theoretical views of the XX century Azerbayjani romantics”, “Personality and poetics of Huseyn Javid”, “Javid’s miracle”, “The poetics of Azerbaijani romanticism”, “The theory of Azerbaijani romanticism”, “Romanticism and folklore”, “Huseyn Javid: life and literary activities”, “If not for Abbas Zamanov”, “The poetics of the epos: Dede Gorgud and Koroglu” and the teaching aids for high school and university and so that the authour of hundreds of scientific works Kamran Aliev’s scientific-literary creativities are not only for yesterday and today, but also are important for perspectives of constantly updated Azerbaijani literary criticism. He was a science organizer who reconciled unity of theory and practice in his activites in addition to being a creativ, productive specialist in literature and folklorist in scientific research all the time by tireless.

**Key words:** Azerbaijani literature, Kamran Aliyev, scientist, scientific activity, literary creativity, folklore, written literature, theory and practice, romanticism

**Резюме**

Среди значимых традиций, сохранившихся в нашей истории с незапамятных времен, особое место занимает служение науке, культуре. Камран Алиев, также является ученым-мыслителем, имеющий особые заслуги в азербайджанской литературе. Судьба и время бросили его в объятия борьбы за науку. Автор монографий «Литературно-теоретические взгляды азербайджанских романтиков XX века», «Личность и поэтика Гусейна Джавида», «Очарование Джавида», «Поэтика азербайджанского романтизма», «Теория азербайджанского романтизма» (на русском языке), «Романтизм и фольклор», «Гусейн Джавид: жизнь и творчество», «Если бы не Аббас Заманов», «Поэтика эпоса: Деде Горгуд и Короглу», подготовленных для студентов средних и высших учебных заведений, одним словом, научно-художественное творчество Камрана Алиева, автора сотен научных работ, имеет важную роль не только для вчерашнего и сегодняшнего дня, но и для перспектив постоянно развивающейся азербайджанской литературной критики. Он был не только творческим, продуктивным литературоведом,

фольклористом, который, неустанно находился в постоянном поиске, но и организатором науки, согласовывавшей в своей деятельности единство теории и практики.

**Ключевые слова:** Азербайджанской литературе, Камран Алиев, ученый, научная деятельность, художественное творчество, фольклор, письменная литература, теории и практики, романтизм

**Mərhəmətli şəxsiyyət.** Hər zaman araşdırmalarımızda, müşahidələrimizdə də görürük ki, böyük və kiçikliyindən asılı olmayaraq hər xalqın varlığını təyin edən mühüm amillərdən biri də onun seçilmiş şəxsiyyətləridir, alimləridir. Bu söylədiklərimizin cavabını Kamran Əliyevin şəxsində də görə bilirik. Bir həqiqət bəllidir ki, insan həyatda çox şeyini itirir və itirdiyi hər şeyin yerini zaman doldurur. Təkcə birindən başqa. Bu da mənəviyyatdır, şəxsiyyətdir. Çünki mənəviyyatın, insanlığın, şəxsiyyətin yerini doldurmağa zaman belə acizdir. AMEA-nın müxbir üzvü Kamran İmran oğlu Əliyevi yaxından tanıyanlar, onun elmi və bədii yaradıcılığından xəbərdar olanlar bilirlər ki, o, həyatda hər bir insana nəsib olmayan alim, Azərbaycan ədəbiyyatşünaslığında özünəməxsus elmi məktəb yaradan şəxsiyyətlərdən biridir.

İnsanlara kömək etməklə özü də rahatlıq tapan Kamran Əliyevin ailəsinə və dostlarına faydası dəyəcək prinsipləri var idi. Belə ki, o, dostlarının narahatçılıqlarına qulaq asmağa hər zaman hazır olan insan idi. İnsanlar üçün fikir və düşüncələrinin nə dərəcədə real olub-olmayacağını öncədən məsləhətləri ilə başa salar, insanı düzgün addım atmağa yönəldərdi. Çünki o, ətrafında olan insanların xoşbəxt olmağını istəyir, ehtiyac duyulan heç bir məsləhəti dostlarından əsirgəmirdi. Axı dostlarının inamını qazanmaq onun üçün də böyük şərəf idi. Göründüyü kimi, təvazökarlıq, mülayimlik, xeyirxahlıq və səbir kimi ali xüsusiyyətlərə malik olan Kamran Əliyevin yazıçı olaraq bədii əsərləri də insanlara həyat eşqini tərənnüm edir, oxucularını sonsuz istəklər dünyasına aparır, gələcəyə səsləyir. İnanırıq ki, Kamran Əliyevin elmi-bədii fəaliyyəti zaman ötdükcə ölməzləşərək Azərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsinə çevriləcəkdir. Kamran Əliyevin son illərdə çap olunmuş on cilddən

ibarət olan əsərləri də bunun bariz nümunəsidir. Mənəvi irsimizi – folklor tariximizi yaşatmağı və gələcəyə çatdırmağı özünün böyük missiyası hesab edən Kamran Əliyev rəhbərlik etdiyi şöbənin kollektivini də buna səfərbər etməklə yazılı ədəbiyyatla xalq ədəbiyyatı arasında uçulmaz bir körpü tağı yaratmışdır. Prof. C.Qasımovun "Azərbaycan folkorşünaslığı və sovet totalitarizmi" əsərində sitat olaraq göstərdiyi Kamran Əliyevin aşağıdakı fikri də maraq doğurur: "...Sənətkar mənsub olduğu xalqın folklor irsinə müraciət edir, xalq yaradıcılığından səmərəli şəkildə qaynaqlanır. Belə olan halda bir bayatı, bir atalar sözü, bir nağıl süjeti də həm təzə həyat yaşayır, həm də zənginliyini, siqlətini yenidən təsdiq edir" (5, 498). Kamran Əliyevin bu fikirləri onun həm fəaliyyət yolunu müəyyənləşdirir, həm də elmi-bədii yaradıcılığında folklorumuzun yaşarılığı özünün tam rüşeymləri ilə ifadə olunur.

Ədəbiyyatşünas alim G.Pənahın "Şəxsiyyətlə yaradıcılığın vəhdəti" adlı əsərində belə bir fikrə rast gəlirik : "Elm yaşa baxmır və onun cazibəsi cavan, gənc, ahıl, yaşlı tanımır" (6, 4). "Zəhmətinizin bəhrəsi sizə sevinc gətirəcəkdir", – deyən Kamran Əliyev də ən çətin günlərində belə oxuyub-araşdırmaqla təsəlli tapan böyük şəxsiyyət idi. Bütün bunlarla bərabər, Kamran Əliyev həm də çox maraqlı tərəf müqabili və güclü erudisiyaya malik insan idi, sözün əsl mənasında böyük ziyalı, Azərbaycan ədəbiyyatşünaslıq elminin carçılarından idi. "Dərrakəli insanın ürəyi elm qazanar, – deyən Kamran Əliyevin bu fikirləri onun həyati gerçəkliyinin əsas tərəfi idi, hansı ki bunu dostlarına, ətrafındakı insanlara zaman-zaman aşılamağa çalışırdı. Kamran Əliyev elmi fəaliyyətimizdə rəhbərimiz olmaqla yanaşı, ictimai mühitdə də daima bələdçimiz, yol göstərənimiz idi. Haqqı var idi. Ona görə ki, həmişə qurmaq, yaratmaq eşqiylə yaşamış Kamran Əliyev elm aləminə təsadüfən gəlməmişdir. Öz müdrik fikirləri ilə ürəyimizdə dərin kök salan bu dəyərli şəxsiyyət hərdən sözlərimizin arxasında hansı hisslər gizləndiyini dərhal başa düşər, bizim üçün nəyin daha vacib olduğunu vurğulayar, deyərdi ki, çətin anlarda belə dərhal özünüzdən çıxmayın, insan-

lara qarşı səbir və anlayış göstərsəniz, münasibətiniz möhkəmlənəcək, hər kəslə dil tapacaqsınız. Demək, özünü insanlardan təcrid etməyən, dostlarının, doğmalarının qayğısına qalan, ən əsası tarazlığı qoruyub saxlayan Kamran Əliyevin həyatı və elmi fəaliyyəti əsl cəfakeşlik nümunəsi, həm də bir həyat məktəbidir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Kamran Əliyevin elmi-bədii irsi dəyərləndirildikcə, müstəqil və sistemli şəkildə təhlil olunduqca, alimin yaradıcılıq yolunun əhəmiyyəti də məlum olacaq. Düşünürük ki, araşdırmalarımız ədəbi-nəzəri tədqiqat baxımından önəm kəsb edəcək.

***"Dağlı məhəlləsi" hekayəsi.*** Qeyd edək ki, Kamran Əliyevin elmi-bədii irsinə ehtiram hissi olaraq ondan yadigar qalan əsərlərini bir daha vərəqləməyi özümüzə şərəf hissi kimi dəyərləndirə bilərik. Əsərlərinin təhlili professorun həm də insanlara yenidən tanıdılmasında mühüm rol oynayacağına inanırıq. Belə ki, Kamran Əliyevin "Dağlı məhəlləsi" hekayəsi insanın həyat eşqini, sədaqətini, tələbəlik illərinə məhəbbətini əks etdirir (3). Müəllifin hekayələri ona görə təbiidir ki, onlar hər şeydən əvvəl millidir, Azərbaycan ab-havasının məhsuludur. Bu zaman akademik N.Cəfərovun aşağıdakı fikirlərini qeyd etmək məqamı yaranır: "Azərbaycan nəsr təfəkkürü və ya nəsr yaradıcılığı mədəniyyəti ilkin mənbəyini qədim tarixə malik türk-Azərbaycan epos ənənələrindən alsa da, orta əsrlərdə Şərq – müsəlman təhkiyə-nəql texnologiyaları ilə xeyli zənginləşmiş, yeni dövrdən isə Qərb prozasının güclü təsiri əsasında formalaşmışdır (1, 12). Akademik N.Cəfərovun Azərbaycan nəsri haqqında söylədiyi bu fikirlərin bariz nümunəsi özünü Kamran Əliyevin nəsr yaradıcılığında da ifadə edir.

Hekayəni oxuduqca hiss edirsən ki, 70-ci illərin ab-havasını, ruhunu özündə yaşadan tələbəlik illərinin könüllərə ruh verən xatirələri öz təzəliyini və təravətini bu gün də qoruyub saxlayır. Dağlı məhəlləsi, "Tələbə hamamı", Höcətulla kişinin həyəti, Zeynəbin dükanı, Zibeydə xalanın təndirəsəri – hər biri tələbəlik illərinin qaynarlığının, tükənməz şənlik və dəlisov arzularının yadigarıdır. Düzdür, hekayədə də qeyd olunduğu kimi,

Yasamalda yerləşən bu məhəllə və obyektlərin bu gün qalıb-qalmaması bəlli deyil. Amma hekayədəki hadisələr oxucunu həyata, insana məhəbbət dolu keçmişə aparır, kədər və sevinc hissi ilə dolu olan tələbəlik xatirələrini dinləməyə dəvət edir.

Tələbəlik illərinin sadə və gözəl tərənnüm olunduğu bu hekayədən aydındır ki, "Tələbə hamamı" Dağlı məhəlləsinə tam başqa bir ləzzət qatırdı. Məhəllədə kirayənişin qalan tələbələr öz tanış-bilişlərinə qaldıqları yeri tapmaq üçün məhz həmin hamamı nişan verirdilər. Hamam da əslində tələbələrin hamamı kimi tanınırdı. Çünki Universitetin və Politexnikin yataqxanalarında qalan tələbələrin əsas hamamı bura idi. Hamamda həmişə tünlük olurdu. Hamama gələnlərin növbəsi azalmırdı ki, azalmırdı. Hamamda işləyən dolubədənli, bir az da ayağını çəkə-çəkə yeriyən bəstəboy, xoşsifət Sədulla kişi buraya gələn tələbələrin çoxunu adbaad tanıyırdı.

Hekayəni oxuduqca Sədulla kişi oxucuya da müsbət, xoş təsir bağışlayır. Sədulla kişi şən adam idi, həm də maraqlı danışmaq qabiliyyəti var idi. Əməlikamil məsləhətlər və zarafatlarla dolu söhbətlər edən Sədulla kişinin tələbələr arasında da böyük hörməti var idi. Hər dəfə böyük sevinc və qəhqəhə ilə hamama gedən tələbələr onu olduqca ləyaqətli adam hesab edirdilər. Yataqxanaları bir-birinə yaxın olan Politexnikin və Universitetin tələbələri aranı-araya qatıb tez-tez dalaşırdılar. Hər dalaşma bir bəhanə ilə baş versə də, Sədulla kişinin nüfuzu tələbələri sakitləşdirirdi. Prof. Rüstəm Kamalın təbirincə desək: "Kamran Əliyev müxtəlif obraz proyeksiyalarını qarşılaşdırır. Epik təhkiyənin istənilən komponenti – detalı, motivi, obrazın etnopoetik xarakterini açmağa çalışır" (2, 231).

Oxucunu məhəbbət dolu, acılı-şirinli tələbəlik illərinin qoynuna aparan hekayə Zeynəbin də ana nəvazişi ilə nurlanan tələbəlik həyatının xatirələrini dinləməyə dəvət edir. Belə ki, hekayədə Zeynəb tələbələrin əzab yükünü çiyinlərində daşıyan bir qadın-ana obrazıdır. Elə hekayədə də belədir ki, Zeynəb nisyə mal alan tələbələrə daha çox bağlanmışdır. Çünki Zeynəbə elə gəlirdi ki, bu uşaqlar olmasa, özü yetim qalacaq. Bunun da sə-

bəbi o idi ki, dul qalmışdı, tək-tənha yaşayırdı, heç kimi yox idi. Yaşadığı həyət müharibəyə gedib qayıtmayan ərinin mirası, dükan isə onun yadigarı idi.

Zeynəb zəif, miskin qadın deyildir. Həyatının məna və məqsədini yaxşı bilən Zeynəb odu öz içində yaratmış bir qadın idi. Hansı ki, həmin odun gücünə güvənərək tələbələrə nisyə mal verirdi. Tələbələr də Zeynəbə sədaqətli idilər, borclarını gec də olsa, gətirib verirdilər.

Höcətulla kişi isə bütün varlığı ilə milli adət-ənənələrimizə bağlı olan bir insandır. Buna görə də evində qalan kirayənişinlərinin – Şamama ilə Zeynalın görüşməsini qəbul edə bilmir. Öz mənəvi saflığı, həyat təcrübəsi, kirayənişinlərinə – tələbələrə qarşı qayğıkeşliyi, həssaslığı ilə seçilən Höcətulla kişi həm də hər şeydən əvvəl öz vicdanı qarşısında məsuliyyət daşıyırdı. O, özünün sanki Şamama və Zeynalın da valideynləri qarşısında məsuliyyət hissi daşıdığını hiss edirdi və kirayənişinlərinin hər bir hərəkətinin məsuliyyətini, cavabdehliyini öz üzərinə götürürdü. Məhz buna görə də həmin günün xoşbəxt mənzərəsini qəbul edə bilməyən Höcətulla kişini mənfi obraz kimi xarakterizə etmək düzgün deyil. Onun qəlbindəki həssaslıq Zeynalın evdən qovulmasına gətirib çıxartdı. Əsas dolanacağı kirayədən çıxsa da, Höcətulla kişi pulu belə düşünmədi, hətta axırıncı ayın pulunu belə istəmədi. Çünki insanda həssaslıq azalanda onun yerini biganəlik, laqeydlik tutur. Məhz təbiətən həssas və qayğıkeş olan Höcətulla kişi nəinki kirayənişin saxladığı tələbələrə, hətta qohumlarına belə laqeyd və diqqətsiz deyildi. Aşağıdakı fakt fikrimizə aydınlıq gətirir: "Hamamdan on-on beş addım o tərəfdə Höcətulla kişinin həyəti başlayırdı. Bu məhəllənin əsasını Höcətulla kişi qoyduğuna görə elə onun adı ilə də adlandırmışdılar. Əsasını deyəndə ki, bu yerlər vaxtilə bomboş imiş. Bakının ən uzaq nöqtələrindən hesab edilirmiş. Buralarda adammadam yaşamırmış. Höcətulla kişi özünün dediyi kimi itə-qurda beş-üç manat verib itlərin hürüşdüyü bu yerdə özünə ev tikdirmiş, ağac əkmiş və həyətin də ala-babat hasarlamışdı. Sonra kənddən-kəsəkdən gələn qohum-əqrəbasını da yavaş-yavaş ba-

şına yığıb əməlli-başlı məhəllə yaratmışdı. Əsas dolanacağı da həyətdə tikdiyi balaca otaqları tələbələrə kirayə verməkdən çıxırdı” (3, 6).

Qeyd etdiyimiz kimi, Kamran Əliyev hekayədə mahir rəssam fırçasına məxsus keyfiyyətlərlə Zeynalın tələbəlik illərini, həyat eşqini tərənnüm edir və oxucunu ağuşuna alaraq o dövrə – o zamanın tələbəlik illərinə səyahətə aparır, Zeynalın saf, sevgi dolu dünyasını, həyatını dolğun şəkildə açır. Ancaq Şamama obrazı əsərə başqa bir ab-hava qatır. Elə bir ab-hava ki, Şamamanın hərəkətləri həssas oxucuda təəssüf hissi oyadır. Çünki hekayəni oxuyanda görürük ki, ilk dəfə Zeynalla Zibeydə xalanın təndirəsərində tanış olan Şamamanı Zeynalın fərəh dolu baxışları heyrətə gətirmişdir. Hekayənin bir çox məqamlarından hiss olunur ki, Zeynal da Şamamaya biganə deyildi. O, Zeynalın təxəyyülündə yaradılmış sədaqətli bir qız surəti idi. Bu zaman belə bir sual yaranır ki, Şamama da qaldığı kirayənişin evini Zeynalla birlikdə tərk etməliydimi? Axı Şamama ilə görüşdüyünə görə Zeynal qovulmuşdu. Düzdür, Şamamanın Zeynalla birgə evi tərk etməyi adət-ənənələrimizin, xüsusən də Dağlı məhəlləsinin adətlərinin dar çərçivəsinə zidd idi. Bəlkə, Şamama da bunları nəzərə alaraq evi tərk etmədi. Bunlara görə Şamama obrazı ilk baxışda oxucuya müsbət obraz təsiri bağışlayır. Amma həssas oxucu üçün bu qəbuledilməzdir. Belə ki, Şamama ürəyinin səsi ilə hərəkət etsəydi, Zeynalın uğrunda cəsarət göstərsəydi müsbət qəhrəmana çevrilə bilərdi. Çünki hər dəfə Zeynalı görəndə gözləri parıldayan, Zeynalın qəlbini ələ alan Şamama bu vəziyyətdə heç nə edə bilməsə də, susmamalı idi. O, hər şeydən əvvəl Zeynalın düşdüyü durumu düşünməli idi. Nəzərə alaq ki, hər kəsin öz “məni” var və bu böyük həqiqətin əhəmiyyəti çətin durumlara düşəndə açılır. Hekayəni oxuyanda görürük ki, kirayənişin evindən qovularkən təəccüb dolu baxışlarıyla Şamamaya baxan Zeynalı naməlum bir hiss bürümüşdü, düşdüyü vəziyyətə cavab axtarırdı. Şamama isə Zeynala yaxınlaşıb astaca: “– Zeynal, evə gələndə gördüm ki, paltarların və kitabların həyətin ortasına tökülüb. Paltarlarını götürüb şifonerdən asmışam. Hö-

cətulla kişi deyib ki, dəftər-kitabını da götürüb burdan rədd olsun, gözlərimə görünməsin, axırıncı ayın kirayə pulunu da istəmirəm". Məsələnin bu yerində akademik M.Kazımoğlunun (İmanov) belə bir fikri yada düşür: "Nəsr mənfi və müsbət tərəfləri özündə birləşdirən insana müraciət etdikcə ədəbi tənqid bu meyli nə qədər alqışlayırsa, bir o qədər də ədəbi tənqiddə ideal qəhrəman həsrəti güclənir" (4, 182). Hekayəni təhlil etdikcə görürük ki, oxucu da özünün məhz ideal qəhrəman obrazını axtarır. Buna nə dərəcədə nail olur, təbii ki bu məqam oxucunun hekayəyə yanaşma prinsipindən, obrazlara baxış bucağından asılıdır.

Bir məqamı da vurğulayaq ki, əgər Şamama Zeynalla birgə kirayə evini tərk etsəydi, tələbəlik həyatından yadigar qalan səadət dolu bir ömür tapacaqdı. O, bunu bacarmadı. Çünki bu addımı atmaq üçün Şamamada Zeynala çata biləcək ürək, cəsarət yox idi. Beləcə, Zeynal kirayə yaşadığı evi tərk etdi. Yenidən yataqxanaya qayıtdı. Yolda hamamın qabağında oturmuş Sədulla kişi də salamını almadı. O gündən sonra Zeynəb də ona nisyə mal verməyi tərgitdi.

Yaranmış vəziyyətə digər baxış bucağından yanaşsaq, Zeynalın saf insanlıq sevgisində parlaya, işıqlana bilməyən Şamamanın bu cür addım atması Zeynalın xeyrinə oldu. Çünki dövründən, zamanından asılı olmayaraq, günlərlə duz-çörək kəsdiyi, özünə doğma sandığı bir insanın yolunda cəsarətli addım ata bilməyən bir qadın sabah Zeynalla birgə çiyin-çiyinə həyat yollarının əzablarına dözməyi də bacarmazdı. Zeynal isə kirayənişin evini tərk edəndə saf sevgisini, mərdliyini də özü ilə götürüb apardı.

**Nəticə:** Fikrimizin yekunu olaraq onu da xüsusi qeyd edək ki, Kamran Əliyevin hekayələrində insan özünü tapır, həm sevinir, xatirələrə qapılır, bəzi məqamlarda isə oxucu hadisələrə münasibət bildirərək xoş bir xatirə izi qalan mübahisə edir. Çünki müəllif hekayələrində həyatı ifadə edir, həyatı xatırladır, bir sözlə, sözlə həyatın rəsmini çəkir.

Kamran Əliyevin həm folklor, həm də yazılı ədəbiyyatda tutduğu mövqeyə nəzər yetirdikdə görürük ki, apardığımız tədqiqat işlərinin onun elmi-bədii irsinin öyrənilməsi baxımından əhəmiyyəti böyük olacaqdır. Təsadüfi deyil ki, Kamran Əliyev yalnız filoloqlar tərəfindən deyil, onu tanıyan müxtəlif sənət sahibləri tərəfindən də sevilir, hörmətlə yad edilir. İnanırıq ki, onun elmi-bədii fəaliyyəti, fikir və mülahizələri müəyyən həssaslıqla, elmi-nəzəri əsaslarla qələmə alınıb yenidən elm aləminə təqdim olunacaqdır.

**QAYNAQLAR:**


1. Cəfərov N. Ədəbiyyat söhbətləri / N.Cəfərov. Bakı: Elm və təhsil, 2018, 388 s.
2. Eposşünaslıq: problemlər, mülahizələr // Elmi redaktor: M.Kazımoğlu (İmanov). Bakı: Elm və təhsil, 2013, 256 s.
3. Əliyev K. Dağlı məhəlləsi ( hekayələr ) / K.Əliyev. Bakı: Elm və təhsil, 2017, 142 s.
4. Kazımoğlu (İmanov) M. Epos. Nəsr. Problemlər / M. Kazımoğlu (İmanov). Bakı: Elm və təhsil, 2012, 164 s.
5. Qasımov C. Azərbaycan folkorşünaslığı və sovet totalitarizmi / C.Qasımov. Bakı: Nurlan, 2011, 600 s.
6. Pənah G. Şəxsiyyətlə yaradıcılığın vəhdəti / G.Pənah. Bakı: Elm və təhsil, 2018, 176 s.

# KAMRAN ƏLİYEVİN FOLKLOR VƏ YAZILI ƏDƏBİYYAT ORBİTİ

# FOLKLORE AND WRITTEN LITERATURE ORBIT OF KAMRAN ALIYEV

# ОРБИТА ФОЛЬКЛОРА И ПИСЬМЕННОЙ ЛИТЕРАТУРЫ КАМРАНА АЛИЕВА

**Şəbnəm MƏMMƏDOVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*

**Özət**

Məqalədə AMEA Folklor İnstitutu Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, prof. Kamran Əliyevin ədəbi-tənqidi yaradıcılığında folklorla yazılı ədəbiyyat nümunələrinin qırılmaz qarşılıqlı münasibətləri öyrənilir. Məsələnin araşdırılmasını böyük alimin yazdığı və "Folklor kitabı"na daxil etdiyi ayrı-ayrı bölmələrin təhlili əsasında ortaya qoymuşuq. Kitabda təqdim olunmuş H.Cavid, S.Vurğun, Şəhriyar, M.P.Vaqif əsərlərinə istinad edilməklə müəllifin fikirlərinin çağdaş folklorşünaslıq və ədəbiyyatşünaslıq elmimiz üçün aktuallığı danılmazdır. Vaxtsız əcəl şöbəmizin rəhbərini bu dünyadan haqq dünyasına qovuşdursa da, K.Əliyevin əsərlərinin gələcək mütəxəssislər, tədqiqatçılar tərəfindən öyrəniləcəyinə ümidi artırır. Burada biz unudulmaz Kamran müəllimin geniş yaradıcılıq arsenalında olan aktual problemlərdən yalnız birinə toxunduq. Allahdan Kamran müəllimə rəhmət diləyirik.

**Açar sözlər:** Kamran Əliyev, folklor, yazılı ədəbiyyat, tədqiqatçı, klassika, təhlil, spesifik vasitə

**Summary**

In this article, we study the problems of folklore and written literature in the scientific work of professor Kamran Aliyev, who died prematurely. Throughout his career as a thoughtful researcher, K.Aliyev in many of his books scrupulously analyzes the relationship between oral and written literature based on the works of M.P.Vagif, G.Javid, M.Hadi, A.Sakhhat, A.Shaik, M.Shakhriyar and many others. Delving into the essence of the issue, K.Aliyev successfully establishes in which

works of Azerbaijani poets the relationship between folklore and written literature is clearly visible.
**Key words:** folklore, written literature, researcher, classics, analysis, specific tools

**Резюме**
В данном материале мы изучению подвергаем проблемы фольклора и письменной литературы в научном творчестве профессора Камрана Алиева, безвременно ушедшего из жизни. На протяжении всего творческого пути как вдумчивый исследователь К.Алиев во многих своих книгах скрупулезно анализирует взаимосвязи устной и письменной литературы на основе сочинений М.П.Вагифа, Г.Джавида, М.Хади, А.Саххата, А.Шаика, М.Шахрияра и мн.др. Углубляясь в суть вопроса, К.Алиев удачно устанавливает, в каких произведениях азербайджанских поэтов ярко просматривается взаимосвязь фольклора с письменной литературой.
**Ключевые слова:** Кямран Алиев, фольклор, письменная литература, исследователь, классика, анализ, специфический инструмент

2020-ci ildə AMEA Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, AMEA-nın müxbir üzvi, professor Kamran Əliyevin taleyi yarımçıq qaldı. Dekabr ayında tələbkar alim, qayğıkeş insan, səriştəli tədqiqatçı, folklor və yazılı ədəbiyyatın aktual problemlərini dərindən araşdıran Kamran Əliyev Haqq dünyasına qovuşdu. Kamran müəllim haqqında mənimçün keçmiş zamanda danışmaq çox ağırdı. Bu ağırlığı təkcə mən yox, şöbəmizin, institutumuzun əməkdaşları, Azərbaycan ədəbiyyatşünaslığının nümayəndələri, dostlar-tanışlar böyük təəssüf hissi ilə çəkməkdədilər. Kamran müəllimin çoxşaxəli alimlik fəaliyyətindən çoxları xəbərdardır. Onun əsərlərinin xeyli qismi, demək olar ki, şöbə əməkdaşlarının gözü önündə ortaya çıxmışdır. Son illərdə Kamran müəllim xüsusən daha intensiv işləyirdi. Azərbaycan dövrü mətbuatında ardıcıl olaraq nəinki sanballı məqalələrlə, Beynəlxalq konfraslarda düşündürücü materiallarla, həm də öz hekayə və povestləri ilə də çıxış edirdi. Və demək olar ki, Kamran müəllimin həm çoxsaylı elmi, həm də bədii

məqalələrinin ilk oxucusu da, elə biz, şöbə əməkdaşları olurduq. Hər yeni yazısının (istər bədii-publisistik, istərsə də nəzəri-tənqidi) nöqtəsini qoyduqdan sonra bizlərə də oxuyurdu və deyirdi ki, xoşunuza gəldimi? Bəzən şöbəmizdə Kamran müəllimin əsərlərinin maraqlı müzakirəsi də gedirdi. İndi əlimi qoynuma qoyub durmuşam ki, bundan sonra biz Kamran müəllimin nə asta səsini, nə də məsləhətlərini eşitməyəcəyik.

Kamran müəllimin ölüm xəbərini eşidəndə o qədər ağlamışdım ki, məni heç kəs ovundura da bilməmişdi. Ağlaya-ağlaya, hıçqıra-hıçqıra atam Nizami Tağısoya zəng edəndə o, nə qədər etdisə, mən özümü ovundurub, niyə hönkürdüyümün səbəbini də deyə bilməmişdim. Bu kədərli xəbər hisslərimi elə kilidləmişdi ki, sanki özümdə deyildim. Necə də üzüntülüdü bunların hamısı barədə düşünmək! Amma neyləyək?! Kimin əcəli harada tamamdırsa, onu nə özü, nə yaxınları, nə də başqaları bilir. Bu, bircə Ulu Yaradanın ixtiyarındadır. Eyni zamanda Kamran müəllimin yaşadığı ömrün illərinə nəzər saldıqda onun şərəf dolu, fəxarətverici bir ömür yolunun şahidi olursan. Çünki ali məktəbə daxil olandan ömrünün son günlərinədək işi-gücü yalnız mənbələrlə, materiallarla, kitablarla işləmək olub Kamran müəllimin. Yazıb-yaradıb, özündən sonra bu dünyada iz qoymağa müvəffəq olub Kamran müəllim. Şöbəmizdə əsərlərinin on cildliyi hazırlanırdı. 10 cildliyin 9-cu "Rəylər, müsahibələr" cildinin də məsuliyyəti mənim çiyinlərimdə olmuşdu (2). Hər cild də çapdan çıxan kimi ondan bir nüsxəsini müəllif imzası ilə atam prof. Nizami Tağısoya göndərərdi Kamran müəllim.

Prof. Kamran Əliyev çox həlim, yüksək insani keyfiyyətlərə malik şəxsiyyət idi. Hamı ilə elə sakit, ədəb-ərkanla, əxlaq qaydalarına riayət etməklə danışırdı ki, onun belə davranışı bizim üçün örnəyə çevrilirdi. İndi iş elə gətirib ki, mən bu sətirləri Kamran müəllim dünyadan köçdükdən sonra qələmə alıram. Kamran müəllim ömrü boyu folklorun və ədəbiyyatın elə bir mövzusu qalmayıb ki, onlar barədə öz mülahizələrini irəli sürməsin. Təkcə oncildliyinin 6-cı cildində folklor və eposun, folklorşünaslığın və eposşünaslığın, romantizmin, "Koroğlu" eposu-

nun, çağdaş folklorşünaslığımızın gələcəyi və s. məsələlərlə bağlı təfəkkürü iti tədqiqatçı nəzəri ilə təhlil olunmuşdur (1). Adını çəkdiyimiz kitaba yazdığı "Dəyanətli insan" başlıqlı ön sözdə AMEA-nın Folklor İnstitutunun direktoru və əsərin elmi redaktoru akad. Muxtar Kazımoğlu (İmanov) prof. Kamran Əliyevin yaradıcılığını yüksək dəyərləndirməklə qeyd edir ki, o, "XX əsrin əvvəlləri Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" mövzulu namizədlik dissertasiyasında Hüseyn Cavidin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Abdulla Şaiqin həmin vaxta qədər işıq üzü görməyən əsərlərini, o dövrə aid mətbuat səhifələrindən toplayıb araya-ərsəyə gətirdi, nəticədə sanballı bir elmi əsər ortaya qoydu (3, s. 3).

Akad. M.Kazımoğlu Kamran Əliyevin tədqiqatçılıq səriştəsi ilə bağlı daha sonra fikirlərini davam etdirərkən onun "XX əsrin əvvəlləri Azərbaycan romantizminin obrazlar sistemi" adlı doktorluq dissertasiyasını diqqət mərkəzinə çəkərək romantizmlə bağlı sanballı əsərlər müəllifi akad. Məmmədcəfər Cəfərovu, romantizmin digər tədqiqatçısı A.Hacıyevi yüksək dəyərləndirdiyindən, onun ədəbiyyatın müxtəlif mərhələləri, sahələri ilə bağlı çoxyönlü tədqiqatlarından söhbət açmış, məsuliyyətli işçi olaraq Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri kimi öz vəzifəsinin öhdəsindən layiqincə gəldiyindən, yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmasından bəhs etmişdir (3, s. 3-4). Hörmətli İnstitut direktorunun Kamran müəllim haqqında səsləndirdiyi fikirləri biz də dəstəkləyirik. Doğrudan da K.Əliyev məsuliyyətli və intensiv işləyən alimlərdən idi. Onun belə fəaliyyətini mən digər əsərlərinə söykənərək yox, sırf "Folklor kitabı"nda təqdim etdiyi "Folklor və yazılı ədəbiyyat" bölməsində topladığı "Məhəbbət əfsanəsi, faciə və dastan", "Hüseyn Cavid və xalq dramları", "Atalar sözləri və aforizmlər", "M.Şəhriyar və folklor", "M.P.Vaqif yaradıcılığında realist bədii təfəkkür və foklor", "Yazıçı və folklor problemi" altında verilmiş başlıqlara istinad etməklə sübut edə bilərəm.

K.Əliyev H.Cavidin dəyərli tədqiqatçılarındandır. Buna görə də böyük dramaturqun bütün əsərlərinə dərindən bələd olan araş-

dırmaçı H.Cavidin ayrı-ayrı folklor nümunələrinə, o cümlədən əfsanələrə yaradıcılığında böyük yer verməsindən, "Şeyx Sənan" faciəsində bunun daha görümlü olduğunu, Cavidin Sənanla bağlı mülahizələrindən, onun bu əfsanəyə xüsusi rəğbətindən, onu məhəbbət simvolu hesab etməsindən danışır (1, s. 167-168). Kamran müəllim təhlil apararkən Şeyx Sənanla Kərəm münasibətlərinə nüfuz etməklə xeyli yol qət etdiyini, buradakı hər iki qeyri-adi aşiqin bir-birinə yaxınlığından və doğmalığını təsdiq edən faktlardan, onların sevgi yolundakı sadiqliyindən, son nəticədə "Əsli-Kərəm" dastanı ilə "Şeyx Sənan" faciəsi arasında müəyyən paralellərin olduğunu ortaya çıxarmışdır.

Prof. K.Əliyev təhlillərini folklor və yazılı ədəbiyyat kontekstində davam etdirərkən xalq dramları ilə yazılı ədəbiyyatın bir-birindən qidalanmasında peşəkar teatrın da rolundan danışır və nümunə olaraq H.Cavidin "Topal Teymur" və "Səyavuş" pyeslərində xalq dramlarından peşəkarcasına istifadənin mühüm rola malik olduğunu göstərir (1, s. 183).

"Kosa-kosa" xalq dramında olduğu kimi, H.Cavidin "Səyavuş" pyesində də Kosanın mənfi surət olaraq sonda öldürüldüyünə diqqət çəkir, müəllifin görkəmli romantik şair və dramaturq olaraq əsatir və əfsanələrə, dini rəvayətlərə, xalq dramlarına müraciət edib, həmin obrazları təmsil edən söz və məfhumları, məqamları və mülahizələri əsaslı şəkildə arayıb axtarır. Bununla belə, tədqiqatçı H.Cavidin folklorla bağlılığını keçmişi idealizə etmək kimi nəzərdən keçirmir (1, s. 197-198).

Bu təhlilləri apararkən K.Əliyev folkloru poetik yaradıcılığın məhsulu hesab etməklə bütün hallarda folklorla ədəbiyyat və folklorşünaslıqla ədəbiyyatşünaslıq arasında mövcud olan əlaqələri də diqqət mərkəzində saxlayır.

Nəzərə almalıyıq ki, folklor və ədəbiyyat öz poetik növ və janrları baxımından qismən üst-üstə düşür. Eyni zamanda elə janrlar da vardır ki, onlar yalnız ədəbiyyat üçün spesifik olub bunların folklorda mövcudluğuna rast gəlmirik (məsələn, roman) və əksinə, deyək ki, folklor üçün səciyyəvi olan (məsələn, qarğış) yazılı ədəbiyyatda janr kimi təmsil olunmur. V.Propp

“Folklorun poetikası” kitabında vaxtı ilə yazırdı ki, janrların mövcudluğu faktı, onların təsnifatı, digər vəzifələrin və priyomların ümumiliyi onların hər birinin ədəbiyyatşünaslıqda və folklorşünaslıqda öyrənilməsini zəruri edir. Folklor nümunələrinin spesifik vasitələrinin (paralelizmlərin, təkrirlərin və s.), yaxud poetik dilinin (müqayisə, metafora, epitetlər) olması ilə yanaşı, onlar ədəbiyyatdakılardan fərqli olaraq başqa məzmunla doldurulmuşlar. Bunu isə yalnız ədəbi təhlil yolu ilə öyrənmək mümkündür (4).

Tanınmış tədqiqatçı V.Proppun mülahizələri ilə, zənn edirik ki, tanış olmamış deyildi. Elə buna görə də yazılı Azərbaycan ədəbiyyatı nümunələrində folklordan istifadəyə nəzər salarkən o, bu məsələləri də diqqət mərkəzindən kənarda qoymur. Bunu biz Kamran müəllimin “Atalar sözləri və aforizmlər” bölməsində S.Vurğunun “Komsomol poeması”nın “Qış gecəsi” adlanan birinci hissəsində yer almış elementlərə münasibət bildirilərkən yaxşı görürük. O, haqlı olaraq qeyd edir ki bədii ədəbiyyatda sənətkarın atalar sözlərindən istifadə etməsi, müəyyən məqamlarda onlardan bəhrələnmək məqsədi ilə özünəməxsus səciyyə daşıyır (1, s. 202).

K.Əliyev bədii ədəbiyyatın folklordan yaradıcı şəkildə yararlanmasını Nizaminin, Ə.Xaqaninin, H.Cavidin, S.Vurğunun əsərlərinə istinad etməklə öyrənib, atalar sözü və aforizmlərin müqayisəsini maraqlı şəkildə təqdim edir. Çünki yazıçılar bu tipli nümunələri əsərin elə məqamında işlədirlər ki, onlar həmin örnəklərə xüsusi dəyər gətirir.

K.Əliyev M.Şəhriyar və Vaqif lirikasında da folklor obrazlarından istifadəyə kifayət qədər yer verir. Qeyd edək ki, təkcə M.Şəhriyarın “Heydərbabaya salam” poemasında müəllifin istifadə etdiyi lirik misraların əksəriyyətindən məhz folklor qoxusu gəlir. Şəhriyar folkloru əsərə elə üzvi şəkildə daxil edir ki, oxucu onun əfsunu altında qalır. Folklor obrazlarının və atributlarının K.Əliyev tərəfindən əsaslı təhlili tədqiqatçıların folklor və yazılı ədəbiyyatın imkanlarını dərindən mənimsəməsi ilə bağlı olduğunu göstərir. Çünki Şəhriyarın poemada yalnız nağıl süjetləri

və motivləri deyil, həm də nağıl təhkiyəsini qabartdığı göz önündə dayanır (1, s. 211).

K.Əliyev M.P.Vaqifin yaradıcılığı ilə folklor bağlarını təhlil etdikdə orada xalq şeiri üslubunun, xalq deyim və ifadələrinin, adət və ənənlərinin, xalqın təbiətlə bağlı təsəvvürlərinə necə diqqət etdiyini görməyi və dəyərləndirməyi bacarır. Yazıçı və folklor probleminə toxunan K.Əliyev məsələni həm praktik, həm də nəzəri aspektlərdə aydınlaşdırmağa çalışarkən prof. B.Abdullanın "Yusif Vəzir Çəmənzəminli və folklor" monoqrafiyasının materiallarına söykənərək araşdırır.

K.Əliyev haqlı hesab edir ki, Y.V.Çəmənzəminlinin folklora dair nəzəri mülahizələri onların deyilməsindən 100 ildən artıq keçməsinə baxmayaraq, aktuallığını itirməyən mənbələrindəndir. Odur ki, prof. K.Əliyevin folklor və yazılı ədəbiyyata dair baxışlarının gələcəkdə yeni üfüqlərə gətirib çıxaracağına inanırıq.

**QAYNAQLAR**


1. Əliyev K. Folklor kitabı. Əsərləri 10 cilddə, IX c. Bakı, "Elm və təhsil", 2019, 432 s.
2. Əliyev K. Rəylər, müsahibələr. Əsərləri 10 cilddə, VI c. Bakı, "Elm və təhsil", 2019, 676 s.
3. Kazımoğlu (İmanov) M. Dəyanətli insan // Əliyev K. Folklor kitabı. Əsərləri 10 cilddə, IX c. Bakı, "Elm və təhsil", 2019, s. 3-4
4. Связь между фольклором и литературой. Связь между фольк… textologiya.ru

# KAMRAN ƏLİYEV ŞƏXSİYYƏTİNİN EPİK ƏNƏNƏ KONTEKSTİNDƏ DƏYƏRLƏNDİRİLMƏSİ

# EVALUATION OF KAMRAN ALIYEV'S PERSONALITY IN EPIC TRADITIONS CONTEXT

# ОЦЕНКА ЛИЧНОСТИ КЯМРАНА АЛИЕВА В КОНТЕКСТЕ ЭПИЧЕСКОЙ ТРАДИЦИИ

**Tahir NƏSİB**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*
*tahirnesibli@yahoo.com*

**Özət**

Humanitar elm sahələrinə xas olan saysız-hesabsız terminlərin, qəlibləşmiş söz birləşmələrinin ağırlığından sıyrılaraq müasir ədəbiyyatşünaslıqda, folklorşünaslıqda mürəkkəb elmi fikirləri sadə, anlaşıqlı dillə, öyrənmək istəyənlərin qavrayacağı tərzdə izah etmə üsuluna hər bir tədqiqatçı yiyələnə bilmir. Elmi dilin sadəliyi, gözəlliyi fikrin aydınlığı və tədqiqatçının qətiyyətinin göstəricisidir. Yəqin ki, Kamran müəllimin tədqiqatlarına çox və ya az səviyyədə münasibət göstərmiş araşdırıcılar, hər kəs onda bu istedadın olduğunu etiraf edərlər.

Elmi, mədəni, ədəbi sahələrdə tanınmış şəxsiyyətlərin həyatları üçün səciyyəvi olan təzadlı hallardan biri də onların fikirlərinin sadə izah edilməsinə görə ilk zamanlar ciddiyə alınmaması, əhəmiyyət verilməməsidir. M.Şəhriyarın, Ə.Vahidin, M.Təhmasibin yaradıcılığına münasibətdə belə vəziyyətlərə rastlanır. Bənzəri hal folklorşünas Proppun elmi fəaliyyəti, nəzəri fikirləri ətrafında baş vermişdir. Sonralar onun hansı nüfuzu qazanması bütün folklorşünaslara məlumdur.

Kamran müəllim davranışında, insanlarla münasibətində də sadə idi. Onun həm yazı tərzində, həm də davranışında olan sadəliyi xalq müdrikləri ilə müqayisə oluna bilər.

Kamran Əliyev görünüşcə dastan qəhrəmanlarını xatırladırdı.

Həyatda çox bacının tək qardaşı olan K.Əliyev elmə yeni qədəm qoyan nə qədər gəncin, xüsusən xanımların xeyirxah qardaşı idi. O, gözəl mənəvi-əxlaqi keyfiyyətləri ilə hami ruhları xatırladırdı.

Tədqiqatlarının əhatəsi, müraciət etdiyi mövzuların zənginliyi epik möhtəşəmlik təsiri bağışlayır.

Məruzədə Kamran müəllimin həyat və fəaliyyəti epik ənənə ilə müqayisədə təqdim olunmuşdur.

**Açar sözlər:** ədəbiyyatşünaslıq, folklorşünaslıq, Kamran müəllim, M.Şəhriyar, Ə.Vahid, M.Ə.Sabir, M.Təhmasib, Propp

**Summary**

No any researcher may master the technique of explaining complex scientific thoughts in plain and understandable languages in a manner that may be perceived by learners by shaking themselves off the numerous terms and fortified word combinations typical of humanitarian fields of science. Simplicity and beauty of scientific language is the indicator of researcher's perseverance. The researchers who have had insight into Kamran Aliyev's researches to a certain extent may probably confess he has such a talent.

One of the paradoxical phenomena typical for lives of personalities well-recognized in the fields of science, culture, and literature is disregard and indifference to them for their simple explanation of thoughts initially. This is especially encountered in respect of the creative activities of M.Shahriyar, A.Vahid, M.Tahmasib and similar case repeated itself around the scientific activity and theoretical concepts of folklore specialist Prop. The way he earned prominence thereafter is well-known to all folklore specialists.

Kamran Aliyev was very plain in his self – conduct and interpersonal relationships. His plainness in his writing style and self- conduct may be compared to folk sages.

By his appearance, Kamran Aliyev reminded of saga heroes.

As a single brother of several sisters in life, M. Aliyev became a kind brother of many youngsters and especially ladies taking their first steps in science. By his beautiful moral qualities he was kind of a reminder of caring spirits.

The scope of researches and richness of the topics referenced to impart the sense of epic grander.

Kamran Aliyev's life and scientific activity was presented in comparison to epic tradition in the report.

**Key words:** literature study, folklore study, Kamran Aliyev, M.Shahriyar, A.Vahid, M.A.Sabir, M.Tahmasib, Propp

İnsan mənəviyyatına xas olan əsas gözəlliklərdən biri də sadəlikdir. Bu keyfiyyətə çox zaman müxtəlif elm sahələrində nüfuz qazanmış şəxsiyyətlərin öz fikirlərini izah etmə üsullarında rastlaşmaq olur. Etiraf edilməlidir ki, dərin, geniş elmi fikir hazırlığı olmayan insanların da qavrayacağı tərzdə nəql etmə bacarığına tədqiqatçıların çoxu nail ola bilmirlər. Bu cür istedada çatmaq üçün maneə törədən əsas səbəblərdən biri araşdırmanın həsr olunduğu elm sahəsinə aid həddən çox terminlərin, qəlibləşmiş söz birləşmələrinin var olmasıdır. Fikri terminlə yükləmək bir çox hallarda elmə yox, elməbənzərliyə xidmət edir. Bu, yazan üçün çətin yox, əksinə asan yoldur: müəllif həll edə bilmədiyi məsələni özünün terminbazlığı ilə ört-basdır edir. Elmi üslub sözsüz ki, terminsiz mümkün deyil, ancaq dili terminlər cərgəsi ilə sıralamaq gerçəyin açılmasından çox qapanmasına xidmət edir. Elmi dilin sadəliyi, aydınlığı elmi ünsiyyəti və faydalılığı artırır.

Həm xalq yaradıcılığına, həm yazılı bədii ədəbiyyata, həm də elmi qaynaqlara yaxından bələd olan alim ünsiyyət üçün yetərli ehtiyat toplayır. Ruhunda, yaddaşında bu üç mənbəni birləşdirən şəxs xalqa nələrisə anladanda sadəliyi seçir: "ən böyük müdriklik sadəlikdir", deyimində olduğu kimi. Türk klassik ədəbiyyatında Y.Balasaqunlu, M.Qaşqarlı, Y.Əmrə, Ə.Nəvai, Maxtumqulu və s. böyük şəxsiyyətlərin dərin fəlsəfi fikirlərinin bütün təbəqələrdən olan insanlar tərəfindən asanlıqla dərk edilməsinin, onlara xas olan ustalığın əsas səbəbi ancaq öz ana dillərinin hər bir incəliklərinə yiyələnmələrinə, xalqın mədəni kodlarını mənimsəmələrinə görə mümkün olmuşdur. N.Gəncəvi, Ş.Təbrizi, M.Füzuli, İ.Nəsimi həmin keyfiyyəti həm də ərəb, fars dillərində qoruyub yaratmışlar. Adları çəkilən dahilərin hər birinin əsərlərində türk mifologiyasına, inanclarına, xalq yaradıcılığı janrlarına aid olan kultlar, motivlər, süjetlər, elementlər və s. xüsusiyyətlər açıqca üstünlük təşkil edir. Adı çəkilən müəlliflərin əsərlərinə yalnız bədii mətn kimi baxmaq doğru deyil, onlar həm də elmi informativliyi ilə diqqət cəlb edirdilər. Təsadüfi deyil ki, Y.Balasaqunlu, Nizami Gəncəvi kimi böyük mütəfəkkirlərin

epik təhkiyyəsində alim, müdrik obrazları əhəmiyyətli yerə malikdir. Bu müəlliflər yaddaşlarda təkcə söz sənətindəki ustalıqlarına görə yox, həm də özlərinin müdrik obrazları ilə yaşayırlar.

Müasir folklorşünaslıq öz inkişafına, əhatə dairəsinə görə elə bir səviyyəyə çatmışdır ki, tədqiqatçı həmin və başqa sahələrə xas olan terminlərdən, qəlibləşmiş ifadələrdən istifadə etməsə çətinlik çəkər. Bu cəhətdən araşdırıcıların vəziyyəti nağıl, dastan söyləyicilərinin epik yaradıcılıq janrlarına, söyləyicilik mədəniyyətinə aid xüsusiyyətlərdən istifadə etmə bacarığı ilə müqayisə edilə bilər. Nağılçı, söyləyici epik, eləcə də başqa folklor janrlarının poetikasına nə qədər dərindən bələddirsə, söz ehtiyatı zəngindirsə, bir o qədər çox dinləyici qazanır. Tədqiqatçı da ünsiyyət qurmaq istədiyi təbəqəyə fikrini çatdırmaq üçün öz sahəsinə aid bilik və dil ehtiyatını qazanmağa, ədəbiyyatşünaslığa, folklorşünaslığa və bütünlüklə humanitar elm sahələrinə aid terminalogiyanı, onunla bərabər xalq və ədəbi dil xüsusiyyətlərini mənimsəməyə məcburdur. Son dövrlərdə interdisiplinar və multidisiplinar tədqiqatların aparılması, elmi metodların yaxınlaşması müxtəlif elm sahələrinə aid terminlərin ortaq işlənməsinə də yol açmışdır. Bunlar elmin müasirliyidir və süni mürəkkəbləşdirməyə, modabazlığa xidmət etmədikdə qarşıya qoyulan problemlərin aydınlığına xidmət edir. Çünki alimin elmi səviyyəsi həm də dərin elmi fikirləri ünvanladığı auditoriyaya çatdıra bilmə qabiliyyətindədir.

Elmi, mədəni, ədəbi sahələrdə tanınmış şəxsiyyətlərin həyatları üçün səciyyəvi olan təzadlı hallardan biri də onların öz fikirlərini sadə izah etmələrinə görə ilk zamanlar ciddiyə alınmaması, əhəmiyyət verilməməsidir. M.Şəhriyarın, Ə.Vahidin, M.Təhmasibin talelərində belə vəziyyət yaranmışdır. Bənzəri hal folklorşünas Proppun elmi fəaliyyəti, nəzəri fikirləri ətrafında baş vermişdir. Sonralar onun hansı ad qazanması bütün folklorşünaslara məlumdur.

Şüurlu canlı varlıq olan insan tam mənada öz saflığını həyatının iki dövründə göstərir. Körpəykən, hələ bir yaşına çatmamış uşaq əlində saxladığı nə varsa istəyənə düşünmədən verir. İkinci

dəfə mahiyyətcə eyni hal ahıllıq dövründə təkrarlanır. Artıq müdrikləşən insan onun üçün qiymətli olan maddi-mənəvi dəyərlərini təmənnasız başqalarıyla bölüşür. Sadəlik də belədir – insan sahib olduqlarını asanlıqla paylaşır. Kamran müəllim öz sadə dili, araşdırdığı problemlərin zənginliyi, üzərində işlədiyi mənbələrdən əldə etdiyi tapıntıların çoxluğu ilə alim və müdrik qoca obrazını özündə birləşdirir. Doğrudur, o, yaşlanıb qocalmadı. Epik ənənədəki müdrik şəcərəsinin davamçısı kimi el ağsaqqalı statusu qazandı.

Xalq deyimlərində söyləndiyi kimi, “barlı ağacın budaqları aşağı əyilər”, “yatağı dərin, suyu gur olan çay sakit axar”. Özünü, dünyanı dərk edən, sahib olduqlarını cəmiyyətə verməyə hazır olan insanlar da heç vaxt təşəxxüs göstərməz, ətrafındakılara yuxarıdan aşağı baxmaz. Kamran müəllim bu tip insanların canlı nümunəsi kimi yaddaşlarda əbədiləşdi.

Xalqa yaxın olan ziyalının dünyasını dəyişməsi cəmiyyət üçün böyük itkidir. Müstəqilliyimizin daxili, xarici çəkişmələrlə gərgin keçən yaxın onilliklərində xalqı həmişə ruhlandıran şairlərdən Xəlil Rza Ulutürkün, B.Vahabzadənin, M.Arazın dünyalarını dəyişmələri mənəviyyatımızda böyük boşluq yaratmışdı. Çatışmazlıqları indi də hiss olunur.

Folklor İnstitutunun elmi-ictimai həyatında yaxın illərdə İ.Abbaslı, T.Hacıyev, K.Əliyev səviyyəsində hörmətli alimlərin, ağsaqqalların itirilməsi də əməkdaşların hər birində eyni təsir yaradıb. Etiraf edilməlidir ki, hər nə qədər mənəvi toxtaqlıq üçün “həyat öz axarında irəliyə doğru davam edir” deyilsə də, əziz insanların yoxluqları daim özünü göstərir. Ancaq təsəlli onunla tapılır ki, özlərinin səviyyəsinə çatacaq gənc alimlər, mədəni şəxsiyyətlər yetiriblər.

Kamran müəllim elmi fəaliyyəti dövründə Azərbaycan şifahi, yazılı ədəbiyyatının, dilçiliyinin bir çox sahələrində elmi araşdırmalar aparmışdır. Tədqiqatlarında türk mifologiyasında, inanclarında, epik yaradıcılığında xüsusi məna daşıyan rəqəmlərə də geniş yer verib. Bu cəhətdən onun özünün çox bacının tək qardaşı olması da mifoloji-rəmzi məna daşıyır. Türk məna-

viyyatına, törələrinə, ailə qanunlarına görə qardaş bacıya, bacı qardaşa öz varlıqlarından yüksək dəyər verirlər. Bu xüsusiyyətin mənşəyi həm də birbaşa qədim baxışlarla, inanclarla əlaqəlidir. Şamançılıq mifologiyasının təsiri nəticəsində epik yaradıcılıqda qəhrəmanların qoruyucu ruhları səviyyəsində çox zaman "pəri bacılar" ("daqnisalar") çıxış edirlər. Qeserin ən çətin vəziyyətlərində həmişə "üç bacı"sı göydən enib kömək göstərir.

Yəqin ki, Kamran müəllimi yaxından tanıyanlar ona genetik cəhətdən xas olan və bacılarının bəslədikləri qardaş sevgisi nəticəsində daha da artan paklıq, xeyirxahlıq keyfiyyətinin ətrafdakılara daim xoş təsir bağışlamasını etiraf edərlər. Onun bu müsbət xüsusiyyətini, günəş şüalarını əks istiqamətdə bir yerə toplayan linzanın işığı, istisi kimi, eyni istiqanlıqla özünün müdiri olduğu şöbənin, institutun xanım əməkdaşlarına göstərdiyi münasibətdən də sezmək olurdu. Ailədə bacıların sevimlisi olan tək qardaş bütün institutun, şöbənin hörmət etdiyi, həmişə məsləhətləşdiyi ağsaqqala, qardaşa çevrilmişdi.

Dastan poetikasında qəhrəmanlar həmişə adi insanlardan seçilən keyfiyyətlərdə, xüsusiyyətlərdə təsvir edilirlər. İri cüssəli, qüvvətli yaradılan qəhrəmanlar düşmənə, haqsızlıqlara qarşı daim amansız olurlar. Zahiri görünüşlərinin əzəmətindən fərqli olaraq zəiflər, yoxsullar yanında alçaqkönüllülük edirlər, özlərini onların səviyyəsinə endirirlər. Təbiətən gülərüz, xeyirxah olan Kamran müəllim həm fiziki görünüşü, həm də mənəvi, əxlaqi saflığı cəhətdən belə insan idi. Ədəbiyyatşünaslıq, folklorşünaslıq, humanitar, eləcə də başqa elm sahələri haqda malik olduğu geniş, zəngin məlumatlarla yanaşı, həm də Kamran müəllimin dərin analiz-sintez etmə istedadı var idi. Bütün bunları xalq dilinə yaxın çox sadə, özünəxas təhkiyə üsulu ilə izah edirdi. Onun müsbət mədəni, elmi keyfiyyətlərini tədqiqatçıların fikirlərinə münasibət bildirəndə alicənablığına, qətiyyətinə görə seçilməsində də görmək olurdu.

Maraqlıdır ki, Kamran müəllim yaradıcılığında dastanlardan daha çox "Dədə Qorqud"a müraciət edib. Bu cəhətdən özünün də institutun elmi-ictimai həyatında Dədə Qorqudun rəmzinə

çevrilməsi, hər kəsə mənəvi dayaq olması, yol göstərməsi təsadüfi sayılmamalıdır. Nağıl, dastan süjetlərində qəhrəmanlar çətin tapşırıqları yerinə yetirmək, sınaq mərhələlərindən keçmək üçün yola düşəndə müdrik ağsaqqalla, xeyirxah ruhla, dərvişlə qarşılaşırlar, onlardan düzgün məsləhət alırlar. Etiraf edilməlidir ki, yaşından asılı olmayaraq institutun hər bir əməkdaşı öz həyatlarında rastlaşdıqları çətinliklər zamanı az və ya çox səviyyədə Kamran müəllimin xeyirxah əməllərindən, məsləhətlərindən bəhrələnibdir. Kamran müəllim səviyyəsində ədəbiyyatşünasın, folklorşünasın yoxluğu bütünlüklə institut, elm aləmi üçün yeri dolmayacaq itkidir.

Kamran müəllim epik ənənənin yenidən doğulan qəhrəmanlarının gücünə malikdir – yazdığı əsərləri, yetişdirdiyi davamçıları və xeyirxah, hami ruhu ilə ...

# KAMRAN ƏLİYEVİN YARADICILIĞINDA ROMANTİZM VƏ EPOS MƏSƏLƏLƏRİ

# ROMANTICISM AND EPIC ISSUES IN THE WORKS OF KAMRAN ALIYEV

# ВОПРОСЫ РОМАНТИЗМ И ЭПИЧНОСТЬ В ТВОРЧЕСТВЕ КЯМРАНА АЛИЕВА

**Tahir ORUCOV**
*Filogiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*tahiroruclu@gmail.com*

**Özət**

Professor Kamran Əliyev Azərbaycan filoloji elm tarixində xüsusi üslubu, özünəməxsus dəst-xətti ilə tanınan, məşğul olduğu sahəni dərindən bilən dəyərli elm xadimlərimizdəndir. K.Əliyevin ədəbiyyat tariximizin müxtəlif, eyni zamanda az öyrənilmiş sahələrinə marağı hər zaman davamlı səciyyə daşımışdır. O, həmişə aktual olan elmi məsələlər barəsində vaxtında və eyni zamanda orijinal fikirlər, mülahizələr söyləmək xüsusiyyəti ilə də diqqət mərkəzində olmağı bacarmışdır.

Azərbaycan ədəbiyyatının və folklorşünaslığın mühüm problemlərinin öyrənilməsində müstəsna xidmətləri olan Kamran Əliyev, əsasən romantizm və epos problemlərinə həsr olunmuş qiymətli tədqiqatları, eləcə də yazılı ədəbiyyatla folklorun qarşılıqlı əlaqələrinə həsr edilən dəyərli əsərləri ilə elmi ictimaiyyət arasında tanınır. K.Əliyev bu monoqrafiya və kitablarında XX əsr Azərbaycan romantizminin ümumnəzəri mənzərəsini vermiş, o dövrün Azərbaycan romantikləri olan Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi görkəmli sənətkarların ədəbi-nəzəri görüşlər sistemini əhatəli və hərtərəfli şəkildə təhlil etmişdir.

Hər bir xalqın mövcudluğunun əsas göstəricisi və ən qiymətli sərvəti onun milli-mənəvi dəyərləri, folkloru, mədəniyyəti və milli kimliyidir. Bu anlamda professor K.Əliyevin folklora, o cümlədən epos məsələlərinə diqqəti hər zaman davamlı və ardıcıl xarakter daşımışdır. O, elm aləmində böyük marağa səbəb olan sonuncu monoqrafiyasında – “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu” əsərində Azərbaycan xal-

qının epik düşüncəsinin ən qiymətli abidələrindən olan "Dədə Qorqud" və "Koroğlu" eposlarının ayrı-ayrı məqamlarına aydınlıq gətirmişdir.

K.Əliyev bu monoqrafiyası ilə təsdiq etdi ki, "Dədə Qorqud" və "Koroğlu" eposları dönə-dönə öyrənilsə də, araşdırılsa da, onlara yenidən müraciət etmək, hər dəfə də yeni fikir və mülahizələr söyləmək mümkündür. Monoqrafiyada K.Əliyev vurğulayır ki, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının möhtəşəm abidələri olan "Dədə Qorqud" və "Koroğlu" eposları təkcə öz təşəkkül tapdığı dövrlərdə deyil, eyni zamanda çağdaş dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalır. K.Əliyev bu fikrini onunla əlaqələndirir ki, hər iki eposun poetikası çox zəngindir, əhatə etdiyi mövzu dairəsi, daşıdığı informasiya yükü böyük, tədqiqatçılar üçün açdığı imkanlar isə geniş və tükənməzdir.

**Açar sözlər:** Kamran Əliyev, romantizm, epos, Hüseyn Cavid, "Dədə Qorqud" eposu, "Koroğlu" eposu.

**Summary**

Professor K.Aliyev is one of the valuable scientists in the history of philological science of Azerbaijan, known for his special style, and deep knowledge of his field. K. Aliyev's interest in various, but also little-studied areas of our literary history has always been constant. Always able to be in the center of attention, always in a timely manner and at the same time expressing original ideas and opinions on topical scientific issues.

Kamran Aliyev, who has made an outstanding contribution to the study of important problems of Azerbaijani literature and folklore, is known among the scientific community mainly for his valuable research on the problems of romance and epic, written literature and folklore. K.Aliyev gave an overview of XX century Azerbaijani romanticism, comprehensively and comprehensively analyzed the system of literary-theoretical meetings of prominent Azerbaijani romantics of that time, such as Huseyn Javid, Mohammad Hadi, Abbas Sahhat, Abdulla Shaig.

The main indicator of the existence and most valuable wealth of any nation is its national and spiritual values, folklore, culture and national identity. In this sense, Professor K. Aliyev's attention to folklore, including epic issues, has always been continuous and consistent. Kamran Aliyev In his last monograph, which caused great interest in the world of science – "Poetics of the Epic: "Dada Gorgud" and

"Koroglu" – In monograph, he clarified some aspects of the epics "Dada Gorgud" and "Koroglu".

In this monograph, K.Aliyev confirmed that the epics "Dada Gorgud" and "Koroglu", although repeatedly studied and researched, it is possible to refer to them again, to express new ideas and opinions each time. In the monograph, K.Aliyev emphasizes that the great monuments of Azerbaijani culture and literature, the epics "Dada Gorgud" and "Koroglu" remain the foundation of our national spirituality, literature and art not only in their formation, but also in modern times. K.Aliyev connects this opinion with the fact that the poetics of both epics is very rich, the range of topics covered, the information load it carries is great, and the opportunities it opens for researchers are wide and inexhaustible.

**Key words:** Kamran Aliyev, romantizm, epos, Huseyn Javid, "Dada Gorgud" epic, "Koroglu" epic

**Резюме**

Профессор К.Алиев – один из ценных ученых в истории филологической науки Азербайджана, известный своим особым стилем, и глубокими познаниями. Интерес К. Алиева к разным, но и малоизученным областям нашей литературной истории всегда был постоянным. Он всегда умел быть в центре внимания, своевременно и в то же время высказывал оригинальные идеи и мнения по актуальным научным вопросам.

Кямран Алиев, внесший большой вклад в изучение важных проблем азербайджанской литературы и фольклора, известен в научном сообществе, прежде всего, своими ценными исследованиями проблем романа и эпоса, а также ценными трудами о взаимосвязи письменной литературы и фольклора. В этих монографиях и книгах К.Алиев дал обзор азербайджанского романтизма XX века, всесторонне проанализировал систему литературно-теоретических встреч выдающихся азербайджанских романтиков того времени, таких как Гусейн Джавид, Мохаммад Хади, Аббас Саххат, Абдулла Шаиг.

Главный показатель существования и ценнейшего богатства любого народа – его национальные и духовные ценности, фольклор, культура и национальная самобытность. В этом смысле внимание профессора К.Алиева к фольклору, в том числе и к эпическим, всегда было постоянным и последовательным. Кямран Алиев в своей последней монографии «Поэтика эпоса: «Дада Горгуд» и

«Кероглу», вызвавшей большой интерес в мире науки, он разъяснил некоторые аспекты былины «Дада Горгуд» и «Кероглу», одного из ценнейших памятников эпической мысли азербайджанского народа.

В этой монографии К. Алиев подтвердил, что былины «Дада Горгуд» и «Кероглу», хотя и неоднократно изучались и исследовались, но все же можно обращаться к ним снова, чтобы каждый раз выражать новые идеи и мнения. В монографии К.Алиев подчеркивает, что былины «Дада Горгуд» и «Короглу», являющиеся великолепными памятниками азербайджанской культуры и литературы, остаются основой нашей национальной духовности, литературы и искусства. К.Алиев связывает это мнение с тем, что поэтика обоих эпосов очень богата, круг освещаемых тем, информационная нагрузка велика, а возможности, которые открывает перед исследователями, широки и неисчерпаемы.

**Ключевые слова:** Камран Алиев, романтизм, эпос, Гусейн Джавид, эпос «Дада Горгуд», эпос «Кероглу»

İctimai-siyasi arenada, sənət aləmində, eləcə də elm, təhsil sahəsində tanınmış yaradıcı insanların istedadı, yaradıcılığı, elmi səviyyəsi və dünyagörüşü həmişə cəmiyyətdə diqqət mərkəzində olub. Belə insanların həyatı, xarakteri, şəxsiyyət kimi bütövlüyü, onların insani xüsusiyyətləri, həm də müasirlərinin onlar barəsində fikirləri tədqiqatçılar, eləcə də sadə insanlar üçün həmişə maraq kəsb edib. Heç kəsə sirr deyil ki, belə tanınmışların arasında eləlləri olub ki, onların yaradıcılığı insanlığını üstələyib, ya da insanlığı yaradıclığından önə keçib. Çox az tanınmışlar olub ki, yaradıcılığı ilə insanlığı üst-üstə düşsün. On beş ilə yaxın şəxsən tanıdığım tanınmış ədəbiyyatşünas, bu yaxınlarda dünyasını dəyişən Kamran Əliyev üçüncü qəbil insanlardan – yəni yaradıcılığı ilə insanlğı, şəxsiyyəti üst-üstə düşən nadir ziyalılarımızdan idi.

Professor K.Əliyev Azərbaycan filoloji elm tarixində xüsusi üslubu, özünəməxsus dəst-xətti ilə tanınan, zəngin, hərtərəfli elmi təxəyyülə malik olan, məşğul olduğu sahəni professional səviyyədə və dərindən bilən dəyərli elm xadimlərimizdən idi. Uzun illər boyu tanıdığım bu alimdə ötən illər ərzində əksər elm adamında müşahidə etmədiyim bir cəhəti özüm üçün müəyyən etmişəm: orijinal və maraqlı düşüncə sahibi olan Kamran Əliyev nədən ya-

zırsa yazsın – istər şifahi xalq ədəbiyyatından olsun, istər yazılı ədəbiyyatdan, fərqi yoxdur, – yazılarında hökmən bir yenilik, bir novatorluq, yeni bir fikir deməyə meyllilik hiss olunur. K.Əliyevin ədəbiyyat tariximizin müxtəlif, eyni zamanda az öyrənilmiş sahələrinə marağı hər zaman davamlı səciyyə daşımışdır. O, həmişə aktual olan elmi məsələlər barəsində vaxtında və eyni zamanda orijinal fikirlər, mülahizələr söyləmək xüsusiyyəti ilə də diqqət mərkəzində olmağı bacarmışdır.

Azərbaycan ədəbiyyatının və folklorşünaslığın mühüm problemlərinin öyrənilməsində müstəsna xidmətləri olan Kamran Əliyev çoxsaylı kitab, monoqrafiya və elmi məqalələrin müəllifidir. Bu əsərlər sırasında K.Əliyevin "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (Bakı, 1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (Bakı, 1997), "Mirzə Fətalidən Hüseyn Cavidə qədər" (Bakı, 1998), "Cavid möcüzəsi" (Bakı, 2002), "Azərbaycan romantizminin poetikası" (Bakı, 2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (Bakı, 2006), "Romantizm və folklor" (Bakı, 2006), "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (Bakı, 2008), "Abbas Zamanov olmasaydı" (Bakı, 2011), "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" (2011), "Tənqidin poetikası" (Bakı, 2012), "Ədəbiyyat tarixinə bir baxış" (Bakı, 2013), "Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar" (Bakı, 2013), "Açıq kitab – "Dədə Qorqud" (Bakı, 2015), "Çağdaş folklorşünaslığın problemləri" (Bakı, 2017) əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Kamran Əliyev əsasən romantizm və epos problemlərinə həsr olunmuş qiymətli tədqi-qatları, eləcə də yazılı ədəbiyyatla folklorun qarşılıqlı əlaqələrinə həsr edilən dəyərli əsərləri ilə elmi ictimaiyyət arasında tanınır. K.Əliyevin "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" (Bakı, 1985), "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (Bakı, 1997), "Mirzə Fətalidən Hüseyn Cavidə qədər" (Bakı, 1998), "Azərbaycan romantizminin poetikası" (Bakı, 2002), "Azərbaycan romantizminin nəzəriyyəsi" (Bakı, 2006), "Romantizm və folklor" (Bakı, 2006), "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" (2011), "Açıq kitab – "Dədə Qorqud" (Bakı, 2015) kimi monoqrafiyaları romantizm və

epos məsələlərinə, eləcə də yazılı ədəbiyyatla folklorun qarşılıqlı əlaqələrinə həsr edilən dəyərli tədqiqatlardır. K.Əliyev bu monoqrafiyalarında XX əsr Azərbaycan romantizminin ümumnəzəri mənzərəsini vermiş, o dövrün Azərbaycan romantikləri olan Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi görkəmli sənətkarların ədəbi-nəzəri görüşlər sistemini əhatəli və hərtərəfli şəkildə təhlil etmişdir. Kamran Əliyev vurğulamışdır ki, bu sənətkarların ədəbiyyata baxışları dövrün ictimai-siyasi hadisələrinin, həmin dövrdə baş verən ədəbi-mədəni fəaliyyətin təsiri altında olsa da, istiqamət baxımından bilavasitə romantizmin özü ilə, romantik metod və romantik üslubla əlaqədar olmuşdur.

K.Əliyev həmçinin göstərmişdir ki, XX əsr Azərbaycan romantiklərinin hər hansı bir məsələyə öz spesifik baxışları vardır. Bu baxışlar sistemi, heç şübhəsiz, onların dünyagörüşündən və mənsub olduğu romantizm ədəbi cərəyanından irəli gəlirdi. Bu kitablarda müəllifin XX əsr Azərbaycan romantikləri olan Hüseyn Cavid, Məhəmməd Hadi, Əli bəy Hüseynzadə, Abbas Səhhət, Abdulla Şaiq və başqa ədiblərin əsərlərindəki romantizm problemlərinə həsr olunmuş axtarışları öz əksini tapmışdır. Romantizmə həsr olunan monoqrafiyalarında Kamran Əliyev həm də XX əsr Azərbaycan romantizmini ayrı-ayrı sənətkarların ədəbi-nəzəri görüşləri, o cümlədən həmin ədiblərin spesifik yaradıcılıq xüsusiyyətləri səviyyəsində tədqiq etmişdir. Bütün bunlar isə alimin romantizm haqqında bitkin, tamamlanmış, bütöv bir baxışlar sisteminin yaranması ilə nəticələnmişdir.

Ancaq bununla belə, Kamran Əliyev qeyd edirdi ki, romantizmin aktual problemləri çoxdur. Bu problemlər içərisində kifayət qədər öyrənilməmiş məsələlərdən biri də romantiklərin folklorla əlaqəsidir. Buna görə də müəllif bu problemə ayrıca bir monoqrafiya – “Romantizm və folklor” kimi dəyərli bir tədqiqat əsəri həsr etmişdir (1). Bu monoqrafiyasında K.Əliyev romantizmi bütöv bir sistem kimi götürərək, onu Azərbaycan folkloru ilə müqayisədə öyrənmişdir. Müəllifin fikrincə, romantiklərin folklorşünaslıq görüşlərinə ötəri bir görüşlər kimi baxmaq kökündən səhv olardı. Kamran Əliyev apardığı tədqiqatlar nəticə-

sində bu qənaətə gəlir ki, XX əsr Azərbaycan romantikləri folklora münasibətdə də elə əsl romantiklər olmuşlar.

Azərbaycan romantiklərinin folklorşünaslıq görüşlərini səciyyəvi faktlar əsasında nəzərdən keçirən müəllif onların aktuallıq dərəcəsinə də toxunaraq yazmışdır: "...XX əsr Azərbaycan romantiklərinin estetik baxışları, o cümlədən folklora dair düşüncələri müasir dövrümüzün folklorşünaslıq nailiyyətlərindən heç də geri qalmır, əksinə, bugünkü elmi fikirdə onlardan bəhrələnmək faydalı olardı" (1, 15). Qətiyyətlə demək olar ki, "Romantizm və folklor" monoqrafiyası Azərbaycan folklorşünaslığının və ümumfiloloji düşüncəsinin aktual probleminə həsr olunmuş çox qiymətli tədqiqat əsəri olmaqla yanaşı, həm də bütövlükdə Azərbaycan folklorşünaslığının nailiyyətidir.

Azərbaycan ədəbiyyatının ən yaxşı, ən mütərəqqi ənənələrini davam və inkişaf etdirən, onu daha da zənginləşdirən qüdrətli söz ustalarından biri də Hüseyn Cavid olmuşdur. O, öz dərin məzmunlu əsərləri ilə Azərbaycanda milli şüurun inkişafında çox mühüm xidmət göstərmişdir. Dahi sənətkarın yaradıcılığındakı romantik əhvali-ruhiyyə, hər şeydən əvvəl, türk millətinin gələcəyinə olan sonsuz inamdan qaynaqlanırdı.

Çoxəsrlik Azərbaycan ədəbiyyatının XX əsr Azərbaycan romantizmi daha çox Hüseyn Cavidin adı ilə bağlıdır. Onun "Şeyx Sənan","İblis", "Xəyyam", "Səyavuş" və s. bu kimi əsərləri Azərbaycan dramaturgiyasında romantizmin bütün problematikliyi, ideya və məzmun xüsusiyyətləri ilə təzahür etdiyi əsərlərdəndir. Öz yaradıcılığı ilə H.Cavid Azərbaycan dramaturgiyasının mövzu sərhədlərini müxtəlif istiqamətlərdə genişləndirmiş, onu insani, humanist, nəcib və bəşəri ideyalarla daha da zənginləşdirmişdir. Onun ölməz əsərləri XX əsr Azərbaycan ədəbiyyatının mürəkkəb, çoxşaxəli və zəngin mühitində öz səsi və nəfəsi ilə seçilən mühüm bir ədəbi hadisə kimi bu gün də öz məna və əhəmiyyətini saxlamaqdadır.

Görkəmli dramaturq H.Cavid Azərbaycan ədəbiyyatı tarixində orijinal yaradıcılığı olan ədəbi simalardan biridir. Hüseyn Cavidin zəngin və parlaq yaradıcılığı, qeyri-adi istedadı və na-

kam taleyi daim böyük maraq doğurub. Bəlkə də Azərbaycan ədəbiyyatında xüsusi tədqiqata, geniş təbliğə Hüseyn Cavid qədər ehtiyacı olan ikinci bir yazıçı yoxdur. Bununla bağlı professor Yaşar Qarayevin fikrini yada salmaq yerinə düşər: "Bu gün belə obyektiv aynada, tarixi və elmi həqiqət güzgüsündə yenidən görünməyə Hüseyn Cavid qədər ehtiyacı olan ikinci böyük ədəbi simamız bəlkə də yoxdur".

Görünür, məhz bütün bunlara görə də professor Kamran Əliyevin dörd monoqrafiyası – "Hüseyn Cavidin şəxsiyyəti və poetikası" (Bakı, 1997), "Mirzə Fətəlidən Hüseyn Cavidə qədər" (Bakı, 1998), "Cavid möcüzəsi" (Bakı, 2002), və "Hüseyn Cavid: həyatı və yaradıcılığı" (Bakı, 2008) monoqrafiyaları Azərbaycan dramaturgiyasında orijinal dəst-xətti olan bir dramaturq, mənzum və romantik dramın yaradıcısı kimi unikal və şərəfli bir yer tutan H.Cavidin həyat və yaradıcılığına həsr edilmişdir. K.Əliyev bu monoqrafiyalarda H.Cavidin həyatının ayrı-ayrı məqamlarını, onun zəngin və parlaq yaradıcılığını təhlil etmiş, müəllifin əsərlərinin qısa məzmununu da oxuculara təqdim etmişdir. Bu baxımdan K.Əliyev H.Cavidə həsr edilən monoqrafiyalarında orijinal və təqdirediləndir. Müəllifin ayrı-ayrı mövzulara azərbaycançılıq, bütövlükdə "Böyük Turançılıq" ideologiyası zəminində yanaşma prinsipləri əsasında münasibət bildirməsi isə H.Cavidə həsr edilən tədqiqatların leytmotivi, ana xətti kimi qiymətləndirilə bilər (2; 3; 4).

Hər bir xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərləri, onun keçmişi və milli kimliyi, fikrimizcə, xalqın ən qiymətli sərvətidir. Hər bir xalq özünəməxsus, spesifik milli mənəvi dəyərlər sisteminə malikdir. Qlobal mənada bu milli-mənəvi dəyərlər hər bir xalqın, o cümlədən bizim xalqımızın da tarixi, dili, dini, adət-ənənələri, mentaliteti, mədəniyyəti, ədəbiyyat və incəsənətidir. Lokal anlamda isə milli-mənəvi dəyərlər xalqın keçmişinə, tarixinə ehtiram, öz milli "mən"ini yaşatmaq və ona hörmət etmək deməkdir. Bu anlamda professor K.Əliyevin elm aləmində böyük marağa səbəb olan sonuncu monoqrafiyası "Eposun poetikası: "Dədə Qorqud" və " Koroğlu" əsəri xüsusi dəyərə malikdir (5).

Bu əsər Azərbaycan xalqının epik düşüncəsinin ən qiymətli abidələrindən hesab olunan "Dədə Qorqud" və "Koroğlu" eposlarının ayrı-ayrı məqamlarına aydınlıq gətirməsi baxımından son dərəcə dəyərlidir. Bu da onunla bağlıdır ki, hər iki eposun poetikası çox zəngindir, əhatə etdiyi mövzu dairəsi, daşıdığı informasiya yükü böyük, tədqiqatçılar üçün açdığı imkanlar isə geniş və tükənməzdir. K.Əliyev bu monoqrafiyası ilə sübut etdi ki, "Dədə Qorqud" və "Koroğlu" eposları dönə-dönə araşdırılsa da, onlara yenidən müraciət etmək, hər dəfə də yeni fikir və mülahizələr söyləmək mümkündür.

Azərbaycan mədəniyyətinin və ədəbiyyatının möhtəşəm abidəsi olan "Dədə Qorqud" eposu təkcə öz təşəkkül tapdığı dövrlərdə deyil, eyni zamanda çağdaş dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalır. Azərbaycan tarixinin bütün milli-mənəvi dəyərlərini özündə birləşdirən bu qədim abidə elə bir enerji mənbəyidir ki, çağdaş milli mədəniyyət tariximizi bu epossuz təsəvvür etmək qeyri-mümkündür.

"Dədə Qorqud" eposunun milli mədəniyyət tariximizin dünəni və bugünündəki rolunu müdrikcəsinə "Milli varlığımızın mötəbər qaynağı" kimi səciyyələndirən dövlət xadimi Heydər Əliyevin söylədiyi kimi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir" (1, 8).

"Dədə Qorqud" eposu çağdaş dünya mədəniyyətinə "Kül tiqin" və "Bilqə kağan" dastan-dilogiyaları və s. abidələr kimi yazılı şəkildə çatan qədim türk eposudur. "Dədə Qorqud" nəhəng, eyni zamanda mükəmməl, sinkretik tarixi sənəddir: oğuzun bütöv bir tarixi olan qiymətli salnamədir. Bu epos həm də bədii əsərdir, şifahi yaradıcılıq nümunəsidir və yazılı ədəbiyyatdır. "Kitabi-

Dədə Qorqud" milli ədəbi düşüncənin başlanğıcı olduğuna görə şifahi xalq ədəbiyyatı nümunəsi olub, əvəzsiz bir folklor abidəsidir. Eposun Azərbaycan ədəbiyyatına təsiri elmi baxımdan "folklor və yazılı ədəbiyyat" problematikasına aid olduğu üçün o həm folklorşünasların, həm də ədəbiyyatşünasların daim diqqət mərkəzində olmuşdur. Bu cəhətdən Ə.Abid, H.Araslı, T.Hacıyev, B.Nəbiyev, Y.Qarayev, A.Nəbiyev, P.Əfəndiyev, N.Cəfərov, Ş.Cəmşidov, Q.Namazov, K.Abdulla, K.V.Nərimanoğlu və başqa dəyərli folklorşünas, ədəbiyyatşünas və dilşünas alimlər eposun məzmun və mündəricəsinə, obraz və motivlər sisteminə, poetik quruluşuna, kompozisiya sisteminə, bədii dilin semantik məna aləminə və s. təsiri haqqında qiymətli tədqiqatlar aparmış, dəyərli fikirlər söyləmiş, ideya və mülahizələr irəli sürmüşlər.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qiymətli əsərlərindən olan "Koroğlu" dastanı da ədəbi fikir tariximizin qiymətli yazılı salnamələrindəndir. Xalqımıza məxsus qəhrəmanlıq, vətənpərvərlik, humanizm, dostluq, qardaşlıq, qonaqsevərlik və başqa xüsusiyyətlər öz parlaq bədii ifadəsini bu dastanda tapmışdır. Mənəvi irsimizin möhtəşəm abidəsi, Azərbaycan poetik söz sənətinin – aşıq yaradıcılığının zirvəsi sayılan "Koroğlu" dastanı uzun onilliklərdir ki, respublika və dünya eposşünaslığının tədqiq obyektindədir.

"Dədə Qorqud" və "Koroğlu" eposları Azərbaycan xalqının epik düşüncəsinin ən möhtəşəm ədəbi-bədii təzahürlərindən hesab olunur. Bu eposlar çox qiymətli epik abidələr olduğundan, onlarda daşınan epik məlumatların çəkisi də olduqca böyükdür. "Dədə Qorqud" və "Koroğlu" eposları xalqın milli və mənəvi ehtiyatlarının çeşidli ünsürlərini özündə ehtiva edir. Bu mənada "Dədə Qorqud" və "Koroğlu" eposları epik məlumatlarının zənginliyi baxımından bütün digər oxşar abidələrdən fərqlənir.

Azərbaycan şifahi xalq ədəbiyyatının janrları içərisində epos və onun poetikası, eləcə də eposun araşdırılma problemləri, Azərbaycan folklorşünaslığında tədqiq aktuallığını itirməyən mövzulardandır. Monoqrafiyada "Dədə Qorqud" və "Koroğlu" eposları milli ədəbi düşüncənin ilkin mərhələsi və ilkin qaynağı

kimi götürülmüş, onun milli ədəbi fikrin inkişaf tarixindəki yeri və rolu öyrənilmiş və bu eposlar elmi-mədəni tərəqqimizin mühüm amillərindən biri kimi tədqiq olunmuşdur.

Professor K.Əliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyası iki hissədən ibarətdir: "Dədə Qorqud" və "Koroğlu". Monoqrafiyanın birinci hissəsində müəllif yeddi problem mövzu qoymuş və onları həll etməyə çalışmışdır:

1. Etnopoetika məsələləri.
2. "Dəli Domrul" boyu: təsadüf, yoxsa zərurət?
3. Çoban oğlu Təpəgöz.
4. Bayındır xanın nəvəsi Uruz.
5. Dirsə xan oğlu Buğac.
6. Oğuz elinin xanımları.
7. Beyrəyin qanlı köynəyi.

K.Əliyev "Dədə Qorqud" bölməsinin əvvəlinci hissəsini "Etnopetika məsələləri" adlandırmış və "etnopetika" termininə bir aydınlıq gətirməyə çalışmışdır. Alimin fikrincə, "etnopetika" anlayışı dünya elmi fikrində son dərəcə yenidir və bir elm kimi onun imkanları hələlik kifayət qədər öyrənilməmişdir. Eyni zamanda həmin anlayışın ehtiva etdiyi məna və məzmun hələ bu termin ortaya çıxmamışdan çox-çox əvvəl bir çox tədqiqatçıların diqqətindən yayınmamışdır. Müəllif sonra fikrini inkişaf etdirərək yazır:" Əslində etnopetika bədii düşüncə ilə etnosun təbiəti arasındakı əlaqə və təması öyrənən, bu əlaqə və təmasın xüsusiyyət və əlamətlərini meydana çıxaran bir elm sahəsi kimi qavranılır" (5, 3).

Daha sonra müəllif təhlillər və araşdırmalar nəticəsində doğru olaraq bu nəticəyə gəlir ki, folklor örnəkləri yazılı ədəbiyyatla müqayisədə "Etnopetika" müstəvisini dolğun ehtiva etmək üçün daha çox xammal ehtiyatlarına malikdir. Elə bu məntiqdən də çıxış edərək və çox haqlı olaraq professor Kamran Əliyev ən əski və ilk türk şeirinin köklərini "Dədə Qorqud" eposunda axtarmışdır. Müəllif F.Köprülüzadə, Ə.Abid və başqalarının fikirlərini, eləcə də öz qənaətlərini ümumiləşdirərək belə nəticəyə gəlir: "Ən qədim və ilk türk şeiri qoşa misralı şeirdir. Hətta vəzn baxımından da, ilk şeirin qısa şeirlər olduğu fikri tamamilə doğ-

rudur. Fikrini əsaslandırmaq üçün Kamran Əliyev folklorşünas Ə.Abidin belə bir fikrinə istinad edir: "Heca vəzni meydana çıxarkən əvvəlcə qısa ahənglər doğuran vəznləri vücuda gəlmişdir. Bu vəznlər üç ilə yeddi arasındadır. İlk dəfə qısa vəznlərin vücuda gəlməsi pək təbii idi. Çünki çox bəsit bir dərəcədə olan dil birdən-birə güc və mürəkkəb parçalı (duraqlı) vəznləri yaratmazdı" (7, 121). Maraqlıdır ki, Ə.Abid də "Heca vəzninin tarixi / Ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü" (məqalələr toplusu) kitabında da "etnopetika" anlayışından bəhs edir və belə yazır:" Vəzn dilin məhsuludur, hər ictimai zümrənin öz ilk şeirinə verdiyi ahəng dilinin ümumi ahəngindən ayrılan "ən saz-element"lər (ünsürlər) məcmuəsidir. Türklərin şeir musiqisini axtarmaq üçün nə Ərəbistanın qızğın çöllərinə, nə də İranın tozlu ovalarına getmək lazım deyildir; ibtidai sözlərin dilimizə çevrilməsi bunun fəlsəfəsini anlamaq üçün yetişər" – deyən "Dədə Qorqud" eposunu türk "Şeir musiqisinin" – "etnopoetikasının" qaynağı kimi "şeir tariximizin başlanğıcı olan vəznli nəsrin" əsas sənədi hesab etmişdir" (8, 471-472).

İnsanların dünyagörüşləri, həyat və zaman haqqında düşüncələri, təsəvvürləri artıb inkişaf etdikcə şeir də ikimisralılıqdan çoxmisralığa qədər inkişaf yolu keçmişdir. K.Əliyev də Azərbaycan etnofiloloji düşüncəsinin əvəzsiz nümunələrindən olan "Dədə Qorqud" eposundan gətirdiyi çoxsaylı və maraqlı nümunələr əsasında "Dədə Qorqud" şeirlərinin poetikasını bütün incəlikləri ilə tədqiq edərək qəti bir qənaətə gəlir: "Məhz qoşa atın yanaşı getməsi təsəvvüründən qoşa bənd – iki dördlük doğula bilərdi. Beləliklə, tam qətiyyətlə bildirmək olar ki, türk etnosu öz həyat tərzi, qəhrəmanlığı, fəaliyyət dairəsi və hətta o dünyası üçün ata borclu olduğu kimi, poetik təfəkkürünün formalaşması üçün də məhz ata borcludur" (5, 17).

Çünki Türk-Oğuz cəmiyyətində ata münasibət: "at oğuldur", "at qardaşdır", "at xilaskardır", "at qəhrəmandan üstündür" və s. kimi məsələlər daim aktual olmuş, həmişə Oğuz igidləri üçün həyati mahiyyət daşımışdır. Şərq xalqlarının inancında at daha çox

od və işıqla əlaqələndirilir və vurğulanır ki, at insanla daha çox doğmalaşıb və kişilərə arvadı və övladı qədər sevdirə bilmişdir.

Tarixdən məlumdur ki, oturaq həyat sürən xalqları köçəri atlı tayfaları narahat etməyə başlayandan sonra min il ərzində Şərqi Avropa və Mərkəzi Asiyada da atlar əhliləşdirilmişdir. Ən əski zamanlarda bu sirli heyvan çox hallarda ölülər aləmi ilə əlaqələndirilmişdir. Cəsədin at dərisinə bükülərək dəfn edilməsi adəti də həmin inama dayanmışdır. At qurban kəsmə ritualının Qafqazda – Azərbaycanda icra edilməsi barədə tarixin atası Herodot və Alban tarixçisi Musa Kalankatlı da məlumat vermişdir (9, 3).

Bir neçə onilliklərdir ki, ayrı-ayrı tədqiqatlarda, müxtəlif dərsliklərdə, monoqrafiyalarda "Dədə Qorqud" eposunda iki boyu – "Dəli Domrul" və "Çoban oğlu Təpəgöz" boylarını "süjetdənkənar", "yad", "qalan boylarla əlaqəsi olmayan" və s. Epitetlərlə oxuculara təqdim etmişlər. Məsələn, "Qədim və orta əsrlər ədəbiyyatı" kitabında "Dəli Domrul" boyu haqqında belə məlumat verilir: "Dəli Domrul" boyu məzmunu və səciyyəvi xüsusiyyətlərinə görə eposdakı digər boylardan ayrılır. Bu boyda bir nəfər də olsun Oğuz qəhrəmanının adı çəkilmir, habelə burada təsvir olunan əhvalat oğuzların tarixi, adət-ənənəsi, etnik xüsusiyyətləri ilə səsləşmir" (10, 32-33). Bu kimi fikirlər isə təbii olaraq, qorqudşünaslıqda bir çox mübahisələrə, fikir ayrılıqlarına və müxtəlif polemikalara səbəb olmuşdur.

Buna görə də Kamran Əliyev kitabın "Dədə Qorqud"la bağlı hissəsində əsas diqqəti yuxarıda qeyd olunan fikirlərə rəğmən, eposun poetik strukturunun bütöv və tam olmasına, eposda heç bir "süjetdənkənar"lığın olmaması və s. bu kimi çox vacib problemlərə yönəltmişdir. Burada müəllifin əsas mədsədi "Dədə Qorqud" eposunu vahid, tam, bütöv halda tədqiq etmək və onu elə bu şəkildə oxuculara çatdırmaq olmuşdur. Çünki məhz bu şəkildə təqdim edilən "Dədə Qorqud" eposu daha möhtəşəm, daha əzəmətli görünür. Kamran Əliyev kitabdakı "Dəli Domrul" boyu: təsadüf, yoxsa zərurət?" və "Çoban oğlu Təpəgöz" sərlövhəli yazılarını bu iki boyun eposun ümumi quruluşu, süjeti və kompozisiyasına, eposun ümumi poetikası, ahəngi ilə bağlılığı

problemlərinə həsr etmişdir. Alim mübahisə və polemika doğuran bu məsələləri inandırıcı elmi dəlillərlə sübut və həll etməyə çalışmışdır. Qətiyyətlə demək mümkündür ki, elmi intuisiyası iti olan professor K.Əliyev bunu məharətlə bacarmışdır. Belə ki, K.Əliyev tutarlı dəlil və sübutlarla aydınlaşdırmışdır ki, "Dəli Domrul" boyu "Dədə Qorqud" eposunun strukturundan – süjetindən, kompozisiyasından, poetika elementlərindən ayrılmaz və təcridolunmazdır. Tədqiqatçının fikrincə, hətta "Dəli Domrul" boyu olmasaydı, sözsüz ki, epos öz bitkinliyini, dərin məna siqlətini, əzəmətini və monumentallığını xeyli itirmiş olardı. Çünki digər boylarda adda-budda və epizodik səviyyədə olan Oğuz elinin dinc, sakit dövrü yalnız "Dəli Domrul" boyunda özünün tam həllini tapmışdır. "Dədə Qorqud" eposu üçün zəruri olan "Dəli Domrul" boyu ilə qədim türklərin həyatının bitkin və bütöv mənzərəsini əks etdirmək vəzifəsi həyata keçirilmiş və eyni zamanda, eposun ədəbi-bədii məntiqi tamamlanmışdır" (5, 34).

"Dədə Qorqud" eposunun boyları arasında onları bir-birinə bağlayan elə incə məqamlar mövcuddur ki, dəfələrlə oxunsa da, çox vaxt onları sezmək, hansısa bir hadisənin, əhvalatın, xırdaca bir məqamın mahiyyətinə varmaq, onları duyub hiss etmək mümkün olmur. K.Əliyev eposdakı bu incə məqamları yaxşı hiss edib duyduğuna görə Təpəgözlə bağlı hələ də qaranlıq qalmış bir sıra məsələlərə aydınlıq gətirə bilmişdir. Qeyd etdiyimiz kimi, bir sıra tədqiqatçıların "Dədə Qorqud" eposunun ümumi kompozisiyasından ayrı hesab etdikləri ikinci boy "Basatın Təpəgözü öldürdüyü boy"dur. "Çoban oğlu Təpəgöz" sərlövhəli yazıda K.Əliyev Təpəgözün eposda əhəmiyyətli yer tutduğunu və Təpəgöz obrazının mənşəyinin müəyyənləşdirilməsi yolunda bir sıra maraqlı elmi qənaətlərini qeyd etmiş, dəqiqləşdirmələr aparmış və maraqlı nəticələr əldə etmişdir.

Təpəgöz obrazının qədimliyi və bu eposun Homerin "Odisseya"sı ilə oxşarlığı barədə elmi ədəbiyyatda fikirlər çoxdur. Filologiya üzrə elmlər doktoru Flora Əlimirzəyeva yazır ki, tanınmış şərqşünas və tərcüməçi Ə.Şmidenin, haqlı olaraq, "qorqudşünaslığın atası" saydığı F.Dits "on bənddə Təpəgözlə Polifemi

müqayisə edir və bu müqayisələrdə çox uyğun oxşarlıqlar tapır. Nəticədə F.Dits "Kitabi-Dədə Qorqud"dakı Təpəgözün Homerin "Odisseya"sındakı Polifemdən daha qədim olması qənaətinə gəlir" (11, 18). F.Ditsə görə, "Homer Asiyaya səyahəti zamanı Təpəgöz hekayəsini eşitmiş, onun natamam cizgilərini, adətən tərcüməçinin dediyinə əsasən, öz Polifeminə vermişdir. Bəlkə də, o, rəvayəti Yunanıstanda özü eşitmişdir. Bəlkə də, oğuz nəslindən olan bir nəfər hansı ad altında isə Yunanıstana gəlmiş və onun dilindən yayılan Təpəgöz hekayəti Homerə qədər yaddaşlarda qalmışdır. Homer isə bu surəti öz dövründə danışanlardan eşitmiş və yazıya almışdır" (11, 19). Professor Ə.Sultanlı da "Dədə Qorqud"u qədim yunan eposları olan "İliada" və "Odisseya" ilə müqayisə etmiş, onlarda motiv oxşarlıqlarının olduğunu xüsusi vurğulamışdır (12, 41).

"Dədə Qorqud" eposunun ümumi quruluşunda Təpəgöz qorxulu və mifik bir düşmən obrazı kimi təkdir. O, mənşəcə Sarı çoban və Pəri qızının izdivacından törəmiş, tək gözü olan bədheybət bir varlıqdır. Yarıməfsanəvi bir obraz olan Təpəgöz çox pisliklər edir, onunla oynayan uşaqların burnunu, qulağını yeyir, yol kəsir, Oğuzun adamlarını yeyir, adlı-sanlı, qəhrəman Oğuz igidlərini döyüşdə məğlub edir. Onunla heç kim bacarmır, hətta Təpəgöz Oğuzun əbədi düşməni olan kafirlərdən də qat-qat güclü görünür. Bəs elə isə Təpəgöz obrazı dastana nə üçün daxil edilmişdir? Bu suala K.Əliyev Təpəgöz obrazının mənşəyinə və eposun strukturundakı funksiyasına nəzər salmaqla aydınlıq gətirməyə çalışır.

Belə ki, Təpəgöz "özünün qoyun sürüsü" olması ilə (13, 145) reallığı – atasından gəlmə xüsusiyyətləri, barmağında isə Pəri anasının yadigarını sehrli gücə malik olan üzüyünü gəzdirməklə (buna görə ona ox batmır, bədənini qılınc kəsmir) öz mifikliyini qoruyub saxlayır. Buna görə də onunla üz-üzə gəlmək, döyüşmək, onu məğlub etmək qeyri-mümkün bir işə çevrilir. Təpəgöz Oğuz elinin axırına çıxmaq qüdrətinə malikdir və hamını yeyib qurtarmaq fikrindədir. Belə olan halda, onunla danışıqlara getmək, onun şərtlərini dinləmək, onunla döyüşüb ona qalib gəlmək zərurəti yaranır.

Burada K.Əliyev bu qənaətə gəlir ki, Təpəgöz yarı əfsanəvi, yarı real olduğuna görə Təpəgözlə danışığa gedən və ona qalib gələ biləcək adam da real ola bilməz. Bu səbəbdən də Təpəgözlə danışıqlara reallıqla mifin qovuşduğu Dədə Qorqud gedə bilər. Belə ki, o, real insandır: qopuz çalır, söz söyləyir. Onun Allaha ən yaxın olması və insanlara ad verməsi cəhəti isə mifoloji gücə malik olması ilə izah olunur. Deməli, ona qalib gələn şəxs də real insan ola bilməz, onda da reallıqla mif qovuşuq olmalıdır. Həmin şəxs isə Basatdır. Çünki onun atası real insan olan Aruz Qocadırsa, mifik qaynağı isə aslandır. Ona görə ki, Basatı: "Bir aslan bulup götürmüş, bəsləmişdir" (14, 98).

Sonda Basat Təpəgözlə döyüşə gedir və dastan ənənəsinə uyğun olaraq və hadisələrin real məntiqinə görə Oğuzun ən qorxulu düşmənini məğlub edir. "Basatın Təpəgözü öldürdüyü boy" da dastan yaradıcısının epik təfəkkürü boydakı hadisələri məntiqi süjet xətti ilə son dərəcə dəqiqliklə və dinamik inkişaf etdirmişdir. Buna görə də bu boyda sual doğura biləcək hər bir məsələyə cavab tapmaq mümkündür. K.Əliyev də bu boydakı belə müxtəlif məsələləri ciddi elmi fəhmlə, hərtərəfli şəkildə tədqiq etmiş və sonda Təpəgöz obrazının eposun poetikasında tutduğu yer və mövqeyi barədə elmi fikirlərini belə ümumiləşdirmişdir: "Bütün bunlardan göründüyü kimi, Təpəgözün eposun poetikasında tutduğu yer və mövqe nə qədər möhkəmdirsə, daşıdığı funksiya da bir o qədər çoxşaxəlidir. Təpəgöz həm öz düşmənçiliyi, həm də Basata məğlubiyyəti ilə Oğuz elinin gücünü əks etdirir. Çünki Təpəgözün simasında ən böyük düşmən, Basatın simasında isə Təpəgözü məğlub edən ən qüdrətli qəhrəman Oğuz elindən olandır. "Dədə Qorqud" eposunda Oğuz təfəkkürü Oğuzdan başqasını qəbul etmir" (5, 48). Bununla da, K.Əliyev Təpəgöz obrazının, eləcə də bu süjetin Oğuz eposuna kənardan gəlmədiyini qəti olaraq təsdiq etmiş oldu.

K.Əliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyasını oxuduqca istər-istəməz hiss edirsən ki, "Dədə Qorqud" eposunda qabarıq görünən, xüsusi maraq doğuran hissələr və boylar haqqında çoxsaylı məqalələr, kitablar, monoq-

rafiyalar yazılsa da, tədqiqatlar aparılsa da, bu sahədə bir sıra həlli vacib və aktual problemlərin təhlilinə böyük ehtiyac var. Professor K.Əliyev bir sıra məqalələrində "Kitabi-Dədə Qorqud"u müasir ədəbiyyatın "entnopoetika" qaynağı, yəni etnik-mədəni sistem üçün xarakterik olan poetik ölçü və göstəricilərin mənbəyi kimi səciyyələndirmişdir (15, 19-20). Eposda mövcud olan bu və digər qiymətli bilgilər olduğuna görə K.Əliyev "Kitabi-Dədə Qorqud" eposunu həm qəhrəmanlıq abidəsi, həm də tədqiqat obyekti kimi bütün dövrlərin eposu adlandırmışdır. "Dədə Qorqud kitabı" öyrənildikcə, sözün geniş mənasında, türk tarixinin ayrı-ayrı tutqun səhifələri üzərinə işıq düşür. Bu isə təsadüfi deyil, çünki dastan "epik təfəkkür və tarix" kimi çox iritutumlu bir abidədir. Digər tərəfdən, "Dədə Qorqud" eposunun poetik sinkretizmi məzmununun mürəkkəb poetik-semantik quruluşu ilə bağlıdır: "Dədə Qorqud" kitabı poetik baxımdan sinkretik mətn təsiri bağışlayır – şifahi eposun, ilk yazıya alınma prosesinin və ehtimal ki, variantlaşmış kitab eposunun əsərdə üç məzmun qatı kimi təzahürü göz qabağındadır. "Dədə Qorqud kitabı"nda Şaman, ozan, aşıq təfəkkürünün ortaqlığı aydın nəzərə çarpır: mifoloji şüur ifadə edən sakral söz, eposa xas həqiqi söz və dastana uyğun bədii söz vəhdət yaradır" (16, 61).

Bu baxımdan "Dədə Qorqud" eposunun əbədiyaşarlığı, möhtəşəmliyi, zənginliyi və s. xüsusiyyətləri haqqında yazılası, bəhs ediləsi məsələlər çoxdur. Bu məsələlərdən biri də eposda öz geniş bədii ifadəsini tapan qəhrəmanlıq və igidlik motivləridir. "Dədə Qorqud" eposunundakı bu motivlər zaman-zaman dərindən, müxtəlif aspektlərdən və ətraflı şəkildə öyrənilmiş və bu qəhrəmanlıqları gətirən igidlər haqqında dəyərli elmi fikirlər irəli sürülmüşdür. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, üç boyun iştirakçısı olan Uruz obrazına, onunla bağlı müxtəlif məsələlərə kifayət qədər diqqət yetirilməmişdir. Məsələ burasındadır ki, Uruz döyüşlərdə qələbə çalmaqdan daha çox məğlub olur, hətta əsir də düşür. Elə isə bu gözlənilməzlik "Dədə Qorqud" eposunun strukturuna və ümumilikdə Oğuz elinə hansı mənanı kəsb edir? Digər tərəfdən, qəhrəmanlıq göstərən Oğuz igidlərinə Dədə Qorqudun gəlib ad

verməsi baxımından Uruzun payına nə düşür? Bəs nədən eposda bir sıra igidlərə, məsələn, Buğanı öldürdüyünə görə Buğaca Buğac, at basdığına görə Basata Basat adı və s. adları verən Dədə Qorqud Oğuz elinin başçısı, ağsaqqalı olan Bayındır xanın nəvəsi, bəylərbəyi Qazan xanın oğlu Uruza niyə gəlib ad vermir?

"Dədə Qorqud" eposunda bu məntiqi sualları ortaya çıxaran K.Əliyev özü də bu suallara müxtəlif aspektlərdən və elmi baxımdan cavab tapır və məntiqli elmi yozumları ilə oxucuları inandıra bilir. K.Əliyev Uruzun məğlubiyyətlərini isə eposun strukturu üçün "klassik epik ənənə ilə yeni bir düşüncə tərzinin üz-üzə gəlməsi və toqquşması" ilə izah edirsə, Oğuz eli üçün bu gözlənilməzliyi isə "birbaşa Uruzun şəxsiyyəti" ilə bağlayır. K.Əliyev hətta Uruzun dördüncü boyda – "Qazan xanın oğlu Uruzun dustaq olduğu boy"da əsir düsməsində də bir məntiqlilik, bir kompensasiya tapmağa çalışır və tapır: "...gözlənilməz məğlubiyyət, yəni eposdakı gənc qəhrəmanın qələbə çalmaq ənənəsinin pozulması, heç şübhəsiz, digər bir məqamda kompensasiya olunmalıdır və olunur da. Yəni Uruzun əsirlikdəki dəyanət və dönməzliyinə söykənən davranışı ona qələbəyə bərabər tutula bilən şərəf və ləyaqət gətirir. Çünki əsirlikdə ana və oğul üçün bir-birindən dəhşətli iki yol var: ya Burla xatın özünü təqdim edib kafirlərə təslim olmalı, ya da öldürülmüş Uruzun əti qovurma kimi anasına yedizdirilməlidir. Bu yolayrıcında Uruz doğru yol seçərək mənəvi qələbə qazanır" (5, 53). Deməli, Bayandır xanın nəvəsi, Qazan xanın oğlu Uruzun bu düşüncəsi, dünyagörüşü, geniş mənada digər Oğuz igidlərinin qəhrəmanlığı səviyyəsində olmasa da, igidlik, qəhrəmanlıq xüsusiyyəti sayıla bilər.

Uruz obrazını hərtərəfli və geniş şəkildə təhlil edən K.Əliyev Uruz və Qazan xanın timsalında eposda geniş yer tutan ata-oğul münasibətlərini ətraflı təhlil süzgəcindən keçirmiş, sonda belə bir nəticə çıxarmışdır: "Uruz, hər şeydən qabaq, eposda epik ənənənin qoruyucusudur. Həyatda sayılıb-seçilən nəsil ənənəsi, yəni şəcərəsi olan və həyatda şəcərəsini qorumağı bacaran, eposda da epik ənənəni qorumağa daha çox səlahiyyətlidir. Belə

bir səlahiyyət sahibi məhz Uruzdur, çünki Uruz Qazan xanın oğlu, Bayandır xanın nəvəsidir!" (5, 61)

K.Əliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyasının "Dədə Qorqud" hissəsinin maraqlı bölmələrindən biri də "Dirsə xan oğlu Buğac"dır. Burada professor Dirsə xan oğlu Buğac obrazına ətraflı olaraq diqqət yetirir. Qeyd edək ki, diqqət yetirilən obraz barəsində K.Əliyevin irəli sürdüyü mülahizələr yenidir və eposşünaslığımızda xüsusi əhəmiyyətə malikdir. Müəllifin qənaətinə əsasən, Xızırın "ölüm yoxdur" fikri "Dirsə xan oğlu Buğac" boyunun əsas məzmunu və yekunudur. Belə ki, boydakı Buğacla bağlı doğuluş aktı üç dəfə təkrar olunur – anadan doğulmaq, ad almaq, ölümdən xilas olmaq. Bu, boyda da üç dəfə təsdiq edilir. "Dirsə xan da iki dəfə (oğlu olanda – Dirsə xanın adamlarına qarışır və tutulub oğlu tərəfindən xilas edləndə), xan qızı da iki dəfə (oğlu olanda və südü ilə oğlunu xilas edəndə) doğulur. Bununla da "Dirsə xan oğlu Buğac" boyu bütün başqa tərəfləri ilə yanaşı, özünü eposun poetikasında doğuluş aktı kimi təsdiqləmiş olur və məhz eposun da doğuluş boyuna – birinci boyuna çevrilir" (5, 69-70).

Monoqrafiyanın ilk hissəsinin son iki bölümündə – "Oğuz elinin xanımları" və "Beyrəyin qanlı köynəyi" hissələrində də K.Əliyev eposşünaslığın daha iki problemindən bəhs edir və bu barədə öz mülahizələrini irəli sürür. Bu hissələrdə professor Oğuz cəmiyyətində qadın sevgisi, onlara olan Oğuz igidlərinin sevgisi, bu cəmiyyətin özündə yaşanan problemlər və mənəvi məsələlərdən bəhs edir. Qalın Oğuz elinin düşüncə sisteminə, onun iç dünyasına dərindən nüfuz edən K.Əliyev bunları oxuculara kifayət qədər geniş, əhatəli şəkildə təqdim edir. Məlumdur ki, "Dədə Qorqud" eposunda qəhrəman Oğuz igidləri ilə yanaşı, müxtəlif qadın obrazları da vardır. Onlardan üçünün adı açıqca bəllidir: Burla xatun, Banıçiçək, Selcan xatun. Oğuz elinin xanımlarından bir neçəsinin isə adı deyilməsə belə, həmin qadınların da eposun strukturundakı yeri və mövqeyi aydınca sezilir. Bu sıraya Dirsə xanın, Dəli Domrulun və Səyrəyin xanımları daxildir. Bəs müxtəlif boylarda nəql edilən hadisə və əhvalatlarla

bağlı olan bu xanımlar eposun mətnində öz funksiyaları müqabilində necə təsvir və təqdim olunurlar?

K.Əliyev bu məsələlərlə bağlı da öz maraqlı fikirlərini əsaslandırır. O, xüsusi olaraq vurğulayır ki, Oğuz igidləri ilə yanaşı, daha qabarıq formada görünən və bəzi mətləblərin ideya daşıyıcısı olan bu qadın obrazları müxtəlif boylarda nəql edilən hadisə və əhvalatlarla bağlıdırlar. K.Əliyev "Dədə Qorqud" eposunun mətnində adı çəkilən Oğuz elinin xanımlarının öz funksiyaları müqabilində onların hansı formada və necə təqdim edilməsini konkret nümunələr əsasında, spesifik ştrixlərlə diqqətə çatdırır. Professor K.Əliyev Oğuz elinin xanımları haqqında düşüncələrini belə təqdim edir: "Beləliklə, Dirsə xanın xanımı və Qazan xanın xanımı Burla xatun İç Oğuzdandırlar. Banıçiçək Dış Oğuzdan, Selcan xatun və Dəli Domrulla Səyrəyin xanımları isə kafər düşərgəsindən İç Oğuza gəlmişlər. Dış Oğuzdan və kafər düşərgəsindən İç Oğuza gəlin gələn qızlar bu düşərgələr arasındakı barışığı simvolizə edirlər və barışığın qarantıdırlar. Deməli, "Dədə Qorqud" eposu vuruş və davanın deyil, məhz barışıq və vahid dünya modelinin eposudur" (5, 84).

"Dədə Qorqud" eposunun poetika sistemi son dərəcə mükəmməl bədii bir sistemdir. Eposa daxil olan boyların süjet strukturu fərqlərdən çox yaxınlıqları əks etdirir. Obrazlara gəldikdə isə onlar da bir-biri ilə sıx əlaqəli formadadır. Buna görə də eposun əsl məzmun və mahiyyətinin meydana çıxarılması boylar arasındakı fərqlərin deyil, yaxınlıq və əlaqələrin tapılmasından, onların təhlil və şərhindən xeyli dərəcədə asılıdır. Həmin asılılığın və təmasın əyani formada nümayişi Beyrək obrazı ilə bağlı məsələlərdə bir daha bütün aydınlığı ilə görünür. Eposun ən kamil bədii obrazı Bamsı Beyrəkdir. Beyrək bütün Oğuz igidləri kimi, təbii ki, birinci növbədə, məhz qəhrəmandır. Ancaq görünür, qol gücü ilə yanaşı, o həm də xüsusi ağıl, düşüncə sahibidir ki, Qazan xanın inağı (ən yaxın, ən inanılmış adamı) sayılır.

Dastanın bədii hadisələrlə, təsvirlərlə, emosiyalarla ən zəngin boyları üçüncü və on ikinci boylardır ki, hər ikisinin qəhrəmanı məhz Beyrəkdir. O, boy-buxunca, sifətcə də gözəldir. O qədər gö-

zəldir ki, bədnəzərdən qorunmaq üçün niqab gəzdirir. Gözəlliyindən aldığı zövqün xatirinə kafər qızı onun əsirlikdən qaçmasını təşkil edir. Dastanda Beyrək obrazı ən incə cizgilərlə təsvir edilmiş bir igid, qəhrəmandır. Problemin konkret təhlilinə gəldikdə isə məlum həqiqətdir ki, Beyrək "Dədə Qorqud" eposunun öncül qəhrəmanlarından biridir. O, Baybörənin oğlu olmasından savayı, həm də Qazan xanın inanılmış adamı – inağı hesab edilir. K.Əliyev bu məqalədəki müşahidələrində də əvvəlki təhlil ənənəsinə sadiq qalmış, eposun bu boyu ilə digər boyları arasındakı yaxınlıq və məna əlaqələrini məharətlə qabartmışdır. Belə ki tədqiqatçı bu qənaətlərini Beyrək obrazında ustalıqla inkişaf etdirmiş və onu bu şəkildə ifadə etmişdir: "Dədə Qorqud" eposunun sonuncu boyunda Beyrək öldürülür. Beləliklə, "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda yalan kimi təqdim edilən Beyrəyin qanlı köynəyi digər boyda – "İç Oğuza Daş oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy"da həqiqəti ifadə edən xəbərə çevrilir" (5, 97-98).

Məlumdur ki, əvvəllər yaranmış hər hansı böyük bir abidə özündən çox-çox sonralar özünə bənzər onlarla əsərin yaranıb meydana gəlməsində böyük rol oynayır. Aşıq yaradıcılığında da yeni yaranan dastanlar əvvəlki dastanlardan istifadə edilərək meydana çıxır. "Koroğlu" dastanı da özündən əvvəl yaranmış və bütün boyları ilə, heç şübhəsiz ki, xalq içərisində dildən-dilə gəzən "Dədə Qorqud" dastanlarından bilavasitə qüvvət almışdır (17, 151).

Bu mənada K.Əliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyasının ikinci hissəsi "Koroğlu" adlanır və dörd məqalədən ibarətdir:

1. Koroğlu – dəlilərin dəlisi.
2. "Koroğlu" eposunda dəli aşıq.
3. Bədii məkanın xarakteri.
4. Fiziki gücün semantikası.

Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qiymətli abidəsi, Azərbaycan poetik söz sənətinin – aşıq yaradıcılığının zirvəsi sayılan "Koroğlu" dastanı bir çox türk, eləcə də qonşu xalqlar arasında geniş yayılmışdır. Müxtəlif tədqiqatçı və alimlər – V.Xuluflu, H.Əlizadə və M.H.Təhmasib, İ.Abbaslı, U.Ənvər, A.Xodzko

və b. tərəfindən yüksək dəyərləndirilmiş “Koroğlu” dastanı Azərbaycan ədəbi-bədii düşüncəsinin nadir incilərindəndir. Bu dastanın geniş yayılan versiyaları içərisində Azərbaycan “Koroğlu”sunun özünəməxsus mövqeyi olmuşdur.

K.Əliyevin “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu” monoqrafiyasında təhlilə “Koroğlu” dastanının məhz Azərbaycan versiyası cəlb edilmişdir. Zəngin obrazlar sisteminə malik olan “Koroğlu” eposunun poetikasında mühüm yer tutan, lakin az öyrənilmiş bir sıra məsələlərin, müəyyən məqamlarının ciddi təhlil və tədqiqata, araşdırmaya ehtiyacı var idi.

Monoqrafiyanın ikinci bölməsinin birinci məqaləsi “Koroğlu – dəlilərin dəlisi” adlanır. K.Əliyev bu məqalədə igidliyin, qəhrəmanlığın rəmzi kimi götürülən “dəli” anlayışına aydınlıq gətirir. Məlumdur ki, “Koroğlu” eposunda bütün igidlər, o cümlədən Koroğlu məhz “dəli” adlandırılır və eposun mətnində tez-tez işlədilir. K.Əliyev bu sözün məna çalarları ilə bağlı eposdan üç müxtəlif poetik nümunə gətirir və onları belə izah edir:

“Adımı soruşsan, bil, Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu;
Mənəm bu yerlərdə bir dəli-dolu,
Gündoğandan ta günbatan mənimdi” (18, 19).

Poetik nümunədə ayrıca götürülmüş “dəli” deyil, “dəli-dolu” ifadəsi işlənir. Məhz belə bir ifadə “dəli” sözünün ikinci mənasından (axmaq!) uzaqlaşmaq deməkdir. Əslində eposun lap əvvəlində, həmçinin Koroğlunun dilində işlənən (bu, az əhəmiyyət kəsb etmir!) dəli-dolu ifadəsi mətnin bundan sonrakı əsas məqamlarında qəhrəmanlara ünvanlanan dəli (dəliqanlı!) sözünün məhz igid, qəhrəman, bahadır mənasını verdiyini təsdiqləmiş olur.

Həmin qolda Koroğluya inanmayan Dəli Həsənin xüsusi bir görkəm almasından, kinayəli gülüşündən, qəribə bir istehzasından sonra Koroğlu yenə də saza əl atıb gəraylı üstündə deyir:

“Qoç Koroğlu çıxar düzə,
Baxmaram əlliyə, yüzə,
Mən dəlidən öyüd sizə:
Həddindən aşmamaq gərək” (18, 20).

Artıq burada “dəli” sözü “axmaq” mənasındadır və hədələyici xarakter daşıyır. Məsələ burasındadır ki, Koroğlunun mənəvi yüksəkliyi, qeyri-adi dərəcədə təbiiliyi özünü igid mənasında olan dəli kimi öyməyə imkan vermir. Digər tərəfdən Koroğlu Dəli Həsənlə üz-üzə gələcəyini əvvəlcədən bildiyi üçün (atası ona demişdi: “özünü Dəli Həsəndən gözlə!”) özünü bir az da axmaqlığa qoyur. Əslində isə başqasına həddini aşmamağı məsləhət görən qəhrəman məntiqi baxımdan heç vaxt həddini aşmamalıdır.

Koroğlunun belə bir nəsihəti Dəli Həsənə lap acıq gəlir və başının adamlarını toplayıb Koroğluya hücum etmək istəyəndə Koroğlu yenə deyir:

“Çəkərəm qılıncı, kəsərəm yolu,
Mənəm igidlərdə bir dəli-dolu.
Hələ coşmayıbdır bu qoç Koroğlu,
And içmişəm bu gün döyüş olmasın” (13, 21).

Yenə “dəli-dolu” ifadəsi xatırlanır. Bizcə, nümunədə “dəli” sözünün hər iki mənası gizlənmişdir: igid (dəliqanlı!) və axmaq (dəlisov!). Buradan hasil olan qənaət belədir ki, elə ikinci qoldaca “dəli” anlayışı üç məqamı ehtiva edir: birincisi, igidlik; ikincisi, axmaqlıq; üçüncüsü, igidliklə axmaqlığın qovuşuğu” (5, 100-101). Bundan başqa, K.Əliyev “Koroğlu” eposunun mətnində gedən “dəliqanlılıq”, “dəli nərə”, “dəlisovluq”, “dəli könül”, “dəli aşıq” kimi anlayışların da doğurduğu mənaları düzgün kodlaşdıraraq maraqlı elmi nəticələr əldə etmişdir.

K.Əliyev “Koroğlu” eposunun poetikasının digər müəyyən məqamlarını yüksək profesionallıqla üzə çıxarmış, eposun poetikasını bir neçə istiqamətdə araşdırmışdır. Belə istiqamətlərdən biri də “Koroğlu” eposunda bədii məkanın xarakteri məsələsidir. Təsadüfi deyil ki, monoqrafiyanın ikinci hissəsinin üçüncü məqaləsi də “Bədii məkanın xarakteri” adlanır. K.Əliyev bu məqalədə eposda verilən simvollar, işarə və sözlərdə verilən məkanları üç yerə bölür:

1.Real məkan.
2.Ara məkan.
3. İdeal məkan.

Əgər real məkan İstanbul, Toqat, Qars və basqalarıdırsa, ideal məkan isə Çənlibeldir. Ara məkan isə Real məkanla İdeal məkanın arasında olub, münaqişələrin həlli məkanıdır.

Məlumdur ki, "Koroğlu" eposunda əsas ideal məkan Çənlibeldir. Dəlilərin, Koroğlunun tərəfdarlarının məskən saldıqları bu ideal məkan möhtəşəm bir qala kimi təsvir olunmuşdur. Tədqiqatçılar onun harada yerləşməsi, nə üçün Çənlibel adlanması barədə maraqlı mülahizələr söyləmişlər. Çənlibelin coğrafi istiqaməti, mövqeyi barədə də müxtəlif versiyalar söylənmişdir. Ümumiyyətlə, Çənlibel "Koroğlu" dastanında mühüm yer tutur. "Koroğlu" dastanının bütün boylarında Çənlibelin adı çəkilir və bu məkan həm də Çənlibel dəlilərinin vətən rəmzidir. K.Əliyev bir məkan kimi Çənlibel haqqında belə yazır: "Koroğlu" eposunda baş qəhrəmanın hərəkəti ilə bağlı olaraq məkanlar tez-tez dəyişir və müxtəlif istiqamətləri əhatə edir. Şübhə yoxdur ki, bu, bilavasitə epos poetikası ilə bağlı məsələdir. Amma eposda bir məkan da var ki, həmişə dəyişməz qalır. Belə bir məkan Çənlibeldir" (5, 131).

K.Əliyevin "Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" monoqrafiyasının tədqiqat üslubu orijinal, söylənən fikirlər yenidir. Bu isə aparılan tədqiqatın geniş əhatə dairəsini, əsas tədqiqat obyektlərini təsəvvür etməklə yanaşı, bu sahə ilə məşğul olan tədqiqatçılarda ətaflı və əhatəli təəssürat yarada bilir. Kitab epos poetikası mövzusunda yazılmış əsərlər içərisində elmi çəkisi, dəyəri və sanbalına görə xüsusi yer tutur.

**QAYNAQLAR**

1. Əliyev K. Romantizm və folklor. Bakı: Elm, 2006, 170 səh.
2. Əliyev K. Hüseyn Cavidin şəxsiyyəti və poetikası. Bakı: Yazıçı, 1997, 89 səh.
3. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı: Elm, 2008, 324 s.
4. Əliyev K. Cavid möcüzəsi, Bakı: Nurlan, 2001, 64 səh.
5. Əliyev K. "Eposun Poetikası: "Dədə Qorqud" və "Koroğlu". Bakı: "Elm və təhsil", 2011, 164 səh.

6. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası. (məqalələr). Bakı: Öndər Nəşriyyatı, 2004, s. 6-17
7. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Azərbaycan Milli Dövlət Mədəniyyət və İncəsənət arxivi, fond 120
8. Abid Ə. Heca vəzninin tarixi / Ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü (məqalələr toplusu). Bakı: Elm, 2006, s. 472-491
9. Tanrıverdi Ə. “Dədə Qorqud kitabı”nda at kultu. Bakı, “Elm və təhsil”, 2012, 144 səh.
10. Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər ədəbiyyatı. Bakı: Maarif, 1982
11. Əlimirzəyeva F. “Kitabi-Dədə Qorqud” dastanlarının alman dilinə tərcüməsi və tədqiqi: Fil. elm. dok. diss. avtoreferatı. Bakı, 2008, 48 s.
12. Sultanlı Ə. “Kitabi-Dədə Qorqud” və qədim yunan dastanları. Bakı: Elm, 1999, 84 s.
13. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 243 səh.
14. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 268 səh.
15. Əliyev K. “Dədə Qorqud” eposu və etnopoetika məsələləri // “Dədə Qorqud” jur., № 2, 2003, s. 19-28
16. Hacılı A. “Dədə Qorqud kitabı”: epik təfəkkür və tarix // “Dədə Qorqud” jur., № 2, 2002, s. 60-72
17. Cəmşidov Ş. “Kitabi-Dədə Qorqud”. Bakı: Elm, 1977, 231 səh.
18. Azərbaycan dastanları, Beş cilddə, IV cild: Koroğlu. Bakı; “Lider nəşriyyat”, 2005, 464 səh.

# ROMANTİKLƏRİN KAMRAN ƏLİYEVİN QƏLƏMİ İLƏ ÇÖZÜLƏN "GİZLİ SÖZÜ"

# ROMANTICISTS' "SECRET WORD" DISENTANGLED BY KAMRAN ALIYEV'S PEN

**Tahirə MƏMMƏD**
*Filologiya elmləri doktoru, professor,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*tahire.mammed@yahoo.com*

**Özət**

Ədəbiyyatşünaslığın bir sıra ciddi və aktual problemlərinin öyrənilməsinə töhfələr verən AMEA-nın müxbir üzvü Kamran Əliyevin tədqiqatlarında romantik və epik düşüncə tərzi bir-birini tamamlayır. Onun elmi yaradıcılığının ana xəttində romantizm, ağırlıq mərkəzində isə etnopoetika dayanır.

Romantizmin nəzəriyyə və poetikasını geniş aspektdə araşdıran alim bu ədəbi cərəyanın estetik prinsiplərində irəli sürülən, ifadə sistemində də özünü göstərən gizlilik mexanizmi üzərində əhəmiyyətli araşdırmalar aparmışdır. Romantizmə xas fantaziya və genişliyin ümumiləşdirilib az sözlə çatdırılması bu cərəyanla xarakterizə olunan mətnlərdə simvolikliyin, metaforikliyin, eyhamların, şərti obraz və işarələrin üstünlüyünə yol açır. Kamran Əliyev romantizmin ümumiləşdirmə gücü və bədiilik effektinin əsas yollarından birini "məna gizliliyi" və simvolikada görür. Bunu ayrı-ayrı şairlərin, Azərbaycan romantizminin təmsilçilərinin dilindən səslənən sənət prinsipi, eyni zamanda yaradıcılığa xas keyfiyyət, poetika əlaməti kimi izah edir. O, romantizmin "gizli dil"ini digər cərəyanlardan, xüsusilə simvolizmdən fərqləndirmə üsulları üzərində də dayanır.

Kamran Əliyev, faktlara istinadən, romantiklərin simvolikada təbiətdən, peyzajdan çox istifadə etdiklərini göstərir. Alim Azərbaycan romantiklərinin yaradıcılığında simvolların tezliyi, qaynaqları, semantika və funksiyası üzərində apardığı araşdırmalarla mühüm elmi nəticələr əldə etmiş və qiymətli müddəalar irəli sürmüşdür.

**Açar sözlər:** romantizm, simvolizm, fantaziya, gizlilik, işarə, bədiilik effekti, tədqiqat

**Summary**

Romantic and epic mindsets complement each other in investigations of Kamran Aliyev - a correspondent member of ANAS who have largely contributed to investigation of a number of serious and urgent concerns of literature study. Romanticism stands at the mainline of his scientific activity, while ethno-poetry makes up its gravity center.

Exploring theory and poetry of romanticism in a wide spectrum, the scientist has had considerable investigations into secrecy mechanism manifesting itself in the aesthetic principles of literary current. Generalization and conveyance using but a few words of fancy and broadness typical of romanticism entails preference to symbolism, metaphoric, hints, conventional images and signs in texts characterized by this literary current. Kamran Aliyev sees one of the main paths of generalization strength and literary effect of romanticism in " secrecy of meaning" and symbolism and explains it as a quality, poetic sign typical of principle of art and creative activity expressed from the tongues of romanticism followers. He also focuses on the methods of differentiating "secret language" of romanticism from other currents and symbolism in particular.

Kamran Aliyev shows that romanticists resort to nature and landscape views more in reference to facts. The scientist has achieved significant scientific results and put forward invaluable ideas through investigations performed on frequency, sources, semantics and function of symbols in the creative activities of Azerbaijani romanticists.

**Key words:** romanticism, symbolism, fancy, secrecy, sign, literary effect, research

Romantizm ədəbi cərəyanında mütləqləşdirilmiş dil normaları olmasa da, qəhrəmanlarının arzu və idealları, gərgin situasiyalar, kontrastlı hallar anladıldığından şairanə, təntənəli, örtülü ifadə və bəzəkli üslub əsas xüsusiyyətlərdən biri kimi diqqəti cəlb edir. Bu ədəbi cərəyanın təmsilçiləri klassik dil ənənəsinə münasibətdə sərbəstdirlər; onun müdafiəçisi və ya yenilənmə, sadələşmə tərəfdarı olmaları sənətkarları romantizmdən uzaqlaşdırmır. Dünya romantizmində müşahidə olunan bu vəziyyət özünü Azərbaycan romantizmində də göstərməkdədir. Kamran Əliyevin romantizmə aid tədqiqatlarında romantiklərin dilə

münasibətdə ayrıldığı iki istiqamət onların özlərinin bədii dil haqqında irəli sürdükləri fikir və mülahizələrlə göstərilir.

Məhəmməd Hadinin, Əli bəy Hüseynzadənin dilinin çətinliyi, Abbas Səhhət, Abdulla Şaiq, Hüseyn Cavidin onlara nisbətən sadə dillə yazması Azərbaycan romantiklərinin əsərləri ilə tanış olan hər kəsə məlumdur. Kamran müəllim məlum olanları göstərib, təkrarçılıq etmir. O, romantiklərin özlərinin dil haqqında fikir və düşüncələrini tədqiq edib üzə çıxarır, üslub və yazıçı mövqeyi arasında əlaqəni müəyyənləşdirir, müdafiə olunan mövqenin səbəblərini izah edir.

Təhlilə cəlb olunan istinadlar göstərir ki, romantiklər hər biri sözə, onun təsir gücünə önəm verirdilər. Cavid sözü qılıncdan daha kəskin hesab edir, A.Şaiq türk dilinin imkanlarının gözəlliyindən söz açır, M.Hadi fikrin aydınlığı və gözəlliyi prinsipini önə çəkməklə bərabər, heç tərəddüd etmədən osmanlıcada yazmağa üstünlük verir. Kamran müəllimin diqqət yönəltdiyi problem belə bir elmi müddəanı sübut edir ki, romantiklərin sənət, ədəbiyyat, dil haqqında görüşlərində sistemlilik və ardıcıllıq var, onların nəzəri-estetik görüşlərinin öyrənilməsi ədəbiyyatşünaslıq üçün son dərəcə əhəmiyyətlidir.

O, romantizmin aparıcı simalarının romantizm və sənət haqqında fikirlərini araşdırıb təqdim etməklə, eyni zamanda, Azərbaycanda ədəbiyyat nəzəriyyəsinin inkişaf təmayülləri və mərhələlərinin müəyyənləşməsi, cərəyanların tədqiqi, yazıçının nəzəri görüşlərinin öyrənilməsi kimi aktual problemlərin həlli məsələlərinə də öz elmi töhfələrini verir.

Kamran Əliyev romantiklərin ideya təmsilçiləri və müdafiəçiləri olduğunu nəzərə alaraq onların yaradıcılığında forma və məzmun məsələsini vəhdətdə təhlil edir. Çünki romantikin formada istifadə etdiyi üsul və vasitələr özü də ideyaya xidmət edir. Bunu onların nəzəri-estetik görüşlərindən də görmək olur. Kamran müəllimin diqqətlə seçib təqdim etdiyi nümunələr sübut edir ki, romantiklərin dil, üslub xüsusiyyətləri, formaya yaradıcı münasibətləri, obrazların zahiri təqdimatı, portret və peyzajlar – bunlar hamısı ideya ilə sıx bağlıdır.

Romantiklərin yaradıcılıq psixologiyasına da xüsusi əhəmiyyət verən tədqiqatçı yazıçı-oxucu münasibətlərinin qurulmasında bu amilin rolunu vurğulayır. Abbas Səhhətə etdiyi istinadla tezisi açır: “Yazı yazdığınız vaxt hər şeydən müqəddəm hissiyyata tabe olmaq gərək, tainki kəlamın oxuyanların qəlbində təsiri ola və başqasının hissiyyatı-qəlbisini oyandıra” (Səhhət, 1976, II c.,7) [K.Ə., I, 83]. Hissiyata münasibətdə M.Hadiyə, H.Cavidə də istinadlar edən Kamran müəllim sentimentalistlər və romantiklərin bu məsələdə ortaqlıqlarına və ayrıldıqları məqama da aydınlıq gətirir. O yazır: “...qabaqca sentimentalizm mövqeyinə yaxınlaşan bu hiss anlayışı, sonralar romantiklərin yaradıcılığında öz mənasını təkmilləşdirərək, hər bir sənətkar üçün vacib olan həyatı duymaq, obyektiv reallığın hadisələrini sənət dili ilə hiss etmək qabiliyyətinə çevrilmişdir” [I c., 83-84]. Hissiyyat və xəyal bir-birini tamamlayan, yaxın hallar kimi səciyyələndirən alim, sentimentalizmdən fərqli olaraq romantiklərin bu sahədə müəyyən hədd gözlədiklərini onların öz yaradıcılığına istinadla göstərir. Bunun üçün Məhəmməd Hadinin “Şair, hücreyi-iştiğalı və düşüncələri” şeirindən “Təxəyyülata qapılma, bir az da kəndinə bax” misrası tipli nümunələrə müraciət edir [Əliyev, 2018: 85].

Kamran Əliyev XX əsr Azərbaycan romantizmini yaddaş qatlarında Şərq və Qərbin sənət ənənələrini qoruyub saxlayan, eyni zamanda zamanın problemləri, kədəri ilə qidalanan yeni hadisə kimi dəyərləndirir. Yeni hadisənin təsdiq və qəbul edilməsi üçün romantiklər həm də nəzəriyyəçi kimi çıxış edirdilər; M.F.Axundzadə maarifçi realist nəsri, dramatik növü ədəbiyyatımıza gətirdiyi zaman nəzəriyyəçi-estetik fəaliyyətini də öz üzərinə götürdüyü kimi. Romantiklərin nəzəri müddəalarını onların məqalələrindən, bədii əsərlərindən seçib üzə çıxarmaq, sistemləşdirmək və onların estetik baxışlarını öz müddəaları ilə dəqiqləşdirmək tədqiqatçıdan səbir və ciddi əmək tələb edir. “M.Hadi, H.Cavid, A.Səhhət və A.Şaiqin ədəbi irsi sübut edir ki, onlar romantizm müddəalarından açıq şəkildə danışmamışlar. Lakin romantiklərin yaradıcılığında elə mühüm faktlar vardır ki,

bu faktlar birbaşa romantizmi müdafiə edir, ya da həmin ədəbi cərəyanın spesifik xüsusiyyətlərinin səciyyəsini verir" [Əliyev, 2018: 84].

Kamran müəllim romantiklərin nəzəri-estetik görüşlərini aydınlaşdıran fikirləri seçərkən ciddi bir çətinliklə qarşılaşır. Çünki "Azərbaycanda bu söhbətlər (romantizmin prinsipləri haqda – T.M.) birbaşa romantizm termini ilə şərtlənən söhbətlər deyildi. Biz həmin terminə yalnız bir dəfə A.Şaiqin 1905-ci ildə yazdığı "İki müztərib, yaxud əzab və vicdan" romanında rast gəldik" [Əliyev, 2018: 84]. Ədəbi qəhrəmanın dilindən səslənməsinə baxmayaraq, həssas tədqiqatçı gözü ilə seçilən fikir həm yazıçı mövqeyinə, həm də romantizm nəzəriyyəsinə aydınlıq gətirmək baxımından diqqətəlayiq tapıntıdır. "Abdulla Şaiqin həmin romanının (daha əvvəl adı çəkilən –T.M.) qəhrəmanı şair Cavad öz məktubunda yazırdı: "Fikircə romantizm məsləkini təqib etdiyim kimi ləfz və mənaca dəxi demokratlıq tərəfdarıyam. Onun üçün də mənim əsərlərim ləfz, vəzn və qafiyə etibarı ilə zəngin ola bilməz. Mən ləfzi mənayə və qulağın ləzzətini ruha fəda etmək tərəfdarıyam. Mən, qardaşım, daima qırıq ürəklərdə, yırtıq libaslarda, uçuq-sökük daxmalarda dolaşıram, onların bütün dərd-kədərinə şərik olur kimi onlarla bərabər gülür, bərabər ağlaram".

Buradan aydın olur ki, A.Şaiqin qəhrəmanı romantizm nümunələrini xalqın dərd-kədərinin təsvirindən kənarda götürmür..." [Əliyev, 2018: 84]. Kamran Əliyevin romantizmi səciyyələndirən yazıçı baxışı kimi seçdiyi bu nümunə milli romantizmin xarakterini açmaq baxımından da da son dərəcə qiymətlidir. Çünki şair Cavadın dilindən irəli sürülən fikirdə Azərbaycan romantizminin mədəni yaddaş kodları da öz əksini tapıb. Şairi romantizmə xas olan cəhət – xalqın dərd, kədəri düşündürməklə bərabər, təqdim olunan mətndə Quran ayələrini, hədisləri, Mövlananı xatırladan elementlər də müşahidə olunur. Kamran müəllim bunlardan söz açmır, sadəcə xəzinəni tapır, üzə çıxarır və oxucuya (növbəti tədqiqatçıya!) təqdim edir; mətni oxuyanın özünün sahib olduğu kodlara etibar edir,

bilir ki, tapıb üzə çıxardığı mətnin cazibə qüvvəsi oxucunu malik olduğu maqnitizmlə özünə doğru çəkib sirlərini açacaqdır.

Özünün, hissiyyatının içində xəyala gedən sentimentalist qəhrəmandan romantik qəhrəmanı ayıran hüdudları Abbas Səhhətin şeirində ifadə olunan nəzəri-estetik prinsiplə göstərən K.Əliyev romantiklərin cəmiyyət borcları prinsipinə də aydınlıq gətirmiş olur. O, Abbas Səhhətin "Şair, şeir pərisi və şəhərli" şeirinə istinadən yazır:

"...Təbi-şeirin ki, səni şöhrət edib dövranə,
Məsiyətdir baxasan bunca qəmə biganə...

Müəllif burada çox sakitcəsinə şairi qəmə biganə olmaqda günahlandırır. O istəyir ki, dövrünə şöhrət olan sənətkar, məhz dövrün əzabından yazsın" [Əliyev, 2018: 86]. Fikrinə davam edərək romantiklərin fərdi kədərdən bəşəri, dünyəvi kədərə keçidi təmin etdiklərini göstərir. XX əsr Azərbaycan romantikləri vətənin və millətin içində olduğu durumla əlaqədar şəxsi kədəri həm də millət, vətən kədərinə çevirmişdilər. Dünya kədərinə bu platformadan çıxırdılar, çünki dünyanı onların kədəri bir o qədər də maraqlandırmırdı. Kamran müəllim kədərin fərdidən çıxdığı ilk addımı göstərməklə oxucunu (tədqiqatçını!) yolun başlanğıcına gətirir və yola salır. Özü isə romantik sənətin ənginliklərində başqa bir yolun başlanğıcını açamaq üçün yeni "səyahətə" başlayır.

Romantiklərin sənətdə üstünlük verdikləri dil gizliliyi məsələsi haqda fikirlərini də K.Əliyev onların özlərinə istinadən təqdim edir. "Klassik Şərq və Azərbaycan ədəbiyyatının təcrübəsindən irəli gələn bu prinsip Azərbaycan romantizminin estetikasında mühüm yer tutur" [Əliyev, 2018: 87]. Azərbaycan romantizmində "gizlilik" prinsipinin ifadə üsullarının formalaşmasında üç ənənənin mühüm rolu var: a) romantizmin özünün sənət estetikası; b) klassik Şərq divan ədəbiyyatı ənənəsi; c) XIX əsrdə Avropada geniş yayılıb rəğbət qazanmış simvolizm və impressionizmin təsiri. Azərbaycan romantizminin estetikasındakı fərqliliyi təmin edən onda romantizmlə bərabər klassik Şərq və XIX əsr simvolizm, impressionizm ənənələrinin də iştirakı idi.

Bu özünəməxsusluq daha çox, K.Əliyevin də vurğuladığı kimi, klassik Şərq ədəbiyyatının poetikasından bəhrələnmə ilə izah oluna bilər.

Tədqiqatçı romantiklərin gizli dilə meylini bir tərəfdən sənət prinsipi, digər tərəfdənsə dövrün, zamanın sosial-siyasi şərtləri ilə əlaqələndirir; hər iki şərti yazıçıların yaradıcılığından verdiyi istinadlarla əsaslandırır:

“Mən açıq şeirdən də həzz edərim,
Fəqət gizli şeiri pək sevərim” (Cavid).

“Lakin zəmanə çünki fəna bir zəmanədir,
Eyham ilə, kinayə ilə natiq olmalı!”
(Səhhət) [Əliyev, 2018: 88].

Romantiklərin gizliliyə doğma və isti münasibət bəsləməsini onların klassik ənənələrimizi qoruyub saxlamaq, milli dəyərləri inkişaf etdirmək amalları ilə də əlaqələndirən K.Əliyev fikrini M.Hadinin “Xurafat içində həqiqət” məqaləsində Mövlana Rumidən bəhs edərkən çıxış etdiyi müddəalarla izah edir.

Kamran müəllim romantizmdəki gizliliyi yalnız romantiklərin irəli sürdüyü fikirlərlə yox, həm də onların istifadə etdikləri simvolların mənalarını açmaqla izah edir; xəyal, uzaq, gələcək, gözəl, gül, çiçək, lalə və s. kimi anlayışların simvolik-metaforik məzmunu üzərində dayanan tədqiqatçı romantiklərin yaradıcılıq nümunələrinə istinad edir və semiotik təhlillər aparır. Romantiklərin yaradıcılığında məcaz və peyzajın daşıdığı funksiyaya aydınlıq gətirən alim onları fərdi üsluba görə də müqayisə edir; müəlliflərin ruhi aləminə nüfuz etməyə, onların zövq və inanclarına bələd olmağa yol açır.

Təbiətdən alınan detalların məzmun və funksiyası ilə əlaqədər romantiklərin yaradıcılığını ayrı-ayrılıqda araşdıran müəllif müşahidələrini ümumiləşdirib Azərbaycan romantizminin mənzərəsini təqdim edir. Dünya romantizminin ümumi tipoloji spesifikasına uyğun olan bir cəhətin milli romantizm üçün də xarakterik olduğunu vurğulayır: “... romantiklərin yaradıcılığındakı peyzaj öz simvolik örtüyü ilə ictimai məzmun daşıyır... təbiətin

təsvirində ağrı və acını göstərmək başlıca xəttə çevrilir" [Əliyev, c. 2, 2018: 160-161].

K.Əliyev H.Cavidin yaradıcılığında gülə, çiçəyə, Hadidə laləyə daha çox müraciət edildiyini müəyyənləşdirir. Hər iki şair bu detalları bənzəri olan sosial varlıq, ruh halı, yaşanan situasiya və vəziyyətlə yanaşı təqdim etməklə metaforanı gücləndirir və simvolların açılmasını istiqamətləndirirlər. Diqqətlə yanaşdıqda, Azərbaycan romantizmini divan ədəbiyyatının yaddaş qatları ilə əlaqələndirən elementlər sırasında güllərin özünəməxsus yeri var. Doğrudur, romantizmdə təbiətlə bağlı simvollar divan ədəbiyyatındakı semantikanı eyni ilə təkrarlamır. Lakin o, gül-çiçəkdən ənənəvi məzmunu bəlli səviyyədə öz üzərində kodlaşdırıb yaşadır. Kamran müəllimin seçib təqdim və təhlil etdiyi nümunələr həm öz yeni məzmunu, həm də ənənədən gələn tanışlığı ilə orijinal bir "bağça" təəssüratı oyadır.

Azərbaycan romantizmini araşdırarkən alim ədəbi cərəyana aid normativləri, milli romantizmin spesifikasını, fərdlərin yaradıcılıq manerasını, üslubi keyfiyyətləri bir-biri ilə əlaqədə təqdim edir. Romantiklərin fərdiyyətini və topluluğunu o qədər canlı təqdim edir ki, özü onların müsahibinə, yoldaşına çevrilir; onlar öz "gizlinlərini" səxavətlə Kamran müəllimə, o da özünün ardıcıllarına – həmin həlqəyə, sıraya daxil olanlara ötürür... Bu varislik həlqəsi isə romantik ənginliklər qədər sonsuzdur...

## QAYNAQLAR


1. Kamran Əliyev. Romantizmin nəzəriyyəsi. Əsərləri, 10 cilddə, I cild. Bakı: "Elm və təhsil", 2018
2. Kamran Əliyev. Romantizmin poetikası. Əsərləri, 10 cilddə, II cild. Bakı: "Elm və təhsil", 2018

# PROFESSOR KAMRAN ƏLİYEV TƏDQİQATLARINDA HÜSEYN CAVİD VƏ FOLKLOR MÖVZUSU

# THEMES OF HUSEYN JAVID AND FOLKLORE IN PROFESSOR KAMRAN ALIYEV'S INVESTIGATIONS

# ТЕМА ФОЛЬКЛОРА И ГУСЕЙНА ДЖАВИДА В ИССЛЕДОВАНИЯХ ПРОФЕССОРА КАМРАНА АЛИЕВА

**Vüsal SƏFİYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu*

**Özət**

Professor Kamran Əliyev Azərbaycan ədəbiyyatşünaslığında romantizm cərəyanının nümayəndələrinin yaradıcılığının xüsusi tədqiqatçısı kimi tanınır. Onun folklorşünaslıq fəaliyyətini tədqiq edərkən yazılı ədəbiyyatla şifahi ədəbiyyatın vəhdətini araşdıran alimlərimizdən olduğunu xüsusi qeyd etmək lazımdır.

Professor Kamran Əliyevin folklorşünaslıq fəaliyyətindəki özünəməxsusluq yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatının əlaqə və münasibətlərinə həsr olunmuş tədqiqatlarında daha qabarıq şəkildə nəzərə çarpır. Bu baxımdan onun H.Cavid yaradıcılığında folklordan istifadə ilə əlaqədar tədqiqatları xüsusi maraq doğurur. Bu da onunla bağlıdır ki, dahi şairin əsərləri yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatının əlaqə və münasibətləri probleminin daha ətraflı və dərindən araşdırılmasına imkan verir.

Kamran Əliyev özünün romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başlamışdır. "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. kimi paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoymuşdur.

Tədqiqatçı H.Cavidin şeir və dramlarında çoxəsrlik Azərbaycan ədəbiyyatının bir sıra əlamətdar cəhətləri ilə yanaşı, xalq ədəbiyyatından

qaynaqlanan, xalq təfəkkür tərzi ilə bağlı olan, xalq adət-ənənələri və məişəti ilə səsləşən xüsusiyyətlərin özünü göstərdiyini vurğulamışdır.

**Açar sözlər:** H.Cavid, folklor, romantizm, cərəyan, şifahi xalq ədəbiyyatı, qəhraman, tədqiqat

**Summary**

Professor Kamran Aliyev is known as a special researcher of the representatives of the trend of romantism in Azerbaijani literature-study. It should be noted that he is one of the scientists who studied the unity of oral literature with written literature while studying the activity of folklore.

Professor Kamran Aliyev's peculiarity in folklore studies is more observed in his studies on the relations and contacts of oral folk literature with written literature. In this regard, his researches about the use of folklore in Huseyn Javid's activity are very interesting. Due to the fact that the works of the great poet allow the more detailed study of the problem of communication and relations of oral folk literature with written literature. On the basis of his studies about romanticism Kamran Aliyev began to study many theoretical issues of written literature in parallel with folklore.

Kamran Aliyev has carried out his very serious scientific works on the basis of parallels such as "hero in oral and written literature", "style in oral and written literature", "system of images in oral and written literature" and so on.

Along with a number of signs of centuries-old Azerbaijani literature, in the poems and dramas by Huseyn Javid, the researcher noted the features of folk literature, which are related to the folk way of thinking, sounded with folk traditions and life.

**Key words:** Huseyn Javid, folklore, romantism, trend, oral folk literature, hero, investigation

**Резюме**

Профессор Камран Алиев известен как специальный исследователь творчества представителей романтизма в Азербайджанском литературоведении. Исследуя его фольклористическую деятельность следует особо отметить, что он является одним из ученых, исследующих единство письменной и устной литературы.

Специфика деятельности профессора Камрана Алиева в фольклористике наиболее ярко проявляется в его исследованиях, посвященных взаимосвязи письменной и устной народной литературы. В связи с этим особый интерес представляют его исследования, связанные с использованием фольклора в творчестве Г. Джавида. Это связано с тем, что произведения гениального поэта позволяют более подробно и глубоко исследовать проблему взаимосвязи письменной и устной народной литературы.

**Ключевые слова:** Г.Джавид, фольклор, романтизм, направление, устное народное творчество, герой, исследование

Çoxsaylı elmi tədqiqatlarla yanaşı bir sıra bədii əsərlər müəllifi olan Kamran Əliyev, Azərbaycan ədəbiyyatının demək olar ki, bütün sahələrində böyük nailiyyətlər əldə etmişdir. O həm nəzəriyyəçi, həm ədəbiyyat tarixçisi, həm də folklorşünas kimi fəaliyyət göstərmişdir.

Professor Kamran Əliyev yuxarıda adı çəkilən mövzulara dair on beş monoqrafiya, iyirmi kitab, iki yüzdən artıq elmi məqalə müəllifidir. Bununla belə, alim romantizm cərəyanının nümayəndələrinin yaradıcılığını xüsusi olaraq araşdırmış, bu istiqamətdə geniş miqyaslı tədqiqatları ilə seçilmişdir. Alimin elmi fəaliyyətinin bu cəhətlərini düzgün səciyyələndirən akademik İsa Həbibbəyli yazmışdır: "Ədəbiyyatşünaslıq elmi üzrə bir neçə elmi istiqamətdə mühüm elmi problemlərin işlənib hazırlanması və həllində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyevin özünəməxsus böyük xidmətləri vardır. Tanınmış ədəbiyyatşünas Kamran Əliyev, hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas tədqiqatçılarından biridir" (Kamran Əliyev. Romantizmin nəzəriyyəsi. (Əsərləri, 10 cilddə, I cild). Bakı, "Elm və təhsil", 2018, 360 s. (s.3)).

Burada Kamran Əliyevin ədəbiyyatşünaslıq üzrə bir çox elmi istiqamətlərdə fəaliyyətinin xüsusi vurğu ilə nəzərə çatdırılması təsadüfi deyildir. Doğrudan da, K.Əliyev, akademik İ.Həbibbəylinin qeyd etdiyi kimi, "Son onillikdə daha çox folklorşü-

nas kimi ardıcıl olaraq fəaliyyət göstərir. Folklor və yazılı ədəbiyyat sahəsindəki tədqiqatlarından başqa, onun "Kitabi-Dədə Qorqud" dastanlarına həsr olunmuş araşdırmaları indiyədək haqqında bir kitabxana qədər kitab yazılmış Qorqudşünaslıq elmində yeni səhifələr, qiymətli əlavələr kimi dəyərləndirilməyə layiqdir. Kamran Əliyev Azərbaycan Qorqudşünaslığında fərqli baxış meydana qoyur. Mükəmməl ədəbiyyat tarixçisi kimi qəbul olunan Kamran Əliyev həm də professional folklorşünas olmağın da əsl nümunəsini göstərir" (3, 5).

Kamran Əliyevin folklorşünaslıq fəaliyyətindən danışarkən onun yazılı ədəbiyyatla şifahi ədəbiyyatın vəhdətini araşdıran alimlərimizdən olduğunu xüsusi qeyd etmək lazımdır. Bu baxımdan, AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun da professor Kamran Əliyevin çoxşaxəli elmi fəaliyyəti haqqındakı fikirlərini də xüsusilə qeyd etmək lazımdır: "O həm ədəbiyyat tarixçisi, həm də ədəbiyyat nəzəriyyəçisidir, digər tərəfdən də ədəbi tənqidlə, ədəbi proseslə məşğul olan dəyərli həmkarlarımızdan biridir. Onun son dövrlərdə apardığı tədqiqatların bir istiqamətini də folklor və yazılı ədəbiyyat məsələləri təşkil edir. Xatırladım ki, bizdə folklor və yazılı ədəbiyyat münasibətləri daha çox "yazıçı və folklor" müstəvisində öyrənilib. Amma Kamran Əliyev özünün romantizmlə bağlı tədqiqatları zəminində yazılı ədəbiyyatın bir çox nəzəri məsələlərini folklorla paralel araşdırmağa başladı. Məsələn, "Qəhrəman – şifahi və yazılı ədəbiyyatda", "Üslub – şifahi və yazılı ədəbiyyatda", "Obrazlar sistemi – şifahi və yazılı ədəbiyyatda" və s. kimi paralellər əsasında Kamran Əliyev özünün çox ciddi elmi əsərlərini ortaya qoydu" (1, 4).

Professor Kamran Əliyevin folklorşünaslıq fəaliyyətindəki özünəməxsusluq yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatının əlaqə və münasibətlərinə həsr olunmuş tədqiqatlarında daha qabarıq şəkildə nəzərə çarpır. Bu baxımdan onun H.Cavid yaradıcılığında folklordan istifadə ilə əlaqədar tədqiqatları xüsusi maraq doğurur. Bu da onunla bağlıdır ki, dahi şairin əsərləri yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatının əlaqə və münasibətləri

probleminin daha ətraflı və dərindən araşdırılmasına imkan verir.

Alimin H.Cavid və folklor mövzusu ilə bağlı professor Mahirə Nağı qızı və tədqiqatçı Çapar Kazımlı öz fikirlərini belə bildirmişlər: "Azərbaycan romantizminin folklor və mifologiya ilə əlaqəsindən danışan alim yazır ki, folklora aid obrazlar, süjetlər romantiklərin əsərlərində davamlı xətt kimi görünür. "Şeyx Sənan" faciəsinin "Əsli-Kərəm" dastanı ilə müqayisəsindən bəlli olur ki, H.Cavid sözün həqiqi mənasında əfsanəyə əsaslansa belə el ədəbiyyatı nümunəsindən də xeyli dərəcədə bəhrələnmişdir. Eyni zamanda, onun xalq dramlarından istifadəsi sadəcə olaraq folklora söykənmək yox, daha artıq dərəcədə şifahi ədəbiyyat nümunəsinin bədii əsərin poetikasında yüksək keyfiyyətə çevrilməsi demək idi" (5, 36-37).

Professor K.Əliyev H.Cavid haqqındakı araşdırmalarında şairin xalq ədəbiyyatından bəhrələnməsi məsələsinə toxunmuşdur. Bununla yanaşı, onun H.Cavidin şifahi ədəbiyyat ilə əlaqəsi məsələsinə dair özünə məxsus mülahizələri vardır. Buna misal olaraq alim, "Şeyx Sənan" faciəsi və "Əsli-Kərəm" dastanını müqayisə edərək yazır ki: "H.Cavidin əfsanə ilə bağlı ən maraqlı əsərlərindən biri "Şeyx Sənan" faciəsidir. Lakin romantik sənətkar bu faciədən əvvəl Tiflisdəki Şeyx Sənan türbəsi önündə duraraq "Şeyx Sənan" şeirini yazmışdır. Bu şeiri vasitəsilə Şeyx Sənan obrazına və onun adı ilə bağlı əfsanəyə öz rəğbətini bildirir. Şeirdən məlum olur ki, romantik sənətkar Şeyx Sənanı ən böyük məhəbbət simvolu hesab edir. Onun nəzərincə, Şeyx Sənanın adı ilə bağlı əfsanə Leyli və Məcnunun adı ilə bağlı əfsanədən heç də əhəmiyyətsiz deyildir. Ümumiyyətlə, Azərbycan romantizmində əfsanəyə sənətkar diqqəti H.Cavidin "Şeyx Sənan" faciəsi ilə yeni zirvə qazanır" (2, 307-308).

Alimin fikrincə, H.Cavid faciənin mövzusunu "Şeyx Sənan" əfsanəsindən, onun variantlarından götürmüşdür. O həmin faciənin süjeti və obrazları ilə "Əsli-Kərəm" dastanının süjet və obrazları arasında xeyli yaxınlıq olduğunu vurğulayaraq bildirir ki, yalnız əsərin yazılmasında deyil, "Şeyx Sənan" əfsanəsinin

seçilməsində belə “Əsli-Kərəm” dastanının müəyyən qədər rolu olmuşdur (2, 308).

Bundan başqa, alim yazır ki, H.Cavidin şeir və dramlarında çoxəsrlik Azərbaycan ədəbiyyatının bir sıra əlamətdar cəhətləri ilə yanaşı, xalq ədəbiyyatından qaynaqlanan, xalq təfəkkür tərzi ilə bağlı olan, xalq adət-ənənələri və məişəti ilə səsləşən xüsusiyyətlər də özünü göstərir. “Kosa-gəlin”, “Keçəl”, “Xıdır Nəbi”, “Bic nökər”, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş”, “Kosa-kosa” kimi xalq dramları yazılı ədəbiyyatın, peşəkar teatrın inkişafında böyük əhəmiyyət kəsb etmişdir. Bu mənada H.Cavidin “Topal Teymur” və “Səyavuş” pyeslərində xalq dramlarından sənətkarlıqla istifadənin klassik nümunəsi ilə tanış oluruq (2, 323).

Burada da alim, “Topal Teymur” pyesindəki obrazların xarici görünüşü və daxili aləmini xalq dramlarındakı obrazlarla müqayisə edir. Öncə, uzun boylu hərəm ağası Nazimlə qısa boylu Cücənin arasındakı təzadın eynilə xalq dramlarındakı personajlar kimi gülüş doğurduğuna, sonra isə Cücənin Əmir Teymuru yamsılayıb öz hərəkətləri ilə “daxili səhnə” yaradaraq Yıldırım Bayazidi də xalq tamaşasının obrazlarından birinə çevirərək iştirakçı edir. Alimin sonrakı bir müqayisəsi də xalq dramlarındakı masqara oyunlarında hökmdarların məsxərəyə qoyulması məqamıdır ki, bu da Sultan Mahmud sarayındakı Təlxəyin və yenə də “Topal Teymur” əsərində Yıldırım Bəyazidin Cücə tərəfindən tənqidinin gülüş doğurmasında müşahidə olunur (2, 324-331).

Professor Kamran Əliyev Hüseyn Cavidin “Səyavuş” faciəsini isə digər bir xalq dramı olan “Kosa-kosa” oyununa bənzədir. “Kosa-kosa” oyunundakı Kosa obrazının yerə yıxılıb ölməsi ilə qışın bitib yazın gəlməsi münasibətilə insanların sevinib şadyanalıq etməsi xüsusiyyətinin “Səyavuş” əsərində də öz əksini tapdığını göstərən alim, əsərdə Səyavuşla zövq və səfa keçirmək istəyib rədd cavabı alan atasının ikinci arvadı Südabənin ona qarşı hazırladığı sui-qəsdi icra etməli olan Kosanın özü ilə birgə göndərilmiş Rəqqasə tərəfindən öldürülməsini mənfi surətin aradan gö-

türülməsi məqamıyla eyniləşdirir. Alim, həmçinin, faciədə baş verən hadisənin də eynilə "Kosa-kosa" oyunundakı kimi yaz günlərinə təsadüf etdiyini də qeyd edir (2, 332).

Alimin fikrincə, bütün bunlardan belə bir cəhət aydınlaşır ki, görkəmli romantik şair və dramaturq H.Cavid əsatir və əfsanələrə, dini rəvayətlərə, xalq dramlarına müraciət edərkən daha çox həmin obrazları təmsil edən söz və məfhumları, məqamları və mülahizələri arayıb axtarır (2, 337-338).

Bu baxımdan, alim H.Cavid yaradıcılığında "Adəm və Həvva" əfsanəsinin, daha çox isə bu əfsanənin birinci qəhrəmanının taleyinin xüsusi yer tutduğunu qeyd edir, şairin yaradıcılığında simvolik-mifik obrazlara istinadın Pəri, Mələk, İblis surətləri ilə daha bariz şəkildə göründüyünü" bildirir (2, 340-341).

Hüseyn Cavid əsərlərində mifoloji obrazlardan bəhs edən alim daha dərin ədəbi-bədii təhlil vasitəsilə "Şeyx Sənan" əsərində qəhrəmanı yüksəkliyə çağıran da "mələk qiyafətli Xumar", "Şeyda" pyesində Şeydanı "başqa aləmlərə, daha yüksəklərə" səsləyən də Mələk, "Peyğəmbər" əsərində Peyğəmbərə üz tutub, "yüksəl, yüksəl" deyən" də Mələkdir" yazan alim bu obrazlarda bədii obraz və priyomlardan istifadə yollarını aydınlaşdırır (2, 343).

"Əvvəlcə qeyd edək ki, əsərdə İblis hər tərəfi atəşlər və alovlar içində dəhşətli bir müharibənin bürüdüyü və göy gurultusu, top, pulemyot sədaları altında peyda olur. Bu gəliş H.Cavidin "Şeyda", "Şeyx Sənan", "Peyğəmbər" pyeslərində olan mələklərin və mələk qiyafətli obrazların gəlişindən tamamilə fərqlənir. Həmin fərqlilik isə əslində bu obrazların xarakterindəki iblislik və mələkliyin fərqlənməsi deməkdir" (2,347). H.Cavidin "İblis" pyesi ilə əlaqədar deyilmiş bu fikir eyni dərəcədə, bəlkə, bir az da artıq şairin əsərlərində istifadə olunan folklor mövzularının, janr və ifadə vasitələrinin araşdırılması məsələsinə də aiddir.

Görkəmli alim, professor Kamran Əliyevin Hüseyn Cavid haqqında tədqiqatları diqqəti şairin öz əsas mövzularını folklordan alması məsələsinə cəlb edir: "Heç bir şübhə yoxdur ki, H.Cavid dramaturgiyasına daxil olan əsərlərin baş qəhrəmanları

əsl romantik qəhrəman kimi bütün ideyanı öz çiyinlərində daşıyırlar. Buna görə də H.Cavidin öz pyeslərinə verdiyi adların, əsasən, baş qəhrəmanların adları ilə eynilik təşkil etməsi faktına təsadüf kimi baxmaq olmaz. Belə bir məqamda Azərbaycan dastanlarını xatırlamaq yerinə düşər. Belə ki, məhəbbət dastanları orada ifadə olunan ideyaya uyğun olaraq iki şəxsin – qəhrəmanın adı ilə ("Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Əsli və Kərəm"), qəhrəmanlıq dastanları isə qəhrəmanlıq və şücaət göstərən, eyni zamanda bütün hadisələri öz ətrafında cərəyan etdirən bir şəxsiyyətin – qəhrəmanın adı ilə ("Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm") adlandırılmışdır. Yəni xalq təfəkkürünün məhsulu olan həmin folklor nümunələrində birbaşa qəhrəmanın adı əsərin sərlövhəsinə çıxarılır. Ona görə ki, həmin qəhrəmanlar əsərin bütün süjet və kompozisiyasının aparıcı simaları, ideyaların daşıyıcılarıdır" (2, 359).

Daha sonra alim folklor nümunələrinin süjetlərinin, motivlərinin Hüseyn Cavidin dramaturji əsərləri ilə eyniliyindən bəhs edərək onlarda da dastanlardakı kimi hadisələrin istiqamətinin, nəticəsinin öncədən məlum olduğuna diqqəti cəlb edir: Folklor qəhrəmanlarını xatırladan H.Cavid dramaturgiyasının romantik qəhrəmanları üçün də hər şey əsərin əvvəlindən başlayır. "İblis" əsərində ilk misradan İblisin müharibələrə haqq qazandırması və sonda deyilən həmin fikirlərin təsdiqinə çevrilməsi, "Afət" pyesində də eyni ssenarinin təkrarlanması bunları təsdiq edir (2, 360).

H.Cavidin romantik qəhrəmanlarını da dastan qəhrəmanları ilə müqayisə edən professor Kamran Əliyev onların da öz mövqelərini heç kəsə güzəştə getmədiklərin, heç kəsi öz mübarizələrinə şərik etmədiklərini vurğulayır. Bu baxımdan H.Cavidin "Topal Teymur" əsərinin romantik qəhrəmanının öz gücü, qüvvəti sayəsində əsas məqsədə doğru sürətlə getməsinin təmin olunması, "Knyaz" pyesində isə Knyazın qarşısına çıxan əngəlləri asanlıqla dəf etməsi diqqəti cəlb edir. Alim bu baxımdan "Dədə Qorqud" eposundan Qazan xanın evinin yağmalanması, "Koroğlu" dastanından Koroğlunun səhvi ucbatından Qıratın qaçırılması zamanı onların düşmənlə təkbaşına haqq-he-

sab çürütmək istədiklərini, "Əsli-Kərəm" dastanından Kərəmin öz məqsədinə çatmaq üçün müxtəlif şəhərləri, məkanları qət etməsini Cavidin Sənanının, Arifinın, Əkrəminın, Peyğəmbərinın və Azərinin dünyanı gəzib həqiqət axtar-maqları ilə müqayisə edib bir-birinə bənzədir (2, 360-363).

Professor Kamran Əliyev Hüseyn Cavidin milli-mənəvi dəyərlərə bağlı bir düşüncə sahibi olduğunu xüsusilə qabardaraq eyni zamanda onun öz yaradıcılığını bəşəri ideyalarla zənginləşdiyini də diqqətə çatdırılır. Alim bu barədə son qənaətini bu şəkildə ifadə edir: "Belə bir nəticəyə gəlmək olar ki, H.Cavid bütün yaradıcılığı boyu Qərb və Şərq ədəbiyyatı ilə bağlı olduğu qədər də folklor və mifoloji düşüncə sistemi ilə əlaqədardır. Onun bədii irsini dünya ədəbiyyatı ənənələrindən ayıra bilmədiyimiz kimi, folklor qaynaqlarından da təcrid etmək mümkün deyildir" (2, 363).

## QAYNAQLAR


1. Əliyev, Kamran. Folklor kitabı (Əsərləri 10 cilddə, VI cild). Bakı, "Elm və təhsil", 2019, 432 s.
2. Əliyev, Kamran. Hüseyn Cavid (Əsərləri 10 cilddə, III cild). Bakı, "Elm və təhsil", 2018, 456 s.
3. Əliyev, Kamran. Romantizmin nəzəriyyəsi (Əsərləri, 10 cilddə, I cild). Bakı, "Elm və təhsil", 2018, 360 s.
4. Əzimli, Əbülfəz. Romantizmdən eposa: tədqiqin Kamran Əliyev aydınlığı. Bakı, Elm və təhsil, 2013, 172 s.
5. Nağı qızı, Mahirə, Kazımlı, Çapar. Ədəbiyyatşünaslığa xidmət əzmi ilə. Bakı, Elm və təhsil, 2013, 202 s.
6. Qasımbəyli, Yaşar. Diyadindən dünyaya addımlayan alim – Kamran Əliyev//525-ci qəzet, 1918, 2 iyul
7. "Hüseyn Cavid həmişə məsləkinə sadiq olub" // Xalq Cəbhəsi, 2012, 25 oktyabr, s.14

# XATİRƏLƏR

## BİTMƏYƏN ÖMRÜN MƏNƏVİ DAVAMI
## ƏMƏKDAR ELM XADİMİ KAMRAN ƏLİYEVİ XATIRLAYARKƏN

Dost-doğma insan dünyasını dəyişəndən sonra onun haqqında keçmiş zamanda danışmaq çox ağır olur. Kamran İmran oğlu Əliyev haqqında danışmaq mənə ağır olduğu kimi…

Yaşından asılı olmayaraq dünyadan gedənlərimiz vaxtsız gedir. Çünki görəcəyi işlərdən hələ də yarımçıq qalanı olur. O ki, qaldı alim, yazıçı, yaradıcı insan olasan. Kamran müəllimin də bitmək bilməyən elmi, ədəbi auditoriyaya hesablanmış yaradıcı enerjisi öz tükənməzliyi ilə heyrət doğururdu.

O, 1953-cü il mart ayının 5-də Naxçıvan MR Şərur rayonunun Diyadin kəndində dünyaya göz açmışdı. Sadə və zəhmətkeş bir ailədə. Orta məktəbi əla qiymətlərlə başa vurandan sonra BDU-nun filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdi. Mən BDU-nun jurnalistika fakültəsinin 1-ci kurs tələbəsi olanda o, filologiya fakültəsinin 5-ci kurs tələbəsiydi. Pedaqoji sferada, tələbə dünyasında bu insanın nüfuzlu bir obrazı vardı. İctimai fəallığı, zəhmətkeşliyi, əlaçı oxumağı, səmimiyyəti və saflığı ilə o, həmin illərin tələbə kontingenti üçün bir nümunə idi. Elə müəllimləri də onu hər kəsə nümunə göstərərdi… Universiteti bitirəndən sonra təyinatını doğma kəndlərinə alan Kamran Əliyev burada bir müddət müəllim işləyəndən sonra təhsilini davam etdirmək məqsədilə Bakıya qayıdır və aspiranturaya daxil olur. 1980-ci ildə (27 yaşında) namizədlik, 1990-cı ildə (37 yaşında) isə doktorluq dissertasiyası müdafiə edir. Gənc ikən belə elmi uğurlara imza atmaq onun məxsusi intellekti ilə yanaşı polad iradəsinin göstəricisi idi.

Sonrakı illərdə professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi kimi şərafətli titullara layiq görülən Kamran Əli-

yev ədəbiyyatşünas alim kimi dəyərli məqalə və monoqrafiyaları ilə elmi auditoriyanın diqqətini çəkdi. Bununla paralel o, bədii yaradıcılığını da davam etdirməyi unutmadı. Bu cəhəti nəzərdən qaçırmayan akademik İsa Həbibbəylinin Kamran Əliyevin 10 cildlik əsərlərinin 1-ci cildinə yazdığı müqəddiməsində oxuyuruq: "Ədəbiyyatşünaslıq elmi də, bədii yaradıcılıq da Kamran Əliyevin təkcə maraq dairəsi və ya fəaliyyət sahəsi deyil, taleyidir. O, həyatının mənasını elmdə və ədəbiyyatda tapmışdır".

Bəli, elmdə və ədəbiyyatda! O, ədəbiyyatşünaslıq və ədəbi tənqidlə, folklorşünaslıqla bağlı ciddi araşdırmaların, fundamental monoqrafiyaların müəllifi idi. Bu baxımdan romantizmin nəzəriyyəsi və poetikası, Hüseyn Cavidin şəxsiyyəti və yaradıcılığı, klassiklər və müasirlər, "Kitabi-Dədə Qorqud", folklor və yazılı ədəbiyyat istiqamətində yazdığı monoqrafiyalar çağdaş Azərbaycan humanitariyasının sanballı örnəkləridir.

XIX-XX əsrlər klassik ədəbiyyat tariximizin müxtəlif ədəbi cərəyanlara mənsub ədəbi şəxsiyyətlərinin həyatı, mühiti, yaradıcılığı ilə bağlı apardığı araşdırmalar Kamran Əliyevin böyük zəhmətinin və dərin qatlara nüfuz etməyi bacaran alim intellektinin məhsuludur. Azərbaycan elmi elitası haqlı olaraq akademik Məmməd Cəfər Cəfərovdan sonra romantizm nəzəriyyəsinin yeni istiqamətlərdə araşdırılmasında professor Kamran Əliyevin xidmətlərini xüsusi dəyərləndirmişdir. Cavidşünaslığın, folklorşünaslığın özündə də elmi-nəzəri müəddəaları və yanaşmaları ilə yeni konsepsiyalara imza atan alimin əsərləri mükəmməl bir ədəbiyyat tarixçisinin qiymətli qələm məhsullarıdır.

Onun Hüseyn Cavidə həsr olunmuş saysız-hesabsız məqalələri və monoqrafiyası cavidşünaslığa əvəzsiz töhfədir. Filologiya elmləri doktoru, professor Şirindil Alışanlının qənaətinə görə: "Kamran Əliyevin bütün tədqiqatlarının mərkəzində H.Cavid sənəti dayanır. O, Cavidi ədəbi-bədii fikrin, bədii tərəqqinin aparıcı siması kimi öyrənir, hər dəfə də bu ecazkar sənətin gözlənilməz bədii çalarlarını dövriyyəyə gətirir. Müəllif haqlı olaraq belə bir mövqedə dayanır ki, Hüseyn Cavid XX əsr Azərbaycan romantizminin tarixi taleyidir".

Orta Asiya respublikalarında, Türkiyə Cümhuriyyətində Cavidlə bağlı keçirilən müxtəlif beynəlxalq konfrans və simpoziumlarda Kamran Əliyev maraqlı və dəyərli, ən əsası böyük şairi yaxından tanıdan məruzələri ilə çıxışlar etmiş, milli-bədii düşüncəmizdə onun layiq olduğu yeri göstərmişdir.

Yazılı ədəbiyyat mütəxəssisinin folklora məxsusi yanaşması, xalq yaradıcılığında, xalq təxəyyül və təfəkküründə yeni istiqamətlər müəyyənləşdirməsi və bunların yazılı ədəbiyyatdakı inikasının analitik bilgisini verməyin özü də zamana və məkana, dövrləşdirmə konsepsiyasına sığışmayan bir alimin idrakından xəbər verir. "Kitabi-Dədə Qorqud" Azərbaycanda ən çox tədqiqata cəlb olunan, haqqında ən çox məqalələr, namizədlik və doktorluq dissertasiyaları yazılan milli qaynağımız və kimliyimizdir. Eposa elmi yanaşmada yeni fikir və mülahizə yürütmək təbii ki, çətindir. Ancaq Kamran Əliyev bu dastana tamamilə yeni bir rakursdan baxmağı, açılmayan bəzi mətndaxili sirləri açmağı bacarır. Türk alimi Əhməd Bican Ərcilasun onun "Açıq kitab – "Dədə Qorqud" monoqrafiyasını oxuyandan sonra yazır: "Kamran Əliyevin bu əsəri təkcə qorqudşünasların deyil, Dədə Qorqud üzərində çox da dayanmamış ədəbiyyatşünasların da marağına səbəb olmalıdır".

Türkiyə Respublikasında Türkiyə türkcəsində, İranda fars dilində nəşr olunan "Dədə Qorqud" monoqrafiyası oğuznamə tədqiqatçılarının, qorqudşünasların yüksək elmi dəyər verdiyi kitaba çevrildi.

Yazılı ədəbiyyatımızın folklor qatına işıq salmaq baxımından K.Əliyevin "Romantizm və folklor", "M.Şəhriyar və folklor", "M.P.Vaqif və folklor", "H.Cavid və xalq dramları" kimi tutumlu və tutarlı məqalələri folklorşünaslığımızın yeni meyarlar istiqamətində inkişafının göstəricisidir. Akademik Muxtar Kazımoğlu (İmanov) sevimli həmkarının bu cəhətini belə dəyərləndirir:

"Onun son dövrlərdə apardığı tədqiqatların bir istiqamətini də folklor və yazılı ədəbiyyat məsələləri təşkil edir. Kamran Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiridir. Neçə

illərdir öz vəzifəsinin öhdəsindən ləyaqətlə gəlir və bu sahədə tədqiqatları da çox ciddi bəhrəsini verir".

Onun pedaqoji fəaliyyəti, ölkənin nüfuzlu universitetlərində müəllim kimi çalışdığı illərin təəssüratı da bir başqadır. K.Əliyev öyrəndiklərini öyrətməkdən zövq alırdı və bu da onun əsl ziyalı və pedaqoq məfkurəsindən irəli gəlirdi. Maraqlı, məzmunlu ustad dərslərilə yaddaşlarda yaşayan bu insanın neçə-neçə tələbəsi humanitar elmə məhz onun təşəbbüsü və qayğıkeşliyi ilə gəlib. Elmi rəhbəri, opponenti olduğu gənc alimlər bu qayğıkeşliyi unutmurlar… Azərbaycan dili və ədəbiyyatla bağlı yazdığı dərs vəsaitləri həm orta, həm də ali məktəb müəllimlərimiz və tələbələrimiz üçün dəyərli qaynaqdır.

Kamran İmranoğlu həm də şair təbiətli yazıçı idi. Şeirləri, hekayələri, povestləri həyatın özündən gələn (mütaliədən yox!), həyati reallıqları bədii həqiqətə çevirə bilən bədii təfəkkür məhsulları idi. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. "Dağlı məhəlləsi", "204 nömrəli avtobus" hekayələri bizim tələbəlik dövrümüzün yaşantıları, daha doğrusu romantikası üzərində qurulduğu halda, "Yalquzaq", "Qara köpək", "Zəli" kimi povestləri ümumcəmiyyət problemlərinə, insan xarakterlərinin ictimai məzmununa həsr edilən dəyərli və düşündürücü nəsr nümunələridir. Əslində ilk "qələm məşqinə" şeirlə başlayan Kamran İmranoğlu özünüifadənin daha geniş formatını sonralar nəsrdə tapmışdı. Təbii ki, gənc yaşlarında yazdığı şeirlər onun sevgi, məhəbbət dolu lirik duyğularının ifadəsi idi:

Önümdə bir alov, bir od dayandı,
İlahi, bilmədim sevgi hayandı.
Dodağım su üçün alışdı, yandı,
Elə bil su idi, o axdı getdi.

İstər şair, istərsə də nasir kimi Kamran İmranoğlu yaradıcılığını davam etdirsəydi, daha doğrusu, elmə həsr etdiyi enerjini bu sahəyə yönəltsəydi inanıram ki, o, mükəmməl əsərlər ərsəyə gətirə bilərdi. Ancaq o, elmi seçdi və özü də bu sahədə seçildi.

15 ilə yaxın bir yerdə – AMEA-nın Folklor İnstitutunda işlədiyim müddətdə şəxsiyyət kimi onun portret cizgilərinə daha

yaxından bələd olmuşdum. Sadə, səmimi, mütəvazi davranışı ilə hər kəsin rəğbətini qazanmışdı. Ancaq bizim ünsiyyət körpümüz təkcə Folklor İnstitutu deyildi.

Bir məhəllədə yaşamağımız, axşamlar yaxınlıqdakı parkın çay evindəki xudmani guşədə digər dostlarımız – akademik Muxtar Kazımoğlu, hüquqşünas Aydın Kərimov, geoloq alim Müseyib Yunisovla mütəmadi görüşlərimiz, bəzən gecə yarısına qədər uzanan diskussiyalarımız, maraqlı söhbətlərimiz bizi bir-birimizə çox bağlamışdı.

2013-cü ildə AYB-nin Natəvan klubunda Kamran Əliyevin 60 illik yubileyinə həsr olunmuş tədbiri tez-tez xatırlayıram. Görkəmli yazıçılar, alimlər, həmçinin sadə insanlar yubilyar haqqında ürək dolusu məhəbbətlə danışdılar. Mən də o tədbirə ürəyi boş getməmişdim. Söz veriləndə ona ünvanladığım "Nikbin adam" şeirimi ilk dəfə orada oxudum:

Mən səni həmişə gülərüz gördüm,
Kədəri gizlətdin baxışlarında.
Könlünü əbədi bahara verdin,
Göyərdin baharın yağışlarında.

Qəriblik ovqatı gətirən payız
Rəngini qatmadı ruhuna sənin.
Özünə çəkilib qalanda yalqız
Yenə bahar girdi yuxuna sənin.

Sevgidən bal tutdu ömür pətəyin,
Əyilmək bilmədin uca dağ kimi.
Kiminsə əlinə keçsə ətəyin
Səni buraxmadı xeyirxah kimi.

Düzünü deyim ki, bu saflığınla
Sən – birsən, sən – pirsən, ocaq kimisən.
Əziz dost, nəfsinə yasaqlığınla
Altmış yaşında da uşaq kimisən.

Elm ilə ölçülür sərvətin, varın,
Elmsiz bir insan getməz uzağa.
Yaşamaq haqqı var yaşadanların,
Ömrün uzun olsun, a Kamran qağa!

Sonralar mən bu şeiri seçilmiş əsərlərimin 2-ci cildinə daxil etdim. Görüşəndə zarafatla deyirdi ki, sənin seçilmiş əsərlərində ən gözəl şeir bilirsən hansıdır? Soruşurdum hansıdır? Gülə-gülə deyirdi ki, "Nikbin adam"…

Sonra Muxtar Kazımoğlunun da, mənim də başımıza gözləmədiyimiz bəla gəldi. Hər ikimiz oğlumuzu itirdik. O çətin məqamlarda bu "nikbin adam" bizi depressiv vəziyyətdən çıxarmaq üçün əlindən gələni etdi.

Və… günlərin birində özü xəstələndi. Türkiyədə müalicə aldı. Yaxşılaşırdı. Ancaq ildə bir-iki dəfə qardaş ölkəyə – həkim müayinə və müalicəsinə getməyi vacib idi. Araya lənətə gəlmiş bu "covid-19" pandemiyası düşdü. Yollar, sərhədlər bağlandı. O, bir daha öz həkiminə özünü yetirə bilmədi…

Ötən il dekabr ayının ortaları idi. Mənə zəng vurdu (adətən mən ona tez-tez zəng vurub əhvalını soruşurdum). Səsi çox zəif gəlirdi. Bu həmin vaxtlar idi ki, bir az öncə – noyabrın 25-də Kəlbəcər işğaldan azad olunmuşdu. Mənə dedi ki, Kəlbəcərin istisuyundan gətizdirə bilərsənmi? Mən təəccüb etmədən "baş üstdə" dedim. Dərhal bir neçə yurddaşıma mənə təcili istisu lazım olduğunu dedim. Söz versələr də, su gec gəldi. Dekabrın 23-də Kamran müəllim artıq işıqlı dünyaya "əlvida" demişdi. Doğrusu, dostumun son arzusunu vaxtında yerinə yetirə bilməməyim məni çox məyus etmişdi. Mən həmin suyu bir müddətdən sonra onun Fəxri xiyabandakı məzarının torpağına çilədim. "Allah rəhmət eləsin" deyib ondan ayrılanda alimin mürəkkəbini şəhid qanına bərabər tutan Peyğəmbərimizin kəlamı ürəyimə bir təskinlik gətirdi…

**Adil CƏMİL**
*Filologiya üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist*

## İNSANIN BİR ÖZÜ, BİR SÖZÜ

Kamran Əliyev – Azərbaycan ədəbiyyatşünaslığında öz dəst-xətti ilə seçilən, tənqid və folklor sahəsində sanballı araşdırmaların müəllifi, bədii aləmdə yenicə tanınmağa başlayan, ancaq buna baxmayaraq qələminin haqqını verən yazıçı, hörmətli müəllim, alicənab şöbə müdiri, əsl dost, örnək ailə başçısı!

İnsan var dərya kimidir, baş vurdunsa, çıxmaq çətindir; insan var ki, divar kimidir, qarşında durur və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir – dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır (*Əbu Turxan*) (Aforizmlər: seçilmişlərdən seçilmişlər. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında, Bakı, Çaşıoğlu, 2012, s. 37).

Əbu Turxanın insanla bağlı bu aforizmini çox bəyənirəm. Kamran Əliyevdən yazmağa başlayanda yenə də ilk ağlıma gələn bu aforizm oldu. Çünki Kamran Əliyevin elmi fəaliyyəti, irəli sürdüyü fikirlər, düşüncələr içərisində özünü bir dəryada hiss edirsən. Bu qəlbi böyük insanla söhbət zamanı dünya, cəmiyyət, buradakı münasibətlərə sanki bir şüşədən baxırmış kimi doğru yanaşmağı bacarırdın. O həm də ayna idi. Çünki səni özünə göstərməyə çalışırdı. Özünün, "sənin qabında olanların" fərqinə varmağına şərait yaradırdı. Bir dəfə də cəmiyyətdəki mövqe ilə bağlı müzakirələr zamanı demişdi: "Sən evdə də tək deyilsən!" İnsan harada olursa olsun, özünə nəzarəti heç vaxt əldən verməməlidir. Bu da əslində özünütərbiyənin bir üsuludur. Bu sərbəstliyin əldən alınması deyil, həddini aşmağın qarşısını almağın bir yoludur...

"Bu dünya beş gündür", – deyib hər yerdə
Sağ ikən qəbirdə uzanan da var.
Öz alın tərilə bircə ömürdə
Yüz insan ömrünü qazanan da var (Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild. (Şeirlər). Bakı, Öndər nəşriyyat, 2004, s. 155).

Necə də haqlıdır şair! Az insan var ki, həyatdan, həqiqətən, zövq alaraq yaşasın və yaşatsın. Kamran Əliyev Allahdan pay verilən bir ömrünə nələri sığdırmadı ki... Birinci növbədə həqiqi elm

adamı kimi ad qazandı. Elm aləminə bəxş etdiyi kitablar, məqalələr, müxtəlif elmi yazılar ona hələ sağ ikən əbədiyyət qazandırdı. Heç vaxt yorulmadı Kamran Əliyev. Daima araşdırdı, təhlil etdi, yazdı və elmi mühitlə, oxucuları ilə paylaşdı. Onun yetirdiyi tələbələr, dissertantlar ondan birinci növbədə həyatı dolu-dolu və faydalı yaşamaq dərsi aldılar. Alın təri ilə insanlığın ən yüksək mərtəbəsinə yüksəlməyin mümkünlüyünü Kamran Əliyev də təbliğ etdi. Bəzən həyatını elmə adayıb, yaxınlarını, ailəsini unudan elm adamlarına da az rast gəlinmir. Kamran müəllim hər birini diqqətdə saxlamağı gözəl bacarırdı. Həyat yoldaşına, övladlarına, nəvələrinə, bütün qohum-əqrəbalarına, dostlarına münasibətdə diqqət, insani dəyərlər ön planda olurdu.

Alim ömrünə nələri sığdırmadı ki... O yorulmadan apardığı tədqiqatlarda, elmi araşdırmalarda ədəbiyyatşünaslığın, folklorun mühüm, üzdə olmayan məsələlərinə toxundu. Özünün fikir və mülahizələrini irəli sürdü. O, Azərbaycan romantizminin nəzəri məsələlərinin tədqiq edilməsində, romantiklərin ədəbi-elmi görüşləri ilə bədii yaradıcılıqları arasındakı qarşılıqlı əlaqələrin araşdırılmasında mühüm tədqiqatlar aparmışdır. Onun araşdırmalarında romantik qəhrəman konsepsiyası, qəhrəmanın fövqəltəbiəti və tənhalığı, zaman və məkan daxilindəki hərəkəti, təbiət və mifoloji obrazların simvolik xarakteri, Qərb və Şərq, Yaxın və Uzaq, Həyat və Ölüm kimi poetik qarşıdurmalar Azərbaycan romantizminin poetikasını müəyyənləşdirən əsas problemlər kimi təhlil edilmişdir. Araşdırmalarının əsas hissəsini böyük şair və dramaturq Hüseyn Cavidin həyatı və şəxsiyyəti, ədəbiyyata baxışı, poeziyası və dramaturgiyası, bədii yaradıcılığının poetikası, folklorla əlaqəsi və sənətkarlıq məziyyətlərinin tədqiqi təşkil edir. Kamran Əliyevin elmi fəaliyyətinin bir hissəsi də XIX, XX, XXI əsrlərdə yaşayıb yaratmış Azərbaycan ədəbiyyatı tarixinin tanınmış nümayəndələrinin həyat və yaradıcılığına aid apardığı tədqiqatlardır. Onun elmi fəaliyyətində folklorun tarixi, nəzəriyyəsi və poetikasına həsr olunmuş araşdırmalar da az deyil. Hansı ki, bu araşdırmalarda folklor və romantizm, folklor və yazılı ədəbiyyat, "Koroğlu" eposunun poetikası, folklorşünaslığın bir sıra problemləri

tədqiq edilmişdir. Folklora dair ən mühüm tədqiqat əsəri isə "Açıq kitab – "Dədə Qorqud" monoqrafiyası oldu. Bu monoqrafiya Azərbaycanla yanaşı Türkiyə və İran elmi mühiti tərəfindən də böyük rəğbətlə qarşılandı. Kamran Əliyev müəllimlər, şagirdlər, abituriyentlər üçün "Azərbaycan dili" və "Ədəbiyyat" adlı dərs vəsaitləri də tərtib etmişdir.

Kamran müəllimlə AMEA Folklor İnstitutunda rastlaşdıq. Əvvəllər sadəcə sanballı bir alim, tədqiqatçı, atamın dostu kimi tanıdığım bu xeyirxah insanın bilmədiyim tərəflərini gördüm. Onu bir müəllim kimi tanıdım. Bakı Avrasiya Universitetində pedaqoji fəaliyyətimiz müddətində onu tələbələrindən dinlədim. O, sadəcə tələbələri ilə dərsləri müzakirə edən bir müəllim deyil, əsl həyat dərsi verən müəllim idi. Səbəb də odur ki, müəllimliyi sadəcə bir peşə olaraq görməyən Kamran Əliyev tələbələrinə, dissertantlarına olduqca faydalı, qalıcı xatirələr buraxan müəllim cizgilərinə malik idi. O, tələbələrini ailədən biri kimi sevir, şəfqət göstərir, hər bir tələbə, dissertantla yaxından maraqlanır, onların gələcək planlarına müsbət yöndə təsir edəcək məsləhətlər verirdi.

Kamran müəllim, mühüm ədəbiyyatşünas alim, tədqiqatçı olmaqla bərabər, zəngin təxəyyülə malik, gözəl nasir idi. Onun həyat xatirələrindən, dünəndən, bu gündən bəhs edən hekayələri də cəmiyyət üçün faydalı, sağlam düşüncəli insan yetişdirməyi məqsəd qoymuş alimin, müəllimin yazılarıdır. Kamran müəllimin mənə bağışladığı son kitab "Qırmızı xətt" adlı romanı oldu. Romanında yenə də bəşəriyyətin mühüm varlığı olan insan və insanlıqla, insanı formalaşdıran cəmiyyətlə bağlı maraqlı fikirlərə rast gəlinir. Bu fikirlərini öz tələbəlik həyatından nümunələr, xatirələr əsasında dolğunlaşdırmış, ifadə etmişdir. Bu romanda da müəllimlik peşəsinin müqəddəsliyi, müəllim tələbə münasibətləri ön plandadır.

Romanın əsas qəhrəmanının həyatı çox maraqlı şəkildə təsvir edilmişdir. Xüsusilə də, sözügedən dövrdəki kənd həyatı, yaşayış qaydaları, insanların gündəlik həyat tərzi, yeniliklərin tətbiqi, özü ilə gətirdiyi müsbət və mənfi tərəflər çox maraqlı və real təsvir edilmişdir. Burada diqqəti cəlb edən əsas məqamlardan

biri də odur ki, oxumaq üçün yaşayışın çətin olmasının insana daha da cəsarət verdiyi təlqin edilir. İnsan nə qədər çətin şəraitdə, acınacaqlı vəziyyətdə, yarı ac, yarı tox yaşasa da, oxumaq ona bəzən sadəcə özünü inkişaf etdirmə, bəzən də bu vəziyyətdən çıxış yolu kimi görünür.

Romanın **“İmtahan”** adlanan I Fəslində müəllimliyin nə qədər müqəddəs bir peşə olduğunu, yolumuzda böyük işıq olduğunu görürük. Bəhs edilən çətin şəraitdə valideyn və müəllimlərinin səyi ilə məktəbi bitirib, şəhərə ali təhsil məqsədilə gələn şagirdin imtahan zamanı keçirdiyi hiss və duyğular, beynindəki suallar, daldığı xəyallar sanki hər bir ali məktəb arzusunda olanların hisslərinin tərcümanıdır. Əsərin qəhrəmanı imtahan verən zaman hər bir fənlə bağlı müəllimlərini xatırlayır, onların doğru təlimini alqışlayır.

II Fəsil **“Dağlı məhəlləsi”** sadə, zəhmətkeş insanların həyatından, həyat qanunlarından bəhs edir. Buradakı obrazlar doğruluq, düzgünlük rəmzidirlər. Məhəllə başçısı Höcətulla kişi, hamamçı Sədulla, dükançı Zeynəb, çörəkçi Zibeydə zəhmətkeş, halal zəhmətlə dolanan insanlardırlar. Zeynəbin tələbələrə nisyə mal verməsi, hamamçı Sədullanın tələbələrlə maraqlı söhbəti, Zibeydənin dadlı, ətirli çörəkləri əsərin yadda qalan epizodlarındandır. Oxucunu sanki keçmiş günlərə, saf, təmiz, zəhmətsevər insanlarla dolu xatirələrə aparır. Tələbəlik illərinin xoş xatirələri canlanır. Höcətulla kişinin əsas qəhrəmanı həyətindən qovması da əbəs deyil. Əsasən tələbə qızların kirayə qaldıqları həyətdə bir tələbə oğlanın hər gün o həyətdəki bir qızla yanaşı görünməsi dedi-qoduya səbəb olardı. Bu da tələbə qızlarını sanki Höcətulla kişiyə əmanət etmiş olan valideynlərdə ona qarşı inamsızlıq yarada bilərdi. Bəlkə də, oğlanın şirin sözlərinə aldanıb, qızın incinməsindən qorxmuşdur. Ona görə də heç nə düşünmədən, “bardağı daşıran son damladan sonra” oğlanı həyətdən uzaqlaşdırmaq qərarına gəlir, Höcətulla kişi. Bunu sərt şəkildə etsə də, o vaxtkı kişilərin zəhmini ifadə edir. Etməsində də haqlı səbəbləri vardır. Romandakı bu hissə də müəllifin insan və in-

sani münasibətlərlə bağlı doğru təsbitlərini ifadə etməkdə mühüm əhəmiyyətə malikdir.

Romanın başqa bir hissəsinə, III Fəslinə nəzər salaq. **“204 nömrəli avtobus”** adlanan bu hissədə müəllif bir avtobusa bir ömürlük xatirə sığdırıb. O qədər mükəmməl alınıb ki, sadəcə bir neçə dayanacaqda nə qədər xatirə bölüşülür, tanınmış simalar xatırlanır. Əhdinə sadiq qalan qəhrəman burada da sevimli müəllimlərindən danışır. Artıq əsərin bu hissəsində iki gənc arasında yaranmağa başlayan təmiz hisslərin tərənnümünə keçilir. Bu hisslər fonunda romanın “**Novruza bir gün qalırdı**” adlı IV Fəsli və **“Şamama”** adlı V Fəslindəki hadisələr çox real və səmimi bir şəkildə ifadə edilir.

Əsərin VI Fəsli oxuculara **“İmtahan”** başlığı altında təqdim edilir. Burada qəhrəmanın tələbəlik illərinin ən maraqlı, yenə də müəllimlərlə bağlı məqamları ön plandadır. Görünüşdə bir imtahandan söhbət getsə də, tələbəlik həyatının müəllimlərlə bağlı ən şirin anları xatırlanır. Müəllim tələbə dostluğunun, müəllimin tələbəyə övladı kimi yanaşmasının ən yaxşı örnəkləri tanınmış müəllimlərin simasında təsvir edilir. Əlbəttə, bəzən anlaşılmazlıqlar da ola bilir. Ancaq haqlı olaraq Kamran Əliyev üçün müəllimləri çox dəyərlidir.

VII Fəsildə (**“Konfrans”)** qəhrəmanın tələbəlik illərindəki fəallığından bəhs edilir. Tələbələrin oxumaq həvəsi, araşdırmaya meyillilik, yenilik tərəfdarı olmaları vurğulanır. Müəllim, müəllimlik peşəsi ilə bağlı mühüm fikir və düşüncələrini paylaşan Kamran Əliyev hadisələrə real şəkildə yanaşır. O, hər sahədə olduğu kimi, bəzən müəllim heyətində də nadir hallarda qismən dürüstlükdən uzaq, vəzifə, yüksəliş naminə hətta bir tələbənin gələcək taleyi barəsində düşünmədən qərar verən müəllimlərə də rast gəlindiyini nəzərdən qaçırmır. Ona görə nəzərdən qaçırmır ki, axı bu romanda cərəyan edən hadisələr eyni zamanda bir həyat məktəbidir. Vəzifəsindən, peşəsindən asılı olmayaraq, hər niyyətdə, hər xarakterdə insanları vermək, ondan oxucunun bir dərs götürməsini, yaxşı, pisi ayırt etmə bacarığının formalaşmasını təmin etməkdir. Ancaq xeyirxah müəllimlər, hər zaman tələ-

bənin arxasında, hətta sağında və solunda dayanan, onun gələcəyə atılacaq addımlarını qorxmadan atmasına dəstək olan, ürəkli, savadlı müəllimlərimizin təbliği əsərdə ön planda dayanır.

İnsanın həyatında mühüm bir dövrü əhatə edən tələbəlik həyatının təsviri ilə dolu romanın **"Yataqxana"** adlı VIII Fəslində tələbələrin yataqxana həyatının da maraqlı anları qeyd edilir. Hər daim fəaliyyətdə olan tələbələr burada da fəaliyyətlərini davam etdirirlər, qəzet hazırlayır, şeirlər yazırlar və gələcəyin ən məşhur simaları heç özləri də bilmədən öz aralarından çıxır...

Romanın sonu, IX Fəsil **"Görüş"** adlanır. İlk sevgili ilə son görüş də burada bütün təsirli notları ilə verilir. İnsan həyatının sanki bir dövrü bitir və X Fəsildə (**"Qatarda")** o, artıq şəxsiyyət kimi formalaşaraq yeni bir dövrə qədəm qoyur. Təmiz, saf hisslərlə bağlı olduğu ilk sevgisi və maraqlı, xoş xatirələrlə dolu unudulmaz tələbəlik illəri isə arxada qalır. O illər ki, hər bir oxucu onlarda özünə aid nə isə tapa bilir.

Ümumilikdə, əsərdə bir gəncin tələbəlik illəri, tələbə yoldaşları, müəllimləri ilə münasibəti, yataqxana həyatı, ilk həqiqi sevgisi gözəl və real şəkildə təsvir edilmişdir. Bunların fonunda müəllim və tələbə münasibətləri, tanınmış elm adamları, sadə insanları onlara xas cəhətləri ilə verməyə müvəffəq olunmuşdur. Əsərdə maraq doğuran mühüm məqam odur ki, bütün cərəyan edən hadisələr, danışıqlar müəllifin xatirəsində necə də dəqiqliyi ilə saxlanılmışdır. Bu isə ondan irəli gəlir ki, insan həyatının illər keçsə də unudulmayacaq anları vardır. Bunlar da həyatımızın qırmızı xəttini təşkil edir. Bunları isə doya-doya yaşamaq hər kəsə nəsib olmur. Bunlara sahib olan qədir-qiymət də bilməyi bacarmalıdır.

Bədii yaradıcılığından da onun əsas mövzusunun insan və cəmiyyət problemi olduğu aydın şəkildə özünü göstərir. Cəmiyyətin doğru münasibətlər əsasında qurulması, insanlığın daima ön planda olduğu, keçmişi unutmadan gələcəyə də böyük ümidlərlə addımlamağı təbliğ edən bədii yaradıcılıq! Kamran Əliyevin xatirə dolu romanı ancaq bu şəkildə qurula bilərdi...

Əlbəttə ki, onun bədii yaradıcılığı sadəcə bu romandan ibarət deyildir. Ancaq ötən ilin yay aylarında Kamran müəllim bu romanı yekunlaşdırıb mənə göndərdi və bir oxucu kimi fikrimi soruşdu. Çünki Kamran müəllim sadəcə yazmaq xatirinə yazmadı heç vaxt. Onun üçün oxucularının rəyi hər zaman önəmli oldu. Bunu bildiyim üçün romanı oxuyub Kamran müəllimə geniş bir məktub yazdım. Burada da həmin məktubdan sadəcə bir hissəni paylaşdım.

Bir də şöbə müdiri olaraq Kamran müəllim var. Qayğıkeş, səmimi, mehriban, uzaqgörən, xeyirxah insan! Vəzifəsini icra edən zaman da insan və cəmiyyət anlayışını ön planda saxlayan Kamran müəllim.

AMEA Folklor İnstitutunda, 2012-ci ildə Folklor və yazılı ədəbiyyat şöbəsi fəaliyyətə başladı. Şöbəyə rəhbər olaraq Kamran Əliyev təyin edildi. Kamran Əliyev isə yeni yaradılan şöbəsinə əməkdaşlar seçdi. Hansı ki, bu əməkdaşlarla düz səkkiz il birlikdə çalışdı. Kamran Əliyevin şöbəsində ailə ab-havası hiss olunurdu. O, öz işçilərini ailəsinin bir üzvü kimi qəbul etmişdi. Bunu görən, duyan işçilər də onu ailənin böyüyü kimi qəbul etdilər. İllər bir-birini əvəz etdikcə hörmətli alimin ətrafında daha sıx birləşən əməkdaşlar onun məsləhəti olmadan bir qərar belə vermək istəmirdilər. Hətta ailələri ilə bağlı mühüm qərarları belə müdrik insana danışmayınca qəbul etmirdilər. Bunu görən Kamran müəllim isə öz həyatının ən maraqlı anlarını, tələbəlik illərindən tutmuş, müəllimləri, alimlik dərəcəsi aldığı vaxtlar və s. haqqında maraqlı söhbətlərini şöbə əməkdaşları ilə bölüşürdü. Bu söhbətlər sadəcə özünün həyatı ilə bağlı olmurdu. Bu söhbətlərin məğzini nəyi necə, nə vaxt etmək lazım gəldiyi, veriləcək qərarların doğru olub-olmadığı, insanlıq haqqında ən zərif hisslər təşkil edirdi. Çünki əsl pedaqoq idi Kamran müəllim. Bilirdi, bacarırdı dinləyicinin ürəyinə gedən yolu tapmağı. Onu doğru istiqamətləndirməyi bacarırdı. Müəllimlərindən danışanda sanki müəllimlə bağlı davranış qaydalarını öyrədirdi. Gəncliyindən bəhs edəndə gəncliyin doğru, yanlışlarını göstərirdi. Təhsillə bağlı görüşləri, gənc ailələrə, ailə quracaqlara məsləhəti onu şöbəyə daha çox bağlayırdı.

Dissertantlarının elmi rəhbəri ilə yanaşı mənəvi ataları da olurdu Kamran müəllim. Onun sayəsində şöbə əməkdaşları hər işə böyük ümid və inamla başlayırdılar. Bilirdilər ki, Kamran müəllim kimi mənəvi dayaqları var. Onları zəhmət dolu, çətinlik dolu yolda tək addımlamağa qoymaz! Haqlı da idilər. Kamran müəllimin isti nəfəsi şöbə əməkdaşlarını hər zaman isitdi.

Rastlaşacağımız insanları seçmək kimi haqqımız yoxdur. Ancaq Kamran müəllim kimi həyatımıza anlam qatan, üzərimizdə böyük əməyi olan dəyərli insanlarla çox az rastlaşa bilirik və bu bizim üçün əsl həyat dərsi olur. Kamran müəllim bizimlə keçirdiyi bir neçə saata nələri sığdırırdı ilahi! Hər gün şöbəyə gəlişini həsrətlə gözləyirdik. Son zamanlar səhhətindəki problemlərlə bağlı onu çox yormaq da istəmirdik. Ancaq o, söhbətə başlayanda bütün dərdlər unudulurdu. Sadəcə, bir ömürlük dərs saatı başlayırdı... Onunla birlikdə səkkiz il çalışdıq və o gedəndən sonra mənim də şöbədəki fəaliyyətimin sonu gəldi... Bəli, həyat insanları elə-belə rast gətirmir. Mən də sanki o böyük ürəkli insanı yaxından tanımaq üçün Folklor və yazılı ədəbiyyat şöbəsinə gəlmişdim...

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Kamran Əliyevin araşdırmalarından xəbərdar olanlar, onu şəxsən tanıyanlar bilirlər ki, o, ədəbiyyatımızın mühüm tədqiqatçısı, elmi mühitdə özünəməxsus yeri olan əsl alim, ziyalı, yazıçı və ən əsası da həyatını tələbələrinə, dissertantlarına həsr etmiş müəllim ömrü yaşadı. Onun yaşadığı müəllim ömrü isə şirin xatirələrlə dolu, şərəfli bir ömürdür. Özü, sözü bir olan böyük ürəkli insan arzu, ümidlə yaşadı, əməli ilə şöhrətləndi, sözü ilə ömürlük dünyamızda qaldı! Ruhu şad olsun!

**Fidan QASIMOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*
*Folklor nəzəriyyəsi şöbəsinin müdiri*

# ARAZ QIRAĞINDAN XƏZƏR DƏNİZİNƏDƏK YAŞANAN ÖMÜR

***Dəyərli ziyalı, gözəl insan, elini, obasını qəlbən sevən, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, unudulmaz alim Kamran İmranoğlu haqqında kövrək xatirələr.***

O vaxtı ömrümüzün bahar çağı idi. Oğuz yurdu Şərur mahalının təbiəti nə qədər al-əlvan, gözoxşayan, qəlb ovsunlayan olubdursa, adamlarının da sinələri söz boğçalı, duyğuları şeiriyyətli, söhbətləri cəlbedici olubdur.

Təbiətin ecazkar bir çağında qəlbləri sözlə dolu, əlləri şagird dəftərli, müxtəlif yaş qrupundan yazarlar ədəbiyyat həvəskarları Şərur şəhərində (o vaxtkı İliç şəhəri) dərc olunan "İşıqlı yol" (indiki "Şərurun səsi") qəzetinin redaksiyasına toplaşdılar. Və uzun sürən müzakirələrdən sonra qərara alındı ki, rayonun ərazisində yaşayan söz adamlarını bir yerə toplayan, onların yaradıcılığını istiqamətləndirən ədəbi-birlik yaradılır və adı da "Şərur qönçələri" adlanır. "İşıqlı yol" qəzetinin nəzdində bu ədəbi birliyin fəaliyyət göstərdiyi yarım əsrdən artıq bir dövrdə onlarla tanınmış ədəbiyyat adamlarının ilk müraciət etdiyi ocaq "Şərur qönçələri"nin məşğələləri olmuş və bu ocaqdan müxtəlif guşələrə pərvazlanmışlar.

Azərbaycan ədəbiyyatşünaslığına yeni-yeni sanballı töhfələrini bəxş etmiş, 1970-ci ilin aprel ayından "İşıqlı yol" qəzetinin nəzdində yaradılan "Şərur qönçələri" ədəbi məclisində bir araya gələnlər – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru, akademik Muxtar Kazımoğlu (İmanov), Folklor İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Kamran Əliyev, tarix elmləri doktoru, ömrünün gənclik illərində dünyasını dəyişmiş Vəli Nəbiyev, filologiya elmləri doktorları Akif İmanlı, Əbülfəz Əzimli, Sona Vəliyeva,

fəlsəfə doktorları Vaqif Məmmədov, Seyfəddin Eyvazov, Həsənəli Eyvazlı, Vahid Rzayev ilk bədii yazılarını bu ədəbi birliyin məşğələlərində oxumuş, ilk qələm təcrübələri olan bədii yazılarını "İşıqlı yol" qəzetinin "Şərur qönçələri"nə təqdim edir, saylarında vaxtaşırı dərc olunurdular.

Gətirdiyim bu nümunələrin hamısı ömrünü ədəbiyyatşünaslıq elminə həsr etmiş, sanballı əsərlərin müəllifi, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, gözəl insan, doğulub boya-başa çatdığı elini-obasını qəlbən sevən, bu gün haqq dünyasına qovuşan Kamran İmran oğlu Əliyevin keçdiyi sadə və şərəfli ömür yolu haqqında xatirələr yazmağıma əsas yaradır. Bu mənim üçün nə qədər çətin və məsuliyyətli olsa da, onunla bağlı yaddaşımda yaşayan acılı-şirinli xatirələrdən söz açmaq o qədər də şərəflidir.

... O illərin yaşlı adamları deyərdi ki, Şərilin 72 kəndi var. Bir ucu Sədərəkdən tutmuş Danzikə, bir ucu Xok kəndindən tutmuş, Araz qırağındakı kəndlərə qədər uzanır. Kamran Əliyev də Araz qırağındakı Diyadin kəndində dünyaya göz açmışdı. Hələ uşaq yaşlarından duyub və görübdür ki, boy atdığı vətənin torpaqları yadellilər tərəfindən tikanlı məftillərlə "həbs" edilibdir.

Anası və ya bacıları ilə Araz çayının sahillərindəki kəndlərinə məxsus ərazilərə cacıq, quzuqulağı, göbələk yığmağa gedəndə, kənd uşaqları ilə çayın sularında çimmək istəyəndə, özlərinin düzəltikləri qarmaqla balıq tutmaq həvəsinə düşəndə, qoyun-quzunu, mal-qaranı çəmənliyə aparanda üz-gözlərindən vəhşilik yağan əlləri avtomatlı sarıbəniz əsgərlər yollarını kəsər, yüz hektarlarla sahəyə onları buraxmazdılar. Kamran Əliyev uşaqlıq illərindən öyrənmişdi ki, tikanlı məftillərə alınmış torpaqlar da, Araz çayının o biri sahili də çox sevdiyi Vətən torpaqlarıdır.

...Cəmi 4 il oxudu kənd məktəbində. Axı ibtidai məktəb idi məktəbləri. Sonra qonşu Tumaslı kənd orta məktəbində təhsilini davam etdirdi, orta təhsil aldı. Və bu illərdə İliç şəhərində nəşr olunan "İşıqlı yol" qəzetində kənd təsərrüfatı işlərindən bəhs edən məqalələri işıq üzü gördü, imzası tanındı. O illərdə qəzetlərdə "müxbir postları" fəaliyyət göstərir, qəzetin əməkdaşların-

dan başqa kənar yazarları da öz ətrafında birləşdirirdi. İmzalarımız hər birimizə yaxşı tanış idi, lakin bir-birimizi görməmişdik. 1966-1968-ci illər ərzində Kamran Əliyevin imzası ilə onlarla müxtəlif mövzulu məqalələri dərc olundu. Bu yazılar arasında kəndlərdə yarımçıq saxlanılan işlər, təmir olmayan elektrik avadanlıqları, texnika, yararsız xidmətlər, iaşə obyektləri haqqında tənqidi yazılar da yer alırdı. Bu da məktəbli qələm sahibinin istedadından və cəsarətli qələm sahibi olacağından soraq verirdi.

Keçən əsrin 60-cı illərinin sonunda və 70-ci illərində ali məktəblərə qəbul olunanlar çox diqqət mərkəzində saxlanılırdı. Şərur rayonunun Tumaslı kənd orta məktəbinin məzunu Kamran Əliyev də sənədlərini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə vermiş və imtahanlardan uğurla çıxaraq, tələbə adını qazanmışdı. Bu xoş xəbər Kamran Əliyevin ailəsi ilə birgə kənd sakinlərinin, təhsil aldığı məktəbin şagird və müəllim kollektivinin, "İşıqlı yol" qəzetinin əməkdaşlarının və qəzetin nəzdində fəaliyyət göstərən "Gənc müxbirlər" postunun üzvlərinin, bütövlükdə Şərur elinin sevincinə səbəb olmuşdur. Yada düşəndə ürəyin tellərini sızladan tələbəlik illərində Kamran Əliyev öz bilik və bacarığı, təşkilatçılığı, tədqiqatçılığı ilə universitetin professor-müəllim heyətinin diqqətini özünə cəlb etmişdir. Ali məktəb illərində onun bədii və elmi yazılarını "İşıqlı yol", "Şərq qapısı", "Lenin tərbiyəsi uğrunda", "Ədəbiyyat və incəsənət" kimi qəzetlərdə oxuyurduq.

1974-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirən Kamran Əliyevin təyinatı Şərur rayon Təhsil Şöbəsi tərəfindən rayonun ən böyük tədris müəssisələrindən olan Xanlıqlar kənd orta məktəbinə verilir. İki il müddətində bu məktəbdə müəllim kimi çalışır, sevimli şagirdlərinə Azərbaycan dilinin və ədəbiyyatının incəliklərini öyrədir. Məhz Kamran müəllimin təşəbbüsü ilə məktəbin o illərdəki gənc müəllimləri Telman Qəhrəmanov, Bahəddin Rəsulov, Məhəmmədəli Məmmədov və başqaları sinifdənxaric, məktəbdənkənar tədbirlərin keçirilməsinə, şagirdlərə əlavə və hərtərəfli biliklərin verilməsinə daha çox diqqət yetirirdilər.

Kamran müəllimin fəaliyyətini diqqətlə izləyən, onun dərslərini dinləyib razı qalan Təhsil Şöbəsinin əməkdaşları onu rayon müəllimlərinin avqust və yanvar müşavirələrinin bölmə iclaslarında məruzələr oxumağa dəvət edirdilər.

O, Şərur rayonunda tanınmış Azərbaycan dili və ədəbiyyatı müəllimləri Əli Babayev, Əli Kərimbəyli, Kamil Qafarov, Maral Hüseynova, Mirəhməd Seyidov, Abbas Hüseynov, Teymur Əliyev kimi pedaqoqlarla birgə seminarlarda, fənn olimpiadalarında, bədii əsərlərin qiraətində, inşa yazı müsabiqələrində münsiflər heyətinin üzvü kimi iştirak edirdi.

Pedaqoji iş stajının az olmasına baxmayaraq, Şərur rayon Təhsil şöbəsinin rəhbərliyi Kamran müəllimi təhsil şöbəsinin metodkabinetində metodist vəzifəsində işləməyə dəvət edir. Lakin Kamran Əliyev təhsilinin artırılmasına maraq göstərir, iki illik müəllimlik fəaliyyətindən sonra sənədlərini Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına təqdim edir və XX əsr Azərbaycan Ədəbiyyatı şöbəsinin aspiranturasına daxil olur. Beləcə, bir ömrün çətin və şərəfli tədqiqat işləri başlayır.

“XX əsr romantiklərinin ədəbi-nəzəri görüşləri” mövzusundakı dissertasiya işini tamamlayan Kamran müəllim 1980-ci il may ayında akademiyanın akt zalında 3 ildən artıq yuxusuz gecələrin, gərgin əməyin bəhrəsi olan elmi işini müdafiə edir. Bundan sonra gənc alim elmi axtarışlarını inadla, ilhamla davam etdirir...

Mən Kamran müəllimi tanıdığım gündən onun çoxsahəli fəaliyyəti və elmi təfəkkürü, məntiqi düşüncə tərzi, idrak bacarığındakı metamorfozalar da təsdiq edir ki, o, yaradıcılıq yolunda ehtişamlı görünmək üçün yox, gerçəkləri olduğu kimi obyektiv baxış mövqeyində dəyərləndiyi üçün cəsur və iradəli görünür.

Çoxşaxəli yaradıcılığa malik olan alim-yazıçının elmi-bədii və publisistik yaradıcılığında nəzər-diqqəti daha çox cəlb edən özünəməxsusluğudur. Hansısa işlənmiş, yaxud tamamilə yeni olan bir problemi tədqiq edərkən elə məsələyə toxunur ki, elmi-nəzəri baxımından yeni və orijinal görünür. Bunun əsas səbəbi müəllifin məsələlərə geniş prizmadan yanaşması, tədqiqat obyek-

tinə çevirdiyi problemi dərindən öyrənməsi, yalnız milli ədəbiyyatşünaslığımızın deyil, eyni zamanda dünya və ümumtarix ədəbi prosesinin müasir nailiyyətləri baxımından təhlil etməsidir.

Kamran Əliyev istər orta məktəb illərində, istər tələbəlik, istərsə də müəllimlik illərində, Bakıda çalışdığı müddətdə bədii yazılarının ilk əlyazmasını "Şərur qönçələri" (1990-cı ildən "Şərur") ədəbi birliyində oxuyaraq, dərc olunmaq üçün "İşıqlı yol" (indiki "Şərurun səsi") qəzetinə təqdim edərdi. O, ədəbi birliyin məşğələlərində bu gün Azərbaycan ədəbiyyatında layiqli yer tutan şairlərdən – İnqilab Orxanın, Vaqif Məmmədovun, Rafiq Odayın, Kəmalə Nəsrinin, Telman Ağrıdağın, Budaq Təhməzin, ədəbiyyatşünas alimlərdən Akif İmanlının, Əbülfəz Əzimlinin yaradıcılığına münasibətini bildirər, oxunmuş əsərlərə düzgün və obyektiv fikirlər söyləyər, iradlar bildirərdi. Sonrakı illərdə Kamran müəllim bu müəlliflərin yaradıcılıqları haqqında ədəbi resenziyalar yazmış, respublika mətbuatında dərc etdirmiş, kitablarının ön söz müəllifi, redaktoru olmuşdur.

Kamran Əliyev yaradıcılığında vətənpərvərlik mövzusu ön sırada dayanmışdır. Odlar yurdu Azərbaycanın taleyi, onun torpaqlarının yadellilər tərəfindən yarı bölünməsi, Təbriz həsrəti, Naxçıvan diyarının doğma anasından ayrı düşməsi, 28 aprelin hər il təntənəylə bayram edilməsi, bir çox iclasların Azərbaycan dilində keçirilməməsi, qərar və göstərişlərin rus dilində verilməsi, tariximizin saxtalaşdırılması onun ruhu kimi əsərlərinə də hopmuşdur. Bəxtiyar Vahabzadənin "Gülüstan", Xəlil Rzanın "Yaralı məftillər" əsərlərinin əlyazmalarını əldə edərək, əzbər öyrənmiş və bu kimi əsərlərin milli ruhlu gənclər arasına da yayılmasına nail olmuşdur.

"İşıqlı yol" qəzetinin 3 avqust 1978-ci il tarixli sayında "Getdilər" adlı şeiri dərc olunmuşdur. Qəzetin şöbə müdiri Elman Telmanoğlu, Kamran Əliyev və mən redaksiyanın həyətindəki çinar ağacının kölgəsində oturub çay içirdik. Biz Kamran müəllimin çöhrəsindəki tutqunluğu aydınca hiss etdiyimizdən narahat idik... nə olduğunu da soruşmaq istəmirdik... Şeirinin qəzetdə çap olunduğunu təbrik edəndə azca da olsa özünə gəldi,

gülümsədi və sonra: "Məni kədərləndirən də elə bu şeirdir. Qəlbimin ağrısı ilə yazmışam bunu", – dedi.

1941-45-ci illər arası nə qədər oğullarımız Böyük Vətən müharibəsi dediyimiz döyüşlərə cəlb edildilər, öz canlarını Vətənə qurban verdilər. Sual olunur "Hansı Vətənə?" Nə vaxtdan SSRİ bizə Vətən olubdur? Niyə bizim qönçə balalarımız pardaxlanıb çiçək açmadan solmalıydılar; niyə analar oğullarının arxasıca su yerinə gözyaşı səpməliydilər? Biz nə vaxt bütöv və müstəqil dövlət olacağıq? Bütün bu suallardan sonra qəzetdə dərc olunan "Getdilər" şeirini çox kədərli və həyəcanlı bir səslə oxudu:

Oğullar gedəndə fikirlər haça,
Oğulları yaladılar, öpdülər.
Oğullar gedəndə arxalarıca
Su yerinə göz yaşını səpdilər.

Oğullar gedəndə durnalar kimi
Bacılar yollara gəlib qondular.
Oğullar gedəndə bir vüqar kimi
Analar kandarda qalıb dondular.

Getdilər qol-qola, bir halay kimi,
Kənddən toyları da apardı onlar.
Getdilər hay kimi, bir haray kimi,
Kəndin ürəyini qopardı onlar.

Getdilər, güllələr insan keyitdi,
Min istək, min ümid, min arzu qaldı.
Analar əzabla oğul böyütdü,
Analar oğula tamarzı qaldı.

Hər addımda, hər qarışda, hər səddə,
Onlar qəlpə oldu, al-qan oldular.
Qaldı sevdikləri gözəllər kənddə,
Getdilər vətənə qurban oldular!
Getdilər vətənə qurban oldular!

Bu söhbətdən düz 14 il sonra Şərur şəhərindəki çinar ağacının altında yenə üçümüz idik – Elman Telmanoğlu, Kamran İmranoğlu və İbrahim Yusifoğlu. Xalqımızın başına gətirilən bəlalar hər birimizin qəlbinin ağrılarıydı. "Şanlı Qızıl Ordu"muzun əsgər və zabitləri Bakı şəhərində, onların əlaltıları olan erməni vəhşiləri isə Naxçıvan Muxtar Respublikasının ərazilərində, xüsusilə Sədərək kəndində qırğınlar törətmiş, SSRİ uğrunda həlak olan ata və analarımızın oğul və nəvələrini şəhid etmişdilər. Kamran İmranoğlu da bu Vətənin övladı kimi şəhidlərimizin xatirəsini əziz tutmuş, "Sədərək sahilləri" adlı publisistik kitabını yazıb, nəşr etdirmiş, oxucularına və şəhid ailələrinə çatdırmışdı...

2014-cü ilin iyun ayında Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi və Qurultayı keçirildi. Biz Naxçıvan Muxtar Respublikasından gələn 7 nəfər nümayəndə də bu tədbirlərdə iştirak edirdik. Qurultay Milli Dram Teatrının binasında keçirildi. Fasilə müddətində çay içmək həvəsi ilə həyətdə təşkil olunmuş yerə gəldik. Gün isti, kölgəlik yox idi. Çay içənlər üçün oturmağa yer, çayı gətirməyə çaynik çatmırdı. Bu çaşqınlıqda Kamran müəllimin səsini eşitdim: "İbrahim Yusifoğlu, "Şərur qönçələri"ni buraya gətir. Doğrusu, hamılıqla Kamran müəllimin etdiklərinə heyrətimiz daha da artdı. Demə, vəziyyətin bu halda olacağını əvvəlcədən hiss etdiyindən o, fasilədən əvvəl buraya gəlir, yeganə ağacın kölgəliyində stol və stulları yerləşdirir, bir neçə çaynik və stəkanları sifariş verir. Çay masası arxasında əyləşəndə xalq şairi Zəlimxan Yaqub bizlərlə salamlaşdı. Kamran müəllim onu çaya dəvət etdi. Zəlimxan müəllim də: "Naxçıvanlılarla çay içmək şərəfdir", – deyib, bizlərlə əyləşdi. Elə bu zaman şair Adil Cəmilin gur səsi eşidildi: "Kamran müəllim, İbrahim Yusifoğlu da buradadır, deyəsən, "Şərur qönçələri"nin məşğələsini keçirirsiniz". Zəlimxan müəllimin sual dolu baxışlarına Kamran müəllim gülümsəyərək aydınlıq gətirdi: "Şərur rayonunda "Şərur qönçələri" adlı ədəbi birlik fəaliyyət göstərir. Bu gün qurultaya nümayəndə seçilən akademiklərdən İsa Həbibbəyli, Muxtar Kazımoğlu (İmanov), akademiyanın müxbir üzvü Kamran İmranoğlu (Əliyev), şair və yazıçılardan Vaqif Məmmədov, Asim Ya-

digar, Həsənəli Eyvazlı, Elxan Yurdoğlu, İbrahim Yusifoğlu, Aləmzar Sadıqqızı, Məmməd Tahir, Kəmaləddin Qədim, Aləm Kəngərli "Şərur qönçələri" ədəbi birliyinin üzvləri və yetirmələridirlər". Zəlimxan Yaqub hər birimizlə tanış oldu, ədəbi birliyin üzvlərinə yaradıcılıq yollarında uğurlar arzuladı.

Kamran müəllim özünəxas təəssübkeşliyi nəticəsində Azərbaycan Yazıçılar Birliyinin qurultayının bir saatlıq fasiləsi müddətində imkanı daxilində doğulduğu torpağın və onun qoynunda ətir saçan qönçələrinin adını daşıyan "Şərur qönçələri" ədəbi birliyinə öz dərin məhəbbətini və tükənməz sevgisini nümayiş etdirdi.

50 ildən artıq bir dövrdə qardaş münasibətində olduğum Kamran İmranoğlu ilə olan acılı-şirinli xatirələrimi bir məqaləyə sığdıra bilməyəcəyimi bilirəm. Onu bilirəm ki, Şərur elinin gen sinəsində aşıb-daşan Arpaçayın hay-harayında, tikanlı məftilə salınmış Xan Arazın sularında, Xanlıqlar kəndinin geniş və işıqlı məktəb binasının sinif otaqlarında "Şərurun səsi" qəzetinin nəzdində fəaliyyət göstərən "Şərur" ədəbi birliyinin məşğələlərində, kitab müzakirələrində, şəhid məzarlarının ziyarətində, igid qazilərlə görüşlərdə Bakı şəhərindəki II Fəxri xiyabanda özünə əbədi məkan seçmiş müqəddəs ocaqda xatırlanacaq Kamran müəllim!

İrili-xırdalı məqalələri, qalın-nazik kitabları, on cildlik sanballı yaradıcılığı yaşadır Kamran İmranoğlunu.

Araz qırağı kənddən Xəzər dənizinədək şərəfli və ləyaqətli yol seçən, bu yollarda həyatın hər bir acısına dözən, şirinini dadan, müqəddəs bir ömür yaşayan Kamran İmran oğlu Əliyev əbədi olaraq qəlblərdə yaşayacaqdır.

**İbrahim YUSİFOĞLU**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*

## SƏMİMİ QONŞU VƏ XEYİRXAH MƏSLƏHƏTÇİ

Qonşu və qonşuluq münasibətləri haqqında min illərin sınağından çıxmış aforistik deyimlər ulu babalarımız tərəfindən ən qiymətli mənəvi sərvət kimi yaradılmış və bu günümüzə qədər gəlib çıxmışdır. Babalarımız nə qədər də doğru deyiblər: "Uzaq qohumdan yaxın qonşu yaxşıdır."

Mənim 71 illik yaşam dövründə ən böyük qazanclarımdan biri də yaxşı insanlarla, ailələrlə qonşu olmağım olub. Bu gün mən M.Ə.Rəsulzadə qəsəbəsindəki İ.Dağıstanlı küçəsi 57 saylı kooperativ binada 1989-cu ildən yaşayıram. Ondan əvvəl isə, yəni 1975-ci ildən Yasamal rayonundakı Şərif Şərifzadə küçəsi 33 saylı ünvanda yerləşən Aspirantlar yataqxanasında yaşamışam. Yataqxanada yaşamış 64 ailə 1989-cu ildə indi yaşadığımız binaya köçmüşdür.

Zaman öz işini görür, yavaş-yavaş, sanki növbə ilə bu dünyadan köç edir, əbədiyyət dünyasına qovuşuruq. Köç edənlər bu gün bu həyatda müvəqqəti yaşayanların qəlbində silinməz izlər qoyub gedirlər. Onları əbədi dünyalarına yola salarkən təəssüf hissi ilə deyirik:

- Ay dadi-bidad, bir azman insan da bu dünyadan köç etdi.

Qəlbimizdə əbədiyaşar eşq statusu qazanan və 2020-ci il dekabr ayının 24-də dünyasını dəyişən qonşumuz Kamran İmran oğlu Əliyev də belə azman insanlardan biri idi. Şair Zeynal Xəlilin aşağıdakı misraları bu yerdə nə qədər də qiymətli söylənmişdir:

- Kimlər gəldi, kimlər getdi,
Bu dünyadan, bu dünyadan.
Arif olan nakam getməz,
Bu dünyadan, bu dünyadan.

Kamran müəllim də bu dünyadan nakam getmədi. Doğmalarının, yaxınlarının, dostlarının, qonşularının yaddaşında dərin izlər qoyub getdi.

Kamran müəllimlə qonşuluğumuzun 44 illik bir tarixi var. Bu gün 44 rəqəmi bütün Azərbaycan vətəndaşları üçün müqəddəs bir rəqəmdir. 44 gün davam etmiş Zəfər yürüşü nəticəsində

biz torpaqlarımızı yağı düşmənin işğalından azad etdik. Nə yaxşı ki, Kamran müəllim də bu zəfər gününü yaşadı, Qələbə Paradının şahidi oldu.

Kamran müəllimlə ilk görüşümüz 1976-cı ildə Elmlər Akademiyasının Aspirantlar yataqxanasında olub. Düz 13 il həmin yataqxanada yaşadıq. Ailə qurduq, övladlarımız dünyaya gəldi. O zaman çox gənc idik. Hərəkətlərimizdə, davranışımızda, ailəmizə və qonşularımıza münasibətlərimizdə saf olmağa çalışır, problemlərimizin həllində bir-birimizə kömək əlimizi uzadırdıq. O illərdə biz Kamram müəllimi təvəzökar, iddiasız ömür sürməyi baçaran, halal zəhmətlə yaşayan bir qonşu kimi tanıdıq.

Bir dəfə bir şəxs Həzrəti Peyğəmbərdən soruşur:

- Mənim etdiyim əməllərin hansının yaxşı, hansının piss olduğunu necə bilərəm?

Həzrəti Peyğəmbər cavab verir:

- Sənin etdiyin əməllər əgər qonşular tərəfindən rəğbətlə, xoş qarşılanarsa, sən bil ki, bu gözəl əməldir.




***Qonşular professor Kamran Əliyevin 60 illiyi ilə əlaqədar keçirilən ziyafətdə: sağdan sola – Maarif Xalıqov, Müseyib Yunusov, Fuad Sadıqov, Kamran Əliyev, Mətləb Məmmədov***

Kamran müəllim qonşulara münasibətdə özünəxass əxlaqı ilə seçilən, onlarla konfliktə getməyən, onların qədrini bilən, hörmətini saxlayan bir insan idi. Hətta qonşular arasında hər-hansı bir narazılıq yarananda onları sülhə çağırardı. Azərbaycan tarixini də gözəl bilən Kamran müəllim həmin məqamlarda Şirvanşah I Axsitanı onlara misal göstərərdi. Qeyd edərdi, məhz Şirvanşah I Axsitanın üç qonşu dövlətlə - Səlcuqlar, Eldənizlər və Gürcüstanla mehriban dostluq münasibətləri yaratması həmin dövlətlərdə əmin-amanlığın qorunmasında mühüm rol oynamışdır.

Qonşularımızın böyük əksəriyyəti Kamram müəllimi övladlarının toy məclisinə dəvət edərdi. Kamram müəllim toy məclisinə nə tez, nə də gec gəlməzdi. Kamran müəllimin həyat yoldaşı Tünzalə xanımla birlikdə şənlik zalına daxil olması bir xoş, yadda qalan mənzərə idi. Ağır və təmkinli addımlarla onlar üçün ayrılmış masaya yaxınlaşan Kamran müəllim stulu çəkərək həyat yoldaşını əyləşdirər, daha sonra isə ayaqüstü qonşuları salamlayaraq əyləşərdi. Hər bir toy məclisimizdə ürəkdolusu oynayardı. Kamran müəllimin toyda çıxış edərək gənc ailə quranlara xeyir-dua verməsi isə şənlik sahibləri üçün böyük mükafat idi. Hamımız bu arzu ilə yaşamışıq.

Kamran müəllim yaşadığımız evin həyətinə düşərkən hamının diqqətini özünə çəkərdi. Həyətdə olan kişi sakinlərin çoxu ona yaxınlaşaraq görüşməyi özünə borc bilirdi. Kamran müəllim həyətdə olan oturacaqda əyləşər, qonşularla şirin-şirin söhbət edərdi. Mən yaşadığım mənzilin pəncərəsindən tez-tez həmin oturacağa baxır, Kamran müəllimi axtarır, onu tapa bilmir, kövrəlir, ürək ağrısı ilə pəncərəni örtürəm.

Kamran müəllimin səciyyəvi cəhətlərindən biri də səxavətli olması idi. Bu səxavət lazım olan məqamlarda onun verdiyi qiymətli məsləhətlərdə öz təsdiqini tapırdı. Belə məsləhətlərdən, təkliflərdən ikisi şəxsən mənim həyatımda böyük rol oynamışdır. Belə ki, biz qonşular – Kamran müəllim, Muxtar müəllim, Müseyib müəllim, bu sətirlərin müəllifi olan mən, eyni zamanda yaxın dostlarımız Adil Cəmil və Aydın Kərimov tez-tez yaxınlıqda olan “Dendropark”da yerləşən çayxanaya gedir, söhbət

edir, dincəlirdik. Kamran müəllimlə olan bu çay məclislərimiz çox maraqlı olurdu. Burada etdiyimiz söhbətlər zamanı Kamran müəllimin gözlərindən, ürəyindən, bəlkə də bütün varlığından ətrafa, bizlərə qəribə, cazibəli, sehrli bir nur seli axır, onu dinləyənlərin üzünü, gözünü, qəlbini işıqlandırırdı.



***"Dendropark"da çayxanada: sağdan sola – Kamran Əliyev, Müseyib Yunusov, Maarif Xalıqov***

Təxminən 10 il bundan əvvəl həmin çayxanada olarkən Kamran müəllim demişdi ki, gənc yaşlarında tez-tez "Təzə bazar"a gedərək oradakı çayxanada əyləşər, burada rayon və kəndlərdən gələn satıcıların söhbətlərinə qulaq asar, onların həyat tərzini, düşüncə və maraq dünyalarını, məşğuliyyətlərini və sair problemlərini öyrənməyə çalışırdı. Çox maraqlıdır ki, həmin söhbətdən sonra mən də hansı rayona, hansı şəhərə, hansı ölkəyə gedirəmsə ilk növbədə yerli sakinlərin əyləşdikləri çayxanalarda oluram. 2017-ci ilin iyul-avqust aylarında Ərdəbilin yaxınlığında yerləşən Sərein şəhərində müalicə kursunda olarkən iki dəfə Kamran müəllimin bu dəyərli təklifindən istifadə etdim. Belə ki, iyul ayının 17-də Meşkin şəhərinə getmişdim. Niyazabad meydanında taksidən düşdükdən sonra ilk olaraq yolun solundakı

çayxanaya daxil oldum. Çox kiçik çayxana idi, bir neçə nəfər əyləşmişdi, otumaq üçün mənə yer ayırdılar. Çayxananın sahibi Davər adlı bir nəfər idi. Tanış olduq, mənə çox mehribanlıq göstərdilər. Bu mehribanlığın bir səbəbi də Bakıdan, yəni Güney Azərbaycanından olmağım idi. Məhz bunu bildikdən sonra hər biri ayağa duraraq məni qucaqladı, ağlamağa başladılar. Bu sevinc göz yaşları idi. Məni də kövrəltdilər. İki gündən sonra, yəni iyul ayının 19-da Şeyx Səfiəddinin atası Şeyx Cəbrayılın Ərdəbilin Kəlxora qəsəbəsində olan məqbərəsini ziyarət etdim. Məqbərədən çıxdıqdan sonra yaxınlıqdakı çayxanaya getdim. Burada insanların bir-birinə, ağsaqqala, qonağa olan doğma münasibətinin şahidi oldum.

Çayxanada olan söhbətlərimiz zamanı Kamran müəllim bizə məsləhət görərdi ki, nə qədər gec deyil, kitab yazaq, yaddaşımızda olanları kağızlara köçürək. Fərqi yoxdur, elmi əsər olsun, bədii əsər olsun, xatirələrlə bağlı olsun. Bunu tez-tez yada salar, “sonra gec olacaq” deyərdi.

Məhz bu dəyərli təklif bəndənizi düşünməyə, yazıb-yaratmağa məcbur etdi. Uzun illər düşündüyüm xatirələri kitablara köçürdüm. 2018-ci ildə “Ömrün ağlı-qaralı zolaqları” sənədli povestim, 2019-cu uldə “Bəzz qalası” foto-albomum, 2020-ci ildə isə “Bir ömürlük tarix” kitabım nəşr olundu. Onu da deyim ki, sonuncu kitabımın adının necə olacağı məni çox düşündürürdü. Köməyimə Kamran müəllim çatdı. Onun mənim haqqımda yazdığı məqalə “Bir ömürlük tarix” adlanırdı.

Sonda tam əminliklə deyirəm ki, biz qonşular həmişə bir olduğumuz, ürəyimizdə gəzdirdiyimiz Kamran müəllimi bundan sonra da heç vaxt unutmayacaq, onun 10 cilddən ibarət dəyərli əsərlərini, povestlərini oxuyaraq onlardan bəhrələnəcək, onu qəlbimizdə yaşadacağıq.

Mən bu yazını Kamran müəllimin 2014-cü il iyul ayının 19-da vəfat etmiş yaxın dostu və məsləkdaşı Arif Əmrahoğlu haqqında yazmış olduğu “Bağışla məni, Arif, bağışla” yazısındakı aşağıdakı sözləri ilə bitirmək istəyirəm:

“Arif, əziz dost, ayrılığınla bağlı yazını tamamlamaq istəyirəm, amma hiss edirəm ki, heç nə yaza bilmədim. Sən mənim haqqımda bundan daha yaxşısını yaza bilərdin. Bağışla məni...”

Kamran müəllim, sən də bağışla məni, bağışla, çünki bu yazını sənin kimi yazmağa çalışdım, ancaq yaza bilmədim. Bütün insanlar bu dünyanın müvəqqəti qonağıdır, hamımızın sonu indi sən uyuduğun o qara torpaqdır. Şair demişkən:

- İnsan nədir ?
- Yaşıl torpaq, əzəli torpaq, sonu torpaq!

**Maarif XALIQOV**
*Tarix üzrə fəlsəfə doktoru*

## QIRMIZI XƏTT

Bu, Kamran müəllim haqqında mənim ikinci yazımdır. Birinci yazımı onun 60 illik yubileyində böyük həvəslə yazmışam. Təəssüf ki, bu yazımı onun həyatda olmadığı dövrdə yazmalı oldum. Mən onun elmi fəaliyyəti yox, bir qonşusu və yaxın dostu kimi insani keyfiyyətlərindən danışmaq istəyirəm.

Kamran müəllimin insanlara münasibəti həmişə müsbət olub. Bu, onun xarakterindən irəli gəlirdi. Ona görə də dostları çox idi. Amma mənə elə gəlirdi ki, mən onun ən yaxın dostlarından biri idim. Bizi birləşdirən bir çox ümumi səbəblər var idi. Həm elm sahəsində çalışmağımız, həm yaxın qonşu olmağımız münasibətlərimizə çox təsir göstərmişdi. Demək olar ki, asudə vaxtlarımızın çox hissəsini birlikdə keçirirdik. Həm də qayğılarımız da bir-birinə bənzəyirdi. Belə ki, Kamran müəllim də mənim kimi evin tək oğlu idi. Bacıların yükünü çəkmək "imtahanından" qardaşların heç də hamısı yaxşı çıxa bilmir. Kamran müəllim isə qoca anasının, bacılarının, onların övladlarının qayğısını çəkir, problemlərini həll etməyə çalışırdı.

Kamran müəllim, Muxtar müəllim, Aydın müəllim və mən çalışırdıq ki, tez-tez görüşək, elmi, siyasi polemikalar edək, gündəlik problemlərdən danışsaq, həm də istirahət edək. Ona görə də mütəmadi olaraq istirahət günləri yaxın rayonlara səfərlər edirdik. Belə günlərimiz mənim xatirəmdə unudulmaz izlər buraxıb.

Təəssüf ki, son zamanlar pandemiya ilə əlaqədar olaraq belə görüşlərimiz az olurdu. Kamran müəllimin səhhətində bir az problemlər yaranmışdı. Lakin bu müddət ərzində mən bircə dəfə də olsa onun ağzından səhhəti ilə əlaqədar giley-güzar eşitməmişəm. Həmişə deyirdi ki, lap yaxşıyam. Lakin elə bil harasa, nəyəsə tələsirdi, işlərini yekunlaşdırmağa çalışırdı.

Mən coğrafiyaçıyam. Amma Kamran müəllimin ilk oxucusuyam desəm yanılmaram. Demək olar ki, hər gün axşam saat 10 radələrində mənə zəng vurardı. Nə işlə məşğul olduğumu soruşmazdı. Deyərdi ki, dur gedək bir az gəzək. Mən də, nə qədər yorğun olsam da, heç vaxt onun sözünü yerə salmazdım. Biz də

yaxınlığımızdakı parkın çayçısında, ya da gəzə-gəzə söhbət edərdik. Daha doğrusu, o, danışardı, mən qulaq asardım. Yeni elmi araşdırmaları, yazacağı əsərlər, yekunlaşdırdığı hekayalər baradə ətraflı məlumat verərdi. Ona görə də onun kitabları çıxarkən mən bu əhvalatlar barədə informasiyalı olurdum. Həmişə dostlarının fikrini diqqətlə dinləyir, tənqidlərə hörmətlə yanaşırdı. Onun ən böyük tənqidçisi isə Aydın müəllim idi. Çox təəssüf ki, son vaxtlar mövcud şəraitlə əlaqədar az-az görüşürdük.

Bir-birimiz üçün ən çox darıxdığımız vaxt yay məzuniyyəti dövrü idi. Mən hər il istirahətimi doğulduğum Oğuz rayonunun Kərimli kəndində keçirirəm. Kamran müəllim də tez-tez Qəbələ rayonunun Qəmərvan kəndində istirahətə gələrdi. Əksər hekayələrini də burada qələmə almışdı.

Kamran müəllim rayona çatan kimi mənimlə əlaqə saxlayırdı. Biz həm Qəbələdə, həm də Oğuzda görüşürdük. Yadımdadır ki, son belə görüşümüz 2019-cu ilin yayında Qəmərvan kəndində oldu. Biz ailəmizlə birlikdə Kamran müəllimin qudası Süleyman müəllimgilə qonaq getdik. Türkiyədə yaşayan qızım və nəvələrim də bizimlə idi. Hamı üçün xoş olan bir istirahət günü keçirdik. Kamran müəllim həm də yaxşı nərd oynayardı. Orada biz çox nərd oynadıq. Sən demə, qızım bizim çoxlu şəkillərimizi çəkibmiş. Nərdə başımız qarışdığından buna fikir verməmişik. Kamran müəllim dünyasını dəyişən gün qızım bu şəkilləri telefon vasitəsi ilə bizə göndərdi. Çox təsirləndim. Nə etmək olar. Bu, şəkillər artıq tarix idi. Bu, həmin xoş günlərin şəkillərindən biridir.





Oktyabr ayında mən və həyat yoldaşım koronavirusa yoluxaraq xəstəxanaya düşdük. Vəziyyətimiz ağır idi. Kamran müəllim demək olar ki, hər gün zəng vuraraq ürək-dirək verirdi. Xəstəxanadan çıxdıqdan sonra onunla görüşə bilmədim. Bir neçə dəfə balkondan salamlaşmışdıq. Yuxarıda qeyd etdiyim kimi, Kamran müəllimin ilk oxucularından biri mən idim. Noyabr ayının 30-da oğlu Orxanla son kitabı olan "Qırmızı xətt" kitabını bizə evə göndərmişdi. Hekayələrin çoxu mənə tanış idi. Lakin

kitabda qırmızı xətt adlı hekayə yox idi. Hekayələri diqqətlə oxumağa başladım. "Şamama" hekayəsini oxuyanda mənə aydın oldu ki, "qırmızı xətt"in mənası nədir. Görünür ki, Kamran müəllim, hətta ən gənc vaxtlarında belə "qırmızı xətt"ləri keçməyib. Bütün insanlara hörmətlə, ehtiramla yanaşıb, hamını layiqincə qiymətləndirib. Elmi ictimaiyyət, qohum, qonşu, iş yoldaşları və dostları arasında xüsusi hörmətə layiq olub.

Kamran müəllimin bədii yaradıcılığının son əsəri "Qırmızı xətt" kitabı oldu. Xəstəxanada olduğundan həmişə olduğu kimi bu kitabı əyani müzakirə edə bilmədik. Telefonla uzun-uzadı danışmaq mümkün deyildi. Ona görə də mən öz fikirlərimi ona səsli mesaj şəklində göndərdim. Dinləyib ancaq bu sözləri yazdı – "Təşəkkür edirəm". Bu, bizim son danışığımız oldu. Çox təəssüf ki, sonrakı mesajlarım oxunulmamış qaldı! İndi Kamran müəllimi hamımızdan bir "qırmızı xətt" ayırır. Bəlkə, Kamran müəllim özü "qırmızı xətt"dən o tərəfə keçəcəyini hiss etmişdi? Lakin o, harada olmasından asılı olmayaraq bizim qəlbimizdə görkəmli alim, yaxşı dost, hörmətli qonşu, gözəl valideyn, qeyrətli oğul kimi yaşayacaqdır.

**Ruhun şad olsun, Kamran müəllim!**

**Müseyib İdris oğlu YUNUSOV**
*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun*
*Təhsil şöbəsinin müdiri*

## TƏSKİNLİK DÜŞÜNCƏLƏRİ

İnsan Allahın yaratdığı ən kamil varlıqdır və elə buna görə də onu lazımi səviyyədə dərk eləmək, dəyərləndirmək o qədər də asan məsələ deyil. Təəssüf ki, biz ətrafımızda olanların dəyərini lazımi səviyyədə bilmir, yalnız onları yoxluğu zamanı dərk eləyirik ki, itkimiz nə qədər böyük imiş...

Filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Kamran İmran oğlu Əliyevi itirəndən sonra istər-istəməz onun şəxsiyyəti, keçdiyi həyat və yaradıcılıq yolu gözümün önündən keçdi... Əlbəttə, bir insanı lazımi səviyyədə tanımaq, onun dolğun portretini göz önündə canlandırmaq üçün bir baxış nöqtəsi kifayət eləmir. Bu mənada, Kamran müəllimin yetirmələrindən biri, filologiya üzrə fəlsəfə doktoru, dosent, Folklor İnstitutunda təzəcə şöbə müdiri vəzifəsinə təyin edilən Fidan Qasımova mənə deyəndə ki, Kamran müəllim haqqında kitab hazırlamaq istəyirik, düşündüm ki, bu, çox yaxşı bir işdir. Dünyasını dəyişən dostumuzun, zəhmətkeş, istedadlı ədəbiyyatşünas alimimizin dolğun portretini yaratmaq üçün onunla ayrı-ayrı vaxtlarda, ayrı-ayrı məkan və zamanda ünsiyyətdə olan insanların hərəsi bir neçə səciyyəvi detal, xatirə cizgisi söyləsə, bu, Kamran İmran oğlu Əliyevin kifayət qədər dolğun obrazını yarada biləcək...

Kamran müəllimlə mənim ünsiyyətimin, dostluğumun, işgüzar əlaqələrimin 42 ildən bir qədər artıq tarixi var. Lakin aspirantlıq dövrümüz istisna olmaqla, Kamranla bu qırx iki ildə tez-tez görüşməmişik. Tədbirlərdə, dissertasiya şuralarının iclaslarında, banketlərdə bir yerdə olmuşuq. Təsadüfən ayrı-ayrı məkanlarda görüşmüşük, söhbətləşmişik, zarafatlaşmışıq. Ayrı-ayrı müəssisələrdə əmək fəaliyyətində olmağımız bizim daimi ünsiyyətimizə imkan verməyib. Lakin bu azsaylı görüşlərdə, söhbətlərdə aramızdakı səmimi, saf münasibətin istiliyi görüşə bilmədiyimiz günlərin boşluğunu əhəmiyyətli dərəcədə doldura bilib...

Bizim tale yollarımız Nizami Gəncəvi adına Ələbiyyat İnstitutunda birləşib. Ədəbiyyatşünaslıq elmimizin çox görkəmli

nümayəndələri – Mirzağa Quluzadə, Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Məmmədhüseyn Təhmasib, Kamal Talıbzadə, Kamran Məmmədov, Mirəli Seyidov, Məsud Əlioğlu, Yəhya Seyidov, Qasım Qasımzadə, Bəkir Nəbiyev, Əkbər Ağayev, Arif Hacıyev, Yaşar Qarayev, Atif Zeynallı, Şamil Salmanov, Arif Abdullazadə və onlarca digər alimlərlə ünsiyyət bizim düşüncə tərzimizə də əhəmiyyətli dərəcədə təsir göstərə bilib. Təsadüfi deyil ki, ötən əsrin 70-80-ci illərində ədəbiyyatşünaslıq elminə gələn cavanların demək olar ki, böyük əksəriyyəti tezliklə tanındılar, bu sahənin yeni təfəkkürlü aparıcı alimlərinə çevrildilər. Ona görə ki, bu insanlar aspiranturaya sənəd verən yüzlərlə cavanın arasından seçilənlər idi. Kamran Əliyev də bax o dövrdə elmi tədqiqat işi aparmağa cəlb edilən istedadlı gənc alimlərdən biri idi. Universiteti fərqlənmə diplomu ilə bitirib orta məktəbdə əmək fəaliyyətinə başlamış, sonra aspiranturaya gəlmişdi...

Kamran Əliyev elə ilk gündən həm tədqiqatçılıq səriştəsi, həm zəhmətsevərliyi, həm də sadəliyi və təvazökarlığı ilə diqqəti cəlb eləyirdi. Onun xeyirxahlığı, dost-tanışa əlindən gələn köməyi etməyə çalışması xasiyyətinin ən gözəl cəhətlərindən idi. Aspiranturaya təzə qəbul olanda bir anket vermişdilər ki, onu doldurub elmi katibə qaytaraq. Narahat idim ki, birdən nəyisə səhv eləyərəm. Kamran elə bil bunu hiss elədi. Yaxınlaşıb dedi ki, mən təzəcə sənədləri hazırlayıb vermişəm, gətir sənə də kömək eləyim. Elə birinci mərtəbədəki asılqanın yanındaca anketi doldurub təhvil verdik.

İllər çox sürətlə gedir. Müdafiə eləyəndən sonra yollarımız ayrıldı. Kamran institutda qalıb işlədi, mən isə mətbuatda, televiziyada əmək fəaliyyətimi davam etdirdim. Kamran Əliyev doktorluq dissertasiyası da müdafiə elədi hələ SSRİ-nin dağılmasından bir il əvvəl, mən isə əsas gücümü bədii yaradıcılığa verdim, doktorluq haqqında heç düşünmədim də. Ara-sıra görüşəndə niyə doktorluq yazmırsan deyənlərdən biri də Kamran idi. Açığı, məni bu işə sövq eləyən insan Yaşar Qarayev oldu. 1996-1997-ci ildə Dövlət Televiziyasında “Elm, mədəniyyət, incəsənət” şöbəsində müdir işlədiyim vaxt Yaşar müəllimin israrlı tə-

kidi ilə mənə doktorluq dissertasiyası mövzusu təsdiq elədilər. Geriyə yol yox idi, məcbur olub yazdım, Yaşar müəllimin redaktorluğu və institut elmi şurasının qərarı ilə çox tez bir zamanda, 1998-ci ildə monoqrafiyam işıq üzü gördü... Ancaq bilənlər yaxşı bilir ki, o illərdə doktorluq dissertasiyasının müdafiəsi nəinki çətin, hətta mümkünsüz idi.

Axır ki, buz sındı. Axır ki, doktorluq dissertasiyası müdafiə eləyəsi oldum. İşin başlanğıcında Kamran Əliyev mənə yardımçı olduğu kimi, işin sonunda da dost köməyini əsirgəmədi, mənim rəsmi opponentlərimdən biri oldu. Birinci rəsmi opponentim, professor Cəlal Abdullayev məni çox təriflədi və bir məqamı xüsusi vurğuladı ki, elə adamlar var ki, namizədliyinin təsdiqini almadan doktorluq işi götürür, Rafiq isə işə məsuliyyətlə yanaşdığından, nə az, nə azacıq, namizədlik dissertasiyasının müdafiəsindən 22 il sonra doktorluq dissertasiyası müdafiə eləyir...

Kamran Əliyevin danışmaq növbəsi çatanda dedi ki, Cəlal müəllim mənim müəllimim, aspirant dostum Rafiqin isə həm namizədlik, həm də doktorluq dissertasiyasının rəsmi opponenti olub. Möhtərəm müəllimimin həm dostumun özü, həm də əsəri haqqında söylədiyi fikirlərin hamısı ilə razıyam, bircə fikirdən başqa. Rafiq sayılıb-seçilən aspirant dostlarımızdan idi, ancaq onun 22 il sonra müdafiə eləməsini qətiyyən alqışlaya bilmirəm. Mən 16 il bundan qabaq doktorluq dissertasiyası müdafiə eləmişəm, o isə indi...

Beləcə illər bir-birini əvəz eləyirdi... Kamran müəllim Folklor İnstitutunda fəaliyyətini davam etdirirdi, məni isə təsdiqim alınan kimi Ədəbiyyat İnstitutunun dissertasiya şurasına üzv qəbul eləmişdilər. Tale qismət eləmişdi ki, Kamran müəllimin mənə elədiyi yaxşılığın əvəzini onun doktorantlarına qaytarım. Bizim redaksiyamızın bir işçisinin doktoranturaya qəbul olunmasında və müdafiəsində Muxtar müəllimlə bərabər Kamran müəllimin də rolu böyük olub... Yeri gəlmişkən onu da vurğulayım ki, Kamran Əliyevin əsas xidmətlərindən biri də onun elmi kadrlar hazırlığında fəal iştirakı ilə əlaqəlidir. Nə qədər alimin elmi

rəhbəri, nə qədər alimin rəsmi opponenti kimi təmənnasız xidmət göstərən Kamran Əliyevin xatirəsi onu tanıyanların hamısı üçün çox əzizdir.

Yaradıcı insan təkcə əsər yaratmır, həm də özü üçün bir abidə qoyur. Zəhmətkeş, istedadlı alimimizin istər görkəmli şəxsiyyətlər, istər "Dədə Qorqud" eposu, istər Azərbaycan folkloru ilə bağlı tədqiqatları onu kamilləşdirən, müdrikləşdirən amillər sırasındadır. Nəzəri hazırlığı, bədii mətni dəyərləndirmək ustalığı, poetik və yumoristik duyumu Kamran Əliyevin tədqiqatlarının məziyyətlərini şərtləndirən amillər sırasındadır. Nə yaxşı ki, Kamran İmranoğlu ömür möhlətindən səmərəli istifadə eləyə bilib. Məhz bunun nəticəsində onun cild-cild əsərləri bizə yadigar qalıb...

Əziz dostumun yaxın adamlarla incə zarafatları, özünəməxsus gülüşü heç vaxt yadımdan çıxmır. Naxçıvanda rəhmətlik Hüseyn Həşimlinin doktorluq dissertasiyasının müdafiəsində, Naxçıvan Dövlət Universitetində Hüseyn Cavidlə bağlı tədbirdə bir yerdə olmağımız, çıxışlarımız, arada zarafatlaşmalarımızın bütün detalları indi də yadımdadır...

Kamran Əliyev çox istedadlı alim olmaqla yanaşı, həddindən artıq mədəni, özünün, sözünün yerini bilən, təmkinli, təvazökar, xeyirxah bir dost kimi yadımda qalıb. Neyləmək olar, Süleymana qalmayan dünya kimə qalıb ki? Bizə qalan isə təskinlik düşüncələridi...

Bizi yüz yerə aparır
Sahilsiz fikir, düşüncə...
Həyat düşməsin gözündən
Yadına ölüm düşüncə...

Dünyadan bəndə baş açmaz,
Bu qədər eləmə fikir.
Öz sevdalı ürəyinin
Bir sözünü etmə iki...

Çəkinmə sözdən-həkətdən,
Qəlbin istəyən tək yaşa!

Öz əlinlə arzuların
Kuzəsini vurma daşa.

Yüz fikir bir borc ödəməz,
Bir belə üzmə özünü...
Ömür boyu biz görmüşük
Bu dünyanın hər üzünü...

O heç özü də baş açmır
Gəlirindən, çıxarından...
Kim saxlaya bilib axı
Zamanı öz axarından?

Hər çiyin tab edə bilmir –
Zindandı ayrılıq yükü.
Bu dünyada kim qalıb ki?!
Bu dünya kimə qalıb ki?

Kamran İmranoğlunun xatirəsi hamımız üçün əzizdir. Ruhu şad olsun dostumuzun!

**Rafiq YUSİFOĞLU**
*Filologiya elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***11.02.2021***

## CİSMANİ ÖMRÜN SONU – MƏNƏVİ DÜNYANIN BAŞLANĞICI

El arasında Kamran müəllim kimi azman alimlərə dağdan ağır kişi deyərlər. Dağdan ağır kişi olan Kamran Əliyevin dağ kimi yerindən qopması içimizdə bir zəlzələ gücündə olan tufan qopartdı, elə bil dünyamız uçulub başımıza töküldü bu ağır xəbərdən. İnstitutumuzda Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri idi. Folklorumuzun da, yazılı ədəbiyyatımızın da dərindən bilicisi idi. Sözün əsl mənasında biləndər idi. Alim sözünün Azərbaycan dilindəki adı biləndər sözüdür. Bəli, o, əsl biləndər kimi də şirin-şirin danışıb söhbət edərdi. Onun elmi mövzudakı danışığı da bir ağsaqqalın öz nəvələrinə nağıl danışması sayaq xoş təsir oyadırdı, asanlıqla mənimsənilirdi onun elmi izahları da. Çünki mayası xəlqilikdən yoğrulmuşdu deyə bir alim kimi də, folklorşünas kimi də, ağsaqqal kimi də xalq dilində, sadə və aydın dildə danışırdı. Elmi diskussiyalarda da həmişə təmkinlə iştirak edərdi. Dəfələrlə mübahisəli məqamlarda mən özümü saxlaya bilməyib müdaxilə etmişəm, öz fikrimi ortaya qoymuşam. Həmin məqamlarda da Kamran müəllim müdrik insan kimi səbirlə dinləyib və elmi həqiqətin tərəfini saxlayıb. Düzü, etiraf edim ki, sonralar özüm özümdən utanmışam ki, mən Kamran müəllim kimi nəhəng alimin qabağında gərək “başı yekəlik eləyib” danışmayaydım, böyük-kiçik yeri biləydim. Ancaq bizim Kamran müəllim də böyüklük göstərib elə Kamran müəllim kimi heç vaxt heç nəyi bənsitməmişdi, yəni mənim söhbətə müdaxilə edib fikir bildirməyimin əleyhinə getməmişdi, əksinə, təqdiredici halda təsdiqləmişdi. Onun bu cür haqqın tərəfində olması da elə mənim dilimi açırdı, çəkinmirdim...

Bax belə bir istiqanlı insan, böyük alim idi bizim Kamran müəllim. El dilincə desək, dağdan ağır kişini, elmi leksikonla ifadə eləsək, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü olan dəyərli elm xadimini II Fəxri xiyabanda dəfn etdilər. Adi zamanlar olsaydı, böyük bir izdiham onu son mənzilə yola salacaqdı. Lənətə gəlmiş pandemiya son borcumuzu da

istədiyimiz kimi verməyə imkan vermədi. Adətən mərhumla vida mərasimində mollalar camaata üz tutub mərhum şəxsin kiməsə borcu olub-olmadığını soruşar, halallıq verilməsini təklif edər. Koronavirus pandemiyası cəmiyyətin başına elə bir bəla açıb ki, biz dünyasını dəyişənlərimizin yanında borclu qalırıq. Dəfndə iştirak etmək, yas sahibinin məclisində iştirak edib başsağlığı vermək – təskinlik vermək kimi son borcumuzu verə bilmirik. Ruhlarınız bizdən inciməsin, yaxınlarınız üzrlü saysın. Bir olan Allaha onsuz da agahdır hər şey. Təki Allah yerinizi cənnətlik eləsin.

Kamran müəllimin yaradıcılıq dünyası da çox zəngin idi. Ədəbiyyatımızın, poeziyamızın, folklorumuzun müxtəlif problemlərinə dair maraqlı tədqiqatlar müəllifi idi. Son dövrlər çap etdirdiyi kitabları Akademiyada, tədris ocaqlarında böyük maraqla qarşılanırdı. Ədəbiyyat İnstitutunda, Bakı Dövlət Universitetində kitablarının müzakirəsi təşkil olunurdu. Bütün bunlar bir alim kimi professor Kamran Əliyevin qarşıya qoyduğu elmi problemə onun orijinal yanaşmasının nəticəsi idi. Həmişə fərqli və özünə məxsus fikirlər söyləyərdi, yeni və maraqlı elmi mülahizələr yürüdərdi. Məhz qaldırdığı elmi fikirlər, gətirdiyi yeniliklər böyük marağa səbəb olduğundan da əsərləri qızğın elmi diskussiyalarla müşayiət olunan müzakirələrin mövzusuna çevrilirdi. BDU-nun Folklor kafedrasında baş tutan belə görüşlərin birində mən də iştirak etdim, bir yerdə şəkil də çəkdirdik və bu müzakirə ilə bağlı “Ədəbiyyat qəzeti”ndə informativ səciyyəli yazı da verdim.

Elmi yaradıcılığı ilə yanaşı Kamran Əliyevin maraqla qarşılanan bədii yaradıcılığı da vardı. Bəlkə də, çap olunanda üzünü görmədiyi “Qırmızı xətt” adlı kitabı da bu qəbildəndir. Maraqlı süjet üzərində qurulmuş bu povestin adı məndə qəribə duyğu oyadıb. Deyirlər qu quşları ömürlərində yalnız bir dəfə oxuyurlar, onu da ölümləri qabağı – ölümlərini hiss edəndə. Buna görə də metaforik olaraq ölümqabağı yazılan yazıları “qu nəğməsi” adlandırırlar. “Qırmızı xətt” adlı bədii əsəri də Kamran müəllimin qu nəğməsi oldu. Bəs niyə qırmızı xətt? Bu, təsadüfi ad idimi?

Qırmızı rəng liminal (aralıq) rəngidir. Qırmızı rəng svetoforda sürücüyə "dayan! fasilə ver!" işarəsini verir. Kamran müəllim bu kitabı ilə qarşısına qırmızı xətt çəkdimi? Bu, onun irəlini görən yazıçı (şair) intuisiyası idimi? Demək istəyirdi ki, sağlığımda işıq üzü görən əsərlərimə qırmızı işıq yandırıram. Bu qırmızı işıqdan sonra çap olunacaq əsərlərimi dostlarımın, həmkarlarımın öhdəsinə buraxıram. Bu qırmızı xətdən sonra həmin xətti sizin davamçılarınızın keçməsinə işarə etmişdinizmi? Gələcək tədqiqatçıların öhdəsinə buraxdınızmı əsərlərinizin növbəti nəşrini? "Qırmızı xətt"iniz cismani yoxluğunuzla mənəvi varlığınız – mənəvi yaşamınız arasında aralıdan seçilən bir zolaq təsviri oldumu?

Məncə, "Qırmızı xətt" çox söz deyir. Bu sözlərdən biri də dostlarınızın, yetirmələrinizin, davamçılarınızın, tədqiqatçılarınızın qarşısında yanan bir işıqdır: o işığı keçməyə özündə cəsarət, güc tapanlar keçə biləcəklər. Zəngin dünyanızdan bizə irs qalan elmi və bədii yaradıcılığınızı izləyib, bu xüsusda gələcəkdə fikir söyləyənlər məhz o qırmızı xətti – qırmızı işığı keçənlər olacaqlar. Cismani mövcudluğunuzun dayanışı olan "Qırmızı xətt"iniz həm də mənəvi yaşarlılığınızın başlanğıcı olan liminal (aralıq) zolağıdır. Fani dünyadan üqbaya gedən yolunuzun kəsişmə nöqtəsi olan "Qırmızı xətt" həm də bu xətti keçməklə sizin yolunuzu davam etdirməyə çağırış xəttidir.

**Şakir ALBALIYEV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutu*

## MEÇHULE GİDEN GEMİNİN YOLCUSU..

*Artık demir almak günü gelmişse zamandan*
*Mecule giden bir gemi kalkar bu limandan.*
*Hiç yolcusu yokmuş gibi sessizce alır yol,*
*Sallanmaz bu kalkışta ne mendil ne de bir kol.*

Evet, Türk Dünyasının filozof şairi Yahya Kamal Bayatlı ölüm hakkında bu mısraları kaleme almıştır. Ne kadar doğru. Demir almak zamanı gelmişse, meçhule giden bir gemi limandan kalkacak. Kamran Bey, benim öğrencilik arkadaşım, şimdi ise tanınmış bilim insanı Ord.Prof.Dr. o geminin misafiri sen olacaksın, o gemi seni sevdiklerinden koparacak, ebedi dünyaya götürecek. Bunları yazarken gözyaşım sel oldu. Hayalım 1969 yıllarına gitti. Sen Filologiya fakültesinde, ben Jurnalistika fakültesinde. Mutlu günlerimiz vardı. Zengin ailelerin çocukları değildik. Geyimlerimiz güzel olmasa da, yemeğimiz bol olmasa da sanki dünya bizim idi. Hayaller dünyasında kuşlar gibi kanat çalırdık. Sen filoloji fakültenin yaraşıklı erkeği idin, ben de fena değildim. Bunlar bizi daha da göklere uçururdu. İçimizde boyumuzu aşan hayallerimiz vardı. Sanki dağı dağ üstüne koyacaktık. Böylece üniversiteyi bitirdik, o zaman anladık ki, en zorlu günler bundan sonra başlıyor. Ben bir gün eski Yefim Saratov kucesindeki fakültemize geldim, rahmetlik dekanımız Prof. Şirmemmed müellim beni işe aldı, sonra filoloji fakülteye geçtim, sonra mudafie, ilimler namizedi, dosent ve Türkiye hayatım başladı. 2002'de Türkiye'den geri döndüm, evvelki iş yerimde Bakı Devlet Üniversitesinde, Dünya Edebiyatı Kafedrasında öğretmenliğime devam ettim. 2003 yılının sonlarında bir tesadüf beni AMEA'nın Folklor Enstitüsünde getirdi. Ve uzun süre haber tutmadığım telebe yoldaşım Kamranı – yani seni orda gördüğümde çok mutlu oldum. Hatıralar canlandı gözümün önünde. Daha doğrusu, o gençlik hatıraları gül açtı dilimizde. Hayalim 1969-1974 yıllarına gitti. Hatıralar bizi aguşuna aldı. Gah sen, gah ben

konuştum. Ozanlar gibi birbirimize “ayak” verip hatıra denizine baş vururduk.

Öğrencilik yıllarımızdaki sömestr tatillerinde aynı trenle memlekete tatile gittiğimizi hatırladık. Bir defa Bakı-Noraşen treninde gittiğimiz gün düştü yadımıza. Aynı trende, aynı vagonda idik. Ocak ayının sonunda ve Haziran ayının sonunda trene bilet almakta zorlanırdık. Bütün vagonlar dolu olurdu, hepsi de öğrenciler. Ermenistan’a giden Ermeni ve Azerbaycanlı öğrenciler, Nahçıvan”a gidenler ve yol boyu o zamanki Eli Bayramlı, Saatlı, Sabirabad, İmişli Daşburun, Horadız, Cebrayıl, Zengilan, Kubatlı, Yerevan (İrevan) ve Nahcıvan. Ne güzel günler idi. Ben Dasburun’da inerken sen de inerdin, valizime yardım ederdin, Sadi dayım beni karşılarken seni: “Talebe yoldaşımdır, adı Kamran, Nahcıvan” – diye takdim ettim. Sadi dayım: “Oğlum, gitme, bir-iki gün bizde kal, ben biletini alıp seni yola salarım”. Hep böyle derdin: “Yok, yok, Sadi dayı, bizimkiler de beni bekliyorlar, gelirim bir gün size. Sen kuzunu kesme” – diye zarafatından da kalmazdı Kamran. Her zamanki gibi, sade, samimi.

Kimseyi kırmayan, üzmeyen. Folklor Enstitüsünde çalışırken hep o günleri hatırlardık... Sadi dayımı sordu, vefat edip – dedim. Çok üzüldü. Ama bilmedi ki, özü ondan daha erken yaşta bu ışıklı dünyaya elveda diyecek.

*Bir de görürsen ki, acılan solur*
*Düşünen bir beyin bir toprak olur*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sırrını vermeyir sırdaşa dünya.*

Bir bahar günü iş odamda oturup sanki seninle sohbet ediyorum. Aslında senin hakkında hatıralar yazıyorum. Sen de baharı severdin, biliyorum. Kaldığımız yurdun etrafı söğüt ağaçları ile dolu idi. Bize yeni yaprak açmış söğüt dalları getirirdin. – Bu hardan aklına geldi? dediğimizde – Kızlar yeni yapraklanmış söğütleri çok severler – derdin. Bugün senin ruhunu sevindirmek için yeni yaprak açmış soğut ağacına gittim, senin yerine o söğütün yapraklarını okşadım, senin ruhun sevinsin diye.

*Bir dünya bir kızıl kuzeye benzer*
*Suyu gah şirindir, gah da ki zehir.*
*Hiç de övünme ki uzundur ömrün,*
*Acel köhleninde hazırdır yeher.*

*x x x*

*Su gelir, akar gider,*
*Dağ-taşa çakar gider.*
*Dünya bir penceredir,*
*Kamran da bakar, gider.*

Biliyormusun, senin doğduğun Nahcıvan elleri buraya, yani benim altı sene yaşadığım, çalıştığım Muş'a çok yakın. Burayı Padişah Babamız, Akkoyunlu hükümdarı Uzun Hasan da çok sevmiş, buradan Elâzığ'a geçmiş. Senin çok sevdiğin: – Azerbaycan Anam Oy – diyen ömrünün sonunadek burada yaşayan, bütün varlığı Azerbaycan'da olan İstiklal şairimiz Almas Yıldırım'ın uyuduğu Elâzığ'a çok yakın. Doğu Anadolu'nun baharları, kışları Nahcıvan'a çok benziyor, Kamran. Ben sana Kamran diyorum, neden, biliyormusun? Benden iki yaş küçüksün ve benimle aynı vakitte okumuşsun. Her ikimiz 1969 yılında üniversiteyi kazanmışız, 1974 de üniversiteye elveda demişiz, yani mezun olmuşuz. Sen Nahcivan'a dönmüşsün, bir hayli orda çalışmışsan. Bunları sen bana anlatmıştın, detaylarını unutmuştum. Bilgisayardan buldum senin hakkındaki güzel yazıları. Bir yazıda senin 65 yıllık yübileyin hakkında yazı verilmişti. Bu yazını okurken sen sanki benim odama geldin, yanımda oturdun. Sordum senden: – Anlatacakmısın hayatını bana? Konuşmadın, sakin sakin baktın. Sonra elimdeki resmin olan yazıya işaret ettin: – Orda her şey yazılmış. Okuya bilirsin. Hiç ne demedim. Okudum. Güzel yazmışlar. Bugün AMEA'ın muhbir üzvü, Emektar İlim Hadimi, Filologiya İlimleri Doktoru, Azerbaycan Üniversitesinin profesörü Kamran Aliyev'in 65 yaşı tamam olur. Sonraki cümleden Azerbaycan Üniversitesinde çalışanların seni 65 yaş nedeniyle kutlamalarından yazmışlar. Sonra senin özgeçmişin verilmişti. 1953 yılında Nahcivan'da dünyaya göz açtığını, Azerbaycan Devlet Üniversitesini birincilikle bitirdiğini, 1976-

1979 yıllarında AMEA da doktora eğitimi aldığını, 1980 yılında doktorasını savunduğunu, 1990 yılında Filologiya İlimleri Doktoru unvanını kazandığını, 20'den fazla kitabının olduğunu ve 250 ilimi makaleye imza attığını yazmışlar. Bunları okudukça seninle bir daha onur duydum.

Diğer makale beni üzdü. Onu da internetten aldım. O makale bana acı bir haber söylüyordu. Yazıyordu ki, AMEA'nın muhbir üyesi yani Orf.Prof.Dr.Kamran Aliyev ebedi dünyasına kanatlanmıştır.

Sanki yüreğimde bir güneş söndü. Kendimi toparlayıp Kamran'dan konuşan o yazıyı okumaya devam ediyorum. Burada da senin özgeçmişin, üniversiteden mezun olduktan sonra Nahcıvan'ın Şerur şehrine bağlı Hanlıklar köyünde Azerbaycan dili ve edebiyatı öğretmeni olmandan yazıyordular. 1993 yılında Nahcıvan Devlet Üniversitesinde Öğretim Üyesi olarak Bölüm Başkanı, Rektör Yardımcısı görevlerinde çalışmıştır. 22 kitap, 10 monografiye, 250'den fazla ilmi makale yayımlamıştır. 49 doktora öğrencisine ilmi danışmanlık yapmış ve onlar doktora tezlerini uğurla savunarak doktor unvanını kazanmışlar. 16 Profesörün jürisinde üye olmuştur. Azerbaycan devleti Kamran Aliyev'in ülkenin ilmine verdiği emeği yüksek değerlendirmiş, ona ülkenin Cumhur Başkanı İlham Aliyev'in serencamı ile Emektar İlim Hadimi fahri adı verilmiştir.

Kamran hakkındaki yazım sona çatmak üzere.. Bana öyle gelirdi ki, ben bu yazıyı yazdığımda sen yanımda idin, seninle sohbet ediyordum. Yazını bitirsem, sen ebedi dünyana kanatlanacaksın. O yüzden yazıya son noktayı koymak istemiyorum. Aslında sen ölmedin. Sevdiklerinin, sana dünya boyda saygıları olan alim dostlarının, seni çok seven öğrencilerinin ve iş arkadaşlarının kalbine gömüldün ebediyen. Onlar seni hiç unutmayacaklar. Ben seni hiç unutmayacağım. Her zaman gözlerim önünde Nahcıvan dağları gibi onurla duracaksın, gülümser bakışlarla uzakları seyr edeceksin, bu bakışların arkasında yeni bir eserin planı olacak, yeni bir kitabın düşüncesi olacak. Sen kadir bilen halkımızın kalbinde ebedi yaşayacaksın. Sen bizim kalbimizde

sade, samimi, mihriban, akıllı, bilgili, savadlı Kamran Hocamız olarak kalacaksın.

*Ölüm sevinmesin koy*
*El kadrını canından daha artık bilenler*
*Şirin bir hatıra tek kalacaktır dünyada*
*Severek yaşayanlar, sevilerek ölenler.*

**Prof.Dr. Tamilla ABBASHANLI-ALİYEVA**
*Muş Alparslan Üniversitesi Jurnalistika (İletişim)*
*Fakültesinin Dekanı*
*Muş/Türkiye*

# XATİRƏ ŞƏKİLLƏRİ



**Tanınmış ədəbiyyatşünas və folklorşünas alim,
Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kamran Əliyev**



AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev və
akademik İsa Həbibbəyli



**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev, akademik İsa Həbibbəyli və Naxçıvan Dövlət Universitetinin müəllimləri**






**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev və akademik Muxtar Kazımoğlu-İmanov**



**Akademik Muxtar Kazımoğlu-İmanov, akademik Vasim Məmmədəliyev və AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev**



**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev, akademik İsa Həbibbəyli və akademik Muxtar Kazımoğlu-İmanov.**



**Muxtar İmanov, Arif Əmrahoğlu və Kamran Əliyev.**

**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev ölkədə və ölkə xaricində təşkil edilmiş müxtəlif elmi toplantılarda**







Azerbaycan
Edebiyatının
Söz ve Fikir Adamı
Hüseyin Cavid'
Düşünce Dünyası ve Eserleri





## FOLKLOR VƏ YAZILI ƏDƏBİYYAT
## şöbəsinin mehriban, səmimi şöbə müdiri və əməkdaşları















BEYNƏLXALQ MƏTBUAT
MƏRKƏZİ
E-mail:bmm@aipc.az
BMM
www.bmm.az




AZƏRBAYCAN
İÇƏRİSİNDƏ
SUSİ YER TUTURLAR.
MƏTƏ LAYİQDİRLƏR VƏ XÜSU-
Sİ QAYĞI OLUNMA-
LIDIRLAR









***RUHUNUZ ŞAD OLSUN, DƏYƏRLİ MÜƏLLİMİM!***

**MÜNDƏRİCAT**

**MƏQALƏLƏR**

***İsa Həbibbəyli.*** Folklorşünaslıq ağırlıqlı ədəbiyyatşünas..... 3
***Muxtar Kazımoğlu-İmanov.*** Kamran Əliyevin yaradıcılıq yolu ........................................................ 12
***Cəlal Qasımov.*** Elmin və insanlığın professoru.................. 35
***Mətanət Abbasova***. Kamran Əliyevin elmi-bədii irsi: təqdimatdan konsepsiyaya............................................... 49
***Nizami Tağısoy***. Kamran Əliyevin elmi yaradıcılığında ədəbiyyatşünaslıq və ədəbi tənqid ..................................... 58
***İslam Sadıq***. Açıq kitabın açılmamış sirləri......................... 64
***Maral Yaqubova.*** Etnopoetika: etnik kimlik və ədəbiyyat (Kamran Əliyevin "Açıq kitab" konsepti) .......................... 73
***Ağaverdi Xəlil.*** Kamran Əliyevin hekayə yaradıcılığı ......... 86
***Anar İbrahimov.*** Kamran Əliyevin "Tənqidin poetikası" əsəri........................................................102
***Ataş Əhmədli.*** Ədəbiyyatşünaslıqdan folklorşünaslığa açılan pəncərə (romantikin folklor haqqındakı düşüncələrinə ümumi bir baxış)........................................ 108
***Atif İslamzadə.*** Kamran İmranoğlunun "Riyaziyyat müəllimi" hekayəsində işarələr sistemi (yazılı ədəbiyyat və folklor konteksti)........................................................ 119
***Aynur Səfərli***. Ziyalı dünyanın bəzəyidir ........................... 153
***Aysel Qurbanova.*** Romantiklərin həyatına elmi yanaşma ........162
***Elnur Həsənov***. Milli-mənəvi dəyərlərimizin görkəmli tədqiqatçısı – professor Kamran Əliyev ................................ 168
***Əfsanə Nağıyeva.*** Kamran Əliyevin hekayələrində mövzu müxtəlifliyi........................................................... 174
***Ətrabə Gül***. Romantizmin simvolikası və təbiət obrazlarının funksionallığı (Kamran Əliyevin elmi-nəzəri yaradıcılığı əsasında) ...................................... 181
***Firuzə Sadıqova***. Xalq dramlarına Kamran Əliyevin Yanaşması........................................................................ 190

***Gülnar Məmmədova***. Kamran Əliyevin foklorşünaslıq fəaliyyəti ("Açıq kitab – Dədə Qorqud" monoqrafiyası əsasında).......................................................................206
***Gülnar Osmanova***. Əsl insan və parlaq ziyalı etalonu......... 213
***Gülsümxanım Hasilova***. Kamran Əliyevin folklorşünaslıq irsi ............................................................. 217
***Xəyalə Ağayeva***. Azərbaycan ədəbiyyatşünaslıq elminin Kamran Əliyev zirvəsi............................................................ 233
***İsmayıl Faxtiyev.*** Sözünü demiş elm adamı – Kamran Əliyev ....................................................................... 241
***İsmayıl Məmmədli***. Özü və sözü böyük olan insan-alim ..... 246
***Lütviyyə Əsgərzadə***. Kamran Əliyev tədqiqatlarında 20-30-cu illər cavidşünaslığı ............................................... 248
***Mahir Cavadlı***. "Cavid möcüzəsi" Kamran Əliyevin baxışlar sistemində............................................................... 265
***Məlahət Babayeva***. "Açıq kitab – "Dədə Qorqud": açılan həqiqətlər................................................................. 271
***Nigar İmaməliyeva***. Hər kəs ömründə yalnız bir əsər yazır ......276
***Nizami Muradoğlu***. Kamran İmranoğlunun "Yalquzaq" povesti haqqında düşüncələrim ............................................. 281
***Nübar İbrahimova***. Kamran Əliyevin elmi fəaliyyətində romantizm və folklor məsələləri..................... 286
***Oruc Əliyev.*** "Dədə Qorqud" eposu Kamran Əliyevin araşdırmaları kontekstində .................................................. 292
***Pərvanə Məmmədova***. Professor Kamran Əliyev Hüseyn Cavid haqqında......................................................... 303
***Rza Xəlilov***. Kamran haqqında bir neçə söz........................ 309
***Səba Namazova***. Kamran Əliyev: "Romantizmin nəzəriyyəsi" kitabı haqqında ............................................... 312
***Sevinc Əliyeva***. Kamran Əliyev: şəxsiyyəti və bədii nəsri ........318
***Şəbnəm Məmmədova.*** Kamran Əliyevin folklor və yazılı ədəbiyyat orbiti.......................................................... 328
***Tahir Nəsib***. Kamran Əliyev şəxsiyyətinin epik ənənə kontekstində dəyərləndirilməsi............................................ 335

***Tahir Orucov***. Kamran Əliyevin yaradıcılığında romantizm və epos məsələləri ............................................ 342
***Tahirə Məmməd***. Romantiklərin Kamran Əliyevin qələmi ilə çözülən "gizli sözü" .......................................... 367
***Vüsal Səfiyeva***. Professor Kamran Əliyev tədqiqatlarında Hüseyn Cavid və folklor mövzusu............... 375

**XATİRƏLƏR**

***Adil Cəmil***. Bitməyən ömrün mənəvi davamı Əməkdar Elm Xadimi Kamran Əliyevi xatırlayarkən.......... 384
***Fidan Qasımova***. İnsanın bir özü, bir sözü.......................... 390
***İbrahim Yusifoğlu***. Araz qırağından Xəzər dənizinədək yaşanan ömür .................................................. 398
***Maarif Xalıqov***. Səmimi qonşu, xeyirxah məsləhətçi ...............406
***Müseyib Yunusov***. Qırmızı xətt ........................................ 412
***Rafiq Yusifoğlu***. Təskinlik düşüncələri ............................... 416
***Şakir Albalıyev***. Cismani ömrün sonu – mənəvi dünyanın başlanğıcı .......................................................... 421
***Tamilla Abbashanlı-Aliyeva***. Meçhule giden geminin yolcusu ............................................................... 424

**XATİRƏ ŞƏKİLLƏRİ** .................................................. 429

**“Kamran Əliyev:**
**tanınmış ədəbiyyatşünas, unudulmaz insan”**
Bakı, Elm və təhsil, 2023.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Gülnar Osmanova**

Korrektor:
**Fil.ü.f.d. Gülnar Osmanova**

Kompüterdə yığdı:
**Aysel Cəfərova**
**Nigar İmaməliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 448 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.